RAYA MURSAQULOVA
NAZİMƏ RÜSTƏMOVA

# MƏKTƏBƏQƏDƏR PEDAQOGİKA

BAKI-2012

RAYA MURSAQULOVA,
NAZİMƏ RÜSTƏMOVA

# MƏKTƏBƏQƏDƏR PEDAQOGİKA

*(Dərslik)*

*Azərbaycan Respublikası Təhsil Nazirliyi EMŞ-nın "Pedaqogika və psixologiya" bölməsinin 18.05.2012-ci il tarixli iclasının qərarına əsasən çap edilir (pr№6).*

BAKI-2012

M-84

**Elmi redaktor:** Ə. Paşayev
ADPU-nun Ümumi pedaqogika kafedrasının professoru, pedaqoji elmlər doktoru

**Rəyçilər:** K. Məmmədov
Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasının professoru, pedaqoji elmlər doktoru

Ə. T. Baxşəliyev.
ADPU - nun Yaş və pedaqoji psixalogiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor

Y. T. Rzayeva
ADPU- nun İbtidai təhsil pedaqogikası kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

A. İ. Eminov
Bakı Pedaqoji Kadırların İxtisasartırma və yenidən hazırlanma İnstitutunun dosenti

330632

R.N.Mursaqulova, N.M.Rüstəmova. Məktəbəqədər pedaqogika. (Dərslik). Bakı-2012. ADPU nəşriyyatı. 432 səh

ADPU
Əsaslı kitabxana

# *GİRİŞ*

Respublikada aparılan təhsil islahatları təhsil sisteminin inteqrasiyaya doğru getdiyi şəraitdə çox mühüm vəzifələr yerinə yetirməyi tələb edir. Bu vəzifələr ölkəmizin siyasi və sosial həyatında baş verən yeniliklərdən irəli gəlir. Fiziki sağlamlığa, yüksək əxlaqa və intellektual düşüncəyə yiyələnmiş gənclərin hazırlanması təhsilin bütün sahələrində məqsədyönlü və sistemlə həyata keçirilir.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi və təhsilinə, onun qanunauyğunluqlarına, elmi, fəlsəfi və metodik işlərin məzmununa yeni tələblər baxımından yanaşılmalıdır. Bu baxımdan "Məktəbəqədər pedaqogika" dərsliyinin işlənməsinə böyük ehtiyac duyulmuşdur. Ali məktəblərin məktəbəqədər sahə üzrə kadr hazırlanmasında "Məktəbəqədər pedaqogika" əsas rol oynaya bilər. Dərslikdə ali və orta ixtisas məktəblərində təhsil alan gələcək mütəxəssislərə məktəbəqədər təhsil müəssisələrinə dövlət qayğısı, təhsil qanununun tələblərinə müvafiq nəzəri – praktik məsələlər şərh olunmuşdur. Dərslik məktəbəqədər pedaqogika problemlərinin həlli keyfiyyətli mütəxəssis hazırlığına yaxından köməklik edəcəkdir. Dərslikdə məktəbəqədər təhsilin məzmununda, metodlarında, işin təşkili formalarında bir sıra dəyişikliklər nəzərə alınmışdır. Amirlik, uşaq hüququnun pozulması kimi hallar geridə qalmışdır. Təqdim olunan dərslikdə əvvəllər mövcud olan dərsliklərin səmərəli cəhətləri əvəz edilmiş, daha aktual məsələlər əldə rəhbər tutulmuşdur. Dərslik ali məktəbin "Məktəbəqədər pedaqogika" proqramına uyğun hazırlanmışdır.

Dərslikdə dünya pedaqoqlarının fikirlərində müasir dövrdə Respublikada məktəbəqədər tərbiyə sahəsində iş aparan tədqiqatçıların əsərlərindən, həmçinin əvvəlki illərdə rus dilində və azərbaycan dilində olan dərsliklərdən istifadə olunmuşdur.

Dərslik XVII fəsildən ibarətdir. Tənqidi qeydlərini, təkliflərini bildirənlərə əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

***MÜƏLLİFLƏR***

# I FƏSİL

## MƏKTƏBƏQƏDƏR PEDAQOGİKANIN ÜMUMİ MƏSƏLƏLƏRİ

**Məktəbəqədər pedaqogikanın predmeti.** Məktəbəqədər pedaqogika pedaqoji elmlər sistemində xüsusi yeri olan bir elmdir. Məktəbəqədər pedaqogikanın özünün məqsədi, vəzifəsi, metodları, mənbələri, anlayışları, qanunauyğunluqları və funksiyaları vardır.

Məktəbəqədər tərbiyənin tarixi antik dövrə təsadüf edir. İlk dəfə Platon uşaqların ictimai müəssisələrdə tərbiyə olunmasını irəli sürmüşdür. Uşaqları meşəyə, məbədlərə gəzintiyə aparmağı zəruri saymış, uşaq oyunları üçün meydançaların olmasını lazım bilmişdir. Lakin məktəbəqədər yaşlı uşaqların ilk təlim – tərbiyə proqramını hazırlayan böyük çex pedaqoqu Y.A.Komenski olmuşdur.

Y.A.Komenskinin "Ana məktəbi" ("Материнская школа") əsəri məktəbə-qədər tərbiyənin ilk proqramıdır və o öz əhəmiyyətini indi də saxlanmaqdadır.

Məktəbəqədər pedaqogikanın məqsədi anadan olandan altı yaşa kimi uşaqların ayrı-ayrı yaş dövrlərindəki inkişaf xüsusiyyətlərini öyrənmək, onların təlim-tərbiyəsi prosesinin vəzifələrini, məzmununu, texnologiyasını müəyyən etməkdir. Məktəbəqədər pedaqogikanın predmetini altı yaşa kimi olan uşaqların ümumi və fərdi psixoloji xüsusiyyətlərini öyrənmək təşkil edir.

Məktəbəqədər pedaqogikanın vəzifələri aşağıdakılardır:

- Altı yaşadək uşaqların inkişafı və tərbiyəsinin xüsusiyyətlərini öyrənmək;
- Məktəbəqədər yaşlı uşaqların sosial – inkişaf və tərbiyəsinə müasir yanaşmaları tədqiq etmək;
- Uşaqların təlim-tərbiyəsinin cəmiyyətin müasir tələblərinə uyğunluğunu müəyyənləşdirmək;
- Məktəbəqədər yaşlı uşaqların milli adət və ənənələrə yiyələnməsi yollarını müəyyənləşdirmək;

- Uşaqların tərbiyəsi və təlimində fəal təlim metodlarından və yeni texnologiyalardan istifadə edilməsinin forma və metodlarını işləyib hazırlamaq;

**Məktəbəqədər pedaqogikanın funksiyaları:**

- Azərbaycan Respublikasının Təhsil haqqında qanunun qarşıya qoyduğu tələblərə uyğun olaraq məktəbəqədər yaşlı uşaqlara təhsil prosesinin perspektivlərini öyrətmək;
- Məktəbəqədər tərbiyə müəssisələrində təlim - tərbiyə proqramına müvafiq olaraq uşaqları tərbiyə etmək;
- Məktəbəqədər təhsilin təkmilləşdirilməsi, yeniləşdirilməsi və moderləşdirilməsi yollarını öyrənmək;
- Məktəbəqədər tərbiyə müəssisələrində təhsil proqramının elmi proqnozlar vasitəsilə təkmilləşdirilməsi, yeniləşdirilməsi və modernləşdirilməsi;
- Yeni, yaradıcı elmi-tədqiqatların proqnozları əsasında konstruktiv texnologiyanın layihəsinin hazırlanması.

Məktəbəqədər pedaqogikanın funksiyalarının reallaşması üçün elmi - tədqiqat metodlarından istifadə olunur.

**Əsas pedaqoji anlayışlar.**Hər bir elmin özünəməxsus anlayışları, qanunauyğunluqları, prinsipləri mövcuddur. Məktəbəqədər pedaqogika, məktəbəqədər yaşlı uşaqların təhsili və tərbiyəsi haqqında elm olduğundan onun əsas anlayışı inkişafı, təlim - tərbiyə və təhsildir. Müasir dövrdə tərbiyə 3 mənada işlədilir.

1. Geniş sosial mənada
2. Geniş pedaqoji mənada.
3. Dar mənada.

Geniş sosial mənada tərbiyə məktəbəqədər yaşlı uşaqların sosial həyatının bütün sahələrinə, onun şəxsiyyətinə, sosial mühitin təsirini əhatə edir.

Geniş pedaqoji mənada tərbiyə məktəbəqədər müəssisələrdə həyata keçirilən bütün təhsil və tərbiyə işini əhatə edən mütəşəkkil və məqsədəyönlü tərbiyə prosesini nəzərdə tutur.

Dar mənada tərbiyə uşaq şəxsiyyətinin hər hansı bir xarakter əlamətinin, mənəvi keyfiyyətinin, əqidəsinin formalaşmasına

təsir göstərən xüsusi bir fəaliyyətdir. Məsələn, uşağın " vətənpərvərlik", "humanizm", " mərhəmətlilik" tərbiyəsi fəaliyyətilə məşğul olmaq.

Göründüyü kimi tərbiyə sosial hadisə olaraq uşaqları həyata hazırlamağı pedaqoji mənada uşaqların inkişafı üçün xüsusi təşkil olunmuş şəraitin yaratmağı nəzərdə tutur.

İnkişaf – uşaqlarda müəyyən kəmiyyət və keyfiyyət dəyişikliyidir. Bu müxtəlif faktorlar və tərbiyənin nəticəsində baş verir. Məktəbəqədər dövrü xarakterizə edərkən yaş dövrləri, inkişaf xüsusiyyətləri, qanun və qanunauyğunluqlar (həm bioloji, həm də psixoloji) nəzərdə tutulur.

Təlim xüsusi təşkil olunmuş pedaqoji prosesdir. Burda tərbiyəçi ilə uşağın qarşılıqlı məqsədyönlü fəaliyyəti nəzərdə tutulur. Uşaqlar tərbiyəçinin rəhbərliyi altında yeni informasiyalar almaqla bilik, bacarıq və vərdişlərə yiyələnirlər. Təlim təhsil alma vasitəsidir.

Təlim prosesində uşaqlar bilik, bacarıq, vərdişlərlə silahlanmaqla yanaşı tərbiyəçinin rəhbərliyi altında digər fəaliyyət növlərinə də yiyələnirlər. Təlim əsasən sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərə yiyələnmək prosesidir.

Müasir dövrdə məktəbəqədər yaşlı uşaqların dünyagörüşlərini genişləndirməkdə radio, televiziya verilişləri, kompyüterlər və digər müxtəlif informasiya vasitələri müəyyən rol oynayır.

**Məktəbəqədər pedaqogikanın mənbələri.**Məktəbəqədər pedaqogikanın mənbələrindən biri məktəbəqədər tərbiyə müəssisələrinin inkişafı və fəaliyyəti haqqında dövlətin qərar və göstərişləridir. Hazırkı demokratiya və müstəqillik şəraitində vaxtilə xalq maarifinə aid dövlət sənədlərinə tənqidi yanaşmaqla Azərbaycan Respublikasının Konstitutsiyasında məktəbəqədər tərbiyə haqqındakı maddələrdən, dövlət qanunvericiliyinin əsaslarından bir sənəd kimi istifadə olunur. Məktəbəqədər pedaqogikanın mənbələrindən biri də xalq pedaqogikasıdır. Uşaqların inkişafı və tərbiyəsi haqqında xalq pedaqogikasında o qədər zəngin material var ki, onu heç bir şeylə əvəz etmək olmaz. Xalq pedaqogikasın-

da uşaq hələ anadan olmamışdan onun qayğısı və tərbiyəsi haqda faydalı fikirlər vardır.

Azərbaycan maarifçilərinin və mütərəqqi fikirli pedaqoqların məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə dair fikirləri məktəbəqədər pedaqogika elminin mənbələrindəndir.

Mənbələrdən biri də dini mənbələrdir. Din insan tərbiyəsində müəyyən rol oynayır. "Qurani-Kərimdə" ailə qurmaq, qadın hüququ, ailədə qadının mövqeyi uşaqların tərbiyəsi, qızlara münasibət və s. məsələlər öz əksini tapmışdır. O cümlədən Məhəmməd Peyğəmbərin hədislərində elm və alimlər haqqında kifayət qədər materiallar vardır.

Xarici və milli pedaqogika tarixi, pedaqoji təcrübə, sənədlərin öyrənilməsi, ayrı – ayrı fənlərin metodikası da mənbələrə daxildir.

**Məktəbəqədər pedaqogikanın metodoloji əsasları.** Məktəbəqədər pedaqogika fəlsəfənin ümumi müddəalarına əsaslanır. Məktəbəqədər pedaqogika dialetktikanı əldə rəhbər tutmaqla pedaqoji hadisələri digər hadisələrlə qarşılıqlı əlaqədə konkret iş təcrübəsilə vəhdətdə şərh edir.

Dialektika bütün hadisələri inkişafda götürür. Həyatda da hər şey dəyişir, keçmiş öz yerini yeniyə verir. Tərbiyə, onun məzmunu və metodları da daim inkişaf edir və təkmilləşir.

Məktəbəqədər yaşlı uşaqların inkişafının reallaşmasının, bütövlükdə pedaqoji sistemin effektliyinə nail olmağın əsasında müasir fəlsəfənin işıqlandırdığı bir sıra məsələləri (akseoloji (tazləşdirmə), sistemli, yaradıcı fəaliyyət, şəxsiyyət, kulturoloji və sinergetik yanaşma ) və s. öz işində rəhbər tutur. Aksioloji yanaşma – insanın özünü inkişafda və tərbiyədə, təhsildə əldə edilmiş qiymətli nə varsa, onun həcmini təyin etməyə, dəyərləndirməyə imkan verir.

Kommunikativ(əlaqəli)yanaşma indiki şəraitdə uşaqların tərbiyəsində - oyununda, əməyində, əhval-ruhiyyəsində ünsiyyət qurmasında, fiziki sağlamlığında, mədəni davranış və şüurun inkişafında çox əhəmiyyətlidir.

Sistemli yanaşma dedikdə, uşağın təlim və tərbiyəsini, onun qarşıya qoyduğu vəzifəni, işin məzmununu, metodunu, şəraitin təşkili formasını istiqamətləndirmək nəzərdə tutur. Sistemli yanaşma imkan verir ki, təhsildə toplanmış qiymətli nə varsa, onun həcmi müəyyən edilsin. Bura uşağın sağlamlığı, mədəniyyəti, dərketmə qabiliyyəti daxildir.

Kulturoloji yanasma - insanın yerini, şəraitini, vaxtını müəyyən edir. İnsanın doğulduğu gündən, yaşadığı ölkənin, şəhərin, bölgənin tarixi keçmişini və xalqın etnik qiymətli nəyi varsa ona bələd olsun. Daimi yaşadığı yerin adət bə ənənəsini öyrənsin.

Fəaliyyətə yaradıcı yanaşma aparıcının müəyyənləşdirilməsi əsas fəaliyyətdə yanaşma uşağın müxtəlif tələblərini ödəmək imkanın yaradılması, özünü fəal yaradıcı bir subyekt kimi göstərməsi nəzərdə tutulur. Uşağın inkişafında başlıca yeri oyun tutur. Oyunun yaradıcı xarakteri, təşkili, cəlbedici emosionallığı müstəqil yaradıcı fəaliyyətə imkan verir ki, onlara rəhbərlik edən tərbiyəçi hər uşağın nəyə qadir olduğunu, fəallığını, yaradıcılıq qabiliyyətini üzə çıxarsın.

Şəxsi yanasma – uşaqlarda müsahibə qabiliyyətini inkişaf etdirmək, onu maraqlandırmaq, onun meylini öyrənmək məktəbəqədər dövr üçün çox əhəmiyyətlidir. Şəxsiyyət düzgün təşkil olunmuş, məzmunlu pedaqoji şəraitdə formalaşır. Buna görə də şəxsiyyət fəaliyyətdə müəyyən edilir.

Sinergetik (bi istiqamətə hərəkət) yanaşma – imkan verir ki, təhsil prosesində iştirak edən (tərbiyəçi, uşaq, valideyn) hər bir şəxs özünü inkişafın subyekti kimi göstərsin. Hər bir subyekt müəyyən gücə malikdir. O, ümumi inkişafda özünü inkişaf etdirməyə, oradan da özünü təkmilləşdirməyə keçir.

**Məktəbəqədər pedaqogikanın tədqiqat metodları.**Məktəbəqədər pedaqogika digər elmlər kimi tədqiqatlar nəticəsində inkişaf edib, yeni –yeni müddəalarla zənginləşir.

Pedaqoji tədqiqatlar təlim – tərbiyə işini zənginləşdirmək, Inkişafın qanun və qanunauyğunluq əlaqələrini aşkar etmək məqsədi daşıyan planlı şəkildə aparılan elmi axtarışlardır. Tədqiqatın metodologiyası dedikdə tədqiqatlar zamanı metodların və

nəzəri müddəaların tətbiq olunan prinsiplərin məcmusu başa düşülür. Məktəbəqədər pedaqogikada pedaqoji məsələlərin öyrənilməsində dialektik yanaşma prinsipi əsas götürülür. Bundan əlavə bəzi xüsusi metodoloji prinsirlərə (fəallıq prinsipi, sistemli yanaşma və s.) əsaslanır .

Tədqiqatda fəaliyyət prinsirinə əsasən fəaliyyətin bütövlükdə öyrənilməsi, onun ayrı – ayrı növlərinin vəhdətdə götürülməsi nəzərdə tutulur.

Pedaqoji tədqiqatlarda **şəxsiyyətə** yanaşma prinsipi şəxsiyyətin pedaqoji prosesin obyekti və subyekti kimi götürülməsini, onun təbii imkanlarının maksimum inkişafını, kollektiv və şəxsiyyətin qarşılıqlı əlaqəsini, təlim – tərbiyə işində şəxsiyyətin tələbatı, maraq və daxili fəallığını nəzərdə tutur.

Pedaqoji tədqiqatda **sistemli yanaşma** prinsipi məsələlərin həllinin, forma və metodlarının qarşılıqlı vəhdətini tam halda nəzərdən keçirməyi tələb edir.

Tədqiqatda qarşıda duran vəzifələri yerinə yetirməkdə metodlardan istifadfə edilir.

**Metodlar** – imkan verir ki, bilikləri əldə etmək üçün təlim - tərbiyə prosesində şüurlu və məqsədyönlü iş aparılsın, müxtəlif fəaliyyət növləri təşkil edilsin, onlar ümumiləşdirilsin və müstəqil elmi – tədqiqat işi aparılsın.

Metodların genişliyini nəzərə alaraq onları aşağıdakı kimi qruplaşdırmaq olar.

a) Emprik metodlar (elmi məlumatların toplanması, fakt və hadisələrin təsviri)

b) Nəzəri metodlar (nəzəriyyəni öyrənməyin qoyuluşu və moderləşdirilməsinin yolları).

Müqayisəli - tarixi metod müxtəlif tarixi dövrlərdə dünya təcrübəsində ayrı – ayrı təhsil, tərbiyə və təlim sistemlərini müqayisəli şəkildə öyrənməyə, bu əsasda məktəbəqədər təhsil - tərbiyə sisteminin təkmilləşdirilməsi yollarını müəyyənləşdirməyə şərait yaradır.

Məktəbəqədər pedaqoji tədqiqatlarda emprik – nəzəri metodlar əlaqəli şəkildə tətbiq olunur. Belə metodlara eksperiment

müşahidə, təhlil və tərkib, induktiv və deduktiv riyazi – statistik metodları daxildir.

Sosioloji metodlar: məktəbəqədər pedaqogikanın sosial məsələlərinin (təlim- tərbiyə işinə ailə və mühitin təsiri, kollektiv və fərdi münasibətləri və s.) həllində istifadə olunur. Sosioloji metodlara kütləvi sorğular daxildir.

Pedaqoji tədqiqatda nəzərdən keçirilən metodların kompleks tətbiqi tədqiqatın uğurlu və obyektiv olmasını təmin edən əsas şərtdir.

Elmi- pedaqoji tədqiqatın mərhələləri:

- Problemin dəqiqləşdirilməsi;
- Eksperimentin təşkili;
- Emprik materialın toplanılması və təhlili;
- Nəticələrin ümumiləşdirilməsi;
- Nəticələrin praktikaya tətbiqi.

Tədqiqat metodları aşağıdakılardır:

Pedaqoji müsahidə - təlim - tərbiyə prosesini müşahidə edib material toplamaq məqsədilə aparılır. Müşahidə zamanı tədqiqatçı nəyi və hansı məqsədlə izlədiyini dəqiq şəkildə müəyyənləşdirir. Bu zaman tədqiqatçı obyektə heç bir təsir göstərmədən qeydlər aparır. Nəticədə müvafiq faktlar toplanır, təhlillər əsasında nəticə çıxarılır.

Bu yolla məşğələlərin quruluşunun, onun tiplərinin, uşaq şəxsiyyətinin inkişafının səmərəli modelini yaratmaq imkanı əldə edilir.

Pedaqoji müsahibə - sual-cavab metodudur. Müəyyən pedaqoji hadisələrin mahiyyətini, baş vermə səbəbini öyrənmək məqsədilə aparılır. Suallara cavablar qeyd olunur və təhlil edilir.

Anket sorğusu – hər hansı pedaqoji məsələlərində tərbiyəçi, uşaq və valideynin rəyini öyrənmək, bu və ya digər pedaqoji hadisənin tipikliyini müəyyən etmək məqsədilə aparılan yazılı sorğudur. Bu sorğuda əsas şərt sualları düzgün seçmək və verməkdir. Anket sorğusu açıq və gizli aparıla bilər.

Pedaqoji sənədləri və fəaliyyət məhsullarının öyrənilməsi metodu – zəruri faktları toplamağa xidmət edir. Bu metod vasi-

təsilə uşaq bağçasının pedaqoji şurasının protokolları, müəssisə müdirinin, metodist və tərbiyəçilər iş planları, hesabatları və s. habelə uşağın fəaliyyətinin (rəsm, gil işi, əmək işləri, digər yaradıcılıq məhsulları) öyrənirlər.

Pedaqoji eksperiment müəyyən fərziyyəni yoxlamaq metodudur. Pedaqoji eksperiment məqsədinə görə müəyyənləşdirici, öyrədici və yoxlayıcı kimi növlərə ayrılır.

Eksperimentin təşkili üçün iki paralel qrup götürülür. Bunlardan birində iş yeni qaydada aparılır, digərində isə ənənəvi qaydada aparılır.

Müəyyən müddətdən sonra hər iki qrupda nəticələr yoxlanılır. Eksperiment yaxşı nəticələr verirsə onu genişləndirmək olar.

Nəzəri tədqiqat metodları ümumiləşmələrin aparılmasıdır.Bura təhlil və tərkib, induksiya və deduksiya, modelləşdirmə, müqayisəli – tarixi təhlil metodları daxildir. Bu metodlar vasitəsilə müxtəlif mənbələrdən toplanılan materiallar üzərində təhlil və ümumiləşmələr aparılır, nəticələr çıxarılır.

Bu metodlarla əsasən pedaqoji anlayışların mahiyyətinin öyrənilməsi, məktəbəqədər pedaqogikanın köklü problemləri, o cümlədən pedaqoji qanunauyğunluqları, prinsipləri, uşaq şəxsiyyətinin formalaşması amilləri öyrənilir.

Pedaqoji tədqiqat əsasən üç mərhələdə aparılır.

I. Hazırlıq mərhələsi: Bu mərhələdə iş aşağıdakı ardıcıllıqla aparılır:

tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri müəyyənləşdirilir.

Tədqiqatın ilkin nəzəri zəmini: - konsepsiyanın hazırlanmasıdır. Yəni problemin tədqiqi vəzifələrini müəyyən etmək, vəziyyəti dəyişdirmək yolları mülahizə - fərziyyə irəli sürmək, tədqiqatın planı, metodları və metodikasını hazırlamaq.

II. İcra mərhələsi: müəyyənləşdirilmiş plan üzrə eksperimentlər təşkil edilir, müntəzəm müşahidələr aparılır. Faktlar toplanılır, təhlillər aparılır, nəticələr çıxarılır və ümumiləşmələr aparılır.

III.Yekun mərhələsində yeni qanunauyğunluqlar müəyyən edilir. Tövsiyyələr işlənib hazırlanır, tətbiqi məsləhət görülür və tədqiqatın müvəffəqiyyəti onun metodlarının düzgün seçilməsi texnologiyasının təşkili ilə müəyyən edilıir.

**Məktəbəqədər pedaqogikanın başqa elmlərlə əlaqəsi.** Bütün elmlər qarşısında duran vəzifələri yerinə yetirmək üçün ona yaxın olan, onunla bağlı olan elmlərdən bəhrələnir.

Məktəbəqədər pedaqogika aşağıdakı bir sıra elmlərlə əlaqədardır. Fəlsəfə, sosiologiya, psixologiya, anatomiya və fiziologiya, gigiyena, incəsənət, məktəbəqədər pedaqogikanın tarixi və xüsusi metodikalar.

Fəlsəfə təbiət və cəmiyyətin ümumi inkişaf qanunlarını öyrənir. Məktəbəqədər pedaqogika fəlsəfi həqiqətlərə əsaslanmaqla öz problemlərini həll edir.

Məktəbəqədər pedaqogika sosiologiyanın materiallarından yaradıcı istifadə edir. Sosiologiya cəmiyyət haqqında elmdir. Uşaqların inkişaf və tərbiyəsi sosial mühitlə bağlıdır.

Etika əxlaq haqqında elmdir. O, əxlaqın və mənəvi tərbiyənin nəzəri əsaslarını öyrənir. Uşaqların əxlaq tərbiyəsinin nəzəri və tətbiqi məsələlərinin işlənilməsində məktəbəqədər pedaqogika etikadan istifadə edir.

Estetika gözəllik incənət və bədii yaradıcılıq haqqında, dünyanın estetik qavranılması haqqında elmdir.

Məktəbəqədər pedaqogika uşaq psixologiyası ilə də əlaqədardır. Hələ XIX əsrdə K.D.Uşinski psixologiyanın pedaqogika üçün nə qədər böyük əhəmiyyəti olduğunu “İnsan tərbiyənin predmeti kimi” əsərində vermişdir. Həmin əsərdə pedaqoqdan təlim və tərbiyə işində uşaq psixologiyasını öyrənməyi tələb edir. O, haqlı olaraq göstərirdi ki, uşaqları düzgün tərbiyə etmək üçün onların psixikasına əsaslanmaq lazımdır.

Pedaqoji–psixologiya müxtəlif yaş dövrlərində uşaqların psixi fəaliyyətinin inkişafını öyrənir.Uşaqların psixi proseslərini və fərdi xüsusuyyətlərini bilmədən təlim-tərbiyə işlərini lazımi səviyyədə qurmaq mümükün deyildir.

Orqanizmin ayrı – ayrı orqanlarını və onların funksiyasını, uşağın inkişafının anatomik – fizioloji xüsusiyyətlərini nəzərə almadan tərbiyə işində müvəffəqiyyət qazanmaq olmaz. Anatomiya uşaq orqanizminin quruluşunu isə insanın ayrı – ayrı orqanlarının funksiyalarını öyrənir. Fiziologiya tərbiyə və təhsil proseslərinin təşkili və aparılması üçün əlverişli şərait yaradır. Məktəbəqədər pedaqogika həmin məlumata istinad etməklə uşaqların fiziki və fizioloji cəhətdən inkişaf yollarını müəyyən edir. İ.P.Pavlovun ali əsəb fəaliyyəti, birinci və ikinci siqnal sisteminin qarşılıqlı əlaqəsi haqqında nəzəriyyəsində təlim - tərbiyə işində rejimin rolu, adət və vərdişlərin fizioloji mexanizmi haqqında ətraflı məlumat verir.

Daxili üzvlərin fəaliyyət dinamikasını, əsəb sisteminin fəaliyyətində ürək və qan dövranının fəaliyyətinin xüsusiyyətini nəzərə almadan uşaqlara tərbiyəvi təsir göstərmək çətin olur.

İnkişaf edən uşaq orqanizmində keyfiyyət və kəmiyyət dəyişikliklər baş verir. Odur ki, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesi elmi əsaslara uyğun təşkil etmək lazımdır. Bu işdə gigiyena elminin də mühüm əhəmiyyəti vardır. Buraya uşaqların yeməyi, geyinməyi, rejimi, yuxusu, hərəkəti, gəzinti və məşğələlərə verilən elmi – gigiyenik tələblərə əməl olunması, onların səhhətinin qorunması və möhkəmlənməsi daxildir.

**Məktəbəqədər pedaqogikada diferensasiya prosesi.** Məktəbəqədər pedaqogika tarixi ayrı – ayrı dövrlərdə məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsi ilə bağlı olan məsələləri öyrənir. Məktəbəqədər pedaqogika diferensasiya prosesi baş verməsi nəticəsində onun bir neçə sahəsi meydana gəlmişdir. Onlar aşağıdakılardır:

Körpəlik pedaqogikası ;

Məktəbəqədər pedaqogika ;

Məktəbəqədər pedaqogikanın tarixi;

Əlahiddə pedaqogika : surdo (lal – kar), tiflo (kar), oliqofrenlər (ağıldan kəm), loqopediya (pəltək) və xüsusi metodikalar.

Körpəlik pedaqogikası körpə uşaqların fiziopsixoloji inkişaf xüsusiyyətlərinə əsaslanaraq onların tərbiyəsi ilə məşğul olur.

Məktəbəqədər pedaqogika tarixi müxtəlif tarixi dövrlərdə məktəb yaşına çatmamış uşaqların tərbiyəsinin mahiyyətini və bununla əlaqədar klassik pedaqoqların nəzəriyyələrini öyrənir.

## II FƏSİL

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN İNKİŞAFI VƏ TƏRBİYƏSİ

**İnkişaf anlayışı.**İnkişaf təbiət və cəmiyyətdə baş verir, özü də tərəqqi ilə səciyyələnir. İnkişaf dedikdə fiziki, psixi və sosial inkişaf nəzərdə tutulur. İnkişaf uşaqlarda anadan olduğu gündən əmələ gələn kəmiyyət və keyfiyyət dəyişiklikləridir.

Fiziki inkişaf dedikdə boy, çəki, əzələlərin bərkiməsi, hiss orqanlarının təkmilləşməsi, hərəkətin tənzimlənməsi və s. başa düşülür.

Psixi inkişafa uşağın idrak prosesi, duyğuları, qavrayış və təsəvvürü, hafizə və təxəyyülü, diqqəti, nitq və təfəkkürü, hisslərin, iradənin təşəkkülü və inkişafı tapması daxildir.

Uşağın sosial inkişafı ailədən, uşaq bağçasından başlayır. Onun cəmiyyət həyatına daxil olması ilə sosiallaşma intensivləşir. O, davranışında, ətrafdakılara münasibətində, kollektiv daxilində fəaliyyətində sosial təcrübəyə yiyələnir

İnkişaf prosesindəsində bioloji fərd olan uşaq şəxsiyyətə çevrilir, cəmiyyətin fəal üzvü olur. Uşağın inkişafı sadəcə kəmiyyət dəyişikliyi deyil. İnkişaf hər şeydən əvvəl psixi həyat hadisələrinin təsiri altında orqanizmdə yaranan keyfiyyət dəyişikliyidir. Fəaliyyət zamanı xarici təsir ilə daxili maneyəyə əsasən bir-birinin əksinıə olur. Uşağın istəyi ilə ona mane olmaq imkanı arasında ziddiyyət yaranır. Həmin ziddiyyət hərəkətetdirici qüvvəyə çevrilir. Bu inkişafda sosial mühit və onu əhatə edən insanların təsiri həllediciddir. Uşağın inkişafı anadangəlmə imkanların ictimai mühitdə dəyişməsidir. Tərbiyə isə bu inkişafı həm sürətləndirər, həm də ləngidə bilər. Uşağın inkişafında üç amil – ünsiyyət, mühit və tərbiyə əsas götürülür.

**Məktəbəqədər yaşlı uşaqların inkişafında irsiyyətin rolu.** İrsiyyət məsələsi çox qədim dövrlərdən təlim - tərbiyə sistemində özünə yer almışdı. Şifahi xalq yaradıcılığında: nağıllarda, dastanlarda irsiyyət ön plana çəkmişdir. "Ot kökü üstə bitər", "Qız anadan görməyincə öyüd almaz", "Zatı qırıqdı" kimi çoxlu atalar sözləri buna misaldır.

İlk dəfə olaraq pedaqoji aləmdə inkişafda irsiyyətin rolunu ingilis filosofu və pedaqoqu Con Lok "Ağ lövhə" nəzəriyyəsi ilə inkar etdi.

Rus tənqidçisi V.Q.Belinski Con Loka qarşı çıxaraq bildirir ki, insan beyni ağ lövhə deyil, insan dünyaya imkanlarla gəlir. Bu imkanlar sonradan inkişaf etməyə başlayır. "Cır meşə armudunu peyvənd etməklə yaxşı armud almaq olar, lakin palıd ağacında bu imkan yoxdur".

Alimlər sübut etmişlər ki, uşaq müəyyən irsi əlamətlərlə doğulur. Eybəcərlik, gözəllik, rəngi, səs, xəstəlik və s. uşağa irsən keçə bilər. Qabiliyyət isə təlim və tərbiyə prosesində yaranır. Hər bir adam fərddir. Fərdin özünün də xarakterik xüsusiyyəti var.

Məktəbəqədər tərbiyə sahəsində xüsusi xidməti olan rus pedaqoqu Y.İ.Vodo-vozov irsiyyət haqda yazırdı: "İnsan orqanizmi elədir ki, özündə olan bəzi şeyləri özündən sonra gələn nəslə ötürür". Fiziologiya, patologiya, psixologiya elmləri sübut etmişlər ki, insan irsən fiziki, əxlaqi, əqli xüsusiyyətlərini orqanizmin daxili və xarici quruluşunu, gözəllik və eybəcərlik, sağlamlıq və xəstəliyi, çəpgözlüyü, istedad və korazehinliyi gələcək nəslə ötürür. Məhşur bəstəkar Baxın nəslində 200 ildə 29 məşhur musiqiçi yetişmişdir. Bunların hamısı orqanist idilər. Burada mütləq genin təsiri özünü göstərir. Keylik, kobudluq, dad bilməmək, iy bilməmək də çox zaman irsən keçir.

Azərbaycan klassiklərinin də irsiyyətə öz münasibətləri olmuşdur.

Dahi Nizami "Zatı pis olana etibar edib, ona iş tapşırmağı, qurdu əhliləşdirməyə bənzədir".

Marağalı Əhvədi də irsiyyəti əsas götürür. Onun fikrincə gənclər ailə qurarkən həmin qızın nəslini, nəcabətini tanımalıdır. O yazır:

Sən nəsil törətmək fikrinə düşsən
İsmətsiz qadınla evlənmə dayan.
Övladın yaramaz ya oğru olar
Ağac pis olarsa, pis də bar olar.

Görkəmli yazıçı Məmməd Səid Ordubadi deyirdi ki, "ala qarğanın balasını aparıb cənnətdəki tovuz quşunun altına qoysan ondan qarğa çıxacaq, tovuz quşunun əziyyəti özünə qalacaq"

Xalq şairi Səməd Vurğun "Vaqif" pyesində Vaqifin Qacara məktubunda yazır: " Mayan turş ayrandır, zatın qırıqdır. Söyüd ağacında bar ola bilməz".

Aşıq yaradıcılığında deyilir:

Sir vermə nadana, sir vermə pisə
Axır gəlin ya inciyə, ya küsə
Ot kökü üstə bitər əsli nə isə
Yovşan bəsləməklə çəmənzar olmaz

Ən son elmi – pedaqoji ədəbiyyatda qeyd olunur ki, insanın inkişafında 70 – 80 %-i irsi (bioloji ) amil, 20 – 30%-i sosial mühit rol oynayır.

**Məktəbəqədər yaşlı uşaqların inkişafında mühitin rolu.** Uşaq cəmiyyətdə insanların əhatəsində inkişaf edir. Onun nitqinin, təfəkkürünün, təxəyyülünün, diqqətinin, hafizəsinin və digər psixi proseslərin formalaşmasında mühitin təsiri böyükdür. Mühit dedikdə təbii və ictimai mühit nəzərdə tutulur. Təbii mühit bütün canlılar üçündür.

Tarixdən məlumdur ki, təsadüfən heyvanlar arasına düşən uşaq fiziki cəhətdən inkişaf edir, əqli, şüuru, nitqi isə inkişafdan dayanır.

Amerikan alimi Laura Bricmen 2 yaşı olan kar, kor və hiss üzvlərindən məhrum olmuş uşaq üzərində eksperiment aparmış-



A D P U
Əsaslı kitabxana

dır. Uşaqda yalnız lamisə duyğusu olmuşdur. Alim ona yazmağı və oxumağı öyrətmişdir. Nəticədə həmin adam öz həyatını qələmə almış və 60 il yaşamışdır. Bu onu göstərir ki, insanın bir şəxsiyyət kimi formalaşmasında mühitin rolu böyükdür. İnsan ictimai mühitin məhsuludur. Uşaq şəxsiyyətinin formalaşmasında ailə mühitinin də rolu böyükdür. Ailə uşağın inkişafı üçün müəyyən məişət şəraiti, mədəni şərait, emosional təsir vasitələri yaradaraq ictimai və əxlaqi keyfiyyətlər tərbiyə edir. Mühit dəyişdikcə insanlar da dəyişir, yaşadığı cəmiyyətə uyğunlaşır.

Azərbaycanın görkəlmi mütəfəkkirlərindən olan Həsən bəy Zərdabi deyirdi ki, daşın üstündə də buğda bitər, amma o məhsul verməz.

Con Lokk deyirdi ki, Afrikada yaşayan insanların geridə qalmasının səbəbi onların ağılsızlığından yox, yaşadıqları şəraitdən asılıdır. Əgər bir zəncini gətirib İngiltərənin məhşur bir universitetinə qoysaq o, ən yaxşı mütəxəssis olar. Bir ingilis uşağını da aparıb o qəbilənin içərisinə buraxsaq uşaq onlar kimi olacaq.

İnsan şəxsiyyət kimi doğulmur. İnsanın fərdi inkişafı, onun şəxsiyyət kimi formalaşması ictimai həyat şəraitindən, ictimai münasibətlər sisitemindən, istehsal münasibətlərindən asılıdır. İnsan ictimai münasibətlərin məcmuudur. İnsan şəxsiyyəti əlverişli ictimai şəraitdə inkişaf edir. Təhsil- tərbiyə sayəsində insanda yeni-yeni keyfiyyətlər meydana gəlir.

**Məktəbəqədər yaşlı uşaqların inkişafı və təhsil - tərbiyəsi haqqında müasir pedaqoji nəzəriyyələr.** Pedaqoji nəzəriyyə pedaqoji hadisələrin təsvir olunmuş, aydınlaşdırılmış, dəqiqləşdirilmiş, ciddi çərçivəyə salınmış biliklər sistemidir. Onun quruluşunun elementlərini ideyalar, anlayışlar, qanunauyğunluqlar, prinsiplər, qaydalar, göstərişlər təşkil edir. Pedaqoji nəzəriyyələr həm qlobal, həm də xüsusi ola bilər. Bu, təhsildə və tərbiyədə baş verən real problemlərdən asılıdır.

Məktəbəqədər pedaqoji nəzəriyyə iki yerə ayrılır:

a) tərbiyə nəzəriyyəsi

b) təlim nəzəriyyəsi

Bir qrup nəzəriyyəçilər belə hesab edirdilər ki, uşağın inkişafı təlim və tərbiyədən asılı deyil. Bu nəzəriyyəni Z.Freyd, J.Piaje irəli sürmüşlər. Burda bir həqiqət var ki, uşaq təlim- tərbiyənin təsiri olmadan da fiziki cəhətdən inkişaf edə bilər. Lakin cəmiyyət üçün hazırlanan vətəndaşa təlim və tərbiyə zəruridir. Bir sözlə onlar öyrədici təlimi qəbul etmir, spontan öz – özünə inkişafa üstünlük verirdilər. Onlar uşaqların inkişafında yaşlıların rolunu nəzərə almırdılar.

İkinci qrup nəzəriyəçilər inkişafın təlimlə bağlı olduğunu qəbul edirdilər. Bu nəzəriyyənin tərəfdarları T.S.Kostyuk, N.A. Mençinskaya və başqalarıdır. Onlar təlim və tərbiyəni inkişafın bazası kimi qəbul edirlər. Konkret olaraq insanın xarakterini onun inkişaf səviyyəsi ilə əlaqələndirirlər. Praktikada təlim və inkişaf bir – biri ilə sıx bağlıdır, biri digərini tamamlayır.

Üşüncü qrup nəzəriyyəçilər hesab edir ki, yaşlılar uşağın inkişafını vaxtından əvvəl aparırlar. Halbuki, bu proses tərbiyə və təlimdən kənarda mümkün deyil. Uşağın inkişaf prosesi daxili zərurətdən, mədəni - tarixi inkişaf xüsusiyyətindən irəli gəlir. Bu ideya A.N.Leontyev, P.Y.Qalperin, D.B.Elkonin, A.V.Zaporoyes, L.A.Venqer tərəfindən müdafiə olunurdu. Burda aparıcı rol təlim və tərbiyəyə verilir. Uşağın inkişafı inkişafetdirici tərbiyə və təlimlə yaxşı təşkil olunmuş pedaqoji - psixoloji mühitlə bağlıdır.

İnkişafetdirici təlim nəzəriyyəsi tədris materialının sürətlə öyrənilməsini təkrarının maksimum səviyyədə aparılmasını tələb edir. Uşaqların tərbiyəsi prosesində uşaqlarla tərbiyəçi arasında qarşılıqlı münasibət mövcuddur. İnkişafetdici təlim uşağın yaradıcılıq qabiliyyətini formalaşdırır. Tərbiyəçi konstruktiv materiallardan, təşkil olunmuş oyunlardan, bədii oxudan istifadə edərək uşaqların sərbəst düşünmə qabiliyyətini inkişaf etdirir.

V.A.Suxomlinski yazırdı: Uşaqlar təbiətin qoynunda qoy sussun, onu dinləsin. Sonra onların diqqətlərini cəlb edən hər hansı bir hadisəni təsvir etsin. Bu, onların ilk inşası olacaq. Nağıl isə nitqin odunu alovlandıran təmiz küləkdir. ( V.A.Suxomlinski: "Ürəyimi uşaqlara verirəm" Bakı 1979, səh.34).

Məktəbəqədər yaş dövründə inkişafetdirici təlim priaritet yer tutur. İnkişafetdirici təlim uşaq şəxsiyyətini inkişaf etdirir və yaradıcılıq qabiliyyətini artırır. Zamanla ayaqlaşmaq, həyatdan geri qalmamaq üçün valideynlər və tərbiyəçilər çalışırlar ki, uşağın inkişaf tempini irəli aparsınlar. Valideynlər onları müxtəlif dərnəklərə apararkən (idman, rəsm, musiqi, dil öyrənmə və s.) onların yaş və inkişaf xüsusiyyətləri nəzərə alınmalıdır. Əks halda uşaq yorulur və həvəsdən düşür.

Çünki uşağın inkişafını süni surətdə toplanmış bilik, bacarıq və vərdişlərlə həddindən artıq yükləmək onları yorur.

Bilik, bacarıq, vərdiş uşaq şəxsiyyətinin hərtərəfli inkişafı üçün lazımdır. Burada uşağın marağına, onun inkişafına yüksək üstünlük verilməlidir. Müasir məktəbəqədər təhsil inkişafetdici təhsil adlanır. Məktəbəqədər pedaqogikanı isə inkişaf pedaqogikası adlandırmaq olar. Tərbiyə uşağın inkişaf etməsi üçün yaranan şəraitdir. Bu şəraiti yaradan yaşlılardır. Uşaq şəxsiyyəti bir subyekt kimi yaşlıların köməyinə möhtacdır.

Uşağın inkişafında, onun mənəvi və əqli cəhətdən zənginləşməsində yaş həddi ilə uşağın həvəsi bağlı olmalıdır. A. Zaporojets deyirdi ki, uşağın inkişafı uşaq fəaliyyətinin növlərindən asılıdır. Elə bunların sayəsində uşaq şəxsiyyətində yüksək keyfiyyətlər bazası yaranır. Yaradıcı fəallıqda məsuliyyətlilik, özünə inam, təşəbbüskarlıq, ətafdakılara inam və etibar tərbiyə olunur. Qazanılan bütün bacarıq və vərdişlər uşaq şəxsiyyətinin sonrakı inkişafı üçün vasitə rolunu oynayır.

Ünsiyyət böyüklərlə birgə fəaliyyət və əməkdaşlıq prosesində həyata keçirilir.

Pedaqoji nəzəriyyə tərbiyə işinin məzmununu ənənəvi olaraq fiziki, əqli, əxlaqi, əmək estetik və ekoloji tərbiyə adı altında müəyyənləşdirir. Bununla yanaşı mövzular tərbiyənin məzmununu cinsi, hüquqi, ekoloji, etno mədəni və s. mövzular hesabına genişlənir. Tərbiyə işində avtoritar, liberal və demokratiklik üslublara təsadüf edilir. Ən mütərəqqi üslub demokratik üslubdur. Şəxsiyyətin inkişafı haqqında olan nəzəriyyələrindən biri də

kognitik nəzəriyyədir. Bu nəzəriyyə birinci növbədə əqli tərbiyə, əqli inkişafa üstünlük verir.

J.Piaje əxlaq tərbiyəsində uşaqlara mənəvi muxtariyyət verlməsini irəli sürür. Çünki uşaqlar məsələyə böyüklərin nöqteyi – nəzərindən yanaşmırlar (egosentrizm ).

Psixoanalitik nəzəriyyənin tərəfdarları Z.Freyd, E.From, E.Erikson, E.Bern, A.Adler inkişafa motivlərin tələbatı kimi baxırlar. Onlar psixososial inkişafa cinslərin davranış, bacarıq və vərdişlərinin formalaşması kimi baxır, (uşaqların yaxın adamlara münasibəti) nəzərdə tutulur.

Bağlılıq nəzəriyyəsinin tərəfdarları olan Amerika və Avropa pedaqoq və psixoloqları sübut etməyə çalışırlar ki, uşağın anaya bağlılığında ananın hər cəhətdən uşağa təsiri böyükdür. Sosial mühitin adaptasiyasında, yaşıdlarına münasibətdəki müvəffəqiyyət də anaya bağlılıqla əlaqədardır.

Biheyvorizm nəzəriyyəçiləri A.Bandura, R.Siru, B.Skinner, Con, Dui, E.Torndayk şəxsiyyətin inkişafında bioloji meyllərə geniş yer verirlər. Onlar belə hesab edirlər ki, şəxsiyyətin bütün inkişafı, qavrayışı, şüuru irsiyyətlə bağlıdır. İnsanın inkişafı onun davranışı ilə bağlıdır. İnsan bütün ömrü boyu davranış qaydalarını öyrənir. O insan iradəsizdir ki, şəxsi fəallığı nəzərə almır.

Humanist nəzəriyyənin tərəfdarı K.Rocers, S.Büller, S.Fren qeyd edirdilər ki, şəxsiyyətin özünün inkişafı, fəallığı, varlığı müasir dövrdə uşaq hüquqları ilə bağlıdır.

BMT Baş Assambleyasının 20 noyabr 1989-cu ildə qəbul etdiyi uşaq hüquqları haqqında konvensiyada, Birləşmiş Millətlər Təşkilatının insan hüquqları haqqında bəyannaməsində və insan hüquqları haqqında beynəlxalq sənədlərdə irq, dərinin rəngi, cins, dil, din, siyasi əqidə yaxud digər əqidələr, milli və sosial mənşə əmlak vəziyyəti, yaxud başqa əlamətlərə fərq qoyulmadan uşaqların xüsusi qayğıya ehtiyacı olduğu bəyan edilir. Uşaq hüquqları Bəyannaməsində uşaqların hüququnun müdafiə olunmasının nəzərə alındığı göstərilir. Uşağın cəmiyyətdə müstəqil həyata hazırlaması BMT-nin Nizamnaməsində bəyan olunmuş ideyalar ruhunda - sülh, ləyaqət, dözümlülük, azadlıq, bərabərlik

və həmrəylik ruhunda tərbiyə edilməsini zəruri sayır. Uşaq hüquqlarına dair ilk sənədlər 1924-cü il tarixli Cenevrə Bəyannaməsi və 1959-cu il Baş Məclis tərəfindən qəbul edilmiş uşaq hüquqları haqqında nizamnamə olmuşdur.

Bu bəyannamələrdə uşaq hüququnun müdafiəsi mühüm yer tutur. Bunu nəzərə alaraq erkən yaşdan uşaqlara öz hüquqları haqqında məlumat vermək lazımdır.

**Fəaliyyət prosesində yaxınlaşma** - bu nəzəriyyəyə görə fəaliyyət prosesində yaxınlaşma uşaq şəxsiyyətinin formalaşmasına təsir göstərir. L.S.Vıqotski və D.B.Elkonin öz tədqiqatları ilə bu nəzəriyyəni inkişaf etdirmişlər.

Müasir pedaqoji nəzəriyyələr inteqrasiya prnsipi ilə reallaşır. Bu prinsipin reallığı ondadır ki, məktəbəqədər tərbiyənin hər hansı bir sahəsi ayrılıqda götürülüb öyrənilir. O cümlədən Azərbaycanın uşaq bağçalarında da bu prinsip geniş yayılmışdır. Azərbaycan xalqının milli mentalitetinə, adət - ənənəsinə, yerli şəraitə uyğun olaraq belə tədqiqat işləri aparılmış və aparılmaqdadır. Bu sahədə Ə.Əlizadənin, Y.İ.Kərimovun, B.Paşayevanın, N.Rüstəmovanın, R.Mursaqulovanın, Z.Vəliyevanın və başqalarının xidmətlərini göstərmək olar. Hal- hazırda məktəbəqədər tərbiyənin bir problemi eyni məqsəd üçün müxtəlif yollarla öyrənilir.

**İqtisadi təhsil və tərbiyə nəzəriyyəsi** - Bu nəzəriyyəyə görə müasir dövrdə uşaqlara iqtisadiyyat, qənaətçilik haqqında bilik vermək lazımdır. Bunun üçün uşaq oyunlarından geniş istifadə edilməlidir. Uşaqlara “bazar”, “yarmarka”, “dükan” və s. adlarda oyunlar keçirmək, mədaxil, məxaric, bank, birja kimi sözlər və onların mənası öyrədilməlidir.

İqtisadi tərbiyəyə əmək və əxlaq nöqteyi - nəzərindən baxmaq lazımdır.

Mənəvi - hüquq tərbiyəsi nəzəriyyəsini irəli sürən T.N.Doronova, N.Z.Gan, Z.K.Şnekendorf və başqa pedaqoqlar uşağa bir şəxsiyyət kimi hörmətlə yanaşmağı tələb edirdilər. Mənəvi hüquqi tərbiyə uşaq şəxsiyyətinə hörmət etmək və onun mənəviyyatını

qorumaqdır. Görkəmli pedaqoq A.S.Makarenko deyirdi ki, uşaq şəxsiyyətinə hörmət et və mümkün qədər çox tələbkar ol.

Mənəvi - hüquqi tərbiyədə uşağın bir şəxsiyyət kimi özünü qiymətləndirməsi, özünə inamı, davranışında əxlaqi motivlərə üstünlük verməsi nəzərdə tutulur. Öz hüquqlarını başa düşmək üçün onun psixi inkişafı əsas şərtdir. Psixi inkişaf imkan verir ki, uşaqda erkən yaşdan insan hüquqları haqqında təsəvvür yaransın.

Hüquq normaları, davranış normaları, qrup yoldaşları ilə qarşılıqlı münasibətdə, böyüklərlə münasibətdə özünü göstərir. Pedaqoji nəzəriyyə hüquq tərbiyəsinin üç mərhələsini müəyyən etmişdir.

**I mərhələ** - baza (özəl) rolunu oynayır. Burada davranış qaydaları haqqında əxlaqi söhbətlər, xüsusi təşkil olunmuş şərait, uşaqların çıxışları və s. nəzərdə tutulur.

**II mərhələ** - əsas hesab olunur. Burada əsas hüquq qaydaları ilə tanışlıq, istirahət, təhsil, sevgi – məhəbbət hüquqları nəzərdə tutulur.

**III mərhələ** - yekun mərhələsində uşaq hüquqları haqqında danışmaq nəzərdə tutulur.

Məktəbəqədər pedaqogikanın qarşısında duran ən aktual problem vətənpərvərlik və vətəndaşlıq tərbiyəsidir.

Vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi xəlqilik üzərində qurulur. Məktəbəqədər tərbiyənin qarşısında duran ən mühüm vəzifə vətənpərvərlik və vətəndaşlıq hisslərini uşaqlara aşılamaqdır. Bu sahədə ölkəmizin qabaqcıl ziyalılarının, pedaqoq-ların və tərbiyəçilərin zəhməti böyükdür. Vətənpərvərlik tərbiyəsində əvvəlcə əxlaqi təsəvvürlər formalaşdırılır. Sonra fəaliyyətin müxtəlif növlərinə aid biliklər verilir, muzeylərə, tarixi yerlərə gediş təşkil olunur və s.

Uşaqların hüquq və tərbiyəsi haqda həm Azərbaycan pedaqoqlarımın, həm də xarici ölkə pedaqoqlarınm mütərəqqi fikirləri vardır.

Vətənpərvərlik vətənə, torpağa məhəbbət deməkdir. Hal - hazırda uşaq bağçalarında, məktəblərdə vətənpərvərlik tərbiyəsinə

geniş yer verilir. Çünki vətənimizin 20%-i düşmən tapdağı altındadır, bir milyon qaçqınımız var.

**Məktəbəqədər yaş dövrləri.** Məktəbəqədər yaşlı uşağın inkişafı mürəkkəb dialektik prosesdir. Bu inkişafın müxtəlif yaş mərhələlərində özünəməxsus keyfiyyət xüsusiyyətləri vardır. Məktəbəqədər yaşı xarakterizə edən mərhələlər aşağıdakı şəkildə bölünür:

1. Körpəlik dövrü - anadan olandan iki yaşa qədər;
2. Bağça yaş dövrü: 3 yaşdan 6 yaşa qədər.

**Məktəbəqədər təhsil müəssisələrində qruplar üzrə bölgü aşağıdakı kimidir.**

1-ci körpəlik dövrü: anadan olandan 1 yaşa qədər
2-ci köpəlik dövrü: 1 yaşdan 2 yaşa qədər
Kiçik qrup : 2 yaşdan 3 yaşa qədər
Orta qrup: 3 yaşdan 4 yaşa qədər
Böyük qrup: 4 yaşdan 5 yaşa qədər
Məktəbə hazırlıq qrupu: 5 yaşdan 6 yaşa qədər

Məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsi vahid məqsəd daşıyır.

Uşağın inkişaf xüsusiyyətləri, iradi keyfiyyətləri bir – birindən fərqlənən yaş mərhələlərində biri digərini hazırlayır və müəyyən mənada tamamlayır.

Hər bir yaş mərhələsi özünün əsas fəaliyyət növləri və tələbatları ilə, inkişafının keyfiyyət xüsusiyyətləri və s. ilə seçilir.

Müxtəlif yaş dövrlərində uşaq inkişaf etdikcə, onun sosial şəraiti, tərbiyəsinin, təliminin məzmunu və metodları da dəyişir. Bütün bunlar isə şübhəsiz uşağın yaş mərhələlərinin dəyişməsinə öz təsirini göstərir. L.S.Vıqotski yaş mərhələsinə inkişafın müəyyən dövrü mərhələsi kimi baxır. Buna görə də hazırda uşağın həyat şəraitinin dəyişməsi onun təlim və tərbiyəsinin təşkili və aparılması yaş xüsusiyyətlərini təyin edən əsas faktor hesab olunur.

Uşaq doğularkən malik olduğu ali sinir sistemi onun psixi inkişafında mühüm rol oynayır. Körpəlik dövründə uşaqda qida-

lanma, özünümüdafiə və başqa şərtsiz reflekslər olur. Lakin bunlar onun yeni həyat şəraiti üçün kifayət deyildir. Bu yaşda ilk şərti refleks uşağın anası ilə əlaqədar olaraq əmələ gəlir. Bələdləşmə refleksi tədriclə daha əhatəli və əhəmiyyətlidir.

**Məktəbəqədər təhsil müəssisələrinin tipləri :**

1. Körpələr evi ;
2. Körpələr evi və uşaq bağçaları;
3. Xüsusi qayğıya ehtiyacı olan körpələr evi və uşaq bağçası;
4. Sanatoriya tipli uşaq bağçası.

# III FƏSİL

## MƏKTƏBƏQƏDƏR İCTİMAİ TƏRBİYƏNİN İNKİŞAFI

**Tərbiyə ictimai hadisədir.** Tərbiyənin ictimai səciyyəsi cəmiyyətin yaranma tarixi ilə bağlı olub, gənc nəsli həyata hazırlayır. Tərbiyə əbədidir, tərbiyə cəmiyyətin ehtiyacından, tələbatından doğur. Lakin hər bir ictimai formasiyada istehsal və istehlak münasibətlərinin dəyişilməsi ilə əlaqədar olaraq tərbiyənin də xarakteri dəyişir. İbtidai icma quruluşunda tərbiyə ictimai xarakter daşıyırdı. Oğlanlar kişilərin yanında balıq tutur, ov ovlayırdı, ov alətləri düzəldirdilər, qızlar isə qadınların yanında onların əmək fəaliyyətini öyrənir və kömək edirdilər. Uşaqlar qəbilə başçısına tabe idi. Əkinçiliyin və heyvandarlığın inkişafı tərbiyənin də istiqamətini dəyişdi. Uşaqlar yaşlıların yanında müəyyən işlər görür və tərbiyə olunurdular. Əmək fəaliyyətinin mürəkkəbləşməsi ilə əlaqədar tərbiyənin də məzmunu və metodu dəyişdi. Çünki tərbiyə cəmiyyətin funksiyasını yerinə yetirir. İlk ictimai tərbiyə müəssisələr Qədim Şərqdə yaranmışdı. Həmin müəssisələrdə uşaqlara oxu, yazı və dini ayinlər öyrədilirdi. Oğlan uşaqlarını dövlət müəssisələrində işləməyə, qullara nəzarət etməyə hazırlayırdılar.

Quldarlıq dövründə ictimai tərbiyəyə Qədim Yunanıstanda rast gəlinir. Sparta dövlətində uşaq doğularkən xüsusi komissiya uşağı yoxlayırdı. Uşaq sağlam doğulub-sa, onu əmizdirmək üçün anaya qaytarırdılar. Xəstə uşağı isə təntənəli surətdə qayadan atıb öldürürdülər. Uşaq doğulandan sonra dövlət müəssisəsinə verilirdi, analar gəlib uşaqları orada əmizdirirdi. Hansı uşaq acdırsa, o, əmizdirilirdi, yəni hər ana öz uşağını əmizdirmirdi. Görkəmli filosof Platon özünün "Dövlət" əsərində yazırdı ki, uşaqlar dövlətin olduğu üçün onun tərbiyəsi ilə də dövlət məşğul olmalıdır. Platon kiçik uşaqların meşəyə, məbədə gəzintiyə aparılmasını məsləhət görürdü.

Spartada uşaqlar 7 yaşdan sonra hərbi məktəblərdə hərbi işləri, döyüş qaydalarını öyrənirdilər. Orada fiziki tərbiyə əsas yer tuturdu. Afinada isə elmə, incəsənətə üstünlük verilirdi. Əqli və

estetik tərbiyə zəruri sayılırdı. Feodalizm cəmiyyətində feodallar və təhkimli kəndlilər sinfi yarandı. Feodallar özləri də 2 qrupa ayrılır: dünyəvi feodallar və ruhani feodallar. Dünyəvi feodalların uşaqları cəngə-vərlik, ruhani feodalların uşaqları ruhani məktəblərində təhsil alırdılar. Bu dövrdə tərbiyə işi feodalların və ruhanilərin əlində idi.

Kapitalizm cəmiyyəti meydana gələndən sonda iri burjuaziya yeni sənaye müəssisələri yaradır. Burada qadın və uşaq əməyi istismar olunmağa başlayır. Bu zaman uşaq baxımsızlığı, uşaq ölümü geniş yayılmışdı. Fabrikdə işləyən qadınlar çox vaxt uşaqları qoca qadınlara, yaxud da nisbətən böyük olan uşağa tapşırırdılar. Bunlar isə uşaqlara baxa bilmirdilər. Beləliklə, uşaq ya xəstələnirdi, ya da şikəst olurdu.

İlk dəfə İngiltərədə Robert Oyen öz fabrikində institut açdı. Burada müxtəlif yaşlı uşaqlar bir yerdə təhsil alırdılar. Oyen uşaq əməyini öz müəssisəsində qadağan etmişdir. R.Oyenin açdığı müəssisədə körpələr evi, uşaq bağçası, ibtidai məktəb və axşam məktəbi var idi. Oyen üçün ən maraqlısı kiçik uşaqlar üçün olan məktəb idi. Burada 1 yaşından 6 yaşa qədər 300 uşaq var idi. Oyen bu müəssisələri özünün fəxri adlandırırdı. Burada şadlıq ruhu hökm sürür, ekskursiyalara, əşya dərslərinə, didaktik oyunlara, gimnastikaya, əmək təliminə geniş yer verilirdi.

XIX əsr (filantropislərindən olan) İ.F.Oberlin ilk dəfə olaraq Fransada məktəbəqədər yaşlı uşaqlar üçün tərbiyə müəssisəsi açdı. Burada işləyən müəllimlər tərbiyə sənətini öyrənmiş kəndli qızları idi. Uşaqlara toxuculuq sənəti öyrətməklə yanaşı oyunlar da t.şkil edilirdi. Bu oyunlar uşaqların fiziki sağlamlıqları üçün çox zəruri idi. O, uşaq müəssisələri üçün təlimat hazırlamışdı. Bu təlimata əsasən uşaqlar 3 yaşdan 7 yaşa kimi tərbiyəçinin rəhbərliyi altında olmalı idi.

XIX əsrin II yarısında Almaniyada uşaq bağçasının yaradıcısı Fridrix Frebel məktəbəqədər tərbiyə sahəsində fəaliyyət göstərən klassik pedaqoqdur. Onun pedaqoji nəzəriyyəsi öz dövründə uğur qazanmasa da ölümündən sonrakı dövrlərdə geniş miqyasda yayılmışdır. 1837-ci ildə o, yoxsul uşaqları üçün açdığı

bu müəssisəni uşaq bağçası adlandırdı. O deyirdi ki, bağçada gül, çiçək, bitki bəslənən kimi uşaq bağçasında da uşaq bəslənməlidir. Onlarda yüksək emosionallıq, gümrahlıq yaradılmalı, məktəb təliminə hazırlanmalıdırlar. O, uşaq bağçasında uşaqların hərtərəfli inkişafını təmin etmək üçün müxtəlif məşğələlərin keçirilməsini zəruri sayırdı. Fiziki tərbiyə (hərəkət, gəzinti) oyun, məşğələ (müxtəlif materiallarla yapma, rəsm, ana dilində müsahibə, nəqletmə, ibadət və s. ) keçirildı. O, uşaqlar üçün 6 hədiyyə gətirmişdi. Onun oyunları, məşğələləri, oyun materialları indi də əhəmiyyətini itirməmişdir. Frebelin nəzəriyəsi bütün ölkələrdə geniş yayıldı.

Rusiyada ilk uşaq bağçası 1860-cı ildə açılmışdı. Birinci xalq uşaq bağçası 1866-cı ildə Peterburqdakı yoxsullar məhəlləsində açılmışdır. Buradakı təlim forması o biri bağçalardakı təlim formasından seçilmirdi. Uşaq bağçasının dövlət təminatı çox cüzi idi. Uşaq bağçalarının sürətli inkişafı 1917-ci ildən, yəni Sovet hakimiyyəti illərindən başladı. Uşaq bağçalarına kadr hazırlığı da sürətləndi.

Azərbaycanda ilk uşaq bağçası 1907-ci ildə Bayıl qəsəbəsində rus emiqrantı (Raisa Radçenko) tərəfindən açılmışdı. Bu bağça zəngin ailələr üçün nəzərdə tutulmuşdu. 1918-ci il may ayının 28-də Tiflis şəhərində demokratik cümhuriyyət yarandı. Demokratik qüvvələr bütün sahələrdə olduğu kimi maarif sahəsində də mühüm işlər görməyə başladılar.

Müəllim kadrları hazırlamaq üçün qısamüddətli pedaqoji kurslar təşkil edildi. Bakı universitetinin açılması Azərbaycanda böyük inqilab oldu. Azərbaycanda məktəbəqədər tərbiyə sovet hakimiyyəti illərində inkişaf etməyə başladı. 1920-ci ilin may ayında N.Nərimanovun göstərişi ilə Bakı şəhərinin müsəlman məhəllələrində uşaq bağçaları açıldı. Elə həmin vaxt Xalq Komissarlığı nəzdində məktəbəqədər tərbiyə şöbəsi yaradıldı. 1930-cu illərdə Azərbaycanın kənd və şəhərlərində də uşaq bağçaları açıldı. Böyük Vətən müharibəsi illərində həm uşaq bağçalarının kollektivi, həm də ictimaiyyət yüksək fədakarlıqla uşaqların sağlamlığı keşiyində durdular.

1960-cı illərdən Azərbaycanda məktəbəqədər tərbiyə geniş vüsət aldı, milli kadrlar yetişdirilməyə başladı.

Bu sahədə M.Mehdizadənin, Ə.Seyidovun, M.Muradxanovun xidmətləri çox oldu. Milli zəmində məktəbəqədər tərbiyənin müxtəlif sahələri öyrənilməyə başladı. Ə.Qədimbəyova, B.Paşayeva, N.Rüstəmova, R.Mursaqulova, Z.Vəliyeva, Ş.Əliyeva, S.Cəmilzadə, S.Salamova, Z.Zeynalova və başqaları məktəbəqədər tərbiyənin müxtəlif sahələrini tədqiq etdilər.

1991-ci ildə Azərbaycan müstəqillik əldə etdi. Bu dövrdən maarifin bütün sahələrində olduğu kimi məktəbəqədər tərbiyə sahəsində də bir sıra yeniliklər aparıldı. Hazırda ölkədə 110017 uşağı əhatə edən 1764 uşaq müəssisəsi, 545 uşaq bağçası fəaliyyət göstərir. Bu sahədə daha səmərəli iş görülməsi üçün Respublika prezidentinin İ.Əliyevin 2007-ci il 12 aprel tarixli sərəncamı ilə məktəbəqədər təhsilin yeniləşdirilməsi proqramı qəbul olunmuşdur.

**Məktəbəqədər təhsilin yeniləşdirilməsinin əsas istiqamətləri.** *Məktəbəqədər təhsil sisteminin günün tələblərinə uyğun modernləşdirilməsi sahəsində qarşıda duran vəzifələrin uğurlu həlli aşağıdakı başlıca istiqamətlərdə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.*

*1.Məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması və maddi – texniki bazasının təkmilləşdirilməsi:*

- məktəbəqədər təhsil müəssisələrinin mövcud şəbəkəsinin optimallaşdırılması, səmərəlilik baxımından dövlət büdcəsi vəsaitləri hesabına maliyələşdirilməsi məqsədəmüvafiq hesab olunmayan məktəbəqədər təhsil müəssisələrinin Azərbay-can Respublikası Prezidentinin 2006-cı il 23 avqust tarixli Sərəncamına uyğun olaraq profili saxlanılmaqla özəlləşdirilməsi;
- məktəbəqədər təhsil müəssisələrinin maddi – texniki bazasının qabaqcıl standartlara uyğun inkişaf etdirilməsi və möhkəmləndirilməsi;
- əhalinin məktəbəqədər təhsilə olan tələbatlarının ödənilməsində ehtiyac duyulan şəhər, kənd və qəsəbələrdə müasir səviyyədə yeni məktəbəqədər müəssisələrin yaradılması.

*2.Məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi:*

- məktəbəqədər təhsil sisteminin idarə edilməsində mərkəzləşdirilmiş təsərrüfatçılığa və resurların yuxarıdakı bölgüsünə əsaslanan inzibati – amirlikdən imtina edilməsi, ölkə üzrə vahid məktəbəqədər təhsil məkanında tənzimləyici idarəetmə üslubunun formalaşdırılması, bu məqsələ normativ – hüquqi, iqtisadi və keyfiyyət tənzimlənməsinə əsaslanan böyük idarəenmə mexanizmlərinin qurul-ması;
- məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin səmərəli şəkildə formalaşdırılması və həyata keçirilməsinin təmin edilməsi məqsədi ilə idarəetmənin müxtəlif pillələr (mərkəzi və yerli hakimiyyət orqanları, yerli özünü idarəetmə orqanları (bələdiyyələr), məktəbəqədər təhsil müəssisələri) arasında vəzifə məsuliyyət və səlahiyyətlərin optimal bölüşdütülməsi, idarəetmə üzrə fəaliyyətin sıx koordinasi-yasına nail olunması;
- ictimai idarəetmə və nəzarət mexanizmlərindən daha geniş istifadə olunması cəmiyyətin maraqlı qruplarının, valideynlərin (qəyyumlar və valideynlər şuraları vasitəsilə) məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətində yaxından iştirakı, müəssisələrin müstəqilliyinin əhəmiyyətli dərəcədə artırılması;
- kənd yerlərində məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji işçilərə maliyyə və sosial dəstək tədbirlərinin hazırlanması və tətbiq olunması;
- kənd yerlərində və ucqar rayonlarda yerləşən məktəbəqədər təhsil müəssisələri üçün yerli əhali arasında kadr hazırlığını təmin etmək məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi.

*3. Məktəbəqədər təhsilin ictimai statusunun qaldırılması:*

- məktəbəqədər təhsilin problemlərinə ictimaiyyətin müxtəlif təbəqələrinin diqqətinin artırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi, kütləvi informa-siya vasitələrinin, qlobal internet şəbəkəsinin imkanlarından bu məqsədlə daha geniş istifadə olunması;

*Proqramın əsas məqsədi ölkədə bütün əhali təbəqələri üçün əlçatmaz və müasir tələblər səviyyəsində qurulmuş məktəbəqədər təhsil xidmətlərinin göstərilməsini təmin edə biləcək maddi- texniki, təşkilati – hüquqi, iqtisadi və tədris – metodiki şərait yaratmaq və bu zəmində məktəbəqədər təhsil sisteminin yüksək sosial – iqtisadi səmərəliliyinə nail olmaqdır.*

*4.Proqramın uğurla həyata keçirilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur.*

- məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması və maddi – texniki bazasının möhkəmləndirilməsi;
- məktəbəqədər təhsil sistemində idarəetmənin müasir sosial-iqtisadi şəraitə uyğun olmaqla ölkədə təşəkkül tapmış yeni iqtisadi münasibətlər zəminində təkmilləşdirilməsi;
- məktəbəqədər təhsil sistemində yetərli maliyyələşmə səviyyəsini və bu sahəyə yönəldilən resusların rassional istifadəsini təmin edən yeni iqtisadi münasibətlər modelinin formalaşması;
- məktəbəqədər təhsilin əhatə dairəsinin genişlənməsinə nail olunması, bütün sosial təbəqələr, o cümlədən aztəminatlı ailələr üçün müasir tələblərə uyğun məktəbə-qədər təhsil xidmətlərinin münasib olmasının gerçəkləşdirilməsi;
- məktəbəqədər təlim-tərbiyə prosesinin məzmunca yeniləşdirilməsi, uşaqların fiziki, əqli və psixoloji inkişafı, onların məktəbə hazırlığı baxımından beynəlxalq təhsil məkanında son mütərəqqi təcrübənin öyrənilməsi və tədqiqi;
- məktəbəqədər təhsil sisteminin peşəkar, səriştəli pedaqoji kadrlarla təmin olunması məqsədilə bu sahədə kadr siyasətinin günün tələblərinə uyğun qurulması;
- məktəbəqədər təhsilin ictimai statusunun yüksəldilməsi, dövlət qayğısının daha da artırılması ilə yanaşı vətəndaşların, qeyri-dövlət və ictimai qurumların işgüzar dairələrin bu sahəyə diqqətinin artırılmasına nail olunması.
- məktəbəqədər təhsil barədə statistik göstəricilər sisteminin beynəlxalq standartlar nəzərə alınmaqla təkmilləşdirilməsi;

- məktəbəqədər təhsil sisteminin mütəmadi monitorinqinin keçirilməsinə nail olunması, monitorinqin nəticələrinin kütləvi informasiya vasitələrində dərc olunması və ictimaiyyətə çatdırılması;

- yaxşı nəticələr əldə etmiş məktəbəqədər təhsil müəssisələrinin qabaqcıl iş təcrübəsinin kütləvi informasiya vasitələri ilə geniş işıqlandırılması və yayılmasının dəstəklənməsi.

## IV FƏSİL

## MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ TƏLİM VƏ TƏRBİYƏ PROQRAMINA TARİXİ NƏZƏR

Proqram məktəbəqədər təhsilin ilk pilləsi olmaqla körpəlik və bağça yaşı dövründə uşaq şəxsiyyətinin formalaşmasına, onların hərtərəfli inkişafı və tərbiyəsinə, məktəbə hazırlanmasına xidmət edir.

Azərbaycanda, eləcə də digər ölkələrdə mütərəqqi fikirli pedaqoq, psixoloq və fizioloqlar məktəbəqədər yaşlı uşaqların fiziki, mənəvi, estetik, ekoloji və əmək tərbiyəsi sahəsində tədqiqatlar aparmışlar. Məktəbəqədər yaş dövründə uşaqlar inkişafına görə potensial imkanlara malikdirlər. Buna əsaslanaraq məktəbəqədər ictimai tərbiyə prosesində uşaqlarda formalaşmaqda olan bilik, bacarıq və vərdişlərin məzmununun məqsədəuyğun şəkildə zənginləşdirilməsi yolları işlənilmiş və işlənilməkdə davam edir. Hal – hazırda kurikumun hazırlanmasında və təkmilləşdirilməsində həmin pedaqoji və metodik yeniliklər nəzərə alınır.

1920-ci ilə qədər Azərbaycanda xüsusi şəxslər tərəfindən cəmi 5 uşaq bağçası açılmışdır. Həmin uşaq bağçaları təsadüfi vəsaitlərlə təmin edilirdi.

1920-ci ildən başlayaraq Azərbaycanda dövlət tərəfindən məktəbəqədər tərbiyə müəssisələri açılmağa başlandı. Həmin ilin may ayının 27-də N.Nərimanov Azərbaycan inqilab komitəsi adından Xalq Maarif Komissarlığına göndərdiyi telefonoqrammada "təklif edirdi ki, bir şəhərin müsəlman məhəllərində uşaq bağçaları təşkil edilsin. Bu məqsədlə də şəhərin bütün müəllimləri səfərbərliyə alınsın".

Məktəbəqədər müəssisələr öz fəaliyyətinin ilk günlərindən dövlətin göstərişi ilə uşaqlara obyektiv aləmin hadisələrini düzgün dərk etdirməyə, onlarda xarici aləmin cism və hadisələri haqqında təsəvvürlər yaratmağa çalışırdı. Uşaq bağçalarının işlərini nizama salmaq məqsədilə 1920-ci ildə istər RSFSR – də, istərsə də Azərbaycanda "Uşaq bağçalarının işinə rəhbərlik üçün təli-

mat" adlı sənəd qəbul edildi. Respublikada uşaq bağçaları öz işlərini 1926-cı ilin sonuna qədər həmin təlimat əsasında apardılar. 1926-cı ilin sonunda dövlət elmi şurası "Nizamnamə" təsdiq etdi. Həmin Nizamnamə əsasən 4 bölmədən ibarət idi: 1. Təşkilati işlər; 2. Uşaq bağçasının daxili təşkilati işləri; 3. Uşaq bağçasınm kollektivi; 4. Uşaq bağçasınm şurası.

Nizamnamə tərbiyə müəssisələrinin məqsədini müəyyənləşdirdi, onun həyata keçirilməsində siyasi xətti müəyyən etdi. Əsas məqsəd kompleks proqramı məktəbəqədər müəssisələrin istifadəsinə vermək idi.

Prof.M.M.Mehdizadə bu məsələnu belə izah edilirdi ki, bu proqrama keçmək üçün 1925 – 1927- ci illərdə ciddi hazırlıq aparılırdı: qısa müddətli pedaqoji kurslar açılır, pedaqoji jurnallarda bu proqrama keçmək və onlarla iş aparmaq qaydaları izah edilirdi".

Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri 1926-cı ildə təsdiq edilmiş "Nizamnamə"dən 1930-cu ilə qədər rəhbər sənəd olmaqla məktəbəqədər tərbiyə müəssisələrini təlim – tərbiyə işlərinin əsas istiqamətini təyin etmişdir.

1930-cu ildən etibarən məktəbəqədər tərbiyə müəssisələri üçün proqram layihəsi hazırlanmağa başladı. 1932-ci ildə bu proqram layihəsi hazırlanıb qurtarır və RSFSR məktəbəqədər tərbiyə müəssisələrinin istifadəsinə verilir. Bu layihədən Azərbaycanda da istifadə edilir. 1933-cü ildə həmin proqram layihəsi yenidən işləndi və 1934-cü ildən proqram kimi təsdiq olundu, 1935-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən "Cocuq bağçası proqramları" adı ilə tərcümə edilib respublikada fəaliyyət göstərən məktəbəqədər tərbiyə müəssisələrinin istifadəsinə verildi.

Bu proqramda 3 – 7 yaşlı uşaqların tərbiyəsinin məzmunu, "Təlim material-ları"nın müxtəlif bölmələrində verilmişdir.

Məktəbəqədər tərbiyə sahəsində ilk proqram hesab edilən bu dövlət sənədində aşağıdakı bölmələr geniş şəkildə verilmişdir:

1. Fiziki tərbiyə
2. Rəsm, gil və əmək məşğələləri

3. Cocuğun nitqinin inkişafı, kitab və şəkillər üzrə məşğələlər
4. Təbiət haqqında ibtidai məlumatlar
5. İbtidai riyazi təsəvvürlər və vərdişlərin inkişafı
6. Oxu və yazı məşğələləri, izahat vərəqəsi

Proqram materiallarının yaş dövrləri üzrə bölünməsi, materialın getdikcə mürəkkəbləşdirilməsi, pedaqoji və psixoloji qanunauyğunluğa əsaslanırdı.

Bu nöqteyi – nəzərdən proqram öz dövrü üçün əhəmiyyətli olmuşdur. Lakin proqram və onda materialın düzülüşü bəzi nöqsanlardan azad deyildir. Proqramda xüsusi ilə 6 yaşlı uşaqlara veriləcək bilik və bacarıqların məzmununda anlaşılma-mazlıq vardır.

"Cocuq bağçası" proqramı bir rəhbər sənəd kimi məktəbəqədər tərbiyə müəssisələrində 1939-cu ilə qədər istifadə edildi. 1939-cu ildə Azərbayvan SSR Xalq Maarif Komissarlığının məktəbəqədər tərbiyə şöbəsi tərəfindən yeni rəhbər sənəd "Uşaq bağçası tərbiyəçisi üçün rəhbərlik" adı altında buraxıldı. Bu sənəd uşaq bağçası nizamnanəsini də əhatə edirdi.

1939-cu il proqramı 1935-ci il proqramındakı nöqsanları əsasən düzəltdi və məktəbəqədər yaşlı uşaqların tərbiyəsi dövrün tələbləri əsasında qurmağa başlandı. Tərbiyəçinin məsuliyyəti artırıldı.

1939-cu ildə nəşr olunan bu proqram 1947-ci ilə kimi rəhbər sənəd olaraq qaldı. 1947-ci il aprelin 3- də Azərbaycan SSR Maarif Nazirliyinin məktəbəqədər tərbiyə şöbəsi tərəfindən "Uşaq bağçasının tərbiyə proqramı üçün metodiki göstərişlər" adlı yeni rəhbər sənəd nəşr etdirdi. Bu sənəddə "Uşaq bağçası işinin məzmun və vəzifələri", "Yaşın xüsusiyyətləri və tərbiyənin vəzifələri", "Uşaqların həyatının təşkili və onların əxlaq tərbiyəsi", "Fiziki tərbiyə", "Oyunlar", "Ana dili" , "Mühitlə tanışlıq, məişətlə tanışlıq", "Rəsm, gil işləri və materiallarla bağlı məşğələlər", "Musiqi tərbiyəsi", "Say" kimi proqram materialları verilmişdir.

Bu proqram məktəbəqədər tərbiyə müəssisələrində rəhbər sənəd kimi 1956-cı ilin sonuna qədər istifadə olunmuşdur.

1957-ci ildə Azərbaycan SSR Maarif Nazirliyi tərəfindən "Uşaq bağçasının tərbiyəçisinin kitabı" adı ilə yeni rəhbər sənəd nəşr edildi. Bu rəhbər sənəd uşaq bağçasında "İşin məzmunu və vəzifələri" və "Uşaq bağçasının analarla apardığı iş" kimi 2 kiçik bölmə və daha 3 böyük bölmədən ibarətdir. 3 böyük bölmə uşaqların yaş xüsusiyyətlərinə görə verilir. Bu bölmələrin hər birində 8 başlıq altında müxtəlif materiallar verilmişdir. Böyük qrupa aid bölmələr olduğu aşağıdakılardır:

- Tərbiyənin vəzifələri və uşaqların yaş xüsusiyyətləri.
- Uşaq həyatının təşkili və onun rəftarının tərbiyəsi.
- Bədən tərbiyəsi.
- Oyun.
- Ana dili və ətraf mühitlə tanışlıq.
- Hesab.
- Rəsm, gil işi, yapışdırma və quraşdırma işləri.
- Musiqi tərbiyəsi.

Bu proqramın əvvəlkindən fərqi ondadır ki, ana dili və ətraf aləmlə tanışlıq bir başlıq altında verilir. Uşaqlarda ətraf aləmlə tanışlıqda onların lüğət ehtiyatının zənginləşdirilməsi işinə çox yer verilir. Bu proqram rəhbər sənəd olaraq 1965-ci ilə qədər məktəbəqədər tərbiyə müəssisələrində öz hüququnu saxlamışdır. 1965-ci ildə "Uşaq bağçasında tərbiyə proqramı" adı ilə yeni rəhbər sənəd nəşr olunur. Bu proqramda ilk dəfə olaraq çağalıq və körpəlik dövrlərinin tərbiyə məsələləri də verilmişdir. Bundan başqa uşaq həyatının 6-cı və 7-ci illəri ayrıca verilmişdir. Həyatın 7-ci ili "Məktəbə hazırlıq ili" adlandırılmışdır. Hər bir yaş qrupu üzrə tərbiyənin vəzifələri, uşaqların xarakteristikası, qrupda həyatın təşkili və uşaqların tərbiyə edilməsi, orqanizmi möhkəmləndirmə tədbirləri, səhər idmanı, müstəqillik, əməksevərlik, mədəni – gigiyenik adət və vərdişlərin tərbiyə edilməsi, ətrafa bələd olmanın genişləndirilməsi və nitqin inkişaf etdirilməsi, oyunlar və onların növləri, əmək məşğələləri, ana dili, bədii ədəbiyyat, say, rəsm, gil işi, kəsib yapışdırma, quraşdırma, hərəkətlərin inkişaf

etdirilməsi, bayramlar və əyləncələr kimi başlıqlar altında materiallar verilmişdir.

1965-ci il proqramı sonrakı illərdə "Uşaq bağçasında tərbiyə proqramı" adı ilə 1972-ci ilə kimi 6 dəfə nəşr edilir. Bu proqramın sonrakı nəşrləri arasında elə bir əsaslı fərq yox idi.

Respublikamız müstəqillik əldə etdikdən sonra təhsilin bütün sahələrində olduğu kimi məktəbəqədər təhsildə də qarşıda duran vəzifələrin məqsədəuyğun şəkildə dəqiqləşdirilməsi və zənginləşdirilməsi tələb olunurdu.Müstəqil Azərbaycanda cəmiyyətin sosial inkişafı pedaqoji elmin nailiyyətləri, həyatın tələbləri ilə qanunauyğun şəkildə şərtləşir.

Gənc nəslin milli ruhda tərbiyə edilməsi respublikamızda təhsil sisteminin, o cümlədən məktəbəqədər təhsilin təkmilləşdirilməsi, onun bütün sahələrində tərbiyə- təlim keyfiyyətinin yüksəldilməsini nəzərdə tutur. Hələ 1993-cü ildə qəbul edilmiş Azərbaycan Respublikasının təhsil qanununda deyilirdi: "Məktəbəqədər müəssisələrdə tərbiyə işinin məzmunu müəyyən olunarkən ümumbəşəri dəyərlərə istinad olunmaqla milli zəmin əsas götürülür. Xüsusi metodika əsasında xarici dillərin öyrənilməsinə başlanır. Azərbaycan dilinin öyrənilməsinə üstünlük verilir. Nadir istetadada malik uşaqlar üçün xüsusi bağçalar və ya qruplar açılır. Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim işləri sərhəddi müəyyən yaş dövrü ilə məhdudlaşan qruplar üzrə təşkil olunur.

1998-ci ildə "Məktəbəqədər müəssisələrində tərbiyə və təlim" adı altında yeni rəhbər – proqram sənəd Azərbaycan Təhsil Nazirliyinin təşəbbüsü ilə və "Təhsil problemləri İnstitutu"nun professoru Y.Ş.Kərimovun rəhbərliyi ilə hazırlandı və respublikanın məktəbəqədər tərbiyə müəssisələrinin istifadəsinə verildi. Prof.Y. Ş.Kərimov Məktəbəqədər tərbiyə müəssisələrinə və məktəbəqədər tərbiyənin bütün sahələrinə diqqət göstərmişdir.

"Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim proqramı" uşaqların kiçik yaş dövrlərindən başlayaraq milli adət-ənənələrə yiyələnməsi, Ulu Öndər Heydər Əliyevin xatirəsini daim yüksək tutmaq, ölkə prezidenti İlham Əliyevə inam bəslə-

mək ruhunda tərbiyəsinə istiqamət verəcək dövlət sənədi kimi indi də uşaq bağçalarında istifadə edilir.

Uşaqların məktəbə 6 yaşdan qəbulu ilə əlaqədar proqramda yaş dövrləri üzrə bölgü verilmişdir. Həmin bölgü belə müəyyənləşdirilmişdir: anadan olduğu gündən 1 yaşadək körpəlik dövrünün 1-ci qrupu; 1 yaşdan 2 yaşadək körpəlik dövrünün 2-ci qrupu; 2 yaşdan 3 yaşadək kiçik qrup; 3 yaşdan 4 yaşadək bağça dövrünün orta qrupu; 4 yaşdan 5 yaşadək bağça dövrünün böyük qrupu; 5 yaşdan 6 yaşadək məktəbə hazırlıq qrupu.

Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı tərtib edilərkən uşaqların fiziki və psixoloji inkişaf xüsusiyyətlərin, müxtəlif fəaliyyət növləri üzrə inkişaf səviyyəsi nəzərdə tutulmuşdur. Proqramda uşaqların ilk 6 ilində yaş xüsusiyyətlərinə, fərdi psixofizioloji xüsusiyyətlərinə müvafiq fiziki, əqli, mənəvi, əmək və estetik tərbiyənin məzmunu nəzərə alınmışdır.

Uşaq bağçasının hər bir qrupunda tərbiyə və təlim işlərinin məzmunu 2 bölmədə verilir:

a) "Uşaq həyatının təşkili və tərbiyəsi"

b) "Məşğələlərdə təlim"

Proqramda uşaqların fəallığı, müxtəlif fəaliyyət (oyun, təlim, əmək və s.) prosesində tərbiyə işinin vəzifələri və məzmunu əks olunmuşdu.

Proqram qruplar üzrə tərtib olunmuşdur. I bölmə məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətlərinin şərhinə həsr edilir. Bu bölmədə illər üzrə uşaq həyatının xüsusiyyətləri (çəkisi, boyu, mərkəzi sinir sistemi, hərəkətləri, ünsiyyət, fəallığı, psixi inkişafı və s.) verilir. Bunları ardıcıl izləmək, diqqətlə öyrənmək, düzgün təşkil etmək, tərbiyə və təlim işinin müvəffəqiyyətlə getməsinə şərait yaradır.

II bölmə tərbiyənin vəzifələrinə həsr olinmuşdur. Körpəlik dövründə və bağçanın kiçik,orta, böyük, məktəbə hazırlıq qruplarında tərbiyə işinin vəzifələri, gün rejimi, uşaqların sağlamlığı, fiziki inkişafı qayğısına qalmaq, mədəni davranış və mədəni gigiyenik vərdişləri əhatə olunur. Həyatın ilk 6 ilində uşaqların yaş, fərdi, psixoloji xüsusiyyətlərinə müvafiq fiziki, əxlaqi, əmək,

estetik tərbiyəsi şərh edilir. Uşaq bağçasının hər bir yaş qrupu ilə "Uşaq həyatının təşkili və tərbiyəsi" bölməsindən əlavə "Məşğələlərdə təlim" bölməsində də tərbiyə məsələlərinə toxunulur. Bu proqramda əvvəlki proqramlardan fərqli olaraq uşaqların əxlaq tərbiyəsinə tələblər xeyli təkmilləşmişdir. Onlarda milliliyin, insanpərvərliyin, qarşılıqlı münasibətlərin, kollektivçiliyin əsası üzrə tərbiyə işinin məzmunu dəqiqləşdirilmiş, yüksək mənəvi keyfiyyətlərin formalaşması üçün vəzifələr konkretləşdirilmiş, hər bir yaş qrupunda onun zənginləşməsi və inkişafı nəzərə alınmışdır. Bu proqramın məzmunu uşaqlarda öz fəaliyyətini təşkil etmək bacarığının formalaşması, tərbiyəçinin tələblərini yerinə yetirməsi, öz hərəkətlərini başqalarının hərəkətləri ilə uzlaşdırması ilə müəyyən edilmişdir. Bundan əlavə uşaqlar arasında mehribanlıq, səmimilik, təvazökarlıq, intizamlılıq, ədalətlilik, xeyirxahlıq, əliaçıqlıq, qayğıkeşlik və s. kimi keyfiyyətlər davranış mədəniyyətinin, ünsiyyət mədəniyyətinin əsasına qoyulmuşdur. Bununla əlaqədar öz yaşıdlarına davranış tərzini seçmək bacarığının verilməsi də nəzərdə tutulur.

Hər bir qrup üzrə əmək bacarığı və vərdişlərinin məzmunu zənginləşdirilmiş və konkretləşdirilmişdir. Yaşlıların əməyi ilə tanışlıq əməyə, əmək adamlarına hörmətlə yanaşmaq, eyni zamanda uşaqların gücləri çatan əməkdə iştirak etmələrinə də diqqət yetirilir.

Milli ruhda tərbiyə, milli iftixar hissi, vətənpərvərlik hissinin tərbiyə edilməsi işin əsasını təşkil edir. Tərbiyə prosesinə uşaqların bilavasitə cəlb edilməsi, bu işdə onların fəallığının təmin olunması, özünənəzarət və özünüqiymətləndirmə üzrə planlı işin aparılması son dərəcə vacibdir.

Uşaqlarda intizamlılıq, mütəşəkkillik, məsuliyyətlilik, təşəbbüskarlıq, dözümlülük, iradəlilik, mübarizlik, yaradıcılıq kimi keyfiyyətlər formalaşmalıdır.

Uşaqların məktəb təliminə hazırlığı ilə əlaqədar əqli tərbiyə üzrə iş sistemi proqramın məzmununda mühüm yer tutur. "Nitq inkişafı" bölməsində müxtəlif yaş qrupları üzrə düzgün səs mədəniyyətinin formalaşması vəzifələri dəqiqləşdirilmiş və konkret-

ləşdirilmişdir. Sözün mənasının açılmasına, lüğət ehtiyatının zənginləşdirilməsinə, nitqin qrammatik quruluşunun formalaşmasına geniş yer ayrılmışdır. Uşaqların bədii ədəbiyyatla, xüsusi ilə şifahi xalq ədəbiyyatı nümunələri ilə tanışlığı nəzərdə tutulmuşdur. Bu məqsədlə hər qrup üzrə proqrama klassik yazıçı və şairlərlə yanaşı müasir uşaq yazıçılarının əsərləri, həmçinin oynaq, maraqlı bədii folklor nümunələri də daxil edilmişdir.

Proqramda böyük qrupdan başlayaraq uşaqların savad təliminə hazırlanması üzrə məktəbə hazırlıq qrupunda oxu və yazı texnikasına yiyələnməyə həsr edilmiş məşğələlərin təşkilinə xüsusi əhəmiyyət verilir.

Hər bir yaş dövründə uşaqlara veriləcək biliklərin məzmunu onların ətraf aləm ilə tanışlığı müəyyən edilir. Uşaq bağçasının kiçik qrupundan başlayaraq ətraf aləmlə tanışlığa xüsusi bölmə ayrılır. Burada canlı, cansız təbiət və ictimai həyat hadisələri əhatə olunur. Uşaqlar həmçinin canlı aləmlə: bitki və heyvanlar aləmi ilə tanış olurlar. Bu tanışlıq üç istiqamətdə gedir:

a) bitki və heyvanlar aləminin müxtəlifliyi;
b) bitki və heyvanların böyümə və inkişafı;
c) canlı orqanizmin xarici mühit amillərindən asılılığı.

Uşaqların ətraf aləmlə tanışlığı üzrə işin məzmun müəyyənləşdirilərkən milli ənənələrin, məişət xüsusiyyətlərinin nəzərə alınması zəruridir. Uşaqlar yaşlıların əməyi ilə tanış edilərkən onun növləri, həm də respublika üçün xarakterik əmək növləri əhatə olunmalıdır.

Uşaqlar tədricən doğmaları, vətən, onun gözəlliyi, özünəməxsus xüsusiyyətləri, paytaxtımız Bakı, iri sənaye şəhərləri, respublikanın sənayesi və kənd təsərrüfatı, ədəbiyyatı, incəsənəti, mədəniyyəti və burda yaşayan xalqlar, Milli Ordumuz, respublikamızın atributları haqqında sadə məlumatlar verilir. Uşaqlar bu məlumatları yalnız ətraf aləmlə tanışlıq prosesində deyil, həm də bədii ədəbiyyatın oxunmasını dinləməklə, təsviri sənət, musiqi, əmək təlimi məşğələlərində alırlar.

"Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı"nın mühüm bölmələrindən biri "Sadə riyazi təsəvvürlərin verilməsi" bölməsidir. Uşaqlarda sadə riyazi təsəvvürlərin formalaşdırılmasından ötrü orta qrup üçün 5, böyük qrup uşaqları üçün 10 dairəsində ədədləri bildirən rəqəmlərlə tanışlıq daxil edilmişdir. Uşaqlar 4 yaşdan etibarən şərti ölçü vasitəsilə ölçməni, 10-a qədər ədədlərin ardıcıllığı ilə tanış olurlar. Bu isə onlarda toplama və çıxma əməlləri üzrə ilkin vərdişlərin yaranması üçün əlverişli şərait yaradır. Uşaqlar praktik olaraq sadə həndəsi fiqurlarla da tanış olurlar. Proqramda estetik tərbiyə vəzifələrinə xidmət edən məsələlər də ətraflı şəkildə öz əksini tapmışdır. Onun müsiqi bölməsində milli musiqiyə xas olan xüsusiyyətlər nəzərə alınmış, milliliklə beynəlmiləlçilik prinsipi əsas götürülmüşdür. Azərbaycan xalq musiqisində ritmika öz mürəkkəbliyinə görə digər xalqların musiqilərindən çox fərqləndiyi üçün proqramda ritm hissiyyatının tərbiyəsi ilə əlaqədar ifa olunan və dinlənilən musiqi əsərlərindən ictifadə edilmişdir. Proqramda Azərbaycan Milli incəsənətinin xüsusiyyətlərinin, onlarda nümunələrin verilməsini əks etdirən xüsusi bölmə də vardır. Proqrama həmçinin uşaqların Azərbaycan rəssamları və heykəltəraşlarının əsərləri ilə tanışlığına imkan verən tapşırıqlar da verilmişdir.

Proqramda uşaqların fiziki tərbiyəsi üzrə vəzifələri və işin məzmunu xeyli mürəkkəbləşdirilmiş, fiziki tərbiyənin ümumi məsələləri dəqiqləşdirilmiş, sağlamlığın təmin edilməsi istiqaməti gücləndirilmiş, uşaq orqanizminin möhkəmləndirilməsi, fiziki və əqli iş qabiliyyətlərinin formalaşmasının zəruriliyi göstəril-mişdir. Fiziki tərbiyə üzrə proqram materialı sağlamlığın qorunması və orqanizmin möhkəmləndirilməsi üzrə məşğələlərin təşkilində xüsusi bölmə də veilmişdir. Proqramın oyunlar və əyləncələr bölməsi də vardır. Burada göstərilir ki, əgər kiçik qrupda təsəvvürlər inkişaf etdirilirsə, əşyalardan əvəzedici kimi istifadə etmək bacarığının öyrədilməsinə xüsusi əhəmiyyət verilirsə, böyük qrupda daha çox etik əhəmiyyətli oyunlardan istifadə olunur. Böyük qrupda süjetli – rollu oyunlar prosesində uşağın fərdi niyyətlərini bildirmək bacarığı tərbiyə olunur. Uşaqların mövzunun və məz-

munun seçilməsində, rolların və oyun materiallarının bölüşdürülməsində münaqişənin qarşısını almaq məqsədi ilə davranış qaydalarını müstəqil tətbiq etmək bacarığının inkişafına tələblər dəqiqləşdirilmişdir. Böyük qrupda oyun fəaliyyətində uşaqların yaradıcılığı və təxəyyülünün inkişafı xüsusi qeyd edilir.

"Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı" tərtib edilərkən aşağıdakı prinsiplərə əsaslanmışdır. **I** – tərbiyənin ideya istiqaməti: həyatla əlaqəsi; uşaqğın yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması; tərbiyənin müxtəlif cəhətlərinin qarşlıqlı münasibətlərinə kompleks yanaşması və s. prinsiplərə ciddi əməl edilmişdir. **II** – proqram vəzifələrinin tədricən mürəkkəbləşdirilməsi və ardıcıllığın təmin edilmişdir. **III** – uşağın hərtərəfli inkişafının təmin olunmasına riayət edilmişdir. **IV** – hər bir fəaliyyət növünün özünəməxsus məzmunu, vəzifəsi nəzərə alınmaqla onların ümumi tərbiyəedici, inkişafetdirici vəzifələrinin həlli də təmin edilmişdir. (Didaktik oyunlar ilk növbədə əqli tərbiyənin vasitəsi olsa da, uşaqlar arasında qarşılıqlı münasibətlərin tərbiyə olunması, onların təşəbbüskarlığının təşkilində özünü təşkiletmə, özünü tərbiyələndirməı vasitəsi kimi də istifadə edilir). **V** – tərbiyə və təlim proqramına bilik, bacarıq və vərdişlərin, davranış normalarının, təsəvvürlərin siyahısını daxil edərkən uşaqların proqram tələblərini mənimsəməsinin əsasına qoyulmuş konkret fəaliyyətlərini açmaq lazımdır. Belə ki, rəsm, quraşdırma təlimi zamanı proqram tərbiyəçini uşaqlarda əşyaları yoxlamaq, nümunələri təhlil etmək qabiliyyətinin inkişafına yönəltməlidir ki, onlarda tam və dəqiq işləmək, yenidən yaratmaq bacarığı, yaradıcı fəaliyyət formalaşsın.

Sonralar bu qabiliyyətlər ətraf varlığın uşaqlar tərəfindən fəal və müstəqil dərk edilməsi vasitəsi olur. Orta və böyük qruplarda uşaqların iş qabiliyyətini saxlamaq üçün il müddətində məşğələlərin keçirilməsi, həftənin bir günü isə yüngülləşmiş gün kimi nəzərə alınmalıdır. Yəni həmin gün (cümə axşamı) məşğələ keçirilməməlidir.

Proqram hazırlanarkən coğrafi iqlim, həmin yerin iqtisadiyyatı, milli-mədəni şəraitin nəzərə alınması da əsas götürülmüşdür.

Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim prosesinin təşkilatçısı və rəhbəri tərbiyəçidir. Tərbiyəçinin peşə ustalığı, ideya – siyasi istiqamətliliyi, mənəvi şəxsi keyfiyyətləri, uşaqlara məhəbbəti, qrupda əlverişli, emosional – psixoloji iqlim yaratmağa imkan verir.

Uşaq şəxsiyyətinin hərtərəfli ahəngdar inkişafında proqramın tərbiyə - təlim vəzifələrini müvəffəqiyyətlə həyata keçirilməsində uşaq bağçası ilə ailənin vahid qarşılıqlı əlaqəsinin olması zəruri şərtlərdən biridir. Şübhəsiz, əməkdaşlıq və təşkiledicilikdə başlıca rol məktəbəqədər tərbiyə müəssisələrinin üzərinə düşür. Belə əməkdaşlıq ailənin həyat və məişət tərzinin xüsusiyyətlərini nəzərə almaqla vahid pedaqoji məqsəd və vəzifənin yerinə yetirilməsində qarşılıqlı kömək, etibar və hörmət əsasında həyata keçirilir. Proqramda göstərilir ki, məktəbəqədər tərbiyə müəssisələrinin kollektivi, pedaqoji, psixoloji bilikləri, pedaqoji biliklərin və ailə tərbiyəsinin ən yaxşı təcrübəsini valideynlər arasında yayır.

## KÖRPƏLƏR EVİ VƏ UŞAQ BAĞÇASININI TƏRBİYƏÇİSİ

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində tərbiyəçi əməyinin rolu böyükdür. Tərbiyəçi uşaq üçün anadır, müəllimdir, həkimdir. Ona görə klassik pedaqoqlar tərbiyəçi şəxsiyyətini yüksək qiymətləndirmişlər. Görkəmli rus pedaqoqu K.D.Uşinski yazırdı ki, tərbiyəçi şəxsiyyəti uşaqlarda istənilən xarakteri tərbiyə edə bilər. Hər bir uşaqda xarakter, əxlaq və inam yaratmaq tərbiyəçinin işidir. Cəmiyyətin sosial sifarişini yerinə yetirmək üçün tərbiyəçi öz ixtisasının ustası olmalıdır. Tərbiyəçinin peşəkar mütəxəssis olması üçün onun daim öz üzərində işləməsi, zəhmət çəkməsi lazımdır. Tərbiyəçi ilk növbədə özünə qarşı tələbkar olmalıdır.

Görkəmli tənqidçi və pedaqoq N.A.Dobralyubov yazırdı ki, əvvəllər mənim tərbiyə işi haqqında biliyim çox səthi idi; lakin mən pedaqoq adını aldıqdan sonra bu qənaətə gəldim ki,

mənim uşaqlara bilik vermək üçün sözüm, onları sevmək üçün ürəyim var. Tanrının verdiyi bu hədiyyə mənim üçün kifayətdir. Bu sözlər bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

Tərbiyəçi uşaqları və sənətini sevməlidir.

Tərbiyəçi öz işini plan əsasında qurmalıdır.O, uşaqların həyatının qorunmasında məsuliyyət daşıyan şəxsiyyətdir. Tərbiyəçi uşağın fiziki sağlamlığının qoruyucusudur. O, rejimin dəqiq yerinə yetirilməsi üçün cavabdehdir.

Tərbiyəçi uşaqların əqli inkişafı üçün proqram əsasında nəzərdə tutulan məsələləri onların anlayacağı səviyyədə şərh etməlidir.

Tərbiyəçi uşaqların nitqini inkişaf etdirir, lüğət ehtiyatını zənginləşdirir. Ətraf aləmdə baş verən hadisələri əlaqələndirməyi, ümumiləşdirmələr aparmağı nəticəyə gəlməyi öyrədir.

Tərbiyəçi uşaqlar arasında heç bir fərq qoymamalıdır.

Tərbiyəçi yüksək əxlaqi keyfiyyətə malik olmalıdır. O, hərəkət, davranış və mədəni səviyyəsinə görə nümunə olmalıdır. Uşaqlar təqlidçi olduqlarından, həmişə tərbiyəçilərin hərəkətlərini, davranışlarını müşahidə edərək onlara oxşamağa çalışırlar. Onlar tərbiyəçinin səsini, yerişini, bağça işçiləri ilə söhbətini, münasibətini təqlid edərək öz oyunlarında, yoldaşları ilə rəftarında ona oxşamağa çalışırlar (xüsusən də qız uşaqları evdə də tərbiyəçi kimi davranırlar). Ona görə də tərbiyəçi öz hərəkətlərinə, danışığına nəzarət etməlidir. Yaxşı müəllim, yaxşı tərbiyəçi uşaqlar tərəfindən heç vaxt unudulmur.

Tərbiyəçi sadə, təvazökar olmalıdır. O, uşaqlarla mehriban davranmaqla yanaşı həm də onlara qarşı tələbkar olmalıdır.

Tərbiyəçi ilə uşağın ünsiyyəti fəaliyyət prosesində yaranır. Tərbiyəçinin şəxsi keyfiyyətləri uşaqlarla ünsiyyət zamanı özünü göstərir. Ünsiyyət iki nəfərin iştirakından yaranır. Tərbiyəçi uşaq – yəni tərbiyə verən və tərbiyə olunan. Bunların birgə fəaliyyəti sayəsində gələcək vətəndaş yetişir.

Pedaqoji fəaliyyətlə məşğul olan şəxs xüsusi hazırlıq keçdikdən sonra yetişməkdə olan nəslin tərbiyəçisinə çevrilir. Tərbiyəçi pedaqoji biliklərə müvafiq hərəkət edir. Pedaqoji iş –

fəaliyyət nəticəsində tərbiyəçi uşaqlara ancaq bilik vermir, həm də bacarıqların həyata tətbiqini öyrədir. Tərbiyəçi ictimai həyatla uşaqlar arasında əlaqə yaradır.

Tərbiyəçi uşaqların taleyinə cavabdehdir. Elə bir fəaliyyət növü təsəvvür etmək olmaz ki, ondan uşaqların taleyi asılı olmasın.

Uşaq bağçasında tərbiyəçinin pedaqoji fəaliyyətinin ən başlıca məqsədi uşaqların fiziki sağlamlığının təmin edilməsi ilə yanaşı həm də onların təlimi, inkişafı və şəxsiyyətin formalaşması proseslərini düzgün istiqamətləndirməkdir.

Özünəməxsus pedaqoji fəaliyyətin mahiyyəti onun əsaslandığı obyekt üzərində aparılan işlə yekunlaşır.

Tərbiyəçi öz vəzifələrini nə qədər dərindən dərk etsə, uşaqlarda bir o qədər fəallıq, hadisələrə münasibət, müstəqil fikirləşmək, ümumiləşdirmələr aparmaq, kollektivçilik və s. kimi keyfiyyətlər tərbiyə edəcəkdir. Tərbiyəçi öz pedaqoji biliyi ilə peşəkarlığa dərindən yiyələnir, özünün başlıca funksiyasını dərk edir. Uşaqlarda öyrənmək meyli və bacarığı, müstəqillik, təşəbbüskarlıq, məktəb təliminə hazırlanma kimi qabiliyyətlər və keyfiyyətlər tərbiyə edilir. Peşəkar tərbiyəçilər uşaqlarda fakt və hadisələrə münasibətə dair fikirləşmək, başqa sözlə fikri fəallıq tərbiyə edirlər.

Tərbiyəçinin əsas vəzifəsi aparacağı pedaqoji işlə əlaqədar qarşıya məqsəd qoymasıdır. Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim prosesinin qurulması, aparılması və idarə olunması işi uşaqların inkişaf səviyyəsinə, dərketmə imkanlarına, tərbiyəçinin dünyagörüşünün səviyyəsinə əsaslanır. Uşaq bağçasında və ailədə tərbiyə və təlim şəraitini bilmədən onu düzgün dəqiqləşdirmədən nə məqsədi dəqiq müəyyənləşdirmək, nə də ona nail olmaq üçün üsul və vasitələr seçmək mümkün deyildir.

Tərbiyəçi uşaqların inkişafında və tərbiyəsində cəmiyyətin sosial mədəniyyəti ilə uşaq arasında vasitəçidir. Tərbiyəçinin rolu onun vasitəçiliyi – müasir tələblərə uyğun nəsil yetişdirilməsinə şərait yaratmaqdır. Tərbiyəçi uşaqlarda ilkin qabiliyyətlər yaradır, onu dünyəvi dəyərlərə diqqət yetirməyə istiqamətləndirir. Mək-

təbəqədər tərbiyənin konsepsiyasının məqsədini əldə rəhbə tutaraq tərbiyəçi məktəbəqədər yaşlı uşaqlara yaradıcı şəxsiyyə kimi yanaşmaqdır. Belə ki, o, pedaqoji fəaliyyətin modelini qurmalı, müəyyən olunmuş şəraitdə və vaxtda məqsədə nail olmaq üçün metod və vasitələr seçməyi bacarmalıdır. Məktəbəqədər pedaqogikanın xüsusiyyəti və əmək obyekti pedaqoji fəaliyyətin özünəməxsusluğu ilə şərh edilir. Burada tərbiyəçi subyekt kimi çıxış edir, hansı ki, öz diqqətini, istedadını, qabiliyyətini, bacarığını uşaqların tərbiyəsinə istiqamətləndirir. Tərbiyəçinin pedaqoji fəaliyyətini düzgün qiymətləndirmək üçün onun peşəsinin xüsusiyyətini nəzərə almaq lazımdır. F.Frebel deyirdi ki, cəmiyyətin gələcəyi tərbiyəçidən, anadan asılıdır.

Tərbiyəçinin pedaqoji fəliyyətinin xüsusiyyətləri aşağıdakılardır:

a) tərbiyəçi əməyi şərəflidir, o, gələcək nəslin tərbiyəsinin – inkişafının təməlini qoyur;

b) tərbiyəçi peşəsi - əməyi məsuliyyətlidir, hələ yenicə dünyaya göz açmış uşaqların gələcək həyatının təməlini qoyur. Uşağın sonrakı inkişafı məhz bu təməl üzərində qurulur;

c) tərbiyəçilik çətin və mürəkkəb işdir, məktəbəqədər yaş dövrü uşaqların ən sürətli, dəyişkən inkişaf dövrüdür. Onlarla aparılan təlim – tərbiyə isə çoxcəhətli və mürəkkəbdir.

d) tərbiyəçilik yaradıcı işdir, o, ancaq hazır metodika ilə işləyə bilməz. İşin gedişində yaranmış vəziyyətlə əlaqədar fəaliyyətində müstəqil və yaradıcı olmalıdır. Bunun üçün məktəbəqədər yaşlı uşaqların inkişaf qanunauyğunluqlarını dərindən bilməli və pedaqoji fəaliyyətdə, eləcə də ünsiyyətin bütün variantlarında ona əsaslanmalıdır.

Tərbiyəçi şərəfli əmək sahibi olmaq etibarilə həm də cəmiyyətin inkişafınm təməlini qoyan şəxsiyyətdir. O, uşaqlara şəxsi nümunəsi ilə təsir göstərir. Yüksək təqlidçilik bacarığına malik olan, dünyanı yenicə dərk etməyə başlayan uşaqlar yaşlılardan həyat dərsi alır. Onlar yaşlılar kimi olmağa çalışırlar. Onlar üçün tərbiyəçi ən müqəddəs və hər şeydən baş çıxara bilən şəxsiyyətdir.

Tərbiyəçi öz işinin öhdəsindən gəlmək üçün şəxsi keyfiyyətlərə malik olmalıdır. O, əsl mənada şəxsiyyət olmalıdır. Məktəbəqədər müəsisələrdə çalışan tərbiyəçilik peşəsinə malik olan şəxsiyyət aşağıdakı keyfiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Tərbiyəçi siyasi cəhətcə savadlı, yüksək əqidəli vətəndaş olmalıdır. Uşaqlarda vətənpərvərlik hissi aşılamalıdır. Özünün vətənə olan sevgisini uşaqlar qarşısında nümayiş etdirməlidir.

2. Tərbiyəçi yüksək nüfuz sahibi olmalıdır. Peşəsinə dair dərin bilik, mədənilik, mənəviyyat nümunəsi olmalıdır. Qazandığı nüfuzu itirməmək üçün o, yersiz hərəkətlərə, ədalətsiz münasibətlərə, ehtiyatsız sözlər işlətməyə yol verməməlidir. Hər bir tərbiyəçi özünə və hərəkətlərinə ehtiyatla yanaşmalı və öz nüfuzunun keşiyində durmalıdır.

Tərbiyəçinin qarşısında duran vəzifələr:

a) Tərbiyəçi öz peşəsini dərindən bilməlidir.

b) Tərbiyəçi uşaqların bütün hərəkətlərinə, davranışlarına nəzarət etməlidir.

c) Tərbiyəçi oyunda, əməkdə və məşğələlərdə nitqinə fikir verməlidir. O, səsinin ahəngi, səlistliyi ilə uşaqların diqqətini özünə cəlb etməlidir.

# V FƏSİL

## KÖRPƏLİK DÖVRÜNDƏ UŞAQLARIN İNKİŞAFI VƏ TƏRBİYƏSİ

**Uşaq həyatının birinci ilinin xarakteristikası.** Uşağı tərbiyəsinə onun doğulduğu gündən başlamaq lazımdır. İlk gündən körpənin hərtərəfli sağlamlığı, fiziki və psixoloji inkişaf üzrə məqsədəyönlü iş görülməlidir.

Uşağın ilk ilində onun sağlamlığının fiziki inkişafının təmin edilməsi, müxtəlif fəaliyyət sahələrinin normal getməsinə, ali sinir sisteminin, ümumiyyətlə orqanizmi-nin hərtərəfli inkişafına şərait yaradır. Bu isə uşağın sonrakı tərbiyəsi üçün zəruri şərtdir.

Həyatın birinci ilində fəaliyyətin aparıcı növü yaşlılarla bilavasitə emosional ünsiyyətdir. Məhz bu ünsiyyətin daxilində və onun fonunda görmə, eşitmə, fiziki hərəkət, həmçinin başqa duyğu və qavrayışlarla tənzim olunan davranış növləri təşəkkül tapır. Bu yaşın ən mühüm cəhəti başqaları ilə ünsiyyətə olan tələbatın və onlarla emosional münasibətin özünəməxsusluğudur.

Uşağın sensor fəaliyyəti, emosiyalılığı, nitqi, yaddaşı, diqqəti, əşya və hadisələrlə davranışını, ətrafdakılara münasibəti məhz onun inkişafı, dünyagörüşünün genişlənməsi ilə bağlı olub, əyani-obrazlı təfəkkürlə ifadə olunur.

Körpənin təcrübəsinin tədricən yaranmağa başlaması onun mərkəzi əsəb sisteminin məqsədəyönlü şəkildə inkişafına təsir edir. Həyatının ilk günlərindən gün ərzində 20 – 35 dəqiqə fəal oyaqlığa malik olan, oynamağa qadir olan uşaq həyatının birinci ilinin axırında fasiləsiz olaraq 2,5 - 3 saat oyaq qalır.

Birinci ilin axırmadək uşağın boyu orta hesabla 23 – 30 sm, çəkisi 6 – 7 kq. olur. Onun ilk dişləri çıxır. Körpə ilin axırında yeriməyə başlayır. Bu isə onun yaxın olan əşyaları və ətraf aləmi öyrənməsinə şərait yaradır. Ətrafdakı yaşlılarla ünsiyyət bağlamağa maraq göstərən, tədricən eşitdiklərini anlamağa, sözdən eşitməyə başlayan yaxın adamlara tək-tək sözlərlə müraciət edir.

Bu dövrdə uşaqlar əşya və hadisələrin adlarını öyrənməyə səy göstərir, onların xassələri ilə tanış olmağa can atır, onlardan istifadə etməkdə müstəqil olmağa meylli olurlar. Bütün bunlar birinci ilin sonunda baş verir.

Ona görə də həyatının birinci ilində tərbiyəçi və valideyin uşağa daha böyük qayğı göstərməli, onların hərtərəfli inkişafını təmin etməklə məsuliyyətli olmalıdırlar.

**Tərbiyənin vəzifələri.** Uşaqların həyatının birinci ilində ən mühüm vəzifə onların fiziki inkişafının təmin edilməsi, onların sağlamlığının qorunması və möhkəmləndirilməsi, əsas hərəkətlərinin inkişaf etdirilməsi, formalaşdırılması, səliqəliliyə, gigiyena vərdişlərinə, rejimə alışdırılmasının böyük əhəmiyyəti vardır.

Əqli tərbiyənin təmin olunması üçün uşaqlarda bələdləşməyə meyl yaradılmalıdır. Onların hissi təcrübələrinin bünövrəsini daha əsaslı şəkildə qoymaq, məzmununu zənginləşdirmək, genişləndirmək, oyuncaq və məişət əşyaları ilə tama-şada olmaq imkanı yaradılmalıdır.

Mədəni davranışın şərtlərini, başqa sözlə, ilk müsbət adətləri formalaşdır-maq, mənfi adətlərin yaradılmasına imkan verməmək fəaliyyətin bütün növləri üzrə körpədə ilkin fəallıq və müstəqillik, hörmət və kiçiklərlə xeyirxah münasibətlər aşılamaq tərbiyə işinin başlıca vəzifəsidir.

Kiçikyaşlı uşaqlarda mədəni davranmanın bünövrəsini qoymaq üçün uşağı əhatə edən düşünülmüş şəkildə təşkil etmək, tərbiyəvi təsirləri müntəzəm həyata keçirmək lazımdır.

Uşaqların hərtərəfli tərbiyəsinin kompleks vəzifələrini həyata keçirərkən hər bir uşağın fərdi xüsusiyyəti nəzərə alnmalı, həddən artıq uzunmüddətli fiziki hərəkət, oyun-məşğələlər, güclü səs-küy və digər proseslərə yol verilməməlidir. Uşaqların birinci ilinin yüksək inkişaf inkişaf sürətini nəzərə almaq, tərbiyə prosesində yaş dövrünə uyğun proqram tələblərinin həyata keçirilməsinə vaxtında başlamaq lazımdır. Hər bir yaş dövründə (2,5-3 ay, 3 aydan 5-6 ayadək, 5-6 aydan 9-10 ayadək, 9-10 aydan 1

ilədək) uşağın gələcək həyatına təsir göstərən bacarıqlar tərbiyəsinə üstünlük verilməlidir.

**A n a d a n  o l a n d a n 2,5 – 3 a y l ı ğ a d ə k.**

Uşağa doğulduğu gündən gün ərzində yuxu və gecə vaxtı yedizdirmə rejimini müəyyənləşdirmək (hər 3 saatdan bir 7 dəfə yaxud 3,5 saatdan bir 6 dəfə), gigiyenik xidmət göstərmək lazımdır.

Sonralar fəal gümrahlığı təşkil etməklə, yedizdirmə, oyaqlıq və yuxunu ardıcıl növbələşdirməklə uşağı rejimə uyğun yaşamağı öyrətmək: 3,5-3 saatdan bir 6 (7) dəfə yemək vermək, 5 dəfə gündüz yuxusu (1,5-2 saat) və gümrahlıq (1,5-2 saat) təşkil etmək lazımdır.

Oyaqqalma zamanı uşağın emosional tarazlığını saxlamaq diqqət mərkəzində olmalıdır. Yeməyə, yatmağa, gigiyenik tədbirlərə münasibət tərbiyələndirmək və bu zaman uşağın fəallığını təmin etmək vacibdir.

Körpələrdə ilkin müsbət vərdişləri yaratmaq və formalaşdırmaq ardıcıl və müntəzəm iş sistemi tələb edir. 2-3 həftəlik uşağı qarnı üstə qoymaq, başını qaldırıb, bir müddət saxlamaq bacarığını inkişaf etdirmək ananın və tərbiyəçinin əsas vəzifələrindəndir. İki – üç aylığında uşaq çiyinə istinadən başını qaldırmaqla sərbəst qarnı üstə uzanır. Südəmər dövründə mühüm fəaliyyətin bələdləşmə, ünsiyyətin yaranması və formalaşması üçün böyük əhəmiyyəti olan görmə və eşitmə fəallığı təmin edilməlidir.

Körpəyə hərəkətdə olan obyektləri izləməyi, baxışlarını asılmış əlvan oyuncaqlara cəmləşdirməyi, ünsiyyətdə olduğu yaşlının üzünə baxmağı öyrətmək üçün müəyyən tərbiyəvi tədbirlərdən istifadə edilir. Görmə, eşitmə, lamisə üzvlərinin iştirakı ilə yaranmış təsəvvürlər arasında əlaqələr yaratmaq imkanından istifadə edilir.

Uşaqlarla mülayim, gülərüzlülük, ünsiyyət prosesinə müsbət reaksiyası yaratmağı (3-4 həftəlikdə ilk gülümsəmə, 2-3 aylıqda gülümsəmə, qığıldama , əl və ayaqların enerjisinin hərəkə-

ini ("kompleks canlanma") təmin etmək son dərəcə əhəmiyyətlidir.

**2,5 - 3 aylığından 5-6 ayadək körpələrin tərbiyəsi.** Körpəni gün ərzində 6 dəfə hər 3 saatdan bir yedizdirmək, gündüz 1,5-2 saatdan bir dörd dəfə yatızdırmaq, saat yarım - iki saat oyaq saxlamaq nəzərdə tutulur.

Rejimin yerinə yetirilməsi prosesinə müsbət münasibət formalaşdırılır. Yemək vaxtı uşaqlara fəal olmaq öyrədilir. Uşaq yeməklə dolu şüşəni iki əllə tutub ağzına yaxınlaşdırır, yeyərkən onu tutub saxlamağı bacarır.

Təxminən 4-5 aylığında uşaqlara yaşlılar yarımqatı xörəyi qaşıqla yedizdirirlər. Bu prosesdə səliqəliliyə, təmizkarlığa riayət edilməlidir.

İki ay yarımlıq uşaqlara əşyalarla hərəkət etməyə maraq oyadılır. Oyuncaqlar beşiyin, nəninin üstündən elə asılmalıdır ki, uşağın əli onlara çatsın. O, oyuncağı tutub özünə tərəf çəkə bilsin.

Körpəni iməkləməyə hazırlaşdıran hərəkətləri inkişaf etdirmək, arxası və qarnı üstə uzanarkən böyüklərin qucağında şaquli vəziyyətdə olarkən uşaqlarda hərəkət edən obyektləri izləmək və hərəkət etməyən əşyalara diqqətlə baxmaq bacarığı tədricən təşəkkül tapır.

Uşaqların diqqətini müxtəlif formalı, rəngli və səsli əşyalara yönəltməklə onların görmə və eşitmə təəssüratlarını zənginləşdirmək, məşğələdə və məşğələdən kənar vaxtlarda sistemli və ardıcıl iş aparmaq lazımdır.

Müxtəlif səsləri eşitmək, səsinə görə yaşlıların, yaxud səsli oyuncaqların yerini müəyyənləşdirmək üçün başını çevirmək və baxışları ilə onun yerini tapmaq, böyüklərin müxtəlif intonasiyalı ( mülayim, şən, ciddi) çağırışını, nitqini, müxtəlif səsləri dinləyə bilmək bacarığı körpə yaşlarda tədricən yaranır.

Uşağa şən, sakit melodiyalar oxumaqla şən əhval – ruhiyyə yaradılır. Onda təbəssüm, əl və ayağın hərəkəti, səs reaksiyası həyatın birinci ilk illərindən başlayaraq inkişaf edir.

Uşağa yaxın adamları tanış olmayan adamlardan fərqləndirməyi öyrətmək üçün həyatı situasiyalardan istifadə edilir. Onlarda valideynləri, yaxın yaşlıları görərkən müsbət emosiyalar göstərmək meyli oyadılır.

**5- 6 aydan 9 – 10 ayadək.** Yuxu müddətini 2 saat olmaqla gündə 3 dəfə olur, 2 – 2-5 saata kimi fasiləsiz oyaq qalmaq və 4 saatdan bir yemək rejiminə əməl edilir.

Müstəqilliyin və səliqəliliyin yaradılması və formalaşdırılması üzrə iş davam etdirilir. 5 – 6 aylığından yaşlının tutduğu fincandan su və çay içmə öyrədilir, 7 aylığından yedizdirərkən əlinə çörək vermək məsləhətdir. 8 – 9 aylığından yuyunma zamanı əlini suya uzatmağı, geyinmək və soyunmaqda iştirak etməyə (məsələn, kalkotkanı, çorabı, ayaqqabını geyinərkən ayağını qaldırmağa) alışdırmaqla valideyn və tərbiyəçi aşılamaqla tərbiyəçi uşaqda ilk özünəxidmət vərdişləri aşılamağa başlayır.

Sürüşmək üzrə ilkin vərdişləri aşılamaqla tərbiyəçi fiziki inkişafa təsir göstərəcək şərait yaradır. Uşaqda uzanmış vəziyyətdən oturmağa, oturmuş vəziyyətdən uzanmağa, heç bir kömək olmadan oturmağa, sonra isə dayaqdan tutaraq qalxıb çökməyə meyl yaradılır. 9 aya yaxın dayaqdan tutaraq yeriməyi, 9 aydan sonra isə dayaqdan tutaraq ayaq üstə dayanmağa, bir neçə pilləli pilləkənə qalxıb və enmə bacarıqları tərbiyə olunur. Uşaqlarda görmə və eşitmə üzrə bələdləşmə inkişaf etdirilir. Ətraf mühitə, yaşlılara, yaşıdlarına, oyuncaqlara, məişət əşyalarına marağı gücləndirmək, uşaqların böyüklər və uşaqlarla ünsiyyətə girmək cəhdlərinə kömək etmək məqsədilə təlimlər aparılır, əşyalarla hərəkətlər davam etdirilir. Oyuncaqlarla uzun müddət oynamaq, sadə oyuncaqların görünüşünü yadda saxlamaq öyrədilir. Böyüklərin sözləri ilə müəyyən hərəkəti yerinə yetirməyi öyrətmək lazımdır. Musiqi alətlərində ifa edilən şən, sakit melodiyalarla emosional həssaslıq tərbiyə etmək lazımdır.

**9 – 10 aydan 12 ayadək.** Tədricən uşaqları gündə 2 dəfə 1,5 – 2,5 saata kimi yatızdırmaq və 2,5 – 3 saata kimi fəal oyaqlıq rejiminə keçirmək lazımdır. Uşaq yuxudan oyanandan təqribən yarım saat sonra yedizdirilir.

Müstəqillik tərbiyəsini davam etdirmək məqsədilə tədricən əlləri ilə fincanı tutaraq içmək, böyüklər çörəyi uzatdıqda ona əlini uzatmaq, çörəyi dişləyib çeynəmək və s. kimi özünəxidmət adətlərinə yiyələnmək, həm də səliqəni gözləmək bacarığı aşılanılır.

Uşaqlarda müstəqil yerimək üçün verilən hərəkətləri təkmilləşdirmək əsas vəzifələrdəndir. Bu dövrdə uşağın yaxşı iməkləməsinə və dayaqdan tutaraq yeriməsinə nail olmaq mühüm nailiyyətdir. Bu hərəkətlərə yiyələnən uşaqlarda müstəqil (dayağın köməyi olmadan) yeriməyə həvəs yaratmaq bir yaşın son günlərindən başlayır.

Uşaqda tədricən görmə, eşitmə və s. analizatorların birgə fəaliyyəti ilə təəssüratlar yaradılmağa başlayır. Yaşlıların şəxsi nümayişi və göstərişi ilə hərəkətləri yerinə yetirmək öyrədilir. Uşaqların öz məqsədlərinə çatmalarını, əşyalarla etdiyi hərəkətlərdə inadkarlıqlarını alqışlamaq, mükafatlandırmaq beləliklə onları həvəsləndirmək lazımdır. Yaşlıların nəzarəti və köməyi ilə uşaqlar süjetli oyuncaqlarla hərəkət etməyi öyrənirlər.

Müəyyən nəticəyə nail olmuş uşaqların sevincinə şərik olmaq, onlarla birlikdə sevinmək lazımdır. Praktik hərəkətlərdə müstəqilliyi formalaşdırmaq, oyuncaqlarla hərəkət zamanı uşağın məşğuliyyətliliyinə və fəallığına kömək etmək lazımdır. Bəzi əşya, oyuncaq və heyvanların şəkilləri, həmçinin sadə hərəkət və hadisələrlə tanışlıq fəaliyyət planında əsas yer tutur. Lazımi tonda "olar" və "olmaz", "yaxşı" və "pis" sözlərinə əsasən sadə davranış normalarını öyrətmək lazımdır.

Uşaqlar arasında xeyirxah münasibət tərbiyə etmək, onları hərəkətləri ilə bir - birinə mane olmamağa, etiraz etməyə səy göstərməmək öyrədilməlidir.

Mahnıya, şən musiqiyə, maraqlı oyuna emosional münasibət göstərməyi öyrətmək lazımdır.

## GÜN REJİMİ VƏ UŞAQ HƏYATININ TƏŞKİLİ.

Körpəlik dövrünün birinci qrupunda uşaqlarda müsbət emosiyalar və ətrafdakılarla fəal münasibətin yaranması, onların yuxusunun, yeməyinin, ümumiyyətlə vaxtının düzgün təşkilindən asılıdır.

9 – 10 aylığından uşaq yuxudan oyananda fəal və şən olması üçün dərhal yedizdirilir. Bu proses aşağıdakı cədvəl üzrə təşkil edilməlidir.

Cədvəl 1.

| Yaş | Yedizdirmənin sayı | Yedizdirmənin arasında fasilənin müddəti | Oyaqlıq dövrünün müddəti | Gündüz yuxusu dövrünün sayı | Hər bir yuxu dövrünün müddəti | Gün ərzində yuxunun müddəti |
|---|---|---|---|---|---|---|
| 2,5-3 aylığadək | 7 | 3 saat | 1 saat-1saat 30 dəq. | 4-5 dəfə | 2saat-1saat. 30 dəq. | 18 saat-17saat. 30 dəq. |
| 2,5-3 aydan 5-6 ayadək | 6 | 3saat-30dəq. | 1saat 30dəq. 2saat. | 4-3 dəfə | 2saat.-1saat. 30 dəq. | 17s. 30dəq. 17saat |
| 5-6 aydan 9-10 ayadək | 5 - 6 | 4saat | 2saat-2saat 30 dəq. | 3 dəfə | 2saat.-2saat. 30dəq. | 16saat 30dəq. 16saat |
| 9 aydan 1 ilədək | 5- 4 | 4saat.-30 dəq. | 2saat. 30dəq. 3saat | 2 dəfə | 1saat. 30dəq. 2saat. 30dəq. | 15s.-14s. 30 dəq. |

Rejimdə dəyişikliklər müəyyənləşdirərkən yalnız uşağın yaşını deyil, fiziki inkişafını və sağlamlıq vəziyyətini, fərdi xüsusiyyətlərini də nəzərə almaq zəruridir. Zəifləmiş və xəstələnmiş uşaqların daha tez-tez istirahətə, yedizdirməyə və oyaqlıq vaxtının azaldılmasına ehtiyac olur. Fiziki cəhətdən daha sağlam olan uşaqların rejimi təxminən aşağıdakı rejim əsasında tərbiyə edilir.

# Təxmini gün rejimi

Cədvəl 2.

| | Doğumundan 2,5-3 ayadək | 2,5-3 aylığından 5-6 aylığadək | 5-6 aylığından 9-10 aylığadək | 9-10 aylığından 1 yaşınadək |
|---|---|---|---|---|
| **Evdə** | | | | |
| Oyandıqda tədricən yataqdan qalxmaq | 6.00 | 6.00 | 6.00 | - |
| Tualet yedizdirilmək | 6.00-7.00 | 6.00-7.30 | 6.00-8.00 | 6.30-9.30 |
| **Məktəbəqədər müəssisədə** | | | | |
| Uşağın qəbulu | 7.00 | 7.00 | 7.00-8.00 | 7.00-7.30 |
| Açıq havada yuxu | 7.30-9.00 | 7.30-9.30 | 8.00-10.00 | - |
| Yedizdirilmə | 9.00 | 9.30 | 10.00 | 7.30 |
| Oyaqlıq,masaj, gimnastika | 9.00-10.00 | 9.30-11.00 | 10.00-12.00 | 7.30-9.30 |
| Yarım qruplarla məşğələ | - | - | 10.00-11.10 11.20 | 8.40-8.50 9.00 |
| Açıq havada yuxu | 10.00 -12.00 | 11.00-13.00 | 12.00-14.00 | 9.30-12.00 |
| Yedizdirilmə | 12.00 | 13.00 | 14.00 | 12.00 |
| Oyaqlıq | 12.00-13.00 | 13.00-14.30 | 14.00-16.00 | 12.00-15.00 |
| Yarım qruplarla məşğələ | - | - | 14.30-14.40 14.50 | 13.40 13.50-14 |
| Açıq havada yuxu | 13.00-15.00 | 14.30-16.30 | 16.00-18.00 | 15.00-16.30 |
| Yedizdirilmə | 15.00 | - | - | - |
| Oyaqlıq | 15.00-16.00 | 16.30 | 18.00 | 16.30 |
| Açıq havada yuxu | 16.00-18.00 | 16.30-18.00 | 18.00-20.00 | 17.00-20.00 |
| Yedizdirilmə | 18.00 | - | - | - |
| Oyaqlıq | 18.00-19.00 | - | - | - |
| Uşaqların evə getmələri | 15.30-18.30 | 16.30-18.00 | 15.30-18.00 | 17.00-19.00 |
| **Evdə** | | | | |
| Yuxu | 19.00-20.00 | 18.00-20.00 | - | - |
| Oyaqlıq | 20.00-21.00 | 20.00-21.00 | 18.00-20.00 | 17.00-20.00 |
| Çimmək | 20.45 | 20.45 | 19.45 | 19.45 |
| Yedizdirilmə | 21.00 | 21.00 | 20.00 | 19.00 |
| Gecə yuxusu | 21.00-6.00 | 21.00-6.00 | 20.00-6.00 | 20.00-6.30 |
| Gecə yedizdirilməsi | 24.00 və ya 3.00 | 23.30 və ya 3.00 | 22.00 | 22.00 (10 ayadək) |

Uşağı sonrakı yaş qrupunun rejiminə o halda keçirmək lazımdır ki, o növbəti gündüz yuxusundan imtina edir, güclə yuxuya gedir, tez oyanır, ayıqlığın sonunadək fəal olur, yedizdirmə vaxtına xeyli qalmış aclıq əlamətini bildirir, narahatçılıq keçirir. Müxtəlif aylarda anadan olmuş uşaqlar bir qrupda olduqda müxtəlif yaş rejimləri tələb edilir. Belə hallarda uşaqları ayıqlıq və yemək vaxtının uyğunluğuna görə qruplara ayırmaq lazımdır.

**Yuxu.** Uşaqları tez və sakit yatmağa alışdırmaq lazımdır. Yaşın dəyişmə-sindən asılı olaraq gündüz yuxusunun sayı və müddəti də dəyişir, gecə yuxusunun isə müddəti artır. (10-11 s.) Gündüz yuxusundan əvvəl uşaqları açıq havada gəzdirmək vacibdir. Bu yaşda uşaqlar azı 4-6 saat açıq havada olmalıdırlar. Yayda, yağmursuz payız günlərində, temperatur $+15^{0}$–dən aşağı olmayan qış günlərində uşaqların şüşəbənddə, açıq eyvanda yatızdırılmaları məsləhət görülür. Yuxu üçün lazımi şərait yaratmaq və uşağı yuxuya hazırlamaq, onu yuxusu gəldiyi vaxt yatızdırmaq, zəif və yuxudan tez qalxmış uşaqları ilk növbədə yatızdırmaq lazımdır.

**Yuxudan oyanma və yedizdirmə.** Düzgün rejim olduqda uşaqlar yemək vaxtı çatanda yuxudan ayılırlar. Oyanan kimi onların nəzərdə tutulan normanı yemələri vacibdir.

Yemək zamanı çalışmaq lazımdır ki, uşaqların əlləri, üzü bulanmasın, səliqəlilik gözlənilsin.

Uşaqlar təxminən 8 ayadək qoltuqlu stullarda, tədricən qucaqda, kiçik ölçülü stulda əyləşib, müstəqil, səliqəli yeməyi öyrənməlidirlər. Yaxşı olar ki, onların xüsusi kresloları və boylarına uyğun stolları olsun.

Uşaqların ümumi fiziki inkişafını təmin etmək, hərəkətlərini formalaşdırmaq məqsədilə gündə bir dəfə yeməkdən 30-40 dəqiqə sonra gimnastika məşğələsi təşkil olunmalı, onlar masaj edilməlidirlər.

Uşağın çimizdirilməsi çox mühüm gigiyenik tədbirdir. 6 aydan 1 yaşadək uşağı günaşırı gecə yuxusundan əvvəl çimizdirmək lazımdır. Rejimin düzgün yerinə yetirilməsi üçün tərbiyəçi

uşağı yedizdirib, manejə qoymalı, onların fəal oynamalarını təşkil etməlidir. Tərbiyəçi köməkçisi yatanlara nəzarət edir, oyanmış uşaqları qaldırır və bununla baş tərbiyəçiyə kömək göstərir.

Uşaqlarda yeməyə, geyinməyə, yuyunmağa, gimnastika və masaja müsbət münasibət yaratmaq və bu proseslərin yerinə yetirilməsində onların fəal iştirakını təmin etməyə nail olmaq lazımdır.

Ayıqlıq zamanı tərbiyə işlərinin təşkili xüsusi əhəmiyyət kəsb edir. Qrup otaqlarında uşaqların fəal ayıqlığı üçün şərait yaradılmalıdır. İlk dövrlərdən onlar manejdə olarkən özlərində sərbəstlik və gümrahlıq hiss edirlər. Bir manejdə eyni vaxtda 5-6 uşaq ola bilər.

Təxminən 4-5 aylığınadək uşaqların tutmaları, baxmaları, əl ilə yoxlamaları üçün müxtəlif şaxşaxlar, 5-6 aylığından toplar, obrazlı, səsli oyuncaqlar və s. təqdim olunmalıdır. Oyuncaqlar manejin müxtəlif yerlərində, məhəccərdə yerləşdirilməlidir ki, uşaq onlarla oynamağa cəhd göstərirlər. Yaxşı iməkləyən, yeriməyə çalışanlar manejdən çıxarılıb döşəmənin əhatəyə alınmış sahəsinə buraxılırlar.

Yeni hərəkətlər öyrədilərkən uşaqlara müstəqillik tələb edən oyunlar vermək lazımdır. Uşaqların müstəqil hərəkətlərinə istiqamət verilməli, qrupda mehriban ünsiyyət şəraiti yaradılmalıdır.

Qrupa yeni gəlmiş uşaq kollektivlə ünsiyyətə girə bilmədikdə müəyyən müddət onu çarpayıda, manejdə ayrıca saxlamaq, həyacanlandıqda qucağa almaq, başını sığallamaq, sakitləşdirmək lazımdır. Uşaqların bir yerə toplanmalarına, bir-birinə mane olmalarına yol verilməməlidir. Yorğunluq hiss edildikdə yatızdırılmalıdırlar.

**Oyun – məşğələlər.** Oyun məktəbəqədər yaşlı uşaqların fəaliyyətinin başlıca növüdür. Ona görə də uşaq bağçalarında məşğələlər oyun xarakteri daşıyır. Təlim xarakterli oyun – məşğələ uşaqlarda bilik və bacarıqlar formalaşdırır.

Oyun – məşğələ tərbiyəçi tərəfindən gün ərzində bir neçə dəfə aparıldıqdan sonra sərbəst oyunla əvəz olunur. Bu və ya digər bacarıqların mənimsənilməsi ilə əlaqədar məşğələləri tərbi-

yəçi tədricən mürəkkəbləşdirir. Oyun qaydalarına hamı bələd olduqdan sonra birgə oyun - məşğələ keçirilir. 2,5 -3 aylıq uşaqlarla fərdi oyun - məşğələlər təşkil olunur.

Kiçik qrupda aşağıdakı oyun - məşğələlər təşkil olunur.

Görmə və eşitmənin inkişafı üçün hərəkət edən, səslənən əşyaları, danışan kuklaları izləmək üçün mahnı oxumaqdan, danışmaqdan istifadə edilir. Böyüklərin qucağında şaquli vəziyyətdə olan uşaqla danışıb, onda təbəssüm yaratmaq lazımdır.

Uşaqlara 50-60 sm. məsafədə hərəkət edən rəngli əşyanı izləmək öyrədilir. Müxtəlif əşyaların (şaxşaxlar, zınqırovlar və s.) çıxardığı səsləri dinləmək onlarda həvəs oyadır. Uşaqlarla gülümsər, mehriban danışmaqla onlarda cavab reaksiyasına hazırlıq tərbiyə olunur. Başı üfüqi və şaquli vəziyyətdə saxlamaq bacarığını inkişaf etdirmək üçün uşağı qarnı üstə qoyub, onda başını qaldırmaq bacarığını yaratmaq (yorulduğu hiss olunduqda arxası üstə çevirmək) lazımdır.

Ayaqların dayağının inkişafı üçün başı şaquli vəziyyətdə saxlamağı bacaran uşağın qoltuğundan tutub yerdən təkan verməsi üçün onu yuxarı qaldırıb, aşağı endirmək lazımdır.

**2,5 aydan 5- 6 aya kimi uşaqlarla fərdi oyun – məşğələlər.** Üç aylığından uşağın görmə və eşitmə bacarığını inkişaf etdirmək üçün diqqətini uzaqdan göstərilən əşyaya yönəltməyi, səsin mənbəyini axtarmağı öyrətmək üçün lazımi şərait yaradılmalıdır.

Səsin tonunun, müxtəlif oyucaqların səsinin dəyişməsini, əşyanın böyüklüyünün, formasının, rənginin, vəziyyətinin dəyişməsini öyrətmək üçün məşğələlər və məşğələdən kənar vasitələrdən istifadə etmək lazımdır.

Uşaqlarda müsbət emosional vəziyyət yaratmaq məqsədilə hər birinə mehri-banlıq göstərmək, gülümsəmək, müraciət etmək adət şəklini almalıdır. Bu zaman onların sadə açıq hecalar ( nə, də, ba, bi və s.) və onların təkrarından ibarət sözləri (nənə, dədə, baba, bibi və s.) tələffüz etmələrinə nail olmaq vacibdir.

Uşağın başı üstə oyuncağı tutmasını onun həmin oyuncağa əl atması təmin edilməlidir. Beş aylığından müxtəlif vəziyyətdə

hər əlinə bir oyuncağı götürmək bacarığını öyrətmək lazımdır. Uşaqlar oyuncağı iməkləyərək götürməsinə şərait yaratmalı, onlar iməkləməyə sövq edilməlidirlər. Onlar ayaqları dayaq verməklə qarnı üstə uzanmağa alışdırılır. Arxası üstə və əksinə çevrilməyi öyrətmək əzələ və sümük sisteminin inkişafına şərait yaradır. Ayaq üstə dirənməyi və əllərindən tutduqda dayanmağı öyrənmək üzrə iş vaxtaşırı təkrar edilməlidir.

**Musiqili oyun – məşğələlər.** Musiqi dinləmək və nəğməyə qulaq asmaq uşaqlarda canlanma və təbəssüm yaradır. Uşağın nitqi anlaması və onda təəssüratların yaranması üçün əvvəllər müəyyən məsafədə qoyulmuş, sonra yerləri dəyişdirilmiş oyuncağı nəzərləri ilə axtarmaq və tapmaq bacarığı tərbiyə olunmalıdır.

Yeddi aylığında uşaqlara yamsılama yolu ilə əl çalmaq, əl vermək, yola salmaq ( xudahafizləşmək ), əl işarəsi ilə öpmək, əllə yanına çağırmaq və s. hərəkətləri icra etdirmək mümkündür. 8-9 aylığında onlar yaşlıların müvafiq tələblərinə belə hərəkət-ləri yerinə yetirməklə cavab verilir.

Ailə üzvlərinin, yaxın adamların adlarını öyrənmək məqsədilə gizlənpac oyna-maq, " ver", " al" , " olmaz" kimi sözləri başa düşmək öyrədilməlidir.

6 – 7 aylığından yaşlıların dedikləri asan hecalar və sözləri təkrarlamaq 8 aylığından yeni söz və hecaları təqlid etmək öyrədilir. İməkləmək, ayağa qalxmaq, addımlamaq hərəkətlərini inkişaf etdirmək üçün onlarda oyuncaq və fiqurlara yanaşmaq marağı oyadılmalıdır. Bu dövrdə bəzi hərəkətləri sözlə yerinə yetirmə qabiliyyəti də tərbiyə edilir.

**5-6 aydan 9-10 ayadək uşaqlarla qrup halında oyun və məşğələlər.** Oyuncağın, hərəkətin, qrup yoldaşlarının adını demək bacarığı aşılamaq məqsədilə oyuncaqları göstərmək, onların hərəkətini nümayiş etdirmək və adlarını söyləmək lazımdır. Oyunların, oyuncaqların hərəkətlərini musiqi sədaları altında nümayiş etdirməklə uşaqların diqqətini daha çox cəlb etmək mümkündür.

**10 aydan 1 yaşadək fərdi oyun- məşğələlər.** Uşaq böyüklərin tələbi ilə oyuncaqların içərisindən tələb olunanı tapır, onu gətirib, adını deməklə yoldaşına və ya tərbiyəçiyə təqdim edir. Uşaqlar tələb olunan oyuncağı gətirdikdən sonra zahiri əlamətinə görə ona oxşar əşyaların adını deməyi bacarırlar.

Eyni hərəkəti müxtəlif əşyalara tətbiq etmək (maşını, arabanı dartmaq, itələmək, atı, iti "yedizdirmək") bacarığı tərbiyə edilir. Uşaqlar tədricən əşyalarla görülən işin adını öyrənir və nitqlərində istifadə edirlər. Tərbyəçilər uşaqlara yalnız mimika və jestlərdən deyil, sözlərdən də (" am-am", "lay-lay" ) istifadə etməyi öyrətməklə uşaqların əqli fəaliyyətinə şərait verirlər.

Qapaqlı əşyaları açmağı və bağlamağı, ölçüsünə və formasına uyğun olan həndəsi fiqurları ( kubikləri) bir – birinin üstünə qoymağı bacarmalıdırlar.

Yaşlılar uşaqların əvvəl iki, sonra bir əlindən tutub yeritməklə sərbəst addımlamağa alışdırırlar. Onlar tədricən müstəqil addım atmağı, yeriməyi öyrənirlər. Uşaqların emosional vəziyyətini yüksəltmək və davamlılığını artırmaq üçün "qaçdı- tutdu", "getdik – getdik" və s. hərəkətli oyunlar təşkil edirlər.

**Qrup halında oyun məşğələlər**. Tərbiyəçi günün müxtəlif vaxtlarında oyuncaqların səslərinə və hərəkətlərinə uşaqların diqqətini cəlb etməklə yamsılamalarına şərait yaradır və beləliklə nitqlərini inkişaf etdirməyə nail olur. Get – gedə hərəkətli oyunlara üstünlük verilir. Araba, maşın sürmək, topla oyun, hündürlüyə çıxıb – düşmək, cığırla qaçmaq və s. kimi oyunlara maraq yaratmaq tərbiyəçinin əsas vəzifəsidir. Bu prosesdə təbiət hadisələri və obyektləri, o cümlədən heyvanlar, bitkilər üzərində müşahidələrdə uşaqların nitqi fəallaşdırılır. Şəkillərə baxmaqla əşyanın formasını və hərəkətini dərk etmək məqsədilə obrazlı oyuncaqlarla əyləncəli oyunlar təşkil edilir. İki yaşın axırlarında uşaqlarda oyun zamanı sadə həyat hadisələrinin təsviri ilə yanaşı, hərəkətlərin ardıcıllığını izləmək bacarığı (kuklanı yedirtmək, əl – üzünü yumaq, yatızdırmaq, geyindirmək, gəzintiyə aparmaq və s.) tərbiyə edilir.

Uşaqlarda oyunda iştirak etmək bacarığı formalaşdırılır. Oyuna maraq yaradılır, oyuncaqları seçmək və bölüşdürmək bir – biri ilə əvəz etmək, birgə oynamaq, bir – birinə mane olmamaq, oyuna münasibət bəsləmək öyrədilir.

Tərbiyəçi uşaqları didaktik oyunlarda istifadə olunan əyani vəsaitlərlə (güllər, matryoşkalar, piramidalar, kublar və s.) sadə tapşırıqları müstəqil yerinə yetirməyə hazırlayır. Tikinti materialları həm iri olmalı, həm də stolüstü oyun üçün nəzərdə tutulmalı, süyetli oyuncaqlar ona uyğun gəlməlidir.

Qışda böyük qrup uşaqlarının qar ilə oynamalarına diqqət vermək, onu müşahidə etmək bacarığı tərbiyə edilir. Yayda qumla oyun üçün isə dəmir beldən istifadə tövsiyə olunur. Qumla oynayarkən beldən, vedrədən, yeşikdən heyvan, quş trafaretlərindən, cürbəcür qəliblərdən istifadə etmək, həmçinin istifadə olunan oyuncaq və alətləri yığışdırmaq, təmizləmək və öz yerinə qoymağı öyrətməlidir.

Bu prosesdə başqa uşaqlarla birgə oynamaq, yaşıdlarının oyununa xeyirxahlıqla yanaşmaq, onlara mane olmamaq qabiliyyəti tərbiyə olunur. Onlar sadə kollektiv oyunlar oynamağa daha çox meyl edirlər. İlin sonunda uşaqlar hətta süjetli – rollu oyunlar oynamağa səy göstərirlər. Tədricən uşaqlar sadə süjetlərə yeni epizodlar daxil etməyə çalışırlar, sualların köməyi ilə oyunun maraqlı keçməsinə imkan yaradırlar. "Kukla yedi. O, sonra nə edəcək?", "Salfet haradadır?", "Kukla yatmaq istəyirmi?" və s. kimi suallar verilir.

Tərbiyəçi oyunun süjetini inkişaf etdirmək məqsədilə uşaqlara tikinti materialları verir, onları qurub - yaratmağa təhrik edir.

Oyunda uşağın müəyyən rol (ana, aşbaz, həkim, müəllim və s.) ifa etməsinə şərait yaradılmalıdır. Uşaqlarda bəzi personajların sadə hərəkətlərini obrazlı əks etdirməyə səy tərbiyə edilməlidir. Oyun vaxtı kuklalardan rəfiqə kimi istifadə etməyi, oyuncağı hərəkət edən personaj kimi təsəvvür etmək (itin əvəzinə hürmək, xoruzun əvəzinə banlamaq, onlar kimi hərəkət etmək və s.) bacarıqları tərbiyə olunur.

Ətraf aləmdə uşaqlara yaxın olan mövzuların (ailə həyatı, uşaq bağçası, nəqliyyat, səyahətə çıxmaq və s.) seçilməsi qanunauyğun haldır.

Uşaqlar bədii əsərlərin ("Turp", "Cırtdan", "Tıq – Tıq xanım", "Əlcək", "Doktor Aybolit" və s.) süjeti üzrə oyunlara maraqla tamaşa edirlər. Bu prosesdə onların bir – biri ilə söhbət etməsi üçün şərait yaradılır. Uşaqlar kuklalarına termometr qoymaq, "Doktor Aybolit" oyununda xəstəyə iynə vurmaq, onu yedizdirmək və s. kimi (süfrə açmaq) salfetdən istifadə etmək, kompot içirmək və s. hərəkətlər etməyə çalışırlar.

Oyun prosesində onlar personajların (ayı, tülkü, dovşan, canavar və s.) hərəkətlərini müşahidə edir, səsini çıxarırlar. Oyunda rol ifa etmək üçün süjetinə uyğun hərəkət etməyə alışdırılırlar. Tədricən tərbiyəçinin köməyi ilə müəyyən rolu ifa edə bilirlər.

## HƏYATININ BİRİNCİ İLİNDƏ UŞAQLARIN TƏRBİYƏ EDİLMƏSİ.

**Həyatının birinci ilində uşaqların tərbiyə edilməsi.** Rejimin dəqiq yerinə yetirilməsi - körpə yaşlıların böyüməsi və inkişafının düzgün getməsinin əsas şərtidir. Uşaqların tərbiyəsi rejimə müvafiq gələrsə, hər gün müəyyən vaxtda oyaq qalar, yatar, bunlarsa, uşaqları gümrah və sağlam böyüməlırini təmin edər.

Rejimdə yuxunun müddəti kifayət qədər olmalı və günün müxtəlif vaxtlarında nəzərə alınmalı, həm də bütün tədbirlər yemək saatları hesaba alınmaqla səmərəli şəkildə növbələşdirilməlidir.

Uşaqlar, həyatının birinci ilində böyük inkişaf yolu keçir və buna görə onların yaşayış həyatının qaydası bu dövrdə bir neçə dəfə dəyişirlər.

Uşaqlar birinci üç-beş həftəni oyaq qalmadan çox yatırlar, lakin tədricən gecə-gündüz ərzində yuxunun vaxtı azalır, oyaq qalma vaxtı artır.

Əmizdirmə, yuxu və oyaq qalma uşaqların yaşı ilə gecə-gündüz ərzində aşağıdakı qaydada bölünür.

Bir aydan 3 aya qədər uşaqlar gün ərzində hər 3 saatdan bir, 7 dəfə yemək alırlar, 4-5 dəfə 1 saat, 1 saat 30 dəqiqə oyaq qalırlar, gündüz 4 dəfə , 2 saat, 1 saat 30 dəqiqə, gecə isə saat $19^{30}$ dəqiqədən səhər saat 6-ya kimi yatırlar. 3 aydan 5-6 aya kimi olan uşaqları 6 dəfə hər 3 saat 30 dəqiqədən bir yedirdirlər, onlar 4-5 dəfə 1 saat 30 dəqiqə oyaq qalır, gündüz 3-4 dəfə 2 saat, 1 saat 30 dəqiqə, gecə isə saat $18^{30}$ dəqiqədən səhər saat 6-ya kimi yatırlar.

5-6 aydan 9-10 aya qədər olan uşaqlar hər 4 saatdan bir, gündə 5 dəfə yemək alırlar, 2 saat, 2 saat 30 dəqiqə 4 dəfə oyaq qalırlar, gündüz 3 dəfə 2 saat, 1 saat 30 dəqiqə, gecə saat 20-dən səhər saat 6-ya kimi yatırlar.

9-10 aydan 1 ilə qədər olan uşaqları hər 4 saatdan bir gündə 4-5 dəfə yedizdirilir, 3 dəfə 3-4 saat oyaq qalırlar, gündüz 2 dəfə, 2 saat 30 dəqiqə, 2 saat, gecə saat 20-dən səhər saat 6-ya qədər yatırlar.

Bir yaşa qədər uşaqların həyatına aid rejim və qayda elə qurulmalıdır ki, onlar yeməkdən əvvəl yatsın, yeməkdən sonra isə oyaq olsunlar. Yuxusunu almış uşaq yaxşı yeyir, doyduqdan sonra fəallaşır və oyaq qalır, bundan sonra yatağa qoyulmuş uşaq tez yuxuya gedir və növbəti yeməyədək yatır.

Əgər bir qrupda yaş etibarilə bir-birindən xeyli fərqli, misal üçün 2 və 6 aylıq uşaqlar toplaşmış olarlarsa, o zaman hər yaşın öz rejimi təyin olunmalıdır.

Bir qrupda yaşca bir-birindən daha çox fərqli, 2 aydan 1 yaşadək tərbiyə alan uşaqlar olursa, bu halda hər yaşın yarımqrupu üçün 3 rejim təyin etmək lazımdır.

Bəzən eyniyaşlı qrup üçün 2 rejim təyin edilir. Bu, o zaman lazım gəlir ki, ananın iş şəraiti ilə əlaqədar bəzilərinin uşaqları o birilərindən əvvəl yuxudan oyadılır və evdə yedizdirilir, körpələr evlərinə daha tez gətirilirlər. Körpələr evində bu uşaqları o birilərindən əvvəl yedizdirirlər. Nəticədə yarımqruplarda gündəlik qayda eyni vaxta düşmür.

2-3 rejimi olan bir qrupda bütün uşaqlar eyni vaxtda oyaq olmur, uşaqların bir yarımqrupu yatır. Bu bacı və dayələrə

uşaqları tələsmədən yedizdirmələrinə, oyun zamanı onların hər birinə ayrı-ayrılıqda daha artıq nəzarət etmələrinə imkan yaradır.

Rejimi təyin edərkən hər uşağın ancaq yaşı deyil, eyni zamanda onun fiziki inkişafının xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Qüsursuz fiziki inkişafı, möhkəm əsəb sistemi olan uşaqlar digərlərindən qabaq, daha böyük yaşlı uşaqlar yarımqrupun rejiminə köçürülə bilərlər. Fiziki cəhətdən zəif uşaq üçün onların yaşından daha kiçiklərin yaşına uyğun rejimdə tərbiyə işi aparılır. Əgər tibb bacısı bəzi uşaqların onlar üçün qoyulmuş rejimi pozduqlarını, gec yuxuya getdiklərini, vaxtında yuxudan oyanmadıqlarım, müəyyən edilmiş vaxtda yemədikdə onlarda iştahasızlıq əmələ gəlir. Odur ki, verilmiş yeməyi axıra qədər yemədikləri hiss olunur, bu zaman vəziyyət həkimə xəbər verilir. Həkim isə uşağın rejimində bu və ya başqa dəyişikliklərin edilməsini məsləhət görür.

Uşaqların gündüz yuxusunu açıq havada, bağda, meydançada, yağışlı, yaxud şaxtalı havada da açıq pəncərəli aynabənddə keçirməsi məqsədəuyğundur. Uşaqlar açıq havada yatarkən onların paltarı fəsilə və havaya müvafiq olmalıdır. Açıq havada yuxu uşaqların tez və dərin yuxuya getmələrini təmin edir. Bunun üçün lazımi şərait ( sahə, talvar, şüşəbənd ) olmalıdır.

Uşaqları tələsmədən yedizdirmək və yeməyə çox vaxt sərf edilməsini təmin etmək üçün imkanlar qabaqcadan hazırlanmalıdır.

Uşaqların ayıq qalmaları elə şərait tələb edir ki, onların fəal vəziyyətdə saxla-nılması mümkün olsun, onlar sərbəst hərəkət etməyi və oyuncaqlardan istifadə etməyi bacarırlar. Bu halda tibb bacısı öz rəhbərliyi ilə uşaqların şən, gümrah əhvali-ruhiyyələrini saxlamağa borcludur.

Tibb bacısı valideynlərlə söhbət aparır, uşaq bağçasınm rejiminə evdə də istirahət günləri də riayət etmələrini məsləhət görür.

Rejimin düzgün təşkili nəticəsində uşaq 2 - 2,5 aylığından müəyyən edilmiş vaxtda yuxuya gedir, yatır, oyaq qalmağı və müəyyən saatda qida qəbul etməyi öyrənir.

Körpə uşaqların keyfiyyətli qida qəbulu, onların normal fiziki inkişafında müstəsna dərəcədə əhəmiyyətə malikdir.

Anadan olandan 3 aya qədər uşaqları 3 saatdan bir, gün ərzində 7 dəfə, 3 aydan 5 aya kimi onları 3,5 saatdan bir, gün ərzində 6 dəfə, 5 aydan 12 aya kimi onları 4 saatdan bir, gün ərzində 5 dəfə əmizdirmək lazımdır.

Həyatın ilk ili dövründə uşağın ana südü qəbul etməsi xüsusilə əhəmiyyətlidir. Ana südü öz tərkibi etibarilə uşaq orqanizminin qidaya olan tələbatını ödəyir və yaxşı mənimsənilir. Bilavasitə ananın döşündən süd əmməklə, körpə sterilizə edilmiş lazım temperaturu olan qida alır. Ananın kifayət qədər südü olduqda, körpə yaxşı inkişaf edir, gec-gec xəstələnir və xəstələndikdə tez sağalır, çünki döş südündə uşaqları xəstəlikdən qoruyan maddə vardır. Bunu hər bir anaya başa salmaq, tələb etmək lazımdır ki, o, rejimə və döşdən əmizdirmə qaydalarına tam əməl etsinlər.

Bundan başqa körpəni döş südü ilə əmizdirdikdə ana ilə körpə arasında möhkəm əlaqə yaradılmış olur. İlk qarşılıqlı məhəbbətin meydana gəlməsi və onlar arasındakı anlaşma, bağlılıq, çox vaxt körpəni döşdən əmizdirmə ilə əlaqədardır.

Körpənin əmizdirilməsi növbələşmə ilə hər iki döşdən olmalıdır.

Ana hər dəfə körpəni əmizdirməzdən əvvəl qaynanmış su ilə əlini və döşünü yumalıdır. Bunun üçün qəbul otağında qaynanmış su, qapalı bankada təmiz pambıq olmalıdır.

Körpə sağlamdırsa, kifayət qədər açıq havada olmuş, hərəkət etmiş, oynamış, yaxşı yatmışsa, rejimdə müəyyən edilmiş vaxt üçün onda iştah olacaqdır.

Uşağın verilən qidanı iştahla yeməsi üçün kifayət qədər açıq havada olması, hərəkət etməsi və rejimə uyğun yuxulaması vacibdir. Belə olduqda hətta 2 aylıq uşaqlar da növbəti əmizdirilməyə böyük həvəs göstərir, başlarını ananın döşünə tərəf çevirir, onun giləsini tuturlar.

Uşaqlarda, döşü əlləri ilə tutub həvəslə əmmək vərdişlərini inkişaf etdirmək lazımdır. Əgər uşaqda yorğunluq əlaməti baş ve-

rirsə və döşü həvəssiz əmirsə, 2-3 dəqiqəlik fasilə vermək, sonra yenidən əmizdirilməni davam etdirmək lazımdır.

Körpə, döşü əmərkən onu bundan ayırmamaq üçün, əmizdirilmə zamanı ana nə körpə ilə, nə də ətrafdakılarla danışmamalıdır.

Əmizdirilmə qurtardıqdan sonra ananın körpə ilə bir qədər danışması və oynaması yaxşı olar.

Ananın ciddi rejimi əsasında körpəni əmizdirməsinin çox əhəmiyyəti vardır. Ana, ancaq son dərəcə zəruri hallarda növbəti əmizdirməni ötürə bilər. Belə hallarda tibb bacısı, tərbiyəçi, yaxud dayə uşağa sağılmış ana südü verir.

Əmizdirmədən əvvəl və sonra körpəni çəkmək lazımdır ki, onun nə qədər süd əmdiyini düzgün müəyyən etmək mümkün olsun.

Ananın kifayət qədər südü olduqda körpə çəkisinə görə artır və inkişaf edir, 5 aylığınadək onu, ancaq ana südü ilə əmizdirmək lazımdır. Ananın südü azlıq etdikdə, həkim ona əlavə yemək təyin edir ki, bunu, körpə bilavasitə döşdən əmizdirildikdən sonra qəbul edir. Körpə qarışıq və süni qidalarla qidalandırılarkən qucaqda döşdən əmizdirilən vəziyyətdə saxlamaq lazımdır. Butulkanın başına keçirilmiş əmziyin ucunda deşik kiçik olmalıdır ki, qida maddəsi yavaş-yavaş axsın, belə olmazsa, uşaq əmdiyini tez-tez udar və doyduğunu hiss edə bilməz. Bundan başqa, qida və südün tez-tez axdığına öyrəşən uşaq, döşü əmməkdən imtina edəcəkdir.

Hər dəfə (süni qida) əmizdirmədən qabaq, içində süd olan butulkanı körpəyə göstərmək lazımdır, çünki bu, onda yeməyə iştahanı artırır. Üç aylıq körpə əmziyi ağzı ilə özü tutur. Onun əllərini butulkanın üstünə qoymaq lazımdır ki, bu vərdişə alışsın.

Körpənin qəbul etdiyi yeməkdə vitaminlərin miqdarını artırmaq üçün 3-4 aylığında ona bişirilməmiş giləmeyvə və tərəvəz (çiyələk, qarağat, moruq, kök, kələm) şirəsi vermək lazımdır.

Əlavə yeməklərdən yavaş-yavaş istifadə olunmalıdır. Belə ki, əvvəl gündə bir dəfə əmizdirilmədən qabaq 3-4 çay qaşığı, 7-8 gündən sonra isə artırılaraq stəkanın ¾ -nə çatdırılmalıdır.

Bu vaxt əmizdirilmənin bir dəfəsi tərəvəz püresi, yaxud sıyıq ilə əvəz olunmalıdır.

Körpəyə qaşıq ilə yemək verilməsinə 4,5- 5 aylığından sonra başlamaq olar. 7-8 aylıqda isə yaşlı adamın əlində tutduğu fincandan içə bilər.

Körpənin eyni zamanda qidanın yeni növünə, həm də onu qaşıq ilə yeməyə öyrətmək olmaz. Qaşıq ilə yemək, körpədən daha mürəkkəb, ona hələ heç tanış olmayan hərəkətlər etməsini tələb edir. Ona görə də eyni qida ilk vaxtlarda körpəyə tanış yolla verilir. Körpə yeni qidanın dadına öyrəndikdən sonra onu qaşıq ilə, həvəslə yeməyə başlayır.

Yemək zamanı körpəni fəal olmağa öyrətmək lazımdır, belə ki, yaşlı adamın tələbindən asılı olmayaraq, özü ağzını açsın, qidanı ağzında çox saxlamadan udsun, uşaq 7-8 aylığında əlində çörək tutur və müstəqil yeyir.

Yedizdirilərkən körpə yeməkdən imtina edir, ağlayırsa, zorakılıqla yedirtmək olmaz. Belə hallarda onda yeməyə nifrət də yarana bilər.

Qida qəbul edən körpələr növbəti yedizdirməni çox gözləməməlidirlər. Əlavə süni yemək qabaqcadan hazırlanmalıdır. Körpələri yuxudan ayılmazdan əvvəl, paylayıcı stolun üstünə: içində qida, vitamin və su olan, üzərində hər uşağın adı yazılmış butulkalar qoyulmalıdır.

Uşaqlar üçün iki cür əmzik: a) su və süd qarışığı üçün, kiçik deşikli, b) sıyıq və kisel üçün bir qədər böyük deşikli. Əmziyin hər biri qapağı olan ayrı –ayrı qablarda saxlanılır. Bunlar uşağın sayına nisbətən çox olmalıdır.

Kiçik qrupun bir qədər böyükyaşlı uşaqları üçün kiçik dərin boşqab olmalıdır. Bunların sayı uşaqların sayından çox olmalıdır.

Uşaqların yedizdirilməsi üçün stol elə qoyulmalıdır ki, bacı-tərbiyəçi və dayə oturub uşaqlara yemək verərkən meydançadakı (manejdəki) uşaqlara nəzarət edə bilsin.

Həyatın birinci ili üçün qrupda yemək zamanı üç stol olmalıdır: paylayıcı, bacı-tərbiyəçi oturmağı bacarmayan uşaqları

təkyerli qoltuqlu stolun arxasında yedizdirir, 2 hündür, 2 yerli olan qoltuqlu stolun arxasında bacı-tərbiyəçi və dayə 7-8 aylıq uşaqları oturdub yedizdirirlər.

**Yuxu.** Körpənin fiziki cəhətdən inkişaf etməsi, sağlamlığın möhkəmləndiril-məsi, özünü yaxşı hiss etməsini təmin etmək üçün o, yaşına görə hər gün özünə lazım olan qədər sakit və möhkəm yuxulamalıdır. Gecə-gündüz ərzindəki yuxu vaxtı düzgün bölünməlidir.

Yaşı 5 aya qədər olan uşaqlar gündüz 3 – 4 dəfə, hər dəfə 2-1,5 saat; 5 aylığından başlayaraq 3 dəfə, hər dəfə 2-1,5 saat, 9-10 aylığından isə 2 dəfə, hər dəfə 2 saat yatmalıdırlar. Gecə yuxusu 10-11 saat olmalıdır.

5-6 aylıq uşaqların üçüncü yuxusu çox vaxt ata-anaların uşaqlarını aparmaq üçün gəldikləri vaxtda təsadüf edir. Bunun üçün onları inandırmaq lazımdır ki, uşaqları ancaq yuxudan ayıltdıqdan sonra evə aparmaq olar, uşağın yuxusunu pozmamağın nə üçün mühüm olduğunu onlara izah etmək lazımdır.

Uşaqların tez yuxuya getmələri, möhkəm yatmaları və sakit oyanmalarının qayğısına qalmaq lazımdır. İlk əvvəl yatmağa daha çox ehtiyac hiss edən uşaqları yatırtmaq lazımdır. Doyunca oynamış olan körpə süst, yuxulu olur, yaxud şıltaqlıq etməyə başlayır. Uşaqları diqqətlə müşahidə edərək bacı-tərbiyəçi onlardan heç birinin meydançada (manejdə ) yatmasına yol vermir, çünki körpəni soyundurduqdan və yatırtmaq üçün çarpayıya uzatdıqdan sonra, onun yuxusu pozulur, yenidən yuxuya getmək çətin olur.

Uşaqların yuxulamaq üçün münasib olmayan şəraitdə yatmalarına yol verilməməlidir.

Açıq havada uşaqlar tez yuxulayır və möhkəm yatırlar. Ona görə də uşaqların gündüz yuxusunu açıq havada, talvar altında, yaxud eyvanda keçirtmək lazımdır. Açıq havada yuxunu təşkil etmək üçün şərait olmadığı halda uşaqları ancaq pəncərəsini açıq olan, yaxud nəfəsliyi olan otaqda yatırtmaq olar.

Körpələr evinə yeni daxil olmuş körpəni ilin soyuq vaxtlarında açıq havada yatmağa yavaş-yavaş öyrətmək lazımdır. 2 saatlıq yuxu zamanı uşağı əvvəlcə 20-40 dəqiqə havaya çıxarır,

beləliklə açıq havadakı yuxunun vaxtını hər gün getdikcə artırırlar, 2 həftədən sonra 1,5-2 saatlıq yuxunu bütünlüklə açıq havada keçirtmək olar.

3-6 aylıq uşaqlar temperaturu $12^0$, 6 – 12 aylarında isə $15^0$ C olduqda açıq havada yata bilərlər. Uşaqları həyata gəldikləri ilk günlərdən temperaturu $+12+15^0$ C –dən aşağı olmayan açıq havaya çıxarmaq lazımdır.

Yayda yağışsız havalarda uşaqlar yarımkölgəli meydançada, yağış olanda isə eyvanda yatırlar. Lap isti günlərdə, açıq havada kölgəlik olmayanda onları otaqda yatızdırmaq məqsədəuyğundur.

Yuxu zamanı uşaqları fəsil və havaya uyğun geyindirmək lazımdır. İlin soyuq aylarında körpənin başına yaylıq bağlayır, pambıq parçadan tikilmiş adyala elə bükürlər ki, sıxılmasın. Sonra da körpəyə yatmağa aid yorğan kimi sırınmış torba geydirir, eyvan və ya meydançaya çıxarır, burada qabaqcadan hazırlanmış kiçik çarpayıya qoyurlar.

Körpəni yuxuya hazırlayarkən bacı-tərbiyəçi sakit və mehribancasına bildirir ki, indi ona isti paltar geyindirəcək və yatırdacaqdır.

Eyni zamanda bacı – tərbiyəçi hələ yatmağa hazırlaşdırılmamış, meydançada oynayan uşaqları da nəzarətsiz qoymur, onların davranışına istiqamət verir.

Adətən açıq havada uşaqlar tez yuxuya gedir və möhkəm yatırlar. Uzun zaman yuxuya getməyən körpə ilə mehribancasına danışmaq, sakit şərait yaratmaq lazımdır.

Yayda isti havalarda bəzi uşaqlar yatmaq vaxtı həyəcanlanırlar. Yaşca nisbətən böyük uşaqlar çarpayıda oturur, ya da ayaq üstə durur, uzanmaq istəmirlər. Bu zaman bacı-tərbiyəçi körpəni yenidən uzandırır, yatması üçün onu dilə tutur, uşaq deyilənləri başa düşməsə də, tərbiyəçi məharətlə səsi ilə onda sakitlik yaradır.

Körpələr evinə yeni qəbul olunmuş və yuxuya getmək üçün, xüsusilə evdə süni yollara (əmziyə, yırgalanmağa, qucaqda gəzdirilməyə) öyrədilmiş uşaqlara adət halını almış şərtlərin birdənbirə dəyişdirilməsi məqsədəuyğun görülmür. İlk günlərdə körpəni qucaqda tutmaq, gəzdirmək, onun yanında oturmaq olar.

Rejimə hələ alışmamış uşaqlar müəyyən edilmiş vaxtda yatmır, ağlayırlar, bunları o birilərindən sonra və onlardan ayrı yatırtmaq olar, belə olanda həmin uşaqlara xüsusi qayğı göstərmək mümkün olar. Yatan uşaqlara diqqətlə nəzarət olunması təmin edilməlidir.

Uşağın rejimi ilə tanışlıq üçün valideynlərlə söhbət aparılır. Bu zaman onlar rejimin uşaq həyatındakı rolunu da dərk edirlər.

Adətən, qrupda olan uşaqlar yuxudan eyni vaxtda oyanmırlar. Yuxudan oyanmış uşağı otağa aparmaq, paltarlarını dəyişdirmək, yedizdirmək, oyun meydan-çasında (manejdə) yerləşdirmək, ona sakit şərait yaratmaq və oyuncaq vermək lazımdır. Əgər uşaq vaxtında oyanmazsa, onu oyatmaq lazımdır.

Hər bir uşağın yatacaq ləvazimatı (torbalar, yorğanlar və b.) ayrı-ayrı yerdə xüsusi şkafda saxlanılır.

**Gigiyenik tədbirlər.** Həyatın birinci ilində uşaqlar əsaslı şəkildə gigiyenik xidmətə ehtiyac hiss edirlər. Bu məqsədlə hər gün səhər gigiyenik tədbirlər həyata keçirilir.

Anaya, uşağın gigiyenasına dair danışmaq, onu məlumatlandırmaq lazımdır. Ana əlini yuyub, isladılmış təmiz pambıq parçası ilə uşağın üzünü, qulağını, əlini silməlidir, krandan və ya (dolçadan) axan ılıq su axınının şırıltısı altında aparılır. Sonra yumşaq dəsmal, yaxud quru pambıq ilə ehmalca qurulanır. Uşağın qulağının ardındakı büküklərdə və boynunda nəmlik qalmamalıdır. Ana körpənin gözlərini pambıq parçası ilə yumalı, gözün hər biri üçün pambığı dəyişdirməli və onu xaricdən gözün daxili küncünə tərəf hərəkət etdirməlidir. Qulağın xarıcı səs yolları və burnu bir az vazelin sürtülmüş pambıq ilə təmizlənməlidir. Bunun üçün bərk şeydən, misal üçün başına pambıq sarılmış kibrit çöpündən istifadə edilməsinə yol verilmir, çünki bununla burnun selikli qişasına və qulağın təbil zarına zərər yetirilə bilər.

Körpənin əl və ayaq barmaqlarının dırnağı qayçı ilə ehtiyatla kəsilməlidir.

Uşağın ağzının içini silmək, onun selikli qişası üzərində "Süd yarası" adlanan ağ təbəqə əmələ gələrsə, silmək məsləhət

görülmür. Belə halda həkimə xəbər verməli, o, isə müvafiq müalicə təyin etməlidir.

Səhər aparılan gigiyenik tədbirlər: uşaqları əl-üzünü ılıq su ilə yumaqla başlayır. Gigiyenik qulluq əsaslı surətdə, həm də ehtiyatla aparılır, həmin məqsədlə aparılan bütün tədbirlər ardıcıl və müntəzəm olaraq aparılmalıdır.

Tərbiyəçi valideynlərlə söhbət aparmalıdır ki, 6 aylıq uşaqları hər gün, bir qədər yaşlı uşaqları isə günaşırı evdə çimdirsinlər

Çimizdirilmə ev şəraitində axşam, yayda uşaq bağçasında isə gündüz yuxusundan əvvəl aparılır.

Valideyn bilməlidir ki, uşağı təmiz vannada, temperaturu 36- 36,5$^o$ C olan suda çimdirmək lazımdır. Çimdirilən yerin havasının temperaturu 20$^o$ C –dən aşağı olmamalıdır.

Uşaqlar həftədə 2 – 3 dəfə sabun ilə çimizdirilməlidirlər. Sabunladıqdan sonra çimiləcək suyun temperaturu vannadakı sudan 1$^o$ aşağı olmalıdır.

4-5 aylıq uşaq çimizdirildiyi zaman ona suda üzən oyuncaqlar da verilməlidir. Onlar bundan böyük həzz alır, yuyunmağa böyük həvəs göstərirlər.

Körpəni vannadan çıxarıb, başından ayağınadək mələfəyə bükür,stolun üstünə qoyur, mələfənin üstündən əlini gəzdirərək uşağın bədənindəki bükük və qırışları ehmalca qurulamaq lazımdır. Sonra uşağın qulağının, qoltuğunun altına, qasığına və bədənindəki bütün bükük və qırışlara vazelin və ya qaynadılmış bitki yağı sürtmək, tez geyindirib yatızdırmaq tələb olunur.

Uşaqları geyindirmək və elə bələmək lazımdır ki, bu onları narahat etməsin. Uşağın əyninə altdan, nazik parçadan düyməsiz köynək, onun üstündən isə qabaqdan düymələnən bambaz parçadan, tikilmiş isti köynək geyirdirilir. Köynəyin islanma-ması üçün onu yuxarıya qatlamaq lazımdır.

Uşağın bədəninin aşağı hissəsi üçbucaq şəklində əski ilə bələnir. Bələyin uzun tərəfi uşağın belinə düşür, aşağı hissəsi isə uşağın ayaqları arasına qoyulur, iki o biri ucu uşağın çanağını tutur, bütün uclar onun qarnı üzərində birləşir.

Sonra körpə qoltuğunun altına qədər bələyə, onun üstündən də baykaya bükülür, bayka elə qatlanır ki, uşağın ayaq hissəsi möhkəm örtülmüş olsun.

Uşaqları səliqəli olmağa kiçik yaşlarından öyrətmək lazımdır. Bu, yaşlıların işə məsuliyyətlə yanaşmaları, əməksevərliyi, uşağın yaş və çirkli geyimlərini təcili surətdə dəyişmələri ilə mümkündür.

Bunu ehtiyatla, uşağın hissinə mənfi təsir göstərmədən etmək lazımdır. Geyinmək zamanı yaşlıların şən və sakit danışığına uşaq canlı hərəkətlər və səslərlə cavab verəcəkdir. Bacı-tərbiyəçi, dayə uşaqları geyindirərək paltarların və onlarla etdikləri hərəkətin adını çəkirlər, ona oturmaq, uzanmaq, habelə onu geyindirməklə əlaqədar bəzi hərəkətlərin yerinə yetirməsini təklif etdikdə, uşaq da bunları məmnuniyyətlə yerinə yetirir.

Çirkli paltarlarını vaxtında dəyişdirməyə adət etmiş uşaqlar, yenidən yerlərini, yaş etdikləri vaxt narahatlıq göstərir, ağlayırlar. Bu, uşaqların yaşlı adamlarin zəruri kömək göstərmələri üçün ehtiyac hiss etdiklərinə bir işarə olduğunu bildirir.

Kiçik yaşlı uşaqları ( 3–5 həftəlikdən 3,5 aylığa kimi) tərbiyə edərkən bacı – tərbiyəçi yadda saxlamalıdır ki, onların görmə-eşitmə qabiliyyətinin inkişafına fizioloji proseslərin qüvvətləndirilməsinə, müsbət emosiyaların yaranmasını təmin edən şərait olmalıdır.

Uşaqların oyaqqalma vaxtı döşəkçə salınmış meydançada (manejdə) keçirilməlidir. Elə şərait yaradılmalıdır ki, onlar bir – birinin hərəkətinə mane olmasınlar. Meydança (manejdə) eyni zamanda 6 – 8-dən çox uşaq olmamalıdır. Hərəkət etməyi bacarmayanlar meydançanın müxtəlif yerlərində yerləşdirilməlidirlər.

İki ayınadək körpələr yedizdirmə qurtaran kimi qoltuqlarının altınadək yorğana bükülməli, yatağına yerləşdirilməli və başlarının altına kiçik yastı balış, yaxud da bir neçə dəfə bükülmüş pambıq parça qoyulmalıdır.

Oyaqqalma zamanı uşaqların hərəkət etmələrinə imkan verən paltarlar geyindirilməlidir. Uşaqların üşüməmələri üçün meydançanın (manej) döşəməsinin üzərinə müşəmbə, sonra isə yün-

gül döşək salınmalıdır. Belə şəraitdə uşaqların üşümələrinin qarşısı alınmış olur.

Təcrübədə özünü doğrultmuş olan şaquli və üfüqi arakəsmə ilə əhatə olunan ayaqları kiçik təkər üzərində dayanan meydança (manej) 7 aylıq uşaqlara oyaqqalma vaxtlarını səmərəli təşkil etməyə imkan verir.

Yeddi ayından sonra uşaqlar üçün meydança (manej) əvəzinə həmin böyüklükdə otağın döşəməsində sahə ayrılır, üzərinə döşək salınır. Arakəsmə əvəzinə xüsusi maneələr yerləşdirilir. Nəzərə alınır ki, uşağı ancaq kürəyi üstə deyil, qarnı üstə də uzatmaq faydalıdır. Bu onun bədən əzələlərinin möhkəmlənməsinə kömək edir. Uşağı yedirməzdən əvvəl, oyaq qaldığı vaxtın sonu üçün qarnı üstə uzandırmaq olar. Yedizdirmədən sonra belə vəziyyət uşağın qusmasına səbəb ola bilər.

Qarnı üstə çevrilmiş körpə yorulduqda narahatlıq göstərməyə başlayır, onu yenidən dalı üstə çevirmək lazımdır. Qarnı üstə müntəzəm uzanmağın nəticəsində körpə 2-3 aylığında başını qaldıra və saxlamaya bilər.

Bacı – tərbiyəçi körpəyə başını düz vəziyyətdə saxlamaq bacarığı tərbiyə etmək üçün təmrinlər keçirir. O, uşağın qoltuğunun altından tutmaqla düz, lakin omba oynağından bükülmüş qıçlarının bələmə stoluna, yaxud yaşlıların dizlərinə toxunmasına imkan verir.

3-5 həftəlikdən 3,5 aylığa kimi uşaqların oyaq qalma vaxtlarında bacı- tərbiyəçi onlarla oynayır, hər birisi ilə mehribanlıqla danışır, nəğmə oxuyur, onlarda şən əhval-ruhiyyə yaratmağa çalışır. Baçı-tərbiyəçi uşaqların qeyri- fəal uzanmamalarına nəzarət edir. Tərbiyəçinin mehriban münasibəti körpədə sevincin yaranmasına səbəb olur. Körpə, tərbiyəçini gördükdə gülümsəyir, əl-qolunu, ayağını açıb bükür, müəyyən səslər çıxarır ki, bu da onun nitqinin inkişafında böyük əhəmiyyətə malikdir.

Tərbiyəçi yadda saxlamalıdır ki, uşaqların şən əhvali- ruhiyyədə böyüməsi onların fiziki və psixi inkişafında mühüm rol oynayır.

Körpə həyatının ilk aylarından eşitdiyi səslərə qulaq asır və onlara müxtəlif cür reaksiya verir. Gurultulu, kəskin səslər körpənin əhval – ruhiyyəsinə mənfi təsir göstərir. Ona görə də tərbiyəçi və valideynlər uşaqlarla sakit, mülayim, mehriban danışmalıdırlar.

Körpəyə müxtəlif istiqamətlərdə müraciət edərkən, onun səs gələn tərəfi müəyyən edə bilmək bacarığını inkişaf etdirmək olar.

Həyatının ikinci ayında körpə, ətrafında olan parlaq əşyalara tərəf baxır, həmçinin danışanın üzünün mimikasını izləyir. Tədricən uşaqlar hərəkət edən əşyalara baxmağa başlayırlar.

Uşağın diqqətini müəyyən əşyaya və onun hərəkətinə cəlb etmək bacarığını inkişaf etdirmək üçün böyük və parlaq oyuncağı (şarı) onun görmə dairəsindən, 70 sm, kiçik oyuncağı isə 50-60 sm məsafədə asmaq məsləhət görülür.

Uşaq otağının divarlarındakı şəkillər, rəflərdəki iri parlaq oyuncaqlar, pəncərələrdəki hündür olmayan çiçəkləyən bitki – bütün bunlar uşaqların diqqətini cəlb edir. Onlar müxtəlif vəziyyətlərdə olarkən (arxası üstə, üzüquylu), böyüklərin qucağında yanı üstə uzandıqları vaxt belə bunlara baxırlar.

Körpənin 3-3,5 aylığından bacı-tərbiyəçi onda əşyaları görmək və seçmək, qulaq asarkən səsləri fərqləndirmək, onlardan bəzilərinin oxşatmağı bacarmaq qabiliyyətlərini inkişaf etdirir. Onu "qu", "aqu" kimi səslər çıxarmaq təşəbbüsü göstərməyə hazırlayır. Uşaqda əl ilə tutmaq, iməkləmək, oturmaq və ayaq üstə durmaq hərəkətlərinə meylilik tərbiyə olunur.

Bu yaşda olan uşaqlar oyaq vaxtında meydançada (manejdə) genişlik olmasına ehtiyac hiss edirlər, çünki onlar öz vəziyyətlərini dəyişdirməyi bacarmasalar da, aşağı və yuxarı ətraflarını hərəkət etdirirlər. Odur ki, bu imkanı onlara vermək lazımdır.

Üç aylıq körpələr üçün oyuncaqların asılması ancaq baxmaq üçün deyil, eyni zamanda ona təsadüfən toxunduqda əlləri ilə tuta bilmələri də vacibdir. Şar, sellüloid halqaları və başqa

oyuncaqları, körpənin qarşısından əlləri çatacaq hündü-rlükdə asmaq lazımdır.

Daha sonra, körpə 4 aylıq olarkən artıq əl-qolunu tam açmağı bacardıqda oyuncaqlar daha hündürdən asılır. Bununla da uşaqların hərəkətlərini mürəkkəbləş-dirmək mümkündür. Onlara çox hərəkət etməyi tələb edən, tutuquşu, şax – şax (səsli) oyuncaqlar vermək olar. Körpə (5-6 aylığında) şeyləri görməyi, tutub saxlamağı bacardıqdan sonra asma oyuncaqlara ehtiyacı olmur.

Uşaqların oyaq qalma vaxtı tərbiyəçi özünün mehriban danışığı ilə onda şən əhval-ruhiyyə yaradır, səslərə cavab verməyinə nail olur, hər bir uşağın inkişafına uyğun olaraq ona oyuncaq verilir.

Bacı-tərbiyəçinin köməyi ilə körpə tədricən iməkləməyə alışır, 4 aylığında körpə arxası üstündən böyrü üstünə, 5 aylığında arxası üstündən üzüquylu, 6 aylığında qarnı üstündən arxası üstünə çevrilir. 5 aylıq körpə uzun müddət üzüquylu uzana bilər, bu zaman o, əli ilə yerə əsaslanaraq, qolunu uzadır, belini bükərək bədənin əsas hissəsini bir qədər yuxarı qaldırır, 6 aylığında isə əlinə və dizlərinə əsaslanaraq əl və ayaqları üstə durmağa çalışır.

Körpə 4-5 aylığından anasını tanıyır. Bacı-tərbiyəçi ananın uşaq bağçasına gəlməsindən (körpəni götürəndə, əmizdirməyə gələndə, evə aparanda) istifadə edərək körpəyə mehribancasına müraciətlə anasının gəldiyini söyləyir.

Bacı-tərbiyəçi imkan daxilində elə şərait yaratmalıdır ki, ana körpəsini əmizdirdikdən sonra onunla danışa və oynaya bilsin.

Bacı – tərbiyəçi 6 aydan 9 aylığa kimi körpənin iməkləmək bacarığının inkişafına, sonra söykənəcək vasitəsilə ayaq üstdə durmaq və tədricən gəzmələrinə, öz hərəkətlərini əşyalarla təkmilləşdirmələrinə xüsusi fikir verməlidir. Körpənin böyüməsi ilə əlaqədar olaraq, onda təəssüratın yaranması imkanı özünü göstərir.

6-9 aylıq uşaqlarda bir sıra hərəkətlər etmək, iməkləmək, sərbəst vəziyyətini dəyişdirmək, yaşlıların köməyi olmadan oturmaq, uzanmaq, sonra isə söykənəcəkdən istifadə edərək durmaq, gəzmək bacarığı inkişaf edir.

Bacı-tərbiyəçi tədricən uşaqları bu hərəkətlərə təhrik edir: məsələn, maneyin hasarı üstünə qoyulmuş oyuncaq uşağı durmağa vadar edir. Oyuncağı tərpədib yerini dəyişdirərək, o vaxt uşaq hasara söykənərək onun dalınca addımlayacaq, oyuncağa çatıb onu əllərinə götürəcəkdir.

Uşaqlar 9 aylıqlarında ətraflarındakı şeylərə söykənərək, adətən, gəzməyə başlayırlar. 6-9 aylıq uşaqlarda ətrafdakı şeylərlə tanış olmaq marağı yaranır.

Bacı-tərbiyəçi uşaqların oyuncaqlarla olan hərəkətlərini mürəkkəbləşdirir. Bunlar əvvəllər yeknəsək olur, uşaq onlara baxır, bir əlindən o biri əlinə ötürür, yelləyir, taqqıldadır, lakin aparılan tərbiyəvi işin nəticəsində 8-9 aylığında bu oyuncaqların xüsusiyyətlərinə uyğun hərəkət etməyə başlayır.

Oyuncaqlara olan maraq xeyli artır. Körpə uzun zaman oyuncaqlarla oyna-ya bilir, onu əlindən aldıqda əhvalı pozulur.

Bacı-tərbiyəçi uşaqların nitqini inkişaf etdirir, onlara hər gün gördükləri bəzi əşyaların ("saat", "bacı", "pişik") adlarını öyrədir.

Uşaq oyuncağın adını o vaxt yaxşı yadda saxlayır ki, onunla hərəkət etməyə (şarı diyirlətmək, şax – şaxı yelləmək) də imkan verilmiş olsun.

Körpənin diqqətini cəlb etmək istəyən bacı-tərbiyəçi onu adı ilə çağırırsa, körpə buna əvvəl başını çevirməklə, sonra isə səslə cavab verir. Bacı -tərbiyəçi, dayə uşaqlarla ünsiyyət yaratmaqla onların dərketmə qabiliyyətini və nitqinin inkişaf xüsusiyyətlərini nəzərə alır.

Həyatının birinci ilinin sonunda uşaqları ancaq yaşlılar, yaxın adamları deyil, yaşıdları da maraqlandırır. Uşaq, əvvəllər onlarla bir manejdə olan öz qonşusunun bu və ya başqa bir oyuncaq ilə necə məşğul olduğunu, necə güldüyünü, bir yerdən başqa bir yerə hərəkət etdiyini uzun müddət müşahidə edə bilirsə, ona cavab olaraq gülümsəyir, ona tərəf dartınır. Onların bu ilk qarşılıqlı əlaqələrini müdafiə etmək, şən olmalarına çalışmaq lazımdır.

Bacı-tərbiyəçinin daimi təsiri və nəzarəti altında uşaqların qarşılıqlı əlaqələrinin inkişaf etməsinə nail olunmalıdır. Bu yaşda uşaqların bir-birinə mənfi münasibətləri də baş verə bilər: məsələn, uşaqlardan biri o birisinin oyuncağını əlindən almağa çalışır.

Uşaqları çox zaman başqa uşağın əlində olan oyuncaq maraqlandırır. Baş verəcək münaqişənin qarşısını almaq üçün uşağı sərbəst oyunla əyləndirmək, onun diqqətini münaqişə obyektindən yayındırmaq, onu mehribancasına danışdırmaq lazımdır.

Uşaqlarda bir-birinə maraq tərbiyə etmək, başqa uşaqların adlarını öyrənmə-lərini təmin etmək məqsədilə bacı – tərbiyəçi müxtəlif oyunlar (məsələn:" Gizlənpaç") keçirə bilər. Bunun üçün bacı – tərbiyəçi uşaqlardan birinin üzərinə təmiz dəsmal salır, o birisinə müraciətlə: " Bizim Günel hanı? Günel yoxdur, yox!" Sonra dəsmalı açaraq " Budur bizim Günel, tapıldı" deyir.

Bu oyunda bir qrup uşaqların diqqəti müəyyən uşağın adına cəlb olunur, onlar bu uşağın adını eşidirlər. Uşaq əşya ilə hərəkətini öz danışığı ilə müşayiət etdikdə həmin əşya tez qavranılır.

Bacı – tərbiyəçi uşağı müxtəlif əşyalara yaxınlaşdırır, diqqətini bu şeylərin hərəkətlərinə cəlb edir: " Saat tıq – tıq edir", " Su şırhaşır axır", " Top tup-tup edir". Şeyləri uşaqlara bu cür göstərmək onlara yeni təəssürat verir, əhvali- ruhiyyələrinin şənliyinə səbəb olur. Bacı – tərbiyəçinin: "Əlini ver", "Şarı gətir"," və s. təklifi ilə uşaq sadə hərəkətləri icra etməyə başlayır.

Uşaqlara tanış olan sözlərin tələffüzünü təmrin etmək üçün bacı- tərbiyəçi təkrardan istifadə edir, uşaqları yeni səs və hecaları tələffüz etməyi öyrədir. Uşaqların baxmaq və qulaq asmaq bacarıqlarını təkmillərşdirmək üçün bacı- tərbiyəçi onlara qurulan - sökülən oyuncaq, akvariumda üzən balıq göstərir, kiçik nəğmələr oxuyur.

Bacı-tərbiyəçinin nəğmə oxuması, onun hər bir uşaqla ünsiyyət tapmasına, eləcə də qrupda oyunlara xüsusi emosionallıq verir.

Uşaqlar əvvəlcə diqqətini cəmləşdirərək qulaq asır, sonra isə nəğməni eşidib, öz razılıqlarını bildirməyə başlayırlar. Onların

üzlərində təbəssüm əmələ gəlir, cürbəcür səs çıxarır, canlı hərəkət edirlər.

Bacı-tərbiyəçi parlaq, gözəl oyuncaq göstərib, nəğmə oxuyursa, oyuncaqlarla hərəkət etməyi ( məsələn: kiçik bayrağı və ya şax – şaxı yellətmək) öyrədirsə, onları sadə məlumatlara yiyələndirmiş olur.

Körpələri yedirtməkdən yarım saat sonra meydançada (maneydə) onları bir-birinə yaxın yerləşdirib diqqətini musiqiyə yönəltməklə musiqi dinləmək dəqiqəsi keçirmək olar.

Bacı-tərbiyəçi musiqi sədaları altında nəğmə oxuya-oxuya oyuncaqlardan biri ilə 5 – 6 dəqiqə ritmik hərəkətlər edir.

Bu hərəkəti tələsmədən etmək lazımdır ki, uşaqlar onu izləyə bilsinlər.

Bacı-tərbiyəçinin nəğməni ucadan ahənglə oxumalıdır ki, uşaqların fikirlərini cəmləyə və qulaq asmalarına nail olsun. Uşaqlara nəğmə oxumaq, ancaq xüsusi məşğələ keçirərkən deyil, körpə ilə fərdi bu və ya formada da aparılmalıdır.

9 aylığından 1 yaşa kimi uşaqlar müstəqil gəzməyi, bir neçə sadə sözləri (ana,ata, nənə,baba, bibi, xala və s.) söyləməyi bacarmalıdır.

Bu yaşda uşaqların diqqətini ətrafdakı şeylərə cəlb etmək, onların müşahidəçiliyini istiqamətləndirmək, gördüklərini yamsılamağa yönəltmək mühüm məsələdir.

10-11 aylıqdan başlayaraq uşaqlar bir dayaqdan o birinə keçir, 12 aylıqda dayaqdan istifadə etmədən gəzməyi bacarır.

Bu yaşda olan uşaqlar hərəkətlərə müstəqil surətdə yiyələnirlər, buna görə onlara oyuncaqdan istifadəyə şərait yaradılmalıdır. Həmin məqsədlə döşəmə üzərində sahəsi meydançanın (manejin) sahəsindən böyük olan yer ayrılır. Buradakı oyun üçün kiçik stol, divan uşaqların hərəkətlərini və oyunlarını inkişaf etdirir.

Uşaqlar üçün parlaq, yuyula bilən oyuncaqların olması: rəngbərəng kürəciklərin, top, halqa, səs çıxaran rezin oyuncaqlar, sonralar isə sellüloid və rezin oyuncaqların olması məsləhət bilinir.

Uşaqlara birdən – birə çoxlu oyuncaq vermək lazım deyil. Onlardan bir hissəsi uşaqların görmə dairəsindən kənarda saxlanılmalıdır. Uşaqların oynadıqları oyuncaqları müəyyən vaxtdan sonra digərləri ilə dəyişdirmək lazımdır. Sınmış oyuncaq ilə uşaqların oynamalrına icazə verilməməlidir.

Uşaqlar oyuncaqlara yaxınlaşır, onları əllərinə götürür, bir yerdən başqa yerə aparır, beləliklə də sərbəstliyin təməli qoyulur.

Ana və ya tərbiyəçi əlvan rəngli oyuncaq tutub uşaqlara yaxınlaşarkən o, onu götürməyə çalışır. Beləliklə, uşağı hərəkət etməyə həvəsləndirərək onun yeriyərkən yıxılmaq qorxusunu aradan qaldırmaq lazımdır. "Baxın, uşaqlar, görün Günel necə gəzir?", "Günay xala, bax balaca Rəna necə gəzir?" deməklə uşaqların və yaşlıların diqqəti körpələrin bu müvəffəqiyyətinə cəlb edilməlidir. "Budur, bizim Rəna gəzir, tap-tap edir" və s. demək və xorla həmin sözləri təkrarlamaq olar.

Uşağın ilk addımına diqqət verilməsi onda müstəqil hərəkət etməyə həvəs oyadır.

Uşaqların müstəqil fəaliyyətə hazırlığının xarakteri onların yaşlılar tərəfindən, necə tərbiyə olunmalarından asılıdır. Bu yaşda olan uşaqların fəaliyyət göstərmələrinə kifayət qədər vaxt verilməsinə və müstəqil hərəkət etmələrinə şərait yaradılmalıdır. Uşaqlarda bəzi vərdişlərin yaranmasında, oyuncaqla davranma bacarığının tərbiyəsində yaşlıların iştirakı təmin edilməlidir. Ona görə uşaqlara qulluq edərkən, digər uşaqlarla oynayanlar diqqətdən kənarda qalmamalıdır. Fəaliyyətlərin müxtəlif-ləşdirilməsi və bu prosesdə mənfiliklərin qarşısının alınması vacib şərtlərdəndir.

Uşaqlara müxtəlif oyuncaqlar göstərərək, onlarla necə hərəkət etmələri öyrədilir.

Bir qədər keçdikdən sonra uşaq mənimsədiyi hərəkətləri özü onun oxşarına şeylərə köçürməyə başlayır, iki yarım hissədən ibarət olan oyuncağını birləşdirir, qazanın ağzını örtür, bunun üçün qazanın qapağını özü axtarır və s. Uşaqlar müstəqil hərəkətlərə həvəsləndirlir, onların köməyə ehtiyacları olduqda, ona emosional şəkildə cavab verilir.

Bu yaşda uşaqlar oyuncaqlarla oynayıb qurtardıqdan sonra öz yerinə qoyma-larını tələb etmək olmaz. Bunu bacı- tərbiyəçi və ya dayə etməlidir. Onlar, uşaqların oynatmadıqları oyuncaqların döşəmə üzərinə atılıb qalmasına da yol verməməlidirlər.

Uşaqlar yatdıqları vaxt dayə oyuncaqları yuyur və yenidən onları əvvəlki qaydada düzür.

Müstəqil hərəkət etməyi öyrənmiş uşaqda, oyuncaq və digər əşyalarla getdikcə daha yaxından tanış olmaq, yaşıdları və yaşlılarla əlaqə saxlamaq imkanı əmələ gətirir. Bu, uşaqlara böyük zövq verir.

10-12 aylığında uşaqlarda bir neçə oyuncağı və əşyanı fərqləndirmək,onların hərəkətlərini müşahidə etmək bacarıqlaını inkişaf etdirmək lazımdır. Bunlar uşaqların nitqlərinin inkişafı üçün də lazım olan əsas şərtlərdir.

Bacı- tərbiyəçi gündə bir neçə dəfə hər bir uşaq və kiçik uşaq qrupları ilə (5 nəfərdən artiq olmayan) məşğul olmaqla, onlarda yaşlıların nitqini anlamanı təkmilləşdirir. Onların nitqini və fəaliyyət göstərmək üçün yaşlılara müraciət etmə bacarığını inkişaf etdirir.

Uşaqları əşyaların adlarını bilmək üçün bacı-tərbiyəçi onu körpəyə göstərir və adlandırır, körpənin adını bildiyi oyuncağı gətirməsini xahiş edir, onlardan körpəyə hələ tanış olmayanın adını çəkir.

Bi yaşın sonunda uşaqlara sadə tapşırıqlar verilir, "Oyuncağı mənə ver"- deyə uşağa müraciət edir. Uşaq oyuncağı tərbiyəçiyə verdikdə o, uşağın və oyuncağın adını söyləyir, təşəkkürünü bildirir. O, həm də uşaqlar ilə birlikdə oyuncaqların adını çəkə - çəkə və onları qoyduqları yeri göstərir.

Bir qədər vaxt keçdikdən sonra uşaqlarda ümumiləşdirmək bacarıqlarını inkişaf etdirmək, bunun üçün eyni adlı, lakin xarici görünüşü və materialına görə fərqlənən (məsələn, rezin, selliloid və parçadan yaxud papyemaşe, taxtadan olan) oyuncaqları ayırıb bir yerə toplamaq bacarığı tərbiyə olunur.

Tərbiyəçi uşaqlara tanış əşyların hərəkətlərini: top diyirlənir, şar uçur, zınqırov zəng çalır və s. söyləyir. Əvvəlki yarımqrupda

olduğu kimi, bacı- tərbiyəçi körpəni əhatə edən uşaq və yaşlıların adları ilə tanış edir, onlara xeyirxah münasibət bəsləməyə alışdırır.

Onların tələffüz etdikləri sözləri (məsələn, məmə, nənə) bacı - tərbiyəçi dəfələrlə təkrar etməlidir. Çox vaxt səsin təqlid edilməsi ilə əlaqədar uşaqların təkrar etmələrinə müvafiq yeni səslər və sözlər tətbiq olunur: it ham, ham edir.

Uşaqlarda səsləri təqlid etməyə maraq oyatmaq və bununla əlaqədar onlarda şən əhvali – ruhiyyə yaratmağa nail olmaq üçün müxtəlif məzmunlu oyuncaqlardan istifadə etmək olar: məsələn, yüngül yorğana bükülmüş kuklanı əlində tutan bacı-tərbiyəçi ona lay – lay deyir. Başqa bir vaxt tərbiyəçi oyuncaqdan olan xoruzu uşaqlara göstərərək deyir: "Baxın bizim xoruza, necə də gözəldir! O, yüksəkdən mahnı oxuyur (banlayır) "quq-qu-lu-qu!". Xoruz dən dənləmək istəyir. Dənlə, xoruz, dənlə. İndi yenə də mahnı oxu: "quq-qu-lu-qu". Uşaqlar, xoruz necə mahnı oxuyur?". Belə səhnəcikləri o biri oyuncaqlarla da göstərmək olar, lakin bunu da nəzərdə tutmaq lazımdır ki, göstərilən oyuncaqlar ilə uşaqlar da oynamaq istəyə bilərlər, buna görə belə oyuncaqları qabaqcadan, onların sayına görə, hazırlamaq lazımdır ki, oynamaq istəyən uşaqların arzusunu ödəmək mümkün olsun.

Sözlərin müşayiəti ilə yaylı oyuncaqların göstərilməsi böyük gülüşə və şənliyə səbəb olur. Bacı- tərbiyəçi qurulan avtomobili təpəcikdən aşağı, yaxud stolun üstü ilə buraxır. "Budur, maşın getdi, tu-tu. Avtomobil dayandı. Dayan, dayan, maşın dayanır. Maşın təpəcikdən diyirləndi, yerə düşdü, gup elədi". Uşaqlar bacının təsirlə dediyi "gup", "tu-tu" və s. kimi sadə sədaları təkrar etməyə başlayırlar.

Bacı- tərbiyəçi uşaqların qarşısında bayraqcıqlar, yaylıq, şax-şaxla çıxış edir, nəğmə oxuyur, onlar buna böyük maraqla baxır, öz uşaq dillərində danışır, əl-qollarını oynadırlar, meydançada oturub, yaxud sürahi kənarında dayanıb, oynamaq istəmələrini ifadə edən arzu ilə ona tərəf dartınırlar.

Körpə ilə əlaqə saxlayarkən bacı- tərbiyəçi nəğmə oxuyur, yaxud uşağın əlindən tutub, musiqi sədaları altında onu yavaş-

ca yerindən qaldırır və yenidən öz yerinə qoyur. Körpə şən musiqi səsi eşitdikdə əl-qolunu tərpədib oynamaq istəyir. Odur ki, musiqi dinləməsinin təşkili məsləhətdir.

Yarım qrupdan olan uşaqlarla tərbiyəçi 3-4 dəqiqəlik musiqi dinləmə apara bilər. Əgər əvvəlki yarımqrupda dinləmə müntəzəm keçirilibsə, o zaman uşaqlar artıq musiqiyə qulaq asaraq, otağın hansı bir yerində olmasına baxmayaraq, oynayan yaxud nəğmə oxuyan tərbiyəçini baxışları ilə axtarıb tapırlar.

Bu yaşda uşaqlarda eşitmə qabiliyyəti artıq xeyli inkişaf etmiş olur. Onlar ara vermədən (2-3 dəqiqəyədək fasilə ilə) musiqi dinləyə bilərlər. Tərbiyəçinin oyuncaqları göstərməsi, yaxud hərəkətləri ilə müşayiət olunan nəğmə oxuması uşaqların fəallığına səbəb olur.

Uşaqların quş, cücə, göyərçin, sərçə, toyuq, pişik, küçük, ev dovşanı, keçi balası kimi heyvanları müşahidə etmələri, onların böyük maraq və sevinclərinə səbəb olur. Bu heyvanlarla tanışlıq, adətən, uşaqların hərəkətləri, müxtəlif səs çıxarmaları ilə özünü göstərir. Uşaqların iştirakı ilə göyərçini, ev dovşanını yemləmək, cib-cib edib toyuğu çağırmaq olar.

Uşaqları şəkillərdə təsvir olunan, onlara məlum olan əşyalarla, heyvanlarla tanış etdikdən sonra onların adlarını, yaxud onlarla bağlı olan hərəkətlərini bildirən sözləri deməyə təhrik etmək faydalıdır.

Uşaqlara göstəilən şəkillər gözəl, şəffaf rənglərlə aydın olunmalıdır. Onları karton kublar üzərində də çəkmək olar.

Bacı- tərbiyəçi özünün uşaqlarla olan hər bir söhbətini onlarda fəal nitqi inkişaf etdirməyə yönəltməlidir.

**Həyatının birinci ilində uşaq orqanizminin möhkəmləndirilməsi.** Uşaq orqanizminin möhkəmləndirilməsi, xarici mühitin zərərli təsirlərinə qarşı müqavimətin artırılması üçün hava, su, günəşdən müntəzəm və vaxtaşırı istifadə edilməlidir. Bütün bu tədbirlər kəskin temperatur dəyişikliklərinə uyğunlaşmaq bacarığı yaradılmasına yönəldilmişdir.

Otağı normal temperaturda saxlamaq, uşaqları havaya uyğun geyindirib uzun müddət açıq havada gəzdirmək,onların şən və gümrah olmalarını təmin etmək lazımdır.

Bundan başqa, təbii faktorlardan: havadan, sudan və günəşdən istifadə etməklə də xüsusi möhkəmləndirilmə tədbirləri tətbiq olunur.

Möhkəmləndirilmə ancaq aşağıdakı qaydaya: tədriciliyə, ardıcıllığa, uşaqların fərdi xüsusiyyətlərinin qeydə alınmasına əməl edildikdə faydalı ola bilər.

Bədəni möhkəmləndirmə işinin tələbləri getdikcə artır və müəyyən ardıcıllıqla yerinə yetirilir. Başlanılan tədbir müntəzəm təkrarlanmalıdır. Əks halda bu, gözlənilən nəticəni verməyə bilər.

İşin təşkilində və aparılmasında uşaqların sağlamlığının vəziyyəti, fiziki inkişafı, əsəb sisteminin özünəməxsus xarici mühitin dəyişikliklərinə olan həssaslığı əsas götürülür.

Uşağın yataq otağının havasının təmiz olması təmin edilməlidir. Bu məqsədlə, uşaqlar otaqda yatdıqları zaman hər iki tərəfdən qapı və pəncərəni açmaqla hava dəyişdirilməlidir. Bundan başqa, hətta uşaqlar otaqda olduqları vaxt belə, binada vaxtaşırı havanı dəyişdirmək üçün nəfəslikləri, bayırda havanın istiləşməsi ilə əlaqədar pəncərəni də açmaq lazım gəlir.

Havanın isti günlərində, kölgədə istiliyin dərəcəsi +18 - $20^0$–dən aşağı olmadığı vaxt uşaqların bütün həyatları açıq havada keçirilir.

Bu məqsədlə körpələr evinin sahəsində döşəməsi olan kölgəli talvar salınır, meydança təşkil olunur.

İstilər başladıqca uşaqların paltarları havaya uyğun olaraq yüngülləşdirilir. Uşaq orqanizminin möhkəmləndirilməsi məqsədi ilə, hava vannaları keçirilir. Ancaq müəy-yən temperaturda olan havanın təsiri ilə kifayətlənmək üçün ilk hava vannaları binada aparılır. Ən kiçik uşaqlar üçün hava vannaları onların bələnməsi, paltarlarının dəyişdirilməsi ilə uyğunlaşdırılır, bu iş ilin soyuq vaxtlarında istilik mənbələrinin yaxınlığında keçirilir. Bu zaman uşaq otağında havanın temperaturu +20 - 22°C olmalıdır. Havanın temperaturunun normadan artıq olması uşaqlarda tərləməni

gücləndirir, onun aşağı enməsi ilə uşaqlarda üşümə əlamətləri baş verir.

Uşaqlar böyüdükcə hava vannasının qəbulu müddəti yavaş-yavaş artırılır, 3-4 dəqiqədən 10 dəqiqəyə çatdırılır.

İlin soyuq vaxtlarından açıq havada uşaq orqanizminin möhkəmləndirilməsi gündüz yuxusu zamanı keçirilir.

Açıq havada yatmaq üçün uşaqlar isti geyinməlidirlər. Körpəyə onun həyatının ilk aylarında altdan düyməsiz uşaq köynəyi, üstdən köynək geyindirilir, bələyin üstündən baykadan tikilmiş yorğana, sonra pambıq parçaya bükülür. Uşağın başına kiçik yaylıq bağlanır və isti başlıq geyindirilir. Yatmaq üçün döşəklər uşaqları yatırtmağa aparmaqdan bilavasitə əvvəl çıxardılır. Uşaqlar yatdıqları zaman onlara nəzarət olunur.

Orqanizmin möhkəmləndirilməsində suyun böyük rolu var. Su prosedurları 3 formada qəbul edilir. Birincisi, bədənin nəm dəsmalla silinməsi. Su prosedurunun bu formasından ən çox körpəlik qruplarında istifadə olunur. İki – üç həftə quru parça ilə silmə prosesindən sonra nəm parça ilə silməni başlamaq olar. Orqanizmin bu möhkəmləndirmə tədbirini səhər çağı uşaqlar yuxudan oyandıqdan sonra, yaxud gündüz ikinci yuxudan sonra keçirmək məsləhətdir. Silinmədən əvvəl körpənin bədəni isti olmalıdır. Silmə barmaqsız əlcək ilə keçirilir. Dəsmal isladılan suyun istiliyi otaq temperaturunda olmalıdır.

Başlanğıcda suyun temperaturu $+33^{o}$– $32^{o}$ C olmalıdır. Suyun temperaturunu hər iki-üç gündə $1^{o}$ azaldaraq nəticədə $22^{o}$ –yə endirilir. Körpəni nəm dəsmalla silməyə öyrətməyə ehtiyatla yanaşmaq tələb edilir. Bu tədbir zamanı ilk vaxtlarda körpəni soyuqda qorumaq lazımdır.

Nəm dəsmalla silinmə müəyyən ardıcıllıqla keçirilir: əllər (biləkdən başlamış çiyinlərədək), sonra sinəsi və qarnı silinir. Körpəni qarnı üstə uzandırıb kürəyini və ayaqlarını silirlər. Bədənin hər bir hissəsini nəm parça ilə sildikdən sonra qurulanır, sonra körpənin bütün bədəni xəfif qızarıncayadək yumşaq, quru dəsmal ilə silinir və bundan sonra körpəni ya bürüyür, ya da geyindirirlər.

Bu orqanizmi möhkəmləndirmə tədbirinin keçirildiyi zaman 8 aydan yuxarı olan körpələr otura bilərlər, ancaq ayaqlarını sildikdə isə uzanmalıdırlar. Bu yaşda və bunlardan böyük olan uşaqların su ilə silinmələrindəki ardıcıllıq daha kiçik yaşlılarla da eyni ilə aparılır.

2-3 ay müddətində su ilə müntəzəm silinmələrdən sonra uşaqlarla suçiləyən və ya duşla su axıtma prosesinə başlamaq olar. Başlanğıcda suyun temperaturu + 33-32° olmalı, lakin tədricən 25°-dək endirilməlidir.

Bundan sonra uşağı dərisi qızaranadək quru dəsmalla qurulayırlar.

1 yaşdan aşağı olan körpələrə duş tətbiq edilməsi məsləhət görülmür, çünki bu, onların əsəb sistemlərinin qıcıqlanmasına səbəb olur.

Körpəyaşlı uşaqların günəş şüaları ilə möhkəmləndirilmələri məsləhət görülmür. 1 yaşa qədər olan uşaqları günəş şüalarının birbaşa düşdüyü yerə çıxarmaq olmaz.

**Həyatının ikinci ilinin xarakteristikası.** Həyatının ikinci ilində uşağın fiziki və psixoloji inkişafının sürəti birinci ilə nisbətən zəif olsa da, sonrakı illərə nisbətən yenə də yüksəlir.

İki yaşlı uşağın çəkisi orta hesabla 12-13 kq- a, boyu isə 85-86 sm-ə çatır. O, fiziki cəhətdən möhkəmlənir və çevikləşir. Bu dövrdə uşağın mərkəzi sinir sistemində də nəzərə çarpacaq dəyişiklik baş verir. Onlarda özünü göstərən mühüm cəhətlərdən biri düzxətli hərəkət vərdişinin xeyli təkmilləşməsidir. Belə düzxətli hərəkət əsas hərəkətlərin daha mürəkkəb olması üçün zəmin yaradır, uşağın ətraf mühitə münasibətini dəyişir, psixoloji proseslərin formalaşmasına güclü təsir göstərir.

2 yaşlı uşaq böyüklərlə dolğun emosional, məzmunlu ünsiyyətə girməyə çalışır, ilin sonunda bəzən buna nail olur. Bu dövrdə uşaq hərəkəti daha çox sevdiyindən tərbiyəçi və digər yaşlılar onlarla ünsiyyətə girdikdə təlim və tərbiyəyə xüsusi diqqət yetirməlidirlər. Uşağın fəaliyyətinin əsas növləri oyun və əşyaları fərqləndirmək bacarığının formalaşması prosesində ətraf aləmin real dərk olunması, hissetmə təcrübəsinin qazanılması,

təfəkkür və nitqi inkişaf edir. Bu zaman onun diqqəti, yaddaşı formalaşır.

İkinci yaşın axırlarından başlayaraq uşaq ünsiyyətin vasitə və yollarını dərk etməyə başlayır. Bu isə mənəvi tərbiyə üzrə işin aparılması üçün zəmin hesab olunur. Bu dövrdə kollektivdə uşaqların birgə fəaliyyəti tədricən onlar arasında xeyirxah, emosional ünsiyyət və münasibətlər yaradır. Tədricən normal ünsiyyət vərdişlərinə yiyələnən böyüklərin qayğısı və nəzarəti altında olan uşaqlar arasında münaqişə baş vermir, məsələlər müvəffəqiyyətlə həll olunur.

Təlim prosesində, məşğələdə, gündəlik həyatda tərbiyəvi işin düzgün qoyul-duğu şəraitdə uşaqlarda məişət əşyaları (mebel, paltar, qab-qacaq və s.) oyuncaqlarla düzgün davranmaq bacarığı yaranır. Əşyalarla təmasda olan və fəaliyyət göstərən uşaq onları xassələrinə (formasına, ölçüsünə, rənginə, çəkisinə, səslənməsinə, iyinə) görə fərqləndirə bilir.

Didaktik oyuncaqlar və materiallarla keçirilən xüsusi məşğələlərdə əşyalarla fəaliyyət prosesində uşaqlarda hissetmə qabiliyyəti formalaşır. Məkanla daha geniş tanışlıq fəal marağı gücləndirir, sensor mədəniyyəti zənginləşdirir, ümumi hərəkətlərin rəngarəng olmasına təsir göstərir.

2 yaşı tamam olan uşaqlar əşya ilə davranmaqla yanaşı, onu qaldırmaq, başqa yerə qoymaq, müəyyən məqsədə çatmaq üçün ondan vasitə kimi istifadə etmək bacarığına yiyələnirlər. Məsələn: kubikdən qala düzəldir, gəlinciyin üstünü yorğanla örtür, stolun arxasında əyləşmək üçün stulu onun kənarına çəkir, qaşıqla yeyir və s. əşya ilə belə davranış bacarığına yiyələnmək üçün müşahidələr aparmaq uşağın psixoloji inkişafında mühüm rol oynayır.

Həyatın ikinci ilində uşağın adətən, düşünülməmiş tərzdə həyata keçirilən hərəkətlər sistemi indi əşyavi fəaliyyətə çevrilir. Əşyavi -manipulyativ fəaliyyət bu dövrün aparıcı fəaliyyət tipi olmaqla, uşaq şəxsiyyətinin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir.

Həyatın ikinci ilində uşağın nitqi təqlidetmə bacarığı inkişaf edir, lüğət ehtiyatı təxminən 300-ü keçir. Uşaqlar ismin cəm şəklini, bəzi hallarını, keçmiş və gələcək zamanları az-çox düzgün işlətməyə başlayırlar. Tədricən nitq ünsiyyəti prosesində aparıcı rol oynayır.

Bu dövrdə uşaq ətraf aləm haqqında praktik biliklərə, əsasən oyun prose-sində yiyələnir.

Uşağın fəal emosional nitqinin inkişaf etməsi onun dərketmə qabiliyyətinin, müstəqilliyinin və təşəbbüskarlığının təkmilləşməsi üçün əlverişli şərait yaradır.

Həyatının ikinci ilində uşağın oyun və məşğələlərinin ahəngdar inkişafı onda musiqiyə, bədii sözə emosional, həssaslıqla yanaşmaq qabiliyyətini tərbiyə edir.

Bu dövrdə uşaq yaşlıların tələbini yerinə yetirmək, yaşlılara müraciət etmək, bacı və qardaşı ilə qarşılıqlı münasibətə girmək, yaşıdlarının fəaliyyətinə maraq göstərmək, onlara qoşulmaq, əxlaqi normaları gözləmək kimi keyfiyyətlərə yiyələnir.

Uşaqların həyatının birinci ilindən fərqli olaraq ikinci ilin axırlarına onların inkişafı arasında kəskin fərdi fərqlər özünü qabarıq şəkildə göstərir. Ona görə də hər bir uşağın fərdi xüsusiyyətinin nəzərə alınması zərurəti meydana çıxır.

Uşaqların həyatının ikinci ilində tərbiyə işi onların fiziki, əqli, əxlaqi, estetik, əmək və ekoloji tərbiyəsi üzrə inkişafına istiqamətləndirilir. Gündəlik həyatda oyun və məşğələlərdə həyata keçirilən tərbiyə işləri ilə uşaq şəxsiyyətinin hərtərəfli inkişafına kömək etmək qarşıya qoyulur. Uşağın emosional dairəsinin inkişafı tərbiyənin vacib komponentidir.

Uşağın sağlamlığı, möhkəmliyi, hərəkətinin tarazlığının inkişafı qayğısına qalmaq tərbiyəçinin əsas vəzifələrindəndir. Uşaqlarda hissetmə, çəldlik, nitq üzrə inkişafına dair bacarıqlara yiyələnmə, hərəkətləri icra etmək bacarığını inkişaf etdirmək, məkana bələdlik tərbiyə etmək lazımdır. Uşaqlarda sərbəstlik, gümrah hal, mədəni-gigiyenik adət və vərdişləri lazımi qədər dərk etdirmək, bu istiqamətdə hərəkət fəallığı artırılır.

Uşağın ətraf mühitlə əlaqəsini zənginləşdirmək, dərketmə fəaliyyətinin əsasını, bələdləşmənin inkişafını təşkil edir. Uşaqda yaddaş, diqqət, dərketmə və nitqi formalaşdırmaq, hissetmə qabiliyyəti tərbiyə olunur. Uşaqda müxtəlif növ fəaliy-yətlərin (məişət, əşya, oyun və ünsiyyət fəaliyyətləri) təməli qoyulur və inkişaf etdirilir.

Gündəlik həyatda ardıcıl olaraq müsbət vərdişlər, sadə əxlaq normaları (sözə baxma elementləri, əmək tapşırıqları və tələblərini yerinə yetirmək bacarığı) yaratmaq və formalaşdırmaq. Müsbət cəhətlərin tərbiyəsini davam etdirmək. Böyüklərə, başqa uşaqlara xeyirxah münasibət, yaşıdlarına həssaslıq tərbiyə etmək nəzərdə tutulur.

Uşaqlarda heyvanlara və bitkilərə qayğıkeş münasibət vərdişləri yaradılır. Uşaqlarda səliqəli olmaq, ətraf mühitdəki əşyalara düzgün münasibəti formalaşdırılır. Uşaqlarda sərbəstlik, başladığı işi başa vurmaq bacarığı tədricən yaradılır. Onların böyüklərin təkliflərinə və suallarına cavabı emosional xarakterli olmalıdır. İmkan daxilində bədii təəssüratlar vasitəsilə uşaqda həyat təcrübəsi yaratmaq, onları əhatə edən hadisə və əşyaların əyaniliyinə diqqətlilik tərbiyə etmək, illüstrasiyalara baxarkən onların xarakterindəki qabarıq cəhətlərə, rənglərin ahənginə diqqət verməyi tərbiyə etmək üzrə iş gedir. Uşaqlar böyüklərin nitqindəki ifadəli intonasiyaya emosional cavab verməyə alışdırılır.

Uşaqlarda musiqiyə diqqəti möhkəmləndirmək, musiqini dinləyərkən onlarda şən əhvali-ruhiyyə yaratmaq, səsləri dərk etməyi öyrənmək, səslənmənin tembrini, yüksəkliyini ayıra bilmənin, yaşlıların intonasiyasını təqlid etməyi və musiqi sədaları altında sadə ritmik hərəkətlər etmək bacarığı tərbiyə olunur.

Uşağın vaxtında qidalanmasının, yuxusunun və digər fəaliyyətlərinin düzgün növbələşdirilməsində rejimin böyük rolu vardır. Tərbiyə işinin rejim əsasında aparılması uşağın sağlamlığına, əhvali – ruhiyyəsinə və davranışının foralaşmasına ciddi təsir göstərir. Rejimə əməl olunduqda uşaqlar gündən – günə təkrar olunan müəyyən qaydaya vərdiş edirlər. Onlar rahat yatırlar, belə ki, müəyyən vaxtda yatmağa tələbat hiss edirlər, vərdiş edilmiş ye-

mək saatında onlarda iştah oyanır və müəyyən edilmiş payı həvəslə yeyir, tox olduqlarına görə gümrah, şən və fəal oynayırlar.

Əsəb sisteminin inkişafı ilə əlaqədar ikinci yaşda olan uşaqların rejimində oyaqlığın davamı artır, gündüz yuxusuna ayrılmış saatın midqarı isə azalır.

1 yaş 6 aya qədər olan uşaqlar gündə 2 – 2,5 saat hesabı ilə 2 dəfə yatır, bir – birinin ardınca 3,5 – 4 saat oyaq qalırlar. 1 yaş 6 aydan sonra 1 dəfə 3 – 2,5 saat yatır, 4,5 – 5 saat oyaq qalırlar.

Yedirilmə, yuxu və oyaqlıq qaydası dəyişdirilir. Böyükyaşlı yarım qrupdan olan uşaqlar nahardan sonra yatırlar.

Bir qrupda tərbiyə alan ikinci yaş ilində olan uşaqlar üçün 2 rejim (1 il 6 aylıqlar, böyük yaşlılara aid – 1 il 6 aydan yuxarı) müəyyən olunur.

Kiçik və böyük yaşlı uşaqların yuxusu və oyaq olması eyni vaxtda düşmür, bu isə oyaq olan kiçik qrup uşaqlarına bacı – tərbiyəçi və dayənin daha artıq diqqət vermələrinə imkan yaradır.

Hər bir uşağa rejim təyin edərkən, ancaq onun yaşı deyil, sağlamlığının vəziyyəti, ümumi inkişafı da nəzərə alınmalıdır. Əsəb sistemi möhkəm olmayan uşaqları bir müddət kiçik yarım qrupda olan uşaqların rejimində saxlamaq məqsədə müvafiqdir.

Uşağa nəzarət edərkən onun yatmadığı, yaxud vaxtından əvvəl oyandığı, müəyyən edilmiş vaxt üçün iştahı olmadığını öyrəndikdən sonra uşaq başqa rejimə keçirilir. Tərbiyəçi bunun haqqmda həkimə məlumat verir. Əgər həkim lazım bilsə, körpənin başqa rejimə keçməsi haqqında göstəriş verir.

Körpənin daha böyük yaşlılara aid yarımqrupun rejiminə keçirilməsindən sonra onun özünü necə hiss etməsinə diqqətlə nəzarət edilməlidir. Əgər körpə şıltaqlıq etməyə başlayır, pis yeyir, yatmır, süst və laqeyd olursa, onu bir neçə günlüyə (3 – 4 gün) əvvəlki rejiminə qaytarmaq lazımdır.

Körpə yeni rejimə keçirildikdə ona adət etmədiyi yemək verilməsi məsləhət görülmür. Onu əvvəlcə böyük yaşlıların yarımqruplarının yeməklərinə öyrətmək, sonra yeni rejimə keçirmək olar, yaxud əksinə, lakin eyni zamanda həm bunu, həm də onu etmək lazım deyil.

Uşaqlar səhər qrupa yüksək əhval – ruhiyyə ilə daxil olarlarsa, bütün gün ərzindəki davranışlarında sevinc hissi özünü göstərəcəkdir. Çox vaxt bu hal, bağçaya gələrkən körpələrin necə qarşılanması ilə bağlıdır. Tərbiyəçi ancaq körpənin rejimi haqqında məlumat verməlidir. Qəbul otağında uşaqları qarşılayan bacı – tərbiyəçi həm körpə, həm də anası ilə mehribancasına görüşür. Qısa, işgüzar söhbət zamanı körpənin özünün necə hiss etdiyini, necə yatdığını öyrənir, onun temperaturunu ölçür. Bacı uşaqları qəbul edən kimi dayə hər bir körpə ilə mehribanlıqla salamlaşır, paltarlarını dəyişdirə - dəyşdirə danışır.

Uşaqların gəzmələri üçün otağın müxtəlif yerində əvvəlcədən oyuncaqlar qoyulur. Bunlar gələn uşaqların diqqətini cəlb edir və onlar məmnuniyyətlə oynama-ğa başlayırlar.

Əgər bacı – tərbiyəçi körpənin süst olduğunu, rənginin ağardığını hiss etmişsə, o, evdə olarkən körpənin səhhəti və özünü necə hiss etməsi haqqında, anası ilə ətraflı sorğu – sual aparır. Körpənin gecə necə yatdığını, hərarəti olub- olmadığını, ona nə yedizdirildiyini, qarnınm işləyib – işləmədiyini və s. öyrənir. Sonra hərarəti ölçür, körpənin dərisinə baxır, lazım gəldikdə həkimə göstərir və bütün günü ona nəzarət edir.

Bəzi uşaqlar yeni şəraitə çətinliklə alışırlar. Onlar ata – analarından ayrılarkən qışqırır və ağlayırlar. Belə uşaqlara bacı – tərbiyəçi və dayənin xüsusi diqqət vermələri tələb olunur. Onların qəbulu üçün maraqlı oyuncaqlar: rəngli top, matryoşka hazırlamaq, uşağı oyuncaqlar ilə məşğul etməyə, göz yaşı tökməkdən yayındırmağa, sakitləşdirməyə çalışmaq lazımdır. Belə hallarda qurma oyuncaqların hərəkətini göstərmək daha yaxşı olar. Yaşlı adamlar uşağı qucaqlarında tutub, onunla mehribanlıqla danışarlarsa, bu da onu sakitləşdirər. Yaxşısı budur ki, bu uşaqların olmadıqları otaqda yerinə yetirilsin. Əks halda ona baxan başqaları da ağlaya bilər. Körpələr evinə tezdən gətirilmiş körpələri bütün başqa uşaqların nə vaxt toplanacaqlarını gözləmədən səhər yeməyi ilə yedizdirmək lazımdır.

Bacı – tərbiyəçi və dayə ikinci yaş ilində olan uşaqları səliqəli olmağa alışdırmalıdır.Əgər onlarla bu istiqamətdə tərbiyəvi iş

aparılmışdırsa, körpə 1 il yarımlığında qarşoka otumağı özü xahiş edir. Uşaqlarda qarşokdan vaxtında istifadəni vərdiş etdirmək üçün bu halda olan məcburi vaxtlara, o cümlədən: gəzintidən əvvəl, gəzintidən sonra, yatmazdan əvvəl, körpə yuxudan duran kimi (əgər yeri quru olarsa) dürüst əməl etmək lazımdır. Bundan başqa qarşokdan xeyli vaxt istifadə etməyə və yeri quru qalan uşaqlara da bundan istifadə etmələrini təklif etmək lazımdır. Bu yaşda uşağın qarşoka istəməsi haqqındakı vərdişi hələ yenicə yaranır, ona görə yaşlı adam buna nəzarət etməzsə, uşağın yadına salmazsa, bu çox asanlıqla pozula bilər.

Tərbiyəçi və dayə uşaqlara diqqətlə, kifayət qədər mərifətlə yanaşmazsa, onu qarşoka oturtmaq üçün maraqlı oyunlar ayırarsa, (uşaq hələ bu barədə vaxtında böyüklərə müraciət etməyə alışmamışdır) onda nəinki təmizkarlıq vərdişi əmələ gəlməz, hətta o, hər vasitə ilə bu prosesə müqavimət də göstərər.

Dayənin köməyi ilə uşaqlar əllərini yumağa başlayırlar. Bacı – tərbiyəçi uşaqlardan 2 – 3-nü yanına çağıraraq deyir: "gedək, Günel əllərini yuyaq, Sevil xala süfrəni hazırlamışdır. Elvin də bizimlə gedər, Günay da". O, uşaqlara oyuncaqları yerinə qoymalarını xatırladır. Əgər uşaq buna əhəmiyyət vermirsə, mehribancasına təkrar edir, yaxud özü bunları yerinə qoyur və uşaqları əlüzyuyanın yanına aparır.

Bu uşaqlar üçün alçaq əlüzyuyan olmalıdır ki, onlar tədricən sudan müstəqil istifadə edə bilsinlər.

Yuyunmanı keçirərkən yaşlı adam uşaqlarla söhbət aparır, onların hərəkətlərini tərifləyir. Uşaq əlini yuyarkən, onu suyun axarının altına tutduğunu görən dayə deyir: "Bax, Nofəl necə yaxşı oğlandır, özü əllərini yuyur, balaca Günay da bunu bacarır?". Balaca uşaqların bir çoxu üzlərini yumağı sevmirlər, ona görə onları bu işə istiqamətləndirmək lazım gəlir. "Bircə baxın, bizim Elvin indi necə təmiz, gözəl olacaq, baxın, uşaqlar, görün Elvin əl-üzünü necə yuyur?", sonra da "indi isə təmiz qurulanaq", deyə o, dəsmal ilə uşağın əl-üzünü qurulayır. Uşaq dəsmalları yaşlıların boyu bərabərində asıla bilər, çünki uşaqlar hələ özləri qurlanmağı bacarmırlar. Əgər böyük yaşlı uşaqların salfet-

kaları, dəsmalları ilə bir yerdə asılmışdırsa, yuyandan sonra onları elə oradaca uşaqlara geyindirirlər.

Uşaqlardan birinə əlini yumağı göstərməklə kömək edənlər paltarlarının qolları qatlanmış halda əlüzyuyanın yanında dayanan iki başqa uşağa bəzi müstəqil hərəkətlər etmələrinə: əllərini su ilə islatmağa, ovucun içini, bütünlüklə əllərini sabunlamağa , sabunlanmış yeri yumağa onlara imkan verir. Öz işlərini və uşağın hərəkətini yaşlılar sözləri ilə müşayiət edirlər, məsələn: "əlləri islat", "sabunu götür", "əlləri sabunlayaq", "sabunu yuyaq".

Bu yaşda olan uşaqlar müstəqil olaraq yuyunmağın öhdəsindən hələ gələ bilmirlər. Yaşlıların vəzifəsi – uşaqlarda, bu proses ilə əlaqədar olan xoş hiss və bu işdə fəal iştirak etmək arzusu oyatmaqdan ibarət olmalıdır.

Kiçik yaşlı uşaqlardan kimi birinci növbədə yedizdirmək lazım gəldiyini bilmək üçün bacı onların hansının o birilərindən tez yuxudan oyandığını və evdə onun nə vaxt nahar etdiyini bilməlidir.

Körpəni yuxudan durduqdan ən geci 1 saatdan sonra yedirtmək olar.

Kiçik və böyük yaşlılar yarımqrupdan olan uşaqları ayrı-ayrı yedirdirlər, çünki kiçik uşaqlar hələ bu vaxt müstəqil yeməyi bacarmırlar, yaşlıların onları yedirtmələri lazım gəlir. Bacı və dayə 2-3 kiçik yaşlı uşağı eyni zamanda yedirə bilərlər.

İkinci yaşında uşaqların yeməyi xeyli dəyişir. Əmizdirmələr dayandırılır, uşaq çeynəməyi tələb edən daha qatı və doyumlu yeməklər almağa başlayır.

Yaşlıların qarşısında uşaqların onlara tanış olmayan yeməklər yeməyi, müəyyən edilmiş payı həvəslə yeməyi, müstəqil yeməyi tədricən vərdiş etməyi öyrətmək kimi əsas məsələlər durur.

Uşaqların yedirilməsini keçirmək üçün əlverişli şərait yaradılmalıdır. Kiçik yaşlı yarımqrupdan olan uşaqlar yemək zamanı orta hündürlüyü olan pilləli qoltuqlu stolun arxasında oturmalıdırlar. Bacı uşaqların əllərinə qaşıq verir, içində yemək olan boşqabı uşağın qarşısına çəkib, yeməsini təklif edir. Uşaqlara nəzarət edərək, müstəqil əməyə təşəbbüs edənləri şirnikləndirir, on-

ların yeməyi qaşığa götürmələrini, ağızlarına aparmalarını sözlərlə müşayiət edir. Əgər uşaq fincandan su içirsə, yaşlı adam buna kömək edir. Əvvəllər uşaqları daha qatı xörəkləri dərin boşqabdan müstəqil yeməyə öyrədirlər.

Yaşlıların kiçikyaşlı uşaqları yemək prosesinə rəhbərlikləri bilavasitə kömək göstərməkdən: uşağın əlində tutduğu qaşığı düzəltmək, yeməyi qaşığa götürmək, ağzına aparmaq, iki əli ilə fincanı düz götürməkdən ibarətdir. Yemək prosesində yaşlılar öz işlərini və uşaqların hərəkətlərini danışıq ilə müşayiət edirlər. Uşaqların yenicə müstəqil yeməyə öyrəndiklərini nəzərə alaraq, yaşlı ehtiyat qaşıqdan (hər uşaq üçün ayrı olan) istifadə edərək, hər uşağa 3 qaşıq yemək verməklə növbə ilə onları yedirdir.

Yaşlılar yeməkdən sonra balaca uşağın ağzını səliqə ilə silir, əgər lazım gələrsə onun əl- üzünü yuyur və oyuncaqların yanına aparırlar.

Böyükyaşlı uşaqların yeməyi onların boylarına uyğun olan 4 addımlıq stolların arxasında keçirilir. Stolların üstü açıq rəngdə müşəmbə ilə örtülməlidir.

İstər birinci, istərsə də ikinci növ yemək üçün dərin boşqab, kiçik desert qaşığı olmalıdır.

Uşaqlar üçün fincanın alt tərəfi geniş, möhkəm duran, qulpu rahat olmalıdır. Süfrənin, uşaqların yaşına müvafiq düzəldilməsi onların müstəqil yeməkləri, xörəyi töküb dağıtmamaları üçün imkan yaradır.

Yemək zamanı üst – başını çirkləndirməmək üçün uşaq uzunluğu dizinin üstünə qədər olan önlük taxmalıdır.

Yaşlılar uşaqları stola tərəf elə yönəltməlidirlər ki, onlar həm rahat əyləşə bilsinlər, həm də bir-birlərinə maneə törətməsinlər. Yeməyi gözlətmək olmaz. Uşaq stolun arxasına əyləşən kimi bacı yeməyi onun qarşısında qoyur və yeməyə başla-masını təklif edir. Yaşlı adamlar uşaqların müstəqil hərəkətlərini həvəsləndirirlər.

Bu yaşda uşaqlar tərbiyəçinin, dayənin "qaşığı o biri əlinə al", "fincanı iki əlinlə tut", "çörəyi dişlə" kimi tapşırıq və göstərişlərini yerinə yetirirlər.

Bəzi yaşlılar uşağın əlində tutduğu qaşığı, fincana müvafiq tutmalarını düzəltməli, onun əlini öz əlində tutub düzgün hərəkət etməyi göstərməlidirlər.

Uşağın yemək zamanı səliqəli olması üçün bacı – tərbiyəçi və dayə onun düzgün olmayan hərəkətlərinin qarşısını almağa çalışmalıdır.

Uşaqlar tez yorulur, bir az yedikdən sonra o yan – bu yana baxmağa başlayır, yaxud daha heç yemirlər. Yaşlı adamlar onlara kömək etməlidirlər. Onlar uşaqların üzü, əli və dodaqlarının vaxtında silinməsinin qayğısına qalmalıdırlar. Əgər stolun üstünə xörək dağılıb, qırıntı tökülübsə, onu cəld təmizləyib səliqəyə salmaq lazımdır. Yeyib qurtaran hər bir uşaq gecikmədən stolun arxasından qalxır və ona oynamaq üçün imkan verilir.

Tərbiyəçilər böyükyaşlı uşaqların yedirilməsini qurtarandan az sonra kiçik yaşlı uşaqlarla, sonra da böyük yaşlılarla oynayır, söhbət aparır, daha sonra uşaqları yatırtmağa hazırlayırlar. Bir qayda olaraq, birinci növbədə kiçik yaşlı uşaqları yatırtmaq lazımdır. Lakin bəzi zəif, tez yorulan yaşlı uşaqların da uzun müddət yatmağa ehtiyacları olduğundan, onların yaşından asılı olmayaraq, o birilərindən əvvəl yatızdırılması məsləhətdir. Təmiz havada yatmaq üçün lazım olan geyim qabaqcadan hazırlanmalıdır.

Uşaqların sakit yatmaları üçün normal şərait yaratmaq məqsədilə xüsusi yataq otağı olmalıdır ki, oyaq olan uşaqların səs-küyü yatanlara mane olmasın.

Uşaqların gündüz yuxusunun açıq havada: eyvanda, talvar altında, meydançada təşkil olunması məqsədəuyğundur. Nəzərə almaq lazımdır ki, ilin soyuq vaxtında 1 il 6 aylığa qədər olan uşaqlarla gəzinti keçilmir, böyüklər isə çox az vaxt gəzintidə olurlar. Ona görə ilin bu vaxtında açıq havada yatmaq onlar üçün zəruridir.

Əgər şərait uşaqların otaqda yatırılmalarını tələb edirsə, o zaman uşaqlar yatdıqları müddətdə otağın havasınm yaxşı ventilyasiya edilməsi: hava dəyişdirmək üçün kiçik və yaxud böyük pəncərələrin açıq saxlanılması, (bayırdakı havanın istiliyindən

nılı olaraq ) fasilə təmin edilməli, eyni zamanda uşağın soyuq hava cərəyanı altında yatmaması və soyuqlamamasına da nəzarət olunmalıdır.

Uşaqlar havada yatızdırıldıqları zaman elə geyindirilməlidirlər ki, nə çox soyuq, nə də çox isti olmasın. Bu məqsədlə, ilin soyuq vaxtında yatmaq üçün pambıq torba yatacaq adlanan geyimdən istifadə edilməsi əlverişlidir.

Uşağı təmiz havada yatmağa hazırlayarkən onun paltarını çıxarıb, alt köynəyinin üstündən təmiz, gecə köynəyi geydirməli, yorğana bürüməli, (başına ləçək bağlamalı, torba-yatacaq paltarı geydirib bayıra çıxarmalı və gətirib yatması üçün müəyyən olunmuş yerdə (eyvanda, talvar altında, meydançada) öz çarpayısına qoymaq lazımdır.

Bəzi uşaqları xüsusilə yeni daxil olanları, yatırtmaq çox çətin olur, çünki onlar evdə vərdiş etmişlər ki, yatızdırılarkın əmzik versin, qucaqda gəzdirsin, yırğalansınlar. Bu vərdişi birdənbirə dəyişdirmək lazım deyil. Belə hallarda uşağı gəzdirmək, onunla sakit danışmaq və yanında çox oturmaq kifayətdir.

Düzgün rejim olduqda uşaq yeni şəraitə alışır, eləcə də o biriləri kimi vaxtında yatmış olur.

Tərbiyəçi və dayənin hərəkətlərində tam birlik olmalıdır. Onlar öz vəzifələrinin dairəsini bilməlidirlər. Bacı-tərbiyəçi uşağı yatmağa hazırladığı və oynamaqla məşğul olan uşaqlara nəzarət etdiyi müddətdə, dayə geyinənləri eyvana çıxarır və s.

Gündüz yuxusu zamanı uşaqların özlərini necə hiss etdiklərini, uzandıqları yerin rahatlığını, onları narahat edən bir şeyin olub - olmadığını diqqətlə müşahidə etmək lazımdır. Bəzi uşaqların üstünü örtmək, o birilərinin paltarlarını dəyişmək və s. lazımdır.

Bütün proseslər – yuyunma, yedirtmə və yatızdırma bacı və dayə tərəfindən eyni sürət və ardıcıllıqla keçirilməlidir. Yaşlı adamlar uşaqlara qulluq edərək, vahid tələblər nəzərə alınmalıdır.

Bacı – tərbiyəçi, nə etmək və uşaqlarla necə davranmaq lazım gəldiyini dayəyə izah edir ki, onlarda özünəxidmət işində iştirak etmək həvəsi tərbiyələndirmək, onlara səbirlə vərdiş və baca-

rıqlar aşılamaq lazımdır. Bacı – tərbiyəçi dayənin işinə nəzarət etməli və hərəkətlərini istiqamətləndirməlidir.

Dayə, məşğələləri qurtarmış böyükyaşlı uşaqları gəzintiyə çıxarmağa hazırlayır və onları geyindirir.uşaqları geyindirərkən onlarla danışır, paltarın adını çəkir. Bu, uşaqlara yeni ad eşitmək və yadda saxlamalarına, paltar geyinməkdə fəal ciddi- cəhd göstərmələrinə kömək edir.

Uşaqlara qulluq edərkən, məsələn, gəzintiyə çıxmaq üçün geyindirərkən onların özlərinin paltar geyinməkdə fəal iştirak etməsi üçün göstərdikləri cəhdi müdafiə etməlidir. Uşaq, müstəqil heç bir iş görə bilmədiyi halda "mən özüm" deyir, lakin uşağın hərəkət etməsi üçün göstərdiyi arzu onun gələcək müstəqilliyinin inkişafında böyük əhəmiyyətə malik olacaqdır. Yaşlı adamlar uşaqları asan işləri görməyə təhrik etməlidirlər: məsələn, uşağa corab geydirəndə ona belə təklif edilir: "Aydın, ayağını uzat, o birini də bax belə, yaxşı".

Uşağı döşəmənin üstünə qoyub deyir: "İndi corabı çəkək". Uşaq ilk vaxtlarda ancaq corabı tutur, onun səyini həvəsləndirərək deyir: "Bax belə, corabı geydik". Çəkməni uşağın ayağına keçirib, ayaqlarını yerə vurmasını təklif edir. Evdə səssiz geyindirməyə öyrədilmiş uşaqlar bu prosesdə iştirak etməyə heç bir cəhd göstərməyərək, özü geyinmədə iştirak etmir, onları nə vaxt geyindirəcəyini gözləyir və bu işin müstəqil yerinə yetirilməsi üçün heç bir təşəbbüs göstərmirlər. Bacı-tərbiyəçi dayənin diqqətini belə uşaqlara cəlb etməli və onunla birlikdə müxtəlif vasitələrlə onların fəallığına səbəb olmalıdır. Uşaqlarda müstəqillik tərbiyəsinə valideynlər də hökmən cəlb olunmalıdırlar. Bu, uşaqlarda vərdişlərin əmələ gəlməsini sürətləndirir.

Uşaqların geyindirilməsində eyni bir ardıcıllığın gözlənilməsi də çox mühümdür. İlin soyuq vaxtlarında uşağın geydiyi paltarlar daha mürəkkəb olur, əvvəl corab, sonra çəkmə, başına yaylıq örtülür, əlinə tək barmaqlı əlcək taxılır, sonra palto geydirirlər. Axırda başına papaq qoyulur. Uşaqları gəzinti zamanı, çöldəki havaya uyğun olaraq geyindirmək üçün havanın necə olmasını çox diqqətlə izləmək lazımdır.

Bəzən səhər hava soyuq olduğu üçün ana uşağa isti paltar geydirir, gəzinti vaxtı isə hava istiləşir, ona görə də uşağın paltarı yüngülləşdirilməlidir. Yoxsa, uşaq tərləyər və asanlıqla xəstələnə bilər. Belə hallarda uşaqlara fufayka geydirmək (palto altından), boynuna şərf bağlamaq, küləksiz havada paltosunun boynunu qaldırmaq lazım deyildir. Valideynlərlə müntəzəm söhbət aparılıb, onları başa salmaq lazımdır ki, uşaqları möhkəm bürüməsinlər, havanın istiliyinə uyğun geyindirsinlər.

Geyinmiş uşaqlar otaqda çox qalmamalıdırlar, əks halda onların bədənləri həddindən artıq istiləşər və gəzintiyə çıxan kimi soyuq dəyə bilər. Ona görə bacı – tərbiyəçi başqalarını gözləmədən geyinmiş 5 – 6 uşaqla bayıra çıxır, qalanlarını dayə geyindirir və bacı – tərbiyəçinin yanına gətirir.

Böyükyaşlı uşaqlar gəzintidə olduqları vaxt dayə yatmış kiçikyaşlı uşaqlara nəzarət edir, təsərrüfat işləri ilə məşğul olur. Gəzintini keçirərkən bacı bütün uşaqların məşğul olmalarına, soyuq havada çox hərəkət etmələrinə çalışır. O, uşaqları müxtəlif oyuncaqlarla təmin edir, onların oyunlarında özü də fəal iştirak edir, uşaqların ətraf mühit üzərində müşahidə aparmalarına kömək edir.

Bacı - tərbiyəçi uşaqlarda oyuncaqlara ehtiyatla yanaşmağı tərbiyə edərək, bütün gəzinti müddətində onların oyuncaqlardan necə istifadə etmələrinə göz yetirir. Gəzintinin sonunda uşaqlarla birlikdə bacı oyuncaqları yeşiyə yığır, topları, belləri və s. sayır, çatışmayanları axtarır. Gəzintinin axırında dayə onları aparmaqda bacı – tərbiyəçiyə kömək edir. O, uşaqların bir hissəsini və oyuncaqları binaya gətirir.

Uşaqlara binaya daxil olmadan əvvəl ayaqlarını nəm xalçaya silmələri öyrədilməlidir. Yaşlı adamlar da qışda uşaqların paltar və çəkmələrinin qarını kiçik paltar süpürgəsi ilə çırpırlar.

Uşaqları soyundurarkən yaşlılar onlarda bu prosesdə iştirak etmək həvəsi oyatmağa çalışır, iki yaşın sonunda uşaqları bəzi özünəxidmət işlərini görməyə cəlb edirlər. Qış paltarı – palto, papağı yaşlı adamlar çıxarır, uşaqlar isə ev çəkmələrini götürür, onu öz stullarının yanına qoyur, corablarını çıxarırlar. Yaşlılar uşağın

ayaqqablarını çıxarır, ev çəkmələrini geydirib qrup otağına göndərirlər.

Uşaqların köməyə ehtiyacı olduğunu nəzərə alaraq qrafik əsasında fəliyyət göstərən pedaqoji heyət və texniki işçilər işə məsulliyyətlə yanaşmalıdırlar. Qrupda qrafikaya uyğun olaraq pedaqoji və texniki işçilərin birgə fəaliyyəti sayəsində uşaqların yeməyinin, yuxusunun təşkilində qarşıya çıxan çətinliklərin öhdəsindən asanlıqla gəlmək olur. Onlar yeməyi birlikdə keçirir, böyük yaşlı uşaqları yatıtdır, kişik yaşlı uşaqları yuxudan oyadırlar.

Uşaqlara nahar etmək və bu zaman səliqəni gözləmək tədricən öyrədilir. Adətən, onlar birinci xörəyi həvəslə yeyir, yorulur və ikinci xörəyi yeməkdə tənbəllik edirlər.

Əgər uşaqlardan biri (onu dilə tutmağa baxmayaraq) xörək yeməyi inadla rədd edirsə, təkid etmək lazım deyil, çünki bu, zorla yedizdirmə onda xörəyə nifrətin əmələ gəlməsinə səbəb ola bilər.

Yemək qurtardıqdan sonra uşaqlar stolun arxasından qalxırlar. Bacı onlara hamının ağzını kiçik dəsmal ilə silməyi və sağ ol deməyi xatırladır. Bunu bacarmayanlara daha yaxından kömək edir, onları yuxuya hazırlayır.

İkiyaşlılara da kiçikyaşlılar kimi tədricən müstəqil yatmağı öyrədirlər. Dayə uşaqları yatacaq torbaya bükür, uşaqlar otaqda yatmalıdırlarsa, onların paltarlarını dəyişdirir.

İkiyaşlılar yarımqrupunun uşaqlarını soyundurarkən onları bacarıqlarına müvafiq özünəxidmətə alışdırırlar: məsələn, kiçik stulu gətirmək, qaytanı açılmış çəkməni çıxartmaq, bunları stulun altına qoymaq, düyməsi açılmış paltarı, corabı çıxarıb stulun üstünə qoymaq kimi işləri onlara gördürürlər.

Uşağı soyundurarkən bacı – tərbiyəçi onun paltarlarını səliqə ilə stulların üstünə qoyur və uşağın diqqətini buna cəlb edir.

İkiyaşlılar qrupunda da həyatın birinci ilində olduğu kimi uşaqların yuxusu, oyaq qalması, qida qəbulu xüsusi rejimlə aparılır. Əgər uşaq yuxudan rejimə müvafiq şəkildə oyanmamışsa, sonrakı prosedurlar da məqsədəuyğun şəkildə həyata keçməyə-

cəkdir. Nəticə olaraq uşaqda süstlük, iştahasızlıq və yuxusuzluq özünü göstərəcəkdir.

Vaxtında yuxudan oyanmağa adət etməyən uşaqları yemək rejimini pozmamaq üçün yuxudan oyatmaq lazım gəlir.

Dayə oyanmış körpəni otağa gətirir, burada bacı – tərbiyəçi onu geyindirə - geyindirə mehribanlıqla danışır: "Minacan, necə yatmışdın? Tez gəl geyinək".

İlin isti vaxtlarında oyun - məşğələdən sonra uşaqlar gəzintiyə çıxarılırlar. Yayda isə onlar bütün günü açıq havada olurlar. Qışda kiçikyaşlı uşaqlar gəzintiyə aparılmırlar, çünki onların havaya uyğun geyindirilmələri hərəkət etmələrinə çətinlik törədir. Az hərəkət etdiklərinə görə tez üşüyürlər.

Bacı – tərbiyəçi valideynlərlə söhbətində uşaqların gəzməyə çıxarmalarının zərurilıyini bildirməlidir. Bu gəzintini axşam, imkan daxilində səhər də təşkil etmək məsləhət görülür.

Gəzintiyə çıxarkən oyuncaqları da aparmaq lazımdır. Bacı uşaqlara onlarla necə oynamalarını göstərməlidir: məsələn, qumu kürək ilə qazımaq, çalov ilə vedrəyə tökmək, kuklanı kiçik uşaq arabasında gəzdirmək və s.

Bu yaşda uşaqlar özləri – özlərini məşğul edə bilmir.Bacı uşaqların az hərəkət tələb edən oyunlarını, 3 – 4 uşaq iştirak edən çox hərəkətli oyunlarla ( "Məni axtarın", "Məni tutun" və s. ) növbələşdirməlidir.

Bacı oyuncaqları yığmağı uşaqlara öyrədir. Onlar oyuncağı ya bacıya verir, ya da özləri müstəqil yeşiyə qoyurlar. Bacı düzgün hərəkətlərinə görə onları həvəsləndirir.

Gəzinti zamanı bacı – tərbiyəçi uşaqlara diqqətlə göz qoyur, onlardan hər hansının nəyə ehtiyacı olduğunu hiss edən kimi dərhal binaya gətirib, yaşlılardan birinə verir.

Gəzintilərdən sonra kiçikyaşlı uşaqların üst paltarlarını çıxarır, əllərini yuyub yatızdırırlar. Bununla da bacı – tərbiyəçi və dayə həmin işlərin yerinə yetirilməsindəki ardıcıllığı təmin etməlidirlər. Rejimə əsasən uşaqlar ikinci dəfə yatarkən qismən böyük yaşlı uşaqlar da yavaş-yavaş yuxudan durmağa başlayırlar. Əgər uşaqlar otaqda yatmışlarsa, yuxudan duranlara paltar verilir.

Yaşlılar o biri uşaqların paltarlarını geyindirənə kimi həmin uşaqlar öz paltarlarına baxır, geyinməyə çalışırlar. Bu vaxtdan uşaqla fərdi ünsiyyət məqsədilə istifadə olunmalıdır. Yaşlılar onların geydikləri paltara baxaraq: "Elmiranın nə yaxşı paltarı var, cibi də var, cibində yaylığı da var" – deməlerini uşaqlar çox xoşlayırlar.

Özünəxidmət vərdişlərinin bünövrəsinin qoyulması və onun inkişaf etdirilməsi üçün qrupda bacı – tərbiyəçi, ailədə isə valideynlər müntəzəm, düşünülmüş iş aparmalıdırlar.

Bu müddətdə hər iki yarımqrup eyni vaxtda oyaq olur. Bacı – tərbiyəçi uşaqlarla oynayır, onları məşğul edir, uşaqların ardınca gələn valideynləri evlərinə yola salır. Əgər uşaqlar sakit dayanırlarsa, dayənin də onlara nəzarət etməyə imkanı vardırsa, o, bacı – valideynlərin görüşünə çıxır, uşağın özünü necə hiss etməsi, bu gün onun hərəkətində nə kimi yenilik baş verməsi haqqında anaya qısaca məlumat və məsləhət verir.

**Uşaq fəaliyyətinin təşkili və məzmunu.** İkiyaşlıların oyaq vaxtı biryaşlılara nisbətən xeyli artır.1 il 2-3 aylıq uşaqlar fasiləsiz olaraq 3-4 saat, 1 il 10 aylıq isə 4-5 saat oyaq qala bilərlər. Bu isə uşaqların fəaliyyətini daha məzmunlu və rəngarəng etməyə imkan verir.

Gəzməyə öyrənmiş uşaqlar bu dövrdə xeyli çeviklik göstərirlər. Yerimə onların tələbatına çevrilir.

Ona görə də otaqda onların müstəqil hərəkət etmələri üçün kifayət qədər sahə ayrılmalıdır. Uşaqlara top diyirlətmək, atmaq, ardınca qaçmaq imkanı vermək üçün onlara böyük və orta böyüklükdə olan toplar verilməlidir.

Uşaqların hərəkətlərini müşahidə edən bacı- tərbiyəçi onlara tapşırıq yolu ilə, məsələn, "ayını gətir", "kürəciyi diyirlət", "oyuncağı mənə ver" deməklə çalışdırır. Gəzinti zamanı uşaqların hərəkəti üçün geniş imkan yaranır. Uşaqlar üçün oyun meydançası düz və təmiz olmalıdır. Meydançada şüşə qırıntılarının, ayaqları toxuna biləcək daşların olmasına və s. yol verilməməlidir.

Meydançada hamarlanmış torpaq təpəciklər, alçaq bəndlər elə düzülməlidir ki, uşaqlar onların üzərindən keçib gedə bilsinlər.

Top, diyirçək oyuncaqlar uşaqları hərəkət etməyə həvəsləndirməlidir.

Qışda meydança qardan təmizlənməlidir. Qar ilə örtülmüş təpəçik və bəndlərdən də müvazinəti inkişaf etdirmək üçün istifadə etmək olar.

Gəzinti zamanı uşaqlar bir sıra təbii maneələri aradan qaldırmalı olurlar. Onlara döşəmənin üstü ilə hərəkət etmək, yaxud taxta təpəciyə çıxmaq və oradan enməyi öyrətməkdənsə, yayda otun üstü ilə yerimək, otluq olan kiçik təpəciyə dırmaşmaq üçün şəraitin yaradılması məqsədəmüvafiqdir.

Uşağın həyatının bu dövründə hərəkətlərini təkmilləşdirməkdə onlara kömək etmək, onlarda maneələri aradan qaldırmağa həvəs oyatmaq lazımdır.

Gəzinti zamanı bacı – tərbiyəçi bütün uşaqların fəallaşmasına, hərəkət etmələrinə, oynamalarına nəzarət etməlidir. O, uşaqlara bir - birini qaçıb tutmalarını, yaxud axtarıb tapmalarını təklif etməlidir, bu yolla uşaqlar hərəkətli oyunlara cəlb olunurlar.

İkiyaşlıların gəzintisindən onların təsəvvürlərini zənginləşdirmək və ətraf mühitlə tanışlığının bünövrəsini qoymaq üçün istifadə edilməlidir. Bu zaman uşaqların yorulmamalarına yol vermək olmaz, hərəkətli oyunlar sakit oyunlarla və istirahətlə əvəzlənməlidir.

Uşaqların müstəqil hərəkətetmə qabiliyyətləri onların ətraf aləmə daha çox bələd olmalarına imkan verir. Bacı – tərbiyəçinin qarşısında duran əsas vəzifə onların müşahidəçilik qabiliyyətlərini inkişaf etdirməkdən ibarətdir.

Bu məqsədlə mebellərin, oyun otağındakı oyuncaqların düzülüşünü, divardan asılan şəkilləri vaxtaşırı dəyişmək, hərdən yeni personajlar daxil etməklə oyuncaqlardan məzmunu mürəkkəb olmayan maketlər tərtib edərək, uşaqların diqqətini onlara ciddi cəlb etmək lazımdır.

Uşaqlara imkan vermək lazımdır ki, qrup otağında (misal üçün kiçik təpədəki stollar üzərində) küçədə baş verən əhvalatları (quşlar uçuşur, maşınlar gedir, qar, yağış yağır və s.) müşahidə

etsinlər. Tərbiyəçi uşaqların diqqətiini onlar üçün ən çox maraqlı müvafiq olan cisim və hadisələrə cəlb etməli, uşaqların həmin vaxtda müşahidə etdiyi şeyin adını söyləməlidir, bu zaman nəğmə oxumaq yaxud 2 – 3 bənddən ibarət şer söyləmək olar.

Gəzinti zamanı uşaqlar quşlara dən verir, onların necə uçmalarını, küçədə adamların və nəqliyyatın hərəkətini görürlər. Uşağın nə danışdığına və nə ilə maraqlandığına diqqət vermək və ona şərait yaratmaq lazımdır. Tədricən uşaqda eşitdiyi səsi və gördüyü hərəkətləri dərk etmə bacarığı inkişaf edir. Uşağın ümumi inkişafında, nitqinin formalaşmasında, oyun fəaliyyətində bunun rolu böyükdür.

Bu yaşda uşaqlar kollektivdə oynamağı hələ bacarmırlar. Onların birgə hərəkət etmək və öz aralarında razılaşmaq imkanı olmur. Bacı – tərbiyəçi uşaqlara bir-birinə mane olmadan, oyuncaqları öz aralarında bölüşdürməyi öyrədir. Günün müxtəlif vaxtlarında uşaqlar süjetli oyuncaqlar, inşaat materialları ilə oynayır və şəkillərə baxırlar.

İkiyaşlı uşaqlar müstəqil fəaliyyətləri zamanı şəkillərə baxmağa böyük maraq göstərir, lakin onların bu marağı uzun müddət davam etmir. Buna görə də şəkillər üzrə söhbət uzun sürməməli, uşaqların bu kimi fəaliyyətlərini istiqamətlən-dirmək, materiallardan düzgün istifadə etmək üçün şərait yaradılmalıdır.

Bacı-tərbiyəçi uşaqlara nazik taxtaya, kartona yapışdırılmış şəkillərdən səliqə ilə istifadə etməyi, kitabı ehtiyatla vərəqləməyi, sonra onları yerinə qoymağı öyrətməlidir.

Uşaqların oyunları üçün heyvanları təsvir edən yumşaq oyuncaqlar (pişiklər, itlər, ayılar) yumşaqbədənli, başları rezindən olan kuklalar, adamlar və heyvanlar olmalıdır.

Əşyalarla hərəkəti inkişaf etdirmək üçün taxta bankalar, qapağı olan və olmayan qablar, qalalar, göbələk və ya çöplər üçün deşiyi olan skamyalar əldə edilməlidir. Uşaqların qum və su ilə oynamaları üçüm çalov, kiçik uşaq vedrələri, kürəklər, qum ilə oynamaq üçün alətlər, üzən oyuncaqlar da lazımdır.

İkiyaşlıların fəaliyyətləri şərti olaraq onların gözünə dəyən şeylərlə bağlıdır.

Buna görə də oyuncaqları evin müxtəlif yerinə düzmək lazımdır ki, onlar uşaqların gözünə sataşsın və onlar bir-birinə mane olmadan bunlarla oynaya bilsinlər. Dəst halında düzülmüş oyuncaqlar (qab-qacaq ilə mebel kiçik oyuncaqlarla inşaat materialları, enişdən şar diyirlətmək üçün oyuncaq və s.) uşaqları 1-2 iş görməyə (qabı stolun üstünə qoymaq), enişdən şar diyirlətmək və s.) təhrik edir.

Bacı – tərbiyəçi uşaqlarm oyunlarına, müvafiq elementlər daxil edib, onun məzmununu zənginləşdirir: məsələn, bacı – tərbiyəçi boş sərnişin maşınını sürən uşağa kuklanı, ayını mindirib gəzdirməyi təklif edə bilər. Uşaqları oyuncaqlardan düzgün istifadə etməyi: məsələn, maşını sürməyi, kuklanı gəzdirməyi, topu diyirlət-məyi, atmağı və s. öyrətmək lazımdır.

Uşaqlar öz oyunlarında onları əhatə edən həyatdan aldıqları təəssüratı əks etdirirlər. Müşahidənin nəticələrini oyunda əks etdirilməsi üçün uşağa kömək göstərmək lazımdır. Məsələn, ana uşağa dayəlik edir, sürücü maşın sürür, həkim müalicə edir.

Yaşlılar bu və ya başqa rolu üzərlərinə götürməklə, uşaqların oyunlarında mümkün qədər fəal iştirak etməlidirlər. Bacı – tərbiyəçi və dayə qrupda intizamı gözləməyə çalışır, səpələnmiş oyuncaqları yığır, uşaqları da yavaş-yavaş bu işə cəlb etməyə səy göstərirlər.

Bütün gün müddətində uşaqların oyunları müxtəlif xarakter daşıyır. Səhər və axşam saatlarında hər iki yarımqrupun eyni zaman oyaq olduqları müddətdə bacının gigiyenik tədbirlərə çox vaxt sərf etməsi lazım gəldiyini nəzərə alaraq uşaqlara davranışını mənimsəmiş olduqları vəsait və oyuncaqları vermək məsləhətdir. Bəzi oyuncaqlar bu vaxt yığışdırılmalıdır: məsələn, böyük maşınlar, kiçik arabalar kimi oyuncaqlarla oynarkən uşaqlar bir-birinin hərəkət etmələrinə mane ola bilərlər.

Hər iki yarımqrupun uşaqları eyni vaxtda oynayarkən qarşılıqlı mehribançılıq tərbiyə edilməsinə xüusi fikir verilməlidir. Böyükyaşlı yarımqrupda olan uşaqların kiçik yaşlılara qayğı ilə yanaşmaları, lazım gəldikdə oyuncaqları bölüşdürmələri, kiçikyaşlıların isə böyüklərə mane olmamaları tərbiyə edilməlidir.

Kiçik və böyük yaşlı yarımqrupdan olan uşaqların oyaq qalma vaxtı müxtəlif olması onların sərbəst fəaliyyətini daha tam təşkil etməyə imkan verir. Bacı – tərbiyəçi özünün uşaq ilə fərdi ünsiyyətində, onun yeni oyuncaqla rəftar etmək bacarığını möhkəmləndirir, tədricən onlardan istifadə qaydalarını öyrədir.

Tərbiyəçi oyaqqalma saatlarından uşaqların nitqlərini inkişaf etdirmək üçün istifadə edilməlidir. Uşağa özünün, həmçinin yaşlı adamın nitqini yaxşı eşitmək üçün tam səssizliyin yaradılması, onunla fərdi ünsiyyətə girməyə imkan verir.

Uşaqlarla keçirilən ilk tərbiyəvi təsirlər, özünün məzmunu etibarilə sonradan aparılan oyun məşğələlərdən əhəmiyyətli dərəcədə fərqlənir.

Həyatının ikinci ilinin sonunda aparılan məşğələlərdə bütün qrup eyni vaxtda iştirak edir. Bu işdə müvəffəqiyyətin əldə edilməsi üçün uşaqlarda onların nəyi öyrəndiklərinə maraq oyadılmasının böyük əhəmiyyəti vardır. Əyani vəsaitin gözlənil-mədən görünməsi və yox olması, hərəkətlərin bir-birini əvəz etməsi, yaşlılar tərəfin-dən qarşıya sualların düzgün qoyulması marağın yaranmasına səbəb olur.

Uşaqlarda adi davranış qaydalarını öyrənmək və ona adət tərbiyə edilməlidir.

Yarımqruplar üzrə məşğələlər keçirilməsinin lap başlanğıcından (1 il 2 aylıqdan 1 il 4 aylığadək) uşaqlara tələb olunan duruş vəziyyəti almalarını, gözləmələrini, bacı – tərbiyəçinin söhbətini diqqətlə dinləmələrini, onun göstərdiyi əşyalara baxmalarını, verilən suallara düzgün cavab verməl
ərini öyrətmək lazımdır. Uşaqların davranış qaydalarına əməl etmələri tədricən adət halını alır, yerinə yetirilmiş hərəkət, ifadə edilmiş söz isə sevincə səbəb olmağa başlayır.

İkinci ilin sonunda uşaqlarda yaşlıları təqlid etmək və onların tapşırıqlarını yerinə yetirmək qabiliyyəti formalaşmağa başlayır. Bu bacarıq yenicə yaranmağa başladığı üçün uşaqların yaşlıların sual və təkliflərinə (xüsusilə yeni söz, iş və hərəkət öyrədilərkən) adətən bir neçə dəfə təkrardan sonra cavab verirlər. Məşğələyə maraq oyatmaq və yaşlıların təklifini yerinə yetirmək

həvəsi yaratmaq üçün yeni materialla yanaşı, uşaqların əvvəllər mənimsədiklərindən də istifadə etmək lazımdır.

Hər qrupda məşğələ keçirərkən uşaqlara fərdi yanaşmanı tətbiq etmək vacibdir, xüsusilə bağçaya yeni daxil olanlara, utancaqlara fərdi yanaşılmalıdır. Məşğələdə fəal iştirak etməyə arzu və maraq əmələ gəldikdən sonra uşaqlar tərdricən fəallaşırlar. Məşğələ zamanı bu uşaqlar daim bacı –tərbiyəçinin nəzər-diqqətində olmalı, onlara daha artıq kömək göstərilməlidir.

Uşaqlarda böyüklərin suallarına düzgün cavab vermək və ya bacı – tərbiyəçinın təklifi əsasında müəyyən bir iş görmək bacarığı yarandıqca məşğələlər də məzmunca mürəkkəbləşdirilməlidir.

Kiçikyaşlı yarımqrupdakı uşaqlara oyun - məşğələ keçirilməsi üçün ən əlverişli vaxt ikinci yeməkdən sonra ikinci yuxuya qədər olan vaxt hesab olunur. Bu da böyükyaşlı uşaqların yatdıqları vaxta təsadüf edir.

Binada keçirilən məşğələdən başqa bacı – tərbiyəçi sahədə də məşğələ keçirilməsini planlaşdırır. Belə məşğələlər qış üçün hərəkətli oyunlardan və ətraf mühitdən götürülmüş sadə hadisələri müşahidə etməkdən ibarət olur. Yayda sahədə hər hansı bir müşahidə keçirilə bilər, lakin bunun üçün lazımi şərait yaradılmalıdır. Bu şəraitdə uşaqların diqqətləri yayınmamalı, onlar bacı - tərbiyəçini eşitməli və müstəqil hərəkət etməlidirlər.

İkiyaşlı yarımqrup ilə bacı – tərbiyəçi qışda oyun məşğələlərini nahardan sonra binada keçirir. Bu vaxt kiçikyaşlı (bir – bir yarım ) uşaqlar da oyaq olurlar. Onlarla dayə məşğul olur. Gəzintiyə çıxmaq mümkün olmadıqda qrup otağında oyunlar keçirilir.

Uşaqların sayı 6-8-dən çox olmayan böyük yaşlı yarımqrupla: qalanı söküb yenidən qurmaq, tikinti materialları ilə tikmək, xırda oyuncaqları düzmək və yığmaq, toptutma oynamaq, taxtanın üstü ilə gəzmək və bir çox başqa oyunlar keçirmək olar.

Yarımqrupda uşaqların sayı az olarsa,( 4-6) o zaman onların hamısı ilə birlikdə nitq inkişafı üzrə: şəkildə nə əks etdirildiyini danışmaq, yeni oyuncaq ilə tanış etmək, onunla necə oynamağı izah etmək, göstərməklə əlaqədar oyun - məşğələlər keçirmək olar.

1 yaş 6 aydan yuxarı olan uşaqların məşğələlərində 8 nəfəri birləşdirmək olar. Musiqiyə, oyuncaq heyvanlarla tanışlığa aid məşğələləri eyni vaxtda, hər iki yarım qrupla birlikdə keçirmək olar. Uşaqları necə təşkil etmək, məşğələ zamanı onları necə oturtmaq haqqında bacı-tərbiyəçi qabaqcadan düşünməlidir. Məşğələlərdə uşaqları elə oturtmaq lazımdır ki, stolun arxasında hər bir uşağa kifayət qədər yer olsun. (Dirsəkləri ilə bir-birlərini itələməsinlər, hamısına oyun materialı çatsın).

Səhnələşdirilmiş əsərə tamaşa edərkən uşaqları elə oturtmaq lazımdır ki, onlar bir-birlərinə mane olmasınlar, tamaşa isə onların hər birinə yaxşı görünsün. Bunun üçün onları stolun bir tərəfində əyləşdirmək əlverişlidir. Hər hansı əsəri naturadan göstərərkən bacı - tərbiyəçi topları tullayır, uşaqlar onların dalınca qaçışıb tuturlar Bəzi məşğələlər uşaqların xüsusi təşkil olunmalarını tələb etmir: məsələn, bacı- tərbiyəçi topları tullayır, uşaqlar onların dalınca qaçışıb tuturlar.

Bacı – tərbiyəçi hər bir məşğələyə hazırlaşmalı, lazım olan vəsaiti qabaqcadan seçməli, məşğələdə neçə uşağın iştirak edəcəyini nəzərə almalı, onun gedişi, və metodikası haqqında düşünməlidir.

Nitq inkişafı üzrə məşğələləri 4-5 uşaqdan ibarət olan qrupda keçirmək lazımdır.

Səs oxşatmaya və s. aid bəzi məşğələ növləri fərdi keçirilməlidir. Bu uşağın danışığını başa düşməyə və yaşlılarla yaxın olmasına kömək edir. Bu isə kiçik yaşlıların həyatı dərk etməsinin bünövrəsini qoyur.

Məşğələ üçün dəst halında vəsait olmalıdır. Bu, uşaqların oyuncaqlara və onlarla oynamağa marağına uzun zaman saxlayır.

Uşağın məşğələlərdə əldə etdiyi bacarıqlar, müstəqil fəaliyyəti prosesində möhkəmlənir və təkmilləşir.

İkinci yaş ilindəki uşaqlarla aşağıdakı məşğələlər keçirilir: nitqin inkişafı və ətraf mühitlə tanışlıq, hərəkətlərin inkişafı, əşyalardan istifadə etmə bacarığının inkişafı, fiziki məşğələ, musiqi məşğələsi, tamaşa-əyləncə.

Əsəb sisteminin inkişafı ilə əlaqədar ikiyaşlı uşaqların rejimində nisbətən yuxu dövrü azalır, fəal həyat dövrü isə artır. Bir yaşdan bir yaş altı aya qədər olan uşaqlar gündə iki dəfə, bir yaşdan altı aydan iki yaşa kimi gündə 1 dəfə yatırlar. Buna görə də eyni qrupda tərbiyə alan uşaqlar 2 müxtəlif rejimdə yaşayırlar. Uşaqların hələ müstəqil olmadıqlarını, adət və vərdişlərə hələ yiyələnmədiklərini nəzərə alaraq onları eyni vaxtda yedizdirmək, geyindirmək və soyundurmaq mümkün deyildir. Gəzinti üçün uşaqların geyindirilməsi və gəzintidən qayıtdıqdan sonra soyundurulması həmin yarımqrup üçün uşaqların yarısını təşkil etməklə onlarda müstəqil özünəxidmət əməyə yönəldilməsi üçün əlverişli şərait yaradır.

## Təxmini gün rejimi
## İlin soyuq dövründə

| Rejimin məzmunu və yerinə yetirildiyi yer | Yerinə yetirmə vaxtı |
|---|---|
| **E v d ə** | |
| Yataqdan qalxmaq, səhər tualeti | 6.30-7.30 |
| **Məktəbəqədər müəssisədə** | |
| Qəbul, müayinə, oyunlar, səhər gimnastikası | 7.00-8.00 |
| Səhər yeməyinə hazırlıq və yemək | 8.00-8.20 |
| Oyun, məşğələyə hazırlıq | 8.20-9.30 |
| Yuxu | 9.30-12.00 |
| Yataqdan qalxma | 12.00-12.10 |
| Nahar | 12.10-12.20 |
| Oyun | 12.30-13.00 |
| Məşğələ (yarımqruplarla) | 13.00-13.10-13.20 |
| Məşğələ ( yarımqruplarla) | 14.00-14.10-14.20 |
| Yuxuya hazırlıq, yuxu | 14.40-16.10 |
| Yataqdan qalxma, su tədbirləri | 16.10-16.30 |
| Axşamqabağı yemək | 16.30-17.00 |
| Oyun | 17.00-19.00 |
| Evə getmək | 19.00-dək |
| **E v d ə** | |
| Gəzinti | 18.00-19.00 |
| Oyun | 19.00-19.30 |
| Sakit oyunlar | 20.00-20.30 |
| Yuxuya hazırlıq, yuxu | 20.30-6.30 |

## İlin isti dövründə

| Rejimin məzmunu və yerinə yetirildiyi yer | Yerinə yetirmə vaxtı |
|---|---|
| **E v d ə** | |
| Yuxudan qalxmaq, səhər tualeti | 6.30-7.00 |
| **Məktəbəqədər müəssisədə** | |
| Uşaqların qəbulu, oyun | 7.00-7.30 |
| Səhər yeməyinə hazırlıq və yemək | 7.30-8.00 |
| Gəzintiyə hazırlıq, gəzinti, gəzintidən qayıtmaq | 8.00-9.20 |
| Yuxuya hazırlıq, yuxu | 9.20-11.50 |
| Yuuxudan qalxma, hava və su tədbirləri | 11.50-12.10 |
| Nahara hazırlıq, nahar | 12.10-12.30 |
| Gəzintiyə hazırlıq, gəzinti | 12.30-14.15 |
| O cümlədən: | |
| Məşğələ (yarımqruplarla) | 13.30-13.40-13.50 |
| Məşğələ ( yarımqruplarla) | 13.55-14.05-14.15 |
| Gəzintidən qayıtmaq, su tədbirləri | 14.15-14.30 |
| Yuxuya hazırlıq, yuxu | 14.30-15.45 |
| Yuxudan tədricən qalxmaq, su tədbirləri | 15.45-16.00 |
| Axşamqabagı yemək | 16.00-16.30 |
| Məşğələ (yarımqruplarla) | 16.30-16.40 |
| Gəzintiyə hazırlıq, gəzinti | 17.00-19.00 |
| Evə getmək | 19.00-dək |
| **E v d ə** | |
| Gəzinti | 19.00-19.30 |
| Axşam yeməyi | 19.30.20.00 |
| Sakit oyunlar | 20.00-20.30 |
| Yuxuya hazırlıq, yuxu | 20.00-6.30-7.00-dək |

## 1 yaş 6 aylıqdan 2 yaşa kimi uşaqlar üçün təxmini gün rejimi

| Rejimin məzmunu və yerinə yetirildiyi yer | Yerinə yetirmə vaxtı |
|---|---|
| **E v d ə** | |
| Yuxudan qalxmaq, səhər tualeti | 6.30-7.00 |
| **Məktəbəqədər müəssisədə** | |
| Qəbul, müayinə, oyunlar, səhər gimnastikası | 7.00-7.30 |
| Səhər yeməyinə hazırlıq və yemək | 7.30-8.20 |
| Oyun, məşğələyə hazırlıq | 8.20-9.00 |
| Məşğələ (yarımqruplarla) | 9.00-9.10, 9.10- 9.20 |
| Gəzintiyə hazırlıq | 9.10-9.30 , 9.30- 9.40 |
| Gəzinti | 9.30-10.50 , 9.40-11.00 |
| Gəzintidən qayıtmaq, su tədbirləri | 10.50-11.00, 11.00-11.20 |
| Nahara hazırlıq | 11.20-11.30 |
| Nahar | 11.30-12.00 |
| Yuxu | 12.00-15.00 |
| Yataqdan qalxmaq, hava və su tədbirləri | 15.00-15.20 |
| Axşamqabagı yemək | 15.20-16.00 |
| Məşğələ (yarımqruplarla) | 16.00-16.10, 16.10-16.20 |
| Oyun, müstəqil fəaliyyət | 16.20-16.50 |
| Gəzintiyə hazırlıq, gəzinti | 16.50-17.30 |
| Gəzintidən qayıtmaq | 17.30-17.40 |
| Axşam yeməyi | 17.40-18.00 |
| Oyun, uşaqların evə getmələri | 18.00-19.00 |
| **E v d ə** | |
| Gəzinti | 18.00-19.00 |
| Oyun | 19.00.20.00 |
| Gigiyenik tədbirlər və yuxu | 20.00-6.30-7.30-dək |

**Məşğələ cədvəli**
**1 yaş 6 aylıqdan 2 yaşa qədər körpə qrup**

Məşğələnin sayı – 8
Məşğələnin miqdarı – 10 – 15 dəqiqə

| № | Həftənin günləri | | |
|---|---|---|---|
| | I | | IV |
| 1 | Sensor tərbiyə | 1 | Sensor tərbiyə |
| 2 | Həftənin inkişafı | 2 | Həftənin inkişafı |
| | II | | V |
| 1 | Bədii ədəbiyyatla tanışlıq, nitq inkişafı | 1 | Musiqi |
| 2 | Musiqi | 2 | Musiqi |
| | III | | |
| 1 | Ətraf aləmlə tanışlıq və nitq inkişafı | | |

**Ətraf aləmə bələdləşmə və nitq inkişafı.** Uşaqların tərbiyəsinin məzmununda böyüklərə, yaşıdlarına, kiçiklərə hörmət və qayğı tərbiyəsi əsas yer tutur. Oyun zamanı bir-birinə mane olmamaq, oyuncağı sındırmamaq və ondan istifadə etmək bacarığı tərbiyə olunur. Müşahidə zamanı heyvanlara və biliklərə qayğıkeş münasibət, öyrənmək meyli və marağı tərbiyə olunur. Uşaqlarda tərbiyəçinin, tibb bacısının və dayənin əməyinə uşaqların diqqətini cəlb etmək, onlara hörmət tərbiyə olunmalıdır.

Uşaqların diqqətini gündəlik həyat və fəaliyyətində ətraf aləmdəki əşya və hadisələrə yönəltmək tərbiyə işinin məzmununda əsas yer tutur. Körpə uşaq oynayarkən, yatmağa hazırlaşarkən, soyunarkən, geyinərkən, yemək, oyun və gəzinti zamanı, məşğələlərdə müxtəlif əşya və hadisələrlə rastlaşır, onların adlarını, əlamətlərini, hərəkətini öyrənməyə meyl göstərir.

Ona görə də məişətdə əşyalardan necə istifadə etmək, oyuncaqlarla necə oynamaq qaydasını onlarla əməliyyat qaydalarını öyrətmək vacibdir. Onların köməyi ilə nitqin inkişaf situasiyası yaradılmalı, uşaqlarda yaşıdları və yaşlılarla nitq ünsiyyəti saxlamaq marağı oyatmaq lazımdır. Tədricən uşaqlarda fəal nitq inkişaf etdirilməlidir. Bu məqsədlə tərbiyəçi düzgün nitq nümu-

nəsi göstərməklə uşaqların lüğət ehtiyatını zənginləşdirməli, dəqiqləşdirməli, fəallaşdırmalı, tələffüzünü təkmilləşdirməli, təmizliyini gözləməli, sadə cümlələrlə cavab vermələrini təmin etməlidir.

Tərbiyəçi çalışmalıdır ki, uşaqlarda nitq ünsiyyətinə tələbat yarada bilsin.

Uşaqları danışanı dinləmək, eşitmək və yenidən hasil etməyə alışdırmaq lazımdır. Nitq-hərəkəti, eşitmə və tələffüz orqanlarının birgə fəaliyyətini təmin etmək, uşaqlarda əşya və hadisələrlə tanış olmaq meylini artırır. Bu prosesdə alınan məlumatlar hafizədə saxlanılır. Onlarda fonetik eşitmə diqqətini inkişaf etdirmək, dilimizdəki səsləri düzgün eşitməyi və oxşar səsləri fərqləndirməyi öyrətməklə məktəb təliminə hazırlanmanın əsası qoyulur.

Körpəlik dövrünü başa vuranadək uşaqlarda fiziki eşitmə, fonetik eşitmə ilə yanaşı, yüksək səsi eşitmə qabiliyyətini, başqa sözlə, ton hissini (nitqdə onun melo-diyası və tonunu, tembr rəngini, sürətini hiss etməyi) inkişaf etdirmək də müm-kündür.

Nitqi eşitmə vərdişlərinin inkişafını təmin etmək məqsədilə didaktik oyunlar keçirmək (müxtəlif musiqi aləti və oyuncaqları səsləndirməklə səsin gücünü fərqləndirmək, görmə dairəsində olmayan, əvvəlcədən tanıdıqları) əşyaları səslərinə görə tanımaq; səslənməsinə görə qarışdırılan səsləri (az-as, qab-qap, od-ot, aş-as, bir-bil və s.) sözləri fərqləndirməyi öyrənmək məqsədilə didaktik oyunlardan istifadə edilir.

**Düzgün tələffüzün inkişafı.** Danışıqla əlaqəsi olmayan fizioloji nəfəsalma və nəfəsvermədən fərqli olaraq nitq tələffüzü prosesində nəfəsalmanın sürətlə, nəfəsvermənin isə yavaş-yavaş, baş verməsini uşaqlara başa salmaq; nəfəs ala-ala, udquna-udquna pıçıltı ilə danşmalarına yol verməmək, düzgün tələffüzü təmin etmək üçün uşaqların düz, sərbəst, gərginliksiz , əyləşmələrini, çiyinləri qaldırmadan, aşağı salmadan, sinəni stola dayamadan danışmağı, bir dəfə nəfəs verməklə 2-3 söz deməyi öyrətmək nəzərdə tutulur. Bu məqsədlə şeirlərin, yanıltmacların

oxunması, sabun köpüyünü, şarı üfürmək, ucadan gülmək və s. fəaliyyətlərin mütəşəkkil təşkili məqsədə uyğundur.

**Nitqi anlamanın inkişafı.** Uşaqlar bir yaş yarımdan özünün adını, yaxın adamların kimliyini (qadın, kişi, qız, oğlan, ata, ana, bacı, qardaş, nənə, baba, xala, dayı, əmi və s.), geyim adlarını (don, şalvar, köynək, paltar, papaq, şal, ayaqqabı, və s.), bəzi mebel adlarını (stol, stul, şkaf, çarpayı, divan və s.), qab-qacaq adlarını (fincan, stəkan, nəlbəki, çaynik, çəngəl, bıçaq, qazan və s.), ev əşyalarının adlarını (televizor, xalça, yorğan, döşək, telefon və s.), nəqliyyat vasitələrinin adlarını (avtomobil, maşın, taksi, avtobus, gəmi, təyyarə), heyvan adlarını (inək, dana, qoyun, quzu, at, eşşək, ayı, canavar, tülkü, dovşan, kirpi və s.), ağac və kol adlarını (söyüd, çinar, şam, qızılgül və s.) bilməyi və təsvirinə görə onları tanımağı tədricən öyrənməyə başlayır, 1 yaş 6 aylığından başlayaraq orqanizmin ayrı – ayrı orqanlarının (bədən, baş, boyun, üz, göz, burun, qulaq, diş və s.) adlarını, hər birinin vəzifəsini deməyi bacarırlar.

Uşaqlara oyuncaq, bitki, heyvan və quşların hissələrini adlandırmaq, onları gördükdə tanımaq və fərqləndirmək qabiliyyəti aşılanır. Bənzər oyuncaq, bitki, heyvan və quşları (top- şar, kubik-kərpic, maşın-araba, sərçə-qaranquş, pişik-pələng və s.) müqayisə etməyə, fərqləndirməyə də çalışırlar.

Oyuncaqlarla oyunlar prosesində uşaqlar müəyyən hərəkətləri icra etməklə onlarda oyunun gedişinə və orada istifadə edilən vəsaitləri öyrənməyə maraq yaranır. Oyunla əlaqədar hərəkət və fəaliyyət bildirən sözləri (qalx, əyləş, qaç tullan, otur,aç, ört, soyun, geyin, apar, gətir, fikirləş, cavab ver və s.) öyrətməklə danışıq nitqi inkişaf etdirilir.

Bu zaman uşaqların lüğətini həmçinin ən çox işlək sözlərilə zənginləşdirmək olar.

Oyun prosesində uşaqlar indi, sonra, burada, orada, qabaqda, arxada, yuxarıda, aşağıda, uzaqda, yanında, üstündə, içində, gətir kimi sözləri asanlıqla dərk edirlər.

Uşaqların nitqini inkişaf etdirmək üçün əyləncələrdən geniş istifadə edilir. "Ay gümüş su", "Bura bir quş qondu" və s. oyun-

ların sözlərini avazla oxumaq, uşaqlarda oxunulanı dinləmək havəsi yaradır.

2 yaşlı uşaqlara nağılları dinləmək öyrədilir. Onlarda sadə nağılların məzmu-nunu xəbər almaq, nağıl zamanı buraxılmış hissəni tapdırmaq, sadə şəkillər üzrə nağıl söyləməyi öyrətmək, daha sonra süjetli şəkillər üzrə hekayə qurmaq bacarığı tərbiyə edilir.

Uşaqlara yaşlıların əməyinə maraq oyatmaq və əmək prosesində nitqin inkişafına, sözlərin yerində və düzgün işlədilməsinə, fəaliyyətin təsvirinə nail olmaq üçün müntəzəm iş aparılmalıdır.

Uşaqların gördükləri, müşahidə etdikləri heyvanlar, quşlar haqqındakı məlumatları, həyatda, müşahidələrdə aldıqlarını rabitəli şəkildə danışmağı öyrətmək lazımdır.

Kiçik hekayələr, şeirlər, şəkillər, oyun və əyləncələr vasitəsilə uşaqların rabitəli nitq qabiliyyətini inkişaf etdirmək imkanı vardır.

2 yaşlı uşaqlar nisbətən mürəkkəb olmayan təlimatları dinləməyi, tərbiyəçi-nin tələb etdiyi fəaliyyəti yerinə yetirməyi öyrənirlər.

**Fəal nitqin inkişafı.** 1 yaşdan başlayaraq müxtəlif fəaliyyət prosesində uşaqlarda asan sözləri tələffüz etməyə alışdırma işi sürətlə gedir. Tədricən müstəqil fəaliyyət şəraitində istifadə etdikləri əşyanın və yerinə yetirdikləri hərəkətlərin adlarını deməyi öyrənirlər. Odur ki, nitq inkişafı üçün xüsusi şərait yaradaraq, uşaqların özlərini düzgün tələffüz etməyə alışdırmaq lazımdır. Uşaqlarda tez-tez tələffüz etdikləri səs birləşmələri və sözləri təqlid bacarıqları formalaşmalıdır. Onların nitqində təəccüb, şadlıq, narazılıq, razılıq və s. hissləri ifadə edən sözlər və ifadələr özünü biruzə verməlidir.

Uşağın nitqinin inkişafına nəzarəti gücləndirmək, yaxud adamları (ana, ata, nənə, baba, bibi, xala, əmi, dayı və b.), ətrafındakı olan əşyaları (stol, stul, divan, televizor, şkaf, boşqab, qaşıq, stəkan, fincan və s.), oyuncaqları (kukla, kubik, şar, fırfıra, ayı və s.) adlandırmağı, tanış hərəkətlərin ( otur, dur, ver, al, gə-

tir, apar, at, tut, və s.) düzgün adlandırılması bacarığını tərbiyə etmək lazımdır.

Uşaqlara jestlərdən, mimikalardan və digər nitq vasitələrindən istifadə etmələrinə şərait yaradılmalıdır. Uşaqlar böyüklərin nitqini dinləməyi və sadə suallara cavab verməyi, bir və bir neçə sözdən ibarət cümlə qurmağı bacarmalıdırlar.

Böyüklərin nitqini təqlid etmək, mahnını, şeiri dinlədikdən sonra tərbiyəçinin köməyi ilə onu söyləməyə çalışmaq qabiliyyəti tərbiyə edilir. Uşaqların fəal lüğətini genişləndirmək məqsədilə onlara qeyri-fəal lüğətindəki sözlərdən istifadə etmək imkanı verir. Ətrafdakılarla qarşılıqlı münasibətin qaydaya salınması üçün müvafiq sözlər seçmək vərdişi aşılanır.

Uşaqları əhatə edən doğma adamların adlarını ( nənə, baba, xala, dayı, bibi, əmi və s.) düzgün demək və öz fikirlərini sadə cümlələrlə ifadə etmək bacarığı tərbiyə edilməlidir. Ailədə, gündəlik həyatda hər an gözə dəyən, işlədilən əşyaları, həyətdə, bağda, küçədə tez – tez müşahidə edilən bitki və heyvanların adlarını söyləməklə yanaşı həm də tanımağı öyrətmək lazımdır.

Həyatının ikinci ilindən uşaqlar nitqlərində əvəzliklərdən (mən, biz, sən, siz, o, onlar), bəzi sifətlərdən ( böyük, kiçik, yaxşı, pis və s.) istifadə edə bilirlər. Onlarda dilimizin xüsusiyyətlərinə uyğun cümlələr qurmaq bacarığı yaratmaq tərbiyəçi vəvalideynlər qarşısında duran vəzifələrdəndir. Bu məqsədlə iki – üç sözdən ibarət cümlə qurmaq üzrə məşğələlər aparmalıdır. Beləliklə, uşaqlar dilimizin qrammatik quruluşuna uyğun nisbətən mürəkkəb konstruksiyalara yiyələnməlidirlər. Cümlə qurarkən ismin tək və cəm şəklindən, hallarından, felin zamanlarından düzgün istifadə etmələrinə nail olmaq lazımdır.

Yaşlıların nitqini dinləmək, sadə suallara cavab vermək və ya söhbət gedən məsələ ətrafında sual vermələri, öz arzularını, xahişlərini bildirmək, gördükləri haqqında yığcam danışmaq, bir sözlə, nitqdən ünsiyyətin əsas vasitəsi kimi istifadə etmək qabliyyəti inkişaf etdirilir.

Uşaqların sevinclərini, təəccüblərini bildirən sözləri işlətmələrinə nail olmaq üçün şərait yaratmaq və buna nail olmaq əsas

vəzifələrdəndir. Uşaqlar tədricən sevdikləri heyvanların, quşların səsini çıxararaq onların səsləri ilə deyil, adları ilə də tanıyırlar. " Oyuncaq"," mebel" ," qab-qacaq", " çay dəsti", " nəqliyyat" və s. kimi ümumiləşdirici sözləri işlətməklə yanaşı, onların hər birinin nəyə lazım olduğunu, onlardan harada və necə istifadə olunduğunu bilir, bilavasitə istifadə etməsələr də əsasən tanıyırlar. Uşaqların tanıdıqları bir neçə heyvana və quşa necə qulluq edildiyini öyrənmək və bununla əlaqədar həvəsləndirici əməkdə iştirakları da təşkil edilir.Onları insanların əməyini düzgün adlandırmağa ( təmizləmək, yumaq, silmək, süpürmək, ütüləmək, yığışdırmaq və s.) alışdırırlar .

1 yaş 9 ayadək əşya və onun hərəkətinə aid iki sözdən, 2 yaşda isə üç – dörd sözdən ibarət cümlə qurmağı öyrətmək olar. İkiyaşlılara kiçik həcmli şeir, hekayə və nağıl öyrətmək olar. Uşaqların lüğət ehtiyatı təbiət hadisələrinə aid ( yağış, qar, isti, soyuq və s.) sözlərin hesabına da zənginləşir.

**Təbiətlə tanışlıq.**Tərbiyəçinin qarşısında duran vəzifələrdən biri də uşaqlarda ətraf aləm haqqında təsəvvürlərin yaradılması, onlarda bitkilər, heyvanlar və quşların həyatını öyrənməyə maraq yaratmaq, onlarda xeyirxah münasibət tərbiyə etməkdir.

Bu yaşda cansız təbiətə sadə bələdləşmə marağı özünü göstərir. Uşaqlar müşahidə prosesində cansız təbiətin bəzi nümunələri ( su, yağış, qar, buz, qum, daş və s.) ilə tanış olur, onlarla əlaqədar fikir söyləyirlər: su tökülür, axır, isti və soyuq olur, onunla yuyunurlar, başqa məqsədlərlə də istifadə edirlər. Quru qum səpilir, nəm isə müxtəlif formam saxlayır. Uşaqların buzu, daşı, torpağı tanımaları onların cansız təbiət obyektləri haqqında ilk məlumatlara yiyələnməsidir.

Həyatının ikinci ilində uşaqların diqqətini planlı şəkildə adə təbiət hadisələrinə ( yağış, qar, günəş və s.) cəlb etmək lazımdır. Gəzinti zamanı uşaqların diqqətini ağaclara, kollara, otlara, çiçəklərə yönəltdikdə onlar həmin əşya və hadisələrin adlarını öyrənir, gördükləri fərqi söyləyirlər. 2 yaşın sonunda uşaqlar tərbiyəçinin köməyi ilə müəyyən çiçəyi rənginə görə tapır və başqalarından fərqləndirirlər. 2 yaşın sonunda uşaqlar artıq

tərbiyəçinin dediyi rəngdə çiçəyi tapır, göstərir, adını deyir, ot, çiçək, kol və ağacı tanıyırlar.

Uşaqlara tədricən xarici görünüşünə, formasına, dadına görə bir neçə tərəvəzin adı öyrədilir. Onların həm naturadan, həm də rəsmlərinə görə fərqləndirmə bacarığını inkişaf etdirmək məqsədilə söhbətlərdən və oyunlardan istifadə olunmalıdır. Natura, şəkil və oyuncaqlardan istifadə etdikdə uşaqlar bir neçə ev quşu və heyvanları tanıyırlar. Uşaqların diqqəti heyvan və quşların bədənlərinin hissələrinə (quyruğuna, dimdiyinə, buynuzuna, başına, ayaqlarına) cəlb olunduqda, onlar canlıların əhəmiyyətinə və hərəkətlərinə (qaçmasına, uçmasına) görə fərqləndirməyi öyrənirlər.

Uşaq bağçasında təşkil olunmuş canlı guşədə (təbiət guşəsində) dovşan, kirpi, balıqlar saxlanılır. Uşaqların diqqətini onlara cəlb etməklə, onların bəzi əlamətləri ilə tanış etmək asandır. Otaq bitkilərinin formasına, rənginə, çiçəklərinə, bütövlükdə onların görünüşünə diqqəti cəlb etmək lazımdır. Uşaqlar təbiət guşəsindəki canlılara necə qulluq edildiyini görür, özləri də bu işdə iştirak etməyə çalışırlar.

Həyatının ikinci ilində uşaqlarla aparılan oyunlarda emosional əhval-ruhiyyəni təmin etmək lazımdır. Onların idrak fəaliyyəti və hərəkət fəallığının inkişafına xüsusi diqqət yetirilməlidir.

Uşağın yeriş, sürünmə və s. üzrə hərəkətlərinin inkişafını təmin etmək məqsədilə planlı və mütəşəkkil iş aparılmalıdır. Hər bir uşağın kifayət qədər hərəkətdə olmasına nail olmaq məqsədilə oyunlar təşhlil edilir. Tərbiyəçi hərəkətli oyunları lazım gəldikdə sakit oyunlarla növbələşdirməlidir.

Ətrafda baş verən hadisələrə müvafiq müşahidə aparmaq üçün əlverişli şəraitin olması vacibdir. Uşaqların diqqəti yaşlıların hərəkətlərinə, başqa uşaqların oyunlarına, müxtəlif təbiət hadisələrinə, canlılara yönəlir.. Müşahidələrdən sonra müvafiq məzmunda hekayə qurub danışmaqla tərbiyəçi uşaqların da gördüklərini danışmalarına istiqamət verir.

Uşaqların diqqətini kitablardakı illüstrasiyalara cəlb etdirməli, onlarda şəkillərdə gördükləri əşyaların adlarını demək, onları təsvir etmək səyi inkişaf etdirilməlidir.

Uşaqlara kiçik həcmli şeirlər, tapmacalar, yanıltmacalar, təmsillər oxumaqla onlarda həmin nümunələrə, şən əhval - ruhiyyə ilə münasibət bildirmək və təkrar-lamaq həvəsi yaratmaq lazımdır.

Həyatının ikinci ilin əvvəllərində tərbiyəçi qurulub yığılan oyuncaqlarla oyun və əyləncələr təşkil edir. Onlarda süjetli-obrazlı oyuncaqlarla maraq yaradır. Oyuncağı göstərib adını xəbər almaq, adı deyilmiş oyuncağı oyuncaqların içindən seçmək üzrə iş aparılır.

İki yaşdan etibarən oyuncağı, oyun üçün lazım olan oyuncaq və alətləri fərqləndirməyi öyrənirlər. Bu barədə eyni vəzifəni müxtəlif oyuncaqlarla yerinə yetirməyə diqqət yetirilməlidir.

İki yaşdan oyunun qaydasına uyğun hərəkətlərin yerinə yetirilməsində bəzi oyuncaqlardan, cürbəcür hərəkətlərdən istifadə etmək öyrədilir.

İkinci ilin axırına qədər uşaqlara oyunda bir neçə hərəkəti özündə ardıcıl olaraq cəmləşdirən, sadə həyat şəraitini əks etdirən əməliyyat (kuklanı yedizdirmək, yatızdırmaq, geyindirmək, gəzməyə aparmaq və s.) aparmağı öyrədirlər. Oyun prose-sində vəzifəsinə görə müvafiq oyuncaqlarla əvəz etməyi (sabun əvəzinə kubik, stol əvəzinə ağzı aşağı çevrilmiş qutu və s.) öyrətməklə uşaqda həm də təşəbbüskarlıq elementləri tərbiyə olunur.

Başqa uşaqların necə oynamalarına diqqətlə baxmağı, onlarla oyuncaqları dəyişməyi, onlara mane olmadan yanaşı, sonra birləşərək (qrup şəklində) oynamağı öyrənməklə uşaqlarda kollektivçilik hissinin bünövrəsi qoyulur.

Təlim məşğələlərində oyuncaqlardan didaktik oyun üçün istifadə etməklə onlarda didaktik oyuna həvəs oyatmaq olar.

**Nitq inkişafı və ətraf mühitlə tanışlığa dair məşğələlər.** Nitqi inkişaf etdirmək və ətraf mühitlə tanışlıq üçün ikinci ildə uşaqlarla bir sıra xüsusi məşğələlər keçirilir, bu məşğələlər səslərin, sözlərin tələffüzündə təqlidin, fəal nitqin inkişafına, böyük-

lər tərəfindən deyilən sözlərin başa düşülməsinə kömək edir. Uşaqları başa düşə biləcəkləri müxtəlif şeylərlə tanış edirlər. Bu məşğələlərdə oyuncaqlardan, şəkillərdən (qarşıya qoyulan məqsəddən asılı olaraq) istifadə oluna bilər: məsələn, eşitmə qabiliyyətini inkişaf etdirmək üçün müxtəlif cür səslənən oyuncaqlar seçilir. Qruplarda məşğələlərin sayı həftədə təxminən 4-5 dəfə olmalıdır. Bu məşğələlər uşaqlar gəzintidə olarkən aparılan söhbət və müşahidələr əsasında keçirilir. Bir – iki nümunəyə nəzər salaq:

"Qəribə torbacıq" oyunu ikinci yaşdakı uşaqlarla keçirilir. Oyunun məqsədi uşaqların tanış şeylər haqqındakı təsəvvürlərini müəyyənləşdirməklə, danışıqlarını fəallaşdırmaqdan ibarətdir. Bu oyun üçün tərbiyəçi qəşəng əlvan rəngli bir torbacıq hazırlayır. Bunun içinə uşaqlara tanış olan müxtəlif materiallardan hazırlanmış xoruz, kukla, fırfıra, pişik kimi oyuncaqlar qoyulur. Tərbiyəçi uşaqların diqqətini torbacığa cəlb edir, onların buna baxmaları üçün vaxt verir. Sonra oyuncaqları torbadan bir – birinin ardınca çıxararaq, uşaqların diqqətini bunlardan hər birinə cəlb edir. Oyuncaqların birdən – birə üzə çıxması uşaqları maraqlandırır. Tərbiyəçi bütün uşaqlara əlləri ilə xoruza toxunmalarına icazə verir, əgər onlar əllərini xoruza sürtməyi arzu edirlərsə, onu tumarlamağa, yedirtməyə icazə verir. O deyir: "Bircə xoruza baxın! O, dəni necə yeyir?" Uşaqlar cavab verirlər. "O, dəni tıq – tıq (yaxud tuq – tuq) edərək dənləməyi bacarır". Sonra xoruz gizlədilir. "Ay! Xoruz necə oldu?" – deyə bacı – tərbiyəçi uşaqlara müraciət edir. "Torbacıqda daha nə var? Bu nədir?" – deyərək o pişiyi çıxarır. Beləliklə, bacı- tərbiyəçi oyuncaqları tədricən bir – birinin ardınca göstərib, hər birinin haqqında danışır, o, uşaqların da bəzi səsləri təqlid etmələrinə çalışır, sonra oyuncağı oynatmaq üçün uşaqlara verir.

Kukla ilə oyunlar bir il beş aylıqdan bir il altı aylığa qədər keçirilir. Bacı – tərbiyəçi 5 – 6 uşağı stulda əyləşdirir. Onunla yanaşı, kiçik bir stol üstündə kuklaya aid mebel: üstündə yatacaq üçün əşyalar olan kiçik bir çarpayı, balaca stul qoyulur. Bundan başqa stol üstündə kuklaya aid qab – qacaq, qazan, qaşıq, boşqab hazırlanmış olur. Tərbiyəçi kuklanı götürüb, uşaqlara müraciət

edir: "Uşaqlar, kuklamıza Minaya sıyıq yedizdirək.Onun üçün qazandan sıyıq çəkək (təsəvvür edilən sıyığı dəsmal ilə onun ağzını silir). Görün Mina sıyığı necə yeyir. İndi Minanı siz yedirin, uşaqlar". Tərbiyəçi 2 – 3 uşağa kuklanı yedirtməyi təklif edir. Uşaqlar yedirdirlər. Tərbiyəçi uşaqların qaşığı yaxşı tutmalarına, "sıyığı" gəlinciyin ağzına verməsinə, su qabından su içirtmələrinə, kağız dəsmalla ağzını silmələrinə nəzarət edir. Uşaqlar gəlinciyi yedirib qurtaran kimi tərbiyəçi deyir: "Nə, bizim Mina yeyib qurtardı, indi onu uzandıraq yatsın". Gəlinciyin paltarını çıxara – çıxara bacı – tərbiyəçi deyir: "Minanı soyunduraq, paltarını stuldan asaq, çəkməsini çarpayının altına qoyaq. Uzan, Mina, yatginən, biz sənin başını balışın üstünə qoyarıq, üstünü yorğanla örtərik, bax belə, ay sağ ol! Uşaqlar, Mina yatmaq istəyir, gəlin yavaşdan onun üçün nəğmə oxuyaq". "Laylay, laylay deyirəm, Mina yatasan".

Bu zaman tərbiyəçi uşaqların danışıqlarını fəallaşdırmağa çalışmalıdır. Uşaqlar gəlinciyi yedirtdikləri zaman tərbiyəçi onlardan soruşa bilər: "Sən Minaya nə verirsən?" – "sıyıq" yaxud: "Mina nə edəcək?" və s. Uşaqlara kömək etmək lazımdır ki, onlar öyrəndiklərini, gələcəkdə müstəqil oyunlarına köçürə bilsinlər.

Şəkil üzrə söhbət hələ ötən qrupdan (1 yaşın axırında) əvvəl fərdi olaraq günaşırı 1 – 2 dəqiqə keçirilir. Şəkil kiçik ölçüdə əlvan rəngli olmalı, onda uşaqlara tanış olan əşya və hadisələr əks olunmalıdır. Söhbətin başlanğıcında uşaqların diqqətini şəklə birdən – birə cəlb edib, lazımi qədər baxış keçirildikdən sonra orada təsvir edilmiş əşyanın adı söylənilir.

Uşaqlar suallara səs təqlidi ilə və sözlə cavab verməyə başlayanadək şəkli onlara bir neçə dəfə göstərmək lazımdır.

Məşğələ iki şəkil üzrə keçirildiyi vaxt əvvəlcə uşağa tanış olan şəkil, sonra isə onun üzərində bir qədər fikirləşməli olduğu yeni şəkil göstərilməlidir. Bundan sonra tərbiyəçi şəkildə əks olunan heyvanın adını çəkir. 2 şəkil üzrə keçirilən o biri məşğələ zamanı bacı – tərbiyəçi 2 şəkli eyni zamanda göstərib deyir: "iti göstər, it hanı? İt necə hürür? Saatı göstər, saat hanı? və s. Gələcək söhbətlərdə şəkillərin sayı tədricən artırılaraq 4 – 6 –ya

çatdırılır. Bir neçə şəkildən istifadə edildiyi zaman uşaqda daha aydın təsəvvür yaratmaq üçün söhbəti yeni şəkil üzrə başlamaq lazımdır. Sonra tanış şəkli təkrarən göstərmək olar.

Bir yaş üç aylıqdan başlayaraq uşağın fikrini ümumiləşdirməyə alışdırmasına başlamaq lazımdır. Bunun üçün eyni şeyi müxtəlif vəziyyətdə təsvir edən şəkil çəkilir. Tərbiyəçi onu uşaqların nəzərinə çatdırmaq üçün deyir: "Bax, bu da itdir, bu da, bu da. Əşyanı əks etdirən şəkillər üzərində çox dayanmaq lazım deyil.

Fəaliyyət əks etdirən şəkillər əvvəllərdə çox sadə olmalıdır. "Pişik süd içir", "Oğlan əllərini yuyur" və s.

Bir il altı aylıqdan yalnız şəkil göstərmək deyil, iştirakçıları uşaqların özləri olduqları hadisələr haqqında onlara nəql etmək də olar. Uşaqların gəzinti zamanı balaca quşlar görmələri, onların dən dənləmələri, sonra uçmaları haqqında danışmaq olar.

Uşaqlara kiçikhəcmli şeirlər demək məqsədilə onlar üçün əlverişli xalq əylən-cələrindən istifadə etmək mümkündür.

Uşaqlara çox söz deməyi öyrətmək üçün yaxşı vasitələrdən biri də "uşaq kinosu"dur: bu, taxta fırlancığın kağız lenti üzərində eyni istiqamətdə hərəkət edən heyvanların, uşaqların və s. şəklidir.

Uşaqların diqqətini və müşahidəçilik qabiliyyətlərini inkişaf etdirmək, onları ətraf mühitlə tanışlıq işində gəlinciklərdən, oyuncaqlardan düzəldilmiş səhnəciklərdən də istifadə etmək olar.

Tərbiyəçi səhnəciklərin göstərilməsi zamanı şeirlərə münasib hərəkətlər yerinə yetirir və bunları öz sözləri ilə müşayiət edir.

Səhnəciklər uşaqların diqqətini cəlb edir, uzun zaman müşahidə aparmalarına kömək göstərir, fəaliyyətləri və adları ilə tanışlığa, uşaqların öz sözləri ilə cavab vermələrinə səbəb olur, nəhayət, onların öz oyunlarının mürəkkəbləşdirilmələrinə kömək edir. Bu səhnəciklərin göstərilməsi müxtəlif ola bilər. Bacı - tərbiyəçi qrupa gözəl bir kukla və böyük maşın gətirir. Gəlincik maşında "oturub gəzir", sonra maşından düşür, uşaqlar ilə danışır, rəqs edir, nəğmə oxuyur və s.

Uşağın fəal nitqinin inkişafı və onun başqasının nitqini başa düşməsi üçün aşağıdakıları bilmək lazımdır:

1. bacı – tərbiyəçi və dayənin uşaqlarla ünsiyyətdə olduqları, onlara qulluq edərkən, yedizdirərkən, müstəqil fəaliyyətdə və gəzintidə olduqları bütün vaxtdan istifadə etmək;

2. bacı – tərbiyəçi və dayənin uşaqlarla daimi və səmimi yaxınlıqlarını təmin etmək;

3. uşaqlarla danışarkən, bütün bunlara üstünlük vermək, hər uşağa ayrılıqda müraciət etmək;

4. əşyaların adını uşaqların onlara xüsusi maraq göstərdikləri, hərəkət və işini yerinə yetirdikləri vaxt çəkmək;

5. uşaqlarda yaşlıların tələffüz etdikləri səsi və sözü təqlid etmək bacarığını inkişaf etdirmək, onların müxtəlif səsləri mümkün qədər tez – tez tələffüz etmələrini təhrik edən şərait yaratmaq;

6. uşağın diqqətini cəlb edən əşyalardan (hərəkət edən, səs çıxaran əşyalar, canlı heyvanlar) istifadə etmək; uşağın yaşlıların nitqini başa düşməsi inkişaf etdikcə, ona sadə işlərin yerinə yetirilməsini tələb edən müxtəlif şifahi tapşırıqlar verməklə uşaqları öz fikirlərini deməyə təhrik etmək;

7. uşaqların yaşlılara müxtəlif səbəblərə görə müraciət etmələri üçün hələ formalaşmamış uşaq nitqini başa düşmək, onunla olan söhbəti uzatmağa çalışaraq, uşağın müraciətinin hər birinə diqqətlə cavab vermək;

8. uşağın həyatında baş verən adi olmayan hər cür hadisədən istifadə etməklə, müsahibə aparmaqla onların ümumi inkişafları, nitqlərinin inkişafı üçün şərait yaratmaq.

**Həyatın ikinci ilində təlim xarakterli oyun- məşğələlər.** Körpəlik dövrünün ikinci qrupunda həftədə iki dəfə oyun-məşğələ keçirilməsi məsləhət görülür. Digər günlərdə oyun- əyləncələr təşkil olunur. İlin əvvəllərində oyun – məşğələlər 5 – 6 nəfərlik qruplarla keçirilir. Bir il altı aydan sonra məşğələlərin xarakterindən asılı olaraq uşaqlar 8 – 12 nəfərdən ibarət qruplarda birləşdirilir. Məşğələnin müddəti bir yaş altı ayında olan uşaqlarla 8 – 10 dəqiqə, bir il altı aydan iki ilədək 10 – 15 dəqiqə olur.

1 ildən 1 il 6 ayadək uşaqların məşğələlər oyaqlığın ikinci dövründə, 1 il 6 aydan 2 ilədək səhər və günün axırında təşkil edilir.

Məşğələdə uşaqlara təqdim olunan proqram vəzifələri onlarla gündəlik ünsiyyət prosesində: gəzinti, müstəqil oyun zamanı, məişətdə tərbiyəçi tərəfindən möhkəmləndirilir. Həyatın ikinci ilində uşaqlarla keçirilən məşğələlərin quruluş sisteminin ən mühüm prinsipi onların məzmununu tədricən mürəkkəbləşdirilməsidir.

**Əsas hərəkətlərin inkişafı.** Uşaqlarda əsas hərəkətləri (yerişi, qaçışı, hoppanma, dırmanma, sürüşmə) inkişaf etdirmək məqsədilə onlarda hərəkət fəallığı oyatmaq ümumi inkişafda əsas rol oynayır. Bu məqsədlə onlarda müstəqil hərəkət etmə bacarığına maraq tərbiyə edilir. Gələcəkdə uşağın inkişafına kömək edən hərəkət növlərini (müvazinəti tarazlayıb, bərabər addımlamaqla düz istiqamətdə yerimək, dırmanma) formalaşdırmaq lazımdır. Bunun üçün nərdivana müstəqil çıxmağı və ondan düşməyi, cisim atmaq, əşyanı atarkən və diyirlətməklə yerə salmadan təkan vermək və atmaqdan əvvəl qabağa qolaylamaqla nəticə əldə etməyə səy göstərmək vacibdir. Barmaq əzələlərini inkişaf etdirmək üçün onların hərəkətlərini tənzimləməyə çalışmaq, müəyyən sahə və istiqamətlərə bələd olma vərdişləri formalaşdırmaq məqsədilə müşahidələrdən müntə-zəm istifadə etmək tələb olunur.

**1 yaşdan 1 yaş 6 ayadək** – uşaq müvazinətin saxlanılmasına dair hərəkət edir. Asta və yeyin yerişə, taxta üstündə yeriməyə vərdiş etmək öyrədilir.

Bir tərəfi döşəmədən 10 – 15 sm hündürlükdə, eni 25 sm, uzunluğu 1,5 – 2 sm. qoyulmuş taxtanın üstü ilə yuxarı qalxmaq və aşağı düşmək, hündürlüyü 10 sm olan, ağzı yuxarı çevrilmiş qutunun içinə girmək və oradan çıxmaq üzrə mümarisələr müvazinəti saxlamanı öyrədir. Yerə qoyulmuş və ya döşəmədən 5 – 10 sm. hündürlüyə qaldırılmış ip və ya çubuğu addımlayıb keçmək bacarığı ancaq uzun- müddətli mümarsələrin nəticəsidir.

**Sürünmə və dırmanma hərəkətləri**. Göstərilən məsafə boyu sürünməklə uşaq müəyyən fiziki gərginlikdə olur. Hərəkəti başa vurmaq üçün o müəyyən məsuliyyət hiss edir. Skamyanın altından sürünüb keçmək kimi oyun xarakterli hərəkət edir 1 m. hündürlükdə pilləkənə dırmanmaq və ondan düşmək tapşırığını yerinə yetirən uşaq öz üzərində nəzarət olduğunu hiss edir. Atma və diyirlətmə (topu qabağa və ya tərbiyəçiyə tərəf diyirlətmək, aşağıdan uzağa atmaq və s.) hərəkətləri kimi tapşırıqları tərbiyəçinin nəzarəti altında yerinə yetirərkən uşaq şən əhval – ruhiyyə keçirir.

**1 yaş 6 aydan 2 yaşadək** uşaq yeriş və müvazinəti saxlamaqla tərbiyəçinin rəhbərliyi altında hərəkətlər edir. "Dəstə - dəstə" yeriş, bunlardan sonra birtərəfli döşəmədən 15 – 20 sm. hündürlükdə qoyulmuş taxta üzərində eni 20 – 25 sm. uzunluğu 1,5 – 2 m. axıra qədər yeriyib, maili qoyulan tərəfdən yerə düşür. Eni, uzunu 50 x 50 sm. ölçüdə, hündürlüyü 15 sm. olan, ağzı yuxarı qoyulmuş yeşiyin içinə girir və oradan çıxır. Döşəmədən 12 – 18 sm. hündürlükdə olan ip və ya çubuq üstündən addımlayıb keçir, hündür yerə dırmanır.

**Dırmanmaq, sürünüb keçmək hərəkətləri.** Belə hərəkətlər uşaqların fiziki inkişafında əsas rol oynayır. İpin altından və yerə qoyulmuş ipin üstündən sürünüb keçmək. Pilləkənə dırmanmaq (hündürlüyü 1-1,5 m) və yerə düşmək.

**Atma və diyirlətmə hərəkətləri.** Böyük topu hündürlükdən aşağı diyirlət-mək. Topun ardınca getmək, onu götürüb geri götürmək. Topu tərbiyəçi ilə ikilikdə diyirlətmək. Kiçik topu bir əllə ( sağ və ya sol) uzağa atmaq.

**1 yaş 6 aydan 2 yaşadək** yeriş və müvazinət hərəkətləri. "Dəstə-dəstə" yeriş. Bir tərəfi döşəmədən 15-20 sm. , hündürlükdən qoyulmuş taxta üstündə eni 20-25 m. uzunluğu 1,5 – 2 m. axıra qədər yeriyib, maili qoyulan tərəfdən yerə düşür. Eni-uzunu 50x50 sm. ölçüdə, hündürlüyü 15 sm. olan, ağzı yuxarı qoyulmuş yeşiyin içinə girir və oradan çıxır. Döşəmədən 12-18 sm. hündür-

lükdə olan ip və ya çubuq üstündən addımlayıb keçir, hündür yerə dırmanır.

**Dırmanmaq, sürünüb keçmək hərəkətləri.** İpin altından və yerə qoyulmuş tirin üstündən sürünüb keçmək, pilləkənə dırmanmaq hündürlüyü 1-1,5 m. və yerə düşmək.

**Atma və diyirlətmə hərəkətləri.** Böyük topu hündürlükdən aşağı diyirlətmək, topun ardınca getmək, onu götürüb geri gətirmək. Topu tərbiyəçi ilə ikilikdə diyirlətmək. Kiçik topu bir əllə sağ və sol uzağa atmaq.

**Ümuminkişafetdirici hərəkətlər.** Qolları yuxarı qaldırıb, aşağı salmaq. Qolları qabağa uzatmaq və dalda gizlətmək. Barmaqları yumub açmaq. Çömbələrək barmaqlarla döşəməni taqqıldatmaq: barmaqlarla kiçik əşyaları, halqaları tutmaq. Oturmuş vəziyyətdən sağa və sola dönmək, əşyaları bir-birinə ötürmək, irəli əyilmək və düzəlmək. Ayaqüstə və oturmuş vəziyyətdə çubuq üzərindən irəli əyilmək. Başqasının köməyi ilə sallağı oturmaq.

**Mütəhərrik oyunlar.** Arabacıqlar, avtomobil, təyyarə və s. ilə müstəqil oyunlar.

Tərbiyəçinin təşkil etdiyi oyun mümarisələr: "Kim ayağını daha çox yuxarı qaldırar?", "Kim topu və oyuncağı birlikdə gətirər", "Topu təpədən diyirlət", "Topu yoldaşına ötür", "Hamı tez yanıma", "Qaçana çat", "Ayıya qədər sürün", "Kim uzağa atar", "Oyuncağı gizlət", "Quşlar qanadını yellədir", "Kim böyüyünü gətirər?", "Kim kiçiyini gətirər?", "Ayı", "Parovoz", "Ağaclar yellənir", "Kəpənəyin tutulması".

**Ətraf aləmlə tanışlıq.**

**a) İctimai həyatla tanışlıq.**

Qrup otağı , tərbiyəçi və dayə ilə tanışlıq.

Qrup otağında divardan asılmış sadə şəkillərə baxmaq. Diqqəti həmin şəkillərdən ayrı-ayrı əşyalara yönəltmək. Yaşlılara

müraciət etməyi, onlara sual verməyi, öz arzusunu, gördüyü işi bir neçə sözlə ifadə etməyi öyrətmək.

Dayənin əməyi ilə ( yemək verir, qabları yuyur, soyundururb yatızdırır, geyindirir və s.) tanışlıq. Mətbəx əşyalarından (stəkan, qaşıq, çəngəl, boşqab və s.) düzgün istifadə etmək bacarığı vermək.

**b) Təbiətlə tanışlıq.**

Cansız təbiət. Oyun, müşahidə zamanı təbiət əşyaları və hadisələri (qum, gil, su, qar, yağış) ilə tanışlıq: su təmizdir, istidir, soyuqdur, içməlidir, içməli deyil və s.

Gəzinti zamanı daş, qum və gil ilə, onların xassələri ilə tanışlıq.

Uşaqların diqqətini otaq bitkilərinə yönəltmək. Otaq bitkilərinə qulluq etmək. Onların əhəmiyyətini başa düşmək.

Natural, mənzərə şəkilləri, oyuncaqlarla bir neçə heyvan (it, pişik, qoyun, inək, at) və quş (toyuq, xoruz, cücə) ilə tanışlıq. Onların səslərini təqlid etmək. Həmin heyvanlar və quşların əsas əlamətlərinə (buynuzların, quyruğun, dimdiyin olması və s.), hərəkətlərinə (qaçır, uçur, dimdikləyir və s.) diqqət yetirmək, onları adlandırmaq.

Təbiət guşəsində qəfəsdəki quşu yemləmək, onlara yanaşmaq və qulluq etmək qaydası ilə tanışlıq.

**Əşyalarla fəaliyyətin inkişafı.** Uşaqlara erkən yaşlardan sadə riyazi təsəvvürlərin verilməsi mühüm əhəmiyyət kəsb edir. Bu isə körpəlik dövrünün ikinci qrupundan başlanır. Artıq bu dövrdən əşyaların böyüklüyünə görə (böyük, kiçik), yaxud formasına görə (kvadrat, dairə) formasını, rəngini (ağ, qırmızı, göy, yaşıl, sarı, narıncı, bənövşəyi) müəyyən etmək üçün tapşırığı yerinə yetirməyi öyrətmək. Bu məqsədlə kvadratı, dairəni, böyük və kiçik əşyaları müvafiq yuvaya yerləşdirmək.

Bu dövrdə uşaqlar pillə-pillə irəli gedirlər.

**1 ildən 1 il 3 ayadək**. Kiçik şarları qutuya, vedrəyə qoymaq, novçaya diyirlətmək, rəngli qalpaqları səpələmək və yığmaq. 3-5 eyni cür halqanı oxa keçirtmək, içi boş əşyaların (kubların, ko-

nuslarm,) kiçiyini böyüyünün üstünə qoymağı iki – üç hissədən ibarət oyuncaqları yığmağı öyrətmək.

Uşağın diqqətinin müxtəlif materiallardan (ağac, plastilin, kağız, metal, parça) qayrılmış cürbəcür səs verən əşyalara (zınqırov, şax-şax) cəlb etmək.

**1 il 3 aydan 1 il 6 ayadək.** Formasının böyüklüyünə görə müxtəlif növ əşyaların müvafiq yuvaya daxil edilməsi üzrə işi davam etdirmək. İki forma və böyüklükdə əşyalardan lazım olanı seçməyi öyrətmək.

Didaktik oyuncağı bir yerə (matryoşka, çəllək, yumurta) yığmaq bacarığını yaratmaq üzrə işi davam etdirmək, kublar, silindrlər, konuslar seçməyi, 2-3 müxtəlif ölçülü halqanı piramida şəklində yığmağı öyrətmək.

Uşağın diqqətini müxtəlif tembrli səs verən əşyalara cəlb etmək.

**1 il 6 aydan 1 il 9 ayadək.** Əlamətlərdən birinə (böyüklük, forma) görə eynicinsli əşyaları qruplaşdırmağı uşaqlara öyrətmək: formasına görə kəskin fərqlənən eynicinsli əşyaları (dairə, kvadrat, oval-üçbucaqlı və s.) qruplaşdırmağı öyrətmək. Rənginə görə kəskin fərqlənən əşyaları (karandaşları, çöpləri, qırmızı-göy, sarı-qara, yaşıl-narıncı, ağ-bənövşəyi və s.) quraşdırmağı öyrətmək.

İkiyerli didaktik oyuncağı yığmağı formalaşdırmaq.

Əşyaları ölçülərinə görə yığmaq və müvafiq şəkildə adlandırmaq (böyük, kiçik); daha kiçik ifadəsinin mənasını ( aralıq ölçünü) anlamaq . 3-4 halqadan ibarət piramidanı yığmağı öyrətmək.

**1 il 9 aydan 2 iladək.** Formasına və böyüklüyünə görə nisbətən yaxın əşyaları əlaqələndirmək və qruplaşdırmaq bacarığının yaradılması üzrə işi davam etdirmək.

Əşyaları kəskin şəkildə fərqlənən iki rənglə (qırmızı-göy, ağ-bənövşəyi, sarı-yaşıl) əlaqələndirmək. Müxtəlif növ əşyaları 4 rəng çalarında, seçmək və əlaqələndirmək bacarığını formalaşdırmaq ( qırmızı-narıncı, sarı-ağ, göy-bənövşəyi).

İkiyerli didaktik oyuncagı yığmaq üzrə işi davam etdirmək. İçiboş kubları, silindrləri, konusları, bir-birinin içinə yığmağı, müvafiq forma və böyüklükdə qapaq seçməyi öyrətmək.

"Bir qədər kiçik", "Bir qədər böyük" terminlərini anlamaq üzrə işi davam etdirmək. Ölçüsü kəskin fərqlənən 2-3 böyük halqadan piramida yığmaq. 3- 4 halqanı piramida şəklində yığmaq. Rəng və böyüklük, forma və böyüklük, forma və rəng kimi iki xassəyə aid tapşırıqları yerinə yetirməyi öyrətmək.

**Didaktik oyuncaqlarla məşğələlər 1 yaşdan 1 yaş 3 ayadək.** Uşaqlara əşyalarla müxtəlif fəaliyyəti yerinə yetirməyi öyrətmək: hissələrinə ayırmaq və yığmaq; çıxarmaq və yerinə qoymaq və s. Şarları qutuya, balaca vedrəyə yığmaq, navalça boyu yuvarlatmaq; çiçək dibçəklərini iç-içə qoymaq; formaca eyni əşyaların (kubların, konusların və s.) kiçiklərini böyüklərinin içinə qoymaq. İki hissədən ibarət oyuncaqları yığmağı öyrətmək.

Diqqəti müxtəlif cür materiallardan (ağac, polietilen, kağız, metal, parça və s.) hazırlanmış, müxtəlif cür səslənən sakit, ucadan (zınqırov, şax-şax) əşyalara yönəltmək.

**1 yaş 3 aydan 1 yaş 6 ayadək.** Biryerli didaktik oyuncaqları (matryoşka, çəllək, yumurta), ikiyerli həndəsi fiqurları (kublar, silindrlər, konuslar) düzünə sə əksinə yerinə yıgmaq bacarığını formalaşdırmaq.

Uşaqların diqqətini müxtəlif tembrdə səs verən əşyalara uyğun oyuncaqlar seçməyi öyrətmək.

**1 yaş 6 aydan 1 yaş 9 ayadək.** İkiyerli didaktik oyncaqları yığmaq bacarığı formalaşdırmaq.

Ölçüyə görə əşyaları seçmək adlandırmaq (böyükdür, kiçikdir); daha kiçik ifadəsini başa salmaq. Yaşlıların azacıq köməyi ilə 3-4 halqanı oxa böyükdən kiçiyə prinsipi üzrə yığmağı öyrətmək. Uşaqlarda əşyalarla fəaliyyəti daha dəqiq yerınə yetirməyə maraq oyatmaqla barmaqların xırda hərəkətlərini inkişaf etdirmək.

Uşaqların müxtəlif səs verən əşyalarla tanışlığını davam etdirmək. Onların diqqətini səsin ritmik ahənginə yönəltmək, tütək, şax-şax və əllə ritmik hərəkətə maraq oyatmaq.

**1 yaş 9 aydan 2 yaşadək.** İkiyerli didaktik oyuncaqları yığmağı öyrətmək üzrə işi davam etdirmək. Kub, konus, silindr, 2-3 hissədən ibarət polusfer yığarkən müvafiq hissəni tapmağı öyrətmək.

Azalan böyüklük üzrə əşyaları yığmaq üzrə işi davam etdirmək.

"Daha az", "daha çox" sözlərini başa salmaq və nitqdə işlətməyi öyrətmək. Yaşlının azacıq köməyi ilə müxtəlif ölçüdə 4-5 halqanı yığmağı öyrətmək.

Eyni zamanda əşyanın iki xassəsinə (rənginə-böyüklüyünə, formasına-böyüklüyünə, formasına-rənginə) əsasən tapşırığı yerinə yetirməyi öyrətmək. Əlin barmaqlarının kiçik hərəkətlərinin inkişafı üzrə işi davam etdirmək.

Müxtəlif əşyalar və musiqi alətlərinin səslənməsi üzrə tanışlığı davam etdirmək.

**Əşyalar vasitəsilə oyun-məşğələlər 1 yaşdan 1 yaş 3 ayadək.** Uşaqlara tesma, lent, kəndirdən (köməkçi vasitələrdən) istifadə etməyi öyrətmək. Onların köməyi ilə obyektin vəziyyətini dəyişmək: ipi özünə tərəf dartmaqla avtomobili, arabanı hərəkətə gətirmək; ipi tərpətməklə zəng çalmaq; şara ipi bağlayıb onu havaya buraxmaq və s.

**1 yaş 3 aydan 1 yaş 6 ayadək.** Uşağı əşya – vasitələrdən istifadə etməyə (hava şarı ilə oynamağa, qarda sürüşməyə və s.) hazırlamaq məqsədilə sadə uyğunlaşma vasitəsilə tanışlığı davam etdirmək. Avtomobili iplə özünə tərəf çəkməyi, oyuncağın özünə yaxınlaşması üçün sürüşkən tesmadam istifadə etməyi öyrətmək.

**1 yaş 6 aydan 1 yaş 9 ayadək.** Uşaqları sadə əşya-vasitələr tətbiq etməklə müəyyən hərəkəti yerinə yetirməyi (çubuqla oyuncağı itələmək və s.). Nisbətən mürəkkəb əşya-vasitə

(çubuq, əl toru, halqa, çömçə, abgərdən və s.) ilə hərəkətləri ("Kukla qonaq getdi", "Balıq tut", su ilə başqa oyunlar və s.) formalaşdırmaq. Əşyanı hərəkət etdirmək, toxunmaq, tutmaq, yerini dəyişmək üzrə məşqlər.

**1 yaş 9 aydan 2 yaşadək.** Əşya və vasitələrlə əmək alətlərini yamsılamağı, onların formasını, sahəsini, hansı materialdan hazırlanmasını xüsusiyyətini nəzərə almaqla "iş görməyi" öyrətmək. Oyun-məşğələ ("Balıq tut", "Şarı tut", "Kukla qonaq gedir" və s.) keçirməyi davam etdirmək. Payanı, yaş quma sancmağı, ona verstaqın deşiyinə çəkiclə vurmağı öyrətmək. Xəkəndaz, bel, vedrə və s. kimi oyuncaq vasitə-lərindən istifadə etməklə qum və qarla müstəqil fəaliyyət göstərməyi öyrətmək.

**Tikinti materialları ilə məşğələ. 1 yaşdan 1 yaş 3 ayadək.** Konstruktor "Tikinti materialları" hissələrini bir-birinin üstünə səliqə ilə qoymağı öyrətmək. Eyniölçülü kubikləri bir-birinin üstünə qoymaqla qüllə düzəltməyi, ev qurmağı öyrətmək.

**1 yaş 3 aydan 1yaş 6 ayadək.** Kiçik kubikləri böyük kubiklərin yanına qoymaqla enli yol, hazırlamağı, bir-birinin üstünə və yanına qoymaqla stol, stul düzəltməyi öyrətmək.

**1 yaş 6 aydan 1yaş 9 ayadək.** Təyyarə və s. üçün mebel dəsti qurmağı öyrətmək: yanı üstə qoyulmuş kərpicin arxa tərəfinə başqa kərpic qoymaqla divan, yanlarına qoymaqla çarpayı düzəltmək.

**1 yaş 9 aydan 2 yaşadək.** Oxşar hissələri seçməyi, onlardan bir-birinə yaxın əşyaları (stol və stul, divan və stul, çarpayı və stul və s.) qurmağı öyrətmək. Kərpic və kubiklərdən nərdivan və pilləkən, süjetli oyun üçün ev qurmaq, pəncərə və qapı qoymaq.

Uşaqların yaradıcılıq qabiliyyətini inkişaf etdirmək. Tikinti materiallarının müxtəlif konstruktiv xüsusiyyətləri ilə (kub, kərpic, tir və s.) uşaqları tanış etmək. Bu hissələri lövhə üzərində müxtəlif formada yerləşdirməyin mümkün olması barədə məlumat vermək, hissələrin dəyişdirilməsi ilə müxtəlif obyektin quraşdı-

rılmasının mümkünlüyünü başa salmaq. Hissələri bir-birinin yanına düzmək və möhkəmliyini təmin etmək qaydasını öyrətmək, iş qurtardıqdan sonra hissələri yığışdırıb, qutuya qoymağı öyrətmək.

Ümumi süjet üzrə uşaqlara tanış olan obyektin quraşdırılması. Kərpicləri lövhə üzərində düzməklə müxtəlif qurğular quraşdırmaq. Onların yerini və formasını dəyişməklə yeni obyekt quraşdırmaq.

Tikinti materiallarının müxtəlif hissələrindən istifadə etməklə ev və onun həyəti mövzusunda süjeti quraşdırmaq. Kiçik hissələrdən istifadə etməklə naxışlar quraşdırmaq.

Hissələri bir-birinin yanına müəyyən xətt boyunca səliqəli düzməklə hasar, üst-üstə düzməklə qüllə quraşdırmaq. Sadə "maşın" qurmağı, tircik üzərinə lövhə qoymaqla "təyyarə" və s. hazırlamağı öyrətmək.

Kərpicləri lövhə üzərində müəyyən xətt boyunca yerləşdirməklə yol, dairə düzəltmək.

Əvvəllər əldə edilmiş bilik və bacarıqları möhkəmləndirmək. Müxtəlif oyunlar təşkil etmək və nəticəsini qiymətləndirmək.

**Əsas hərəkətlərin inkişafı üzrə məşğələlər**. Bacı - tərbiyəçi yeriş, qaçış, sürünmək və s. hərəkətlərin uşaqlarda tərbiyə edilməsi üzrə günün müxtəlif vaxtlarında məşqlər aparılır.

Uşaqların hərəkətlərini inkişaf etdirmək üçün vaxtaşırı xüsusi məşğələ və hərəkətli oyunlar keçirilir. Uşaqların böyük fəallığı ilə maraqlı formada keçirilən məşğələ uşaqların böyük sevincinə səbəb olur.

Məşğələlərdə uşaqların sayı 4 – 9 arasında dəyişir, bu isə onların yaşından, hərəkət etmə səviyyələrinin inkişafından, keçirilən təmrinlərin növündən asılıdır.

1 il 3 ay – 1 il 4 aylıq uşaqları yeriyərkən ayaqlarını qaldırmağı, onu döşəməyə sürtməməyi öyrətmək üçün onlara ağac parçası, rəngli şnur, yaxud döşəmə üstündə qoyulmuş kiçik taxta parçasının üstündən hoppanıb keçmələrini təklif etmək olar.

Yeriyərkən bərabər addım atmağa bacı – tərbiyəçinin nəğmə oxuması, yaxud musiqi sədaları kömək edir.

Uşaqlara müvazinətlərini saxlamağı təmrin etməyi öyrədərkən yeriyərkən bu və ya başqa bir işi görmələrini, məsələn, əl çalmalarını təklif etmək lazımdır. Bu tapşırığı döşəmə üstünə qoyulmuş, yaxud bir tərəfi yerdən 5-10 sm. qaldırılmış ( eni 25-20 sm.) taxtanın üstü ilə yeridikləri zaman da ifa edə bilərlər. 1 il 5 - 6 aylıq uşaqlar hündürlüyü çox olmayan skamya üstünə, yaxud hündürlüyü 10 sm olan çevrilmiş yeşiyin üstünə, 1 il 7- 8 aylıq uşaqlar isə 15 sm hündürlüyə qalxmağı öyrənirlər.

Hündür olmayan hasara, nərdivana dırmaşmaq üzrə də təmrinlər keçirilir, lakin bu təmrinlər zamanı bacı- tərbiyəçinin rəhbərlik və nəzarəti daha ciddi olur.

1 il 6 aydan sonra uşaqlarla təxminən aşağıdakı hərəkətli oyunları keçirmək olar:

" Topları toplayın!"

Bacı- tərbiyəçi səbətdəki əlvan rəngli topları uşaqlara göstərdikdən sonra onları döşəmənin üstünə tökür və səbətə yığmağı təklif edir. Bacı- tərbiyəçi şən səslə deyir: "Qaçın, tez olun, topları toplayın". O, sözünə davam edərək: "Axtarın, topları axtarın" deyir. Topların hamısı yığıldıqdan sonra oyun yenidən təkrar olunur.

Qaçış üzrə sadə oyunlar da keçirmək olar, məsələn, " Mən qaçıram, siz tutun", yaxud " Qaçıb tutaram sizi". Bu oyunları növbələşdirmək olar. İlk oyunu keçirərəkən bacı- tərbiyəçi uşaqlara deyir: " Mən qaçıram, siz tutun". O, yavaş-yavaş qaçır. Uşaqlar onu qaçıb tutumaq üçün tez hərəkət etməyə çalışırlar. İkinci oyunda bacı-tərbiyəçi özünü elə göstərir ki, güya onları tutmaq istəyir, bu dəfə də onlar bacı- tərbiyəçidən qaçırlar. "Qaçıb tutaram, qaçıb tutaram" – deyə təkrar edir. Adətən, uşaqlar öz sevinclərini çox coşqun surətdə ifadə edirlər, bəzən də tutulmaqdan qorxurlar.

"Quşu tut" oyunu uşaqlarda böyük maraq doğurur. Kiçik taxta parçasına bağlanmış ipin ucuna kağızdan kəsilmiş quş bənd olunur. Bu taxta parçasını yellətməklə, bacı- tərbiyəçi quşu "uçurdur". "Quş uçdu, uçdu, uşaqların başına qondu"- deyə bacı- tərbi-

yəçi bunu uşaqlardan birinin başına toxundurur. Uşaqlar bunu tutumaq istədikdə, quş uşağın əli çatmayan hündürlüyə uçur.

Bu oyun zamanı uşaqlar müxtəlif hərəkətlər edir, barmaqlarının ucunda qalxır, çöməlir, tullanmağa çalışır, əllərini uzadırlar. Bu oyun uşaqların çox xoşuna gəlir.

1 il 6 aylıqdan sonra uşaqlarla yaşlıların hərəkətlərini təqlid etməyə əsaslanan " Biz əlimizi qaldıraq" oyununu keçirmək olar. Bu oyunda uşaqlar yarım dairə şəklində elə otururlar ki, onlardan hər biri bacı – tərbiyəçinin qarşısında olur.

Müəyyən hərəkətlər edən bacı – tərbiyəçi deyir: "Biz əllərimizi qaldırırıq, biz əllərimizi endiririk". Bacı-tərbiyəçi bu sözü və hərəkətləri bir neçə dəfə təkrar etməklə, uşaqların da bunu təqlid etmələrinə səbəb olur. Onlar əvvəlcə bu hərəkətləri müşayiət edən sözlərə fikir verməlidirlər, lakin tədricən sözü onu ifadə edən hərəkətlər ilə əlaqələndirirlər və uşaqlar bacı - tərbiyəçinin fikri ilə onu yerinə yetirməyə başlayırlar.

Nəticədə əl və ayaq hərəkətlərinin təmrin etdirilməsi tədricən daha da müxtəlifləşir. Uşaqlar bacı – tərbiyəçini təqlid edərək əllərini yelləməyi, döndərməyi, əl çalmağı, ayaqları ilə hərəkət etməyi bacarırlar. Uşaqların müxtəlif təmrinləri yerinə yetirmələrini bacı- tərbiyəçi öz sözləri ilə müşayiət edir. O, bu sözləri sakit və mehri-bancasına tələffüz edir, hərəkətlərin ahəngini uyğun olaraq nəğmə oxuyur. Uşaqlar hərəkətləri yerinə yetirərkən bacı – tərbiyəçi onlara deyir: " Baxın, necə də əllərimiz var, bir, iki, bir, iki" və s. Musiqinin müşayiəti, yaxud bacı – tərbiyəçinin nəğmə oxuması ilə uşaqlarda hərəkətlərin inkişafına nail olmaq mümkündür.

**Məşğələdə əşyalarla işin təşkili.** Uşaqları əşyalarla hərəkət etməyə öyrətmək üçün müxtəlif pedaqoji təmrinlərdən istifadə olunur. Bu təmrinlər 1 ildən 1 il 6 ayadək olan uşaqlara həftədə 5-6 dəfə, böyük yaşlılarla ( 1 il 6 ay 2 yaşadək) isə 4-5 dəfə keçirilir.

Bunun üçün xırda tikinti materialları, qüllə, kublar, kuklalar lazımdır.

Bacı- tərbiyəçi uşaqları oyuncaqlar vasitəsilə rəngarəng hərəkətlər etməyə, o cümlədən gəlinçiyi gəzdirmək, halqanı açmaq və s. etməyə öyrədir. Bu tapşırıqlar, tədricən mürəkkəbləşdirilir. İlin başlanğıcında 3, sonralar 5, ilin axırında isə 6-8 halqadan ibarət qalacıqlarla oyunlar aparılır.

Uşaqlar məşğələlərdə istifadə olunan əyani vəsaitin əlamət və xüsusiyyətlərini bilavasitə görür və dərk edirlər. Onlar kubları bir-birinin üstünə qoyur, yaşlıların göstərişi ilə sadə, tikinti təsvir edir, sonra bu kubları yenidən qutuya qoyurlar.

Məşğələ zamanı bacı- tərbiyəçi ikiyaşlı uşaqların diqqətini əşyalara (böyük, kiçik) onların formasına, rənginə yönəldir.

Ən böyük, sonra ən kiçik gəlincik göstərən bacı – tərbiyəçi bir neçə dəfə təkrar olmaqla deyir: " Gör nə böyük kukladır, amma bax, bu isə kiçikdir".

Həmin sözləri uşaqlar oynayarkən də deyirlər: Bacı – tərbiyəçi uşağa öyrədir ki, halqanı çıxararkən, onları bir-birinin ardınca stolun üstünə qoysun. Uşaq, halqanı taxtaya keçirməyə böyük halqadan başlamalıdır. Bacı- tərbiyəçi bunu onlara xatırladır və göstərir. Eyni oyun kublar və kuklalarla keçirilir.

Stol arxasında məşğul olmaq üçün kiçikölçülü tikinti materialları məqsədə-müvafiqdir. Bunun içində kiçik qarqaralar, keramik heyvanlar, müxtəlif rəngli xırda parçalar olur. Uşaqlar bu vasitələri qutudan çıxarır, adlarını deyir, yenə də yerinə qoyurlar.

Əgər uşaqlar əşyalarla hərəkət etməyə aid bəzi bacarıq əldə edir və bu bacarığı müstəqil fəaliyyət göstərməklə təkmilləşdirmiş olarlarsa, o vaxt 2 yaşa çatdıqda qalaçadan, kuklalardan yerli - yerində istifadə edəcəklər.

1 il 6 aylıq uşaqlara əl və barmaq əzələlərini inkişaf etdirmək üçün karandaş, kağız vermək olar. Bacı – tərbiyəçi nəzarət etməlidir ki, uşaq karandaşdan istifadə edərək, kağız üzərində "şəkil" çəksin. O, belə məşğələdə uşaqlara deməlidir: "Bu karandaşdır, bu isə kağızdır. Kağızın üstündə karandaşla şəkil çəkirlər. Bax, necə də gözəldir!"

Yaşı 1 il 6 aydan yuxarı olan uşaqlarla yayda qum və su ilə oyun təşkil etmək olar. Qum təmiz və nəm olmalı, kifayət qədər

geniş yeşiklərdə saxlanılmalıdır. Bacı – tərbiyəçi uşaqların diqqətini qumun xassəsinə cəlb edir, ondan nə düzəltmək mümkün olduğunu göstərir, qumu formaya salır. O, uşaqlara su ilə oynamağı, qıfdan istifadə etməklə qaba su doldurmağı, bir qabdan o birinə boşaltmağı öyrədir. O, suya üzən oyuncaqlar salıb, uşaqların diqqətini onlara cəlb edir, onlarda sevinc hissi oyadır.

Uşaqlar qum və su ilə oynadıqları müddətdə bacı- tərbiyəçi onların səliqəli oynamalarma diqqət yetirməlidir. Oyun zamanı o, özünün və uşaqların gördükləri işin məzmununu xatırladır. Su haqqında nəğmə oxuyur, öz-özüylə danışırmış kimi: " Gör necə qumdur,indi biz ondan qutab bişirərik" – deyir və s.

**Musiqi məşğələsi.** İkinci yaş ilində uşaqlarla birlikdə bacı – tərbiyəçi musiqi məşğələlərində iştirak edir. Bu məşğələlər uşaqlara sevinc gətirir, onların hərəkətlərinin inkişafının bünövrəsi qoyulur.

Uşaqları məzmunca sadə nəğmə və musiqi əsəri dinləməyə alışdırmaq lazımdır. Bacı – tərbiyəçi nəğmə oxumalıdır. Əgər uşaq nəğmənin oxunmasında sözləri eşitsə, o, bunun məzmununu da asanlıqla başa sala bilər, eşitdiyi bu nəğmənin ayrı – ayrı hecalarını, daha sonra sözlərini oxumağa başlayır.

Uşaqlarda diqqəti bir əşya üzərinə toplamağı öyrətmək üçün müəyyən oyuncaqlardan istifadə etmək mümkündür. Xoruzla tanışlıq üçün oyuncaq xoruz göstərilir, uşaqlar onu tumarlayır, "yedizdirirlər", onun haqqında oxunan nəğməni maraqla dinləyir, xoruzun necə banladığını xatırlayırlar.

Uşaqların diqqəti davamsızdır, ona görə oyun – məşğələ qısamüddətli olmalı və müxtəlif materiallar üzərində qurulmalıdır. Məsələn, yatmaq üçün uzadılmış kuklaya bacı – tərbiyəçi lay – lay deyir, uşaqlar da onunla birlikdə oxuyurlar. Sonra kukla "yuxudan oyanır", onunla rəqs etməyə başlayırlar. Bacı – tərbiyəçi əl və ayaqların hərəkətini necə əvəz etməyi göstərir, uşaqlar da onu təqlid edirlər. Qismən utanan, süst uşaqları bacı – tərbiyəçi rəqsə dəvət edərək əllərindən tutur, lakin bunu ehtiyatla etməlidir. Əgər uşaq iştirak etmək istəmirsə, onu sakit buraxmaq lazımdır.

İkiyaşlılar hərəkəti göstərmədən edə bilərlər. Uşaqların musiqiyə qulaq asmasını təşkil etmək lazımdır.

Musiqiyə qulaq asdıqları vaxt sakit oturmalı, bir – birlərinə mane olmamalı-dırlar. Səssizliyi pozanlarla məşğələdən sonrakı vaxtlarda musiqiyə maraq tərbiyə edilməlidir.

İkinci yaş ilinin sonunda bacı – tərbiyəçi musiqi müəllimi ilə birlikdə məşğələyə qabaqcadan hazırlaşmalı, oxuyacağı nəğməni bir neçə dəfə təkrar etməli, uşaqların musiqini dinləmələrini sakit şəraitdə aparmalıdır. Bacı – tərbiyəçi uşaqlarla birlikdə rəqs etməlidir. Bacı – tərbiyəçi uşaqlar oynadıqları vaxtda da nəğmə oxuyur, onların diqqətini buna cəlb edir.

"Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı"nda musiqi məşğələləri aşağıdakı kimi verilməlidir.

**Sağlamlıq və möhkəmləndirmə tədbirləri**. Uşaqlar yatarkən otağın pəncərəsini açıq qoymaq lazımdır. Oyunları və məşğələləri təmiz havası dəyişdirilmiş $+20^0$ S temperaturlu otaqda və ya zalda keçirilməlidir. Yayda əlverişli şəraitdə uşaqları həyəti yaşıllaşdırılmış və ya yaxşı təchiz edilmiş sahəyə köçürmək məsləhətdir. Əgər sahədə uşaqların yatmaları və yedizdirilmələri mümkün deyilsə, otaqda təşkil edilir.Yayda hava və günəş tədbirlərini gəzinti vaxtı hərəkətdə və ya sakit vəziyyətdə keçirmək olar. Bədənin nəm dəsmalla silinməsi və duş vasitəsilə suaxıtma orqanizmi möhkəmləndirməsi tədbirləridir. Su prosedurları (bədənin yaş dəsmalla silinməsi, duşdan suaxıtma və çimmə) gündüz yuxusundan sonra (günün ikinci yarısında) təşkil edilə bilər.

Qış aylarında uşaqlar hava vannalarını bina daxilində yüngül paltarda, müstəqil fəaliyyətləri, oyun zamanı qəbul etdirlər. Su proseduru bir yaş yarıma qədər uşaqlarla gündüz yuxusundan sonra, axşamqabağı yeməkdən əvvəl aparılır.

Həftədə 2 dəfədən az olmayaraq vanna qəbulu məsləhətdir. Qəbul edilən su vannalarından suyun temperaturu $21^0 - 23^0$ S-dən, $15^0 - 20^0$ S-ə qədər endirilir. Yay aylarında uşaqlar çimizdiriləcək suyun temperaturu tədricən $35\text{-}36^0$-dən 10-15 gün ərzində $28^{0-}$ ə endirilə bilər.

Məişətdə, oyunda, gəzintidə uşaqları hərəkət etməyə, fəallığa təhrik edəcək oyunlara cəlb etmək lazımdır. Bunun üçün şəraitin yaradılması əsas şərtdir.

İkiyaşlıya topu diyirləməyi, atmağı, onun ardınca qaçmağı səy göstərməyi, əl arabacıqlarını sürməyi öyrətmək onlarda sərbəst hərəkət fəaliyyətini inkişaf etdirir.

Müstəqilliyin şəxsi gigiyenik vərdişlərin tərbiyə edilməsi körpə yaşlarından sağlamlığı təmin edən başlıca şərtdir. İlin birinci yarısından iki yaşa kimi uşaqda stulda oturmaq, fincandan, qaşıqdan müstəqil istifadə etmək və xörəyi çörəklə yemək vərdişləri yaradılmalıdır. Uşaqları müstəqil yemək, yaxşı çeynəmək, yeməkdən sonra öz stulunu yerinə qoymaq öyrədilir. Daha sonra ayaqqabısını, corabını çıxarmağa, əl-üzünü sərbəst yumağa alışdırılır.

İkinci ilin yarısından uşaqlara yeməkdən əvvəl əllərini yumaq, müstəqil yemək, yemək vaxtı təmizliyi gözləmək, kağız dəsmaldan istifadə etmək öyrədilir. İki yaşa yaxın stol arxasında öz yerini, şkafda əl-üz dəsmalınm, asqıda paltarlarının yerini bilməli, stol arxasında sakit əyləşməyi, oyun – məşğələ və yuxu prosesində özünü aparmağı, yaşlıların tələblərini yerinə yetirməyi tədricən öyrənməlidir.

Uşaqların sadə mədəni davranış vərdişlərinin norma və qaydalarına uyğun formalaşdırılması tərbiyəsi onlara son dərəcə sakit və səbirli münasibət bəsləməyi tələb edir.

Uşaqlar böyüklərin nitqini dinləməyə, sadə suallara cavab verməyə, tapşırıq-ları yerinə yetirməyə nail olmağa çalışmalıdırlar. Onlara "olmaz!", "sağ ol!" sözlərinin mahiyyətini anlamağı və yerində işlətməyi öyrətmək son dərəcə vacibdir.

Uşaqlarda oyuncaqları sındırmamaq, dağıtmamaq, oyundan sonra oyuncaqları səliqə ilə yığışdırıb yerinə qoymaq və s. kimi vərdişləri yaratmaq və formalaş-dırmaq onlarla aparılan tərbiyəyə daxildir.

Həyatlarının ilk aylarından başlayaraq uşağın orqanizminin möhkəmləndirilməsi üçün müvafiq şərait yaradılmalı və tədbirlər həyata keçirilməlidir.

Uşaqların yuxuları əvvəlki dövrdə olduğu kimi ən çox açıq havada keçirilməlidir. Onları açıq havada yatırtmaq üçün gecə köynəyi və pambıq torba geydirilir. Soyuq havada pambıq torba geyiminin üstündən yorğan da örtmək olar.

Soyuq hava şəraitində uşaqlar həftədə iki dəfə, hər dəfə 5 – 6 saat gəzintidə açıq havada olurlar. Gəzinti zamanı havanın temperaturu – 15°-dən aşağı olmamalıdır. Yay zamanı uşaqların bütün günü əsasən açıq havada təşkil olunur.

Uşağın paltarı və çəkməsi havaya müvafiq olmalı, paltarı boyuna uyğun gəlməli, onun hərəkətini ağırlaşdırmamalıdır. İlin soyuq vaxtlarında hava vannaları otaqda keçirilir. Hava vannasından əvvəl otağın havası yaxşı təmizlənməli , havanın temperaturu 20°–ə çatdırılmalıdır. Uşaqların geyimlərini də getdikcə yüngülləşdirmək lazımdır: əvvəlcə qollu köynək mayka ilə əvəz olunur, sonra corab çıxarılır, daha sonra maykanı da çıxarırlar. Hava vannası zamanı uşaqlar hərəkətdə olmalıdırlar, ona görə hərəkətli oyunlara geniş yer verilir.

Uşaq orqanizmini möhkəmlətmək məqsədilə su proseduru – bədəni silmə, su axıtma və çimmədən istifadə edilir.

Bədəni silmə zamanı suyun istiliyi +28°-dən başlanılır və hər iki-üç gündən bir 1° aşağı salınmaqla 18°-17°-yə çatdırılır.

Bir yaşdan yuxarı uşaqlar bir neçə gün kölgədə olduqdan sonra onlarla günəş şüalarının bir başa düşdüyü yerdə rahat oyunlar keçirmək (həkimin məsləhəti əsa-sında ) olar.

İlk günlərdə uşaqları günəş altında 5-6 dəqiqə olmaları ilə kifayətlənmək lazımdır. Bu zaman onların bərk istiləşmələrinə (üzlərinin pörtməsinə, tərləmələrinə) yol vermək olmaz.

Gəzintidən sonra su proseduru keçirilməsi məsləhətdir.

Günəş vannasının ancaq tibb işçilərinin ciddi nəzarəti altında keçirilməsinə icazə verilir.

**Həyatının birinci və ikinci ilində uşaqların geyimi.** Körpələrin sağlamlığının qorunmasında geyimlərin rolu böyükdür. Paltarlara verilən tələblər bunlardır: bədəndə qalmasına kömək etməli, bədənin həddən artıq istiləşməsinə yol verməməli. Yüngül və rahat paltar uşağın bədəninə uyğun ölçüdə olmalı, asanlıqla

geyilməli, çıxarılmalı, onun hərəkətini məhdudlaşdırmamalı, nəfəs almasını, qan dövranını çətinləşdirməməlidir.

Körpələr üçün paltarlar dərinin qıcıqlanmasına səbəb olmayan, rahat yuyulan, yumşaq parçadan olmalıdır.

Düyməsiz uşaq köynəyi kiçik uşağın ilk paltarı sayılır: düyməsiz uşaq köynəyi nazik materiallardan tikilir. Düyməsiz uşaq köynəyinin ətəyi arxa tərəfdən bir-birinin üzərinə gəlməlidir. Pambıq parçadan tikilmiş uzunqollu köynək qabaq tərəfdən düymələnir. Düyməsiz uşaq köynəyi yaxasız olur.

Normal temperaturu olan ev şəraitində körpənin başına ləçək, yaylıq bağlamaq lazım deyildir. Bu uşaqları zəifliyə öyrədər və körpənin başında nazik qabığın əmələ gəlməsinə səbəb olar.

Bədənin aşağı hissəsini bələmək üçün 2 əski hazırlanır, biri o birinin üstünə salınır, əvvəl nisbətən qalın olan isti əskinin üstündən yüngülü salınır.

Kiçik üçbucaq şəklində olan əskinin bir ucu uşağın qıçları arasından keçir, iki ucu isə onun ombalarını əhatə edir. Balaca uşaqları qoltuqlarının altınadək bələyə bükürlər, bu şərtlə ki, onun sərbəst hərəkətinə (körpə ayaqları ilə hərəkət edə bilməlidir) mane olmamalıdır.

Otağın havası sərin olarsa, uşaqların üstünə yorğan örtmək lazımdır.

Körpə həyata gələndən 2 ay sonra onun hərəkəti daha fəal və müxtəlif olur. Körpəni bələmək onun inkişafına lazım olan hərəkətləri bir qədər çətinləşdirir.

Ona görə bu yaşda olan uşaqlara bələk əvəzinə aşağı tərəfdən çəkməsayağı tikilən, bir növ "tuman-bələk" adlanan paltar geydirmək məsləhətdir. Bu geyimdə körpə ayaqları ilə həm rahatca hərəkət edər, həm də yanı üstə çevrilə bilər.

2 yaşa daxil olan uşaq artıq gəzməyi öyrənir, odur ki, bu vaxt qızlara don, oğlanlara isə şalvar – köynək (pencək) geydirmək olar.

Paltarın təmizliyinin gözlənilməsi, uşağın halı və onun sağlamlığının qorunması mühümdür.

Nəm, yaş və çirkli paltar dərhal dəyişdirilməlidir, çünki bu, uşaqlarda xoşagəl-məz duyğuya səbəb olur, dərini qıcıqlandırır. Paltarını təmiz saxlamağa öyrədilmiş körpə adət etdiyi vəziyyət pozulduğu vaxt narahatlıq göstərir, bu da bələk, köynək və s. dəyişdirilməsi üçün işarə siqnalı xidmətini görür.

Uşağı geyindirərkən bacı – tərbiyəçi onunla danışmalı, onu geyindirməklə əlaqədar olan şey və fəaliyyətin adını çəkməlidir. Bununla da 9-10 aylıq uşaqlara bacı- tərbiyəçinin sözünə ("ayağını qaldır","otur" və s.) öz hərəkətləri ilə cavab verməyi öyrətmək lazımdır.

Uşağı həddindən artıq bürümək, onun bərk istiləşməsinə, çox tərləməsinə, dəri-sinin qıcıqlanmasına, bədəninin səpməsinə səbəb olar. Bədənin həddən artıq istiləşməsi həm də mədəbağırsaq xəstəliyinə səbəb olan amillərdəndir.

Balaca uşağın paltarı kifayət qədər sərbəst olmalı, onun hərəkətini məhdudlaşdırmamalı, yeridiyi zaman onu narahat etməməlidir. Paltarın baş hissəsi tikilərkən uşağın başının ölçüsü nəzərə alınmalıdır, belə ki, paltarı geydirərkən uşaqlarda xoşa gəlməyən hissə səbəb olmamalıdır.

Bir yaşdakı uşaq müəssisələrində körpələrin gəzintisi qışda onların xüsusi paltar-torbada açıq havada yatmaları ilə əvəz olunur. 1 yaş 6 aylıqdan yuxarı uşaqlar sərbəst gəzməyi bacarırlarsa, onlarla gəzinti keçirilir. Yayda, isti günlərdə uşaqlar əyinlərində qısa şalvar, başlarında günlüklü papaq, ayaqlarında yay ayaqqabısı gəz-məyə çıxırlar.

Sərin günlərdə külək olduqda, havanın temperturu aşağı endikdə isti paltar: yüngül palto, yaxud yun köynək geydirilir. Qışda uşaqlara pambıqdan hazırlanmış kiçik, yun papaq, əllərinə beş barmaqlı əlcək geyməlidirlər.

Valideynlərin uşaqları bürüdükləri uzun şərf onların hərəkətlərinə mane olduğundan kiçikləri ilə əvəz edilməlidir.

**Təlim işlərinin planladırılması.** Körpələr qrupunda aparılan tərbiyə işləri məqsədəyönəldilmiş prosesdir. Buna görə onun dəqiq planlaşdırılması məcburidir. Plan işi bərabər və ardıcıl bölməyə, metodlar və tərbiyəvi təsirləri müəyyənləşdirməyə xidmət

edir. Plan "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı" əsasında hər yaş qrupu üçün konkret şəraiti, həmin qrup uşaqlarının yaş tərkibini, onların fiziki, əsəbi-psixi inkişafını nəzərə alaraq tərtib olunur.

Planda müəyyən vaxt daxilində aşağıdakılar nəzərdə tutulur:

1) qrupun həyat şəraitinin dəyişdirilməsi, uşaqların tərkibi, yeni avadanlıq, vəsait, oyuncaqlar və s;

2) valideynlərlə iş (ev şəraiti ilə tanışlıq, söhbətlər);

3) hər yarımqrupdan olan uşaqların tərbiyəsi üzrə məsələlər.

Qeyd olunmuş vəzifələrin həyata keçirilməsi uşaqların nitqinin, hərəkətlərinin inkişafına, şən əhval-ruhiyyəli olmalarına kömək göstərməlidir. Qarşıda qoyulan həmin vəzifələrlə əlaqədar bacı – tərbiyəçi işi planlaşdırır.

Bir yaşadək olan uşaqlar qrupunda iş planı bir ay üçün tərtib edilir. Bu planda bütün qruplarla (yaxud yarımqrupla) tərbiyə işi əks olunur. Bununla da planda ayrı-ayrı uşaqlara xüsusi fikir verilir. Qeyd olunmuş məşğələ həftənin günlərinə bölünür, bundan başqa məşğələlərin hər biri həftədə 2-3 dəfə təkrar olunur. Məşğələnin dəyişilməsi buradakı materialın məzmununun uşaqlar tərəfindən mənimsənilməsindən, yaxud uşaqların bu materiallara maraq göstərməmələrindən asılı olaraq aparılır.

İkinci yaş dövründə olan uşaqlar qrupu üçün tərbiyəvi iş bir aylıq planda irəli sürülmüş vəzifələrlə əlaqədar bir həftə üçün planlaşdırılır. Bundan başqa kiçik yaş qrupunda olduğu kimi, burada da ayrı-ayrı uşaqlarla iş aparılır.

Həftə üzrə məşğələlər aşağıdakı qaydada bölünür: nitq inkişafı və ətraf mühitlə tanışlıq məşğələsi. Bu, qrupda (gəzintidə olarkən edilən müşahidəni nəzərə almaqla) həftədə 4-5 dəfə keçirilir. Hərəkətlərin inkişaf etdirilməsi üzrə 3 dəfə, idman üzrə məşğələ 2-3 oyun, əşyalarla işin təşkili 1 yaşdan 1,5 ilə kimi 3-4 dəfə, 1,5 yaşdan sonra 3-5 dəfə, musiqi məşğələsi və oyun 1 yaşdan 1,5-ə qədər 3 dəfə, 1,5 yaşdan sonra 2 dəfə oyun – məşğələ keçirilir.

Məşğələlərin təkrarlandığını gözləyərək bacı – tərbiyəçi tədricən onları mürəkəbləşdirir. O, əvvəlcə uşağa qalcaq oyuncağını

verir, uşaq oyuncaqlardan halqanı çıxartmağı, sonra da bu halqanı yenidən yerinə keçirməyi öyrənir.

Bu və ya digər oyun, yaxud məşğələ ilk dəfə keçirildiyi zaman onun keçirilməsi metodikasını planda geniş vermək lazımdır. Təkrarlanma zamanı bu plana əsaslanmaq olar.

Qeyd aparmaq uşaqlarla aparılan tərbiyə işinə qiymət verməyə, işdəki müvəffəqiyyəti, çatışmamazlığı meydana çıxartmağa və gələcək işin yollarını müəyyən etməyə imkan verir. Bacı – tərbiyəçi hər gün işdən sonra qısa qeyd aparır. Bu qeydində o, oyun və məşğələlərin necə keçirildiyini, uşaqların nələri mənimsədiklərini, onların məşğələ və oyunlara necə maraq göstərmələrini, nə kimi çətinliklərə rast gəldiklərini yazır.

Bəzi tərbiyə metodların bütün qrupla və ayrı-ayrı uşaqlarla aparılmasını qiymətləndirmək arzu olunur. Bu, gələcək işlərin keyfiyyətini yaxşılaşdırmağa imkan verir.

## BAYRAMLAR VƏ ƏYLƏNCƏLƏR

Uşaqları bayramlar keçirilməsinə və əyləncələrə cəlb etmək. Yeni il, 8 mart, 28 may, Novruz bayramları ilə əlaqədar səhnəciklər keçirilir. Körpələrin bu bayramların qeyri – adiliyini hiss etmələri üçün qrup otaqları bəzənməli, müvafiq musiqi səsləndirilməlidir.

Bayram ərəfəsində və bayram günlərində uşaqlar daha təmiz və səliqəli geyinməlidir. Gözəl və səliqəli geyim onlarda bayram əhval – ruhiyyəsi yaradır. Bayramlara uyğun mahnı oxutmaq, rəqs etdirmək Onlar üçün kukla teatrı göstərmək. Uşaqların müxtəlif əyləncə və oyunlarda iştirakını təmin etmək. Binaların bayramsayağı bəzədildiyini göstərmək. Bayram səhərciyi üçün bayraqlar, ulduzlar, şarlar, çiçəklər hazırlamaq, sadə səhnələşdirmələri təşkil etmək. İdman və hərəkətli oyunlara üstünlük vermək.

**Bacı - tərbiyəçinin şəxsiyyəti.** Yeni nəslin tərbiyəsi üçün işinə sadiq, mədəni, elmi adamlar lazımdır. Onlar öz işlərini sevməli, yaxşı bilməli, biliyini təcrübədə yaradıcılıqla tətbiq etməyi bacarmalı, onu daim təkmilləşdirməyə çalışmalıdırlar.

Bacı-tərbiyəçi bu mühüm vəzifənin yerinə yetirilməsini təmin etməli, körpə yaşlı uşaqların ilk tərbiyəçisi olduğunu dərk etməlidir. Bu işdə bacı-tərbiyəçinin qarşısında mürəkkəb və məsul vəzifələr durur. Bacı - tərbiyəçi uşağın həyat və sağlamlığını qorumalı, hər bir uşağa qulluq olunmasını təmin etməli, uşaqların əhval-ruhiyyələrinin şən, gümrah olmasını təmin etmək üçün lazım olan şərait yaratmalı, onların hərəkətlərinə, gigiyenik vərdişlərə sahib olmalarına kömək göstərməli, şərait yaratmalı, ətraf mühitlə tanışlığa, nitq inkişafına, onları bir-birinə mane olmadan oynamağa və məşğul olmağa alışdırmalıdır.

Bu çoxcəhətli vəzifələrin yerinə yetirilməsi bacı -tərbiyəçidən qabaqcadan ciddi hazırlaşmağı, tibb və pedaqoji elmlərin əsaslarını bilməyi tələb edir.

Bacı-tərbiyəçi körpəyaşlı uşaqların xüsusiyyətlərini, onlara xidmət etmək yollarını, balaca uşaqlarla aparılan işin məzmun və metodunu yaxşı bilməlidir.

Hər bir bacı- tərbiyəçinin "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı"nı öyrənməsi və mənimsəməsi məcburidir.

İşə daxil olan bacı – tərbiyəçi öz ixtisasını yüksəltməyi davam etdirir: müəyyən ədəbiyyatı oxuyur, seminarlarda iştirak edir, yoldaşlarının təcrübəsi ilə tanış olur. Kör-

pələrin tərbiyə edilməsi işində bacı-tərbiyəçinin şəxsi keyfiyyətlərinin, onun xarakterinin, rəftarının böyük əhəmiyyəti var. Bacı – tərbiyəçi yüksək əxlaqi keyfiyyətlərə malik olmalı, onu əhatə edən yaşlılara və uşaqlara öz davranışı, rəftarı ilə nümunə göstərməli, kollektivdə yoldaşlıq münasibətini yaratmalı və möhkəmləndirməli, öz rəftarına, yoldaşının davranışına ədalətli surətdə qiymət verməyi bacarmalıdır.

Körpə uşaqlarla aparılan bütün işlər bacı – tərbiyəçidən ona tapşırılan işə, uşaqlara böyük sevgi ilə yanaşmasını tələb edir.

Bacı- tərbiyəçi özündən asılı olan bütün işləri görməyə çalışmalıdır ki, uşaqlar normal böyüsünlər, inkişaf etsinlər. Hər bir uşağa məhəbbət və qayğıkeşlik göstəril-məlidir. Tərbiyəçi və dayə daha sakit və daha cəlbedici uşaqlara hüsnrəğbət bəsləyib,

başqalarına nisbətən onlarla daha çox ünsiyyətdə olmaları kimi vəziyyətə yol verməməlidirlər, lakin bağçaya yeni gəlmiş, habelə bədəncə zəif uşaqlara başqalarından daha çox qayğı göstərmək, şübhəsiz, ədalətli olardı.

Uşaqlar şəraitin dəyişilməsinə çox həssas olurlar. Uşaq müəssisələrinə düşdükləri zaman onların şəraitləri, həyat rejimləri dəyişir, onlar yaşlılarla az görüşürlər, halbuki ona olan tələblər ödənilmir, təmin olunmamış qalır.

Buna görə yeni daxil olan uşaq tərbiyəçilərin güclü diqqət və nəvazişlərinə ehtiyac hiss edir.

Zəif uşağa xüsusi qayğıkeşliklə yanaşılması tələb edilir. O birilərinə nisbətən belə uşağa daha tez-tez yanaşılmalı, onun özünü necə hiss etdiyini yoxlanmalı, yaşlının iştirakı və köməyinə ehtiyacı olub-olmadığı müəyyən edilməlidir.

Qarşıda qoyulan vəzifənin yerinə yetirilməsində bacı-tərbiyəçi çətinliklərlə qarşılaşmış olarsa, (uşaq, yeni rejimə uzun zaman öyrəşmir, vərdişləri pis mənimsəyir, tez-tez şıltaqlıq edir və s.) böyük səbrə malik olmalı və ruhdan düşməməlidir.

Uşağın tərbiyəsi uzun sürən prosesdir. Odur ki, tez və yüngül başa gələn müvəffəqiyyət əldə etməyi gözləmək olmaz. Bununla belə, qeyd olunmuş vəzifələrin yerinə yetirilməsində bacı-tərbiyəçinin qüvvət və inadı da aşağı salınmamalıdır.

Bacı – tərbiyəçi hər bir uşağa daim ayrıca diqqət yetirir, onun fiziki və psixi simasında baş verən dəyişiklikləri görməyə çalışır, uşaqda özünü göstərməyə başlayan müsbət halları möhkəmlətmək və inkişaf etdirməyə səy göstərir.

Eyni zamanda o uşaqların doğru - düzgün böyümələrinə və inkişafına mane olan nə varsa, tezliklə aradan qaldırmalı, onda əmələ gələn mənfi halların (süstlük, həyəcanlılıq, ağlağanlıq və s.) baş verməsi səbəblərini də öyrənməyə çalışmalıdır.

Bacı – tərbiyəçi uşaqlara yaxın olmalı, onlarla oynamağı, şənlik etməyi bacarmalıdır. Belə olarsa, uşaqlar onu sevər, daha da yaxın olarlar. Bacı – tərbiyəçi özünün uşaqlarla olan rəftarında heç bir qabalığa, acıqlanma hallarına yol verməməlidir. Bu, tərbiyəçinin işini ağırlaşdırar və uşaqların tərbiyəsinə mənfi təsir

göstərər.Tükənməz səbr, öz hisslərinə sahib olub, onları idarə edə bilmək bacarığı hər bir bacı-tərbiyəçinin əsas keyfiyyəti olmalıdır. Bacı- tərbiyəçi bütün gün müddətində uşaqlarla əlaqə saxlayır. O, uşaqların paltarlarını dəyişərkən uşaqlar onun cəld, mühüm hərəkətlərini hiss edir, onları yedirtmə zamanı yaxud yatızdırarkən onun sakit, mehriban səsini, oyun və məşğələ zamanı isə şən söhbətini eşidirlər. Ən kiçik uşaqlar sözün mənasını hələ başa düşmədikləri halda belə yaşlıların nitqinin xarakterini (xeyirxah, əsəbiləşdirici) və səslərinin xüsusiyyətini (kəskin, bərk, sakit) yaxşı hiss edirlər.

Körpə mehriban tərzdə deyilən sakit və aramla olan danışıqdan zövq alır və belə nitqin təsiri ilə gülür, əllərini və ayaqlarını oynadır. Bacı – tərbiyəçinin nitqinin gur, yüksək tonu balaca uşaqları qorxudur, böyük yaşlı uşaqlar isə onu təqlid etməyə çalışırlar. Tərbiyəçinin uşağa müraciət etdiyi nitqinin ancaq xarakter və səsi deyil, uşaqların yanında onun yaşlılarla etdiyi söhbət belə onların nəzərindən yayınmır.

Bacı – tərbiyəçi valideynlərlə ünsiyyət zamanı nəzakətlə, onların vaxtını çox almadan, verilən suallara cavab verməli, uşağın düzgün tərbiyə olunmasının zəruriliyini başa salmalıdır.

Valideynlərlə söhbət, hətta valideynlər haqlı olmadıqları və kifayət dərəcədə nəzakət göstərmədikləri halda da bacı – tərbiyəçi səmimi olarsa, müsbət nəticə verər.Belə olduqda valideynlər tədricən öz uşaqlarının tərbiyəçiləri ilə hansı tonda danışmaq lazım gəldiyini başa düşərlər. Sadəlik, təmkinlik, mədəni rəftar – bacı - tərbiyəçiyə xas olan sifətlərdir.

Kiçikyaşlı uşaqlara xidmət edərkən bacı-tərbiyəçinin xəstəxana müəssisələrində qəbul olunmuş geyimdən istifadə edilməsinə ehtiyac hiss olunarsa, o zaman ikiyaşlıların tərbiyəçilərinin geydikləri ağ xalatı qısa qollu güllü çit parça ilə əvəz etmək məqsədəuyğundur. Bunun üstündən ağ önlük geymək olar.

Bacı- tərbiyəçinin zövqlə geyinməsi uşaqların diqqətini cəlb edir, onlarda xoş hisslər yaradır. Bu, uşağı əhatə edən mühitə yaraşıq verər və xəstəxana şəraitinə oxşarlığın qarşısını alar.

Bacı-tərbiyəçi kiçikyaşlı uşaqlara xidmət işində yaxın köməkçi olan dayə ilə böyük iş aparır. O, uşaqlara xidmət etmək haqqında ona ilk məlumat verməli, uşağı tərbiyə və ona xidmət etməklə əlaqədar vərdişlər aşılamalı, işi yaxşılaşdırmağa aid məsləhətlər verməli, onların icrasını yoxlamalıdır. Bacı – tərbiyəçi dayənin uşaqlara diqqət və qayğı göstərmələrinə istiqamət verməlidir.

# VI FƏSİL

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏRBİYƏSİNİN İSTİQAMƏTLƏRİ.

**Məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin məqsəd və vəzifələri.** Uşaqların tərbiyəsinin məqsədi və vəzifələri cəmiyyətin tələbatından doğur. Öz ölkəsinə, onun dövlətinə sədaqətli, vətənini sevən, geniş dünyagörüşlü, yüksək əxlaqi keyfiyyətlərə malik, əməksevər, mənəvi zənginliyi, fiziki kamilliyi özündə ahəngdar birləşdirən insanlar lazımdır. Belə adamlar ölkəmizin quruculuğunda müvəffəqiyyətlə iştirak edirlər. Elmdə, texnikada, yeni-yeni kəşflər edir, gözəl incəsənət əsərləri yaradırlar. Əməyə, insanlara, milli Orduya, milli adət - ənənələrə hüquqi- humanist münasibətlərin nüminələrini göstərirlər.

Pedaqoji elm sübut etmişdir ki, insanın mənəvi keyfiyyətləri, əxlaqi davranışı ictimai şəraitlə təyin edilir.

Lakin elə düşünmək lazım deyil ki, insanların yeni keyfiyyətlərinin formalaşması ictimai şəraitin dəyişməsi ilə kortəbii baş vermir. İctimai – siyasi şəraitdən doğan tərbiyənin vəzifələrinin yerinə yetirilməsi ictimaiyyət tərəfindən böyük səy tələb edir.

Tərbiyənin məqsədi məktəbəqədər yaş dövrlərinin bütün mərhələlərində vahiddir. Bu məqsəd tədricən hər yaş mərhələsində uşağın fərdi xüsusiyyət və imkanları nəzərə alınmaqla həyata keçirilir.

Məktəbəqədər dövr (0 – 6) qısadır, lakin həyat üçün fövqəladə dərəcədə əhəmiyyətli dövrdür. Uşaq həyatının birinci altı ilində fiziki və mənəvi cəhətdən böyük inkişaf yolu keçir. Orqanizmin anadangəlmə xüsusiyyəti, şəxsiyyətin bütün cəhətlərinin qanunauyğun formalaşması inkişaf üçün əlverişli şərait yaradır, lakin bu inkişafda həlledici rol həyat şəraitinin, tərbiyə və təlimin üzərinə düşür.

Məktəbəqədər tərbiyənin vəzifələrini müəyyənləşdirərkən pedaqoji tədqiqatlarda həllini tapmış problemlərə (elmi nailiyyətlərə) istinad etmək lazımdır. Tərbiyənin vəzifəsini yerinə yetir-

mək üçün ictimai məqsədi rəhbər tutaraq, gələcəyin ahəngdar inkişaf etmiş vətəndaşlarının yetişməsi qayğısına qalmaq lazımdır.

Tərbiyənin qarşısında duran vəzifələr bunlardır: fiziki, əqli, əxlaqi, əmək, estetik və ekoloji tərbiyə.

Bunların hər biri məktəbəqədər yaşlı uşaqların inkişafında xüsusi məxsus yer tutur.

**Fiziki tərbiyənin vəzifələri.** Uşaqların sağlamlığının qorunması və fiziki inkişafı üçün şəraitin yaradılması zəruridir. Uşaq anadan olduğu gündən orqanizmi formalaşmağa başlayır. Bu formalaşmanın normal keçməsi üçün ona qulluq lazımdır. Uşaqlar xəstəliklərə bu dövrdə asanlıqla tutulurlar.

Uşaq orqanizminin möhkəmlənməsi onun həyat şəraitini, yaşadığı mühiti tələb olunan səviyyədə qurmaq və mühafizə etmək tələb olunur.

Uşaq orqanizminin möhkəmlənməsinə körpə yaşlarından başlanması onlarda bir sıra vərdişlərin yaranmasına səbəb olur.

Fiziki kamilliyi təmin etməklə, sağlamlığı qorumaqda rejim, mədəni gigiyenik vərdişlər, səmərəli qida, idman və hərəkətli oyunlar və təbii amillərdən ( hava, günəş və su ) istifadə edilir.

Fiziki tərbiyənin vəzifələrini aşağıdakı kimi quplaşdırmaq olar:

a) uşaq sağlamlığının mühafizəsi;
b) uşaq orqanizminin möhkəmləndirilməsi;
c) hərəkət və mədəni gigiyenik adət və vərdişlərin tərbiyəsi.

**Əqli tərbiyənin vəzifələri.** Geniş dünyagörüşə, əqli inkişafa malik yeni insan tərbiyəsinə məktəbəqədər yaş dövründən başlanılır.

Əqli tərbiyənin əsas vəzifəsi uşaqlarda elmə,biliyə maraq oyatmaq, onları məktəb təliminə hazırlamaqdır. Ətraf aləm haqqında təsəvvür yaratmaq əqli yaradıcılığın məzmununu zənginləşdirir.

Bu yaşda ətraf mühit haqqında məlumatlar əsasən duyğular vasitəsi ilə qazanılır. Heç təsadüfi deyil ki, duyğuları əqlin

bələdçiləri adlandırmışlar. Əqli tərbiyənin vəzifəsi uşaqlarda psixi prosesləri inkişaf etdirmək, müşahidəçiliyi, diqqəti müəyyən obyekt üzərində cəmləşdirmək bacarığı tərbiyə etməkdir.

Uşaq əşyaların başlıca cəhətlərini həmişə görə bilmir. Onun daha qabarıq görünən tərəflərinə diqqət yetirir. Bunu nəzərə alaraq uşağın mühiti duyması və qavraması təfəkkürlə birlikdə inkişaf edir. Uşaq onu daha çox maraqlandıran və cəlb edən tərəflərə diqqətlə baxır, bu onun həyat təcrübəsinin az olması ilə bağlıdır. Tərbiyənin təsiri altında uşaqların qavrayışlarını daha da inkişaf etdirmək olar.

Əqli tərbiyənin vəzifələrindən biri də uşaqlarda hər şeyi öyrənmək marağını, əqli fəallığı, ümumiləşdirmə aparmağı, həyat hadisələri arasındakı qarşılıqlı əlaqəni dərk etmək bacarığını inkişaf etdirməkdir.

Nitq inkişafı lüğət ehtiyatının zənginləşməsi, düzgün danışıq qabiliyyətini, səslərin düzgün tələffüz olunması da əqli tərbiyənin vəzifəsidir.

Uşaqlarda psixi proseslərin, təxəyyülün, təfəkkürün, hafizənin və diqqətin inkişafı da əqli tərbiyəyə daxildir.

**Əxlaq tərbiyəsinin vəzifələri**. Əxlaq tərbiyəsinin vəzifəsi uşaqlarda vətənpərvərlik, səmimilik, yoldaşlıq, dostluq, kollektivçilik, əməksevərlik, yaşlılara və onların əməklərinə hörmət və s. tərbiyə etməkdir.

**Əmək tərbiyəsinin vəzifələri.** Əmək insan şəxsiyyətinin formalaşmasında xüsusi yer tutur. Əmək insanlara erkən yaşlarından aşılanmalıdır.

Erkən yaşdan həm valideynlər, həm də uşaq bağçasının tərbiyəçiləri uşaqlarda əmək və əmək adamlarına hörmət tərbiyə etməlidir. Uşaqlarda əmək vərdişləri yaratmaqda özünəxidmət əməyi, təsərrüfat - məişət əməyində uşaqların iştirakı, əl əməyi, təbiətdə əmək mühüm rol oynayır. Əmək tərbiyəsi erkən yaşdan uşaqlarda əməksevərliyi aşılamaqla həm də intizamlılıq, müstəqillik, təşəbüskarlıq, cavabdehlik və öhdəçilik kimi əxlaqi, iradi keyfiyyətlər də tərbiyə edir.

**Estetik tərbiyənin vəzifələri.** Estetik tərbiyə məktəbəqədər yaşlı uşaqların həyatında mühüm yer tutur. Estetik tərbiyə uşaqlarda estetik hiss, zövq, bədii qabiliyyət və estetik mədəniyyətin yaranmasına və formalaşmasına xidmət edir. Estetik tərbiyə üçün uşaq bağçasının binasından başlamaq, uşaqların paltar geyinməsi, istifadə olunan bütün əşyalar gözəl və səliqəli olmalıdır. Estetik tərbiyədə musiqi, təsviri fəaliyyət məşğələləri , incəsənət əsərləri ilə tanışlıq, təbiət gözəlliyi və s. mühüm yer tutur.

**Ekoloji tərbiyənin vəzifələri.** Ekoloji tərbiyə uşaqlarda yaş və dərketmə qabiliyyətinə uyğun olan ətraf aləmin insan həyatında rolu haqqında təsəvvürlərin yaradılması ekologiyanın mühafizəsi qayğısına qalmaq tərbiyəsi nəzərdə tutulur.

# VII FƏSİL

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN FİZİKİ TƏRBİYƏSİ

**Fiziki tərbiyənin nəzəri əsasları.** Fiziki tərbiyə uşağın fiziki inkişafı gücünü, sağlamlığını möhkəmləndirməyə və təkmilləşdirməyə istiqamətləndirilir.

Eyni zamanda hərəkət vərdişlərinin – qüvvə, sürət, dözümlü-, lük, çəldlik, çeviklik kimi fiziki keyfiyyətlərin formalaşmasına nüfuz edən orqanizm elmi cəhətdən əsaslandırılmış vasitələrlə bir sıra planlı təsirlərin nəticəsində yaranır.

Sürətli inkişaf gücü və məktəbəqədər yaşlı uşağın əsəb sisteminin, xüsusi elastikliyə malik olan orqanizminin köməkliyi mühitin həm müsbət, həm də mənfi təsirinə məruz qalması ilə fərqlənir. Buna görə də uşağın fiziki tərbiyəsi mühüm əhəmiyyətə malikdir. Bu yaşda sağlamlığın əsası qoyulur, insanın düzgün fiziki inkişafı üçün bütün lazımi şərait yaradılır.

Uşağın fiziki inkişafı orqanizmin morfoloji və funksional əlamətlərinin, onların qarşılıqlı əlaqəsinin mərkəzi əsəb sisteminin rəhbərliyi ilə xarici mühitdən asılılığın dəyişməsi prosesidir. Fiziki inkişaf irsi faktorların, xarici mühitin həm də tərbiyənin təsiri altında gedir. Fiziki tərbiyədə ictimai və gigiyenik şərait həlledici rol oynayır.

Fiziki inkişafın əsas göstəriciləri bunlardır: boy, çəki, köks qəfəsinin çevrəsi, spirometriya (tənəffüsün ölçüsü), dinamometriya (qüvvət ölçüsü) və s.

Uşaqların fiziki inkişafı ətraf mühitin çoxcəhətli təsiri vasitələrilə dəyişir.

İqlim şəraitinin dəyişməsi, müxtəlif yerlərin flora və faunasının dəyişdirilməsi xalqın maddi rifahının və mədəni səviyyəsinin arasıkəsilmədən yüksəlişi uşaqların böyüməsinə və inkişafına təsir göstərir.

Dövlətin və xalqın uşaqların sağlamlığı haqqındakı qayğısı onların fiziki inkişafında əks olunur.

Fiziki inkişafda fərdi fərqlər nəzərə çarpır. Belə ki, çəkisi çatışmayan, fiziki inkişafı yavaş gedən uşaqlar da vardır. Fiziki inkişaf normalarından kənara çıxan uşaqlara fərdi yanaşılır.

Respublikada məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyə nəzəriyyəsi birdən-birə yaranmamışdır. Tədricən yaranmış və inkişaf etmişdır. Ölkənin müstəqillik qazandığı ilk günlərdən uşaqların sağlamlığına daha böyük diqqət verilmişdir.

Uşaq müəssisələrinin qarşısında həyat şəraitinin daha da yaxşılaşdırılması, uşaqları xəstəlikdən qorumaq, səmərəli qida ilə qidalanmalarını təmin etmək, onları səliqəliliyə, təmizliyə alışdırmaqla əlaqədar müxtəlif istiqamətlərdə işlər aparılır. .

Fiziki tərbiyə nəzəriyyəsi dünyada, eləcə də Azərbaycan pedaqogikasında yaranmış yaxşı, qabağcıl təcrübələri özündə toplamışdır. Uşaqların fiziki inkişafının əsasını İ.P.Pavlovun təlimi təşkil edir. Fiziki tərbiyənin əsas məsələləri: ətraf mühitin fiziki inkişafa təsiri, hərəkətlərin inkişafı, rejimin quruluşu, uşaqların yuxusunun və yeməklərinin təşkili, uşaq orqanizminin möhkəmləndirilməsi, orqanizmin vəhdəti və tamlığı, mərkəzi sinir sisteminin tənzimedici rolu – bütün bunlar İ.P.Pavlovun təlimi əsasında həll olunur.

Fiziki tərbiyə nəzəriyyəsinin yaranmasında rus pedaqoqu P.F. Lesqaftın (1837 – 1909) fikri də əsas götürülmüşdür. (П.Ф. Лескафт. Руководство по физическому образованию детей школьного возраста. Ч. I. M., АПН РСФСР, 1952). O, uşağın ümumi, o cümlədən fiziki inkişafında mühitin, tərbiyənin və təlimin aparıcı rolunu aydınlaşdırmış, fiziki inkişafla, ümumi inkişafın əlaqəsini göstərmiş, nəticə etibarı ilə belə hesab etmişdir ki, fiziki tərbiyə yalnız fiziki inkişafı təmin etmir, həm də əxlaqi keyfiyyətlər tərbiyə edir. P.F.Lesqaft fiziki tərbiyə sistemində hərəkətli oyunlara böyük yer vermiş, fiziki tərbiyə metodikasında uşağın hərəkətlərə düşüncəli yiyələnməsinin əhəmiyyətini göstərmişdir. P.F.Lesqaft fiziki tərbiyəni insanın ümumi inkişafının üzvi hissəsi hesab edirdi.

Bəzi pedaqoqlar sübut etməyə çalışır ki, uşağın fiziki inkişafı xarici mühitin təsiri ilə şərtlənmiş proses deyil, o yalnız fiziki

qüvvənin yetişməsinin nəticəsi olmaqla özbaşına inkişaf prosesidir. Lakin fiziki tərbiyə nəzəriyyəsi uşağın inkişafına xarici mühitin aktiv təsirinə əsaslanır. Xarici faktorlar baş beyin qabığı vasitəsi ilə orqanizmdə gedən bütün proseslərə təsir göstərir. Burada mühitin təsiri İ.P.Pavlovun təliminə müvafiq olaraq yalnız təbii faktorların təsiri kimi yox, tərbiyə sisteminə və təlimə daxil olan ictimai faktor kimi başa düşülür.

Çoxcəhətli pedaqoji təsir vasitələrinə istinad edərək fiziki tərbiyə prosesinə, uşağın sağlamlığının təkmilləşdirilməsinə təsir göstərmək mümkündür.

Mərkəzi sinir sisteminin yüksək elastikliyi, onun böyük dəyişkənliyini, hətta irsi göstəricilərin dəyişkənliyini müəyyənləşdirir. Bu uşağın orqanizminə müntəzəm olaraq təsir etməyə, onu yaxşılaşdırmağa, təkmilləşdirməyə, təbii çatışmamazlıqları aradan qaldırmağa, onu gimnastika, xüsusi fiziki mümarisələr, hərəkətli oyunlarla möhkəmləndirmək kimi xüsusi fiziki tərbiyə vasitələri ilə islah etmək olar.

Uşağın yaşadığı mühitə təsir etməklə, həyatının maddi şəraitini yaxşılaşdırmaqla, fiziki tərbiyə sistemini elmi əsaslarla təşkil etməklə uşağın fiziki inkişafına real təsir göstərmək olar. Fiziki inkişaf sferasına təsir göstərdikdə fiziki tərbiyə uşağı əqli, əxlaqi, estetik cəhətdən inkişaf etdirir.

J.J.Russo iki əsr bundan əvvəl yazmışdır: "Siz şagirdinizdə ağıl əmələ gətirmək istəyirsinizsə, ağıl idarə edəcək qüvvəni təmin etdirin, onun bədənini təkidlə inkişaf etdirin, onun ağıllı, dərrakəli olması üçün onu möhkəm və sağlam edin". P.F.Lesqaft o vaxt geniş yayılmış olan gimnastika mümarisələri sistemində əzələlərin birtərəfli inkişafını nəzərdə tutan sistemi (alman, İsveşrə) tənqid etmişdir. Fiziki və psixi inkişafın vəhdəti özünün elmi əsasını İ.P.Pavlovun orqanizmin tamlığı, onun bütün hissələrinin vəhdəti təlimində tapmışdır. Uşaq sağlam olduqda, ona qulluq edildikdə, onun sinir sistemi, hiss orqanları qaydada olduqda, eşitməsi, görməsi normal olarsa əqli inkişafı müvəffəqiyyətlə gedir. Beyin, sinir sistemi, analizatorlar – bütün bunlar uşağın psixikasının maddi əsasını təşkil edir.

Əqli inkişafa müvəffəqiyytlə kömək etmək üçün uşaqların hərəkət vərdişlərinə yiyələnməsi vacibdir. Bu diqqətin cəmləşdirilməsini, hafizənin gərginliyini, müşahidəçiliyi, düşüncəliliyi tələb edir. Fikir yalnız sözlə deyil, hərəkətdə də əks olunur.

Körpə və məktəbəqədər yaşda uşaq hərəkət vasitəsi ilə aləmlə tanış olur. Hər bir hərəkət yalnız xarici əşyalarla yox, özünün əzələləri, bağları, vətərləri ilə əmələ gələn duyğularla müşayiət olunur. Bunlarla əlaqə olmadan, hərəki duyğular olmadan təsəvvür yoxdur. Uşağın beyin mərkəzi sinir sistemindən əzələlərə gedən və əksinə hərəkət aparatının müxtəlif hissələrindən beyinə gələn iki tərəfi qıcıqlandırıcı axınla oyanır. Hərəkət fəaliyyətinin evalyusiyası ilə intellektin artması arasında sıx əlaqə vardır. Hərəki fəaliyyət – beyni qıcıqlandırır və oyadır.

I.M.Seçenovun əsərində göstərilir ki, hərəki fəaliyyətin qavrama bacarığının düşüncə ilə, fikirləşmək və mühakimə etməklə sıx əlaqəsi vardır (И.М.Сеченов. Рефлексы головного мозга . Елементы мысли, Изб.произведения, М.Учпедгиз. 1953) Hərəkət uşağın fiziki və ümumi inkişafının zəruri həyat əsasını təşkil edir.

Fiziki tərbiyə prosesində mədəni davranış vərdişlərinə yiyələndikdə, möhkəmləndirici prosedurları vaxtında yerinə yetirdikdə uşağın hərəkətlərində məqsədəyönəlmə, sərbəstlik, cəsarətlılıq, təmkinlilik, öz davranışını idarə etmək bacarığı, iradə möhkəmliyi, müstəqillik, fəallıq inkişaf edir. İdman məşğələləri, gimnastika mümarisələri, hərəkətli oyunlar uşaqlarda cürətliliyi və qətiyyətliliyi, düzlüyü və doğruçuluğu, özünün və yaşıdlarının hərəkətini mehribancasına, yoldaşcasına qiymətləndirmək bacarığını tərbiyə edir.

Fiziki tərbiyə estetik hisslərin formalaşması ilə ayrılmaz surətdə bağlıdır. Sağlamlıq duyğusu, səliqəlilik və təmizlik vərdişləri, hərəkətlərin koordinasiyası və düzlüyü-estetik inkişafın başlanğıcıdır. Bunlar uşaqlara dəyişməyən sevinc və həzz almaq hissi gətirir. Uşaqlar gözəl hərəkətdən həzz almaq, onların düzgünlüyünü, ritmikliyini, gözəlliyini qiymətləndirmək bacarığına malikdir. Burada uşaqlar tərəfindən hərəkətlərin düzgün yerinə

yetirilməsi ilə əlaqədar olaraq onların estetik cəhətlərinə fikir verilməsində, uşaqların nailiyyətlərinin qiymətləndirilməsində tərbiyəçinin ustalığının böyük rolu vardır.

Fiziki tərbiyədə estetik şəraitin əhəmiyyəti böyükdür, çünki o bütün fizioloji prosesin müvəffəqiyyətlə getməsinə kömək edir. Əgər yemək dadlı bişirilibsə, stol zövqlə düzəldilibsə, qablar zövqü oxşayırsa, o vaxt uşaqlar iştahla yeməyə başlayırlar.

Ümuni inkişaf düzgün fiziki inkişaf üçün əlverişi şərait yaradır. Bununla əlaqədar olaraq "qospitallaşdırma" deyilən vəziyyəti göstərməliyik. Yaşlılarla ünsiyyətin azlığı uşaqların nəinki əqli cəhətdən geri qalmasına, eləcə də fiziki inkişafın ağır getməsinə səbəb olur, hərəkətlərin inkişafı ləngiyir, maddələr mübadiləsi zəifləyir, ürəyin, ciyərlərin fəaliyyəti, ümumi həyat tonusu pisləşir, uşaq daha çox xəstəliyə tutulur və onu ağır keçirir.

**Fiziki inkişafın xüsusiyyətləri.** Məktəbəqədər yaş dövründə böyüyən uşaq orqanizminin əsas xüsusiyyəti onun fasiləsiz inkişafıdır. Uşağın orqanizmi morfoloji və anatomik – fizioloji mahiyyəti ilə yaşlıların orqanizmindən kəskin surətdə fərqlənir.

Uşaqların əsəb sisteminin quruluşu, vəzifələri və öznəməxsus xüsusiyyətləri vardır.

Mərkəzi əsəb sistemi orqanizmin bütün həyat fəaliyyətinin əsas tənzimedicisi kimi məktəbəqədər yaş dövründə böyük inkişaf yolu keçir, onun quruluşu və vəzifələri dəyişir.

Uşaq doğulanda mərkəzi və periferik sinir sistemi hələ özünün morfoloji və funksional inkişafını bitirmiş olmur. Bütün orqanizmin xüsusi sürətli tempi, xüsusi ilə baş beyinin və bütün əsəb sisteminin intensiv inkişafı körpə yaşlarında əmələ gəlir. Yeni doğulmuş uşağın beyninin çəkisi 400 qram olur, 2 yaşından 1011 qrama qədər artır, 3 yaşında 1080 qrama, 4 – 6 yaşında 1305 qrama çatır, yəni 4 dəfə artır. Uşaq böyüdükcə baş beyinin şırımlarının və girintili – çıxıntılarının miqdarı və ölçüsü dəyişir. Bu proses uşaq həyatının birinci ilində olduqca sürətlə gedir. 5 yaşdan sonra

şırımlar və girinti – çıxıntıların inkişafı xeyli yavaşıyır.

Yeni doğulmuş uşaqlarda baş beyin qabığı və beyincik tam inkişaf etməmiş olur. Hərəkət mərkəzi beyin qabığı yox, qabıqaltı olur. Uşağın hərəkəti məqsədə yönəlmiş yox, qatmaqarışıq olur. Baş beyin qabığının və əsəb sisteminin bütövlükdə tədricən formalaşması və təkmilləşməsi ilə qarmaqarışıq hərəkətlər məqsədə yönəlmiş, uzlaşdırılmış hərəkətlərlə əvəz olunur.

Həyatın birinci ilində proses çox fəal gedir. Beyin forma və xarici görünüş etibarı ilə yaşlı adamın beynindən az fərqlənir. Böyük yarımkürələrin üzərində şırımların dərinləşdiyini makroskopik olaraq müşahidə etmək olur. Əsəb hüceyrələ-rinin və dendritlərin şaxələnməsi artır. Periferik sinir sisteminin meylləşməsi tamamlanır.

Yeni doğulmuş uşaqlarda bir çox reseptorlar işləməyə başlayır, iybilmə, dadbilmə, taktil (toxunma) reseptorlarının fəaliyyəti müşahidə olunur. Eşitmə hələ bir qədər ləngdir, göz almacıqlarının hərəkəti həmişə uyğun olmur, bəbək, buynuz təbəqəsi və göz qırpma refleksi işləyir.

Bir ay ərzində ilk təbii şərti refleks əmələ gəlir. 2 aylıq uşağın bütün analizatorlarında şərti reflekslərin intensiv əmələ gəlməsinə kömək olur. Görmə və eşitmə qıcıqlandırıcıları ayrılmağa başlayır. Belə dəyişmə refleksi aydın görünür, ilk səs və qığıldamalar özünü göstərir. Birinci siqnal sisteminin inkişafı ilə əlaqədar olaraq, ikinci siqnal sistemi də təkmilləşir. Şərti reflekslər yalnız xarici mühit qıcıqlandırıcılarının təsiri ilə deyil, sözün təsiri ilə də yaranır. Uşaq əvvəlcə yalnız nitqi anlayır, onun formalaşması sonra başlayır. Nitqin inkişafı ilə əlaqədar olaraq şərti reflekslərin əmələ gəlməsi sürətlənir. Bütün analizatorların işinin gedişində, hərəkət refleksləri asanlıqla əmələ gəlir.

Körpə yaşlı uşaqlarda mərkəzi əsəb sisteminin inkişafının xüsusiyyəti ilə əlaqədar olaraq orqanizmin xarici mühitin dəyişməsinə qarşı reaksiyasının bir sıra xüsusiyyətləri vardır. Mərkəzi əsəb sistemi asanlıqla həyəcanlanması ilə fərqlənir, o, endogen qıcıqlanmalarına çox həssasdır, iradiasiya meylinin olması ilə xarakterizə edilir, beynin ləngimə mexanizmi zəif işləyir, buna

görə də daxili ləngimə prosesi yavaş gedir, şərti ləngimə refleksi yavaş formalaşır, bunlarda davamlılığın azlığı üstündür. Oyanma prosesi ləngimə prosesindən çox üstündür. Buna görə də körpə yaşlı uşaqlarda yorulma tez əmələ gəlir, mərkəzi əsəb sistemində uşağı yuxuya aparan ümumi passiv ləngimə yayılır. Körpə yaşlı uşaqlarda əsəb sisteminin plastikliyi xüsusilə çoxdur. Bu da onun xarici mühitin dəyişkənliyinə tez uyğunlaşmasına kömək edir. Burada böyük rol oynayan şərt əlaqələrin asanlıqla əmələ gəlməsidir.

Məktəbəqədər yaşlı uşaqlarda şərti reflekslər daha mürəkkəb qaydada inkişaf etməyə başlayır. Onların əmələ gəlməsində ikinci siqnal sisteminin rolunun böyük əhəmiyyəti vardır. Görmə və eşitmə analizatorlarının inkişafı böyük əhəmiyyət kəsb edir.

Körpə yaşlarda olduğu kimi, məktəbəqədər yaşda da uşağın ali sinir fəaliyyətində oyanma irradiasiyasının üstün olması və ləngimənin ayrılma differensiyalaşdırma qabiliyyətinin zəifliyi onun xarakterik xüsusiyyətlərindəndir. Buna görə də uşaqlar xüsusən eyni işlə uzun müddət məşğul olduqda onlar tez yorulurlar. Odur ki, baş beyin qabığının bu və ya digər sahəsini uzun müddət oyanma vəziyyətində olması nəticəsində yorulmasının qarşısını almaq üçün uşaqları bir işdən başqa işə keçirməklə fəaliyyətlərinin xarakterini dəyişmək, onların vaxtında istirahətini təmin etək lazımdır. Uşaqda tərbiyə prosesində tədricən fəal ləngimə qabiliyyəti inkişaf edir. Buna başqa vasitələrlə yanaşı uşaqlarda dözümlülük, səbirlilik, bir işdən başqa işə tez keçmək bacarığı əmələ gətirən hərəkətli oyunlar, gimnastika mümarisələri də kömək edir.

Uşağın mərkəzi əsəb sisteminin başlıca xüsusiyyətlərindən biri keçirilən proseslərin izini saxlamaq qabiliyyətidir. Ona görə məktəbəqədər yaş dövründə uşaqlar yaxşı qavrayır və asanlıqla mənimsəyirlər, lakin alınan qıcıqlandırıcıların izini möhkəmləndirmək üçün dəfələrlə təkrar tələb olunur. Uşaqların təlimində, onlarda hərəkətlərin və s. bacarıq və vərdişlərin tərbiyə edilməsində bunu yadda saxlamaq lazımdır.

**Uşağın sümük sistemi** öz quruluşuna görə yaşlıların sümük sistemindən fərqlənir.

Uşağın doğulma məqamında onun skeleti qığırdaq toxumalarından ibarət olur. Tədricən qığırdaq toxuması sümüklə əvəz olunur. Sümük toxumasında sıxlıq maddəsi az, su isə çox olur. Kiçik uşaqlarda məsələn, yeni doğulmuş uşaqlarda 70%, 4 yaşda 20% təşkil edir. Uşağın sümük toxumalarında mineral duzlar az, üzvi maddələr isə çox olur. Bütün bunlar sümüyə elastiklik verir. Sümüyün hər cür şəklə düşməsi ilə şərtləşir. Əlverişli şərait olmadıqda (raxit, stol atxasında düzgün oturmamaq, yuxu zamanı düzgün uzanmamaq, dar ayaqqabı geyinmək, bir əlində ağır şey aparmaq və s.) fəqərə sütunu ya yan tərəfə (skolioz), ya da qabağa – dala (kifoz, lordoz) əyilə bilər. Belə qeyri-normal dəyişikliyin qarşısı alınmalıdır. Uşağın boyuna müvafiq mebeldən istifadə edərkən onun duruş vəziyyətinə, təlim məşğələlərində əmək tapşırıqlarım yerinə yetirən vaxt gigiyenik qaydaların gözlənilməsinə nəzarət etmək əhəmiyyətlidir. Aparılan idman, gimnastika mümarisələrinin, məşğələlərin dəqiq miqdarı tələb olunur.

Sümük aparatının düzgün formalaşması üçün qidanın tərkibində lazımi qədər mineral maddələrin (duzların, kalsiumun, fosforun) həcminin, vitaminlərin (xüsusilə D vitamininin) olması lazımdır.

**Uşağın əzələləri** yaşlıların əzələlərinə nisbətən az inkişaf etmişdir: yaşlılarda ümumi bədən əzələlərinin nisbi çəkisi 42 % (kişilərdə), yeni doğulmuş uşaqlarda 23,3%, 8 yaşda isə 27,2% olur, əzələ toxumalarının lifləri nazik, əzələnin suyu isə çox olur, əyilmə əzələləri, düzəlmə əzələlərindən çox inkişaf etmiş olduğundan nəticədə uşaq tez – tez əyilmiş vəziyyət alır.

Uşaqlarda qamətini düz saxlamağa kömək edən düzəlmə əzələlərini (kürək, boyun) inkişaf etdirmək və möhkəmləndirmək lazımdır. Buna görə də idman məşğələlərinin müntəzəm aparılmasının böyük əhəmiyyəti vardır. Böyük uşaqlara nisbətən 6 yaşlı uşaqlarda əzələlərin iş qabiliyyəti aşağıdır, buna görə də yorulma tez baş verir. Əzələlərin növbəti gərginliyində və zəifləməsində dinamik iş uşağı az, statistik gərginlik tələb edən iş isə

çox yorur. Uşağı yüyürməkdən və ya hərəkət tələb edən işdən daha çox onun uzun müddət ayaq üstə dayanması və ya oturması yorur. Buna görə də dinamik iş qanla nəinki əzələlərə, həm də sümüklərin böyüməsinə və uzanmasına kömək edir. Aşağı ətrafın sürətli böyüməsi dövründə uşaqlar lazımi qədər hərəkət etməlidirlər (yüyürmək, hoppanmaq və s.) bu vaxt bədənin daha düzgün nisbəti əmələ gəlir.

Əzələlərin ardıcıl inkişafı müşahidə olunur: əvvəlcə boyun, gövdə əzələləri, sonra isə aşağı ətraf əzələləri inkişaf edir.

**Dəri örtüyü.** Uşağın dərisi zəif quruluşu ilə və ya hüceyrə elementlərinin zənginliyi ilə fərqlənir. Dərinin buynuzaoxşar təbəqəsi yaşlı adamların dərisinə nisbətən nazikdir, bu onun tez zədələnməsinə səbəb olur.

**Dəri (derma) əzələ liflərinin zəif inkişafı ilə xüsusilə fərqlənir.** Dəri örtüyü çox miqdarda reseptorlarla təmin olunmuşdur, bunların vasitəsilə uşaq vegetativ əsəb sisteminə, qanın fiziki – kimyəvi xassəsinə, tənəffüs funksiyasına, qan dövranına və s. təsir edən çoxlu xarici qıcıqlar alır.

Kiçik uşağın dərisi daha yaxşı təmin olunmuşdur. Buna əhəmiyyətli dərəcədə kömək edən kapilyarların sıx şəbəkə əmələ gətirməsi və yaşlıların kapilyarları ilə müqayisə etdikdə nisbətən daha geniş olmasıdır. Damarların divarları, yumşaqlığı və yüksək nüfuz etməsi ilə fərqlənir. Mərkəzi sinir sisteminin inkişafının qurtarmaması dəri damarlarının genişlənməsini və yığılmasını tənzim edən, damarları hərəkətə gətirən əsəb mexanizminin işinə təsir edir. Bunların dəqiq funksiyaları mərkəzi əsəb sisteminin tədricən yetişməsi ilə yaranır.

Uşaqlarda dəri tənəffüsü yaşlılara nisbətən daha intensivdir və uşaq orqanizminin qaz mübadiləsi üçün çox əhəmiyyətlidir.

Dəri həmçinin ifrazat orqanıdır. Dərinin mühafizə funksiyası ilə yanaşı onun ötürücü maddələr mübadiləsində bəzi vitaminlərin (D vitaminin), fermentlərin əmələ gəlməsində böyük rol oynayır.

İstiliyi tənzim etməkdə dərinin böyük rolu vardır. Uşaqlarda dərinin qan damarları yumşaq və elastikdir. Nazik dəri örtüyündən qan öz istiliyini asanlıqla verir, buna görə də orqanizmin istilik müvazinəti yaşlılara nisbətən tez pozulur. Uşaq orqanizminin müntəzəm olaraq möhkəmləndirilməsi düzgün istilik müvazinətinin əmələ gəlməsinə kömək edir.

Uşaqların daxili orqanları yaşlılarınkından əsas fərqi odur ki, onlar hələ lazımi qədər inkişaf etməməsidir. O, hələ davam edir.

<u>**Tənəffüs orqanı.**</u> Kiçik uşaqlarda tənəffüs yolları lazımi qədər inkişaf etməmişdir, köks qəfəsinin əzələləri hələ zəif olur, döş qəfəsi öz forması ilə yaşlılarınkından fərqlənir. Belə ki, südəmər uşaqlarda qabırğalar az əyri olmaqla demək olar ki, üfüqi vəziyyət alır, sonralar qabırğaların əyilməsi cüzi olur. Bu da diafraqmanın yüksəkdə durmasına şərait yaradır.

Uşaqlarda ciyərlərin hava tutumu nisbətən azdır. 3 yaşından uşaqlarda 500
$sm^3$ -ə yaxın, 5 – 6 yaşda ikiqat, 10 yaşında üçqat artıq olur. Oğlanlarda ağ ciyərin hava tutumu qızlara nisbətən çoxdur. Yaş artdıqca ciyərlərin hava tutumu artır.

Göstərilən səbəblərə görə uşaqlarda tənəffüs dərin deyil. Bir dəfə nəfəs almaları yaşlılara nisbətən xeyli zəifdir. Yaş artdıqca südəmər uşaqlarda tənəffüsün dərinliyi 30 – 70 ml., 2 yaşında 80 – 90 ml., 4 yaşında 120 ml., 6 yaşında 150 ml olur. Tənəffüs dərinliyinin çatışmazlığı tez – tez nəfəs alması ilə özünü büruzə verir.

Uşaqlarda tənəffüsün ritmi möhkəm deyil. Tənəffüs cüzi səbəbin təsiri altında asanlıqla çoxalır. Bu baş beyində tənəffüs mərkəzinin asanlıqla oyanamsı ilə izah edilir. Südəmər uşaqlarda tənəffüsün tipi diafraqma tipidir, sonralar o, qarışıq tip, 5 – 6 yaşından döş tipi olur. Uşaq böyüdükcə ciyərlər, döş qəfəsi inkişaf edir, tənəffüs əzələləri möhkəmlənir.

Eləcə də burun yollarının, traxeyanın, bronxların darlığını və selikli qişanın zərifliyini qeyd etmək olar.

**Ürək – damar sistemi.** Yeni doğulmuş uşaqlarda ürəyin ağırlığı 24 qr-dır. 8 aylığında 2 qat, 2 – 3 yaşında 3 qat, 5 yaşında isə 4 dəfə artır, ürək əzələlərinin oyanması yaşlılara nisbətən yüksəkdir. Ən cüzi səbəb ürəyin döyünməsini sürətləndirir.

Uşaqlarda tam qan dövranı yaşlılara nisbətən 2 dəfə tez dövr edir.

Damarların böyük genişliyi ilə əlaqədar olaraq uşaqlarda arteriya təzyiqi yaşlılara görə az, qanın miqdarı isə yaşlılara nisbətən çox olur. Möhkəmləndirici tədbirlər ürək fəaliyyətinin gücləndirilməsi ilə müşayiət olunur. Həmçinin idman və gimnastika məşğələlərində də belə olur. Buna görə uşağın nəbzinin vəziyyətinə nəzarət etmək lazımdır. Yeni doğulmuş uşaqlarda nəbzin vurması dəqiqədə 120 – 140, 6 aylıq uşaqlarda 130 – 135, 1 yaşında 120 – 125 , 2 yaşında 110 – 115, 3 yaşında 105 – 110, 4 yaşında 100 – 105, 5 yaşında 98 – 100, 6 yaşında 90 – 95 olur.

Uşaq orqanizminin fiziki inkişaf xüsusiyyətlərinin təhlili onların konkret fiziki tərbiyə vəzifələrini müəyyən etməyə imkan verir. Uşaq bağçasında tərbiyə proqramı sağlamlığın qorunmasını və möhkəmləndirilməsini, uşaq orqanizminin funksiyaları-nın təkmilləşdirilməsini, onun tam fiziki inkişafını, əlverişli olmayan mühit şəraitinə uyğunlaşması üçün orqanizmini davamlılığını, müqavimətinin yüksəldilməsini, təbii faktorlardan maksimum istifadə yolu ilə möhkəmləndirilməsini, (günəş, hava, su) hərəkət bacarığının, vərdişlərin və fiziki keyfiyyətlərin vaxtında formalaşdırılması, uşağa müvafiq olan müxtəlif hərəkət fəaliyyətinə marağın inkişaf etdirilməsini, şəxsiyyətin müsbət əxlaqi – iradi keyfiyyətlərinin tərbiyə edilməsini nəzərdə saxlamışdır. Proqramda hər bir yaş üçün fiziki tərbiyənin konkret vəzifələri göstərilmişdir. Belə ki, həyatın birinci ilində sağlamlığın mühafizəsi və möhkəməndirilməsi, vaxtında fiziki və sensor inkişaf üçün zəruri şəraitin yaradılması, ümumi hərəkətlərin formalaşdırılması vəzifələri xüsusi ilə əhəmiyyətlidir. Həyatın ikinci ilində uşaq orqanizminin möhkəmləndirilməsi üçün onu aktiv fəaliyyətə təhrik edən şəraitin yaradılması, təbii hərəkət növlərinin inkişafına kömək edilməsi kimi əlavə vəzifələr qoyulur. Sonrakı yaşlarda bu vəzifə-

lar mürəkkəbləşir və yeniləri əlavə olunur: düzgün duruş vəziyyətinin formalaşması, gigiyenik vərdişlərin müstəqil yerinə yetirilməsi və s.

**Fiziki tərbiyənin əsas vasitələri.** Fiziki tərbiyənin vasitələrini şərti olaraq iki qrupa ayırmaq olar. Birinci qrupa uşaqların sağlamlığının mühafizəsinə, onların fiziki inkişafına yönəldilmiş vasitələr (gigiyenik şərait, səmərəli qida, yuxu, təmiz hava), ikinci qrupa aktiv təsir məqsədini daşıyan orqanizmin fiziki keyfiyyətlərinin, fiziki inkişaf göstəricilərinin, tərbiyənin yaxşılaşmasına kömək edən vasitələr daxildir. Bura möhkəmləndirici prosedurlar, hərəkətli oyunlar, fiziki mümarisələr, səhər gumnastikası, habelə gün rejimi daxil edilir.

**Uşağın fiziki inkişafı üçün əlverişli gigiyenik şəraitin yaradılması.**Uşağın fiziki tərbiyəsi üçün gigiyenik şərait yaradılır. Qruplarda avadanlığın olması müvafiq sayda uşağın və boyuna uyğun olunması, yaşayış sahəsindən düzgün istifadə edilməsi daxildir: körpə yaş qruplarının hər birində 20, 3 yaşdan 6 yaşa qədər 25 uşaq yeri normaya müvafiqdir. Binanın uşaqla əhatə olunması 140 yerdən artıq olmamalıdır. Müqayisəli tədqiqatlar göstərmişdir ki, belə uşaq əhatəsi olan müəssisələrdə uşaq xəstəlikləri az olur, yorulmanın qarşısının alınması və tərbiyə işinin aparılması üçün yaxşı şərait yaradılır.

Qrup otaqları hər uşaq üçün normaya əsasən 2 – 2,5 $m^2$ sahə layihələşdirilir. 3 metr hündürlükdə olan binada hava mübadiləsi düzgün və müntəzəm təmin edilir.

Qrup otaqlarının işıqlı olması üçün yalnız lampaların miqdarının çoxluğu əhəmiyyətli deyil, divarların rənginin (açıq isti tonda) müvafiq olması da vacibdir.

Təbii işıq uşaq orqanizminin normal həyat fəaliyyətinin amillərindən biridir. Binanın pəncərələrindən düşən günəş şüaları mikrobların məhv olmasına kömək edir.

Düzgün işıq görmə qabiliyyətinin yaxşılaşmasına kömək edir, yaxından görmənin inkişaf etməsinin qarşısını alır, uşaqlarda fəallıq və şən əhval- ruhiyyə yaradır.

Qrup otaqlarından işıq koefisenti 1: 4 olur. Tavanın, divarların, mebelin açıq isti fonda olması uşaqların yaxşı əks olunmasına, binanın daha yaxşı işıqlandırılmasına kömək edir.

Uşaqların geniş yerdə oynaması və hərəkət etməsi üçün qrup otağında avadanlığın miqdarı məhdudlaşdırılır. Mebelin forması və ölçüsü uşaqların yaş xüsusiyyətlərinə müvafiq olmaqla yanaşı quruluşuna görə də sadə, möhkəm, az qabartılı olmalıdır. Qrup otağında əlverişli və rahat şərait yaradılmalıdır. Mebelin divarlarda düzəldilməsi məqsədə müvafiqdir. Stollar və stullar uşaqların boyuna müvafiq seçilir. Buna görə də hər bir qrupda iki ölçüdən az olmayaraq stol və stullar nəzərdə saxlanılır.

Südəmər uşaq qruplarında $+ 21^{o}$-dən $+22^{0}$ –yə, 2 – 3 yaşlı uşaq qruplarmda $+ 19^{0}$- dan $+ 20^{0}$ –yə, 3 – 7 yaşlı uşaq qruplarında isə $+ 18^{0}$ -dən $+ 20^{0}$ -yə kimi istilik olmalıdır.

Ən yaxşı istilik sistemi aşağı təzyiqdə su ilə qızdırılan istilik sistemidir.

Ən yaxşı hava dəyişdirmə pəncərə gözü, nəfəslik və pəncərə açmaqla həyata keçirilir. Havanın tez və tam dəyişdirilməsi ikitərəfli hava cərəyanı vasitəsilə yerinə yetirilir.

Uşaq bağçasının lazımi qədər həyətyanı sahəsi olmalı və uşaqların 4 – 5 saat gəzmələri, yayda isə bütün günü havada olmaları nəzərə alınmalıdır. O gur səsli yerlərdən uzaq, yaşıllaşdırılmış və abadlaşdırılmış olmalıdır, burada 3 yaşa qədər və 3 yaşdan 7 yaşa qədər uşaqlar üçün iki müstəqil zona ayrılmalıdır.

Günəşdən, yağışdan qorunmaq üçün qrup sahələrində çardaq, qum təpəsi, su oyunları üçün hovuz, bir neçə idman avadanlığı, müxrəlif tikinti quraşdırma üçün sökülən və qurulan konstruksiyalar, istirahət üçün stollar, skamyalar, kiçik tərəvəz və çiçəklik düzəltmək üçün yer olmalıdır.

Böyük qrup uşaqları üçün idman məşğələləri, hərəkətli oyunlar, idman meydançası və üzmək üçün hovuz olmalıdır.

Ailədə və uşaq müəssisələrində yaradılan gigiyenik şərait uşağı əhatə edən mühitin yaxşı təşkil olunmasına kömək edir. Onlar daim havanın, binanın, avadanlığın təmiz saxlanılmasını,

uşaqların və işçi heyətinin gigiyenasını, həmçinin yolu-xucu xəstəliklərin profilaktikasını tələb edir.

Yemək uşağın yalnız həyat fəaliyyətini saxlamır. O həmçinin orqanizmin böyüməsi və inkişaf etməsi üçün plastik materialdır. Uşağın qidası bütün lazımi tərkib hissələrini saxlamalıdır: zülallar, yağlar, karbohidratlar, bir qədər mineral duzlar, su və çoxlu vitaminlər. Uşaq gündə 4-5 dəfə qida alır. Gündəlik yemək aşağıdakı kimi bölünür: səhər yeməyi 20-25% , nahar 35 – 40 % , axşam qabağı yemək 10 – 15 %, axşam yeməyi 20%.

Yeməyin müxtəlif olmasına, dadlı hazırlanmasına, vaxtında verilməsinə fikir verilir. Qidanın uşaqda iştaha oyandırması da çox əhəmiyyətlidir. İştaha beyinin qida mərkəzinin oyanmasını yüksəldir, bununla qida refleksini qüvvətləndirir. Dad hissini əmələ gətirən maddələr orqanizmi qidanın mənimsəməsinə kömək edən çoxlu miqdarda selik və qida həzm edən şirələrin ifraz olunmasına yardım edir.

Uşaqların iştaha ilə yeməsi üçün sakit şəraitin olması çox əhəmiyyətlidir. Qüvvətli oyanma (qışqırıq, qorxu, gülüş), əlavə qurulmuş qıcıqlandırıcılar ( yemək vaxtı kitabın oxunması, oyuncağın göstərilməsi və s.) qida mərkəzini tormozlayır, iştahasızlıq əmələ gətirir. Yaxşı iştaha üçün müəyyən olunmuş yeməyin verilməsinin böyük əhəmiyyəti vardır. Uşaqlarda müəyyən vaxtda refleks əmələ gəlir. Yemək verilən saatda selik və mədə şirəsi qüvvətli sürətdə ifraz olunur.Uşaq iştaha ilə yeyir və qida tez həll olunur.

İştahası pis olan uşaqlara xüsusi diqqət tələb olunur. Bunun səbəbi uşağın sağlamlığının pis olması, ailədə yemək rejiminin pozulması ola bilər. Bu səbəb aradan qaldırılmalıdır. Uşağı həkimə göstərmək lazımdır ki, müvafiq müalicə kursu təyin etsin. Ailə ilə söhbət aparmalı, müvafiq yemək norması haqqında məsləhət verilməlidir. Bəzən bir uşaq adət etmədiyi, lakin ona faydalı olan yeməyi həvəssiz yeyir. Tərbiyəçi tədricən və ardıcıl olaraq həmin uşağı yaxşı yeyənlərlə bir miz arxasında oturtmaqla uşağın iştaha ilə yeməsini təmin etmiş olar.

**Yuxu .** Gün ərzində uşaq çox qüvvə sərf edir. Xarici mühitdən və daxili orqanlardan alınan çoxlu qıcıqlandırıcıların təsiri altında baş beyin qabığı fəal vəziyyətdə olur, nəticədə yorğunluq əmələ gəlir. Müvəqqəti olaraq iş qabiliyyəti enir, toxumalar zəifləyir. Daxili passiv ləngimə yorğunluğun əmələ gəlməsini işarədir. Baş beyin qabığının normal fəaliyyətinin bərpa edilməsi fiziki və əqli işin növbələşməsində yerinə yetirilir. İ.P.Pavlovun portikal yuxu nəzəriyyəsinə əsasən mühafizəçi kimi ləngimənin tam bərpası yuxudan sonra əmələ gəlir. Yuxu mərkəzi əsəb sisteminə və bütün orqanizmə tam istirahət verir. Uşaq kiçik olduqca baş beyin qabığında iş qabiliyyətinin bərpa edilməsi üçün lazımi qədər yuxuya çox vaxt ayrılır. Uşaq böyüdükcə yuxunun müddəti azalır. 3 aylıqdan 6 aylığa qədər uşaqlar 16.30 – 16, 9 – 10 aylıqdan 1 yaşa qədər 14.30, 1 yaşdan 2 yaşa kimi 12.30, 3 – 6 yaşlı uşaqlar 12 – 10.30 saat yatırlar.

Yuxu dərinliyinə görə eyni deyildir. Dərin yuxu birdənbirə əmələ gəlmir və əvvəllər dərin olmur. Baş beyin qabığı ləngimə ilə hissə - hissə əhatə olunur, əsəb sistemi xarici təsirləri asanlıqla qavrama qabiliyyətinə görə də dərin yuxu gətirmək üçün əlverişli şəraitin yaradılması əhəmiyyətlidir.

Fizioloqlar və gigiyenistlər tam yuxu gətirməyin şərtlərindən birini vaxtın dəqiq təyin olunmasında görürlər. Bu baş beyin qabığında tez – tez yuxuya getməyin sistemə salınmasına kömək edir. Kəskin işıq,bərkdən danışıq və s. qıcıqlandırıcıların arad an qaldırılması ilə dərin yuxu təmin olunur. Uşaqlar açıq havada (şüşəbənddə, çardaq altında), havası yaxşı dəyişdirilmiş otaqda tez yuxuya gedirlər.

Əzələ aparatının işi, böyüməkdə olan orqanizmin başlıca sisteminin normal funksiya göstərməsində əsas faktordur. Əzələlərin yığılması ürək- damar sisteminə, tənəffüs və həzm aparatına müsbət təsir göstərir.

Hərəkətlərin inkişafı hər şeydən əvvəl uşağın topla, çənbərlə, ip və başqa oyuncaqlarla müstəqil oyunlarında həyata keçirilir. İdman vəsaitləri uşağa bu və ya digər hərəkəti məşq etməyə, cəld sürətli hərəkəti, zirəkliyi inkişaf etdirməyə imkan verir. Uşaqlar

müstəqil oyunlarda dırmanma, müvazinəti saxlama, tullanma zamanı idman vəsaitlərindən istifadə edirlər. Tərbiyəçinin rəhbərliyi ondan ibarətdir ki, o, uşağa oyuncaqlardan müxtəlif cür istifadə etməyə kömək edir, hərəkətin daha məqsədəuyğun tərzlərini göstərir, hərəkət etmə təcrübələrini zənginləşdirir.

Fiziki tərbiyə sistemində qaydalı hərəkətli oyunlar geniş tətbiq edilir.Uşaqlar bu oyunlarda hərəkətləri daim təkrar edirlər( qaçış, hoppanma, sürüşmə, tullanma, dırmanma və s.).

Hərəkətli oyunlardakı emosionallıq tərbiyəçiyə hərəkəti düzgün göstərməyə, uşaqların nöqsanlarını islah etməkdə mane olur. Buna görə də müntəzəm olaraq idman məşğələləri aparılır. Məşğələlərdə uşaqların anatomik – fizioloji və yaş xüsusiyyətləri nəzərə alınır. Məşğələlər günün birinci yarısında aparılır. İdman məşğələlərində uşaqların damarları, əzələləri genişlənir, toxumaların oksigen alması qüvvətlənir. Nəticədə əzələlər yaxşı qidalanır, motor funksiyası yaxşılaşır və möhkəmlənir.

Təlim metodikasında uşaqlar tərəfindən edilən hərəkətlərin xarakterinin keyfiyyətinin dərk edilməsinə təhlil etmə bacarığına böyük yer verilir. Fiziki tərbiyənin ənənəvi sistemində təqlid etməyə, tərifləməyə və ya uşağın yerinə yetirdiyi hərəkətin tərbiyəçi tərəfindən bəyənilməsinə əsaslanan belə metodika təlimi artıq dərəcədə təkmilləşdirilir. Yerinə yetirilmiş vərdişin dərk edilməsi uşağın hərəkətinin xarakterinin , ölçünün, vüsətinin, sürətinin, istiqamətinin, ayrı – ayrı hissələrinin yerinə yetirilməsi ardıcıllığının tətbiqinin nəzərə alındığım göstərir.

Tərbiyəçi uşaqlarda düşüncəli hərəkət təsəvvürü yaratmaq üçün göstərmə və izahetmədən istifadə edir. Tərbiyəçi keçdiyi məşğələlərdə hərəkətin ayrı – ayrı cəhətlərini qısa və aydın təhlil edir ki, bu da düşüncəli hərəkət vərdişlərinin mənimsənilməsinə kömək edir. Məşğələdən sonra ( 5 – 6 yaş) uşağa təklif olunur ki, o, öz hərəkətinə təhlil versin, yəni o, hərəkəti necə yerinə yetirdiyini, nə kimi səhvlər etdiyini desin. Yoldaşlarının hərəkətlərinə təhlil vermək də uşaqlar üçün mümkündür.

Kiçik və orta qruplarda uşaqlar hərəkətləri adətən tərbiyə-çinin göstərdiyi qaydada icra edirlər, böyük qruplarda isə onlar hərəkətləri tərbiyəçinin şifahi göstərişi ilə edə bilərlər.

Tərbiyəçi uşaqların qamətini düz saxlamalarına və onun göstərişini yerinə yetirmələrinə nəzarət edir.

Uşaqların hərəkətlərinin inkişafı üçün uşaq bağçasında uşaqlarda fəallıq yaradan və onların hərəkətlərinin hərtərəfli inki-şafına kömək edən kifayət qədər oyuncağın və vəsaitin olması mühüm əhəmiyyətə malikdir; toplar, iplər, cilovlar, diyircəklər uşaqlara kifayət qədər verilməlidir.

**Uşaq bağçasında və ailədə düzgün həyat rejimi.** Rejim uşağın qidaya , yuxuya, havaya, təmizliyə müxtəlif növ fəaliy-yətin növbələşməsinə olan tələbin inkişafla əlaqədar olaraq əsas həyati proseslərin vaxta görə düzgün bölüşməsidir. Başqa cür de-sək, rejim müxtəlif növ fəaliyyətdə tam istirahətin düzgün növ-bələşdirilməsidir ( yuyunma, geyinmə, uşaqların hər növ fəaliy-yətinin məcmuidir).

Mərkəzi əsəb sistemi ilə tənzim edilən uşaq orqanizminin həyat fəaliyyəti özünün ritmiliyi və dəqiqliyi ilə fərqlənir, qan dövranının həzm və tənəffüs cihazının ritmini nizama salır. Uşaq orqanizminin normal fəaliyyəti üçün müvafiq şərait yaradıl-malıdır.

İ.P.Pavlov orqanizmin reflektor fəaliyyətinin cavab vermə-sində vaxt faktorunun əhəmiyyətini göstərmiş və uşaq həyatının bütün proseslərinin vaxtlarının düzgün bölüşdürülməsinin, rejimin dəqiq yerinə yetirilməsinin əhəmiyyətini sübut etmişdir.

Əgər qıcıqlandırıcılar qarmaqarışıq təsir göstərirsə, hər bir rejim prosedurası üçün müəyyən vaxt gözlənilmirsə, uşaq qarşısında müxtəlif tələblər qoyulur, rejimin yerinə yetirilməsi uşaqlardan böyük qüvvə tələb edir.

Tədqiqatçılar göstərir ki, uşaq kiçik olduqca onun əsəb sistemi zəif olur, qıcıqlandırıcıların tətbiqində isə möhkəm qayda böyük əhəmiyyət kəsb edir.

6 aylığa qədər uşağın yedizdirilməsi, yuxusu, oyaqlıq pro-seslərinin gedişində ardıcıllığın böyük əhəmiyyəti vardır. Şərait

onun dəyişməsi uşağa təsir etmir. Lakin göstərilən proseslərin ardıcıllığının pozulması uşağa kəskin mənfi təsir edir. Ona görə də bu yaşda olan uşağın körpələr evinə daxil olması bundan sonrakı yaşa görə çətin olmur.

1 yaş 6 aylıq uşaq şəraitin hər cür dəyişdirilməsinə kəskin və çox pis rəğbət göstərir, adət etdiyi geyinmə, yuyunma qaydalarının hər cür pozulmasına ("mənim anam şarfımı belə bağlamır") əks çıxır.

Vaxt üzrə ardıcıllıqla uşaqlara verilən tələblərdə və qıcıqlandırıcılar sistemində vahidlik zəruridir. Bu əsəb sisteminin işini asanlaşdırır, orqanizmin fəaliyyətini nizama salır, möhkəm adət və vərdişlərin tərbiyəsinə kömək edir.

Ümumi stereotiplə uşağın həyatında çoxlu xüsusi, qısa stereotiplər ayrı–ayrı rejim prosedurаları (yuyunma, yemək və b.k.) fəaliyyət göstərir. Hər bir daxili xüsusi stereotiplərdən də ardıcıllıq və daimilik tələb olunur.

Uşaq üçün eyni vaxtda bir neçə stereotipi əmələ gətirmək çətin deyildir. Hər bir sonrakı stereotip əvvəlkindən daha asanlıqla əmələ gəlir. Burada interferensiya halı – adətlərin keçməsi hadisəsi təsir göstərir.

Uşaq dəyişikliklərlə qarşılaşır və ona uyğunlaşmalı olur (ailədən körpə evinə, körpə evindən uşaq bağçasına, uşaq bağçasından məktəbə keçməsi). Burada stereotiplər qırılır, uşaq tez – tez həyəcanlanır, yaxşı yatmır, şıltaqlıq edir. Ona görə də rejim dəyişikliklərinə çox ehtiyatla yanaşmaq lazımdır. Uşaqda adət fəaliyyətinin formalaşması ilə yanaşı onun əsəb sistemini, yəni şəraitə uyğunlaşdırmağa hazırlayan təmrin lazımdır.

Qıcıqlandırıcılar sisteminin dəyişdirilməsi təcrübəsinin nəticəsində aydın oldu ki, uşaq həyatının birinci 3 ilində, stereotipin dəyişməsindən sonra (qıcıqlandırıcıların adət qaydaları) əsəb prosesinin zəifliyinə görə, yəni stereotip çətinliklə əmələ gəlir, bəzən də heç olmur. Burada uşağın davranışı kəskin surətdə dəyişir. Uşaqlar həyəcanlı olur, sözə qulaq asmır, onlarda yuxunun, iştahanın pozulması qaydası müşahidə olunur.

4 yaş yarımdan 6 yaşa qədər stereotiplərin dəyişməsi uşaqlarda davranışın və fiziki vəziyyətin kəskin dəyişməsini əmələ gətirmir. Bu onunla izah edilir ki, artıq bu yaşda əsəb prosesləri möhkəmləndirilmişdir. Ona görə də stereotiplərin dəyişməsi əsəb sistemi üçün çətinlik törətmir və uşaqların davranışına kəskin təsir etmir. Elə bu yaşdan da uşaqlar yeni şəraitə uyğunlaşma bacarığına yiyələnirlər.

Düzgün qurulmuş rejim baş beyin qabığının normal iş qabiliyyətinə kömək edir, uşağın tərbiyəsi və təliminin müvəffəqiyyətlə keçməsi üçün normal şəraiti təmin edir.

Normal böyüyən və inkişaf edən orqanizmin fizioloji ehtiyacların ödənilməsini (yuxu, açıq havada olmaq, hərəkət, qida, fəaliyyət və istirahət) tələb edir. Fizioloji ehtiyacların təmin edilməməsi bütün həyati proseslərin gedişinə süstlük gətirir, bu da ali əsəb fəaliyyətinə pis təsir edir, baş beyin qabığının funksiyasını aşağı endirir, orqanizmin müqaviməti zəifləyir və xəstəliyə gətirib çıxarır.

Böyüyən orqanizmin fizioloji ehtiyaclarının ödənilməməsi psixi proseslərə (təfəkkürə, qavrayışa, hfizəyə, diqqətə) kəskin mənfi təsir göstərir.

Düzgün qurulmuş rejimin ailədə və uşaq müəssisələrində yerinə yetirilməsi, uşağı yorulmaqdan, əsəb sisteminin zəifləməsindən və mənfi hallardan qoruyur. Baş beyinin əsəb hüceyrələri müvazinət fazası zamanı yorulmanın təsiri altında ləngimə vəziyyətinə keçməyə başlayır, qıcıqlandırıcının təsirindən asılı olmayaraq müvazinət reaksiyası baş verir. Yorulma davam etdikdə ləngimə vəziyyəti dərinləşir, paradoksal faza əmələ gəlir. Uşaq zəif qıcıqlandırıcıya maksimal, qüvvətli qıcıqlandırmaya isə zəif reaksiya göstərir. Bu onunla izah edilir ki, çox yorulma əsəb hüceyrələrinin oyanması qüvvətli surətdə artır. Qüvvətli reaksiya daha çox artdıqca sərhəddənkənar ləngimə əmələ gətirir. Tərbiyəçi uşağı diqqətlə müşahidə edərək onu yorulmaqdan qorumaqla vəziyyətini və davranışını başa düşməlidir.

Gün ərzində oyun və məşğələlərin növbələşdirilməsi uşaqları mütəşəkkil fəaliyyətə öyrədir, eyni zamanda mərkəzi əsəb

...mini yorğunluqdan qoruyur, belə ki, fəaliyyətin dəyişməsin-
...ı yorulmuş əsəb hüceyrələri öz iş qabiliyyətlərini bərpa edir.

K.D.Uşinski yazır: "Uşaq təbiətinin əsas qanununu belə
...lə etmək olar: uşaqlar dayanmadan fəaliyyət tələb edirlər və
...nlar fəaliyyətdən yox, onun eyniliyindən və birtərəfli olmasından
...orulurlar. Uşağı oturmağa məcbur et – o, çox tez yorulacaq,
...anması – yenə o cür, o, uzun müddət danışmaya bilmir, hər şey
haqqında uzun müddət fikirləşə bilmir, lakin o bütün günü gülüb
oynayır, hərəkət edir, fəaliyyətini tez – tez dəyişdirir, bir dəqiqə
belə yorulmur, sonrakı günə yeni qüvvət yaratmaq üçün uşağın
lazımi qədər möhkəm yuxusu olur" (K.D.Ушински. Seçilmiş
pedaqoji əsərləri. Bakı 1953, səh.116).

Uşaq orqanizmində gedən fizioloji proseslərin təbii ritminin
öyrənilməsinə, əsasən uşaq rejimdə fəaliyyəti üçün daha məqsə-
dəmüvafiq vaxt nəzərdə saxlanılmalıdır ki, bu da uşaqların sağ-
lamlığının möhkəmlənməsi, düzgün fiziki və əqli inkişafı üçün
...n yaxşı şərait yaradar.

Rejimdə möhkəmləndirici prosedurallar üçün (hava, günəş
vannaları, bədəni silmək və su axıtmaq) müəyyən vaxt ayrıl-
malıdır.

Baş beyin qabığının normal iş qabiliyyəti fəaliyyətin dəyiş-
məsilə, xüsusilə fiziki və əqli fəaliyyətin dəyişməsi ilə bərpa edilir.
Buna görə baş beyin qabığının normal iş qabiliyyəti üçün əsas
vasitə rejimdir ki, burada fiziki və əqli fəaliyyət növbələşdirilir.

**Rejimin pedaqoji əsasları.** Rejim birinci növbədə fiziki
tərbiyə vasitəsidir. Düzgün qurulmuş rejim fizioloji proseslərin
gedişini, uşağın bütün orqanlarının böyüməsini və inkişafını
müvəffəqiyyətlə təmin edir. O, uşağın sağlamlığı üçün zəruridir.
Uşaq rejimə adət etməsi sayəsində müəyyən vaxtda yeməyə, yat-
mağa, oyanmağa və məşğul olmağa öyrəşir.

Lakin rejimi yalnız fiziki tərbiyə vasitəsi kimi hesab etmək
düzgün deyil. Rejim elə bir məişət fəaliyyətidir ki, onun yerinə
yetirilməsi uşağın əqli, əxlaqi, estetik, əmək və ekoloji tərbiyə-
sinin zəruri əsasını təşkil edir.

Rejim proseduralarının uşaqlar tərəfindən yerinə yetirilməsi və bununla əlaqədar məişət fəaliyyəti sensor tərbiyə üçün imkan yaradır. Yuyunarkən uşaq suyun isti, soyuqluğunu, dəsmalın yaş və quruluğunu fəqrləndirir. Müxtəlif meyvələrin, giləmeyvələrin, tərəvəzin, qəndin, duzun və başqa ərzaqın dadını xüsusiyyətini yemək vaxtı bilir. Geyinəndə sağ, sol əli və ayağı bədənin hissələrini, geyimin adını öyrənir.

Rejimə riayət etmək sayəsində uşaqlarda tədricən vaxta bələd olmaq və səhər, günorta, axşam, həftənin günləri, ilin ayları, "indi", "sonra", "tez", "gec" və s haqqında ilk təsəvvür və anlayışlar əmələ gəlir.

Uşaqlar vaxt faktorlarını qiymətləndirməyə alışdırılır: öhdəsinə düşən işi müəyyən vaxtda etməli, tələsməməli və gecikməməli, yoldaşları ilə və yaşlılarla hesablaşmalı, onları gözləməyə məcbur etməməli, səhər yeməyinə, nahara, məşğələyə və s. gecikməməlidir. Bu adətlər uşaqların məktəbə hazırlığı, öz vaxtını düzgün təşkil etmək bacarığı üçün çox əhəmiyyətlidir.

Uşaqlar qabqacağın və mebelin adını və nəyə lazım olduğunu öyrənirlər. Yuyunma, geyinmə, soyunma, yemək zamanı işin ardıcıl yada salınması uşağın diqqətinin, hafizəsinin inkişafını mümarisə etdirir. Rejim prosesində bilik, bacarıq və vərdişin mənumsənilməsi mexaniki yox, düşünülmüş olur. Uşaqlar tərbiyəçinin köməyi ilə onlara mütəşəkkil, mədəni davranış haqqında verilən tələbləri başa düşürlər.

Tərbiyəçi uşaqların diqqətini ətrafdakı adamların mütəşəkkilliyinə, davranış və əmək mədəniyyətinə, təmizkarlığına, səliqəliliyinə cəlb edir. Bütün bunlar uşaqların görüş dairəsini genişləndirir və əqli tərbiyəsi üçün imkan yaradır.

Rejim əxlaq və əmək tərbiyəsi üçün xüsusilə əhəmiyyətlidir. Rejim sayəsində mədəni davranış vərdişləri ( şəxsi səliqəlilik, mədəni yemək, nitq, fəaliyyət, yaşıdları və yaşlılarla qarşılıqlı mədəni münasibət) mənimsənilir. Uşaqlarda mədəni davranışın xarici təzahürləri ətrafdakılara hörmət, xeyirxahlıq, həssaslıq, təmkinlilik, təvazökarlıq kimi əxlaqi keyfiyyətlərlə sıx əlaqədardır.

Rejim proseduralarının və onların təşkili və keçirilməsi yaşlıların zəhməti və onların sağlamlığına qayğısı ilə təmin olunur. Yaşlılara və onların əməyinə hörmət tərbiyə olunur.

İki yaşdan etibarən uşaqlar müstəqilliyə, rejim prosedurlarının təşkilində (uşaqlar yemək stolu düzəldir və yığışdırır, məşğələlər üçün lazımi materiallar hazırlayır, yuyunma otağında, dəhlizdə və s. təmizlik və qayda saxlamağa öyrədilir) yaşlılara kömək etməyə öyrədilir. Beləliklə rejim əmək tərbiyəsi vasitəsidir.

Ailədə və uşaq bağçasında qoyulan rejim, uşaqlarda qaydaya riayət etməyi, mütəşəkkilliyi, intizamlı davranışı tərbiyə edir.

Uşaqlar təmkinlilik yaşlıların tələblərini yerinə yetirmək bacarığına yiyələnirlər.

Rejim – dəqiq gün qaydalarıdır. Rejim uşağın tam istirahətini və fəaliyyətinin tənzimləyicisidir. Tərbiyəçi uşaqların öz vəzifələrinin və onlara verilən tapşırıqları müəyyən vaxtda yerinə yetirmələrinə nəzarət edir. Uşaqlar tədricən buna adət edirlər. Rejimə riayət etmək onlardan çox qüvvə tələb etmir. Bütün rejim prosedurаlarının gündəlik yerinə yetirilməsi uşaqlarda müstəqillik, məsuliyyətlilik, mütəşəkkillik tərbiyə edir.

Təmizliyə, səliqəliliyə adət etmək, zövqü oxşayan qabqacaq qoymaq, ağappaq süfrə salmaq, əl – üz dəsmallarının, uşaq paltarlarının saxlanıldığı rəflərə, şkaflara nişanlar vurmaq, bütün bu elementlər uşağın estetik tərbiyəsinə kömək edir.

**Rejimin düzgün təşkili.** Uşaqların əsəb sisteminin tez yorulması, oyanma və tormozlanma prosesinin zəruri tənzimi, aktiv fəaliyyətin, istirahətin, hərəkətin və sakitliyin düzgün növbələşməsini və müddətini tələb edir. Burada uşaqların xarakterinə və yaşına müvafiq olan müxtəlif fəaliyyət növünün əvəz edilməsinə nəzər yetirmək lazımdır. Belə ki, əqli gərginlik tələb edən fəaliyyətdən sonra hərəkət aktivliyi göstərən oyunlar faydalıdır, hərəkətli oyunlar da öz növbəsində sakit vəziyyət tələb edən oyunlarla növbələşir. Uşağın istirahətinə passiv, hərəkətsiz hal kimi baxmaq düz deyil. Düşünülmüş fəaliyyətin olmaması, hər şeydən əvvəl uşaqların həyəcanlanmasına, onların davranışının

qeyri – mütəşəkkil olmasına səbəb olur. Yeknəsəq fəaliyyət b beyin hüceyrələrində gərginlik əmələ gətirir. Fəaliyyətin xarak terinin dəyişməsi ilə baş beyin qabığının müxtəlif sahələri oyanı Bununla uşaqda xoş əhval-ruhiyyə və aktiv fəaliyyət imkanı tə min olunur. Fəaliyyət növünün dəyişməsi ilə yorğunluğun, yek nəsəqliyin əmələ gəlməsinin qarşısı alınır.

A.S.Makarenko tərəfindən görülən rejimin təşkili prinsipi məktəbəqədər yaşlı uşaqlar üçün ailədə, uşaq bağçasında rejimin quruluşu üçün səmərəli göstərişdir.

Dəyişməzlik, möhkəmlik, müəyyənlik rejimin təşkilinin başlıca prinsipidir. Ciddi və müəyyən saatda qida qəbulu, müəy yən saatda möhkəmləndirici prosedurlar, məşğələ, gəzinti, yuxu orqanizmin normal funksiyasını, lazımlı adət və vədrişlərin əmələ gəlməsini təmin edir. Rejimin qeyri – müəyyənliyi, onun tərbi yəvi əhəmiyyətini itirir. Zəruriliyi əmələ gətirən hər şey istisnası ola bilməz. A.S.Makarenko yazır ki, rejimin yerinə yertirilməsinə nə qədər ciddi nəzarət olarsa, onun pozulması halları bir o qədər az olar, nəzarət azlığı nəticəsində cəzaya qaçmaq lazım gəlir. O, ədalətlə hesab edir ki, tərbiyə işində heç bir cüzi əhəmiyyətsiz şey yoxdur, qəbul edilmiş qaydalara etinasızlıq mənfi təcrübənin başlanğıcıdır.

Rejimin təşkili və aparılması məqsədəmüvafiq və düşünül müş olmalıdır. Uşaqların müəyyən edilmiş vaxtda nahara gəl mələrinə verilən tələblər ananın əməyini yüngülləşdirir. Həmçinin bütün ailənin bir yerdə olmasına imkan verir. Rejim qaydalarının düşünülmüş olması və məqsədəmüvafiqliyi uşaqlara dərk etdirilir. Buna yalnız izah etməklə yox, daimi mümarisələrlə nail olunur.

Lakin rejim “ toxunulmaz, hərəkətsiz, ölgün” olmamalıdır. O, müxtəlif şəraitdə dəyişir.

Rejim uşaqların yaşından, mövsümdən ( ilin fəsilləri), müəssisənin tipindən, uşaqların fərdi xüsusiyyətlərindən asılı ola raq dəyişir.

Yayda gecə yuxusunun müddəti dəyişir, uşaqlar güclə ya tızdırılır, tez oyadırlar, bütün qruplarda təlim məşğələlərinin müd

dəti azalır. Bütün uşaq həyatı, onların oyunları təmiz havada təşkil olunur.

Uşaqların rejimdə gedən bir sıra dəyişikliklərə tədricən öyrədilməsi onların yeni şəraitə uyğunlaşmağa hazırlığı üçün lazımdır. Rejim proseduralarının yerinə yetirilməsində tərbiyə edilən adət və vərdişlər daha çevik və daha möhkəm olur.

Əgər uşaqlarda yaşlıların (valideyn və tərbiyəçinin), tələbinə müsbət emossionallıq yaradılarsa onlar müəyyən rejimə müvəffəqiyyətlə alışırlar. Əgər krandan isti su gəlirsə, sabun qabında ətirli sabun qoyulmuşsa, təmiz, quru dəsmal asılmışsa yuyunmaq adəti asanlıqla əmələ gəlir. Məktəbəqədər yaşda qida qəbulu, gəzintiyə toplanmaq, yuxu, məşğələlərə, oyunlara hazırlıq uşaqların vəzifəsi yox, onlara sevinc də verməlidir.

Uşağın rejim proseduralarına müsbət münasibəti onları məcburiyyət üzrə yox, işi yerinə yetirməyə təhrik edən tələbin əmələ gəlməsinə kömək edir, çünki bu fəaliyyət rejimlə bağlıdır, xüsusilə məktəbəqədər kiçikyaşlı uşaqlar üçün maraqlıdır, onun üçün şən emosiya mənbəyidir. Buna uşağın rejim proseduralarının təşkilində fəal iştirak etməsi ilə və onu müstəqil yerinə yetirilməsilə nail olmaq mümkündür.

Uşaqların hərəkətlərində ahəngdarlığın çatışmazlığına görə onlar hələ müstəqil yeyə bilmir, geyinə bilmir, oyuncaqları yığışdıra bilmir, lakin müstəqil iş görməyə səy göstərir ("mən özüm"). Yaşlılar bu səyi rəğbətləndirir, müvəffəqiyyətini qeyd edir, beləliklə, müstəqilliyi tərbiyə edirlər. Məktəbəqədər kiçikyaşlı uşaqların rejim proseduralarının yerinə yetirilməsi ilə əlaqədar olan fəaliyyətləri onlarda maraq doğurur, aktivlik, müstəqillik göstərmələri üçün mümkün olan psixi xüsusiyyətlərinə cavab verir.

Hələ uşaqların anlayışında heç bir zəruriyyət olmadığı halda onlar rejim proseduralarını yerinə yetirməyi öyrənməyə başlayırlar. "Yatağa uzan", "nahar etmək üçün stol arxasında otur", " yuyunmağa gedək" kimi danışıqsız tələblər kiçik uşaqlarda tez-tez etiraz, neqativ münasibət doğurur. Bunun aradan qaldırılmasına yaşlıların öz tələblərini motivləşdirilməsi kömək edir.

Motivləşdirmənin xarakteri ( emosional, subyektiv) uşaqda yaşlının tələbinə müsbət münasibət əmələ gətirir ( "Nərgiz bu saat yatacaq, yuxudan yaxşı və şən duracaq").

Uşaq bağçasının orta və böyük qruplarında rejim prosedura-larının yerinə yetirilməsi zəruriliyi uşaqlara anlaşıqlı şəkildə izah edilir. Məktəbə hazırlıqla əlaqədar uşaqlara vaxtında yeməyin, yuxunun, açıq havada olmağın, sağlamlıq üçün oyun və məşğələlərin əhəmiyyəti böyükdür. Rejim proseduralarının uşaqlar tərəfindən düşüncəli yerinə yetirilməsi böyük səbatlılığın, bütün işi öz vaxtında yerinə yetirmək adətlərinin möhkəmlənməsini müəyyən edir. Uşaqlar böyüdükcə stereotiplərin dəyişməsində izahın təsiri özünü göstərir. Eksperiment sübut edir ki, məktəbəqədər böyükyaşlı uşaqlara sözlə göstərişin tətbiq edilməsi stereotipin əmələ gəlməsini 4-5 dəfə sürətləndirir. Yuxarıda məktəbəqədər böyükyaşlı uşaqlarda steorotipin çox asanlıqla dəyişməsi göstərilmişdir. Bu bir qədər işin qaydasına və ardıcıllığına görə sözlü izahın tətbiq olunması ilə müəyyən edilir.

Ailədə və xüsusilə uşaq bağçasında uşaqların həyatına müsbət təsir edən rejim, onun sağlam böyüməsinə kömək edir.

Rejim proseduralarının yerini və vaxtını dəqiq müəyyən etmək, uşaqlara verilən vahid tələblərin ardıcıllığı və hərəkətlərin müstəqillik dərəcəsi, uşaqlarla böyüklər arasında münasibətlərin formaları dəqiq müəyyən olunur. Hər bir rejim prosedurasını yerinə yetirərəkən bunun uşaqlara necə təsir etdiyini, onlarda yaşlarına müvafiq əmələ gələn hər bir hərəkəti qiymətləndirmək, özünənəzarət, özünü təşkil elementlərinin necə yarandığı aydın olur. Onlarda müəyyən hərəkət və çalışmaların formaları, fəaliyyətləri zamanı rejimlə bağlı olan davranış qaydaları qabaqcadan müəyyən edilir.

Uşaq bağçasında ailədə rejim yerinə yrtirilərkən zəruri şərt onun əhəmiyyətinin başa düşülməsindən və uşaqların buna məsuliyyətlə yanaşmasından ibarətdir.

Tərbiyəçilər məşğələlərin aparılmasında rejimi nəzərə almalıdırlar. Rejimdə göstərilən hər bir proseduraların ləngiməsi gün

ərzində rejimin pozulmasına gətirib çıxarır, nəticədə vərdişlər çətinliklə yaranar, onlarda qeyri – mütəşəkkillik əmələ gəlir.

Tərbiyəçi uşaqların diqqətini kiçik uşaqların məqsədə yönəldilməsinə cəlb edir.

Rejimin dəqiq yerinə yetirilməsinə səy göstərmək, uşaqlarda mütəşəkkil iş görmək bacarığı tərbiyə etməklə bərabər, eyni zamanda onlara vaxta qənaət etməyi öyrətməlidir. Tələsmək gərginlik əmələ gətirir, uşaqların hələ möhkəmlənməmiş əsəb sisteminə xoşagəlməz təsir göstərir və onları səliqəsizliyə sövq etdirir.

Yeməyin, yuyunmağın, geyinməyin və s. səmərəli təşkilində oyunlar, məşğələlər,gəzinti üçün lazımi qədər vaxt ayırmalıdır. Uşaqlar üçün yorucu, əsəb sisteminin böyük gərginliyinə səbəb olan gözləmələr, növbələr ( yemək, yuyunmaq, gəzintiyə hazırlıq və s. vaxtlarda) bu prosedураları bütün qrupla eyni vaxtda apardıqda əmələ gəlir. Məhz bu cür təşkildə uşaqların həyəcanlanmaları müşahidə edilir, narazılıqlar baş verir, tərbiyəçilər uşaqları intizama cəlb etməyə çalışır. Bəzi hallarda cəza verəcəkləri ilə qorxudurlar.

Əgər uşaq həyatının bütün xırdalıqlarına nüfuz edən, onu çevik, qüvvətli edən, bütün həyatını sevinclə əhatə edən sağlam mühit yaradılarsa rejimin müvəffəqiyyətlə təşkili mümkündür . Bu tərbiyəçinin mütəşəkkilliyindən, çevikliyindən və şən əhval – ruhiyyəsindən, onun səsinin sakit tonundan, möhkəmliyindən, təmkinliyindən asılıdır. J.A. Arkin uşaqları gigiyenaya öyrətmək məqsədilə onları müxtəlif xəstəliklərlə qorxudan və dəhşətləndirən tərbiyəçiləri ədalətli olaraq tənqid edir. Beləliklə, uşaqlarda qorunmaq məcburiyyəti və qorxu əmələ gətirir, yəni elə bir vəziyyət ki, uşaqlarda fiziki qüvvəni azaldır. Məktəbəqədər yaşda tərbiyə nəsihətdir, izahetmələr üzərində yox, uşaqlarda gümrahlıq, gigiyenik qaydalara əməl etməyə səy hissinin , təəssüratların üzərində qurulmalıdır. Odur ki, canlı söz, əyani göstərmə, nümunələr, dostluq köməyi tərbiyənin vasitələrinə xidmət edir.

A.S.Makarenko hesab edirdi ki, dilə tutmaq, izah etmək, gizləmək, rəğbətləndirmək, cəzalandırmaq, güzəştə getmək və möhkəmlik – bunlar hamısı tərbiyənin vacib tərzləridir. Lakin

rejimin təşkilinin başlıca vasitəsi göstərilmişdir. Rejim - "iş qaydasıdır" buna görə də tərbiyəçinin tonu işgüzar, ciddi, sakit, tarazlaşmış, səmimi olması işin həvəslə yerinə yetirilməsinə kömək rdir. Tərbiyəçi qısa və bir dəfə göstəriş verməyi bacarmalıdır. Belə ki, uşaqda göstərişin düzlüyünə və labüd olaraq yerinə yetirilməsinə şübhə doğurmasın. Belə göstərişləri bir yaş – bir yaş yarımda olan uşaqlara vermək olar. Göstərişi acıqlı, qışqırıqla, həyəcanlı vermək lazım deyil, eyni zamanda xahiş kimi də olmamalıdır. Göstəriş uşaqların qüvvəsinə görə olmaqla böyük gərginlik tələb etməməli, düşünülmüş olmaqla başqa göstərişlərlə qarışdırılmamalıdır. Uşaq tərəfindən göstərişin yerinə yetirilməsini böyük hissəsi his edilmədən, bəzən isə açıq yoxlanmalı və nəzarət edilməlidir. Göztərişlərin yerinə yetirilməməsinə imkan vermək olmaz, belə ki, uşaqda qulaq asmama, rejimi pozmaq kimi mənfi təcrübə toplanmasın, cəzaya qaçmaq lazım olmasın.Əgər uşaq göstərişi yerinə yetirməmişsə onu daha rəsmi, soyuq tonla təkrar etmək lazımdır (" tez ol düzəlt") , uşağı qoyulmuş rejimə alışdırmaq çox vaxt hövsələ tələb edir. Nəticə ləngidiyində aşkar edilməlidir.

Rejimin təşkilində mürəkkəblik ondan ibarətdir ki, bunun aparılmasında uşaqların fərdi xüsusiyyətləri nəzərə alınmalıdır ( səhər yeməyinin müddəti 20 dəqiqədir, ancaq bəzən uşaqlar çox yavaş yeyir). Rejim möhkəm olmaqla həm də oynaq olmalıdır. Uşaqların fərdi xüsusiyyətlərinin, onların maraqları ( gəzintidən qayıtmaq vaxtıdır, uşaq isə qumdan tikintisini qurtarmaq üzrədir) nəzərə alınmalıdır.

Uşaq bağçasının rejimi ailənin rejimi ilə sıx əlaqədardır. Tələblərin və qaydaların xarakterinin müxtəlifliyi uşağın əsəb sisteminin artıq oyanmasına və zəruri adət və vərdişlərin formalaşmasının ləngiməsinə səbəb olur. Tərbiyəçilər rejimin ailədə necə yerinə yetirildiyini müşahidə edir, onun əhəmiyyətini valideynlərə izah edir. Valideynlər üçün mühazirələrdə, söhbətlərdə rejimin elmi əsasları verilir. Valideynlərə rejimin yerinə yetirilməsi üçün zəruri şəraiti yaratmaq haqqında məslə-hət verilir.

Valideynlər uşaq müəssisələrində qoyulmuş rejimlə tanış edilir, onu ailə rejimi ilə necə uyğunlaşdırmaq haqqında məsləhət alırlar.

Məişət proseslərinin səmərələşdirilməsinə xüsusi diqqət verilməlidir. Bu yuyunmaq, geyinmək, yemək və s. üçün düzgün şəraitin təşkilini tələb edir. Bütün tələblər elə düşünülmüş olmalıdır ki, uşaq zəruri prosedurаları müstəqil, rahat, gözləmədən yerinə yetirə bilsin. Uşaqların səhər gimnastikasında xüsusi geyimlərin geyindirilməsinə ehtiyac yoxdur. Ginastika yüngül paltarda da aparıla bilər. Möhkəmləndirici tədbirlərin yuxudan qabaq və sonra aparılması məqsədəmüvafiqdir.

Gün ərzində hərəkətli oyunlara, idman məşğələlərinə uşağın hərəkət fəallığının yüksəlməsinə çox vaxt verilməlidir.

Uşaq bağçasının rejimində uşaqların gəzintisi əsas yer tutur. Əgər bu gəzintilər məzmunlu və maraqlıdırsa, uşağın müxtəlif fəaliyyəti üçün şərait yaradılırsa, onun sağlamlaşdırıcı təsiri qüvvətlənir.

**Gəzinti** - Hər gün havanın vəziyyətindən asılı olmayaraq uşaqlar təmiz havada olmalıdır.

Uşaq müəssisələrində körpə yaşlıları gəzintiyə aparmaq çətindir. Onların yuxusunu açıq havada təşkil etmək xüsusilə əhəmiyyətlidir. Əlverişli olmayan havada uşaqlar çardaq altında oynayırlar. Təmiz havanın uşaqlara yaxşı təsiri məzmunlu gəzintilərlə, maraqlı oyunlarla, sərbəst hərəkətlərlə, vəsaitlərlə təmin edilən mümarisələrlə, təbiəti və yaşlıların əməyini müşahidə etməklə, uşaqların özlərinin əməklə və quraşdırma ilə məşğul olmaları ilə bağlıdır.

Tərbiyəçi gəzintinin təşkilini, məzmununu və metodikasını dəqiq nəzərə almalıdır.

Gəzintinin proqramına oyunlar, əmək fəaliyyəti, idman əyləncələri, uşaqların ətrafdakılarla tanışlığı daxildir.

Müxtəlif fəaliyyətin təşkili üçün uşaq bağçasının yaşıllaşdırılmış, düzgün planlaşdırılmış pedaqoji tələblərə və havanın mövsümlə əlaqədar dəyişilməsinə uyğun olan avadanlıqlarla təchiz edilmiş sahə olmalıdır.

Yayda uşaq gəzməyə çıxana yaxın, həmin sahə süpürülməli və sulanmalı, qışda isə qardan təmizlənməlidir. Sahənin qaydaya salınmasında, onun qardan təmizlənməsində və bəzədilməsində uşaqlar da iştirak etməlidir. Bu cür fəaliyyət prosesində onlar sadə əmək bacarığına yiyələnirlər, uşaqların gücləri çatan əməkdə iştirakı, gəzintiyə olan maraqları artır.

Gəzintidə mütəhərrik oyunlar böyük yer tutur. Onların tematikası mövsümün xüsuiyyətləri ilə əlaqədardır.

Hava şəraitini və temperaturunu da nəzərə almaq lazımdır: soyuq günlərdə oyun və məşğələlər daha hərəkətli xarakterdə, isti günlərə isə sakit olmalıdır ki, uşaqlar həddən artıq istilənməsinlər.

Gəzinti meydandan kənarda təşkil edilir. Uşaqların gedəcəyi məsafə tədricən artırılır. Gəzinti zamanı tərbiyəçi yaşlıların əməyini müşahidə etdirir. Uşaqlar gəzintidən sonra nahar edirlər, sonra gündüz yuxusu təşkil edilir.

İ. P. Pavlovun təliminə görə "yuxu mühafizəedici tormozlanmadır" – sinir sistemini yorulub əldən düşməkdən qoruyur, baş beyin qabığı hüceyrələrinin iş qabiliyyətini bərpa edir. Açıq havada yatmaq üçün paltar – pambıq kisələr və kombinezonlar kifayət qədər isti, lakin yüngül və rahat olmalı, hər bir uşağın boyuna uyğun gəlməlidir.

**Uşaq orqanizminin möhkəmləndirilməsində təbii amillərdən istifadə.** Uşaq orqanizminin möhkəmləndirilməsi dedikdə, bu orqanizmin möhkəmləndirilməsinə, dözümlülüyü, zərərli təsirlərə qarşı müqavimətlərin artırılmasına, həyat şəraitində müxtəlif dəyişikliklərə tez uyğunlaşmaq qabiliyyətinin inkişafına yönəldilmiş tədbirlər sistemi başa düşülür.

Orqanizmin dəyişən şəraitə uyğunlaşma prosesi mürəkkəbdir, bu prosesdə bir sıra sistemlər: sinir, ürək – damar, daxili sekresiya vəzləri və s. iştirak edir.

Orqanizmin dəyişən iqlim şəraitinə alışması haqqında çoxdan məlum olan faktın fizioloji cəhətdən əsaslandırılması akademik İ.P.Pavlov və onun şagirdləri tərəfindən işlənib hazırlanmışdır.

Əgər təsir (soyuq, isti) dəfələrlə təkrar olunursa, orqanizmin xarici şəraitdəki dəyişikliklərə reaksiyaları dəqiq və sürətli olur.

Möhkəmlətmənin əsas prinsipi müntəzəmlik, tədricilik və uşaqların fərdi xüsusiyyətlərini nəzərə almaqdır.

Müntəzəmlik bu və ya digər möhkəmlətmə metodu üçün qoşdırılmış qaydalara ciddi riayət etməkdən və tətbiq edilən tədbirlərin təkrarından ibarətdir. Bu əmələ gələn şərti refleksləri möhləmlətməyə, onları davamlı etməyə imkan verir.

Möhkəmləndirmə tədbirlərinin aparılmasında uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması əhəmiyyətlidir. Soyuğa, istiyə, küləyə, nəmliyə həssaslıq bəzi uşaqlarda müxtəlif cür müşahidə olunur. Temperaturun dəyişməsinə yüksək həssaslıq göstərən uşaqlara xüsusi diqqət verilməlidir. Həkimlə məsləhətləşərək paltarlarını ehtiyatla yüngülləşdirməli, duş qəbulunu, bədəni silməklə, günəş vannasını hava vannası ilə əvəz olunmalı və fərdi tədbir qaydasını müəyyən etməlidir. Həmçinin uşağın sağlamlıq vəziyyətini, onun əsəb sisteminin xüsusiyyətlərini nəzərə almaq lazımdır.

Möhkəmləndirici prosedurlar fiziki tərbiyənin əhəmiyyətli cəhətlərini təşkil edir. Möhkəmləndirmənin mahiyyəti orqanizmin mühitə uyğunlaşdırılmasını yaxşılaşdırmaq üçün şərti reflekslərin təmrin yolu ilə təkmilləşdirilməsidir. Möhkəmləndirmənin vəzifələrinə yalnız xarici mühit şəraitinin yaxşılaşdırılması, uşaq orqanizminə zərərli təsir göstərən faktorların kənar edilməsi daxil deyil, eyni zamanda orqanizmin özünü də təkmilləşdirmə, uşaqlarda hələ lazımi qədər inkişaf etməmiş, ona uyğun olan mexanizmin fəaliyyətini yüksəltmək də lazımdır. Möhkəmləndirici tədbirlərin sayəsində uşağın orqanizmində ətraf mühitin təsirinə uyğunlaşmağa imkan verən müəyyən reaksiyalar əmələ gəlir. Belə reaksiyaların formalaşmasında baş beyin qabığı böyük rol oynayır.

Orqanizmin mühitlə müvazinətinə yönəldilən uyğunlaşdırılmış mexanizm içərisində termorequlyasiya (yəni xarici mühit temperaturunun dəyişməsindən asılı olmayaraq orqanizmin bədən temperaturunu müəyyən səviyyədə saxlamaq qabiliyyəti) böyük

rol oynayır. Temperaturun əmələ gəlməsi maddələr mübadiləsi ilə əlaqədar olaraq orqanizmdə gedən kimyəvi reaksiyaların nəticəsidir. İstiliyin əmələ gəlməsi ilə yanaşı, onun ətrafa verilməsi prosesi də baş verir. Bu proses əsasən dərinin üst səthi ilə yerinə yetirilir.

İstiliyi tənzim edən aparat uşaq həyatının üçüncü, dördüncü ilində əmələ gəlir, 3 yaşdan sonra uşaqlarda istiliyin tənzim edilməsi yaşlı adamlarda da istiliyin tənzim edilməsindən fərqlənir. Buna baxmayaraq məktəbəqədər yaşlı uşaqlarda bədənin temperaturunu qeyri - sabit saxlamaq meyli hələ davam edir.

Möhkəmləndirmə prosesində orqanizmin soymaması üçün istiliyi saxlamağı təmin edən damar reaksiyası əmələ gəlməlidir. Bununla bərabər müntəzəm və plana uyğun soyuma istilik hasil etməyin intensivliyini dəyişdirən reflekslərin əmələ gəlməsinə kömək edir, yəni möhkəmləndirmə prosesində soyuğa qarşı daha təkmilləşdirilmiş temperatur adaptasiyası əmələ gəlməlidir ki, orqanizm əlverişli olmayan mühit şəraitinə düşdükdə istiliyi saxlaya bilsin. Bununla temperatur adaptasiyası reaksiyanın yüksəlməsi və ya zəifləməsi deyil, o temperaturu tənzim edən mexanizmin təkmilləşdirilməsi prosesidir.

Günəş, hava, su vasitəsilə uşağın orqanizminin möhkəmləndirilməsinin əsasında şərti reflekslərin əmələ gəlməsi prosesi durur, odur ki, təkrar və müntəzəm qıcıqlandırıcılar, onların gücünün tədricən artması, istiliyi tənzim edən mürəkkəb mexanizmi və başqa fizioloji sistemin əmələ gəlməsinə kömək edir. Onda orqanizmin əlverişli olmayan xarici mühit şəraitinə uyğunlaşmasını asanlaşdıran möhkəm şərti reflekslər əmələ gəlir.

**Möhkəmləndirmə.** Orqanizmin həyat fəaliyyətinin bütün proseslərini yaxşılaşdırır. Bu uşağın körpə yaşından başlanmalı, uşağın fərdi xüsusiyyətini nəzərə almaqla fasiləsiz və müntəzəm aparılmalıdır.

Uşaq orqanizminin möhkəmləndirilməsi ilə yanaşı hər gün hava rejimindən ( binada hava temperaturu), uşaq olan havanın müntəzəm dəyişdirilməsindən, gündəlik gəzintidən, açıq ha-

yada yuxunu təşkil etməkdən, su prosedurаları və uyğun geyimdən də güzgün istifadə edilməlidir.

Möhkəmləndirməyə hər şeydən əvvəl möhkəmləndirmə metodu üçün işlədilən, həmçinin tətbiq olunan tədbirlərin qaydalarının ciddi gözlənilməsini əhatə edən müntəzəmlilik lazımdır. Bu, əmələ gəlmiş şərti refleksi möhkəmləndirməyə, onları davamlı etməyə imkan verir. Lakin tədbirlərin miqdarının tədricən yüksəldilməsi də çox əhəmiyyətlidir. Bədən üzərindən su axıtma və nəm dəsmalla silmə suyun temperaturunun tədricən aşağı salınması, günəş vannalarının qəbul müddətinin tədricən yüksəlməsi və s. Bu qayadalar yalnız möhkəmləndirmənin xüsusi vasitələrindən yox, uşağın gündəlik həyatında da tətbiq olunmalıdır. Məsələn, havalar istiləndikcə paltarların tədricən yüngülləşdirilməsi lazım gəlir, buna adət etdikdən sonra uşağı daha soyuq günlərdə yüngül paltarda saxlamaq olar.

Möhkəmlətməni uşaqların gündəlik həyatında və xüsusi tədbirlər yolu ilə ( su, hava, günəş prosedurları) aparmaq lazımdır.

Möhkəmlətmə sistemi təbii amillərdən istifadə etməyin müxtəlif üsullarını nəzərdə tutur.Uşaqlara tətbiq edilən bütün möhkəmlətmə üsulları dozaların tədricən artırılması üzərində, bədəni yaş əski ilə sürtəndə və ya su ilə yuyunanda suyun temperaturunun tədrucən azaldılması, günəş vannası qəbul edilməsi müddətinin tədricən artırılması üzərində qurulmuşdur.

Hava vannasını isti günlərdə, günəş buludlar arasında gizlənən zaman, sakit halda və ya hərəkətdə qəbul etmək olar. Birinci halda uşağı kölgədə qoyulmuş çarpayıda uzandırırlar. Hava vannasının hərəkət zamanı qəbul edilməsinin uşaq orqanizminin möhkəmlənməsi üçün böyük əhəmiyyəti vardır. Yay vaxtı bunu vannanın temperaturundan asılı olmayaraq keçirmək lazımdır. Hava vannası qəbul etmək üçün quru, küləkdən mühafizə edilmiş, hamar meydançası olan yer seçilir. Tərbiyəçi yüngül paltar geyinmiş uşaqlarla 10– 15 dəqiqə ərzində mütəhərrik oyunlar və məşqlər aparır. Hava vannasının müddəti tədricən 10 – 15 dəqiqədən 25 dəqiqəyə kimi artırılır.

Sərin havada daha çox hərəkətli oyun və məşğələlər verilir. Onlar, uşaqlarda yorğunluq əmələ gətirməmək üçün, sakit oyunlarla növbələşdirilir.

Hərəkət edərkən hava vannasını yalnız yayda deyil, həm də payız, qış dövründə geniş otaqda və ya pəncərəni açmaqla aparmaq olar.

Hava vannasını gündüz yuxusundan sonra və ya səhər, gimnastika ilə əlaqələndirməklə, ancaq həmişə müəyyən vaxtda qəbul etmək lazımdır.

Su prosedurları bədəni yaş dəsmalla sürtmək, bədənə su axıtmaq və çimmək şəklində tətbiq edilir.

Bədəni yaş dəsmalla s ü r t m ə k - bütün su prosedurlarından ən zəifidir və bundan bütün yaşlarda olan uşaqlar üçün istifadə edilə bilər. Adətən sürtməni əllərdən başlayırlar, sonra boyunu, sinəni,qarını, daha sonra kürək və ayaqları silirlər.Əvvəl suyun temperaturu $30^0$ C götürülür və tədricən $22^0$ – $20^0$ C qədər aşağı salınır.

Tərbiyəçinin təcrübəsi böyük qruplardakı uşaqların müstəqil olaraq bədənlərini yaş dəsmalla sürtməyə alışdırmağın mümkünlüyünü və məqsədəuyğunluğunu sübut edir. Bu zaman uşaqlar bir-birilərinin kürəklərini sürtə bilərlər.

Bədənə su axıtma duş və ya susəpən vasitəsi ilə aparılır. Bu zaman dəri səthinin böyük bir hissəsi eyni zamanda suyun təsirinə məruz qalır, ona görə də həmin prosedura orqanizmə daha qüvvətli təsir göstərir.

Bədənə su axıntı zamanı suyun töküldüyü yüksəklik 40 – 50 sm-dən çox olmamalıdır. Ona fikir vermək lazımdır ki, su birdən – birə bədənin mümkün qədər böyük hissəsini əhatə etsin: su kürəyə tökülür, sonra uşaq çevrilərək sinəsini və qarnını, sonra sağ və sol böyrünü su şırnağının altına tutur. Başı su şırnağının altına tutmaq məsləhət görülmür, ancaq yay vaxtı başı yüngülcə islatmaq xoşagələn və faydalıdır. Sonra uşağı quru dəsmalla silmək və geyindirmək lazımdır. Su şırnağı altında qalmaq müddəti 20 – 40 saniyədir.

Bədənə su axıtma və bədəni yaş dəsmalla silmə zamanı suyun temperaturunun aşağı salınması tədriclə gedir, temperatur yay vaxtı 30 – dan 20- $18^0$ – yə kimi təxminən hər üç gündə $1^0$ azalır; qışda suyun temperaturu yavaş – yavaş azaldılır (4 – 6 gündən sonra) bütün bədənə su axıdılması zamanı ən yüksək temperatur $35^0$, qismən su axıtma (ayaqlara) zamanı otaq temperaturu olmalıdır.

Suyun, havanın və günəş şüasının orqanizmə eyni zamanda təsiri sayəsində təbii su olan yerlərdə (çay, dəniz) çimməyin möhkəmlənmə üçün xüsusi əhəmiyyəti vardır. Çimmək üçün dərin olmayan, sakit axınlı, dibi düz olan yer seçmək lazımdır (həmin yer çimməzdən əvvəl diqqətlə yoxlanılmalıdır). Uşaqların oynaduqları sahilin təmiz, quru olması mühümdür, yaxşı olar ki, orada paltarlar üçün skamyalar düzəldilsin.

Ən güclü su proseduru olmaq etibarı ilə çimmək orqanizmin qabaqcadan hazırlığını tələb edir. Buna ancaq uşaqların dərisi soyuqluğa öyrəndikdən sonra başlamaq olar.

Çimməyə isti hava şəraiti zamanı, suyun temperaturu $22^0$C-dən aşağı olmadıqda başlamaq olar. Sonralar suyun temperaturu daha aşağı ($20^0$ – $18^0$ ) olduqda da çimmək olar. İsti havada çimmə müddətini tədricən 5 – 8 dəqiqəyə qədər artırmaq olar. Sərin günlərdə çimmə müddətini azaltmaq, lakin mümkün qədər çimməni kəsməmək lazımdır ( iki – üç dəfə baş vurmaq kifayətdir). Uşaqlar gündə bir dəfədən çox çimməməlidirlər.

Çimmə zamanı tərbiyəçiyə köməkçi lazımdır. Uşaqları kiçik qruplara (beş – altı nəfərdən çox olmayaraq) bölmək lazımdır. Tərbiyəçi əvvəlcədən çimmə qaydasını müəyyən edir. Fikir vermək lazımdır ki, uşaqlar hərəkətdə olsunlar və onlara soyuq olmasın. Əgər uşaq ağarırsa və onun dodaqları göy rəng alırsa, çimmə dayandırılır. Tərbiyəçi və onun köməkçisi uşaqları dəsmalla qurulayır, belə ki, hətta böyük qrupların uşaqları belə, bunun öhdəsindən yaxşı gəlmirlər. Çimmədən sonra geyinən uşaqların bir qədər yüyürməsi və atılıb düşməsi, sonra isə sakit oynaması faydalıdır.

Əsas vəzifə uşaqları gündəlik həyatda möhkəmlənmə elementlərinə: nəfəsliyi, xəfəngi və ya pəncərəsi açıq otaqda oyun və məşğələlərə, sərin su ilə yuyunmağa, yüngül geyinməyə, gündəlik gəzintiyə alışdırmaqdan ibarətdir.

Möhkəmlətmənin hər hansı yeni üsuluna başlamazdan əvvəl tərbiyəçi nə edəcəklərini, bunun üçün nə lazım olduğunu, bunu daha rahat və daha yaxşı necə yerinə yetirməyi uşaqlara izah edir. Tərbiyəçi uşaqlarda möhkəm olmaq arzusu yaradır: onlara şimaldakı adamların həyatından, bizim idmançıların mətanətliyindən danışır.

**Hərəkətlərin inkişafı.**A.V.Zaporojetsin, V.Q.Levi – Qodinevskayanın və başqalarının tədqiqatları göstərmişdir ki, hərəkət uşağın ətraf aləmlə tanış olmasına, onun fəal qavranılmasına kömək edir (А.В.Запорожец Развитие произвольных движений. М., АПН РСФСР, 1960. Е.Г.Леви – Гориневская. Развитие основных движений у детей дошкольного возраста. М., АПН РСФСР, 1955. М.Ю.Кистяковская. Развитие движений детей первого года жизни. В. Кн. «Педагогика» М. 1970). Hərəkət uşağın quraşdırma və təsviri fəaliyyətinin əsasıdır. Hərəkətin mənimsəmə prosesi məqsədə yönəlmənin, təmkinliliyin inkişafına kömək edən vasitələrdən biridir. Hərəkətlərin anadangəlmə olmayan böyük hissəsi təlim nəticəsində inkişaf edir və təkmilləşir.

Məqsədə yönəlmiş təlim hərəkətin uşaqlar tərəfindən düzgün mənimsənilməsi vasitəsidir. Bu, uşaqların mürəkkəb hərəkətləri mənimsəməsində əhəmiyyətlidir.

Təlim uşaqların hərəkətləri mənimsəməsini ləngidir. Təkrar oyanma prosesi sayəsində baş beyin qabığında oyanmalar tədricən bir mərkəz ətrafında toplanır, lazımsız, gərgin hərəkətlər yox olur. Onlar sərbəst və bir – birinə uyğunlaşdırılır.

**Səmərəli qida.**Uşağın fiziki inkişafının mühüm vasitəsidir. Qida nəinki orqanizmin əsas həyat posesləri üçün enerji mənbəyidir, həm də yeni hücyrə və toxumaların inkişafı üçün plastik

...maldır. Keyfiyyətli qida orqanizmin normal inkişafını təmin edir.

a) q i d a n ı n  k i f a y ə t  q ə d ə r  k a l o r i l i y i.

Uşaq yeməyinin sutkalıq kaloriliyi 1800 – 2000 kaloridir.

b) y e m ə y i n  d ü z g ü n  k i m y ə v i  t ə r k i b i.

Yeməyin tərkibində kifayət miqdarda zülallar, yağlar, karbohidratlar, mineral duzlar, vitaminlər və su olmalıdır.

c) q i d a n ı n  m ü x t ə l i f l i y i.

Menyu tərtib edərkən qidanın kaloriliyi və kimyəvi tərkibinin müəyyən edilmiş normalarına uyğun olaraq qida maddələrinin bir bərabərdə bölüşdürülməsinə riayət etmək, tərəvəz, süd xörəklərindən istifadə etmək, menyuya çiy tərəvəz, meyvə və şirələrlə zəngin olan vitaminlər, yay vaxtı isə müxtəlig göyərtilər daxil etmək lazımdır.

d) q i d a  m ə h s u l l a r ı n d a n  y e m ə y i n  d ü z g ü n  h a z ı r l a n m a s ı.

Bu həzm aparatının işini yüngülləşdirir ərazağın çox mühüm keyfiyyətlərini saxlayır, xörəyə xoşagələn zahiri görkəm və dad keyfiyyətləri verir ki, bu da uşağın iştahasına və qidanın mənimsənilməsinə böyük təsir göstərir.

e) q i d a l a n m a  r e j i m i n ə  ə m ə l  o l u n m a s ı.

Yemək arasında normal fasilə şəritində, həzm mərkəzinin fəaliyyəti yüksəlir,

bu iştahanın oyanmasına və həzm sisteminin ifrazına səbəb olur.

Fizioloqlar müəyyən etmişlər ki, uşaqlar 3 yaşından 6 yaşına kimi 3,5 – 4 saat fasilə ilə 4 dəfə qida qəbul etməlidirlər.

Gün ərzində uçaqların qidalanması aşagıdakı kimi bölüşdürülür: kaloriliyi sutkalıq normanın təxminən 25 %- ni təşkil edən səhər yeməyi, kaloriliyi sutkalıq rasionun 35 – 40 %- nə yaxın olan nahar, kaloriliyi sutkalıq normanın 10 – 15 % - ni təşkil edən axşamqabağı yeməyi, kaloriliyi sutkalıq normanın 25 %- ni təşkil edən axşam yeməyi.

f) y e m ə k  p r o s e s i n i n  d ü z g ü n  t ə ş k i l i.

Uşaqların qidanın normal mənimsəməsi üçün yemək zamanı sakit şərait yaradılması, uşaqların bir - birinə mane olmadan oturması olduqca mühümdür. Stol menyuya uyğun açılır. Qab – qacağın ölçüləri uşaqların yaşına uyğun olmalıdır: böyük olmayan boşqablar, fincanlar, çəngəllər, bıçaqlar (böyük qruplar üçün) desert və çay qaşıqları.

Uşağın sonrakı yeməyi çox gözləməsinə yol verilməməlidir. Tərbyəçilər pis iştahası olan uşaqlara xüsusi fikir verməlidirlər. Hər şeydən əvvəl iştahanın aşağı düşməsinin səbəbini müəyyən etməyə çalışmaq lazımdır. Uşağın səhhətinin vəziyyəti və ya evdə yemək rejiminin pozulması buna səbəb ola bilər. Bundan asılı olaraq lazımi tədbirlər görmək, uşağı həkimə göstərmək, təyin olunmuş müalicə kursunu keçirmək, ailədə yemək rejiminin necə olmasını aydınlaşdırmaq, əgər tələb olunarsa valideyni inandırmaq lazımdır.

**Mədəni – gigiyenik adət və vərdişlərin tərbiyəsi.** Mədəni – gigiyenik vərdişlər uşaq orqanizminin fiziki inkişafında mühüm vasitədir. İlk yaşlardan uşaqlarda gigiyenanın sadə tələblərini yerinə yetirmək bacarığını tərbiyə etmək, onlarda təmizliyə və səliqəliliyə tələbat (səliqə ilə yemək, təmiz yuyunmaq, paltarların səliqəliliyinə diqqət vermək) yaratmaq lazımdır.

Mədəni - gigiyenik vərdişlərin tərbiyəsi uşağın davranış mədəniyyətini yüksəldir. Adət və vərdişə yiyələnmək ilk vaxtlarda uşaqlardan ümumi gərginlik və çoxlu artıq hərəkətlərlə müşayiət edilən mərkəzləşmiş diqqət tələb edir. Gigiyenik adətlər vərişlərin formalaşmasına böyük təsir göstərir. Uşaqlar əllərini düzgün yumağa, ətrafdakı səliqəsizliyi aradan qaldırmağa da səy göstərirlər.

Məlum olduğu kimi uşağın sinir sistemi böyük plastikliyi ilə fərqlənir. Ona görə də uşaq nə qədər kiçik olarsa, onda sağlamlıq üçün lazım olan adət və vərdişləri yaratmaq və möhkəmləndirmək bir o qədər asan olar.

Uşaq həyatınn birinci 3 ilində bir sıra elementar bacarıqları; sağ əllə səliqəli yeməyi, qaşığı düzgün tutmağı, salfetdən istifadə etməyi, yoldaşlarına mane olmamağı, süfrə arxasından durarkən

təşəkkür etməyi bacarırlar. Uşaqlar ayaqqabılarını, paltarlartını geyinməyi və soyunmağı, dəsmaldan istifadə etməyi, paltarındakı səliqəsizliyi görməyi, böyüklərdən onu aradan qaldırmağı xahiş etməyi öyrənirlər. Lakin bu bacarıqlar hələ sabit deyildir.

İ z a h a t v ə g ö s t ə r m ə fərdi və kollektiv olur. Uşaqların diqqətini yeməkdən yayındırmamaq və sakit şəraiti pozmamaq üçün, fərdi izahat və göstər-mədən istifadə rdilir.

Kiçik qruplarda uşaqların böyüklərin yardımına daha çox ehtiyacları vardır. Uşaqların kiçik əzələlərinin və hərəkətlərinin əlaqələndirilməsinin kifayət qədər inkişaf etməməsi, onlar üçün müstəqil olaraq ayaqqabının bağını bağlamağı, düymələri düyмələməyi çətinləşdirir. Ona görə də tərbiyəçi izah və göstərmə ilə də məhdudlaşmır, uşağa bilavasitə kömək edir. Böyük qruplarda istər uşağın hərəkətinin keyfiyyətini istərsə də tempini qiymətləndirmək lazımdır.

Böyük qrup uşaqlarının tez və səliqə ilə hərəkət etmələrinə baxmayaraq tərbiyəçinin onlara nəzarəti azalmamalıdır.

Uşaqlarda elementar özünü yoxlama adəti tərbiyə etmək də faydalıdır. Hətta 3 yaşlı uşaqlara vaxtaşırı təklif etmək olar ki, onlar paltarlarının, saçlarının yaxşı daranıb – daranmadığını, yaxalıqlarının əzilib - əzilmədiyini bilmək üçün güzgüyə baxsınlar. Böyük qrup uşaqlarını belə özünüyoxlamaya gündə bir neçə dəfə ( məşğələdən əvvəl, yatmaqdan və gəzintidən sonra) cəlb etmək lazımdır. Tərbiyəçi uşaqlara öyrədir ki, yoldaşlarının paltarlarındakı nöqsanları gördükdə göstərsinlər, lazım gəldikdə isə onları düzəltməyə kömək etsinlər.

Gigiyenik adət və vərdişlər uşaqlar tərəfindən mexaniki surətdə mənimsənilməməlidir. Tərbiyəçi bunların sağlamlıq üçün əhəmiyyətini uşaqların başa düşəcəkləri şəkildə izah edir.

Mədəni – gigiyenik vərdişlərin tərbiyə edilməsində tərbiyəçinin özünün nümunə olması ən mühüm şərtdir. Tərbiyəçinin xarici görkəmi ( səliqəli, təmiz geyimi, silinmiş ayaqqabıları, təmiz cib dəsmalı) otağın təmizliyinə və səliqəli olmasına, ətrafdakı əşyalara qayğı ilə yanaşması – bütün bunlar uşaqlara qüvvətli təsir göstərir.

Uşaq bağçasında verilən tələblərin ailədə mühafizə edilməsi son dərəcə vacibdir. Ancaq bu halda uşaqlarda sabit adət yaranmaq olar.

Uşaqların hərəkətlərinin təkmilləşməsində, inkişafında, gimnastika və mütəhərrik oyunlar əsas vasitədir. Gimnastika və mütəhərrik oyunlar orqanizmə böyük təsir göstərir, sümüklırin böyüməsinə, əzələlərin möhkəmlənməsinə kömək edir, daxili orqanların işini qüvvətləndirir. Uşaqlarda sevinc və gümrahlıq hissi yaradır. Uşaqlar həyat üçün zəruri olan əsas hərəkətlərə yiyələnir, daha çevik, cəsur, dözümlü olurlar. Hərəkətlər uşağın hərtərəfli inkişafı üçün böyük əhəmiyyətə malikdir və ona həyatı dərk etməkdə kömək edir.

Hər yaş qrupu üçün hərəkətləri inkişaf etdirmək məqsədi ilə məşğələlərin həcmi və məzmunu uşaq bağçasının proqramında verilmişdir. Bu proqramdan istafadə edərkən, həmin dövrdə uşaqların hərəkətlərinin inkişaf səviyyəsi və fərdi xüsusiy-yətləri nəzərə alınır.

Uşaqların orqanizminin möhkəmləndirilməsində *mütəhərrik oyunların* böyük əhəmiyyəti vardır.

Tərbiyəçi, oyunları seçərkın uşaqların *yaş xüsusiyyətini* nəzərə alır.

Kiçik qrup uşaqları üçün sujetsiz oyunlar seçilir. Kiçik uşaqların mütəhərrik oyunlardakı hərəkətləri başlıca olaraq yeriş, qaçış və yürüşdən ibarətdir. Orta qrupun uşaqları üçün də sadə qaydaları olan oyunlar seçilməlidir. Bu qruplar üçün olan oyunlarda hərəkətlər xeyli mürəkkəbləşir.

Uşaqların yaş imkanlarını nəzərə alaraq, onlara eyni zamanda müxtəlif hərəkətli və ya da bir oyunda hərəkətin iki növünü yerinə yetirməyi tapşırmaq olar (qaçmaq və tullanmaq). *Yarış elementləri olan oyunlar* uşaqların çox xoşuna gəlir ( məsələn, “ Bayrağa kim tez çatar”) . Lakin bu yaşda yarış əsasən qrup xarakteri deyil, fərdi xarakter daşıyır.

Böyük qrupdakı uşaqlar üçün oyunlar daha müxtəlif süjet əsasında qurulur və buraya demək olar ki, bütün əsas hərəkətlər daxil edilir. Bir oyunda rolların sayı artır. Müxtəlif hərəkətli çoxlu

süjetsiz oyunlar keçirilir. O, cümlədən " Qaçdı-tutdu", " Bayrağı dəyişdir" və s. kollektiv məsuliyyət elementləri olan oyunlar ( məsələn " Kimin dəstəsi tez toplanar?" ) təşkil edilir.

Böyük qrupdakı uşaqların oyunlarına cəldlik tələb edən, daha mürəkkəb və müxtəlif hərəkətlər daxil edilir.

Böyük qruplarda öz hərəkətlərinə inam, müxtəlif şəraitdə hərəkət adətlərindən istifadə etmək bacarığı: ( gəzinti zamanı maneənin üstündən tullanmaq və ya aşıb keçmək, lazım gələrsə, yerişi və qaçmağı sürətləndirmək, yaxud yavaşıtmaq, hər hansı bir şeyi tullamaq) tərbiyə edilir.

Bütün qruplarda oyun seçərkən, uşaqın yalnız yaşını deyil, fiziki inkişafını, fərdi xüsusiyyətlərini, səhhətini nəzərə almaq lazımdır. Mütəhərrik oyunlar bütün qruplarda hər gəzinti zamanı aparılır. Hər qrupda həcmcə kiçik, məzmun və xarakterinə görə müxtəlif olan oyun repertuarı olmalıdır. Bu müxtəliflik uşaqlar üçün maraqlı olur və onun hərtərəfli inkişafına kömək edir. Mütəhərrik oyunlar tədricən mürəkkəbləşdirilir.

Uşaqlara düzgün hərəkətlərin öyrədilməsi idman və hərəkətli oyunlar məşğələlərdə aparılır.

Tərbiyəçi məşğələ apararkən hərəkətləri planauyğun və ardıcıl öyrədir, məşq etdirməklə möhkəmləndirir. Tərbiyəçi məşğələlərdə bütün uşaqları birləşdirir, hamı üçün ümumi olan tempdə hərəkət etməyi öyrədir.

Məşğələlərin əvvəlində uşaqların diqqətini səfərbərliyə alır. Kollektivi təşkil etmək üçün tərbiyəci uşaqlara çətin olmayan məşq verir. Məsələn, "Özünə yoldaş tap", "Kimin manqası tez toplanar". Bu zaman yarış uzun sürməyən qaçışla əvəz edilə bilər.

Bundan sonra tərbiyəçi əsas hərəkətlər üzrə (yüyürmək, tullanmaq, hoppanmaq, dırmanmaq və maneə altından keçmək) məşqlər, ümumi inkişafetdirici idman kompleksləri verir.

Uşaqlara hərəkətləru düzgün öyrətmək üçün tərbiyəçinin göstərişi əsasdır.

Tərbiyəçi məşğələ apararkən bu və ya başqa təmrinin necə yerinə yetirilməsini uşaqlara göstərir və onların başa düşəcəyi şəkildə qısaca izahat verir.

Qoyulan vəzifələrdən, qrupun tərkibində və ətrafdakı şəraitdən asılı olaraq tərbiyəçi üsulları dəyişir.

Uşaqlara hərəkətləri öyrədərkən vəsaitlərdən – gimnastika ağaclarından, çənbərlərdən, topdan, qaytandan, bayraqcıqdan istifadə etmək lazımdır. Əşya ilə məşq edərkən uşaq daha dəqiq hərəkət edir, tərbiyəçinin tapşırığını maraqla yerinə yetirir. Əgər tərbiyəçi uşaqlara "Əlləri yuxarı qaldırmağı" təklif edirsə, nə yuxarı qaldırılmış əllərin arasındakı məsafə, nə də onların qaldırdığı yüksəklik onlara məlum olmur. Hərəkətlərin xarakterinə görə oxşar olan, lakin daha konkret tapşırıq – "Çənbəri başının üstünə qaldır" tapşırığı alarkən uşaqlar onu daha da dəqiq və böyük maraqla yerinə yetirirlər.

Kiçik uşaqlara hərəkətlərin göstərilməsini, onlara tanış olan obrazlarla əlaqələndirmək məqsədəuyğundur ("Sərçə kimi hoppan").

Uşaqların d ü z g ü n n ə f ə s a l m a s ı n a (burunla) nəfəs saxlamasına (köks qəfəsinə və s. alarkən genişlənir, nəfəs verərkən isə daralır) fikir vermək lazımdır.

Məşğələ zamanı tərbiyəçi uşaqların hərəkətlərinin keyfiyyətini müşahidə etməli, hərəkətlərin düzgün icrası üçün onları tərifləməli, cəsarətsiz və utancaq uşaqları fəallaşdırmalı, nöqsanları düzəltməli, tapşırığın etinasızlıqla yerinə yetirilməsinə yol verməməlidir.

Məşğələləri g ü m r a h t e m p d ə aparmasına tərbiyəçinin səsinin tonu və hərəkətlərin dəqiq göstərilməsi kömək edir.

Artıq fasilələr və uzun – uzadı izahat məşğələnin həm fizio – psixoloji, həm də pedaqoji əhəmiyyətini azaldır.

S ə h ə r g i m n a s t i k a s ı n d a d a , gimnastika məşğələlərində və mütəhərrik oyunlarda da gözlənilən gigiyena qaydalarına əməl edilməlidir. Səhər gimnastikası üçün hərəkətlər xırda və iri əzələlərin müxtəlif qruplarını əhatə etməlidir.

Səhər gimnastikası təxminən aşağıdakı plan üzrə keçirilir. Əvvəl uşaq kollektivini təşkil etmək məqsədi ilə sürətli tempdə

giriş yerişi təklif olunur; əgər hava soyuq isə yerişlə əvəz edilən qaçış tapşırığı verilir.

Giriş hissəsindən sonra uşaqlar dairədə və ya manqada düzülür və onlarla zəif əzələ qruplarını möhkəmləndirmək üçün bir sıra məşğələlər keçirilir; əvvəlcə köks qəfəsinin genişlənməsi, sonra kürək və qarın əzələləri, daha sonra köks qəfəsini genişləndirmək üçün yenidən məşğələ keçirmək və bununla da düzgün tənəffüsü bərqərar etmək olar.

Məşğələlərdə olduğu kimi məşğələnin sonundan da bir – birinin ardınca və ya dağınıq halda yeriş və qaçış keçirilir.

**Uşaqların fiziki tərbiyəsində pedaqoji və tibb işçilərinin birgə işi.** Uşaqların fiziki tərbiyəsi uşaq bağçasının pedaqoji və tibb işçilərinin əlbir işini tələb edir. Həkimin işində uşaqların xəstələnməsinə qarşı mübarizə böyük yer tutur. Müdir və tərbiyəçilər bu mübarizədə fəal iştirak edirlər.

Tibb işçiləri ilə birlikdə tərbiyəçilər yoluxucu xəstəliklərin uşaq bağçasına keçməməsinə fikir verirlər. Uşaqları hər gün səhər tibb bacısı, o olmadıqda isə tərbiyəçilər müayinə edirlər. Hər bir tərbiyəçi yoluxucu uşaq xəstəliklərinin ilkin əlamətləri ilə tanış olmalı, uşaqları müayinə etməyi, onun boğazını, dərisini yoxlamağı, temperaturunu ölçməyi bacarmalıdır. Meydana çıxan infeksiyanın uşaq bağçasında yayılmaması üçün bütün tədbirləri görmək lazımdır. Uşaqların öz əl – üz dəsmallarını, salfetlərini dəyişik salmamalarına bir stəkandan istifadə etməmələrinə və s. ciddi fikir vermək lazımdır.

Uşaq bağçasında nəinki xəstəliklərin meydana çıxması və yayılması ilə mübarizə aparmaq, həm də zəif və xəstəlik keçirən uşaqlara ciddi fikir vermək lazımdır.

Uşaq bağçasında həkimin işi profilaktik və müalicə tədbirləri keçirməklə məhdudlaşmır. Həkim uşağın fiziki inkişafını müşahidə edir. Vaxtaşırı həkim müayinəsi və antropometrik ölçmələr uşaqların fiziki vəziyyətini və onların inkişaf dinamikasını obyektiv surətdə qiymətləndirmək üçün əsas verir.

Yaxşı olar ki, uşaqların ildə 2 – 3 dəfə həkim tərəfindən aparılan traflı müayinəsi tərbiyəçinin iştirakı ilə olsun. Tərbiyəçi

öz növbəsində həkimə uşağın iştahası, yuxusu, əhvalı, kollektivdə davranışı haqqında ətraflı, faydalı məlumatlar verir. Buradaca birlikdə mövcud nöqsanları düzəltmək üçün tərbirlər nəzərdə tutulur.

Həkim rejimin müəyyən edilməsində, uşağa qulluq etmək məsələlərinin müzakirəsində, onların gigiyenik həyat şəraitinin təşkilində bi lavasitə iştirak edir. Həkim və tibb bacısı uşaq bağçasında sanitariya vəziyyətinə nəzarəti həyata keçirir, menyunun təşkil edilməsini və yeməyin keyfiyyətini yoxlayır.

Uşaq orqanizminin möhkəmlənməsi üzrə bütün işlər bilavasitə həkimin rəhbərliyi və nəzarəti altında aparılır. Planda, müdirlə birlikdə hər bir qrup üçün xüsusi möhkəmləndirici tədbirlər nəzərdə tutulur, bəzi uşaqlara fərdi göstərişlər verilir.

Həkim uşaqlarda hərəkətləri inkişaf etdirmək məsələləri üzrə də daimi məsləhətçidir.

Qamətin pis olmasını, yastıpəncəliyi aradan qaldırmaq üçün bəzi uşaqların əlavə məşğələlərə ehtuyacı vardır. Belə hallarda həkimin məsləhəti, onun göstərişləri vacibdir.

Həkim uşaq bağçasındakı bütün işçilər və valideynlər arasında böyük maarifləndirmə işi aparır.

# VIII FƏSİL

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏQLİ TƏRBİYƏSİ

**Əqli tərbiyənin mahiyyəti.** Əqli tərbiyə uşaqların əqli inkişafına yaşlıların sistematik və məqsədyönlü təsirlərinin məcmuudur.

Əqli tərbiyə zamanı uşaqlar planlı şəkildə bəşəriyyətin əldə etdiyi bilik, bacarıq və vərdişlər sisteminə, ictimai – tarixi təcrübəyə tədricən yiyələnirlər. Bu vəzifələr tərbiyəçilər tərəfindən müxtəlif prinsiplər, metod bə təmrin-lərdən istifadə edilərək həyata keçirilir.

Uşaqların əqli inkişafı tərbiyə və təlimin, ətraf aləmin təsiri altında əmələ gəlir.

Əqli inkişaf tərbiyəçinin məqsədyönlü fəaliyyəti əsasında uşaqların yaş xüsusiyyətlərini nəzərə alaraq onların düşünmə qabiliyyətini, zəngin təcrübə əldə etməsində kəmiyyət və keyfiyyət dəyişməsidir. Əqli tərbiyə prosesində uşaqların əqli qabiliyyətləri inkişaf edir. Hər şeyi bilmək həvəsi müşahidəçilik, habelə əqli işin ilk vərdişləri tərbiyə olunur.

Uşağın əqli inkişafı onda psixi proseslərin, xüsusən duyğuların inkişafından, qavrayışın təkmilləşməsindən, yəni ətrafdakı əşya və hadisələrin hisslərlə əks etdirilməsindən başlayır. Ətraf aləmin duyğular vasitəsilə dərk edilməsi və biliyin əks olması uşağın əqlinin təkmilləşməsinə xidmət edir.

Uşaqlar təlim prosesində, tərbiyəvi təsirlər vasitəsilə ətraf mühiti dərk edir və tədricən ətraf mühitdə əmələ gələn dəyişikliklərə uyğunlaşırlar. Uşaq üçün ictimai mühit inkişaf mənbəyidir. Uşaq bəşəriyyətin maddi aləmdə dərin iz buraxmış, çoxəsrlik təcrübəsini mənimsəməklə ictimai həyatın iştirakçısı olmağa hazırlaşır.

Uşağın əqli fəaliyyəti onun təxəyyülünə, təsəvvürünə, mühakiməsinə, özünəməxsus rəngarənglik verən emosiya ilə sıx bağlıdır. Bütün yeniliklər uşaqda təəccüb əmələ gətirir, bir halda sevinc, digər halda vahimə, qorxu yaradır. Bu emosiyalar hafi-

zədə saxlanılır, elə bil həmin əşyanın və ya hadisənin keyfiyyəti kimi təsirə malik olur.

Uşaqların əqli inkişafı öz tutumu, xarakteri və biliyinin məzmununa görə fərqlənir. Bu məzmun müxtəlif yaş qruplarında özünü fərqli şəkildə büruzə verir.

Körpə yaşlıların əqli tərbiyəsinin məzmununa uşaqların qeyri – fəal və fəal nitqinin inkişafı, ətrafdakıların nitqini anlaması, öz fikir və arzularını sözlə, sonra isə qısa cümlələrlə ifadə etməsi və s. daxildir.

Uşaqların əqli tərbiyəsinin əsas məqsədi görmə, eşitmə, hissetmə duyğularını təkmilləşdirmək, ətrafdakı əşya və hadisələr haqqında təsəvvürü inkişaf etdirmək, sadə əqli prosesləri, bəsit ümumiləşdirmələr aparmasını təşəkkül etdirməkdir. Uşaqlarda diqqəti, bir nöqtədə cəmləşdirmək qabiliyyətini, yaşlıların hərəkət və sözlərini təqlidetmə bacarığını tərbiyə etmək də əsas vəzifədir.

Uşaq həyatının ikinci ilində tərbiyə işi düzgün qurulursa, uşağın fiziki və psixi inkişafı düzgün gedər. İkinci yaş ili 3 əsas nailiyyətlə xarakterizə olunur: uşaq danışmağa başlayır, yeriyir və əşyalarla davranışın sadə ünsürlərinə yiyələnir. Əlbəttə, o, yaşlıların köməyinə ehtiyac hiss edir, lakin o, südəmər uşaqdan müstəqildir. Uşaqda şəxsi arzular, onu etmək üçün artıq mimika və jestlər kifayət etmir, nitq ünsiyyəti tələbatı meydana çıxır.

Birinci yarım ildə nitqi anlamaq daha gərgin şəkildə inkişaf edir, danışıq nitqini təqlid etmək fəaliyyəti tədricən təkmilləşir, fəal lüğəti genişlənərək yaş yarımda 30 – 40 sözə çatır. İkinci yarım ildə fəal nitqin inkişafında əhəmiyyətli dəyişikliklər olur, 2 yaşına çatan uşağın fəal lüğət ehtiyatı 200 – 300 sözə çatır. Uşağın nitqində ismin hal və kəmiyyət kateqoriyası, felin keçmiş zamanı və əmr şəklini bildirən ifadələr özünü büruzə verir. Uşağın nitqi ətrafdakılarla ünsiyyət vasitəsinə, böyüklərin nitqi isə ən əhəmiyyətli tərbiyəvi təsirə çevrilir.

Fəaliyyətin sadə növlərinə yiyələnməklə əlaqədar əşyalar və onların xüsusiyyətlərinin (forması, böyüklüyü, rəngi və s.) qavranması da təkmilləşir.Uşaq rəngindən, böyüklüyündən, vəziy-

...lindən asılı olmayaraq əvvəllər gördüyü əşyaları tanıyır. İlk əyani ümumiləşdirmələr inkişaf edir.

Uşaq həyatının üçüncü ili: 1) yaşlıların köməyi olmadan hərəkətlərin icrasında fəallıq, müstəqilliyin ifadəsinin ən sadə formaları; 2) əyani – fəal təsir göstərən təfəkkürün sonrakı inkişafı, ətraf mühit haqqında nitqdə mühakimələrin bəsit növlərinin təzahürü; 3) uşaqlar arasında münasibətlərin yeni formalarının yaranması təklikdə və yanaşı oyunlardan birgə oyun fəaliyyətinin sadə formalarına keçidlə xarakterikdir. Yaddaş nisbətən təkmilləşir, nitq inkişafı sayəsində artıq sözün köməyilə xatirələr oyana bilir.

Uşağın əqli inkişafında daha böyük dəyişikliklər baş verir. Uşaq yaşlıların izahının təsirilə və öz təcrübəsi əsasında müşahidə etdiyi əşya və hadisələri müqayisə etməyi, onların arasında sadə əlaqələr yaratmağı, onları oxşar əlamətinə görə ümumiləşdirməyi öyrənir. Uşaqlar öz hərəkətlərini dəqiqləşdirmək üçün "Nə üçün?", "Harada?" kimi suallar verməyə başlayırlar. Lüğət ehtiyatı sürətlə artır, nitqin qrammatik quruluşunun mənimsənilməsi davam edir. (uşağın nitqində yenu hal şəkilçiləri, bağlayıcılar, felin gələcək zamanı işlənməyə başlanır, sifətlərdən daha geniş istifadə olunur).

Ətrafdakıların nitqinin başa düşülməsində əsaslı dəyişikliklər əmələ gəlir. Uşaq nəinki bilavasitə qavranılana aid olan ayrı – ayrı fikirlərin mənasını, həmçinin qısa hekayələrin məzmununu dərk etməyə başlayır. Uşaq ona şifahi verilən tələbləri yerinə yetirməyə qabil olur.

Uşaqlar öz ad və soyadını, doğma, yaxın adamların adlarını, tərbiyəçinin adını bilir, ev əşyalarının (geyim, mebel, qab – qacaq, oyuncaqları) adını, onlardan nə məqsədlə istifadə olunduğunu anlayır və onları sözlərdə düzgün ifadə edirlər.

Uşaq həyatının dördüncü ilinin xarakteristikası: əsəb sisteminin inkişafı davam edir, buna baxmayaraq uşağın əqli yükünün, təəssüratının həcminin müəyyənləşdirilməsində yaşlıların rolu olduqca böyükdür. Ətrafdakılarla münasibətdə, fəaliyyətinin xarakter və məzmununda, psixi proseslərində əsaslı dəyişiklik gedir.

Onlarda özlərinin fəaliyyət göstərmələrinə, ətrafdakı uşaqların gördükləri işi heç kimin yardımı olmadan yerinə yetirməyə meyllər artır. Lakin onların diqqətinin sabitliyi hələ xeyli az olduğundan fikirləri çox tez yayınır, bir işi görmək xatirinə digərini yarımçiq qoyurlar. Onlar artıq müəyyən ardıcıllığa riayət edərək, nisbətən mürəkkəb əməliyyatları yerinə yetirmyə qabildirlər.

Bu dövrdə əsasən əyani – canlı yaddaşın sonrakı inkişafı baş verir. Yadda saxlama əsasən oyun və ya başqa fəaliyyət zamanı qarşıya heç bir məqsəd qoymadan öz – özünə baş verir. Uşaq natamam fikirdən tədricən daha ardıcıl və dolğun fikirlərə keçir. Müşahidə etdiyi hadisələr və əşyalar haqqında mülahizələr də söyləyir.

Uşaq həyatının beşinci ilinin xarakteristikası: bu yaşda fəaliyyət mürəkkəbləşməsi və təcrübənin zənginləşməsi bütün psixi proseslərin inkişafına təsir edir, diqqət daha da sabit olur. Müəyyən məqsədlə yadda saxlama və yada salma prosesləri inkişaf edir, görmə, eşitmə, toxunma hissi ilə əlaqədar olan qavrama qabiliyyəti təkmilləşir.

Uşaq əşyanın xeyli mürəkkəb formalarını, onların birləşmələrini fərqləndirməyi görmə, eşitmə, hissetmə vasitəsilə onların ayrı-ayrı əlamətlərini seçir və onların arasındakı əlaqəni tapmağı öyrənirlər.

Uşağın söz ehtiyatı artır, nitqi ardıcıl və əlaqəli olur. Onun təfəkkürü inkişaf edir. Uşaqlar əşyaların daha mühüm əlamətlərini ayırmağa, əşyaları keyfiyyətlərinə və istifadə olunma yerinə görə qruplaşdırmağa başlayırlar.

Birgə fəaliyyət prosesində uşaqlar kiçik kollektivlərdə birləşməyə başlayırlar, ümumi məqsədə nail olmaq üçün öz hərəkətlərini bir-birilə razılaşdırmağı öyrənirlər.

Bu yaşda uşaqların əqli inkişafını düzgün istiqamətləndirmək üçün tərbiyəçilər qarşısında bir sıra tələblər qoyulur : suallara ( niyə? nə üçün? nədən ötrü?) cavab verməklə uşaqların biliyə marağını təmin və inkişaf etdirmək, aırı –ayrı hallarda uşaqları bir neçə hadisəni müşahidə edərək əşyaların, keyfiyyətini düzgün adlandırmaq öyrədilir. Məkan və zaman münasibətlərini

bildirən sözlərdən ( sağ, sol, yaxın, uzaq, səhər, axşam, gecə və s.) mənasına görə düzgün istifadə etmək bacarığı möhkəmləndirilir.

Əqli inkişaf dünyagörüşün onun genişliyində ifadə olunur. Əşya və hadisələr arasında qarşılıqlı əlaqəni tapmaq, ona münasibət göstərmək, biliyi ümumiləşdirmək əqli inkişafın göstəricilərindəndir.

Həyatının 6-cı ilində uşaqların böyüklər və həmyaşıdları ilə münasibətləri mürəkkəbləşir, uşaq fəaliyyətinin forma və məzmunu zənginləşir. Uşaq tərbiyəçinin qarşıya qoyduğu məsələni başa düşmək, nəinki fəaliyyətin ümumi istiqamətini, həmçinin hərəkət üsulunu müəyyən edən göstərişləri yerinə yetirmək qabiliyyəti qazanır.

Ətrafdakıların müşahidəsi və hissi tərbiyənin təsiri ilə uşaqlarda əşyaların rəngi, onun intensivliyi, forması haqqında təsəvvür sisitemi yaranır. Təsəvvür uşağın ətrafa yaxından bələd olmasına, dərk edilən əşya və hadisələrin xüsusiyyətlərinin ifadəsinə və qiymətləndirilməsinə kömək göstərir. Qavrama kiçik yaşlılara nisbətən daha məqsədəyönəlmiş olur.

Uşaqlarda ixtiyari yadda saxlama qabiliyyəti yaranır, onlar hər hansı bir mətni öyrənərkən onu bəzən də təkrar edirlər.

Təfəkkür sahəsində əhəmiyyətli irəliləmə gedir. Uşaq hadisələrin nəinki yaxın, hətta ən uzaq səbəbləri ilə maraqlanaraq yaşlıların üzərinə “ nə üçün?”, “ nəyə görə?”, “ nədən ötrü?” suallarını yağdırır.

Dərk edilən əşya və hadisələri təhlil etmək və ümumiləşdirmək, onların əlamətlərini ayırd etmək və tutuşdurmaq, onlar arasında mövcud bərabərsizliyi müəyyən etmək qabiliyyəti inkişaf edir. Uşaqlar müşahidə etdikləri faktlar haqqında mühakimə yürüdür və nəticələr çıxarırlar, onlar öz fikirlərini şifahi şəkildə ifadə etməyi, öyrənirlər. Uşağın söylədiyi fikirlər daha rabitəli xarakter alır. Ayrı-ayrı fikirlər kiçik hekayədə birləşir.

Əqli cəhətdən formalaşma həm də fiziki tərbiyə ilə bağlıdır. Uşağın əqli inkişafı onun sağlamlığından çox asılıdır. Fiziki cəhətdən sağlam olan uşaq hadisələrə cürətli münasibət göstərir, düzgün fikirləşir, həyatda düzgün mövqe tutur. Eyni zamanda

fiziki tərbiyə sahəsindən düzgün baş çıxaran adam əqli inkişafın da zəruriliyini aydın dərk edir. İradi keyfiyyətlərin formalaşması (dözümlülük, cəsarətli olmaq, qətilik, mərdlik və s.) öz borcunu başa düşmək, əqli normaları dərk edib bu normalara müvafiq davranmaq ilə sıx bağlıdır.

Bütün pedaqoji proseslərdə olduğu kimi uşaqların əqli tərbiyəsində də həlledici rol tərbiyəçilərin və valideyinlərin üzərinə düşür. Yaşlılar uşaqların fəliyyətini istiqa-mətləndirir, ona elə rəhbərlik edirlər ki, dərketmə prosesi tədricən formalaşsın, lazımı bilik əldə edilsin, bunların zəminində uşağın əxlaqi, estetik, fiziki, əmək və ekoloji tərbiyəsində də müəyyən dəyişiklik yaransın.

Məktəbəqədər yaşlı uşaqların əqli inkişafını təmin etmək məqsədilə aşağıdakı vəzifələr müəyyən edilmişdir.

**1.** Cəmiyyət və təbiət haqqında elmi anlayışları formalaşdırmaqla real elmi dünyagörüşü yaratmaq ;

**2.** Əqli fəaliyyəti inkişaf etdirməklə öyrənmə marağını və qabiliyyətini, əqli fəaliyyətin digər rəngarəng növlərini formalaşdırmaq;

**3.** Müstəqil öyrənmə meylini artırmaqla mədəni əqli iş tərbiyə etmək.

Beləliklə , əqli tərbiyənin əsas vəzifəsi uşaqların ətraf aləm – təbiət, adamların əməyi, bir sıra ictimai hadisələr, əşyaların nəyə lazım olması, onların keyfiyyətləri və xüsusiyyətlərini təmin etməkdir. Burada başlıca vəzifə uşaqları ətraf mühit haqqında səthi biliklərdən uzaqlaşdırıb hadisələrin başlıca əlaqələri haqqında bilikləri dərk etdirməkdən ibarətdir. Gənc nəsil, xüsusən kiçikyaşlı uşaqlar fəaliyyət prosesində yaxın adamlarla, onları əhatə edən əşyalarla tanış olur, sonra bu əşyaların əsas əlamətlərini ayırmağa, bunların arasındakı əlaqəni anlamağa,onları qruplaşdırmağa, müxtəlif təbiət və həyat hadisələrinin səbəblərini öyrənməyə başlayır. Ətraf mühit haqqında biliklər uşaqların əxlaqi və estetik tərbiyəsində də mühüm rol oynayır.

Tərbiyənin məqsədi uşaqlara bilik vermək, bunun əsasında onların marağını, hər şeyi bilmək həvəsini, diqqətli olmasını for-

malaşdırmaq, nəcib hisslər oyatmaq və təqlid üçün nümunələr verməyə səy göstərməkdir.

Müasir – müstəqillik dövründə məktəbəqədər tərbiyə ocaqlarında ahəngdar inkişaf etmiş uşaqlar yetişdirilməsinə daha böyük ehtiyac vardır. Bu məqsədlə tərbiyə müəssisələrində uşaqların əqli cəhətdən normal inkişafı üçün hər cür şərait yaratmaq lazımdır. Uşaqların ətraf aləm haqqında biliklərinin həcmini müəyyən etmək onların mənəvi cəhətdən normal inkişafı üçün çox vacibdir.

Uşaq bağçalarının təcrübəsi, pedaqoji və psixoloji tədqiqatlar müxtəlif yaşlı uşaqlar üçün ətraf mühit haqqında nümunəvi məlumatın həcmini onların mürəkkəbləşməsini müəyyənləşdirməyə imkan verir.

Bilik, bacarıq, zövq, adət, mənəvi tələbat və xarakter tərbiyə nəticəsində inkişaf edir. Uşaq doğularkən heç bir fitri ideyaya, marağa, gizli şüur formalarına malik olmur. Bütün bunlar icrimai həyat və təbii mühit şəraitinin birinci növbədə tərbiyənin təsiri altında təşəkkül tapır. Sürət və keyfiyyətin səviyyəsi tərbiyədən asılıdır.

**Gəzinti və ekskursiyaların əqli inkişafa təsiri.**Əqli tərbiyə uşaqlarda məktəb təliminə hazırlığın başlanğıcıdır. Məktəbəqədər müəssisələrdə bu vəzifənin müəyyən bir hissəsini təbiətlə tanışlıq təşkil edir. Təbiətlə tanışlıq uşaqların dünyagörüşünü genişləndirir, nitq və təfəkkürünü inkişaf etdirir.

Təbiətlə tanışlıq sadə təbiət hadisələri haqqında uşaqlarda düzgün təsəvvürlərin formalaşmasına, duyğuların və qavrayışların təkmilləşməsinə, diqqətin, təxəyyülün, təfəkkürün, nitqin inkişafına və rabitəsinə doğru yönəldir.

Meşəyə, bağa, bostana gəzinti, bitkiləri təkrar – təkrar və ardıcıl olaraq müşahidə etmək və s. uşaqlarda həyati həqiqətləri dərk etmək üçün əsas verir.

Uşaqları cəmiyyət və təbiətə aid həqiqi elmi biliklərlə silahlandırmaq, onlarda düzgün elmi dünyagörüşü, saf və tam əqidəni yaratmaq tərbiyə işinin əsasını təşkil edir.

Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı məktəbəqədər yaşlı uşaqların yaş və fərdi, psixofizioloji xüsusiyyətlərinə uyğun əqli tərbiyənin məzmununu nəzərdə tutur. Əqli tərbiyə uşaqların müxtəlif fəaliyyətində: oyunda, əməkdə və məşğələlərdə, ölkəmizin ictimai həyatında, doğma təbiətdən götürülmüş (onların anlayışına müvafiq olan) hadisələrlə tanışlıq prosesində həyata keçirilir.

Məktəbəqədər yaş dövründə uşaqlar oyunda, əmək prosesində və müxtəlif məşğələlərdə yaşadıqları və əhatə olunduqları ictimai mühit və təbiət haqqında biliklərə yiyələnirlər.

Məktəbəqədər yaşlı uşaqların biliklərə yiyələnməsi ilə əlaqədar qarşıda duran vəzifələrdən aydın olur ki, tərbiyə uşağın yaş və inkişaf xüsusiyyətlərinə uyğun aparılmalıdır. Tərbiyə və inkişaf arasında sıx vəhdət mövcuddur.

Uşaqların təbiətlə tanış edilməsi prosesləri elə təşkil edilməlidir ki, onun əsasında dəqiq duyğular, qavrayışlar dursun və onlarda konkret, aydın təsəvvürlər formalaşsın. Bunun nətucəsində uşaqlar ayrı – ayrı cisimlərin, hadisələrin inikasından, onların qarşılıqlı asılılıq və əlaqələrinin mahiyyətinin öyrənilməsinə keçə bilsinlər. Bütün bunlar müntəzəm və sistematik tərbiyəvi təsir altında həyata keçirilir. Uşaqların canlı və cansız təbiətlə tanışlıqlar fakt və hadisələr üzərində müşahidələrdən başlanır. Bu hadisələrin ardıcıl surətdə dərk edilməsi, onların aralarında mövcud olan əlaqə və münasibətlərin anlaşılması, uşaqlarda həm elmi dünyagörüşün təşəkkülünə, həm də onların əqli və əxlaqi keyfiyyətlərinin formalaşmasına təsir göstərir.

Məktəbəqədər yaşlı uşaqların əqli inkişafında, dünyagörüşünün genişləndirilməsində təbiət üzərində müşahidələr böyük rol oynayır. Uşaqlar onlarm haqqında biliklərə asanlıqla yiyələnir və qazanılan biliklər də yadda yaxşı qalır.

Uşaqların biliklərə yiyələnməsində psixi proseslərin birgə və məqsədəmüvafiq fəaliyyət göstərmələri böyük əhəmiyyətə malikdir.

Uşaqların əqli inkişafında, əqli tərbiyəsində, onların biliklərə yiyələnməsində bir psixi fəaliyyət kimi diqqətin də rolu az

deyildir. K.D.Uşinski qeyd edirdi ki, diqqət ruhumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər bir şey buradan keçir, deməli, təlimin heç bir kəlməsi bu qapıdan keçmədən uşağın ruhuna daxil ola bilməz. Aydın məsələdir ki, uşağı bu qapını açıq saxlamağa alışdırmaq əhəmiyyətli bir işdir, təlimin bütün müvəffəqiyyəti buna nail olmaq üzərində qurulur.

Amerika psixoloqlarından U.Cems marağın yaradılmasında söz və təmrinlərin böyük rolu olduğunu qeyd edərək yazırdı: "Uşaq bağçalarında təmrinlərin xatirinə uşaqlardan dönə - dönə soruşurlar ki, bu əşyada, məsələn, çiçəkdə və ya quş müqəvvasında nə qədər xarakterik xassələrin, cəhətlərin adını deyə bilərlər.

Uşaqlar dərhal onlara tanış olan cəhətlərin adını deyirlər: yarpaq, quyruq, dimdik, ayaq. Onlar quşa bir saat baxa bilərlər, lakin onların diqqətini xüsusi cəlb etmədən quşun burun pərdələrini, caynaqlarını, kiçicik xallarını görə bilməzlər. Bir dəfə dedikdən sonra isə onlar hər dəfə həmin əlamətləri sayırlar".

Psixi fəaliyyətin bir növü olan təxəyyül də uşağın əqli inkişafında mühüm rol oynayır. Uşaqlarda təxəyyülün inkişafı onların həyatının üçüncü ilində başlayır. Lakin bu yaşda təxəyyülü yaradan surətlər həm yoxsul, həm də az dəqiq olur. Uşaqlar həyat təcrübəsinə malik olduqca çoxlu əyani, konkret və dəqiq təsəvvürlər qazandıqca təxəyyüllərini də zənginləşdirir və inkişaf etdirirlər.

Bağça yaşlı uşaqlarda əqli inkişafın xatakterik xüsusiyyətlərindən biri budur ki, onlarda biliklərə yiyələnmə sürətli olur. Uşaqlar əhatə olunduqları təbiətdə mövcud olan fakt və hadisələrlə maraqlanır, onları dərk etməyə səy göstərirlər. Lakin onların bu səylərinə istiqamət verilmədikdə səmərəli nəticələr əldə edilmir.

Bağça yaşlı uşaqların təbiətə dair fakt və hadisələr haqqında sadə, lakin həqiqi, dəqiq biliklərə asanlıqla və eləcə də möhkəm surətdə yiyələnmələrində maraq mühüm rol oynayır. Ancaq dərketmə prosesində maraq məqsədə müvafiq şəkildə yaradılmalı-

dır, məzmuna görə uşaqları əvvəlcə qazandıqları biliklərlə sonra verilən biliklərlə əlaqələndirməlidir.

Məktəbəqədər yaşın bütün mərhələlərində təbiətlə tanışlıq prosesində əqli tərbiyənin vəzifələrinin yerinə yetirilməsi uşaqları digər keyfiyyətlərə də yiyələndirir. Uşağın əqli tərbiyəsi prosesində onlarda əmək vərdişləri yaranır, əxlaqi və estetik hisslər təşəkkül tapır və inkişaf edir. Uşaqlarda inkişaf edən bütün bu kimi keyfiy-yətlər eyni zamanda onların əqli inkişafına əsaslı surətdə təsir edir. Uşaqlar təbiətdə əmək prosesində fakt və hadisələrlə bilavasitə ətraflı tanış olurlar. Bu zaman uşaqların nəinki mövcud bilikləri möhkəmlənir, həm də onlar yeni – yeni biliklərə yiyələnirlər.

Uşaqlar təbiətdə əmək prosesində qazandıqları bilik və təsəvvürləri həyatda tətbiq etməyə də geniş imkan tapırlar. Bu zaman onlarda analiz, sintez, ümumiləşdirmə, müqayisə və qismən də mücərrədləşdirmə kimi təfəkkür prosesləri formalaşır.

Ayrı – ayrı yaş qruplarında aparılan məşğələlərin materialları doğma ölkəmizin ictimai həyatından, uşaqları əhatə edən canlı və cansız təbiətdən götürülür. Həmin biliklərin səmərəli mənimsənilməsi üçün uşaqların idrak fəaliyyətini aktivləşdirmək lazımdır. Bu prosesdə tərbiyəçi onlarda diqqətin, duyğu və qavrayışın konkret və əyani təsəvvürlərun formalaşmasına xüsusi diqqət yetirməlidir. Belə olduqda onlar ayrı – ayrı cisimlərin, hadisələrin inikasından onların qarşılıqlı asılılıq və əlaqələrinin mahiyyətinin inkişafına keçə bilər. Beləliklə, uşaqlarda əyani və əməli təfəkkür əlamətləri inkişaf etməyə başlayır.

Məktəbəqədər yaş dövrünün, xüsusilə ilk mərhələlərində uşaqlara veriləcək biliklər formalara, rənglərə, sözlərə geyindirilərək onların duyğularına mümkün qədər çox təsir edəcək münasib bir hala salınmalıdır. Ancaq bu halda uşaq bağçası tərbiyəçisi uşaqların təfəkkür aləminə daxil ola bilər.

Bununla belə, uşaqlar məşğələlərdə cisim bə hadisələri görüb və yaxından müşahidə edərlərsə, aldıqları məlumatlar daha dəqiq və asanlıqla yadda qalır. Bu zaman uşaqlar onların yalnız

xarici görünüşü ilə deyil, həm də bəzi xarakterik xüsusiyyətləri ilə maraqlanırlar.

Bağça yaşlı uşaqların biliklərə yiyələnmə xüsusiyyətlərindən biri də budur ki, onlar bu məqsədlə yaşlılara, o cümlədən tərbiyəçilərə çoxlu suallar verirlər. Onların məlum olmayan hər bir hadisə haqqında sual vermələri təbii və qanunauyğun sayıla bilər və təsadüfi deyildir. Bu, onların hər şeyi öyrənmək meyllərinin təzahürüdür. Məhz buna görə də uşaqların hər bir sualına müvafiq məzmunda, sadə, lakin dəqiq cavabların verilməsi ən başlıca vəzifələrdən biri kimi nəzərdə tutulmalıdır.

Kiçik məktəbəqədər yaşlı uşaqların əqli biliklərə yiyələnməsi prosesi tədricən həyat təcrübəsi əldə etmələri, cisimlərlə yaxından tanış olmaları ilə əlaqədar olaraq sadədən mürəkkəbə doğru gedir və bu istiqamətdə öz məzmununu dəyişir. Uşaq bağçasının böyük qruplarında bu əlamətlər özünü daha aydın büruzə verir.

Məktəbəqədər yaş dövrlərində uşağın təbiətlə tanışlıq vasitəsilə əqli inkişafa, müəyyən mənada nail olmaq imkanı genişdir. Məktəbəqədər yaşlı uşaqların bütün fəaliyyət növlərində təbiətlə tanışlıq məsələlərinin yerinə yetirilməsi üçün zəmin vardır. Nəzərə alınmalıdır ki, məktəbəqədər yaşlı uşaqların təlimində yüksək göstəricilər əldə olunması yixarıda göstərilən fəaliyyət proseslərindən səmərəli istifadə edilməsindən çox asılıdır. Lakin bununla belə uşaqların sistemli və ardıcıl surətdə təbiətlə tanış edilməsində məşğələlərdən istifadə edilir. Məşğələ təlim prosesində xüsusi yer tutmaqla bərabər, həm də uşaqların psixoloji hazırlığını tələb edir. Hər bir məşğələnin aparılmasında uşağın psixi inkişaf xüsusiyyətləri nəzərə alınmalı və həm də bu inkişafa kömək etməlidir. "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı"nda uşaqların əqli tərbiyəsi ilə əlaqədar qarşıda duran vəzifələr məzmunca yaş qrupları üzrə sadədən mürəkkəbə, "asandan çətinə" prinsipinə müvafiqdir. Kiçik qruplarda təbiətlə tanışlığın məzmunu iki istiqamətdə qruplaşdırılır:

1. Canlı təbiətlə tanışlıq.
2. Cansız təbiətlə tanışlıq.

Kiçik qrupda uşaqları təbiətlə tanış etməkdə əsas məqsəd onlarda bitki və heyvanlara marağın artırılması, canlı varlığa xeyirxah münasibətin tərbiyə edilməsi, sadə estetik hisslərin oyadılmasına şəraitin yaradılmasından ibarətdir.

Uşaqlarda cansız təbiətə elementar bələdlilik tərbiyə olunur. Məsələn, sudan istifadə qaydaları, onların əlamət və xüsusiyyətləri ilə əlaqədar biliklər təşəkkül tapır və inkişaf etdirilir (su axır, su ilə yuyunurlar, suda çimirlər, bəzi əşyalar batmır, onları tutmaq olar və s.).

Gəzinti zamanı tərbiyəçi uşaqlara müxtəlif ölçüdə və rəngdə daşlar olduğunu, onların bərkliyini başa salır. Uşaqlara məlumat vermək məqsədilə onların təbiət hadisələri üzərində müşahidəsi təşkil edilir. Uşaqlarda bunları adlandırmaq bacarığı tərbiyə olunur və bəzi sadə məlumatlat verilir.

Uşaqlara şəkil, oyuncaq göstərməklə onlarda təsvir olunmuş balığı, quşu, toyuğu, pişiyi, iti, dovşanı tanımaq bacarığı tərbiyə etmək nəzərdə tutulur. Onların diqqəti həmin heyvanların bədən quruluşuna, hissələrinə cəlb edilir. Hərəkətlərini görmək və adlandırmaq bacarığı tərbiyə edilir.

Uşaqlara təbiət guşəsindəki balığa, quşa və s. canlılara ehtiyatla yanaşmağı öyrətmək, həm də bu prosesin bilavasitə müşahidəsini təşkil etmək nəzərdə tutulur.

Gəzinti zamanı uşaqlara qar və qumla oynamaq, üzərində şəkil çəkmək üçün imkan və şərait yaradılır.

Bağça ərazisinə uçub gəlmiş quşlarla tanışlıq, onların bəzi xüsusiyyətləri haqqında məlumatlar (quşlar uçurlar, ağaca qonurlar, səslənirlər, civildəşirlər) verirlər.

Təbiətə təşkil edilən ekskursiyalar uşaqlara təbiətdəki bəzi dəyişiklikləri, mövsümü hadisələri görməyə və dərindn öyrənməyə imkan verir.

Bitki və heyvanlarla tanışlıqla əlaqədar materialların öyrənilməsi üzrə müşahidələr əsas şərtdir. Tərbiyəçi özü şəxsən müşahidə obyekti ilə tanış olduqdan sonra müvafiq plan tərtib etməlidir.

Əgər uşaqlar bu hadisə ilə birinci dəfə tanış olurlarsa, bitki ya da heyvanı birinci dəfə görürlərsə, onu adlandıraraq yaxşı nəzərdən keçirməyə uşaqların diqqətini cəlb etmək və məlumatları da vermək lazımdır ki, onlar bilavasitə tərbiyəçinin rəhbərliyi ilə həm işdə müstəqilliyə alışsınlar.

Uşaqlar əvvəllərdən tanış olduqları cisimləri və ya hadisələri təkrarən müşahidə etdikdə, tərbiyəçi onların əvvəllər qazanmış olduqları bilik və təcrübələrinə əsaslanır, bu əsasda tərtib etdiyi sualların yardımı ilə onların diqqətini cismin ya da hadisələrin ayrı – ayrı cizgilərinə doğru yönəldir, ya da uşaqlara müqayisələr aparmağı təklif edir.

Payız fəslində parka ekskursiyada proqram materialına əsasən ağacların yarpaqlarındakı dəyişikliyi (yarpaqlar saralmış və ya qızarmışdır, onlar tökülürlər və s.) müşahidə etmək və öyrənmək nəzərdə tutulur. Uşaqların diqqəti yarpaqların tökülməsinə, ayaq altında xışıldamasına və onların rənginə cəlb olunur.

Müşahidələrdən sonra tərbiyəçinin sualları uşaqların təsəvvürünü canlandırır və zənginləşdirir.

Ekskursiyadan sonda uşaqlara rəsm məşğələsində yarpaqları tökülmüş ağac şəkillərini çəkdirmək məqsədəmüvafiqdir.

Uşaqlar gəzintidə olarkən tərbiyəçi onların hərəkətli və yaradıcı oyunlarını da təşkil edir. Belə oyunlarda tərbiyəçi uşaqların əvvəllər qazanmış olduqları bilikləri də təkrar etdirməyə imkan tapır və buna nail olur. Lakin istər oyunlar və istərsə də əmək prosesləri əvvəlcədən dəqiqləşdirilmiş vaxt daxilində, şəraitdən asılı olaraq təşkil edilir. Bu proseslər onları yormamalı, bir növ istirahət xarakteri daşımalıdır. Qış fəslində qar üzərində oyun fəaliyyətləri təşkil olunur. Onlar qardan müxtəlif fiqurlar düzəldirlər. Bütün bunlar uşaqların dünyagörüşlərinin genişlənməsi və eləcə də sadə əmək vərdişlərinə yiyələnmələri və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün əhəmiyyətlidir.

Yay fəslində uşaqlar qum, gil və bəzi başqa təbiət materialları ilə müxtəlif oyunlar oynayırlar. Buna görə də bağçanın həyətində, müvafiq yerdə qum yeşiyi və ya meydançada xüsusi yer olmalıdır. Qumla oynamaq üçün uşaqlara müxtəlif alətlər veril-

məlidir. Uşaqlar həmin vasitələrdən istifadə edərək müstəqil şəkildə oynayırlar, həm də onların xarakter xüsusiyyətləri ilə tanış olurlar.

Bütün bu fəaliyyətlər prosesində uşaqlar doğma təbiətin bə əlamətləri ilə tanış olurlar. Onların lüğəti zənginləşir. Uşaqlar tədricən təbiət hadisələrini müşahidə etməyə, onların xarakter əlamətlərini ayırmağa və düzgün adlandırmağa alışırlar.

Uşaqlar ilin bütün fəsillərində gəzintilərə çıxırlar, qayıdarkən müəyyən canlıları qrupa gətirirlər. Toplayıb gətirdikləri çiçəklərin və digər canlıların təbiət guşəsində düzgün yerləşdirilməsi, yeri gəldikcə onlarda əyani vəsait kimi istifadə edilməsi də pedaqoji əhəmiyyətə malikdir. Bu zaman uşaqlar təlim prosesində daha maraqla iştirak edirlər. Həmin canlılardan uşaqlar məşğələlərdə istifadə edildiyini görür və sevinirlər. Guşədə aparılan məşğələ və müşhidələr sahədə, gəzintidə olan məşğələ və müşahidələrlə əlaqələndirilməlidir.

Məşğələlərdə mövzu ilə bağlı olaraq əyani vəsait kimi cansız təbiət nümunələrindən də istifadə etmək məqsədəmüvafiqdir. Məşğələlərdə və məşğələdən kənar vaxtlarda əqli tərbiyə ilə əlaqədar aparılan əlavə tədbirlərdə gil, qum, daş, balıqqulağı, şam qozası və başqa təbiət materiallarından istifadə olunur. Təbiət materiallarından ən çox oyunlarda və əmək məşğələlərində istifadə olunur.

Əqli tərbiyənin üsullarından biri olan müşahidə biliklərə yiyələnməkdə, müxtəlif hadisələrin mənimsənilməsində əsas üsul hesab edilir. Təbiətin ayrı– ayrı obyekt və hadisələri üzərində müşahidə aparmaq, əsas cəhətləri ayırmaq, baş verən dəyişiklikləri görmək, onların səbəblərini müəyyənləşdirmək və nəticə çıxarmaq qarşıda duran vəzifələrdəndir.

**Sensor tərbiyənin əhəmiyyəti.**Sensor tərbiyə əqli tərbiyənin tərkib hissələrindən biridir ki, bu da uşağın hərtərəfli inkişafında hissi təcrübənin rolu ilə izah edilir.Ətraf aləmlə tanış olmaq, mürəkkəb təfəkkür proseslərinin, estetik hisslərin yaradıcılıq qabiliyyətinin formalaşdırılması üçün duyğu və qavrayışın inkişaf etdirilməsi zəruridir.

Pedaqogika sensor mədəniyyətə uşağın idrak fəaliyyətinin əsası onun tərkib hissəsi kimi baxır. Hissi təcrübənin toplanması dünyanın dərk edilməsinin, təsəvvür və anlayışların formalaşmasının ilk pilləsidir.

Sensor mədəniyyətin belə başa düşülməsi Qərbi Avropada və Amerikada geniş yayılan İtaliya pedaqoqu M.Montessorinin sistemindən əsaslı surətdə fərqləndirilir.

M.Montessori həkim və psixiatordur. O, öz işini əvvəlcə əqli cəhətdən geri qalan uşaqlarla başlamış, sonra isə həmin metodları normal uşaqların tərbiyəsinə tətbiq etmişdir. Uşağın tərbiyəsi və inkişafı haqqındakı baxışları onun dünya-görüşünü əks etdirir. M.Montessori müasir təbiətşünaslığın məlumatları ilə razılaşaraq, belə hesab edirdi ki, xarici aləmdən alınan qıcıqların nəticəsi olan duyğu bilik mənbəyidir. Buna görə də o, həyatın ilk illərində duyğuları inkişaf erdirməyin zəruri olduğunu sübut edir. Lakin təfəkkür onun fikrincə inkişafın müəyyən mərhələsində öz - özünə meydana gələn ilahi vergidir və duyğularla heç bir əlaqəsi yoxdur. Duyğuları bütövlükdə əqli fəaliyyətdən ayırmaq Montessorinin sistemində özünün geniş ifadəsini tapmışdır.

M.Montessori müxtəlif duyğuları məşq etdirmək üçün çalışmalar sistemi yaratmışdır. Onun işləyib hazırladığı didaktik material özünün böyük dəqiqliyi, tərtibinin sadəliyi ilə fərqlənir. Onun yaxşı cəhərlərindən biri odur ki, o uşağı özünü nəzarətə öyrədir: bu materialla işləyərkən öz səhvlərini görməmək olmur. M.Montessorinin didaktik materiallarının bəziləri uşaq bağçalarında tətbiq olunur. Lakin bütövlükdə onun tərbiyə sistrmi tərbiyənin vəzifə və prinsipləri ilə ziddiyyət təşkil edir.

Uşağın ətraf aləmlə, o cümlədən şeylərin keyfiyyəti və xassələri ilə tanışlığı, onun müxtəlif fəaliyyəti ilə bağlı olan ətraf mühiti müşahidədən başlanır. M.Montessori bu tanışlığı real aləmlə əlaqəsi olmayan mücərrədləşdirilmiş didaktik materiallar ( rəng, forma, həcm) üzərində mümarisələrdən başlayır.

Bu mümarisələr fikrin işləməsini tələb etmir, onların məqsədi duyğuları təkmilləşdirməkdən ibarətdir. Buna görə də onlar uşaq üçün maraqlı olan, onun oyunu və işi üçün lazım gələn

praktik məsələnin həlli ilə əlaqədar deyildir. Duyğunun hər bir növünün digərlərindən təcrid olunmuş şəkildə inkişaf etdirilməsini nəzərdə tutur. Eşitməvə ya toxunmaqla hissetməni inkişaf etdirmək üçün mümarisələrdə gözlər bağlanır.

Məktəbəqədər pedaqogika bütün tərbiyə işində olduğu kimi uşağın sensor inkişafında da pedaqoqun, tərbiyəçinin rolunu başlıca hesab edir. M.Montessori sübut etməyə çalışır ki, didaktik material pedaqoqu əvəz edir. Bu onun nöqsanı idi.

Məşhur Belçika pedaqoqu O. Dekrolidə oyunların sistemini işləyib hazırlamışdır. Bunların içərisində uşaqlarda qavrayış qabiliyyətini inkişaf etdirmək üçün olan oyunlar böyük bir qrup təşkil edir. Dekroli öz qarşısında bu və ya digər hissi inkişaf etdirməkdən daha çox uşaqlara aldıqları təəssürata şüurlu surətdə yanaşmağı, onlardan baş çıxarmağı, onları digərləri ilə quraşdırmağı öyrətmək vəzifəsini qoymuşdur. Buna görə də o, elə oyunlar yaratmaq istəyir ki, bunlarda həndəsi formalarla çalışmalardan yox, bu oyunlarda uşaqlar üçün maraqlı olan obrazlardan istifadə edilsin. M.Montessorinin sistemi ilə müqayisədə Dekrolinin sisteminin üstünlüyü də elə bundadır. Onun oyunlarından bəziləri pedaqogikada tətbiq olunur, məsələn, əşyaların yerləşməsinə görə bir- birindən fərqlənən cüt şəkillər, şəkillərin ardıcıl olaraq düzülməsi və s. Lakin bu oyunlar məzmun və xarakterinə görə yeknəsəqdir. Onlardan bəziləri isə əyləncəli deyildir, formal çalışmalara oxşayır. Oyunların məzmunca yeknəsəqliyi, ( şəkillərdə əsasən ev əşyaları, paltar təsvir edilmişdir) uşaq marağının məhdud başa düşülməsi, onun bioloji tələbatla eyniləşdirilməsi ilə izah olunur.

Sensor mədəniyyətin təfəkkürün inkişafı ilə əlaqəsi haqqında K. D. Uşinski

" İnsan tərbiyənin predmeti kimi" adlı əsərində yazır: "Xarici hisslər düşünmə prosesinə az və ya çox dərəcədə təsir göstərir. Bizim xarici hisslərimiz nə qədər qüvvətli, nə qədər aydındırsa, daha doğrusu gözlənilməz rəng çalarlığını nə qədər çox fərqləndirmək qabiliyyətinə malikdirsə, qulaqlarımız sözlərin zəifliyini fərqləndirə bilərsə onlar şüura bir o qədər zəngin mate-

...al verəcək... lakin hər hansı bir hiss üzvünün duyğular aləmində ...üllü şəkildə işləyən şüur, öz növbəsində onun aydınlaşdırıcılıq ...ətini qüvvətləndirə bilər". K. D. Uşinski Избр. Произведения, выпуск IV, Кн. I.M. АПН РСФС, 1946, səh. 304-305.

K. D. Uşinskinin fikirləri Y. İ.Tixeyevanın əsərlərində öz ...sini tapdı. O, uşaqların sensor tərbiyəsi üçün oyunlar və çalışmalar sistemini işləyib hazırladı.

M.Montessorinin əksinə olaraq Y. İ.Tixeyeva belə hesab edirdi ki, sensor inkişafın əsas mənbəyi təbiəti və ətraf aləmi müşahidə etməkdir. Lakin ətraf aləmin təhlili uşaq üçün mürəkkəb prosesdir, bu işdə ona kömək etmək lazımdır. Y. İ.Tixeyeva bu məqsədlə uşaq bağçasında didaktik cəhətdən düşünülmüş şərait yaratmağı tövsiyə edirdi: belə ki, məişət əşyalarının seçilməsi, müxtəlif rəngli bəzəklər, formalar analizatorların inkişafına səbəb olur. Y. İ.Tixeyeva müntəzəm çalışmalara imkan yaradan didaktik materiallara da böyük əhəmiyyət veriridi. Lakin Montessoridən fərqli olaraq o, elə material yaratmağa çalışırdı ki, analizatorları məntiqi təfəkkürlə, müşahidəçiliklə, nitqlə birlikdə inkişaf etdirsin. Y. İ.Tixeyevanın oyunlarından bir çoxu indi də uşaq bağçalarında istifadə olunur. Onun körpələr üçün oyunlarda sensor çalışmaları hərəkətin inkişaf etdirilməsilə birləşdirmək cəhdi xüsusilə diqqətə layiqdir.

Sensor tərbiyə sisteminin yaradılmasında pedaqogikanın, elm və təcrübənin topladığı bütün qiymətli cəhətlərin hamısından istifadə edilir.

**Sensor tərbiyənin psixoloji və pedaqoji əsasları.** Məktəbəqədər yaş həyatın birinci ilindən başlayaraq analizatorların intensiv surətdə inkişaf dövrüdür. Duyğuda analizatorların bütün şöbələri iştirak edir –reseptor (kənar impulsları qəbul edən xarıcı cihaz) xarici aləmdən qıcıqları beynin mərkəzinə ötürür, o isə bu qıcıqları hissələrə ayırır, təhlil edir və sonra isə onları birləşdirir, sintez edir.

İkinci siqnal sisteminin və nitqin inkişafı ilə əlaqədar olaraq analizatorların fəaliyyəti daha yüksək pilləyə qalxır. Xarici aləmin qavranılması beynin təhlil – tərkib fəaliyyətini tələb edir, deməli

sensor mədəniyyət – duyğuların təfəkkür və nitqilə vəhdətd inkişafıdır.

Qavrama əzələ hissi ilə eyni vaxtda baş verir, o müxtəlif duyğuları bütöv tam halında birləşdirir, duyğunu daha parlaq edir.

Hərəkət analizatorlarının rolu haqqında fiziologiyanın verdiyi məlumat pedaqogika üçün böyük əhəmiyyətə malikdir. Görmə, eşitmə və digər duyğular hərəkətlə bağlı olduqda onların inkişafı daha müvəffəqiyyətlə gedir.

Fiziologiyanın müəyyən etdiyi müddəalara görə analizatorun fəaliyyəti o zaman yüksəlir ki, onunla eyni zamanda digər analizatorlar da iştirak etsin. İki – üç analizatorun birgə işi uşağın tanış olduğu əşya haqqında çoxlu məlumat verməklə yanaşı həm də hər bir analizatorun həssaslığını artırır, müasir aləmin verdiyi məlumatlar K. D. Uşinskinin uşağa əşyanı bütün hiss orqanları ilə qavramaq inkanı vermək zəruriyyəti haqqındakı fikrini təsdiq edir.

Sensor tərbiyə məsələləri sahəsindəki psixoloji və pedaqoji tədqiqatlar aşağıdakı nəticələrə gəlməyə imkan verir.

Uşağa əşyaları ona məxsus olmayan nişanələrə görə deyil, onların özünəməxsus nişanələrinə görə fərqləndirməyi öyrətmək vacibdir. Buna görə də oyunda, rəsmdə, quraşdırmada qarşıya qoyulmuş məsələnin həlli üçün nişanələrin fərqləndirilməsini zəruri hesab etmək lazımdır. Tikinti materiallarından nəzərdə tututlmuş tikintini müvəffəqiyyətlə inşa etmək üçün müəyyən formalar seçilməlidir.

Fəaliyyətin məzmunundan, motivliyindən asılı olaraq duyğuların itiliyi, dəqiqliyi və incəliyi dəyişir. Buna görə də sensor tərbiyə fəaliyyətin müxtəlif növlərinə (rəsm, gil işi, quraşdırma, aplikasiya, oyunlar, musiqi məşğələsi, əməyin müxtəlif növləri və s.) daxil edilir.

Sensor tərbiyə öz qarşısında təkcə uşaqları əşyaların ayrı – ayrı nişanələri ilə tanış etmək vəzifəsi qoymur, həm də onlara bu nişanələri müstəqil olaraq təyin etməyi, əşyaları " tədqiq" etməyi öyrədir. Bunun üçün uşaqlara nümunələrdən - "etalonlardan" (həndəsi fiqurlar, rənglər, məkan istiqaməti və s.) istifadə etməyi

öyrətmək lazımdır. Uşaqlar cisimlərin xassələrini təhlil etməyi, bir əşyanın nişanələrinin digərindən nə ilə fərqləndiyini təyin etməyi, nümunəyə uyğun nəyi dəyişdirmək lazım gəldiyini öyrənirlər.

Hissi idrakın inkişafında sözün böyük rolu vardır. Söz əşyanın nişanələrini ayırmağa, onu başqa əşyalarda görməyə kömək edir. Uşaq əşyaların nişanələrini ümumiləşdirməyə keçəndə, o, təkcə fərqləndirmir, həm də onları tanıyır. Bu onun yeni şəraitə bələdliyini artırır və səhvsiz hərəkət etməsinə imkan verir.Əgər deyilərsə, "çay istidir" o, çayı içmir, almanın qırmızısını, şirinini seçir.

Uşağın lüğətinə müxtəlif nişanələrin adlarının daxil edilməsi müqayisə qabiliyyətinin inkişafına kömək edir ki, bu da mühüm fikri əməliyyatdır. Uşaqlar əşyaları rəngini, formasını, ölçüsünü, ağırlığını toxunmaqla xassəsini hiss etməsinə görə müqayisə edirlər.

Məktəbəqədər yaş dövründə təkcə xarici mühitin təsirinə qarşı həssaslıq, görmənin, eşitmənin, toxunmaqla duymağın itiliyi qüvvətlənmir, ən başlıcası əşyaların qavranılmış nişanələrinə şüurlu münasibət, onların üzərində mühakimə etmək qabiliyyəti də inkişaf edir.

Uşağın sensor tərbiyəsində təlimin böyük rolu vardır. Bəzən eyni yaşlı uşaqlar rəngləri, formaları, məkan münasibətlərini bilmək sahəsində bir – birlərindən xeyli fərqlənirlər. Sensor inkişafın aşağı səviyyədə olması mütləq əqli və estetik inkişafın ləngiməsinə gətirib çıxarır.

**Rənglərlə tanışlıq.**Əşyaların rəngləri uşaqları lap körpəlikdən özünə cəlb edir. Uşaq parlaq müxtəlif rənglərlə boyanmış oyuncaqlara meyl edir. O, artıq bir yaşında ikən rəngləri fərqləndirməyə başlayır, iki yaşda olanda tərbiyəçi əsas rənglərin adlarını deyir, uşaqlar tədricən o adları öyrənir, üç yaşında isə onlar nəinki rəngləri bir – birindən fərqləndirməyi, həm də qırmızı, göy, yaşıl, sarı rənglərin adlarını deməyi bacarırlar. Sonra isə tədricən digər rənglərin də adlarını bilirlər.

Uşaqlar oyun və əməkdə rənglərlə daha yaxından tanış olurlar. Geyinəndə tərbiyəçi onların diqqətini paltarlarının rənginə cəlb edir.

Rənglərlə tanışlıqda rəsm məşğələləri xüsusi əhəmiyyətə malikdir.

Uşağın qarşısında hər hansı bir əşyanı və ya sahəni çəkmək vəzifəsi qoyulduqda o, karandaşı və ya boyanı elə seçməlidir ki, alınmış təsvir əslinə oxşasın, rənglər arasında yaxşı uyğunluq alınsın. O, əşyanın rəngini yada salmalı, yaxud da ona baxmalı, özünün çəkdiyi şəkli onunla müqayisə etməlidir.

Uşaq şəkil çəkərkən rənglərin dəyişməsi ilə tanış olur: açıq rəngi tünd rəngə çevirmək, boyaların qatışdırılması nəticəsində yeni boya almaq kimi bacarıqlara yiyələnirlər. Rənglərin çalarlığının, uyğunluğu haqqında anlayış yaradılır.

Oyuncaqları, didaktik materialları seçmək yolu ilə uşağın rəngləri mənimsə-məsi prosesini yüngülləşdirmək lazımdır. Milli oyuncaqları: ən gözəl əyani vəsait rolunu oynaya bilər. Körpələrə qırmızı, sarı, yaşıl, göy boya ilə çox diqqətlə rənglənmiş eyni rəngli piramidalar, fincanlar, qutular, kürəciklər vermək lazımdır.

Kuklaların geyimi də, rəngləri tanımaqda uşaqlara kömək edir. Uşaqlar onların paltarlarını geyindirəndə, soyunduranda rənglərin adlarını deyir, donun, qoftanın rənginə müvafiq papaq seçirlər.

Əşyanın rəngini onun digər nişanələrindən fərqləndirməyi uşaqlara öyrətmək, onları ümumiləşdirilmiş "rəng" anlayışına gətirib şıxarmaq üçün didaktik oyunlar vacibdir. Balacalar üçün Y.İ.Tixiyevanın yaxşı oyunları vardır: rəngli xalçalar, rəngli bayraqlar və s. uşağın qarşısında otaqda olan qırmızı oyuncağı tapıb qırmızı xalçanın üstünə, göy oyuncağı isə göy xalçanın üstünə qoymaq kimi vəzifə durur. Xassələrindən asılı olmayaraq müxtəlif əşyalar bir əlamət üzrə (qırmızı rəng) birləşirlər.

Məktəbəqədər böyük yaşlı uşaqlara əşyaları bir nişanəsinə görə ümumiləşdirməyi tələb edən oyunlar tövsiyə olunur. Məsələn, "yaşıl rəngli əşyaların adlarını de" (yaxud başqa rəngdə

alarının). Körpələrin oyunundan fərqli olaraq bu oyunda əşyalar göz önündə deyildir, onları yada salmaq və səhvsiz olaraq adlarını demək lazımdır.

Əşyaları rənginə görə və rənglər haqqında ümumiləşdirilmiş təsəvvürlərin formalaşdırılması üzrə müqayisə etmək üçün şəkillərə baxmaq və şəkilli oyuncaqlar, üstündə müxtəlif rənglə boyanmış eyni əşyalar təsvir olunan loto və cüt şəkillər çox şey öyrədir. Uşaqların qarşısında müxtəlif oyun vəzifələri qoyulur: müxtəlif boyalarla rənglənmiş əşyalar təsvir olunan şəkilləri yaxud eyni rəngli müxtəlif əşyaları seçmək və hər iki halda şəkilləri müqayisə etmək, bir nişanə üzrə əşyaları ümumiləşdirmək tələb olunur.

Şəkillərə baxarkən qarşıya qoyulmuş idrak vəzifəsi - əşyalar və onların xassələri ilə tanışlıq – estetik vəzifə ilə əlaqədardır. Rəngin qavranılması hər iki vəzifənin həlli üçün mümkündür. Əgər uşaq boyaya, onların çalarlığına nəzər salarsa, onun sınaqdan keçirdiyi estetik zövq daha anlaşıqlı olar.

Uşaq rəngi əşyanın digər xassələrindən asılı olmayaraq qəbul etmir. Şəklə baxarkən uşağın hər şeydən əvvəl onun məzmununu başa düşməsi, zəruri məsələlərdən biridir, bundan sonra onun diqqətini detallar üzərinə yönəltmək olar.

Rənglərlə tanışlıq oyun və məşğələlərin hər zaman yeganə və əsas vəzifəsi olmur. Bununla yanaşı uşaqlar təsvirçiliyi, müşahidəçiliyi öyrənirlər. Didaktik oyunlarda uşaqların rəngləri bir birindən fərqləndirməsi müşahidəçiliyin, diqqətin və inkişafından asılıdır.

**Məkan haqqında təsəvvürlərin inkişafı.** Uşaq ətraf mühiti onun dinamikliyi və dəyişkənliyi ilə qavrayır. Bütün həyat hadisələri məkan və zaman daxilində baş verir, forması və böyüklüyü olur.

Məkan haqqında təsəvvürlərin və anlayışların inkişaf etdirilməsi uşağın ümumi inkişafı ilə, ətraf aləm haqqında biliklər qazanması ilə bağlı olan uzunmüddətli və mürəkkəb bir prosesdir.

Məktəbəqədər yaşda məkan ilə tanışlığın başlanğıc mərhələsi əqli inkişaf, məktəbəhazırlıq, həyat və praktik bələdlik üçün zəruridir.

"Məkan təsəvvürləri" anlayışına aşağıdakılar daxildir: forma, böyüklük, məkan münasibətləri – məsafə, yerləşmə, istiqamət (uzaq – yaxın, sol – sağ, irəli – geri, yuxarı – aşağı, alt – üst).

Uşaq praktik olaraq ətraf şəraitə tez bələd olur. Lakin məkan anlayışları, xüsusilə məkan münasibətləri dərhal əmələ gəlmir. Bunun üçün uşaq əşyaların xüsusiyyətlərini təhlil etməyi, əşyalar arasındakı əlaqələri başa düşməyi, bu əlaqələri sözlə ifadə etməyi öyrənməlidir.

İ.M.Seçenov göstərmişdir ki, əşyaların həcmini,formasını yerləşməsini görmək və fərqləndirmək bacarığı əzələ hissi ilə görmə obrazı assosiasiyalarının nəticəsidir.

Uşaqların əşyaların forma – həcmi və məkan nisbəti ilə tanışlığı metodikası məhz bu müddəaya əsaslanmışdır.

F o r m a əvvəlcə uşaqlar tərəfindən konkret əşyanın keyfiyyəti kimi başa düşülür, formanın adı, həmin əşyanın adı ilə müəyyənləşdirilməmişdir, belə ki, "kubiklər" – tikinti materiallarıdır, kürəciklər – oyuncaqlardır. Bu ad bütün kürəvari formalı əşyalara aid deyildir.

Tərbiyəçi uşaqlara onların oxşar cəhətlərini görməyi öyrədir. Uşaqlar çox vaxt formanı oxşar tanış əşya ilə adlandırırlar. Kağız üzərində çəkilmiş dairəni "təkər" ovalı yumurta adlandırırlar. İnkişafın daha yüksək pilləsində uşaqlar başa düşməyə başlayırlar ki, müxtəlif əşyaıar bir formada ola bilər. Bu zaman həndəsi forma haqqında anlayış vermək, ümumiləşdirmə aparmağa gətirib çıxarmaq olar. Bu məqsədlə uşaqlara əşyaları "tədqiq" etmək – onlara diqqətlə baxmaq, əl ilə toxunmaq, bir – biri ilə müqayisə etmək öyrədilir. Əgər bu "tədqiq" rəsm və gil işi yolu ilə həyata keçirilirsə, uşaqlar təsvir olunan əşyanın daha dəqiq formasını verə bilərlər.

Fəaliyyətun müxtəlif növlərində əşyaları "tədqiq" etmək və onların formasını müəyyənləşdirmək olar. Belə ki, payız yarpaqlarını toplayarkən uşaqlar onlara baxır, əlləri ilə toxunur, forma-

larını müqayisə edir və görürlər ki, yarpaqların bəziləri dairəvi, digərləri isə oval şəklindədir. Uşaqlar otağı yığışdıranda tərbiyəçi onların diqqətini stolların, stulların formasına cəlb edir. Uşaqlar görürlər ki, qrup otağındakı bütün stollar düzbucaqlı formasındadır, biri isə dairəvidir. Stulların oturacaqları dairəvi, kətillərinki isə düzbucaqlıdır. Tikinti materialları ilə oyun və məşğələ həcmli formalarla tanışlıq üçün çox əhəmiyyətlidir. Uşaqlara formaların adlarını dəqiq demək öyrədilir – kub, piramida, silindr, konus. Uşaqlar üçün çətin olan istilahlar – "paralelopiped" və "üç tərəfli prizma" daha asanları ilə - kərpic və tir ilə əvəz olunur.

Uşaq əşyalarla işləyərkən onların ölçüləri ilə qarşılaşır, görür ki, əşyalardan biri böyük, başqası kiçikdir. Beləliklə də böyüklük və kiçiklik arasındakı nisbəti anlamağa başlayırlar.

Uşaq əvvəlcə kontraslı fərqləri görür, həm də onlar differensiya edilmiş olur. Uşaq "böyük", "kiçik" sözlərini tez mənimsəyir, "uzun – gödək", "hündür – alçaq" sözlərini də bu terminlə ifadə edir. Əgər inkişafın bu mərhələsində təlim aparılmasa uşaq uzun müddət bu səviyyədə qala bilər. Halbuki uşaqlar oyun, rəsm, quraşdırma təcrübəsində əşyaların bütün bu əlamətlərinə təsadüf edirlər, lakin onların bu sahədə düzgün, dəqiq tanışlığının olmaması maneəçilik törədir. Uşaqlara bütün böyüklük nişanələrini düzgün – dəqiq göstərməyi, müqayisədən mükəmməl dərəcədə istifadə etməyi öyrətmək lazımdır.

Uşaqlar bunları dərhal mənimsəyə bilərlər. Buna görə onlarla çoxlu çalışmalar, hər şeydən əvvəl oyun xarakterli çalışmaların aparılması tələb olunur.

Bir çox didaktik oyuncaqlar – bir–birinin içərisində yerləşdirilmiş oyuncaqlar, piramidalar böyüklüyü fərqləndirmə üzərində hazırlanmışlar. Uşaqlar artıq üç yaşında olarkən bu oyuncaqları mənimsəyirlər. Lakin buraya onları tədricən mürəkkəbləşdirmək, dəqiq fərqləndirməyi, istilahları düzgün işlətməyi tələb edən tapşırıqlar daxil etmək olar.

Böyüklüyün fərqləndirilməsi əməkdə, təsviri fəaliyyət prosesində tələb edilir. Rəsm və gil işlərində təsvir olunan əşyanın

hissələrinin – başın və bədənin, evin və ağacın müqayisəli ölçülərini təyin etmək lazımdır. Süfrə açarkən növbətçi dərin və dayaz boşqabları, şorba üçün böyük qaşıqları, çay üçün isə kiçik qaşıqları seçməli olur. Tərbiyəçi münasib vəziyyətdən istifadə edərək uşaqlara əşyaları böyüklüyünə görə fərqləndirməyə yönəltmək, onun əlamətlərini adlandırmağı yoxlamaq və dəqiqləşdirmək üçün suallar verir.

Təbiətin və ətraf həyatın müşahidə edilməsi böyüklük əlamətlərini fərqlən-dirmək üçün çox şey öyrədir. Meşəyə gedərkən tərbiyəçi uşaqların diqqətini hündür ağaclara, alçaq kollara, qocaman palıdın yoğun və cavan ağacların nazik gövdəsinə cəlb edir.

Uşaq hər şeydən çox məkan münasibətlərini çətin başa düşür.

" Yaxın", " uzaq" sözləri tez yaranır, lakin əvvəlcə onlar məzmunca sadə olur, uşaqların şəxsi təcrübəsi ilə məhdudlaşır ("Uzaqdadır, nənəm yaşayan yerdədir"), tədricən görüş dairəsi genişləndikcə bu anlayış daha konkret məzmunla zənginləşir. Lakin, məktəbəqədər böyük yaşlı uşaq da məsafə fərqini çətin təsəvvür edir.

Üç yaşında uşaqda artıq məkana bələdlik praktik olaraq yaranır. O, irəliyə və geriyə qaçır, pilləkənlə yuxarı qalxır, stolun altında gizlənir, lakin onda məkan münasibətləri haqqında dərk edilmiş təsəvvürlər yoxdur, o, sağda və solda nələrin olduğunu təyin edə bilmir.

Uşaqların lüğətində əvvəlcə "burada", " orada" sözləri yaranır. Bu hələ məkanın qeyri – dəqiq, həm də çox ümumi nişanələridir. Uşağın düzgün terminolo-giyaya yiyələnməsi və beləliklə də məkanı şüurlu surətdə qavraması üçün uzun müddətli iş tələb olunur. Sağ və sol tərəfləri fərqləndirməyi öyrətmək üçün vasitələr çoxdur: ayaqqabının hansı tayını sağ, hansını sol ayağa geymək lazımdır. Sağ əl ilə şəkil çəkir və xörək yeyirlər.

Məkan münasibətləri hər şeydən daha artıq hərəkətdə mənimsənilir, onları əşyanın forması və həcmi kimi əl ilə yoxlamaq olmaz. Buna görə də gimnastika və hərəkətli oyunlar xüsusilə

vacibdir. Bunlar söz işarələri ilə müəyyən istiqamətdə hərəkət etməyi öyrənir: irəli, geri, düz, sağa, sola.

Məkan haqqında təsəvvürlərin formalaşmasında tikinti oyunları böyük əhəmiyyətə malikdır. Tikinti vəzifəsini həll etmək üçün lazımi formaları seçmək, onları uzununa, eninə, hündürlüyünə görə müqayisə etmək, sahədə güzgün yerləşdirmək tələb olunur. Bu zaman müstəqil axtarışlar aparmaq, "tədqiq" etmək üçün uşaqlar böyük imkanlara malik olurlar.

Həndəsi mozaikalar, şifahi oyunlar, tapmacalar kimi didaktik oyunlar məkan haqqında təsəvvürlərin inkişafına kömək edir.

**Zaman haqqında təsəvvürlərin inkişafı.** Zamanı təyin etmək bacarığı uşağın əqli inkişafı və onun əməli fəaliyyəti üçün çox vacibdir. Lakin uşaqlarda vaxt haqqında təsəvvürlərin formalaşması bir çox çətinliklərlə əlaqədardır. Vaxt da məkan kimi, obyektiv reallıqdır, lakin məkan anlayışlarından fərqli olaraq o, hər hansı müəyyən analizatorlarla duyulmur; o, daim təkrar olunan həyat hadisələrinin növbələşməsi vasitəsilə qavranılır, gündüz gecəni əvəz edir, həmişə gəzintidən sonra nahar edilir, ondan sonra isə gündüz yuxusu gəlir. Uşaq vaxtın axıcılığını və nisbiliyini çətin başa düşür: "Sabah" sözlərini "bu günə" çevirir, "bu gün" isə "dünənə" çevrilir. Bu vaxt münasibətlərini başa düşmək üçün onları gündəlik həyat faktlarından ayırmaq bacarığı tələb olunur.

Uşağın anadan olduğu ilk gündən onda vaxta görə şərti refleks yaradılır: uşaq vaxtlı – vaxtında yeməyə, yuxu ilə oyaqlığın növbələşdirilməsinə öyrədilir. Bu əsasda da sonralar vaxt təsəvvürləri və anlayışları formalaşdırılır.

Vaxtı başa düşmək – vaxt ardıcıllığını, vaxtın uzunluğunu başa düşmək deməkdir.

Yaşlıların hərəkətlərindəki və öz hərəkətlərindəki ardıcıllığı, təbiət hadisələrinin növbələşməsini yadda saxlamaqla uşaqlar üç yaşından onları dərk etməyə, başa düşməyə və bu asılılığı öz nitqlərində istifadə etməyə başlayırlar. ("Anan sənin dalınca nə vaxt gələcək?" - "Nahar edib gəzməyə getdikdən sonra anam mənim dalımca gələcək").

Vaxtın uzunluğunu uşaqlar əvvəlcə yalnız qısa bir vaxt şəklində dərk edirlər. "İndi","sonra" kimi istilahlar uşaqların leksikonunda tez yaranır.

Yaddaşın və təfəkkürün inkişafı ilə əlaqədar olaraq uşaqlar hadisələri uzun müddət yadda saxlamağa başlayırlar. Psixologiyanın məlumatları göstərir ki, yaşlı adamların 3 – 4 yaşında keçirdiyi hadisələr daha aydın yadında qalır.

Oyunlarda, əməkdə, məşğələlərdə uşaqlar temp, ritm haqqında təsəvvür alır, keçmiş və gələcək vaxtı düşünməyə başlayırlar. Bütün bunlar vaxt qavrayışını zənginləşdirir və vaxt anlayışlarını mənimsəməyə hazırlayır. Uşaq bağçasının proqramında göstərildiyi kimi uşaqlar 5 yaşında gecə - gündüzün hadisələrini fərqləndirir və adlarını düzgün deyir: "bu gün", "sabah", "dünən" ifadələrini düzgün işlədirlər. Məktəbəqədər böyük yaşlı uşaqlar isə həftənin günlərini, ilin fəsillərinin ardıcıllığını, cari ayın adını mənimsəyirlər.

Vaxtı bilmək məntiqi təfəkkürün inkişafına, lüğətin zənginləşdirilməsinə, nitqin qrammatik quruluşunun formalaşmasına (B.Paşayevanın tədqiqatının nəticələrinə) kömək edir. Yaşlılar gündəlik həyatda, müxtəlif məşğələlərdə uşaqların diqqətini vaxt nişanələrinə cəlb edir və beləliklə də uşaqların apardıqları müşahidələr, onlar üçün oxunan kitablar, söylənilən nağıllar haqqında biliklərini daha da dərinləşdirirlər. Məsələn, uşaqlar nağıl danışarkən onların qarşısında belə suallar qoyulur: "Əvvəlcə necə olmuşdur? Ondan sonra hansı hadisələr baş verdi?" vaxt münasibətlərinin məntiqinin ayrılması hekayəni, yaxud nağılı ardıcıl qaydada danışmağa, hadisələrin səbəb – nəticə əlaqələrini başa düşməyə kömək edir.

**Eşitmə qavrayışının inkişafı.** Uşaqda həyatının birinci ilindən başlayaraq təbiətdə və ətraf həyatda zəngin olan səsləri dinləmək, fərqləndirmək qabiliyyəti inkişaf etməyə başlayır. Təbiətin müşahidəsi zamanı tərbiyəçi uşaqlara sakit olmağı və meşənin səsini, çayın şırıltısını, quşların nəğməsini, böcəklərin vızıltısını dinləməyi tapşırır. Küçədə gəzinti vaxtı uşaqlar nəqliyyatın səsinə, maşınların fit verməsinə qulaq asırlar. Bütün bunlar

məktəbdə oxumaq və gələcək həyat üçün zəruri olan eşitmə diqqətini inkişaf etdirir, uşaqların sensor tərbiyəsini zənginləşdirir.

Hazırda eşitmə hissi anlayışı genişlənir. A.N.Leontyev aşağıdakı fərziyyəni irəli sürmüşdür: insan üçün səs gerçəkliyi əsasən iki aspektdə - danışıq səslərində və musiqi səslərində mövcuddur. Buna görə də insanda keyfiyyətcə iki müxtəlif sensor sistem formalaşır - nitq və ya fonematik səs qavraması, musiqi və yüksək səs qavraması.

İlk uşaqlıq dövründə fonematik səs qavramasının inkişafının tədqiqi göstərir ki, iki yaşda o, artıq kifayət qədər inkişaf etmiş olur. Uşaqlar bir – birindən yalnız bir cingiltili və ya kar samitlə, ya da qalın və incə samitlə fərqlənən sözləri seçə bilərlər. Məktəbəqədər yaşda səs qavramanın daha yüksək forması – sözün səs quruluşunu təhlil etmək qabiliyyəti inkişaf edir.

N.A.Vetlugina uşaqlarda yüksək səs və ritmik səs qavrama qabiliyyətinin formalaşmasını tədqiq etmişdir. O, sübut etmişdir ki, səslərin yüksəkliyinə, uzanmasına görə fərqləndirmək sahəsində təmrinlər sistemi, not üzrə oxumaq üçün lazımi səsqavrama hazırlığı təmin edilir. Bu çalışmalar bir də ona görə zəruridir ki, təbii amillərdən asılı olmayaraq bütün uşaqlarda musiqi qabiliyyətini formalaşdırır. Bu çalışmalar istedadlı uşaqlara öz qabiliyyətlərini daha mürəkkəb musiqi fəaliyyətində tətbiq etməyə kömək edir.

Beləliklə, nəğmə təlimi prosesində uşaqların qarşısında təkcə nümunə üzrə nəğmə oxumaq vəzifəsi deyil, həm də səsləri fərqləndirmək vəzifələri qoyulmalıdır.

**Taktil (toxuma) həssaslığın inkişafı.** Artıq yuxarıda deyildiyi kimi, əşyanı görmə ilə tanışlıq zamanı əl ilə toxunmaq uşağa çox vaxt kömək edir. Uşaqlar əşyanın formalaşmasını və ölçüsünü təyin edərkən təkcə onlara baxmaqla kifayətlənmirlər, həm də əlləri ilə toxunurlar. Təzə oyuncaqlarla da belə hərəkət edir, onun nədən hazırlandığını öyrənmək istəyirlər.

Toxunmaqla əşyaların xassəsini müəyyənləşdirmək üçün gündəlik həyatda, əməkdə, oyunda imkan daha çox olur. Paltar geyinərkən yun parçanı pamazı, yaxud da çit önlük ilə müqayisə

edirlər. Oyun zamanı taxtadan düzəldilmiş matryoşkanın paralon kukladan ibarət olduğunu görürlər. Qum səpələnib dağılır, gil isə yox. Gildən müxtəlif fiqurlar düzəltmək olar. Qar da, buz da soyuqdur. Lakin buz bərk, qar isə yumşaqdır.

Heyvanları müşahidə edərkən görürlər ki, onların bəzilərinin tükü cod, digərlərinki isə yumşaqdır.

Tərbiyəçinin vəzifəsi uşaqların diqqətini işlətdikləri əşyaların keyfiyyətinə cəlb etmək və bu keyfiyyətləri düzgün deməyə yönəltmədir, o, bərk, yumşaq. hamar, sərt, sıx, yüngül, ağır sözlərini uşağın leksikonuna daxil etməlidir.

Oyun – tapmacalar əşyaların keyfiyyətini yada salmağa və onları düzgün işlətməyə vadar edir. (Siz hansı yumşaq tüklü heyvanlar tanıyırsınız? Sizin hansı oyuncaqlarınız yumşaqdır? Ağacdan nə düzəldilmişdir? Şüşədən nə düzəldilmişdir? Metaldan nə düzəldilmişdir?" "tərsinə" adlı oyunda deyilənlərin əksinə olan anlayışları bildirmək lazımdır: "Soyuq – isti, ağır – yüngül, bərk – yumşaq".

**İybilmə və dadbilmə həssaslığının inkişafı.** İybilmə və dadbilmə həssaslığı digərlərinə nisbətən az tədqiq edilmişdir. Çünki uşağın hərtərəfli inkişafında onların rolu, görmə, eşitmə, toxunma və əzələ hissləri qədər böyük deyildir. Lakin həyatda ərzaq məhsullarını, onların keyfiyyətini iyə və dada görə fərqləndirməyi bacarmaq lazımdır. İyləri fərqləndirmək təbiətlə və ətraf mühitlə tanış olmağa kömək edir. Çay, meşə, çəmən özlərinə məxsus iyə malikdirlər. Onlar yadda qalır, lakin sözlə ifadə etmək çətindir. Yarpaqlar tökülən zaman parka, bağa, meşəyə gələn uşaqlar "nə iyi gəlir?" – deyə soruşurlar, "payız iyi gəlir" – deyə onlar özlərinə cavab verirlər. Ətirdən alınan həzz çiçəyin estetik qavranılmasını tamamlayır.

Uşaqlar yaşlıların əməyinin müxtəlif növləri ilə tanış olurlar. Onların diqqətini əməyin müxtəlif əlamətləri ilə yanaşı iy və dad bilməyə də cəlb edir. Çörək dükanından çörək iyi, dülgərlik emalatxanasından ağac iyi, mətbəxdən dadlı xörək, həkim otağından isə dərman iyi gəlir.

Beləliklə, sensor tərbiyə bütün məşğələlərdə, oyunlarda həyata keçirirlir. Tərbiyəçilər uşağın sensor tərbiyəsi vəzifələrini yaddan çıxarmamalı, onları uşağın fəaliyyətinə bacarıqla daxil etməlidirlər.

Bütün hallarda əşyalarla və həyat hadisələri ilə tanışlıq bütövlükdə gedir, bu zaman onların ayrı – ayrı xassələri daha aydın görünür. Bu xassələri uşaq müxtəlif əşyalarda, müxtəlif şəraitdə gördükdən sonra adlarını mənimsəyir və onları ümumiləşdirməyə yaxınlaşa bilir. Beləliklə, sensor tərbiyə uşaqları duyğu və qavrayışın inkişafından təsəvvür və anlayışların əmələ gəlməsinə, məntiqi təfəkkürün inkişafına gətirib çıxarır.

# IX FƏSİL

## UŞAQ BAĞÇASINDA TƏLİM

**Məktəbəqədər yaşlı uşaqların təliminin əsasları.** Təlim də tərbiyə kimi bəşər tarixi yarandığı gündən əldə olunmuş naliyyətləri gələcək nəslə çatdırmaq tələbatından irəli gəlmişdir.

Təlim yarandığı ilk dövrlərdən yaşlılar tərəfindən müəyyən məlumatları uşaqlara çatdırmaqdan başlayır. Tədricən bu planlı, məqsədyönlü bir proses kimi məktəbəqədər tərbiyə müəssisələrində, məktəblərdə, universitetlərdə aparılmağa başlayır və tədricən bəşəriyyətin əldə etdiyi zəngin təcrübə gənc nəslə çatdırılır. Bu ideyanı ilk dəfə görkəmli pedaqoq Y.A. Komenski özünün təlim nəzəriyyəsi ilə yerinə yetirdi. Sonralar bu ideyalar İ.H. Herbart, İ.H.Pestalotsi, A.Disterver, K.D.Uşinski tərəfindən elmi əsasda işıqlandırıldı. XIX əsrdən başlayaraq intensiv olaraq təlimin psixoloji əsasları özünü göstərdi.

Müasir cəmiyyətdə tərbiyə və təlim şəxsiyyətin hərtərəfli inkişafına yönəlmişdir. Tərbiyə cəmiyyətin davranış qaydalarını özündə əks etdirirsə, təlim bilik, bacarıq və vərdişlərin şüurlu və praktik fəaliyyətidir. Bu prosesdə təlimdə sistemlilik əsas faktordur.

Məktəbəqədər yaşda tərbiyə və təlim vahid pedaqoji proses olaraq bütün fəaliyyət növlərində uşaqların məktəbə hazırlığını təmin edir. Uşaq bağçasında didaktika ümumi didaktikanın təməlini qoyur. Məktəbəqədər dövrdə də təlimin məzmununda onun nəzəri əsasları, təşkili formaları, metod və vasitələri, uşaq şəxsiyyətinin inkişafını və onun məktəbə hazırlığının məzmununu təmin edir.

Təlimdə ardıcıllıq və sistematiklik ideyasını Y.A.Komenski "Ana qucağı" əsərində vermişdir.

Məktəbəqədər pedaqogikada təlim uşaqların hərtərəfli inkişafını təmin edən faktor olub tərbiyənin üzvü hissəsidir, həmçinin mühüm vasitədir. Məktəbəqədər tərbiyə müəssisələrində təlim pedaqoji prosesdir. Bu prosesdə məktəbəqədər yaşlı uşaqlar tərbiyəçi tərəfindən və onun rəhbərliyi altında elementar, lakin də-

qıq bilik, bacarıq və vərdişlər qazanır. Təlim prosesində uşaqlarda zehni əmək qabiliyyətləri inkişaf etməyə və formalaşmağa başlayır. Onlarda təfəkkür, nitq, diqqət, yaddaş və s. kimi psixi proseslər tədricən inkişaf edir. Bununla yanaşı uşaqlarda əxlaqi – iradi keyfiyyərlər də yaranır. Təlim prosesində uşaqlarda ətraf aləmin cism və hadisələrinin mahiyyətini öyrənmə meyli güclənir. Onlarda iradi keyfiyyətlər təşəkkül tapır.

Məktəbəqədər yaşlı uşaqların biliklərə yiyələnməsi planauyğun, sistemlə "asandan çətinə", "sadədən mürəkkəbə" prinsipinə müvafiq təşkil olunur. Uşaqların biliklərə yiyələndirilməsi onlarda dünyagörüşü genişləndirməklə həm də məktəb təliminə hazırlığı təmin edir. Məktəbəqədər yaşlıların təlimi mürəkkəb bir prosesdir. Bu, pedaqoji prosesdə uşaqlarda diqqəti cəmləşdirmək, yiyələnəcəkləri bilik və bacarığı şüurlu dərk etmək, müstəqil öyrəndiklərini söyləmək qabiliyyətini təşəkkül və inkişaf etdirməyi nəzərdə tutur.

Uşaq bağçasında təlim prosesinin qarşısında duran vəzifələri aşağıdakı kimi qruplaşdırmaq olar:

a) bilik və məlumatların uşaqlar tərəfindən düzgün və şüurlu mənimsənilməsi, onlarda zehni işə meyl və marağın tərbiyə edilməsi;

b) məşğələlərdə və ya məşğələlərdən kənar vaxtlarda müxtəlif fəaliyyət proseslərində uşaqların qazanmış olduqları biliklər, bacarıq və vərdişlərin təkrarlar yolu ilə möhkəmləndirilməsi;

c) uşaqlarda əhatə olunduqları və qazanmış olduqları bilik və məlumatlara şüurlu münasibət tərbiyəsi. Burada həmçinin yaradıcı münasibət də nəzərdə tutulur;

d) məşğələlərdə və digər fəaliyyət növlərində (oyun, əmək) qazanılmış biliklərin müstəqil tətbiqinə nail olmaq və bu əsasda uşaqlara yeni – yeni biliklər və bacarıqlar aşılamaq.

Yuxarıda göstərilən vəzifələri yerinə yetirmək üçün tərbiyəçi bir sıra keyfiyyətlərə malik olmalıdır. Bu keyfiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

a) Tərbiyəçinin məşğələnin məqsədini dəqiqləşdirməsi və anlaşıqlı şəkildə izah etməsi;

b) Təlim fəaliyyətinin təşkilində və gedişində uşaqlarda öyrənmə marağının yaradılması;

c) Uşaqların yerinə yetirməli olduqları vəzifələrin daha dəqiq izah edilməsi. Başqa sözlə məşğələnin məqsədinin uşaq tərəfindən başa düşülməsi, bununla belə yeni ideyaların çatdırılması;

d) Tərbiyəçinin ifadə vasitələrindən istifadə etməklə keyfiyyətli danışıq bacarığının olması;

e) Tərbiyəçi uşağı düşünməyə vadar edən, uyğun məzmunda suallar tərtib etməli, həmin suallara uşaqlardan aydın və lokonik cavablar almağa istiqamət verməlidir.

Tərbiyəçi uşaqlara bilik vermək, onları sadəcə sevməklə yanaşı, həm də dəqiq və aydın müşahidə etməyi, onların psixikasındabaş verən dəyişiklikləri görməyi, başa düşməyi bacarmalıdır. O, uşaqların emosiyalarında, suallarında, cavablarında ifadə olunan reaksiyaları, habelə onların öz fəaliyyətlərinə münasibətlərini öyrənməlidir.

Məktəbəqədər yaşlı uşaqların təlim prosesinin əsasını "dərketmə" fəaliyyəti təşkil edir. Uşaq bağçasında təlim didaktik prinsiplərdən kənarda mövcud deyildir. Didaktik sistem təlimin və tərbiyənin məqsədə yönəldilməsinin, məzmununun, forma və metodlarının birliyi ilə yaranan strukturların daxili bütövlüyü və tamlığı ilə xarakterizə edilir.

Uşaq bağçasında təlim prosesinin mahiyyəti uşaqların əhatə olunduqları xarici mühiti dərketmə yollarındakı fəaliyyətləri ilə bağlıdır. Bu zaman uşaqlar həm idrak, həm də praktik vərdişlər qazanır və onu tədricən təkmilləşdirirlər. İdrak prosesinin metodoloji əsasını idrak nəzəriyyəsi təşkil edir. Həm idrak, həm də onun əsasını təşkil edən təlim prosesləri ətraf aləmin dərk olunmasıdır.

Məktəbəqədər yaşlı uşaqların təlimi yalnız ətraf aləmin fakt və hadisələrinin yadda saxlanılması, bu əsasda onların təfəkkür, nitq və digər psixi proseslərinin inkişafına kömək etməklə bitmir. Həm də bir sıra iradi əxlaqi keyfiyyətlərin yerinə yetirilməsinə xidmət edir. Uşaq bağçasında təlim sakit, işgüzar, həm də uşaqlar üçün emosional şəraitdə keçilməlidir.

Didaktik sistem və təlim metodları.

Didaktik sistem təlim və tərbiynin məqsədinin qanunauyğunluqlarının təşkili prinsiplərinin məzmununu, forma və metodlarının birliyi ilə yaranan strukturların daxili bütövlüyü ilə xarakterizə edilir. Təlim prosesinin mahiyyəti deyərkən uşaqların gerçəkliyi dərketmə yolundakı fəaliyyəti nəzərdə tutulur. Bu zaman uşaqda idraki və praktik vərdişlər yaranır. İdrak nəzəriyyəsinin metodoloji əsası onun təşkili ilə müəyyən edilir. Həm idrak prosesi, həm də təlim prosesi gerçəkliyin dərk olunmasına xidmət edir. İdrak prosesi obyektiv gerçəkliyin hər hansı bir insan tərəfindən dərk olunması prosesinin onun bilik və inkişaf səviyyəsindən, yaş və fərdi xüsusiyyətlərindən asılı olduğunu bildirir. Uşağı əhatə edən makro və mikro mühitdəki fakt və hadisələrin dərk olunması güzgü kimi passiv deyil. Fəal inikas prosesidir. Belə ki, bu proses hər hansı bir hadisənin səbəb və nəticələrinin qanunauyğunluqlarını şüurda əks etdirir.

Məktəbəqədər pedaqogikada idrak prosesinin daimi olduğu, həqiqətə doğru "sonsuz və əbədi" yaxınlaşma prosesi olduğu göstərilir. Bu isə öyrənmənin dərketmə hadisələri ilə bağlılığıdır. Məlum bilikləri öyrənmə hadisəsi ilk dəfə dərk etmək, sonralar onu daha da təkmilləşdirmək deməkdir. Bəşər cəmiyyəti inkişaf etdikcə öyrənilənlər mahiyyətcə təkmilləşir. Onların hafizəyə həkk olma prosesi gedir. Təlim prosesi tərbiyəçinin fəaliyyəti ilə uşaqların fəaliyyətini özündə cəmləşdirir. İki tərəfin fəaliyyətinin qarşılıqlı əlaqəsi nəticəsində gerçəkliyin dərk edilməsi prosesi həyata keçirilir.

Gerçəkliyin uşaq tərəfindən dərk edilməsi daimi prosesdir. Təlim isə vaxtaşırı, müntəzəm və plana uyğun şəkildə aparılır. Biliklər uşaqlar tərəfindən deyildiyi kimi mənimsənilir. "İdrak prosesi" və "təlim" yaxın anlayşlarıdır, lakin aşağıdakı kimi fərqləri vardır.

1. İdrak prosesində gerçəklik müstəqil şəkildə, təlim isə uşaq və tərbiyəçinin iştirakı ilə dərk olunur (tərbiyəçinin tərbiyəediciliyi əsasında) .

2. İdrak prosesində heç kəsə məlum olmayan dərk edilir. Təlim prosesində isə bəşəriyyətə məlum olan, lakin uşağa bəlli olmayanlar öyrədilir.

3. İdrak prosesi hər hansı bir təbii şəraitdə də aparıla bilər, lakin təlim prosesi qrup otağında və ya digər qabaqcadan nəzərdə tutulmuş şəraitdə aparılır.

4. İdrak prosesində biliyin dərk olunması illərlə davam edir, təlim prosesində isə biliklər müəyyən vaxt daxilində qəbul olunur.

5. İdrak prosesində yanlış nəticələr ola bilər. Təlim prosesində isə ancaq təcrübədə yoxlanılmış biliklər öyrədilir.

Uşaq bağçasında təlim uşaqları hərtərəfli inkişaf etirmək, yəni onların dünyagörüşünü genişlədirmək, zehni inkişafını tədricən yüksəltməkdir. Məktəbəqədər yaşlı uşaqların mənimsəyəcəkləri bilik və vərdişlərin həcmi uşaqların inkişaf və dərketmə xüsusiyyətləri ilə bağlıdır. Ayrı - ayrı yaş qruplarında uşaqlar təlim prosesində vaxt və hadisələrlə əşyaların forması, rəngi və işlədilmə yeri haqqında, həmçinin təbiətin canlı və cansız obyektləri ilə tanış edirlər. Bununla bərabər öyrəndikləri fakt və hadisələrin arasındakı mövcud oxşarlıqları, fərqləri, asılılıqları, həmçinin münasibətləri öyrənirlər. Uşaqlar cəmiyyətdə baş verən hadisələrlə, yaşlıların əməyi ilə doğma diyarla tanış edilirlər. Bu tanışlıq onlarda münasibət və davranış mədəniyyəti tərbiyə edir.

Uşaqlar təlim prosesində cəmiyyətdə baş verən dəyişikliklər haqqında da məlumatlar alırlar. O cümlədən respublikamızın müstəqilliyi uğrunda şəhidlik qazanmış həmvətənlərimiz haqqında, Ulu Öndər Heydər Əliyev haqqında məlumat-lara yiyələnirlər. Ölkəmizdə onların xoşbəxt yaşamaları üçün dövlət qayğısı haqqında məlumatlara yiyələnirlər. Uşaqlar həmçinin ölkə prezidenti İlham Əliyev haqqında da, onun əmək və rəşadətinə dair məlumatlar alırlar.

Müxtəlif yaş qrupları üzrə uşaqlar təlim prosesində canlı və cansız təbiətin fakt və hadisələri haqqnda biliklər qazanırlar. Bitkilərin yetişdirilməsi, heyvanların həyatı haqqında bəzi biliklərə yiyələnirlər. Onlarda təbiəti müşahidə və bu əsasda təbiətdə baş

yerən gözəlliyi qavramaq və sevmək bacarığı tərbiyə olunur. Uşaqlar həmçinin təsviri fəaliyyətdə müxtəlif biliklərə və vərdişlərə yiyələnirlər. Təlim nəticəsində uşaqların təfəkkürü, nitqi inkişaf etdirilir. Onlarda düşünmə qabiliyyəti, əşya və hadisələrdəki oxşarlığı və fərqləri görmək bacarığı tərbiyə olunur. Məktəbəqədər yaşlı uşaqlar elementar musiqi qabiliyyətinə yiyələnir, yəni sadə melodiyaları mənimsəyir, bir – birindən fərqləndirir, nəğmə oxuyur, rəqs edirlər. Bağça yaşlı uşaqlar müxtəlif məşğələlərdə davranış mədəniyyətinə yiyələnir, onlarda düzgün yerimək, qaçmaq, müvazinəti saxlamaq və bu kimi hərəkətlərin təşəkkülü baş verir. Bu məqsədlə musiqi, idman və hərəkətli oyunlar kimi məşğələlərdən istifadə olunur.

**Məktəbəqədər yaşlı uşaqların inkişafında pedaqoji sistemin innovasiyası və təlimin texnologiyası.** Pedaqoji innovasiya özünün dəyişməsində istiqamətin təhlil sistemindəki stabil elementlərin yeniləşməsində, sistemin ayrı-ayrı hissələrinin və normativlərinin yaxşılaşdırılmasında innovasiyanın müəyyən edilmiş mövcud təsnifatı aşağıdakı kimidir:

**1.** Fəaliyyət sahəsinin növlərində: pedaqoji prosesin təkmilləşməsi istiqamətinin təmin edilməsi;

**2.** İdarəetmədə dəyişikliyin xarakteri: əsaslandırılmış radikallığın yeni idarəetmə yolunun məlum elementlərlə birləşdirilməsi, modifikasiya (şəklini dəyişdirmək) etməklə, təkmilləşdirilməklə mövcud formanı daha mühüm forma ilə əvəz etmək və tərzi yaratmaq;

**3.** Dəyişikliyin əhatə dairəsi: lokal, bir-birindən asılı olmayaraq ayrı bir istiqamətdə, yaxud onun komponentlərində aparılan dəyişiklik modeli, bir-birinə bağlı olan istiqamətlərdə bir neçə lokal pedaqoji innovasiyalar sistemli yoxlanılmış, dolğun rekonstruktor sisteminin quraşdırılması.

**4.** İstifadə dairəsi: təkbətək, diffuz formada

**5.** İnnovasiya təliminin yeni modifikasiyası: təlim materialı üçün işlənmiş innovasiya, hətta yeni vasitə metod, texnologiya proqramında da özünü göstərir. İnnovasiya prosesi kompleks fəa-

liyyətdir ki, bura yaratmaq, mənimsəmək, istifadə etmək, yenili... geniş yaymaq daxildir;

6. Predmet üzrə yeniləşmə:

- Məktəbəqədər təhsilin məzmununda;
- Öyrədici texnologiyada;
- Təlim prosesinin mövcud şəraitində.

Pedaqoji sistem şəxsiyyətin formalaşmasına təsir edən düzgün təşkil olunmuş vasitə, metod və prosesləri özündə birləşdirir. Hər hansı pedaqoji sistemi götürsək onun qarşısında üç sual durur: nə üçün - məqsəd, nə - məzmun və necə- metod.

Pedaqoji sistemin təsnifatının əsasında uşağın tərbiyəsi və demokratik konsepsiya durur: nə üçün öyrədirik – məqsəd;

nəyi öyrədirik – məzmun
necə öyrədirik – metod

**Pedaqoji texnologiya.** Pedaqoji texnologiyadan 1950-ci illərdə uşaq bağçalarında istifadə olunmağa başlanılmışdır. Pedaqoji texnologiya təhsil sisteminə öyrədici kimi daxil olmuşdur. Pedaqoji texnologiya uşağın təlim fəaliyyətindəki nailiyyətləri və inkişafı üçün zəruridir. Pedaqoji texnologiyada innovasiya təlim və tərbiyə sistemində variantlılığı ilə, özünəməxsus spesifikasına görə fərqlənir və praktikada özünü göstərir. O özündə pedaqoji ustalığın səviyyəsini və yaradıcılığı əks etdirir. Pedaqoji sistem və onun texnologiyası sosial sifarişlə, pedaqoji –psixoloji elmin səviyyəsi ilə, kadr potensialı və işçilərlə bağlıdır.

Təlimdə bir sıra metodlardan istifadə edilir.

**1.** Fokal metod: fokal (foks – şəkil) metoda əsasən uşağın diqqəti obyektin foks (mərkəzinə) nöqtəsinə yönəldilməlidir. Mərkəz diqqətdə olur. Bu metod pedaqoji işin qarşısında aşağıdakı vəzifələri qoyur.

- öyrənilən reallıqdan fərqli olaraq yeni, onun digər tərəfi (reallıqdan fərqli) haqqında fikirləşmək;
- uşaqların əvvəllər aldığı biliyi ya möhkəmləndirmək, yaxud da yeni biliklər vermək;
- əşyanı qeyri-adi formada göstərmək;
- nağıl və ya hekayə ilə tanış etmək;

- obyektə baxmadan onu tanış tərəfindən dəqiq müəyyənləşdirmək.

Bu metodlarla müxtəlif növ məşğələlər aparılır, ayrı –ayrı yaş qruplarında obyekt kimi şəkillər göstərilir. Uşaqlar həmin şəkillər üzərində nağıl və ya hekayələr düzəldirlər.

2. Pedaqoji axtarış: Pedaqoji axtarış uşaqların təlimində ən zəruri vasitədir. Tərbiyəçi heç zaman uşaqlara hazır biliklər verməməlidir. O, çalışmalıdır ki, uşaq özü öz sualının cavabını tapsın. Uşağın verdiyi suala dərhal cavab vermək lazım deyil. Əksinə uşağa yardımçı suallar verilir ki, o, yenidən həmin sual haqqında fikirləşsin və nəticəyə gəlsin. Elə etmək lazımdır ki, uşaq öz sualının cavabını tapmağa səy göstərsin və buna nail olsun. Tərbiyəçi pedaqoji fəaliyyətində, o cümlədən təlim prosesində problem situasiya yaratmalıdır ki, uşaq fikirləşsin.

3. Tərbiyəçi bəzən ikili xarakter daşıyan suallara müraciət edir. Belə ki, bir-birinə əks olan fikirlərlə uşağın intellekt səviyyəsini qaldırır. Məsələn: qar yağır, uşaqlar oynayır; qar soyuqdur, insanların üşüməsinə səbəb olur və s. tərbiyəçi yeri gəldikdə uşağın diqqətini suallarda hadisənin ikili tərəfinə cəlb edir. Bu zaman mühakimə yürütmə qabiliyyəti inkişaf edir.

4. Əksliyin (yaxşı və pis) uşağın diqqətinə çatdırılması.

Əksliyin yaxşı və ya pis tərəfi hələ xalq nağıllarından məlumdur. Məsələn, “Cırtdan” xalq nağılında göstərilir ki, div uşaqlara yemək verir. Digər tərəfdən onları yemək üçün təşəbbüs göstərir. Burada işin ikili xarakteri uşaqlara çatdırılır.

**Fəallaşdırıcı təlim.** Son dövrlərdə məktəbəqədər yaşlı uşaqların təlimi ilə məşğul olan tərbiyəçiləri təlimin qeyri – standart keçilməsi və onun üstünlüyü düşündürür. Yeni təlim sisteminin işlənilməsində əsas məqsəd uşaqlara biliklərin daha effektli səviyyədə çatdırılmasıdır. Uşaqların intellektini yüksəltmək üçün tərbiyəçi onlara verəcəyi biliklərin pedaqoji və psixoloji sahələr üzrə ən son materialların öyrənməli və iş fəaliyyətinə tətbiq etməlidir.

Uşaq bağçasında yeni fəallaşdırıcı təlim vasitələrindən istifadə edilir:

1. Əqli hücum – şüurlu dərketmə fəaliyyətidir. Əqli hücum təlim vasitəsi olmaq etibarı ilə yuxarı yaş qruplarında daha çox istifadə olunur. Təlim prosesini təkmilləşdirmək məqsədi ilə mövzu seçiminə uşaqların diqqəti cəlb olunur. Bu məqsədlə uşaqlara suallar verilir. Suallar tərtib edilərkən uşaqların əvvəlcədən əldə etdikləri bilik və bacarıqlara əsaslanılır. Yönəldici suallar verilir, beləliklə, nəzəri araşdırma və evrestik üsul tətbiq edilir. Nəticədə günün mövzusu, məqsədi özü tərəfindən müəyyən olunur. Fəallaşdırıcı təlimi vasitə kimi (əqli hücumdan) istifadə edərkən uşaqların yaş və inkişaf xüsusiyyətləri nəzərə alınır.

2. Rollu oyunlar – uşaqlara mövzunun planından asılı olaraq bilik və bacarıqlar verir. Rollu oyunların tətbiqi pedaqoji işə səmərəli təsir göstərir. Məsələn: sərbəst rəsm məşğələlərində "rəssam", yapma məşğələlərində "heykəltəraş", quraşdırma məşğələlərində isə uşaq "bənna" roluna girir və yaradıcı fəaliyyətdə olur. Belə oyun xarakterli sərbəst təlim prosesində uşaqlarda yaradıcı təlim fəaliyyəti inkişaf edir. Uşaq ciddi təlim prosesində özünü yaradıcı insan hesab edir və müstəqil fəaliyyət göstərir. Məşğələnin sonunda mövzu haqqında uşaqlar tərəfindən sərbəst olaraq fikir söylənilir. Tərbiyəçinin istiqamətləndirici cəhdləri ilə uşaqlarda müəyyən iş fəallığı yaranır ki, sona kimi proses maraqla davam edir və nəticə alınır.

3. Qrup və yarımqruplar – hər yarımqrup üzrə seçilmiş lider qrupun işi haqqında izahat verir. Daha səliqəli işləyən yarımqrup mükafatlanır. Bu tip məşğələlərdə ən tənbəl, ən zəif uşaq belə fəal olmağa çalışır və qələbə qazanır. Məşğələdə yüksək nəticə əldə edilir və iş effekt vermiş olur.

4. Məşğələdə yaradıcı "səs – küy" fəallaşdırıcı təlim prosesində istifadə edilir. Belə ki, tərbiyəçi yeni mövzunu izah etdikdən sonra uşaqlara keçmiş mövzu ilə əlaqədar yönəldici suallar verir. Eyni zamanda mövzunun mənimsənilmə səviyyəsini aydınlaşdırarkən onların fikirlərini öyrənmək məqsədi ilə həmin prosesi təşkil edir. Digər halda yeni mövzu ilə verilmiş tapşırığı icra etmək üçün qruplara bölünmüş uşaqlar öz fikirlərini yoldaşlarına danışır və sonda qrupun ümumi nəticəsi ilə tanış olunur.

**Təlim uşaqların həyatında mütəşəkkil məşğələlərin təsiri altında formalaşan xüsusi fəaliyyətdir.** Təlim sistemli və məqsədəyönlü şəkildə məktəbəqədər yaşlı uşağa təsiri olan təşkilati proses kimi məşğələ formasında həyata keçirilir.

Təlimdə deduktiv vəzifələr yada salınmalıdır.

Təlim prosesində uşağa müəyyən biliklər verməklə yanaşı ona müvafiq bacarıq və vərdişlər də aşılanır. Bu zaman onun diqqəti nəzərdən keçirilən materialın tərbiyəvi imkanlarına da yönəldilir. Uşaq tərbiyə edilərkən də bilik və məlumatlarla yiyələnir, həm də təlim alır. Ona görə də tərbiyə ilə təlim vahid proses kimi başa düşülür. Təsadüfi deyildir ki, Y.A.Komenski ana məktəbindən başlayaraq bütün yaş dövrlərində təlim və tərbiyənin vahid proses olması fikrini möhkəm müdafiə edirdi. Təlim prosesində nəzərdən keçirilən material həm də məktəbəqədər yaşlı uşaqların həyat hadisələri ilə tanışlığı məqsədilə istifadə edilir.

Uşaq bağçasında tərbiyə işi elə qurulur ki, böyüyən nəsil özünün uşaq həyatı ilə onun üçün səciyyəvi olan tələbat və maraqla yaşasın. O, uşaq bağçasında nəinki xüsusi metod və üsullarla, habelə bütün ətraf aləmin təsiri ilə, başqa uşaqlar və böyüklərlə ünsiyyət nəticəsində tərbiyə edilir. Təlim daha çox uşaqların fəallığına əsaslanır, tərbiyəçilər də həmin fəallıqdan istifadə etməyi bacarırlar.

Pedaq oji proses elə qurulmalıdır ki, uşaq tərbiyəvi təsirin obyekti deyil, subyekti olsun, şəxsiyyət kimi hərtərəfli fəaliyyət qazansın, keyfiyyət prosesində formalaşa bilsin. İctimai həyat hadisələri haqqında məlumat tərbiyə və təlim prosesinin bütün mərhələlərində, o cümlədən ətraf aləmlə tanışlıq, nitq inkişafı, təsviri fəaliyyət, bədii ədəbiyyatın oxunması, musiqi üzrə məşğələlər, gəzinti və ekskursiyalar, oyun və bayramlar, kütləvi tədbirlər zamanı verilir.

İctimai həyat hadisələri ilə tanışlığa kompleks yanaşma zərurəti, onun müxtəlif sahələri arasında məntiqi əlaqələrin olmasından irəli gəlir. Kompleks yanaşma müxtəlif vasitə və metodların qarşılıqlı əlaqəsini tələb edir.

Tematik planlaşdırma idrak materialını düzgün normalaşdırmağa, məlumatlar arasında məntiqi əlaqələri müəyyənləşdirməyə kömək göstərir. Çoxlu faktlarla dolu, geniş həcmli material uşaqların fikir fəallığını təmin edir. Uşaqların düşünmələri, materialı şüurlu mənimsəmələri isə çox vacibdir. Müqayisə, sualların qoyulması, fərdi tapşırıq, uşaqların təcrübəsinə istinad etmək, onların tərbiyəçiyə, həm də bir – birinə sual vermələrini təklif etmək, oyun üsulları və s. üsullardan istifadə buna çox kömək edir.

Müqayisə üsullarından istifadə prosesində uşaqlar insanların peşələri, onların əmək sahələri, əməyin xarakteri, həmçinin vətənimizdə yaşayan xalqlar, onların adət və ənənələri, məişəti, vətənimizin təbiəti, iqlimi haqqında biliklər əldə edirlər.

Müqayisə uşaqlarda konkret, aydın təsəvvürlərin, ətraf həyata fəal münasibətin formalaşmasına kömək edir. Uşaqlar gördükləri və eşitdiklərini müstəqil təhlil etməyi, tutuşdurmağı, müqayisə etməyi öyrənirlər, bildikləri ilə gördükləri arasında fərq əlaqələrini müstəqil tapmağı, ümumiləşdirmə aparmağı, nəticə çıxarmağı öyrətmək onların inkişafını təmin edir.

Məşğələdə uşaqlara yeni məlumat veriləndə onlarda hər şeyi bilmək həvəsi oyatmaq məqsədi ilə sual vermək imkanı yaratmaq lazımdır.

İctimai həyat hadisələri haqqında danışmağa hazırlaşarkən tərbiyəçi uşaqlara veriləcək biliklərin həcmini, onların fəal nitqinə daxil ediləcək sözlər minimumunu müəyyənləşdirməlidir. Elə sözlər seçilir ki, verilən məlumatın mənimsənilməsini təmin etsin. Vətənimiz haqqında məlumat verərkən uşaqların lüğətində bu sözlərdən istifadə olunur: Bakı, bölgə, kənd, küçə, dağ, meşə, çöl, tarla, Qarabağ, düşmən, dəniz, göl, çay, yeraltı qazıntı, qala, abidə, şəhid, Azərbaycan Respublikası.

Təlim prosesi bacarıqların möhkəmləndirilməsi kimi didaktik vəzifə daşıyır. Bəzən bilik və bacarıqlar asan və sərbəst möhkəmləndirilir, bəzən isə tərbiyəçi tərəfindən xüsusi işin aparılmasını tələb olunur. Məşğələnin təşkili prosesində təlimin tərbiyələndirici rolu da diqqət mərkəzində olur. Lakin müəyyən vaxtda özlüyündə məşğul olmaq arzusu uşaqlarda inkişafla əlaqədar ola-

meydana çıxır. Bilik və bacarıqların qazanılmasına yönəlmiş bir məşğələ uşaq tərəfindən səy tələb edir. Məşğələlərin təşkili olmalıdır ki, uşaqlar əməyi sevsinlər, onu həvəslə, maraqla yetirsinlər.

İctimai həyat hadisələri ilə tanışlıq ilk növbədə təlim ində həyata keçirilir.

Məşğələlər prosesində uşaq şəxsiyyətinin formalaşmasında həyat hadisələri ilə tanışlıq eyni cür olmur. Bir məşğələdə ictimai hadisə ilə tanışlıq o qədər asan deyil. Tərbiyəçi ilərək məşğələlərdə uşaqları hansı ictimai həyat hadisələri ilə edəcəyini müəyyənləşdirməlidir. Bu zaman uşaqların hansı ləri mənimsəyəcəkləri deyil, təlim materialının onun mənəvi yəsinə, şəxsiyyət kimi formalaşmasına necə təsiri diqqət ərkəzində saxlanılır. Təlim materialı uşağa güclü təsir göstərsə öz hisslərini daha sərbəst ifadə edə bilir. Bu zaman uşaqda yurda, vətənə, onun mədəniyyətinə, məişətinə, adət - ənə- məhəbbət, digər xalqlara, onların mədəniyyətinə maraq tərbiyə olunur. Uşağa ictimai hadisələrə münasibətini ifadə imkan verməli, şərait yaradılmalıdır. Belə edildikdə, uşaq- təlim materialının tərbiyəvi təsiri bir o qədər də güclü olur, bu onun bir şəxsiyyət kimi formalaşmasına təsir göstərir.

İctimai həyatla tanışlıq ətraf aləmlə tanışlığın mühüm tər- hissəsidir.

Uşaqların ictimai həyat hadisələri ilə tanış edilmələri üçün müxtəlif yollardan istifadə olunur ki, onlardan biri məşğələdir. inkişafı, ətraf aləmlə tanışlıq, təsviri fəaliyyət, musiqi məş- ələrində ictimai hadisələrlə tanışlığın imkanları genişdir, apa- vasitə isə ətraf aləmlə tanışlıq məşğələləridir.

Uşaqların ictimai həyatla tanışlığı o qədər də asan proses mayıb, didaktikanın yaxından uzağa prinsipinə əməl olunmasını edir.

Məktəbəqədər dövrdə uşaqların ictimai həyat hadisələrindən çıxarmaları, onun sadə qanunauyğunluqlarını dərk etmələri ların ətrafdakılarla münasibətlərinin düzgünlüyündən başla- Körpə uşaqlar ilk ünsiyyətə girməyə başladığı yaşıdları və

yoldaşlarını tanımağa, əhatəsində olduğu mühiti başa düşməyə, öz baxışları, hərəkətləri, fəaliyyəti ilə bu mühitdən razı qalıb qalmadığını bildirməyə çalışır, tədricən ictimai həyatı dərk edir. Ona görə də məktəbəqədər yaşlı uşaqların ictimai həyata, sosial münasibətlərə alışmaları son dərəcə vacibdir.

Uşaqlar bağçaya gələrkən onun həyat rejimi dəyişir. Onlar başa düşürlər ki, əziz, yaxın adamları yalnız ata, ana, nənə, baba, bacı və qardaş deyil, həm də bağçanın pedaqoji kollektivi onlara daim xidmət göstərən adamlar və yaşıdlarıdır. Uşaqlar tədricən düşdüyü mühiti və onu əhatə edən insanları başa düşür.

Yeni ictimai vəziyyət uşağa yeni tələblər verir. Onlar öyrənirlər ki, yaşlılarla, yaşıdları ilə müəyyən qarşılıqlı əlaqə yaratmalıdır, uşaq cəmiyyətdə yeni davranış qaydalarına əməl etməlidir. Bağçada uşaqlar yaşlı uşaqlarla oynamağı, gəzməyi, məşğul olmağı, yeməyi, dostluq etməyi, bir – birinə kömək etməyi öyrənirlər.

Yaş artdıqca uşaqlar öz arzu və istəklərini başqalarının arzu və istəkləri ilə uyğunlaşdırmağa, lazım gəldikdə güzəştə getməyə çalışırlar. Bütün bunlar isə onlarda əxlaqi təsəvvür və anlayışların normalarına bağlandığını, şəxsiyyətin əqli və əxlaqi cəhətdən inkişaf etdiyini göstərir.

Tədricən uşaqlar sosial təsəvvürləri mənimsəyir. Lakin onlar başqalarının ictimai tələbləri yerinə yetirmələrindən narazı qaldıqları halda, özünə münasibətlə buna fikir vermirlər. Çünki başqasının qaydanı pozması tez görünür. Deməli, davranış qaydalarını bilmək hələ onun yerinə yetirilməsi demək deyil. Yaxşı cəhət odur ki, uşaqlar yoldaşlarının hərəkətinə münasibət bildirib düzəliş verdikdə, elə bil özünü yoxlayır, həmin qaydaları gözləməyi lazım bilirlər.

Biliklərin uşaqlar tərəfindən tez mənimsənilməsi və yaddaşa həkk olunması, bacarıq və vərdiş tələb edir.

Uşaqlarda sosial münasibətlər, hər şeydən əvvəl tərbiyəçiyə münasibət əsasında yaranır. Buna uyğun olaraq tədricən digər tanış yaşlılara, cəmiyyətin ayrı – ayrı qruplarına hörmət hissi formalaşır.

Məktəbəhazırlıq qrupunda uşaqlara ünsiyyət qaydalarını, bir – biri ilə qarşılıqlı münasibətin yollarını öyrədərkən onlara fərdi yanaşmaqla əqlini inkişaf etdirmək, tədricən sosial təcrübəyə yiyələnmələrini təmin etmək zəruridir.

Artıq dörd yaşlılar valideynlərinin və onları əhatə edənlərin adlarını və atalarının adlarını bilir, yaşlılar və yaşıdlar ilə münasibət qurmağı bacarmalıdır. Məkrəbəhazırlıq qrupunda uşaqlar bir - biri ilə ünsiyyət qurmağı bacarırlar.

**Təlimin mahiyyəti və vəzifələri.** Təlim uşaqların hərtərəfli tərbiyəsini və inkişafının üzvi hissəsi və əsas vasitələrindən biridir. Təlim tərbiyəçi tərəfindən təşkil olunmuş pedaqoji prosesdir. Həmin prosesdə uşaqlar tərbiyəçinin rəhbərliyi altında elementar, dəqiq biliklərə, bacarıq və vərdişlərə yiyələnirlər. Təlim prosesində uşaqlarda əxlaqi, iradi və estetik keyfiyyətlər tərbiyə olunur və tədricən zehni əməyə maraq və meyllər formalaşır, təfəkkür, nitq, diqqət, yaddaş və təxəyyül inkişaf edir.

Təlim uşaqlara planauyğun, müəyyən sistemlə bilik, bacarıq və vərdişlər verməklə yanaşı onları tərbiyə etməyə imkan yaradır.

Təlimi təkcə biliklərin böyük nəsildən kiçik nəslə bilavasitə verilməsi kimi qiymətləndirmək olmaz. Uşaqların bilikləri mənimsəməsi mürəkkəb psixi prosesdir. Bu proses uşaqlardan diqqəti cəmləşdirmək, yiyələnəcəkləri bilikləri başa düşmək, müəyyən təfəkkür müstəqilliyi tələb edir.

Təlim - tərbiyə prosesinin qarşısında aşağıdakı vəzifələri qoyur:

a) biliklərin düzgün qavranılması və zehni iş vərdişlərinin formalaşması;

b) müxtəlif fəaliyyət növlərində təkrar və təmrinlər yolu ilə bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi;

c) uşaqlarda ictimai mühitə düzgün münasibət tərbiyəsi:

d) sonrakı təlim prosesində və müxtəlif fəaliyyət növlərində bilikləri müstəqil tətbiq etmək qabiliyyətinin tərbiyəsi.

Təlimin əsasını uşaqların dərketmə fəaliyyəti təşkil edir.

Təlim prosesi uşaqların müşahidəsi üçün əlverişli obyektlərin və hadisələrin dərk etməsi üzərində qurulur. Uşaq əşyanı və

ya hadisəni onun xassələri ilə birlikdə qavrayır. Uşağın şüuru yeni biliklərlə zənginləşir.

Uşaqların bilikləri mənimsəməsi, onların təfəkküründə analiz və sintezin ən sadə elementlərinin inkişafına və onların nitqlərinin zənginləşməsinə kömək edir.

3 – 4 yaşınadək uşaqlar təlim prosesində müxtəlif şeylərlə, onların forması, rəngi və vəzifəsi ilə, ev heyvanları və bitkilərlə əhatə olunduqları təbiət, məişət və ictimai həyatın ən sadə hadisələri ilə tanış olur, onlar arasındakı əlaqə və münasibətləri anlamağa başlayırlar. Uşaqların biliyinin daha yüksək pilləyə qalxması onları həyatın müxtəlif hadisələri ilə tanış etməyə imkan verir. 5 – 6 yaşlı uşaqları yaşlıların əməyi ilə, bəzi ictimai idarələrlə, (məktəb, kitabxana və s.) doğma şəhər və ya kəndlə tanış edirlər. Uşaqlarda vətənimizə, öz xalqına məhəbbət, əməksevərlik, ictimai davranış vərdişləri tərbiyə edilir.

Məktəbəqədər yaşlı uşaqlar təlim prosesində təbiət hadisələri haqqında, bitki yetişdirmək və heyvanların həyatı haqqında xeyli məlumat alır, onlarda təbiəti müşahidə etmək qabiliyyəti inkişaf etdirilir. Uşaqlar təbiətdə əməyin ən sadə formalarına alışdırılır, onlarda təbiət gözəlliyini qavramaq və sevmək qabiliyyəti tərbiyə olunur. Uşaqlara həmçinin yaradıcı fəaliyyətdə istifadə olunan (süjetli rəsm, yapma, qurma fəaliyyəti), ən sadə bacarıq və vərdişlər tərbiyə edilir.

Elementar riyazi təsəvvürün, nitqin inkişafı uşaqların məktəb təliminə hazırlanması üçün zəruridir, eyni zamanda uşaqlara hesab və sadə məsələlərin həllini öyrətməyin böyük əhəmiyyəti vardır.

Musiqi məşğələləri və nəğmə oxuma zamanı uşaqlarda elementar musiqi qabiliyyəti: səsin bəzi incə musiqi fərqlərini qavramaq qabiliyyti tərbiyə olunur; onlar ən sadə melodiyaları mənimsəməyi, mürəkkəb olmayan musiqi əsərlərinin xarakterini fərqləndirməyi öyrənirlər.

Fiziki mədəniyyət məşğələlərində uşaqlar düzgün yeriməyi, qaçmağı, müvazinəti saxlamağı, tullanmağı, dırmanmağı, müəyyən əşyanı uzaq məsafəyə tullamağı öyrənirlər. Bu yaşda hərə-

kətin inkişafı üçün əsas vasitə mütəhərrik oyunlardır. Musiqi ilə keçirilən oyun və hərəkətlər uşaqlar tərəfindən daha yaxşı mənimsənilir.

Ətraf mühitlə tanışlıq əsasında uşaqların lüğətinin zənginləşməsi, onlarda qrammatik cəhətdən düzgün şifahi nitqin təşəkkül etməsi, səslərin düzgün tələffüzünün öyrədilməsi, öz fikrini isə cümlələrlə düzgün və dəqiq ifadə etmək, müəyyən mövzuya dair müstəqil olaraq kiçik hekayələr düzəltmək bacarığı ana dili təliminin məzmununu təşkil edir. Uşaqlara habelə şeirləri ifadəli söyləmək, tanış nağıl və kiçik hekayələri nağıl etmək öyrədilir.

Tərbiyəçi təlim və tərbiyəni elə həyata keçirməlidir ki, uşaqlar müəyyən bilik və bacarıqları qavrayarkən, onları öz fəaliyyətində tətbiq edə bilsinlər. Tərbiyəçi uşaqlara toxumdan bitki yetişdirilməsi üçün nə etmək və necə etmək lazım gəldiyini izah edir və göstərir. Sonra uşaqlar tərbiyəçinin nəzarəti altında torpağı hazırlayır, toxum səpir, suvarır və sonradan cücərtinin, gövdəsinin, yarpaqların və güllərin necə əmələ gəldiyini izləyirlər.

Uşaq bağçasının müxtəlif yaş qruplarında təşkil edilən təlim gələcək şəxsiyyətin hərtərəfli inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edir.

"Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqram"ında göstərildiyi kimi, tərbiyəçilərin vəzifəsi ətraf mühit haqqında uşaqlarda aydın təsəvvür yaratmaqdan, onu uşaq təcrübəsində qaydaya salmaqdan ibarətdir. Tərbiyəçi uşaqların mənəvi inkişafı, gələcək fəaliyyətə hazırlanması üçün onların diqqətini idrak fəaliyyətində mühüm əhəmiyyəti olan əşyalara, hadisələrə yönəldir.

Bu məqsədlə gəzinti zamanı inşaatçıların, sürücülərin, aşbazların, bağbanların gördüyü iş üzərində müşahidə aparılır.

Yaşlıların əməyi üzərində aparılan müşahidə adamların əməyinə hörmət, alətlərə, texnikaya və görülən işin nəticəsinə maraq oyadır.

İnsanların qarşılıqlı səmimi münasibətlərini, mənfi faktlara qarşı laqeyd olmamalarını, uşaqların müşahidə obyektinə çevirmək xüsusilə vacibdir. Tərbiyəçi uşaqların yanında ictimai qaydaların pozulması hallarına, adamların küçəni zibilləməsinə, ağac-

ların budaqlarının sındırılmasına, heyvanların döyülməsinə və s. öz münasibətini bildirməsi, bu cür hərəkətlərin pislənməsi uşaqlarda onlara qarşı müvafiq münasibətin formalaşmasına səbəb olur. Tərbiyəçinin uşaqları ətraf mühiti müntəzəm olaraq müşahidəyə təhrik etməsi nəticəsində onlar tədricən daha diqqətli olur və hər şeylə maraqlanırlar. Onlar uşaq bağçasından kənarda gördükləri bütün şeylər haqqında tərbiyəçiyə danışır, öz mülahizə və rəylərini söyləyir, suallar verir, mübahisə edirlər.

Uşaqların tərbiyəçilərlə etdiyi bu cür söhbətlər onların dünyagörüşünü genişləndirir, marağını formalaşdırır və müəyyən hisslər tərbiyə edir. Tərbiyəçi uşaqların görüş dairəsinin genişlənməsinə müntəzəm nəzarət etdikdə, onların diqqətini, lüğət ehtiyatlarını zənginləşdirir, əşyaların adı, hərəkətləri və keyfiyyətləri haqqında onlara məlumat verir, lazım gəldikdə sözlərin mənasını izah edir, səhvləri düzəldir (əgər uşaq qeyri – dəqiq, yaxud qeyri – düzgün ifadələr işlətmişsə) lazımi sözləri xatırladır. Məhz tərbiyəçilərin uşaqlarla müxtəlif mövzularda apardığı söhbətlər lüğət ehtiyatlarının genişlənməsinə və fəallaşmasına imkan yaradır.

İnsanların fəaliyyəti, əşyalar və təbiətə dair qazanılmış konkret təsəvvürlər ümumi anlayışların təməlini qoyur və onun formalaşmasına səbəb olur. Uşaqlarda konkret təsəvvürləri zənginləşdirmək, təfəkkür və idrak fəaliyyətini formalaşdırmaq vacibdir. Uşaqlara müşahidə etmək, əşyaların, hadisələrin ümumi və xüsusi əlamətlərini tapmaq, ən sadə səbəb - məqsəd əlaqələrini öyrənmək, hadisələrin asılılığını müəyyənləşdirmək bacarığı tərbiyə edir.

Tərbiyəçi hadisələrin, rənglərin, formaların, qoxuların və hərəkətlərin zənginliyini görməyi, duymağı uşaqlara öyrədir.

Müxtəlif fəaliyyət proseslərində uşaqlara təbiətdə baş verən hadisələrə dair məlumat verilir.Tərbiyəçi özünün bütün bilik ehtiyatı, şəxsi həyat təcrübəsi ilə uşağın mövqeyində durmalı, yəni adət etdiyi aləmi ilk dəfə görürmüş kimi təəccüblənməli, öz təəccübü ilə uşaqları maraqlandırmağı, eyni zamanda gördüklərini düzgün və aydın şəkildə izah etməyi bacarmalıdır.

Məktəbə hazırlıq qrupunda tərbiyəçi uşaqlarda təlim fəaliyyəti vərdişlərinin formalaşmasına nail olur. Həyatın yeni mərhələsinə qədəm qoyan son qrup uşaqları tərbiyəçinin nitqinə qulaq asmaq, onu başa düşmək, verilmiş göstərişlərə uyğun olaraq yada salmaq və hərəkət etmək bacarıqlarına yiyələnirlər. Həmin vərdişlərin formalaşması məhz tərbiyəçidən, onun ustalığından, didaktik qaydaları bilməsindən asılıdır. Bunun üçün məşğələlərin məzmunu elə diqqətlə qurulmalıdır ki, o, uşaqlarda maraq doğursun, onlarda diqqət, qulaq asma və fikirlərini söyləmək arzusu oyatsın.

Təlimi təşkil edərkən iş bacarığı, fəaliyyətin bir neçə növünün növbələşməsi qabaqcadan nəzərdə tutulmalıdır. Buna musiqi (musiqinin, nəğmənin dinlənilməsi, musiqi altında hərəkətlər) və bədən tərbiyəsi məşğələlərində nail olmaq mümkündür. Ana dili, bədii qiraət, ətraf mühitlə tanışlıq üzrə məşğələlərdə tərbiyəçinin şərhindən (nağıletmə, qiraət), uşaqlara verilən suallardan, əyani materialın nümayiş etdirilməsindən, məşğələni möhkəmləndirmək üçün didaktik oyunlardan və yaxud çalışmalardan istifadə etmək olar. Məşğələlər canlı və emosional şəkildə aparılmalıdır.

Təlimdə tərbiyəçinin nitqi mühüm əhəmiyyət kəsb edir. O, məşğələyə elə hazırlaşmalıdır ki, hər bir göstərişə, izahata suala uşaqlar dəqiq, aydın və başa düşülən şəkildə cavab verə bilsin. Tərbiyəçinin eyni tapşırığı və yaxud sualı dəfələrlə təkrar etməsi dözülməz haldır. Bu uşaqların diqqətinin formalaşmasına mənfi təsir göstərir. Bəzi hallarda uşaqların xahişi ilə tərbiyəçi tapşırığı dəfələrlə təkrar edir, onlar buna öyrəşirlər. Nəticədə uşaqlarda deyilənlərə qulaq asma və yadda saxlamaqla əlaqədar problemlər əmələ gəlir.

Təlim iki tərəfin birgə fəaliyyəti zamanı öyrətmə və öyrənmə proseslərinin birliyi şəraitində həyata keçirilir. Öyrətmənin subyekti tərbiyəçi, öyrənmənin subyekti isə uşaqdır. Təlim vəzifələrinin yüksək səviyyədə yerinə yetirilməsi tərbiyəçidən və uşaqlardan bir – birini şərtləndirən fəaliyyət sistemi tələb edir.

Uşaqları məktəbə hazırlamaq, hər şeydən əvvəl, onlarda elmə və biliyə maraq oyatmaq deməkdir.

Onlar təbiətlə, "nə üçünlərlə" məhz məktəbəqədər yaşda maraqlanırlar. Tərbiyəçi uşaqların marağını təmin etməli, biliyə olan həvəsini tədricən formalaşdırmalıdır. Təbiətin sirlərinə bələd olmağı, yaxın əhatədə olan insanların əməyi üzərində müşahidə aparmağı uşaqlara öyrətmək və onlarda idraki maraq oyatmaq tərbiyəçinin borcudur.

Tərbiyəçi məktəbə dair söhbətlərində balacalar üçün maraqlı olan məhz bu cəhətləri – uşaqların məktəbdə təbiət, vətən, Qarabağ döyüşləri, milli qəhrəmanları, şəhidlər və s. haqqında çoxlu yeni məlumatlar öyrənəcəklərini qeyd edə bilər.

Uşaqların məktəbə psixoloji cəhətdən hazırlanması, hər şeydən əvvəl, onlar da biliklərə maraq tərbiyəsi deməkdir. Hələ uşaq bağçasında ikən ətraf mühitlə tanışlıq prosesində, ana dili məşğələlərində və başqa fəaliyyət növlərində təbiət, əmək və texnikaya aid yenilikləri öyrənərkən uşaqlara sevinc hissi keçirməyə imkan vermək, tədricən məktəbə bilik mənbəyi kimi maraq oyatmaq zəruridir.

Məktəbdə təlimə maraq tərbiyə edərkən hansı vasitələrdən istifadə etmək olar? Bu məktəb haqqında hekayələrdən, müəllimlə görüşdən, məktəbdə oxuyan bacı və qardaşlar barədə söhbətlərdən, bədii qiraətdən, məktəbə daxil olmaq üçün uşaqların qarşısında duran gələcək arzulardan və s. ibarətdir.

Məkrəbəhazırlıq qrupunun ana dili üzrə proqramı uşaqları qiraət təliminə hazırlamağın vacib olduğunu nəzərə almaqla tərtib olunur.

Uşaqlarla nitq inkişafı üzrə iş bütün məktəbəqədər yaş müddətində aparılır, məktəbəhazırlıq qrupunda isə bu, xüsusi əhəmiyyət kəsb edir. Xüsusi məşğələlərdə şifahi nitqin daha mürəkkəb formalarla ( tərbiyəçisinin suallarına qısa və müxtəsər cavablar verməsi, məlumatların genişləndirilməsi, rabitəli, ardıcıl nağıl söyləməsi) öyrədilməsi davam etdirilir, şifahi ədəbi dilin keyfiyyəti və quruluş xüsusiyyətləri formalaşdırılır. Ana dili üzrə aparılan iş əvvəkli qruplarda yaxşı qurulduqda, məktəbəhazırlıq qrupunda uşaqlar səsləri düzgün tələffüz edir. Təsadüfi deyil ki, bəzən altı, hətta yeddi yaşlı uşaqlar səsləri düzgün tələffüz etmir-

lı. Odur ki, tərbiyəçi dərs ilinin əvvəlində bu cür uşaqların nitqindəki nöqsanların müstəqil surətdə və yaxud loqopedlərin köməyi ilə düzəldilməsini (nöqsanların xarakterindən asılı olaraq) iş planında nəzərdə tutmalıdır. Şifahi nitqə sərbəst yiyələnmə uşaqlar tərəfindən məktəb proqramımn mənimsənilməsini asanlaşdırır.

Nitq inkişafı üzrə aparılan işlərdə uşaqlara nağıletməni öyrədən məşğələlər xüsusi əhəmiyyət kəsb edir. Belə məşğələlərin məzmununu uşaqların şəxsi həyatndan götürülmüş nağıllar təşkil edir. Hekayə və nağıllar təxminən: "Biz dünən tarlada nə gördük?", "Mən necə növbətçilik etdim?", "Biz bayramı necə keçirdik?", "Biz çiçəkləri necə bəslədik?", "Mən bağçaya gedən yolda nə gördüm?" və tərbiyəçinin təklifi üzrə uşaqların düşünüb tapdıqları, " Pişik balasınm sərgüzəştləri", "Mən uşaq bağçasında ilk günü necə keçirdim?", "Uşaqlar yoldaşlarını fəlakətdən necə qurtardılar?" kimi mövzularda ola bilər.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə və inkişafına yönələn idrak fəaliyyətinin təşkili deyəndə öyrədiləcək mövzunun tərbiyəvi imkanına onların diqqətini cəlb etmək, uşaqlar qarşısında məqsəd qoymaq, məqsədə çatmaq üçün şərait yaratmaq, lazım olanda vəzifə bölgüsü aparmaq, vəzifəni yerinə yetirmək üçün onları təlimatlandırmaq, ehtiyac duyulduqda tapşırığın icrasına kömək etmək nəzərdə tutulur.

Təlim üsullarından və təlimin təşkili formalarından asılı olaraq uşağın idrak fəaliyyəti müxtəlifdir. Nəzərdə tutulmuş materialın mənimsənilməsində uşaqların idrak fəaliyyəti tərbiyəçi tərəfindən mərhələlərlə təşkil olunur. Hər mərhələ təlim materialının bir hissəsinə uyğun gəlir. Tərbiyəçi təlim materialının hər hissəsinin ayrılıqda mənimsənilməsini təşkil edir, mənimsəmənin nəticələrini uşaqların cavablarında yoxlayır, ayrılıqda tətbiqini təmin edir.

Uşaqlara suallarla müraciət edir, müəyyən məsələlər üzərində onları düşündürür, cavablarını dinləyir, fikir səhvdirsə, səhvi axtarıb tapmağı uşaqlara məsləhət görür, alınan cavabları ümu-

miləşdirir, düzgün nəticəni möhkəmləndirmək məqsədilə əməli tapşırıq verir və s.

Təlim prosesində izahlı – illüstrativ materiallardan istifadə edərkən uşaqlarm idrak fəaliyyətinin təşkili başqa xüsusiyyətlərə malik olur: tərbiyəçi yeni mövzu haqqında məlumat verir, izahatını əyaniliklə əlaqələndirir, təlim materialının uşaqlar tərəfindən qavranılmasına çalışır, yeni biliyin möhkəmləndirilməsini və tətbiqini təşkil edir.

Uşaqlarm fəallığa həvəsləndirilməsi təlimdə idrak fəaliyyətinin təşkilinə aiddir. Uşağın təlim prosesində fəallığa həvəsləndirilməsi təlimdə müvəffəqiyyətin vacib şərtlərindən biridir. Təlimdə həvəsləndirməni tərbiyəçi müxtəlif yollarla həyata keçirir. Uşaqların diqqətini mövzunun əhəmiyyətinə cəlb etmək; onlarda idrak fəaliyyətini, idrakı marağı gücləndirmək; məsuliyyət hissi tərbiyə etmək; kollektiv qarşısında borc hissi oyatmaq və s. bu cür yollardandır.

Təlim prosesində tərbiyəçinin fəaliyyət sisteminə daxil olan məsələlərdən biri də uşaq fəaliyyətinə nəzarətdir. Təlim zamanı uşaqların necə işlədiklərinə, necə dinlədiklərinə, nələrdə müvəffəqiyyət qazandıqlarına, nələrdə çətinlik çəkmələrinə, mimika və jestlərinə və s. tərbiyəçi daim diqqət yetirir. Təlim materialının uşaqlar tərəfindən necə mənimsənildiyinə nəzarət olmadan tərbiyəçi sonrakı metodik addımlarını müvəffəqiyyətlə ata bilməz.

Məşğələ prosesində uşaqların fəaliyyətinə tərbiyəçi müxtəlif yollarla nəzarət edir, verilən tapşırığın, qoyulan sualın bütün uşaqlar tərəfindən aydın başa düşüldüyünü müəyyənləşdirir. Tapşırığın yerinə yetirilməsinin gedişi, kimin nə dərəcədə diqqətli olduğu müşahidə olunur; uşaqlara suallarla müraciət olunur, zərurət meydana çıxdıqda müstəqil işləmək üçün təmrinlər təşkil edilir: ehtiyac olduqda tək – tək uşaqlarla qısa müddətli söhbətlər keçirilir; sıralar arası ilə hərəkət etdikcə uşaqların işlərinə diqqət yetirilir; tək – tək uşaqların məlumatları dinlənilir və s. iş üsulları cari nəzarət vasitələridir. Cari nəzarətin gedişi və nəticəsi tərbiyəçi tərəfindən qiymətləndirilir.

Təlim prosesində uşaqlara istiqamət verilməsi, onların yol verdikləri səhvlərin düzəldilməsi tərbiyəçi fəaliyyətinin tərkib hissəsidir. Təlim prosesində uşaqların dərketmə fəaliyyətinə tərbiyəçi tərfindən nəzarət uşaq üçün də, tərbiyəçi üçün də faydalıdır.

Cari nəzarət uşaqların təlim prosesində, onların fəaliyyətində tipik olan cəhətləri, həmçinin uğurlu cəhətləri və eləcə də nöqsanları görməyə imkan verir. Bu prosesin özündə uşaqların diqqəti həmin uğurlu cəhətlərə, yaxud nöqsanlara cəlb edilir, nöqsanların üst – üstə yığılmasına yol verilmir, onlar vaxtında aradan qaldırılır. Cari nəzarət tərbiyəçiyə həm də imkan verir ki, uşaqların fəaliyyət xüsusiyyətləri baxımndan öz metodikasının nə dərəcədə səmərəli olduğunu qiymətləndirsin. Lazım gəldikdə öz iş tərzində dəyişiklik aparsın, onu daha da təkmilləşdirsin.

Nəzarət əsasında tərbiyəçi uşaqların idrak fəaliyyətini başqalaşdırar, yönəldici suallar verər, tapşırığı bir qədər yüngülləşdirər və ya çətinləşdirər, uşaqlar arasında qarşılıqlı yardımı təşkil edər, bütövlükdə təlim sürətini artıra və azalda, əlavə əyanilikdən, yaxud texniki vasitələrdən istifadə edə bilər. Bir sözlə, cari nəzarət tərbiyəçinin təkmilləşməsi üçün, onun pedaqoji ustalığının artması üçün nəticə olaraq təlim – tərbiyə işinin səviyyəsi baxımından yüksək göstəricilər əldə edilməsi üçün geniş imkanlara malikdir.

İlk baxışda təlim anlayışı sadə görünür. Halbuki, təlim çox mürəkkəb anlayışdır. Onun mürəkkəbliyini hiss etmək üçün bir sıra suallara diqqət yetirmək kifayətdir. Təlim hansı vəzifələrə xidmət edir? Təlimdə hansı tərəflər iştirak edir? Təlim hansı mərhələlərdən keçir? Onun hansı ünsürləri vardır? Təlim zamanı tərbiyəçi hansı vəzifələri yerinə yetirir?

Təlimdə uşaq fəaliyyətinin xüsusiyyətləri nədən ibarətdir? Təlim prosesinin qanunauyğunluqları varmı? Varsa hansılardır? Bu qanunauyğunluqlardan təlim zamanı necə istifadə etmək olar? Təlimin cərəyan etdiyi şərait onun səmərəliliyinə necə təsir göstərir?

Bu kimi sualların ətraflı izahı təlim haqqında müəyyən təsəvvür əldə etməyə imkan verir. Təlim anlayışının təhlilinə

müxtəlif cəhətdən yanaşmaq olar. Bu işdə təlimin yerinə yetirdiyi başlıca məqsəd və ya vəzifələr tərbiyəçinin və uşağın fəaliyyət xüsusiyyətlərinin, habelə təlimin bütün ünsürlərinin təhlilindən ibarətdir.

Məktəbəqədər tərbiyə müəssisələri qarşısında qoyulmuş əsas məqsəd Azərbaycan xalqına xidmət etməyə hazır olacaq gələcək nəsil yetişdirməkdən ibarətdir., bu da əsasən təlim vasitəsi ilə həyata keçirilir. Bu məqsəd Azərbaycanın sonrakı inkişafı üçün zəruri olan bilik, bacarıq və vərdişlərin gənc nəslə aşılanmasını və onların normal psixoloji inkişafını nəzərdə tutur. Təlim: təhsilləndirici, tərbiyələndirici, inkişafetdirici məqsədə xarakterə malikdir.

Təlim zamanı uşaqlar sadə elmi biliklərə yiyələnir, ümumi və xüsusi səciyyəli bacarıq və vərdişlər əldə edirlər. Sadə elementar elmi bilik deyəndə təbiət və cəmiyyətə aid şübhə doğurmayan isbat olunmuş faktlar, anlayışlar, qaydalar, ümumiləşdirmələr və s. nəzərdə tutulur. Təlimi səciyyələndirən başlıca göstərici bilik özü də inkişaf edir, getdikcə həqiqətə daha çox yaxınlaşır. Biliyin dörd başlıca məziyyəti – dolğunluğu, sistemliliyi, anlaşıqlılığı, ifadəliliyi vardır. Biliyin dolğunluğu - onun əhatə etdiyi əlamətlərdə, cəhətlərdə nizamın olduğunun qavranılmasıdır. Biliyin anlaşıqlılığı - onun reallığının, həqiqiliyinin başa düşülməsidir. Biliyin ifadəliliyi - lazım gələndə ondan istifadə olunması, onun tətbiq edilməsidir.

Bilik ağlın başlıca meyarıdır. Ağıl isə, atalar demiş, qızıldan qiymətlidir. Başqa bir atalar misalında isə deyilir: güc hər şeyə, ağıl isə gücə qalib gəlir.

Ağlın ikinci göstəricisi bacarıq və vərdişlərdir. Təlimdə uşaqların öyrəndikləri bacarıq və vərdişləri iki əsas qrupa ayırmaq olar:

1. Ümumi bacarıq və vərdişlər
2. Xüsusi bacarıq və vərdişlər

Ümumi bacarıq və vərdişləri bütün təlim məşğələlərinin keçirilməsində müşahidə etmək mümkündür. Məsələn, dinləmək

və nəql etmək bacarığı; oyuncaqlarla oynadıqdan sonra onları səliqə ilə öz yerinə yığmaq bacarığı; tərbiyəçinin göstərişlərinə əməl etmək bacarığı və s. kimi bacarıqlara aid edilə bilər.

Xüsusi bacarıq və vərdişlər isə yalnız bir məşğələnin keçirilməsi üçün spesifik olur, başqa məşğələlərdə müşahidə edilmir. Təsviri fəaliyyət məşğələlərindən rəsmdə hər hansı bir mövzuda rəsmin çəkilməsi; bədii əsər nümunəsinin söylənilməsi (ifadəli) üzrə bacarıqlar; tikiş üzrə bacarıqlar; rəqs üzrə bacarıqlar və s. buna misal ola bilər.

Bilik, bacarıq və vərdişlər bir – biri ilə qarşılıqlı əlaqədardır. Hər bir bacarıqda müəyyən biliklər iştirak edir; yaxud bəzi biliklərin təcrübəyə tətbiqi müəyyən bacarığın yaranmasını şərtləndirir. Bacarıq və vərdiş arasında da qırılmaz əlaqələr vardır. Bacarıq bir sıra əqli və əməli hərəkətlərin ardıcıl icrasıdır. Vərdiş isə şüurun xüsusi nəzarəti olmadan hər hansı bacarığın avtomatik surətdə dəqiq icrasıdır.

Deməli, təlim zamanı biliklərin, bacarıq və vərdişlərin uşaqlarda formalaşması təlimin təlimləndirici və bilikverici funksiyasıdır. Sonrakı illərdə də özünü təhsilləndirici funksiya kimi göstərir. Məhəmməd Peyğəmbərin hədislərindən birini burada xatırlamaq yerinə düşərdi: "Bir saat elm öyrənmək 60 illik ibadətdən xeyirlidir" (Bax: 101-ci hədis. "Gənclik" nəşriyyatı, Bakı 1990, səh.6) .

Təlimin hər cəhəti təlimin məzmunu, üsulları, təşkili üsulları və təlimdə uşaq münasibətini də tərbiyə edir.

Öz şəxsi fəaliyyətinin, hiss və fikirlərinin əxlaqi və ictimai motivlərini təlimdə duyan uşaqların şəxsiyyəti intensiv şəkildə formalaşır. Təlimin tərbiyələndirici vəzifəyə malik olduğunu aydın başa düşən və bu cəhəti öz işində nəzərə alan tərbiyəçinin təşkil etdiyi təlim prosesinin tərbiyəvi təsir gücü xeyli artır. Təlimin öyrədici və tərbiyəedici, tərbiyələndirici vəzifələri bir – birini tamamlayır. Təlim zamanı təbiət və cəmiyyət hadisələri haqqında sadə və elementar biliklərə yiyələnən uşaqlar, əxlaqi və estetik qiymət biliklərə daha möhkəm yiyələnirlər. Ayrı – ayrı məşğələlər üzrə bilik, bacarıq və vərdişlərin uşaqlar tərəfindən

möhkəm mənimsənilməsi isə öz növbəsində onların tərbiyəlilik səviyyəsini yüksəltməyin zamininə çevrilir.

Təlim prosesində tərbiyəçi obyektiv olaraq nəinki təhsil verir, öyrədir, məlu-matlandırır və tərbiyə edir, həm də uşaq şəxsiyyətini inkişaf etdirir.

**Təlimin prinsipləri.** Təlimin prinsipləri obyektin qanuna uyğun vəziyyətindən elə bir çıxış yoludur ki, tərbiyəçi ona istinad edərək onun məzmunu, metod və təşkili formalarını müəyyənləşdirir.

Təlimin prinsiplərini ilk dəfə çex pedaqoqu Y.A.Komenski "Böyük didaktika" əsərində vermişdir. Həmin prinsiplər qalmaqla yanaşı yeniləri də yaranmışdır.

Təlim materialı özünün didaktik funksiyasını yerinə yetirməklə həm də uşaqların əxlaqi təsəvvürlərini, mənəvi keyfiyyətlərini formalaşdırır. Onlarda psixi prosesləri və davranış mədəniyyətini inkişaf etdirir.

Təlimin prinsiplər əsasında qurulması məşğələlərdə mühüm tərbiyəvi ideyalar, faktlar uşağın gözü qarşısında yeni bir aləm açır.

Təlimin prinsipləri bunlardır:

1. Təlimin inkişafetdirici prinsipi;
2. Elmilik prinsipi ;
3. Əyanilik prinsipi;
4. Sistematiklik və ardıcıllıq prinsipi;
5. Müvafiqlik prinsipi;
6. Şüurluluq prinsipi;
7. Fərdi yanaşma.

**Təlimin inkişafetdirici prinsipi.** Təlimin inkişafetdirici prinsipi tələb edir ki, təlim prosesində uşaqların potensial imkanları nəzərə alınsın.

Bu prinsipin əsasında təlimin qanunauyğunluqları dayanır. Təlim uşağın inkişafında hərəkətverici qüvvədir.

O, uşaqların əqlində, yaddaşında, psixi proseslərində həmçinin qabiliyyətlərinin, maraqlarının formalaşmasında yeni keyfiyyətlər yaradır.

L.S.Viqotski yazırdı ki, uşaq iki istiqamətdə inkişaf edir: a) uzaq ; b) yaxın.

Uzaq istiqamət dedikdə, fəallıq nəzərdə tutulur. Burada uşaq yaşına müvafiq olaraq verilən tapşırığı həvəslə və sərbəst yerinə yetirir. O, bu günkü işini yerinə yetirməklə gələcək həyata hazırlaşır. Fəal inkişaf sahəsinin əhatə dairəsi genişdir. Uşaq hər hansı bir işi axıra kimi görür, ona kömək lazım olmur.

Yaxın inkişaf sahəsində uşaq bir işi görəndə mütləq ona köməklik lazımdır.

Bu sahədə uşağın inkişafını təlim müəyyən edir. L.S.Viqotski yazırdı ki, o, təlim yaxşıdır ki, o, inkişafdan irəlidə gedir, uşağın inkişafı üçün stimul yaradır, onu gələcəyə hazırlayır.

**Elmilik prinsipi.**Bu prinsipə təlim metodlarının tətbiqi qanunauyğunluqlarından irəli gələn bir sıra tələblər verilir. Bu prinsipin mahiyyətini uşaqlara həqiqi biliklərin verilməsi, həyat həqiqətlərinin düzgün əks olunması təşkil edir. Eyni zamanda uşaqların gələcək məktəb təliminə hazırlanmağın təməlini qoyur. Uşaqları məktəb intizamına hazırlayır. Təlim öz elmiliyini itirmədən həyat həqiqətlərini əks etdirir. Məktəbəqədər yaşlı uşaqları emprik biliklərlə məhdudlaşdırmaq olmaz. Emprik bilik hər hansı bir əşyanın zahiri görünüşü ilə uşaqları tanış edir.

Emprik biliyin əsasında qabiliyyət formalaşır. Təhlil, tərkib, mücərrədləşdirmə, ümumiləşdirmə, əqli nəticə çıxarma prosesi gedir. Bu qabiliyyətlər uşaqlara gələcəkdə nəzəri biliklər qazanmağa imkan verir. Nəzəri təlim tələb edir ki, elmilik prinsipinin qaydalarına əməl olunsun. Tərbiyəçi uşaqlara əşyaların görünməyən tərəfini tapmaqda, hadisənin mahiyyətini qavramaqda kömək etməli, onu maraqlandırmalı müsbət münasibətdə olması üçün şərait yaratmalıdır. Obyektin tam qavranılması üçün uşaq əşyanın mövcud əlamətlərini, xarakterik xüsusiyyətini onların arasındakı sadə əlaqələri görə bilməlidir. Özü müstəqil təhlil – tərkib apara bilməli, dərk olunmuş obyektin adını düzgün öyrən-

məli, onun hissələrini, bəzi keyfiyyətlərini bildirən elmi terminləri öyrənməlidir. Tərbiyəçi uşaqların qarşısında öyrənilən obyektin mənzərəsini açır, onun lazımi tərəflərini öyrənməyə istiqamətləndirir. Məşğələlər vasitəsilə onlar həyati hadisələri haqqında yeni məlumatlar alır, nitqləri inkişaf edir.

**Əyanilik prinsipi.** Əyanilik məktəbəqədər yaşlı uşaqların təlimində mühüm yer tutur. Uşaqların təfəkkürü zənginləşir, əyani – obrazlı əşyaları asan qavrayırlar. Görkəmli pedaqoq Y.A.Komenski əyaniliyi müəllimlər üçün "Qızıl qayda" adlandırmışdı. O, deyirdi ki, duyğularda olmayan şey ağılda da yoxdur.

Y.A.Komenski bir qədər də irəli gedərək deyirdi ki, "Görünəni gözə, eşidiləni qulağa, dadbilməni dadbilmə üzvünə, iybilməni iybilmə üzvünə vermək" - əgər bir əşyanın tam qavranılmasında bir neçə hiss üzvlərinin iştirakı lazımdırsa, onların hamısı dərhal o obyektə yönəldilməlidir.

Y.A.Komenski deyirdi ki, "uşaq təbiəti əyanilik tələb edir".

Bu prinsip müasir məktəbəqədər pedaqogikada yüksək qiymətləndirilir. Əyanilik məktəbəqədər yaşlı uşaqların təfəkkürünün əsas inkişafetdirici vasitəsidir.

Əşyanın reallığı və obrazlılığının düzgün təşkili uşağın fikri fəallığını artırır. Əyanilik keçmişi yada salır, yadda saxlamanı möhkəmləndirir. Təlimi əyani etmək – o deməkdir ki, uşaq obrazı görür, ətrafdakıları qavrayır, beləliklə, təfəkkür praktik fəaliyyətlə əlaqələndirilir.

**Sistematiklik və ardıcıllıq prinsipi.** Təlimdə sistematiklik və ardıcıllıq prinsipi uşaqlara verilən biliyin sistemli və ardıcıl olmasını tələb edir. O, təlim materialınm mənimsənilməsində ardıcıllığı, sistemi nizama salır. Məşğələ prosesində təlimin məzmunun məntiqi əsasda qurulmasını tələb edir. Təlimdə ardıcıllıq və sistemlilik uşaq bağçasınm proqramlarında nəzərə alınmışdır. Tərbiyəçi məşğələyə aid mövzunu proqramdam götürür (əmək, təbiətdəki fəsil dəyişikliyi, bitkilərə qulluq və s.) Müxtəlif məşğə-

lərdə mövzunun açılışı, işin aparılma metodikası, yeni biliklərlə keçmiş biliyin arasında əlaqəni yaratmaq tərbiyəçinin vəzifəsidir.

Təkrarlar uşaqlarda bilik, bacarıq və vərdişləri möhkəmləndirir, yenilərini yaradır. Təlim prosesində uşaqlar yeni – yeni biliklər qazanır. Əvvəlcə uşaqlar əşyanı müşahidə edirlər, sonra onun şəklini görürlər, onun haqqında şeir öyrənirlər, daha sonra applikasiyada onun fiqurunu düzəldirlər.

Bu cür təkrar nəticəsində obyekt yeni əhəmiyyət kəsb edir, uşaqlar möhkəm, zəngin bilik qazanır, ümumiləşdirmələr apararaq sistemli biliyə malik olurlar.

**Müvafiqlik prinsipi.**Müvafiqlik prinsipi tələb edir ki, təlim materialının həcmi, məzmunu uşaqların inkişaf səviyyəsinə uyğun olsun. Vaxtilə Y.A.Komenski bu prinsipin bir neçə qaydasını göstərmişdir ki, indi də onlar öz əhəmiyyətini itirməyib. Sadədən mürəkkəbə, yaxından uzağa, asandan çətinə, məlumdan məchula bunlar müvafiqlik prinsipinin qaydalarıdır.

**Şüurluluq və fəallıq prinsipi.**Akademik İ.U.Lerner biliyin möhkəmlənməsində şüurluluq və fəallığı əsas götürmüşdür. Bilik o zaman möhkəm olur ki, o, şüurlu mənimsənilir.

Bunun üçün tərbiyəçi həmişə optimal şərait yaratmalıdır. Uşaqları düşündürən məzmunlu tələblər qoymalıdır.

Uşaq verilən tapşırığı yerinə yetirərkən səhv etmişsə tərbiyəçi ona kömək edir. Bunun asan olduğunu görən uşaq "necə olub ki, mən bunu tapa bilməmişəm" deyir, səhvini başa düşür. Burada tərbiyəçinin vəzifəsi uşağın təfəkkürünü inkişaf etdirməkdir. Tərbiyəçi uşağın şüurlu fəallığını artırmaq üçün təlim zamanı onların müstəqilliyini təmin etməlidir. Uşaqları biliklərini təkmilləşdirməyə, yeni-yeni bilik əldə etmələrinə çalışdırmalıdır. Uşaqlara ətraf aləm, fakt və hadisələr haqqında dolğun biliklər verməklə onlara biliyi şüurlu mənimsətmək olur.

Uşaq biliyi şüurlu mənimsədikdə, bu onun hafizəsində əbədi qalır. Çünki uşaqlıqda öyrənilmiş bilik daşa həkk olunmuş yazı kimidir. Bu prosesdə uşaqların hissləri də böyük rol oynayır. Bu

hisslər uşaqlarda yeniliyi qavramağa kömək edir, onlarda yüksək emosiyalar yaradır.

Təlimin şüurlu mənimsənilməsinin bir sıra səbəbləri var:

a) təlimin məzmununun uşaqlar tərəfindən aydın başa düşülməsi;

b) uşaqları "mən özüm" kimi fəallığa aşılanması;

c) çətinliyi aradan qaldırmaq, fəaliyyət priyomları, biliyi şüurlu mənimsədən vasitələrin olması.

Tərbiyəçi tapşırığı yerinə yetirən uşağa: "Sən bunu necə etdin, səhvini necə tapdın?" kimi suallar verməklə onların diqqətini özünün fəaliyyətinə yönəldir.

**Fərdi yanaşma prinsipi.** Uşaqlar bilik səviyyəsinə, qavrama qabiliyyətinə görə bir–birindən fərqlənirlər. Biri tərbiyəçinin sualına dərhal sadə cavab verir, başqa birisi fikirləşir, məntiqli cavab verir. Uşaqların biliyi mənimsəmə tempi də müxtəlifdir. Birisi deyilənləri dərhal qavrayır, başqa birisinə bir neçə dəfə təkrarlamaq, izah etməklə başa salmaq olur. Vərdişlər də müxtəlif tempdə formalaşır. Tərbiyəçi işini uşaqların fərdi xüsusiyyətlərini nəzərə alaraq qurur. Əgər o, qrupdakı uşaqların hamısına eyni şəkildə yanaşarsa, onda onların bəziləri fəal olacaq, digərləri isə qeyri-fəal olacaqlar. Əgər məşğələdə verilən suala kim əlini qaldırırsa, tərbiyəçi onlardan soruşursa, o birilərini dindirmirsə, tədricən həmin uşaqlar geridə qalırlar. Tərbiyəçi qrupdakı uşaqları yaxşı tanıdıqda, onların qabiliyyətlərini, bilik və bacarıqlara daha asanlıqla yiyələnmələrinə şərait yaradır.

Tərbiyəçi uşaqları inkişaf etdirmək istəyirsə, onlarla differensiallaşdırma aparmalıdır. Fəal uşaqlara çətin suallar verilir, qeyri-fəal uşaqlara nisbətən asan suallar verməklə onlarda həvəs, maraq oyadır. Təlimin bu prinsipinə riayət edən tərbiyəçi həmişə məqsədinə nail olur. Uşaq öz nailiyyətini gördükdə onda özünə qarşı inam yaranır. Əgər ilk baxışda uşaq fəaliyyətində səhvə yol verirsə, tapşırığı yaxşı icra edə bilmirsə, tərbiyəçi onu həvəsləndirir, düzəliş edir. Uşağı həvəsləndirmək, onda maraq oyatmaq, inam və canlanma əmələ gətirir.

**Təlimin metodları.** Təlim prinsipində iki tərəfin iştirakı nəzərdə tutulur: öyrədən və öyrənən. Tərbiyəçi və uşaqların qarşılıqlı münasibətləri müxtəlif ola bilir: avtoritar, demokratik və liberal. Təlim prinsiplərinin modeli bunların əsasında formalaşır. Avtoritar stildə təlim intizam modeli üzərində, demokratik stildə tərbiyəçi – uşaq münasibətləri şəxsiyyət və yanaşma modeli üzərində qurulur. Tərbiyə prosesində şəxsiyyətə bələdləşmə (tanışlıq) modeli əsasdır. Bu modellərin hər biri öz məzmunu və metodu ilə bir – birindən fərqlənir.

Uzun illər təhsil müəssisələrində də olduğu kimi, məktəbəqədər tərbiyə müəssisələrində intizam modeli hökmranlıq etmişdi. Burda məqsəd uşaqları bilik, bacarıq və vərdişlərlə silahlandırmaq idi. Məktəblərdə nailiyyət faizlə ölçüldüyü kimi uşaq müəssisələrində biliyin həcmi əsas götürülürdü. Bu faktorlar uşağın təlimdə potensial imkanlarını məhdudlaşdırırdı.

İntizamlı təlim modelini fərqləndirən əsas əlamət məzmunun, metodunun və formanın eynilik təşkil etməsidir. Təlim məktəbəqədər tərbiyə müəssisələrində proqramla olan vahid sistemə əsaslanırdı.

Təlimin devizi belə idi: "bacarmırsan – öyrədərik, istəmirsən məcbur edərik" uşaqlar bir canlı varlıq kimi baxılmırdı. Təlimin tələbində məcburiyyət dururdu. Təlim metodu (yaşlıların monoloqu) izah etmə idi. Uşaq isə nümunə idi. Bu metodda uşaqlarda deyilənləri danışıqsız qorxu altında yerinə yetirməli idi. Tərbiyəçilər müxtəlif metodlarla uşaqları öyrənməyə məcbur edirdilər. Bunun üçün cəza tədbirlərindən, valideynə şikayətdən, qadağalardan istifadə edirdilər.

Lakin pedaqoji təcrübə göstərir ki, təlimin birinci növbədə sevdirmək lazımdır. Təlim- tərbiyə işinin əsasında məhəbbət və qarşılıqlı hörmət durmalıdır. Uşaqlarda öz gücünə inam və optimist əhval – ruhiyyə yaradılmalıdır. Respublika müstəqillik əldə etdikdən sonra maarifin bütün sahələrində olduğu kimi, məktəbəqədər tərbiyə sahəsində də yeni yanaşmalar yarandı. Uşaqlara sərbəstlik verilir, təhsildə humanistləşdirmə, yeni texnologiyadan istifadə əsas meyar götürülür.

Məşğələlərdə istifadə olunan təlim metodları bunlardır: əyani, şifahi və praktiki.

Məktəbəqədər təlimdə əsas yeri əyani metod tutur. Əyani metoda aiddir: təbii obyektlərin müşahidə etdirilməsi, əyani vasitələr – şəkillər, modellər, nümunələr, texniki vəsaitlər, diafilmlər, kinofilmlər, val yazıları, müşahidəsi və dinlənilməsi.

Müşahidə - ətraf mühitdəki hadisələrə məqsədyönlü, planlı surətdə baxmaq, mühüm cəhətləri ayırmaq, müşahidə olunan hadisədə baş verən dəyişiklikləri görmək, onların səbəblərini müəyyən etmək və müvafiq nəticə çıxartmaqdır.

Uşaqların cisim və hadisələr üzərində müşahidəsini təşkil etməyə ciddi hazırlıq görmək tələb olunur. Məsələn, əgər böyük yaşlı uşaqlarla müəyyən müşahidəni ekskursiya prosesində aparmaq nəzərdə tutulursa, tərbiyəçi bütün şəraiti nəzərə almalı və onlara istiqamət vermək üçün üsullar düşünməlidir. Uşaqlara nəyi müşahidə etmək, onların diqqətini ən mühüm sahəyə cəlb etmək, hansı sualları vermək və alınmış təəssüratı sonradan necə möhkəmləndirmək və ümumiləşdirmək əsas vəzifədir.

Tərbyəçinin rəhbərliyi ilə uşaq müşahidə prosesində əşyaların ümumi və fərqləndirici xassələrini ayırmağı, nəticə çxarmağı, qərara gəlməyi və onları nitqdə ifadə etməyi öyrənir.

Kiçik uşaqlarda müşahidə olunana maraq yaratmada onların diqqətini hər hansı bir obyektə toplamaq çətindir. Müşahidə olunana o zaman asanlıqla maraq yaratmaq olar ki, bir hadisəni təkrar müşahidə zamanı ona hər hansı yeni elementlər daxil edilsin.

Düzgün təşkil edilmiş müntəzəm müşahidələr, nəinki ətrafdakılar haqqında düzgün bilik almağa kömək edir, həm də uşaqların diqqətini müşahidə olunan iş üzərində mərkəzləşdirməyə alışdırır.

Bir – biri ilə bağlı olan müxtəlif hadisələrin müşahidəsi uşağa çoxlu təəssürat verir. Uşaqlar çox güclü nəqliyyat olan yerlərə ekskursiyaya getməlidirlər. Bu zaman tərbiyəçi giriş söhbəti edir və onlara bildirir ki, küçə hərəkət qaydaları sizə məlumdur. Onlar bilirlər ki, nəqliyyatın və piyadalarm hərəkətini kim və ya necə

qaydaya salır. Tərbiyəçi uşaqları elə yerləşdirməlidir ki, onlar küçəni yaxşı görsünlər və təhlükəsiz yerlərdə olsunlar. Müşahidə məqsədyönlü olsun deyə tərbiyəçi onlara suallar verir, uşaqların diqqətini işıqfora, polislərə, hərəkət edən nəqliyyatlara yönəldir. 4 – 5 dəqiqə uşaqlara imkan verirlər ki, onlar olduqları yerə yaxşı baxsınlar və sonra nə gördüklərini danışsınlar. Tərbiyəçi bəzi cavabları dəqiqləşdirir və müşahidəni yekun-laşdırır. Bağçaya qayıtdıqdan sonra tərbiyəçi uşaqlara gördüklərini bir daha xatırlamağı təklif edir.

Böyük qruplardakı uşaqlarda daha uzunmüddətli müşahidəyə maraq və adət yaratmaq mühümdür. Məsələn, isti günlərin başlanması ilə əlaqədar olaraq uşaq bağçasının sahəsində hansı dəyişikliklər baş verdiyini müşahidə etmək. Getdikcə mürəkkəb müşahidə obyekti görülür və onun planı dəqiqləşdirilir.

Əşyaların göstərilməsi - təlimin geniş yayılmış üsullarından biridir. Uşaqlar kukla paltarlarına, oyuncaqlarına, qablara və s. baxırlar.

Tərbiyəçi əşyanı elə göstərməlidir ki, onu hamı yaxşı görsün və əşya haqqında qısa və aydın məlumatlar alsınlar. Ardıcıllıqla uşaqların fikirlərini, diqqətini göstərilən əşyanın müxtəlif xüsusiyyətlərinə doğru yönəldir və ayrı – ayrı xüsiyyətləri birləşdirərək onu tam halda təqdim edir.

Şəkillərin və illüstrasiyaların göstərilməsi əsasən uşaqların nitqini inkişaf etdirmək və onların mühitlə tanışlığına istiqamət verir.

Şəkillərin uşaqlara yeni biliklər verməyə böyük imkanları var; heç vaxt onun görmədiyi şeyi görməyə imkan verir. Şəkillər böyük olmalı və aydın çəkilməlidir. Tərbiyəçi şəklin əvvəlcə ümumi mahiyyətini söyləyir, sonra uşaqların diqqətini onun müxtəlif detallarına cəlb edir. Şəkillərin göstərilməsində sözün böyük rolu vardır. Kiçik məktəbəqədər yaşlı uşaqlar şəkildə təsvir olunmuş obyektləri tanımalı, onların tanış əşyalarla oxşarlığını və fərqini öyrətməlidirlər. Böyük qrupdan başlayaraq uşaqların diqqətini şəkildəki ifadə vasitələrinə yönəldən suallar vermək, şəkildə təsvir olunan epizodları təkrarən söyləmək lazımdır.

İllüstrasiya – təlimin müəyyən hissəsinə aid olan, hər hansı anı izah edən şəkildir. Tərbiyəçi illüstrasiyanın baxılmasına rəhbərlik edir, illüstrasiyaları sıralar arası göstərir, ayrı – ayrı hissələri, lazım olan sözü yada salır. İllüstrasiya mətnin oxunmasından və ya söylənməsindən sonra göstərilir. Əgər ona uyğun olan ədədi məntiq uşaqlara tanış deyilsə, illüstrasiyanın öyrədici və tərbiyəvi əhəmiyyəti öz qiymətini itirir. Gərək mətnin qavranması ilə illüstrasiya arasında qarşılıqlı əlaqə yaransın. İllüstrasiya ilə təlim işi şəkil guşəsində davam etdirilir. Tərbiyəçi arzu edən uşaqlarla məşğələdə göstərilən illüstrasiyaları nəzərdən keçirir.

Tərbiyəçi uşaqların yaradıcılıq fəaliyyətlərini inkişaf etdirmək üçün onlara müxtəlif nümunələr göstərib izah edir.

Nümunənin göstərilməsi təsviri fəaliyyətin öyrədilməsində istifadə olunan üsullardan biridir. Nümunə, applikasiya, şəkil, quraşdırma işləri və s. ola bilər. Nümunə böyük ölçüdə cəlbedici rəngdə olmalıdır.

Hərəkət üsullarının göstərilməsi – müxtəlif məşğələlərdə tərbiyəçi hərəkət, musiqi, təsviri fəaliyyəti inkişaf etdirmək üçün əyani təsvirin göstərilməsindən istifadə edir. Tapşırığı necə yerinə yetirmək, musiqi altında hərəkət, şəkli çəkən zaman hansı ardıcıllıqla və necə işi yerinə yetirmək və s.

Hərəkət üsullarını göstərən zaman uşaqları düzgün yerləşdirmək lazımdır. Hər bir hərəkəti tərbiyəçi sözlə ifadə etməlidir.

Kinofilmlərin və diafilmlərin göstərilməsindən uşaq bağçasının bütün yaş qruplarında əyani vasitə kimi geniş istifadə olunur. Uşaqları vətənimizin paytaxtı Bakı, qardaş respublikaların xalqlarının həyatı ilə tanış etmək üçün diafilmlər daha faydalıdır. Film uşaqlarda maraq, emosiya yaradır və onlar bunu uzun müddət yadda saxlayırlar. Məşğələdə kinofilmlərdən istifadə edərkən mütləq bir sıra metodik tələblərə riayət etmək lazımdır. Filmin göstərilməsi 9 – 10 dəqiqədən çox olmamalıdır. Film göstərilməzdən qabaq tərbiyəçi uşaqlara göstəriləcək film haqqında söhbət aparmalıdır. Uşaqlara imkan verilməlidir ki, filmdən sonra onları ən çox maraqlandıran məqamlar haqqında bir – biri ilə müzakirə etsinlər.

Uşaqların biliklərini dəqiqləşdirmək və sistemləşdırmək üçün təkrar baxış və söhbət ilk baxışdan 5 – 6 gün sonra aparılmalıdır. Filmin göstərilməsi üçün müvafiq şərait olmalıdır. Təsvirin proyeksiyası ekranda olmalıdır. Otağın qaranlıqlaşması üçün pərdələr olmalıdır.

Şifahi metod - əyani metod sözlə sıx əlaqədə istifadə olunur. Göstərmə izahatla mütləq bir yerdə olmalıdır. Məktəbəqədər yaşlı uşaqların təlimində göstərmə və izahat həmişə bərabər olmur, bəzən göstərmə, bəzən isə izahat əsas yer tutur. Bu uşaqların yaşından, tapşırığın həcmindən və onların mənimsəmə dərəcəsindən asılıdır. Tədricən söz göstərməni əvəz edir. Şifahi metoda-müsahibə, bədii nağıletmə, hekayə, söhbət və s. aiddir. Müsahibə əqli tərbiyə metodu kimi məktəbəqədər yaşlı uaqların biliklərinin dəqiqləşdirilməsi, möhkəmləndirilməsi, təfəkkür və nitqinin inkişaf etdirilməsi məqsədilə aparılır.

Müsahibəni iki tipə ayırmaq olar: dərketmə və əxlaqi.

Dərketmə müsahibənin başlıca vəzifəsi – uşaqlarda ətrafdakılar haqqında olan bilikləri genişləndirmək, yoxlamaq, dəqiqləşdirmək və onlarda müstəqil təfəkkür inkişaf etdirməkdir. Çox vaxt müsahibə ekskursiya və müşahidələrdən sonra, bəzən isə uşaqların diqqətini qavrayacaqları fakta və hadisələrə yönəltmək məqsədi ilə ekskursiya və müşahidədən əvvəl aparılır. Əxlaqi keyfiyyətlərin tərbiyəsi olsa da, bu müsahibədə uşaqları fikirləşməyə, xatırlatmağa, təsəvvür etməyə və bunları nitqdə ifadə etməyə məcbur edir və beləliklə, uşağın əqli inkişafına kömək edir. Müsahibə mümkün qədər emosional xarakter daşımalıdır.

Bədii nəqletmənin uşağın biliyini genişləndirmək, dəqiqləşdirmək və sistemləşdirməkdə böyük əhəmiyyəti vardır. Bədii nəqletmənin qavrama prosesində fikir və hiss ayrılmazdır. Uşaq nəinki bədii obrazları qavrayır, həm də nağılın qəhrəmanlarını onların fəaliyyət və hərəkətlərini qiymətləndirir. Məsələn, uşaqlar xalq nağılına qulaq asarkən xalqın müdrikliyini mənimsəyir, yaxşı və pisi fərqləndirməyi öyrənir. Bədii nəqletmə tərbiyəçidən hazırlıqlı, bədii oxu ustası olmağı tələb edir. Nağıl dinləyicilərin təsəvvüründə canlı obraz yaratmalı, onları, həyəcanlandırmalıdır.

Nağılın uşaqlara təsir gücü tərbiyəçinin hazırlığının keyfiyyətindən asılıdır. Tərbiyəçi daha böyük yaşlı uşaqlara xalq nağıllarını, hekayələri, həyat təcrübəsi, qəzet materialları və s. əsasında da qurur.

Söhbət – söz metodunun əsas formasıdır. Əvvəlcədən hazırlanmış suallar əsasında uşağın idrak fəaliyyətini gücləndirir. O, biliyi aşkara çıxarır, cavabları dəqiqləşdirir, yeni məlumatlar verir. Suallar aydın olmalıdır. Onlar elə verilməlidir ki, təkcə materialı yadda saxlamaqla kifayətlənməsin, həm də mühakimə yürüdə bilsinlər. Bütün göstərilən metodlar başlıca olaraq yeni biliklərin verilməsinə və uşaqların sərbəst fəaliyyətinin təşkil edilməsinə yönəldilir.

Əməli metod – biliyi möhkəmlətmək üçün onu əməli fəaliyyətə tətbiq etmək lazımdır. Bununla əlaqədar olaraq təlimdə uşaqların əməli fəaliyyətinin təşkilinə kömək edən, onlar tərəfindən yeni biliklərin mənimsənilməsini yaxşılaşdıran metod-lardan istifadə olunur. Əməli metodun əsas elementi uşaqlar qarşısında konkret vəzifələrin qoyulmasıdır. Bu hazır nümunə və göstərmə ilə həyata keçirilir. Tapşırıq əməli metodda əsas yer tutur ki, bu da uşaqlardan tələb olunan bacarıq və vərdişlərin inkişafına kömək edir.

**Təlimin məzmunu və təşkili formaları.** Məktəbəqədər pedaqogikada təlim uşaqların tərbiyəsinin və hərtərəfli inkişafının üzvi hissəsi və vasitələrindən biri kimi müəyyən edilir. Təlim tərbiyəçi tərəfindən təşkil olunmuş pedaqoji prosesdir; həmin proses zamanı uşaqlar tərbiyəçinin rəhbərliyi altında bir sıra elementar, dəqiq bilik, bacarıq və vərdişlərə yiyələnirlər. Təlim prosesində uşaqlarda əxlaqi, iradi və estetik keyfiyyətlər tərbiyə olunur və tədricən əmək qabiliyyəti formalaşır. Təfəkkür, nitq, diqqət, yaddaş və təxəyyül inkişaf edir. Təlim uşaqlara qanunauyğun şəkildə müəyyən sistemlə bilik, bacarıq və vərdişlər verməklə onlarda müəyyən keyfiyyətlər tərbiyə etməyə imkan yaradır. Təlimi biliklərin yaşlı nəsildən yeni nəslə bilavasitə verilməsi işi kimi qiymətləndirmək olmaz, biliklərin mənimsənməsi mürəkkəb psixi prosesdir. Bu proses uşaqlardan diqqəti cəmləş-dirmək,

yiyələnəcəkləri bilik, bacarıq və vərdişləri başa düşmək, müəyyən təfəkkür müstəqilliyi tələb edir.

Təlim prosesində tərbiyəçinin qarşısında aşağıdakı vəzifələr qoyulur:

a) uşaqlarda bilik və məlumatların düzgün və şüurlu qavranılması onlarda zehni işə meyl və marağın tərbiyə edilməsi;

b) müxtəlif fəaliyyət növlərində təkrarlar və təmrinlər yolu ilə bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi;

c) uşaqların qazanmış olduqları bilik və məlumatlara özlərində düzgün, həm də şüurlu münasibət tərbiyəsi;

d) məşğələlərdə və müxtəlif fəaliyyət növlərində bilikləri müstəqil tətbiq etmək qabiliyyətinin tərbiyə edilməsi;

e) məşğələlərdə uşaqların yerinə yetirməli olduqları vəzifələrin daha dəqiq və anlaşıqlı izah edilməsi. Başqa sözlə məşğələnin məqsədinin uşaq tərəfindən başa düşülməsi, bununla belə yeni ideyaların çatdırılması;

f) tərbiyəçinin ifadə vasitələrindən istifadə etmək və səlist danışıq bacarığının olması;

g) tərbiyəçinin uşaqları düşünməyə sövq edən suallara uşaqlardan aydın və lakonik cavablar alınmasına istiqamət verilməsi.

Təlimin əsasını uşaqların dərketmə fəaliyyəti təşkil edir.

Təlim prosesi uşaqların müşahidəsi üçün əlverişli olan əşyaların və hadisələrin, onların keyfiyyətlərinin dərk edilməsi üzərində qurulur. Uşaq əşyanı və ya hadisəni onun xassələri ilə birlikdə qavrayır. Uşağın şüuru yeni biliklərlə zənginləşir.

Uşaqların bilikləri mənimsəməsi onların təfəkküründə analiz və sintezin ən sadə elementlərinin inkişafına və nitqlərinin zənginləşməsinə kömək edir. Bu yaşda təlimin müvəffəqiyyətinin ən mühüm şərti uşaqların hissi qavrayışı ilə tərbiyəçinin izahatı arasında əlaqənin yaradılmasıdır. Əgər tərbiyəçinin izahedici sözü uşaqların hissi təcrübəsinə istinad etmirsə, o zaman o, öz əhəmiyyətini itirir, uşaqların şüurunda konkret təsəvvürlər oyatmır. Əgər uşaqların təlimi yalnız əşya haqqındakı biliklərin yadda saxlanılması və təlim prosesində biliklərin mənimsənilməsinə

yönəldilmişsə, təfəkkür, nitq və digər psixi keyfiyyətlərin inkişafına, habelə tərbiyənin vəzifələrinin həyata keçirilməsinə kifayət qədər kömək etmirsə, həmin təlim formal xarakter daşıyır və qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nail olmur.

Tərbiyəçinin uşaqların dərketmə fəaliyyətinə rəhbərlik bacarığı təlimin əsasını təşkil edən zəruri şərtdir. Tərbiyəçi nəinki təkcə uşaqlara bilik verməyi, onları sadəcə sevməyi bacarmalı, həm də dəqiq və aydın müşahidə etməyi, onların psixikasında, onun xarici təzahürlərində olan dəyişiklikləri görməyi, uşaqları başa düşməyi bacarmalı, onların emosiyalarında, suallarında, cavablarında ifadə olunan reaksiyaları, habelə onların öz fəaliyyətlərinə münasibətini öyrənməlidir. Təlim sakit, işgüzar və bununla bərabər uşaqlar üçün emosional və şən şəraitdə keçilməlidir. Bu şəraitdə uşağın daxili aləmi tərbiyəçiyə daha və hərtərəfli aydın olur.

Tərbiyə və təlimin həqiqi müvəffəqiyyətlərini plan və hesabatlar üzrə deyil, uşağın inkişafında artıq əmələ gəlmiş dəyişiklikləri, bu və ya digər dəyişikliklərin əmələ gəlməsində təlimin təsirini nəzərə almaqla aşkar etmək olar. Uşaq hələ 2 – 3 yaşından ətrafdakı hadisələri müşahidə edərkən, böyüklər uşaqlar ilə danışarkən, bəzi tapşırıqları yerinə yetirərkən ən sadə bilikləri mənimsəyir. Tərbiyə prosesində onun bilik dairəsi genişlənir, lakin bu yaşda olan uşaqlarda zehni gərginliyə dözmək qabiliyyəti inkişaf etməmişdir, ona görə də onlar mütəşəkkil, müntəzəm təlimə demək olar ki, qadir deyildirlər. Onlar mütəhərrik və fəaldırlar, lakin onların fəaliyyətində şüurlu məqsəd ardıcıllığının elementləri zəifdir.

Tərbiyəçinin ən sadə tapşırıqlarını müstəqil olaraq yerinə yetirmək imkanları azdır. Onlar şifahi izahatı çətinliklə qavrayırlar, çünki onlarda tərbiyəçinin sözlərinin təsiri ilə xarici mühit qıcıqlandırıcısının əmələ gətirdiyi bilavasitə reaksiyalar arasında hələ əlaqə zəif olur. Bu xüsusiyyətlər 3 – 4 yaşlı uşaqlarda da müəyyən dərəcədə qaldığına görə onlar tərbiyəçi tərəfindən nəzərə alınmalıdır. Kiçik yaşlı uşaqlarla keçirilən məşğələlərin böyük yaşda daha mürəkkəb olması zehni iş üçün lazım olan

keyfiyyətlərin formalaşmasına kömək edir. Uşaq bağçasında təlim uşaqların hərtərəfli inkişafının (fiziki, əxlaqi, zehni və estetik) tədricən daha yüksək pilləsinə qaldırılmalıdır. Müxtəlif yaş qruplarında uşaqların mənimsəyəcəkləri bilik və vərdişlərin məzmunu, istifadə ediləcək üsulların və vasitələrin seçilməsi uşaqların inkişaf xüsusiyyətləri ilə müəyyən edilir. 3 – 4 yaşlı uşaqlar təlim prosesində müxtəlif əşyalarla,onların forması, rəngi və işlədilmə yeri ilə, ümumiyyətlə əhatə olunduqları təbiətin, məişət və ictimai həyatın ən sadə hadisələri ilə tanış olur, onlar arasındakı əlaqə və münasibətləri anlamağa başlayırıar. Uşaqların biliyinin daha yüksək pilləyə qalxması onları həyatın xeyli müxtəlif hadisələri ilə tanış etməyə imkan verir. 5 – 6 yaşlı uşaqlar bəzi ictimai idarələrlə ( məktəb, kitabxana və i. a.) doğma şəhər və ya kəndlə tanış olurlar.

Uşaqlarda vətəninə, xalqına, digər ölkələrin xalqlarına məhəbbət, əməksevərlik, ictimai davranış vərdişləri tərbiyə edirlər. Məktəbəqədər yaşlı uşaqlar təlim prosesində təbiət haqqında xeyli məlumat alır, bitki yetişdirmək və heyvanların həyatı haqqında bəzi biliklərə yiyələnmək, onlarda təbiəti müşahidə etmək qabiliyyəti inkişaf etdirilir və dialektikanın ilk elementləri tərbiyə olunur.

Uşaqlar təbiətdə əməyin ən sadə növlərinə alışdırılırlar. Onlarda təbiət gözəlliyini qavramaq və sevmək qabiliyyəti tərbiyə olunur. Uşaqlara, həmçinin yaradıcı fəaliyyətdən istifadə edərək ( süjetli rəsm, yapma, quraşdırma fəaliyyəti) ən sadə təsviri vərdişlər öyrədilir, eyni zamanda uşaqlar fəza, istiqamət, forma, rəng anlayışlarını öyrənirlər. Elementar nəzəri təfəkkürün, nitqin, həyatdan baş çıxarmağın inkişafının uşaqların məktəb təliminə hazırlanmasında böyük əhəmiyyəti vardır.

Düşüncənin ilk nəzəri imkanları hələ hissiyyatla təfəkkür arasında tərəddüd edən fəaliyyətdir. Musiqi məşğələlərində uşaqlarda elementar musiqi qabiliyyəti: səsin bəzi incə musiqi fərqini duymaq qabiliyyəti tərbiyə olunur; onlar ən sadə musiqiləri mənimsəməyi, mürəkkəb olmayan musiqi əsərlərinin xarakterini fərqləndirməyi öyrənirlər.

İdman məşğələlərində uşaqlar düzgün yeriməyi, qaçmağı, müvazinəti saxlamağı, tullanmağı, dırmanmağı, topu tullamağı öyrənirlər. Bu yaşda hərəkətin inkişafı üçün əsas vasitə mütəhərrik oyundur. Musiqi ilə keçirilən oyun və hərəkətlər də əsas hərəkətlərin uşaqlar tərəfindən mənimsənilməsinə kömək edir. Ətraf mühitlə tanışlıq əsasında uşaqların lüğətinin zənginləşməsi, onlarda qrammatik cəhətdən düzgün şifahi nitqin təşəkkül etməsi, səslərin düzgün tələffüzünün öyrədilməsi, öz fikrini sadə cümlələrlə dəqiq ifadə etmək, müəyyən mövzuya dair müstəqil olaraq hekayələr düzəltmək bacarığı tərbiyəsi ana dili təliminin məzmununu təşkil edir. Uşaqlara habelə şerləri ifadəli oxumaq, tanış nağıl və kiçik hekayələri nağıl etmək öyrədilir.

Tərbiyəçi təlim və tərbiyəni elə həyata keçirməlidir ki, uşaqlar müəyyən bilik və bacarıqları qavrayarkən onları öz fəaliyyətlərinə tətbiq edə bilsinlər. Məsələn, tərbiyəçi uşaqlara toxumdan bitki yetişdirilməsi üçün nə etmək və necə etmək lazım gəldiyini izah edir və göstərir. Sonra uşaqlar tərbiyəçinin nəzarəti altında torpağı hazırlayır, toxum səpir, suvarır və sonradan cücərtinin, gövdənin, yarpaqların və güllərin necə əmələ gəlməsini izləyirlər. Yaxşı təşkil olunmuş təlim nəinki uşaqların biliyinin zənginləşməsinə, diqqət, təfəkkür və nitqin tərbiyəsinə, həm də onlarda tapşırığı yerinə yetirərkən rast gəldikləri çətinlikləri müstəqil surətdə aradan qaldırmaq qabiliyyətinin formalaşmasına kömək edir. Çətinliklərin aradan qaldırılması, uşaqların öz fəaliyyətinin yaxşı nəticəsini görmək qabiliyyəti onlarda şən emosiyalar, estetik hisslər doğurur və iradi keyfiyyətlər tərbiyə edir.

Uşaq bağçalarında aparılan səmərəli iş aşağıdakı nəticələri çıxarmağa imkan verir:

a) məşğələlər məktəbəqədər yaşlı uşaqlarla aparılan işdə möhkəm yer tutur;

b) məşğələlərin müntəzəm və planauyğun şəkildə keçirilməsi uşaqlarda təlimə maraq və müsbət münasibət tərbiyə edir;

c) uşaqlarda mütəşəkkil surətdə zehni işlə məşğul olmaq qabiliyyətini inkişaf etdirir;

d) uşaqlar təlim prosesində müəyyən dairədə elementar biliklərə yiyələnirlər;

e) mütəşəkkil sistemli təlim təfəkkürün, nitqin, əxlaqi keyfiyyətlərin formalaşmasına və uşaqların əhatə olunduqları mühitə düzgün münasibət bəsləmələrinə kömək edir.

Uşaq bağçasında təlimin əsas təşkili forması məşğələdir. Məşğələ bütün yaş qruplarında aparılır. Məşğələ prosesində uşaqlar tərbiyəçinin rəhbərliyi altında bir sıra bilik, bacarıq və vərdişləri mənimsəyirlər. Onlar öz fikirlərini dəqiq ifadə etməyi, bir – birlərini və tərbiyəçini diqqətlə dinləməyi öyrənirlər. Məşğələlər uşaqların dərketmə qabiliyyətinin və zehni əməyinin, marağının inkişafına kömək edir. Bütün bunlar uşaqların məktəbdə müvəffəqiyyətli təhsil almaları üçün əsas yaradır. Uşaq bağçasında keçirilən məşğələ prosesində təlim və tərbiyə vəhdətdə həyata keçirilir. Təlimdə uşaqlar tərəfindən yaxşı mənimsənilmiş proqram materialına istinad edilir. Tərbiyəçi hər bir məşğələdən nəinki bilik, bacarıq və vərdişlərin tərbiyəsi üçün, həm də intizamlılıq, səy, qənaətçilik və s. tərbiyəsi üçün də istifadə edir. Yalnız belə olduqda təlim istənilən tərbiyəvi nəticələr verər.

Məşğələlər bütün qrupun uşaqları ilə eyni vaxtda keçirilir. Məşğələnin kollektiv forması tərbiyəçiyə uşaqları öyrənmək, hər bir uşağın müvəffəqiyyət və nöqsanlarını görmək inkanı verir. Məşğələ prosesində tərbiyəçinin rəhbərlik etdiyi uşaqlar eyni zamanda bir sıra bilikləri mənimsəyirlər. Məşğələlərdə təlim azad tərbiyə qalıqları ilə mübarizə vasitələrindən biridir. Bu tərbiyənin tərəfdarları iddia edirdilər ki, uşaq özünün xüsusi proqramı üzrə, özünün xüsusi müşahidələri, təcrübəsi əsasında öyrənməli və təlim üsulları uşağın özünün qoyduğu məqsədlərə uyğun olmalıdır. Müasir dövrdə məktəbəqədər yaşlı uşaqların təlimi planlı və mütəşəkkil surətdə aparılır.

Hazırda məktəbəqədər tərbiyə müəssisələrində məşğələlərin aşağıdakı tipləri müəyyən edilmişdir:

a) əsas məqsədi uşaqlara yeni biliklər vermək, eləcə də onlarda yeni vərdiş və bacarıqlar tərbiyə etməkdən ibarət olan

məşğələlərdir. Müşahidələr, ekskursiyalar, şəkillərə baxmaq, habelə rəsm və quraşdırma üzrə məşğələlər belə məşğələlərə aiddir;

b) əsas məqsədi uşaqların aldıqları bilik və bacarıqları təkrar və təmrinlər yolu ilə möhkəmlətməkdən ibarət olan məşğələlər. Söhbətləri, didaktik oyunları, bədii ədəbiyyat nümunələrinin dinlənilməsini, təsviri fəaliyyət və ana dili üzrə məşğələləri belə məşğələlərə aid etmək olar;

c) əsas məqsədi əldə edilmiş bilik və bacarıqların uşaqlar tərəfindən müstəqil tətbiq olunmasından ibarət olan məşğələlər. Bunların sırasına təsviri fəaliyyət, quraşdırma və əmək üzrə məşğələlər daxil etmək olar.

Əlbəttə, məşğələlərin belə təsnifatı müəyyən dərəcədə şərtidir, belə ki, ayrı – ayrı məşğələlərdə həmişə yeni biliklərin verilməsi, uşaqların aldıqları biliklərin təkrarlanması və möhkəmlənməsi, bu biliklərin onlar tərəfindən tətbiq edilməsi ünsürləri ola bilər. Məşğələlərin yaxşı keçirilməsində tərbiyəçinin hazırlığının böyük əhəmiyyəti vardır. Hər bir tərbiyəçi uşaq bağçası proqramının bütün bölmələrini öyrənməli və yadda saxlamalıdır ki, onun tələb etdiyi pedaqoji prosesdə bu bölmələr arasında təbii əlaqə yaradılmasına nail olmaq lazımdır.

Beləliklə, tərbiyəçinin tətbiq etdiyi üsullar nəinki proqramın həmin bölməsindəki biliklərin (məsələn, təbiət haqqında) uşaqlar tərəfindən mənimsənil-məsinə, həm də eyni zamanda əxlaqi, estetik keyfiyyətlərin tərbiyəsinə yönəldil-məlidir. Məsələn, “Körpələr üçün oyuncaqların hazırlanması” məşğələsinin bilavasitə vəzifəsi - əməksevərlik, sadə əmək vərdişi və bacarıqlarının tərbiyəsi, habelə material ilə tanışlıqdır. Eyni zamanda həmin məşğələ uşaqlarda şən emosiyalar doğurmalıdır (“Sizdən bu oyuncaqları alarkən uşaqlar gör necə sevinəcəklər”), belə ki, istər məqsəd, istər məna və istərsə də öz işlərinin nəticələri uşaqlara tamamilə aydındır. Təlimdəki hər hansı bir addım uşaqlar tərəfindən yaxşı öyrənilmiş proqram materialına istinad etməlidir. Həmin gün üçün məşğələ keçirilməsi nəzərdə tutulurkən, tərbiyəçi əvvəlki işlə tanış olur: əgər uşaqların məşğələlərdə mənimsəməli olduqları bilik və vərdişlərin möhkəm olmadığı müəyyən

edilərsə, məşğələyə yeni elementlər əlavə edərək, onları təkrar etmək lazımdır. Lakin nəzərə almaq lazımdır ki, eyni materialın dəfələrlə təkrarı baş beyin qabığında tormozlanma (həmin materiala olan marağın aradan qalxması nəticəsində) yaranmasına kömək edir, ona görə də təkrarlama zamanı məşğələlərə uşaqların marağını artıran yenilik gətirən element daxil etmək məsləhət görülür. Bu barədə K.D.Uşinski yazmışdır ki, köhnəni fasiləsiz təkrar edərkən hər bir təkrarlama zamanı bir qədər yenilik əlavə etmək, köhnənin möhkəm bünövrəsi üzərində yenini qurmaq lazımdır. Tərbiyəçi məşğələyə hazırlaşarkən məşğələnin bütün gedişini qabaqcadan nəzərə almalıdır. Bunlar aşağıdakılardır:

a) uşaqlara hansı formada izahat verəcəkdir, hazırda uşaqlar nə ilə və necə məşğul olmalıdırlar (qısa, dəqiq, uşaqlar üçün aydın şəkildə);

b) məşğələ üçün hansı illüstrativ material və ya digər material (boyalar, karandaşlar, didaktik material və s.) tələb olunur;

c) həmin məşğələdə hansı tərbiyə və təlim üsullarından istifadə olunmasının məqsədəuyğunluğunu ətraflı düşünmək.

Məşğələ prosesində uşaqların malik olduqları təcrübənin, tətbiq edilməsi çox mühümdür. Məsələn, orta qrupda "Gül dibçəklərində bitki əkmək" mövzusunda əmək məşğələsi keçirilir. Məşğələnin əvvəlində bu işin keçən il necə görüldüyünü xatırlamağı və danışmağı, sonra isə müstəqil olaraq işləməyi uşaqlara təklif etmək lazımdır. Yaxud "Bizim küçəmiz" mövzusunda söhbətdən sonra böyük qrupun uşaqlarına öz küçələri haqqında danışmağı təklif etmək lazımdır. Belə olduqda uşaqların şüurunda əvvəlcə alınmış və yenidən qazanılmış bilik və bacarıqlar arasında əlaqə yaranır. Uşaqlar təcrübəli olduqda, onlar yeni biliklərə asanlıqla yiyələnirlər.

Uşaqların təcrübəsini kollektiv və fərdi, əmək fəaliyyəti zamanı, rəsm və bir çox digər məşğələlərdə tətbiq etmək imkanı vardır. Tərbiyəçi məşğələ zamanı uşaqlara təlim verərkən onların bilikləri necə dərk etdiklərini, bu bilikləri nə qədər dəqiq və əsaslı öyrəndiklərini diqqətlə müşahidə edir, lazım gəldikdə isə müxtəlif əlavə təlim üsulları tətbiq edir. Məşğələ zamanı pedaqoq

bütün uşaqlara nəzər yetirir. O, unutmamalıdır ki, ən müxtəlif xarakterli uşaq kollektivini tərbiyə edir və onlara təlim verir. Uşaqlardan biri həddən artıq həyəcanlanmışdır, onu sakitləşdirməkdə ona vaxtında kömək etmək lazımdır, digəri, əksinə, həddindən artıq tormozlaşmışdır, etinasızdır, onu ümumi işə bacarıqla cəlb etmək lazımdır; üçüncüsü, diqqətsizdir, onun diqqətini isə cəlb etmək lazımdır; dördüncüsündən tapşırığın yerinə yetirilməsini daha ciddiyyətlə tələb etmək lazımdır. Tərbiyəçinin fikri uşaqlar ilə keçirdiyi məşğələdən yayınmamalı, o, səsini kəskin surətdə ucaltmamalı, uşaqlardan birini məzəmmət etməklə digər uşaqları işdən yayındırmamalıdır. Tərbiyəçi ümumi didaktik tələblərə riayət edərək bütövlükdə bütün uşaqlar qrupunun işinə kömək göstərərək, məşğələ zamanı uşaqlara fərdi yanaşmanın lazım olduğunu unutmamalıdır. Uşaqlarla məşğələni təşkil edərkən yadda saxlamaq lazımdır ki, xüsusi təşkil olunmuş təlimdən əlavə uşaqlar böyüklərlə ünsiyyət prosesində, oyunda, əməkdə, məişətdə çoxlu bilik, bacarıq və vərdişləri kəsb edirlər. Uşaq bağçalarında uşaqlarla gəzinti keçirir, onlara nağıl söyləyir, onlar radio verilişlərini, böyüklərin söhbətlərini eşidirlər və s.

Bu zaman qarşıya xüsusi təlim – tərbiyə vəzifələri qoyulmasa da, uşaqların məşğələdən kənarda aldıqları təəssürat və biliklərin təsirini qiymətləndirməmək olmaz. Bu təəssürat və biliklər şübhəsiz ki, uşaqların malik olduqları biliklərin möhkəmlənməsinə, onların görüş dairəsinin genişlənməsinə, müstəqil fəaliyyətlərinin zənginləşməsinə və yaradıcılıq qabiliyyətinin inkişafına kömək edir.

<u>Məşğələlərdə təlim üsulları.</u> Uşaqların məşğələ zamanı müəyyən bilik, bacarıq və vərdiş əldə etmələri, bunları möhkəmlətmələri üçün əhatə olunduqları mühitə onlarda doğru münasibət formalaşması üçün bu prosesə tərbiyəçinin düzgün rəhbərliyi lazımdır. Uşaq bağçasının müəllimi tərbiyə və təlim üsullarına yiyələnməli və onları məşğələlərdə tətbiq etməyi bacarmalıdır.

Təcrübədə yoxlanılmış təlim üsulları daha çox məsləhət görülür. Bu üsullardan aşağıdakı məqsədlə istifadə etmək nəzərdə tutulur:

a) biliklərin mexaniki surətdə yox, bu və ya digər fəaliyyət üçün onların əhəmiyyətini başa düşərək dərk etməkdə uşaqlara kömək etmək;

b) təfəkkür və nitqin inkişafına kömək etmək;

c) uşaqlarda estetik hisslər və qavrayışlar tərbiyə etmək;

d) insanlara, əməyə, təlimə, ətraf həyatın hadisələrinə düzgün münasibət tərbiyə etmək;

e) uşaqlarda öyrənmə fəaliyyətinə meyl və maraq formalaşdırmaq.

Məşğələlərdə tətbiq olunan təlim üsullarına aşağıdakılar aiddir:

1. Uşaqların məşğələdə nə edəcəklərini və necə edəcəklərini onlara izah etmək və göstərmək;
2. Tərbiyəçinin uşaqlara sualları;
3. Nümunələrin göstərilməsi;
4. Oyun priyomları;
5. Şəkillərə baxmaq.

Tərbiyəçi tərəfindən tətbiq olunan bütün təlim üsulları məşğələnin məqsəd və məzmununa kömək edir. Göstərilən təlim üsullarından bəziləri bir sıra məşğələlərdə tətbiq oluna bilər, digər təlim üsullarını tətbiq edərkən uşaqların yaş xüsusiyyətlərini, zehni və fiziki inkişafını, onların təcrübəsini nəzərə almaq lazımdır. Mövcud şəraitdə savad təlimi tam təşkildə məktəbin vəzifəsidir, lakin uşaq bağçası bu istiqamətdə müəyyən hazırlıq işini öz üzərinə götürür. Bununla əlaqədar tərbiyəçi I sinifdə uşaqların nələri öyrənəcəklərini bilməli və onları proqram materialını müvəffəqiyyətlə mənimsəməyə hazırlamalıdır.

Məşğələ üçün şer seçərkən elə şerlər seçilməlidir ki, səslərin tələffüzü növbələşsin. Əks halda uşaqlar bir tələffüz tərzinə alışar və digərinə keçməkdə çətinlik çəkərlər. Böyük qrupda məşğələlər elə təşkil olunmalıdır ki, uşaqlar məktəbə- hazırlıq qrupuna keçənədək aşağıdakı vərdişlərə yiyələnsinlər:

a) hər hansı sözün təhlilini aparmaq;

b) sözdə səsin yerini müəyyənləşdirmək;

c) qalın və incə səsləri ayırmaq;

d) sözün səs strukturuna bələdləşmək və təklif olunan modelə uyğun söz seçmək;

e) bütün saitlərin böyük çap şəklini tanımaq və yazmaq.

Dörd yaşdan beş yaşadək, savad təliminə hazırlıq işi gedirsə, beşinci yaşdan əlifba təliminə hazırlıq üzrə iş gedir. Bu dövrdə ətraf aləmlə tanışlıq, uşağın nitqinin inkişaf etdirilməsi üzrə işə geniş yer verilməli, məktəblə, onun rejimi ilə, orada davranış qaydaları ilə tanışlıq, məktəbə hazırlıq işləri üzrə psixoloji iş aparılmalıdır.

Uşaqların məktəbdə təhsil almağa hazırlığında uşaq bağçası ilə məktəbin işindəki ardıcıllığın olması bir tərəfdən uşaq bağçasında uşaqların məktəb təliminə sistematik hazırlanması, digər tərəfdən məktəbin öz konkret vəzifələrini həll etməsi üçün uşaq bağçası məzunlarının nailiyyətlərindən, onların bilik, bacarıq, vərdişlərindən, faydalı adətlərin formalaşmasında yüksək emosionallıqdan istifadə etməsi deməkdir. Məktəbə zehni hazırlıq o deməkdir ki, uşaq ətraf mühit haqqında başa düşdüyü sistemləşdirilmiş bir sıra təsəvvür və biliklərə; aydın, əlaqəli və qrammatik cəhətdən düzgün nitqə yiyələnir, o, müqayisə, analiz və sintez etməyi, ümumiləşdirməyi, başa düşə bildiyi həyat faktları və hadisələri dairəsində ən sadə məntiqi mülahizələr yürütməyi bacarır; uşaq hər şeylə maraqlanır, hər şeyi öyrənməyə səy göstərir; öz hərəkətlərini müəyyən dərəcədə planlaşdırmağa və nəticənin necə olacağını bilməyə qadirdir.

K.D.Uşinski nitqin keyfiyyətinə diqqət vermişdir; əgər uşağın nitqi qırıq – qırıq və əlaqəsizdirsə, tələffüzü pisdirsə, o, metodik təhsilə başlamağı məsləhət görmürdü. Onun fikrinə görə uşaq məktəbə daxil olana yaxın fikrini tam cümlələrlə ifadə etməyi bacarmalıdır. Məktəbin I sinfində oxuyan uşaqlar üzərində müşahidələr, uşaqların uşaq bağçasında aldıqları biliklərin məktəbdə tədris fənlərinin mənimsənil-məsinə təsiri məsələsinə dair xüsusi tədqiqatlar, uşaq bağçalarından gəlmiş uşaqların zehni fəallığı haqqında müəllimlərin fikirləri zehni hazırlığın məktəbdə təlim üçün zəruri ilkin şərt olduğunu sübut edir. İxtiyari psixi

fəaliyyətin müəyyən inkişaf səviyyəsi, yaxud iradi hazırlığı məktəbə hazırlığın zəruri tərkib hissəsidir.

Uşağın məktəbə ümumi hazırlığının göstəricilərindən biri onun emosional – etik hazırlığıdır.

Uşaq bağçasında xeyli inkişaf edən əxlaqi, zehni və estetik hisslər uşaqların məktəbdə emosional həyatının daha da zənginləşməsinin əsasıdır. Böyük məktəbəqədər yaşlı uşaqlar öz hisslərini idarə etməyi, hətta saxlamağı da bacarırlar. Böyük məktəbəqədər yaşlı uşaqda məktəbə keçidlə əlaqədar olaraq, yeni hisslər, məktəbə, təlimə, müəllimə münasibət, dərs oxumaq həvəsi meydana gəlir. Uşaqların təlim müvəffəqiyyətində fiziki hazırlığın da mühüm əhəmiyyəti vardır.

Məktəbdə uşağın bütün həyat tərzinin yenidən qurulması, rejimin dəyişməsi, ciddi tədris əməyi, dərs müddətinin uzunluğu, ev tapşırıqlarının yerinə yetirilməsi ondan xeyli fiziki gərginlik, birinci növbədə baş beyin qabığının gərginliyini tələb edir. Ona görə də fiziki hazırlıq uşağın məktəbə daxil olması ərəfəsində mühüm ilkin şərtdir. Fiziki hazırlıq səhhətin yaxşı vəziyyətdə olması, görmə və eşitmə orqanlarının düzgün fəaliyyət göstərməsi, əlverişli olmayan şəraitə qarşı dözümlülük və müqavimət, mədəni – gigiyenik vərdişlərin müəyyən sabitliyi deməkdir. Uşaqların məktəbə hazırlığı, kiçik qrupdan başlayaraq, uşaq bağçasında keçirilən bütün təlim – tərbiyə işinin nəticəsidir. Uşaq bağçasının böyük qrupuna məktəbə keçid pilləsi kimi baxıla bilər: məktəb, bu qrupun uşaqları üçün ən yaxın gələcəkdir. Böyük məktəbəqədər yaşlı uşaqlar elə bir inkişaf səviyyəsinə çatırlar ki, bu onların I sinifdə tədris – tərbiyə prosesinə hazır olduqlarını göstərir. Uşağın bütün məktəb həyatı ciddi vaxt çərçivəsi daxilində keçir. Vaxtı qiymətləndirmək və qorumaq vərdişi uşaqlarda çox zəif inkişaf edir. Bu vərdişin formalaşması əsasən məktəbin vəzifəsidir, lakin onun təməli hələ uşaq bağçasında qoyulmalıdır.

Uşaqlar tərəfindən görülmüş işin nəinki keyfiyyətinə, həm də bu iş üçün sərf edilmiş vaxta, işə lazımi surətdə diqqət yetirən tərbiyəçilər uşaqlarla və onların gələcək müəllimlərinə böyük xidmət göstərmiş olurlar. Məktəbəqədər yaşın sonuna yaxın uşaqlar

sanki böyüyüb uşaq bağçası çərçivəsindən kənara çıxır, psixoloqların dediyi kimi, həyatda öz imkanlarına uyğun yer tutmağa, məktəbli olmağa çalışırlar. Uşağın gələcək inkişafı artıq, məktəbdən və sinif müəllimindən, xüsusilə uşaqların əvvəlki pillədə nail olduqları keyfiyyətlərin məktəbdə necə inkişaf etdiriləcəyindən asılıdır.

Ardıcıllığın həyata keçirilməsi məktəbin I sinif müəllimindən altı yaşlı uşaqların yaş xüsusiyyətlərini, uşaq bağçasında uşaqların etdikləri konkret nailiyyətlərlə tanış olmağı, uşaq bağçası ilə məktəb arasında əlaqənin olmasını tələb edir. Tərbiyəçi öz işini əsasən uşaqların əhatə olunduqları mühitin əşya və hadisələri haqqındakı təsəvvürləri üzərində qurur. Xüsusi təşkil olunmuş müşahidələrdən əlavə, uşaqların görüş dairəsinin genişləndirilməsi üçün tərbiyəçi ilə olan gəzintilərin böyük əhəmiyyəti vardır. Nitq inkişafı ilə üzvi vəhdətdə uşaqlarda böyük hissi təcrübə toplanır. Bunun uşaqların zehni inkişafı və məktəbdə tədris fənlərinin mənimsənilməsi üçün mühüm əhəmiyyəti vardır. Uşaq bağçasın proqramında uşaqların əhatə olduqları mühitlə təbiət, əmək və ictimai həyat hadisələri ilə tanış etmək nəzərdə tutulur. Məktəbin tədris proqramları dərslərdə şagirdlərin mühitlə tanışlığını təmin edir. Bundan başqa dərsdənkənar görüləcək işin məzmunu məktəbin tərbiyə işinin nümunəvi proqramında şərh edilmişdir.

Məktəbin qabaqcıl təcrübəsinin əks olunduğu yeni proqramlar uşaq bağçası ilə məktəb arasında ardıcıllıq yaradılması üçün böyük imkanlar verir.

**Uşaqların məktəbə hazırlığında təlimin rolu**. Uşaqların əqli tərbiyəsi, onların təlim hazırlığı hər şeydən əvvəl onlarda məktəbə, elmə və biliyə maraq oyatmaq deməkdir.

Uşaqlar təbiət və cəmiyyət hadisələri ilə məhz məktəbəqədər yaşdan maraqlanırlar. Tərbiyəçi və valideyn onların marağını təmin etməli, biliyə olan həvəsini formalaşdırmalıdır. Təbiət və cəmiyyət hadisələrinə nəzər salmağı, əhatələrində olan insanların əməyi üzərində müşahidə aparmağı uşaqlara öyrətmək və

onlarda idraki maraq yaratmaq əqli tərbiyənin və təlimin tərbiyəçilər qarşısında qoyduğu vəzifədir.

Məktəbəqədər yaşlı uşaqların məktəbə psixoloji cəhətdən hazırlanması, hər şeydən əvvəl onlarda biliklərə maraq tərbiyəsi deməkdir. Uşaq məktəbəqədər yaş dövründə ətraf mühitlə tanışlıq prosesində, ana dili məşğələlərində və başqa fəaliyyət növlərində təbiət, əmək və texnikaya aid yenilikləri öyrənir. Bu zaman uşaqların sevinc hissi keçirməsinə imkan vermək, onlarda məktəbə bilik mənbəyi kimi baxmaq bacarığı yaratmaq zəruridir.

Məktəbəqədər yaşlı uşaqlarda fikri fəaliyyət tərbiyəsi əqli tərbiyənin və təlim hazırlığının başlıca vəzifəsidir. Fiziki fəaliyyət körpəlik dövründə, əməli hərəkətlər zəminində baş verir. Həmin dövrdən başlayaraq uşaq cisimlərə sadəcə olaraq baxmaq, onlarla oynamaq mərhələsindən əməli iş aparmaq mərhələsinə keçir. O, həndəsi fiqurlardan istifadə edərək ev tikir, ayrı – ayrı əşyaların işlədilmə yerini aydınlaşdırır, onlardan sadə şəkildə istifadə etməyə alışır, cisim və hadisələr arasındakı qarşılıqlı əlaqəni aşkar edir, onların xüsusiyyətlərini öyrənir.

Uşağın yeriməyə başlaması onun cisimlərlə olan münasibətini daha da mürəkkəbləşdirir. Uşaq yeriməklə ancaq fiziki fəaliyyətdə olmur, həm də əqli cəhətdən müəyyən inkişaf mərhələsinə qədəm qoymuş olur. O, yeridikcə müxtəlif cisimlərə, oyuncaqlara toxunur, onları hərəkətə gətirməyə çalışır. Bəzən cisimlər uşaqların hərəkətlərinə mane olur. Bu zaman uşaq qarşısına çıxan maneəni aradan qaldırmaq, yaranmış vəziyyətdən çıxmaq üçün yol və vasitələr axtarmağa səy göstərir. Uşağın yaşayış şəraitindən doğan tələblər onun məktəb təliminə hazırlaşdırılmasında böyük rol oynayır.

Məktəbəqədər yaşın ilk mərhələlərində uşaq bəzi məsələləri yaşlıları təqlid etmək yolu ilə də həll edir. Məsələn, çarpayının, şkafın altında olan bir şeyi yaşlıların çubuqla çıxartdığını görəndə, uşaq da ondan istifadə edir, həm də təkcə çubuq deyil, əlinə gələn hər bir uzun cisimdən - süpürgədən, döşəmə ağacından və s. istifadə edir. Cisimlərlə bu cür qarşılıqlı münasibət uşaq ağlının sonrakı inkişafında mühüm rol oynayır. Bunu şərti olaraq

uşaq təfəkkürünün ilkin təqlid mərhələsi də adlandırmaq olar. Belə təqlid onun həyat təcrübəsini zənginləşdirir və məktəb təlimınə hazırlığına sanki istiqamət verir.

Uşağın məktəbəqədər yaş dövründən qazandığı ilk həyat təcrübəsi onun təfəkkürünün, əqlinin inkişafına ciddi təsir göstərir. Burada cisim və hadisələrin təsiri ilə yanaşı yaşlıların ünsiyyəti və onların tərbiyəvi təsiri də əsasdır.

Yaşlılar uşağın yaş və fərdi inkişaf xüsusiyyətlərinə uyğun olaraq müxtəlif tapşırıqlar verir, onun qarşısına bu və ya digər məsələlər qoyur, bu məsələnin həll edilməsi yollarını göstərir. Bunlar isə uşağa cisimləri, onların xüsusiyyətlərini ümumiləşmiş şəkildə əks etdirməyə imkan verir. Uşaq hələ nə etdiyini qabaqcadan planlaşdırmağı və bu plana əsasən işləməyi öyrənənə qədər, yaşlı adamların göstərişi ilə, onların izahatına uyğun olaraq hərəkət etməyi öyrənir. Bu da onların ağıllı hərəkətlərinin əsasını təşkil edir. Deməli, müəyyən yaşda uşağın ağıllı hərəkəti onda ağlın yetkinliyi nəticəsi deyil, şüurlu və ya qeyri-şüurlu olaraq müəyyən hərəkətlərə yiyələnmək, onları mənimsəməklə bağlıdır.

**Məktəb təliminə hazırlanmanın mahiyyəti.** Məktəbəqədər yaş dövründən uşaqları məktəb təliminə hazırlaşdırarkən onların təfəkkürünün xüsusiyyətlərini nəzərə almaq lazımdır. Körpə uşaqların təfəkkürünün xarakterik xüsusiyyətlərindən biri hal – hazırda qavradıqları cisimlər haqqında düşünülməkdir. Əgər cisim müəyyən müddət uşağın nəzərindən yayındırılırsa, o, həmin cisim haqqında düşünmür. Başqa sözlə, cisimlərlə görülən iş qurtaran kimi həmin cisimlər haqqında düşünmək prosesi də dayanır. Uşaq hərəkət etdirdiyi, oynadığı, toxunduğu cisimlər haqqında düşünüb fikirləşə bilər. Bu dövrdə təfəkkür sanki qavrayış çərçivəsindən kənara çıxa bilmir, onunla birlikdə fəaliyyət göstərir: cisim haqqında olan təsəvvür və onun fikri surətləri əsasında düşünmək uşağa müyəssər olmur.

Uşaqların əqlinin inkişaf etdirilməsi onların məktəb təliminə hazırlaşdırılmasınm başlıca şərti olduğundan uşaq bağçası tərbiyəçiləri onların əqli fəaliyyətlərini təmin etməlidir. Bu

vəzifənin öhdəsindən gəlmək üçün məktəbəqədər yaş dövrünün ilk mərhələlərindən uşaqların əqli inkişaf xüsusiyyətlərini dərindən öyrənmək və ona əsaslanaraq ilk təlim fəaliyyətlərini səmərəli təşkil etmək lazımdır. Qruplarda təlim prosesinin təşkilində nəzərə almaq lazımdır ki, kiçik məktəbəqədər yaşlı uşaqlar cisimləri zahiri oxşarlıqlarına görə ümumiləşdirirlər.

Əgər bir yaşlı uşaq qızdırılmış dəmir parçasına toxunaraq əli yanmışsa, o, uzun müddət ona oxşayan cisimlərdən çəkinir, onlara əlini uzatmaqdan qorxur. Bu prosesin əsasında baş beynində yaranmış şərti reflektor əlaqələr durur.

Lakin sonralar uşaq ona oxşayan cismə toxunduqda və əli yanmadıqda başqa nəticəyə gəlir. Bu halda əlinin yanmasını cismin parlaqlığı, yaxud zahiri xassələri ilə deyil, temperatur xassəsi ilə əlaqələndirməyə başlayır. İkinci tərəfdən, həyatın ilk çağlarında uşaqlar ancaq hazırkı an haqqında düşünürlər.

Kiçik məktəbəqədər yaş dövründə uşaqlar öz fəaliyyətlərinin nəticəsini nəzərə ala bilmirlər. Bunun əsas səbəbi uşağın həyat təcrübəsinin, bilik səviyyəsinin aşağı olması, görüş dairəsinin ətraf cisimlərlə məhdudlaşmasıdır.

İki – üç yaşlı uşaqların nitqə yiyələnməsi ilə əlaqədar olaraq onların cisimlərin özləri və xassələrini ümumiləşdirmək imkanları da artır. Bir neçə cismi bir adda adlandırmaq da buna kömək edir. Bir yaşlı uşaq üçün bütün heyvanlar "Mə ...ə"dir. Onlar bu zaman bir zahiri əlaməti, məsələn, heyvanların səsini əsas götürür, yaxud "qakqa" uşaq üçün bir sıra yeməli şirin şeyləri, "düə" – bütün içməli şeyləri, "düdüd" hər növ maşını və s. bildirir. Bununla cisimlər haqqında müxtəlif ümumiləşdirmələrə istinad edən ilk məfhumlar yaranır. Lakin bu proses fikri təhlil və tərkibə istinad etmir, təsadüfi xarakter daşıyır. Elə buna görə də həmin ilk məfhumlar hələ müəyyən cisimlə, müəyyən hadisə ilə bağlı olur, konkret xarakter daşıyır. Yəni uşağın şüurunda həmin cismin fikri surəti deyil, əyani obrazı canlanır.

**Təlimdə texniki vasitələrdən istifadə.** Texniki vasitələr dedikdə, hansı vasitələr nəzərdə tutulur? Buraya hər şeydən əvvəl, diafilmlər, diapozitivlər, kinofilmlər, televiziya və s. daxildir.

Ekran- səsli vasitələr böyük didaktik imkanlara malikdir. Bu vasitələr məktəbəqədər yaşlı uşaqlara daha güclü emosional təsir göstərir. Ekran vasitəsilə bədii təsir ( kadrların kompozisiyası, montaj, rəng) daha güclü stimul yaradır, uşağın düşüncə qabiliyyətini fəallaşdırır. Ekran vasitəsilə bədii şəkildə təqdim edilən verilişlər uşaqların təcrübəsini fəallaşdırmaq imkanına daha çox malikdir. Əvvəllər əldə etdikləri, mənimsədikləri biliklərin möhkəmləndirilməsinə yeni materialların mənimsənilməsi üçün şəraitin yaradılması müvəffəqiyyətli nəticələr əldə etməyə imkan verir. Bədii forma, işin təşkili, müxtəlif obrazların, problemli situasiyaların, bu və ya digər şəraitdə, hərəkətdə qavranılması, ümumi biliklərə əsaslanaraq konkret hallarda hərəkət etməyi asanlaşdırır.

Təlim materialının belə emosional, obrazlı və asan komponentlərlə dərk edilməsi nəticəsində, dərk edərəkən qavrama fəallaşır, yeni yaradıcı hiss etmə üçün yaxşı şərait yaranır. Bu və ya digər filmin nümayişindən sonra bu faktorların müsbət təsiri özünü göstərir.

Texniki vasitələrdən istifadə nəinki pedaqoq-tərbiyəçilərin məşğələyə hazırlıq vaxtına qənaət etməyə imkan yaradır, eyni zamanda təlim prosesini obrazlı şəkildə təşkil etməyə gətirib çıxarır. Təlimin texniki vasitələri özünün bədii keyfiyyətlərini uzun müddət saxlayır ki, bu da ondan dəfələrlə istifadə olunduğu halda metod və priyomların təkmilləşdirilməsini tələb edir. Pedaqoq-tərbiyəçilər (qrupun hər iki tərbiyəçisi nəzərdə tutulur) diafilmə, televiziya serial verilişlərinə baxmağı, daha sonradan səs yazısına qulaq asmağı təşkil etməklə bunların məzmununu biləcək, gələcək işlərində müsbət cəhətləri nəzərdə saxlamaqla mənfi halların aradan qaldırılmasına, yaxşı təcrübənin əldə olunmasına çalışacaqlar.

Ekran – səsli vasitələrdən istifadə etmək nəinki pedaqoq - tərbiyəçinin fəaliyyətinin təşkilində, eyni zamanda uşaqlarda emosional hissiyyatın yüksəldilməsində, onlarda şən əhval – ruhiyyənin yaradılmasında, maraq hissinin yüksəldilməsində özünü göstərir. Uşaqda emosional əhval-ruhiyyənin aşağı düşməsi onun iş qabiliyyətinin zəifləməsinə gətirib çıxarır.

Texniki vəsaitlərdən istifadə etməkdə əsas məqsəd onları əqli fəallığa təhrik etmək, ətraf aləmə maraq tərbiyə etməkdir.

Ekran – səsli vəsaitlərdən istifadə etməklə məktəbəqədər yaşlı uşaqların düşüncə tərzi fəallaşır. Epidoskop, kodoskop, diaproyektor, kinoaparat, maqnitofon, videomaqnitofon vasitəsilə tətbiq edilən diapozitivlər, kodopozitivlər, diafilmlər, videofilmlər, maqnitofon yazısı kimi texniki vasitələrdən uşaqların yaş xüsusiyyətlərini, bilik səviyyələrini nəzərə alaraq istifadə olunmalıdır.

Diapozitivlərin göstərilməsi uşaqların estetik inkişafında mühüm vasitədir. Filmin göstərilməsi demək olar ki, həmişə ədəbi mətnin oxunması ilə müşayiət olunur. Bu, məzmunun uşaqlar tərəfindən daha düzgün və daha emosional qavranılmasına imkan yaradır. Təsvirlərin tez-tez dəyişdiyi indiki kinofilmlərə nisbətən diafilmlər məktəbəqədər yaşlı uşaqlar üçün daha əlverişlidir. Diafilmləri göstərərkən şəkli ekranda tələb olunana qədər saxlamaq olar. Lakin bu halda ədəbi mətnin, xüsusən şer formasındakı mətnin bədii keyfiyyətlərinin aşağı salınması təhlükəsi vardır – oxu zamanı tez-tez fasilələr şerin ahəngini pozur. Odur ki, yeni ədəbi əsərlə bədii oxu və ya nağıletmə yolu ilə tanış etmək əlverişlidir.

Böyük məktəbəqədər yaşlı uşaqlara kinofilmləri çox məhdud şəkildə göstərmək olar. Məktəbəqədər yaşlı uşaqlar kinofilmlərdə şəkillərin dəyişməsini, ayrı-ayrı epizodların növbələşməsini çətin qavrayırlar. Uşaq onların arasındakı əlaqəni tuta bilmir və məzmunu başa düşmür. Odur ki, uşaqlara göstərilən filmlərin süjeti çox sadə olmalıdır, uşaqlara yalnız onların başa düşə biləcəyi filmləri göstərmək lazımdır.

Radio verilişləri 4 – 6 yaşlı uşaqların bədii zövqünə müsbət təsir göstərir, onların marağını, görüş dairəsini genişləndirir, ətrafdakı gerçəkliyə düzgün münasibət tərbiyə edir. Radionu dinləyərkən diqqət, təmkinlilik inkişaf edir. Radio verilişləri uşaqların təxəyyülünə təsir edir; uşaq eşitdiklərini rəsmlərində təsvir edir, yenidən nağıletməyə böyük həvəs göstərir.

Uşaq bağçalarında müasir texniki vəsaitlər: videomaqnitofonlar və kompyuterlər olması, videomaqnitofonlardan istifadə

tərbiyəçiyə televiziya verilişlərini yazmağa imkan verir. Bu da özlüyündə həmin verilişə, tamaşaya istənilən vaxtda və istənilən miqdarda baxmağa şərait yaradır. Kompyuterin köməyilə müxtəlif proseslərin və hadisələrin uşaqlar tərəfindən qavranılmasına, proqram materialının mənimsənilməsinə sürətləndirməyə nail olur. Bu mənimsəmənin keyfiyyəti üzərində nəzarəti dərk etmək hər bir uşağın dərketmə və yaradıcı qabiliyyətini fəal surətdə inkişaf etdirir.

Məktəbəqədər yaşlı uşaqlarda diqqəti və iş qabiliyyətini yüksək səviyyədə saxlamaq üçün baxışın və ya zilləmənin müddətinə düzgün əməl etmək xüsusilə vacibdir.

Radio və səsli vəsaitlərdən istifadə zamanı iş ritmi məktəbəqədər yaşlı uşaqların daha çox yorulmasına gətirib çıxarır. Ona görə də bu məşğələdə dinləmə müddəti 12 – 15 dəqiqə olmalıdır. Eyni obrazlı və eyni fəaliyyət zamanı uşaq tez yorulur. Bunun üçün texniki vəsaitlərdən istifadə planlaşdırılarkən tərbiyəçi məşğələnin quruluşunu diqqətlə düşünməli, ona münasib yer seçməli, digər məşğələlər sistemində müxtəlif analizatorların yükünün bərabərləşdirilməsinə çalışmalıdır. Bu və ya digər cihazlardan, proyektorlardan istifadə musiqi və ya bədən tərbiyəsi məşğələsi ilə növbələşdirilməlidir. Məqsədli planlaşdırılmadığı təqdirdə ekran vasitələrindən rəsm, applikasiya (kəsib yapışdırmaq), gil işi məşğələsindən sonra və ya hər hansı musiqi parçasının dinlənilməsini təşkil etdikdən sonra istifadə etmək olar.

Məktəbəqədər tərbiyə müəssisələrində ekran-səsli vəsaitlər təlim vəzifələrinin (məşğələlərdə, eləcə də əyləncələrdə, səhnəciklərdə qarşıya qoyulan vəzifələrin) həlli baxımından istifadə olunur.

Ekran-səsli vəsaitlərdən o zaman, o şəraitdə keyfiyyətli şəkildə istifadə etmək olar ki, pedaqoq-tərbiyəçi sərbəst olaraq texnikadan istifadə edə bilsin. Pedaqoqun giriş sözündən sonra hər hansı bir əsərin nümayiş etdirilməsini və ya musiqi nömrəsinin dinlənilməsini təşkil etməsi uşaqları fəallaşdırır; onların mövcud bilik və təsəvvürlərindən istifadə edərək əvvəllər göstərilən və ya dinlənilən əsərə qayıtmaq üçün üsullar müəyyənləşdir-

mək, keçən məşğələlərdə, oyunlarda, gəzintilərdə və ekskursiyada, məktəbəqədər yaşlı uşaqların fəaliyyət növlərində gördükləri, eşitdikləri ilə əlaqə yaratmasına şərait yaradır.

Ekran-səsli vəsaitlərdən istifadə zamanı pedaqoqun çox tipik səhvlərindən biri məşğələni metodiki cəhətdən düzgün qura bilməməsi, texniki vasitələrin yerini və rolunu müəyyənləşdirə bilməməsidir. Bəzi hallarda vaxtın çox hissəsi lazım olmayan, məşğələ materialının, heç bir əlaqəsi olmayan hissənin nümayişinə sərf olunur, bütünlükdə diafilm göstərilir. Halbuki ayrıca fraqmentləri, hissələri göstərməklə kifayətlənmək olardı. Çox tez-tez müşahidə olunur ki, pedaqoqun izahatı diafilm və ya televiziya verilişləri göstərilərkən bir növ bütün mətni, əsəri dublyaj edir. Bu isə uşaqlarda marağın azalmasına, təlim vaxtının düzgün bölüşdürülməməsinə və vaxt bölgüsünə düzgün əməl olunmamasına gətirib çıxarır.

Hər bir ekran və ya səsli vəsaitin əsasını ondan düzgün istifadə metodikası təşkil edir. Eyni zamanda uşaqların yaş xüsusiyyətləri mütləq nəzərə alınmalı, bu və ya digər məzmunu mənimsəmələri üçün onların hazırlıq səviyyəsi tərbiyəçinin diqqət mərkəzində olmalıdır. Belə olduğu halda pedaqoqun vəzifəsi uşaqların imkanlarına əsasən konkret şərait və lazım olan vəsaitləri müəyyənləşdirməkdir.

Məlum olduğu kimi uşaq bağçasının hər bir yaş qrupunda olan uşaqlar iş qabiliyyətlərinə görə müxtəlif səviyyəlidirlər. Belə uşaqları əsasən tərbiyəçi istiqamətləndirir. Amma üçüncü qrup uşaqları yaddan çıxarmaq olmaz, hansı ki, özlərinə xüsusi yanaşma tələb edirlər. Çox hallarda onların diqqətini fəallaşdırmaq, həmişə tamaşaçı obrazına istiqamətləndirmək, biliklərin oyun və həyati situasiyalara verilməsi vacibdir və s.

"Ev heyvanları" diaseriyasında əsas məqsəd məktəbəqədər yaşlı uşaqlarda heyvanlara maraq və məhəbbət tərbiyə etmək, onlara qulluq etmək həvəsi oyatmaq, ev heyvanları haqqında olan məlumatları zənginləşdirmək və sistemləşdirməkdən ibarətdir. İnsanlar onların qayğısına qalır, onları qidalandırır, yaşamaları

üçün lazım olan şərait yaradır; ev heyvanları insanlara çox sədaqətlidir.

Bir çox diafilmlər və diaseriyalar uşaqlarda əxlaqi keyfiyyətlər aşılayır. Diafilm və diapozitivlərdən kiçik qrupdan başlayaraq istifadə etmək olar. Nağılları, hekayələri oxuyarkən, şerləri söyləyərkən, müsahibə vaxtı ekranda kadr göstərilməsi uşaqların diqqətini cəlb edir, mövzuya marağı artırır, düşünmə qabiliyyətini fəallaşdırır, bədii əsər haqqında obrazlı təsəvvür əldə etməyə imkan yaradır. Tez-tez diafilmlər o halda göstərilir ki, tərbiyəçi hekayə və ya nağılı mütləq illüstrasiyaların köməyi ilə təqdim etsin. Diapozitivlərdə isə müsahibə prosesində və nağıl etmədə daha çox istifadə edilir.

Məlumdur ki, diafilmlər uşaqlardan daha çox əqli iş tələb edir. Odur ki, pedaqoq-tərbiyəçi mətni oxuyub sonradan əsəri nümayiş etdirsə, daha yaxşı olar.

Məktəbəqədər yaşlı uşaqlar üçün belə diafilmlərdən "Qırmızı papaq", "Üç ayı", "Kirpi və dovşan", "Cırtdan" və s. göstərmək olar. Onlardan, məsələn eyni adlı B.Oceyevanın "Sehirli söz" hekayəsi üzrə çəkilmiş diafilmə nəzər yetirək. Burada məqsəd - əsərin məzmununa uyğun, yaxın hekayə qurub danışmaq, mədəni davranış tərbiyə etmək, insanlara xeyirxah münasibət tərbiyə etməkdir.

Diafilmə baxışdan sonra onunla iş məzmuna əsasən müxtəlif formalarda təşkil edilə bilər. Adətən uşaqların xoşuna gələn kadrlar, epizodlar təsvir edilir, ayrı-ayrı kadrlar və fraqmentlər, suallar tətbiq olunur. Süjetin qısa nəqli, suallara cavablar, ayrı-ayrı kadrların rəsm edilməsi və s. tapşırığı yerinə yetirən uşaqlarda yaddaş, dünyagörüş, sərbəst olaraq düşünmə qabiliyyəti inkişaf edir. "Sənin nə və nəyə görə xoşuna gəldi?" sualına cavab verməzdən əvvəl uşaq gördüklərini yenidən göz önünə gətirir, yaddaşı təzələnir, müqayisə edir, tutuşdurur, qiymətləndirir, seçir.

Diafilm və pozitivlərin tətbiqinin divar şəkilləri ilə təşkil edilən işlə ümumi yaxınlıq əlaqəsi vardır. Belə ki, ekranda böyük ölçülü şəkillərin göstərilməsi məktəbəqədər yaşlı uşaqlara hər hansı bir əşyanın tam qavranılması imkanı verir. Amma kadrın

nümayişi hərəkətdə bütöv bir prosesi, hadisələri nəinki müşahidə etmək imkanı verir, eyni zamanda əşya və hadisələrin əyani keyfiyyətlərini, əlaqə və münasibətlərinin daxili imkanlarını görmək, hiss etmək imkanı yaradır. Məsələn, "Uşaqlar poçtda nə gördülər?". Diafilmin nümayişi prosesində pedaqoq uşaqların diqqətini poçtalyonların müxtəlif şəraitdə əməyinə yönəldir. Bundan sonra müsahibə aparılır ki, bu prosesdə uşaqlar pedaqoqun suallarına cavab verirlər. "Bu filmdə siz nə haqqmda bildiniz? ", "Poçt insanlara lazımdırmı?", "Poçt bölmələrində kimlər işləyir?", "İşçilərə hansı maşınlar və nə kimi işlərdə kömək edirlər?" və s.

Qeyd etmək lazımdır ki, "Tətbiqi incəsənətin növləri" diafilmdəki bəzi fraqmentlərindən "Ətraf mühitlə tanışlıq və nitq inkişafı" məşğələsində istifadə etmək olar. Müxtəlif peyzajlar təsvir olunmuş kadrların köməyilə uşaqları təbiətlə - ilin fəsilləri ilə, insanların təbiətdəki əməyi ilə və s. tanış etmək olar.

Sadə riyazi təsəvvürlərin inkişafı məşğələsində pedaqoqlar çox nadir hallarda ekran vasitələrindən istifadə edirlər. Tədqiqatlar göstərir ki, ekran vasitəsilə məlumatlardan istifadə etmək bacarığı sayəsində əsas və ikinci dərəcəli materialları müəyyənləşdirmək, qarşıya qoyulan vəzifələrə uyğun olaraq hərəkət etmək və bunları ekran vasitəsilə uyğunlaşdırmaq, gələcəkdə məktəb təlimində müsbət nəticələr əldə etməyə zəmin yaradır. Zamana bələdlik haqqında bacarıqların möhkəmləndirilməsi, ədəd, say anlayışının öyrədilməsi, düzgün istiqamətləşmə, məkana bələdliyin öyrədilməsi və s. zamanı məqsədyönlü şəkildə aşağıdakı diafilm və diaseriyaları ( iki seriyalı filimlər) məşğələlərdə nümayış etdirmək olar. "Biz necə sayırıq", "Əşyaların qarşılıqlı yerləşdirilməsi", " Əşyalar çoxluğu" , " Tapşırığı yerinə yetirmək", " Əşyanını rəngi, ölçüsü və forması" və s. Bütün bu vasitələr 6 yaşa qədər uşaqların məktəb təliminə hazırlanması baxımından proqram tələblərinə uyğun şəkildə həyata keçirilməlidir.

Ümumiyyətlə,diafilm və diapozitivlərdən faktiki olaraq hər bir məşğələ növündə istifadə etmək mümkündür. Amma məlum olduğu kimi onlar universal, hərcəhətli vasitə olmadığından,

müəyyən didaktik imkanlara malik olduqlarından bu ekran vasitələri heç bir oxunu, obyekt və hadisə üzərində müşahidəni əvəz edə bilməz.

Uşaq bağçalarında ekran – səsli vəsaitlərdən olan televiziya verilişlərindən daha geniş şəkildə istifadə olunur. Bu televiziyanın daha geniş imkanları ilə izah oluna bilər. İncəsənətin müxtəlif növlərinin televiziyada əks olunması baxımından ondan uşaq bağçalarında geniş şəkildə istifadə etmək çox əlverişlidir.

Müxtəlif prosesləri, həyati hadisələri məhz telekameranın gözü ilə təqdim etmək mümkün olduqda tərbiyəçi vəsaitdən istifadə etməklə bir çox vəzifələrin yerinə yetirilməsinə nail ola bilər.

Televiziya – incəsənətin sintetik, xüsusi yeni növüdür. O, özündə incəsənətin bir çox növünü - kino, teatr, estrada və s. birləşdirir. Televiziyada müxtəlif obrazlı janrlar, reportajlar, hekayələr, müsahibə və tamaşalar, ekskursiyalar və konsertlər fəaliyyət göstərir. Televiziya tamaşaçılara incəsənətin müxtəlif növlərini göstərməyə qadir olan vəsait növüdür. Onda musiqi və ədəbiyyat çox geniş tətbiq olunur.

Müxtəlif obrazlı ifadə vasitələrindən və üsullarından istifadə etmək sayəsində kadrların kompozisiyası, onların böyük və ümumi planda göstərilməsi, bir neçə yerdən eyni zamanda göstərilməsi, kino kadrlar ilə canlı təsvirin montaj edilməsi tamaşaçıya güclü təsir etməyə imkan verir. Bəzi təqdim edilən informasiyalar, məlumatlar artıq bədii şəkil almışdır. Televiziya vasitəsilə biz planetimizin guşələrindən, kosmosun dərinliklərindən və okeanlardan məlumatlanırıq.

Məktəbəqədər yaşlı uşaqlar üçün televiziya verilişləri dərkedici, əyləndirici və təlimverici xarakter daşıyır.

Televiziya verilişlərinin göstərilməsi məktəbəqədər yaşlı uşaqların təsviri fəaliyyətinə müsbət təsir göstərir. Belə ki, təbiət hadisələrinin, ümumilikdə təbiətin rəng çalarlarının, hadisələrin, kompozisiyasının, heyvanların, quşların dinamik təsvirinin məktəbəqədər yaşlı uşaqların yaradıcı fəaliyyətinə müsbət mənada təsirini düşünməmək olmaz.

Məşğələ prosesində televiziya verilişlərindən istifadə məqsədi ilə tərbiyəçi əvvəlcədən xüsusi olaraq hazılaşmalı, uşaqların bu və ya digər verilişi başa düşmələrinə çalışmalıdır. Buraya tərbiyəçinin vəzifəsi, verilişlə bağlı üsulları düzgün seçilməsi xarakterin müsbət cəhətlərinin üzə çıxmasına təkan verməkdə özünü göstərir.

Televiziya verilişlərini dərketmə prosesinin ikinci mərhələsində uşaqlara rəhbərlik birbaşa deyil, dolayı xarakter daşıyır. Amma bununla belə, tərbiyəçi kənar müşahidəçi olmamalıdır. O, öz rəftarı ilə uşaqlarda ekranda gedən hadisələrə maraq oyatmaq və çox ehtiyatla onların diqqət mərkəzindən qaçan anlara uşaqların diqqətini yönəltməlidir. Tərbiyəçi bunu çox ehtiyatla etməlidir ki, uşaqları məzmunu dərk etməkdən uzaqlaşdırmasın. Məktəbəqədər yaşlı uşaqların müşahidəsi zamanı onların mütəmadi reaksiyaları prosesində pedaqoq-tərbiyəçi maraqlı və çətin anlaşılan detallarını qeyd etməli, düşünülmüş suallar verməli, baxışdan sonra onların həmin verilişi necə qavradıqlarım özü üçün aydınlaşdırmalıdır.

Daha çox idarə olunan mərhələ - üçüncü mərhələdir. Burada tərbiyəçinin vəzifəsi bilikləri möhkəmləndirmək, uşaqların əldə etdikləri, yiyələndikləri biliklərlə bərabər müşahidə etdiklərini qavramaqda da onlara kömək etmək, uşaqların əldə etdiyi bütün bu təsəvvürləri onların öz şəxsi fəaliyyəti ilə stimullaşdırmaq, təsviri fəaliyyətlə, nitqlə, oyun və əmək fəaliyyəti ilə əlaqələndirməkdir. Bu vəzifələrin həyata keçirilməsi yolunda müxtəlif üsullardan istifadə etmək olar. Belə ki, uşaqlarla televiziya verilişi əsasında müsahibə təşkil etmək, rəsm, gil işi, quraşdırma məşğələlərində mövzular seçmək, oyun prosesində, musiqi məşğələsində bunun üçün imkan yaratmaqla uşaqların sərbəst fəaliyyətində yeni bilik və təəssüratlardan istifadə etmələrinə nail olmaq olar.

"Heyvanlar qışa necə hazırlaşır?" verilişinə nəzər yetirək. Bu mərhələdə ikinci veriliş verilə bilər. Bu verilişlərin hər biri 18 – 20 dəqiqə davam etdirilməlidir; "Budur, payız gəldi", "Payız məhsul yığımı vaxtıdır", "Quşların uçub getməsi", "Heyvanlar

qışa necə hazırlaşırlar?", "Meşədə qış", "Xoş gəlib bahar", "Yaz qonaqları".

Tərbiyəçinin qarşıya qoyduğu məqsəd və vəzifədən asılı olaraq məşğələdə ekran-səsli vəsaitlərdən bir vaxtda və növbə ilə istifadə etmək mümkündür. Birinci hal o vaxt tətbiq olunur ki, onda uşaqların hislərini fəallaşdırmaq, uşaqlarda emosiyanı inkişaf etdirmək əsas vəzifədir, məqsəddir. İkinci halda isə bu və ya digər hadisəni incəsənətin müxtəlif növlərində tətbiq etmək lazımdır.

Birinci vəzifəni yerinə yetirərkən tərbiyəçi məşğələ prosesində payız fəsli haqqında müsahibəyə başlayaraq eyni zamanda projektor və səs yazısını təqdim edir. Bu vaxt musiqi fondakı təsvirin dərk edilməsinə təkan verilir.

İkinci vəzifəni yerinə yetirərkən uşaqlara bir və eyni hadisənin təqdimində musiqili əsərdə təsvirin, şəklin, şerin təqdimi səmərəli nəticələr verir.

Ekran-səsli texniki vəsaitlərdən istifadə etməklə verilən təlim uşaqlar tərəfindən maraqla qarşılanır. Bu və ya digər məşğələdə təlimin texniki vəsaitlərindən istifadə etməklə uşaqların bilik və bacarıqlarının keyfiyyətini artırmaq təkcə tərbiyəçinin deyil, eləcə də məktəbəqədər tərbiyə müəssisəsinin rəhbərliyinin vəzifəsidir.

Ekran-səsli vasitələrdən istifadədə keyfiyyətin səviyyəsi müəyyən göstəricilərlə iki istiqamətdə özünü göstərir: tərbiyəçi üçün keyfiyyət göstəriciləri və uşaqlar üçün keyfiyyət göstəriciləri . Birinci halda göstəricilər onunla xarakterizə olunur ki, ekran-səsli vəsaitlər tərbiyəçi əməyinin keyfiyyətinə təsir edir, yaxşı nəticələr əldə etməsinə gətirib çıxarır. İkinci halda göstəricilər *ekran-səsli* vəsaitlərin uşaqların təlim prosesinin keyfiyyətinin və sürətinin artmasında, onların intellektual imkanlarının formalaşmasında, ixtiyari diqqətin və yaxşı əhval-ruhiyyənin yaranmasında özünü göstərir.

Məktəbəqədər yaşlı uşaqlarla təlim-tərbiyə işində ekran-səsli vasitələrdən düzgün istifadə etmək məktəbəqədər tərbiyə müəssisəsinin, ümumilikdə bütün iş səviyyəsinin keyfiyyətinin

artmasına gətirib çıxarır, pedaqoji prosesin elmi səviy-yəsinin artırılmasını təmin edir.

Uşaq bağçasında fəaliyyət göstərən pedaqoqlarla valideynlər arasında sıx əlaqə və qarşılıqlı anlaşma yaxşı nəticələr verir. Uşaqların tərbiyəsində texniki vəsaitlərdən istifadə probleminin həllində belə münasibət xüsusilə əhəmiyyətli rol oynayır. Aydındır ki, televiziya, radio, digər ekran-səsli vəsaitlər məişətimizin ayrılmaz hissəsidir.

Aparılan anket sorğusu göstərdi ki, televiziya auditoriyasını izləyənlərə məktəbəqədər yaşlı uşaqlar da daxildir. Uşaqlar televiziya ekranı qarşısında hər gün 40 dəqiqədən 2 saata qədər otururlar. Onlar böyüklər üçün nəzərdə tutulmuş veriliş-lərə də baxırlar. Mülahizə söyləyənlərdən bir qisim iştirakçı təsdiq edir ki, televiziya uşaqları sağlam və fəal istirahətdən, oyundan yayındırır. Digərləri isə əksinə: bu, texnikanın möcüzəsidir. Uşaq əqlinin və hislərinin inkişafına, dünyanı dərk etməyə, fantaziyanın inkişafına kömək edir. Bir qisim uşaqlar vaxtın çox hissəsini televiziya ekranı qarşısında keçirir. Ona görə yox ki, verilən verilişlərin məzmunu onları cəlb edir, ona görə ki, vaxtı bu cür keçirmək onlar üçün adət halını alıbdır. Bu isə öz-özlüyündə narahatlıq yaradır. Birinci ona görə ki, uşaq çox vaxt əyləşmiş şəkildə bir yerdə, bir vəziyyətdə keçirir. Belə olduqda isə uşağın fiziki inkişafından söhbət belə gedə bilməz. Çünki o, az hərəkət edir, açıq havada az olur.

Qeyd etmək lazımdır ki, "Televiziya və uşaqlar" problemi bugünkü gündə xalqlar arasında mühüm bir problemdir. Valideynlərə xatırlatmaq lazımdır ki, məktəbəqədər yaşlı uşaqlarda ünsiyyətdə olmağa can atmaq həvəsi vardır. Televiziya verilişlərinə valideynlərlə birlikdə baxmaqdan böyük həzz alırlar. Çox tez-tez öz sevimli verilişlərini gözləyən balaca "Ata, mənimlə birlikdə sən də nağıla bax" – deyə öz yaxınlarına müraciət edir. Yaxşı olar ki, belə halda valideynlər, yaxınlar belə bir xahişə əməl etsinlər. Ola bilər ki, verilişin məzmunu, şərait, iştirakçıların hərəkətləri gələcəkdə uşaqla ünsiyyət üçün onun maraqlarını, düşüncələrini inkişaf etdirmək üçün təkan vermiş olsun.

Valideynlər hər şeydən əvvəl uşaqların televiziya vasitəsi ilə yiyələndikləri bilik, bacarıq və vərdişləri möhkəmləndirməyə çalışmalıdırlar ki, uşaqların sonradan müxtəlif həyati situasiyalarda bu bilikləri tətbiq etmək imkanları olsun. Uşaqlar üçün göstərilən müxtəlif səhnəciklər, kukla teatrı, müxtəlif növ oyunlar bunu təmin etməyə əsas verir. Əgər uşaq özü gördüklərini rəsm edir, səhnəni bəzəyirsə, onda nəinki əqli qabiliyyəti inkişaf edir, eyni zamanda onun yaddaşı, düşüncə tərzi və təcrübi vərdişləri inkişaf edib möhkəmlənir.

Uşaq bağçasında tərbiyəçi valideynləri məlumatlandıraraq onların nəzərinə çatdırılmalıdır ki, ailədə ekran və səsli vasitələrdən istifadə edərkən gigiyenik tələblərə düzgün əməl olunmalıdır. Belə ki, evdə televiziya verilişlərinə 4-5 yaşlı uşaq 20 dəqiqə, böyük məktəbəqədər yaşlı uşaqlar isə 20-25 dəqiqədən artıq baxmamalıdır. Həddindən artıq televiziyaya baxmaq uşaqlarda yorğunluq və əsəbilik yaradır. Digər texniki vasitələr kimi televiziyadan da məqsədyönlü və bacarıqla istifadə etmək lazımdır. Bu bacarığı uşaqlarda məktəbəqədər yaş dövründən tərbiyə etmək lazımdır.

Uşaqları məktəbə hazırlayarkən valideynlər onda sərbəstlik, təşkilatçılıq və intizamlılıq, çətin anlarda vəziyyətdən çıxmaq bacarığı tərbiyə etməyə səy göstərirlər. Çünki uşaq özü məktəbə getməli, yaşı artdıqca lazım gəldikdə mağazadan nə isə almağı bacarmalı, evdə böyük olmayanda tapşırıqları yerinə yetirməlidir. Bunun üçün isə o, sərbəst olaraq ətraf aləmə istiqamətlənməlidir.

Bu məqsədlə uşaqlara yol qaydalarını öyrətmək üçün diafilm və diaseriyalardan istifadə etmək çox faydalıdır."Küçədə", "Avtobusda", "Mən və küçə" bu qəbilədən-dir. Ailədə diafilmlər və qramofon lentləri elə yerdə yerləşdirilməlidir ki, uşaq istədiyini görmək imkanına malik olsun. Təklikdə və yoldaşları, yəni dostları ilə birlikdə ona baxa və ya dinləyə bilsin.

Texniki vasitələrlə təlim uşaqlara elə verilməlidir ki, digər fəaliyyət növlərinə, xüsusilə yaradıcı fəaliyyətə marağı azalmasın.

# X FƏSİL

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏXLAQ TƏRBİYƏSİ

**Əxlaq tərbiyəsi və əxlaqi inkişaf.** Əxlaq tərbiyəsi - uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşmasına müntəzəm, planlı təsir göstərilməsi, onlara yaşadıqları cəmiyyətin əxlaq tələblərinə müvafiq olaraq davranış normalarını və qaydalarını yerinə yetirməyin öyrədilməsidir.

Əxlaq tərbiyəsi nəzəriyyəsinin metodoloji əsası cəmiyyətin qəbul etdiyi əxlaq normaları təşkil edir. Əxlaq normaları ictimai şüurun formalaşmasında biri olmaqla əxlaqın mahiyyəti müəyyənləşdirilir, ictimai quruluşun dəyişməsi ilə əlaqədar olaraq onun inkişafı və dəyişməsi göstərilir. Adamların davranış qaydaları və normaları, onların biri-birilərinə, əməyə, vətənə münasibətləri ideologiyaların möhkəm və əbədi dedikləri kimi deyildir.

Məktəbəqədər pedaqogika əxlaqın ümumi prinsiplərinə istinad edərək onun spesifik vəzifələrinin həllində uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə alır, əxlaq tərbiyəsinin forma və metodlarını işləyib hazırlayır.

*Əxlaqi inkişaf* - əxlaq tərbiyəsinin, ətraf mühitin təsiri və uşağın özünəməxsus əxlaq tərbiyəsinin nəticəsidir. Məktəbəqədər pedaqogika əxlaqi keyfiyyətlərin anadangəlmə olmasını inkar edir. Mühitin mürəkkəb qarşılıqlı təsiri təcrübə nəticəsində hər bir uşaqda yaranmış daxili tələbatın nəticəsində özü – özünə münasibəti (uşaq bir şəxsiyyət kimi özünü dərk edir, müstəqil olur, özünə qiymət verməyi və ətrafdakıları qiymətləndirməyi bacarır); kollektivçiliyi, humanizm, dostluq və yoldaşlığı xarakterizə edən başqa adamlara münasibəti; əməyə münasibəti (əməyə maraq, hörmət və əməksevərliyi); öz xalqına və digər xalqlara münasibəti, Vətənə münasibəti formalaşır; dünyanı başa düşməyin elementləri yaranır. Beləliklə, əxlaqi inkişaf uşaq tərəfindən davranış normalarının və qaydalarının tədricən mənimsənilməsində, xarakterin əxlaqi əlamətlərinin yaranmasında özünü göstərir.

Əxlaq normaları və davranış qaydaları uşaqdan anadangəlmə deyildir, fərdi şüurun məhsulu deyildir, onların ictimai – tarixi mənşəyi var və uşaqlıq dövründən mənimsənilir.

Əxlaqi inkişafa baxış təsirinin həlledici rolu uşağın tərbiyəsi və şəxsi əxlaqi təcrübəsi onların düzgün əxlaqi ruhda tərbiyə edilməsini müdafiə edir.

Keçmişdə olduğu kimi hazırda da uşaqların tərbiyəsində dini təlimə də müəyyən yer verilir. Aparılan tərbiyə uşaqda əxlaqi keyfiyyətləri formalaşdırmağa qadirdir. Dinə əsaslanmaq, uşaqdakı eqoizmi aradan qaldırmaq, adamlara hörmət, düzlüyə və xeyirxahlığa cəhd göstərməyi tərbiyə etmək işinə kömək edir.

Uşaqların tərbiyəsinə filosof, pedaqoq – proqramist D. Dyünin ideyaları təsir göstərir.

Proqramist fəlsəfə və pedaqogika ideyalarına əsasən hər bir uşaq özünün anadangəlmə, daxili "Mən"inə malikdir. Şəxsiyyətin əxlaqi keyfiyyətlərinin artması və inkişaf mənbələri cəmiyyətin inkişafına əsaslanır. Uşaq şəxsi təcrübə yolu ilə özünün tələblərinin ödənilməsinə, məqsədinə çatmasına cavab verən məqsədəmüva-fiq reaksiyaları seçir. Əxlaq prinsipləri və normaları obyektiv gerçəklikdən, ictimai münasibətlərdən doğur.

Əxlaq tərbiyəsi ilk yaşlardan başlanır, bu dövrdə həssaslıq qüvvətli olduğuna görə uşaq davranış normalarını və qaydalarını daha asanlıqla mənimsəyir. Erkən yaşlarda uşağın hərəkətləri və davranışı yaşlıların təsiri və təhriki ilə şərtlənir. Məktəbəqədər yaşda onun hərəkətləri getdikcə daha müstəqil və daha düşünülmüş olur. L.İ.Vıqotskinin yazdığı kimi "daxili etik məqamlar" (instansiyalar) məhz bu yaşda yaranır və təkcə uşaq yaşlıların təhriki ilə deyil, həm də onda əxlaq haqqında yaranmış sadə təsəvvürlərin, əxlaqlı davranmaq cəhdinin təsiri ilə əxlaqlı hərəkət etməyə başlayır.

**Əxlaq tərbiyəsinin vəzifələri.** Uşaqların əxlaq tərbiyəsi tərbiyənin mühüm tərkib hissəsidir. Əxlaq tərbiyəsi əqli tərbiyə ilə qırılmaz surətdə bağlıdır. Adamların qarşılıqlı əlaqələri, ictimai həyat hadisələri haqqında biliklər, müxtəlif əxlaqi hərəkətlər haqqında onların mənimsəyə biləcəkləri təsəvvürlər və bu əsasda

düzlük, borc, məsuliyyət, yoldaşlıq və dostluq haqqında sadə anlayışlar uşaqların dünya görüşlərini genişləndirir və yaddaşlarını zənginləşdirir. Müvafiq üsul və priyomların köməyi ilə ictimai həyat haqqında biliklər verilməsi nəticəsində təfəkkür inkişaf edir, sadə əlaqələr qurmaq, ümumiləşdirmə aparmaq bacarıqları formalaşır və uşaqların idrak maraqları yaranır.

Əxlaq tərbiyəsində uşaqların diqqəti adamların hərəkətlərinin gözəlliyinə cəlb olunur, bədii ədəbiyyatdan və kitab şəkillərindən, şəkil reproduksiyalarından, musiqidən, nəğmələrdən geniş istifadə olunur. Bütün bunlar uşaqların estetik qavrayışını zənginləşdirir və estetik hisslərini inkişaf etdirir.

Əxlaqın mərkəzində - insan, onun digər adamlarla əlaqələri, münasibətləri dayanmışdır. Bu əlaqə və münasibətlər tədricən daha da möhkəmlənərək onun mənəvi simasının həddi və xassəsi olur.

Cəmiyyətdə insanın digər adamlarla münasibətləri kollektivçilik münasibətləri kimi formalaşır. Bu münasibətlərin istinadgahı kollektivçilik psixologiyası insanın özünü bütövün bir hissəsi kimi duyması, öz şəxsi marağı ilə ictimai marağın vəhdətdə olmasını dərk etməsidir. Kollektivçilik insanın davranışında: qarşılıqlı köməkdə, dostluqda, xeyirxahlıqda, həssaslıqda və qayğıkeşlikdə özünü göstərir. Bu cəhətdən o, humanizm ilə sıx surətdə bağlıdır. Humanizm əsasında isə xeyirxahlıq, insan haqqında qayğı durur.

Uşaqların kollektivçilik və humanizm ruhunda tərbiyəsinə erkən yaşlardan başlanır.

Uşağın anadangəlmə sosial varlığı, onun adamlara əvvəlcədən yaxın olanlara (anaya, ataya), sonra isə yaşıdlarına doğru can atması məktəbəqədər yaşdan başlayaraq kollektivçiliyin ilk əlamətlərini tərbiyə etməyə imkan yaradır.

A.S.Makarenko belə hesab edirdi ki, uşaq artıq iki yaşdan etibarən ailədə kollektivin üzvüdür, onun özünün kiçik vəzifələri ola bilər.

Uşaqda məhəbbət, minnətdarlıq, onun yaxın, sevimli adamlarına qayğıkeş münasibət hissi məhz ailədə yaranır. Uşağa ailə

üçün faydalı, xoşagələn işləri görməyi, öz arzularını ailənin, valideynlərin, qardaş və bacılarının ehtiyaclarına tabe etmək öyrədilir.

Kollektivçilik tərbiyəsi üçün uşaq bağçasında, yaşlılar arasında daha əlverişli şərait yaranır. Burada uşaqlar arasında sosial münasibətlər baş verir. Tərbiyəçilər bu münasibətləri bacarıqla idarə edir, onlarda bərabərlik anlayışını, ədalətli olmaq hisslərini, yaşıdlarına xeyirxah münasibətlərini, dostcasına oynamaq, birgə işləmək, məşğul olmaq, yoldaşları üçün nə isə faydalı lazımlı iş görmək bacarığını formalaşdırır. Birgə oyunlarda, sadə vəzifələri yerinə yetirdikdə, ümumi məşğələlərlə uşaqlarda həyəcanlanma meydana gəlir, onlar sadə, birgə tapşırıqların ümumi məqsədini yerinə yetirir, onlarda hərəkətlərin uyğunlaşdırılması, kollektiv həyat, oyun, iş vərdişləri tərbiyə olunur. Məktəbəqədər yaşlı uşaqlarda kollektivçilik bu hiss və bacarıqlardan yaranır.

Tədricən uşaqlarda daha mürəkkəb hisslər formalaşır. Uşaqlar kollektiv əmək, sosialist münasibətləri, adamların qəhrəmanlığı ideyalarını başa düşürlər.

Kollektivçiliklə ayrılmaz surətdə yaxşılığı və pisliyi, həssaslığı, xeyirxahlığı, diqqətliliyi emosional surətdə qavrayır, ədalətsizliyə, pisliyə, qəddarlığa, kobudluğa qarşı ciddi məzəmmət, nifrət hissi formalaşır ki, bunlar uşağın ətrafdakılara humanist münasibətlərinin əlamətləridir.

Kollektivin üzvü olmaqla uşağın şəxsiyyətinin formalaşması ilə yanaşı onda xarakterin – doğruçuluq, düzlük, təvazökarlıq, cəsurluq, mütəşəkkillik və intizamlılıq kimi keyfiyyətlər; habelə əxlaqi hisslər - şəxsi ləyaqət və borc, məsuliyyət hissləri formalaşır, davranış mədəniyyəti yaranır.

Uşaqlarda məktəbəqədər yaşdan başlayaraq əməkdə məhsuldar fəaliyyət tələb "tərbiyə" olunur ki, bu da uşağın özü, həm də onun yaşıdları və yaxın adamları üçün böyük əhəmiyyətə malikdir. Uşaqlarda əməyə maraq, işləmək arzusu, həyat üçün lazım olan hər şeyi öz əməkləri ilə yaradan yaşlı adamlara hörmət tərbiyə olunur; insan əməyi, ağlı, yaradıcılığı sərf olunduğu hər şeyə qayğılı münasibət tərbiyə edir. Əmək prosesində müstəqillik,

əməksevərlik, məsuliyyət və kollektivçilik kimi əxlaqi keyfiyyətlər yaranıb möhkəmlənir.

Uşağın əməyə psixoloji cəhətdən hazırlığının formalaşması onun yaşlıların həyatına, əməyinə göstərdikləri maraqla onları təqlid etmək arzusu ilə üzvü surətdə bağlıdır, bu da onların oyunlarında, yaşlılara kömək etməkdə, erkən yaşdan müstəqil və məhsuldar fəaliyyətdə özünü göstərir.

Məktəbəqədər yaşlı uşaqlar vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyə olunurlar.

Öz xalqı, öz Vətəni, digər xalqlar və digər ölkələr haqqında anlayışlar uşağın şüuruna beş yaşından daxil olur. Onlarda əvvəlcə doğma evə, doğma təbiətə, ana dilinə, doğma diyara məhəbbət hissi formalaşır, bu hisslər getdikcə daha da dərinləşir, genişlənir, doğma Vətənə, öz xalqına məhəbbətə çevrilir.

Vətənpərvərliyin mahiyyəti - Vətən məhəbbəti ilə beynəlmiləlçiliyin əlqələndirilməsidir. Uşaqlar ölkəmizin və xarici ölkələrin xalqları haqqında məlumat alırlar. Onlarda bu xalqların həyatını öyrənməyə maraq, bu və ya digər millətdən və irqdən asılı olmayaraq insanlara hörmət tərbiyə olunur.

Uşaqlarda tərbiyə olunmuş əxlaqi keyfiyyətlər getdikcə daha da möhkəmlənir və gələcəkdə uşağın davranışını idarə edə bilir.

Məktəbəqədər yaşda uşağın əxlaqi cəhətdən bir şəxsiyyət kimi formalaşması yenicə başlayır. Onun şəxsiyyəti bütöv bir vahiddir. Bir keyfiyyət belə təcrid olunmuş şəkildə formalaşmır. Uşağı hissələr üzrə tərbiyələndirmək olmaz. Bir keyfiyyətin tərbiyə edilməsi digərlərinin formalaşmasına kömək edir. Belə ki, kollektivçilik və dostluğun ilk əlamətlərinin tərbiyə edilməsi uşaqların iradəsinin tərbiyə edilməsi uşaqların iradəsinin müəyyən səviyyədə inkişafı isə intizamlılığı ilə, ümumi yaşayış qaydalarını yerinə yetirmək bacarığı ilə, düzlüyü, doğruçuluğu, təvazökarlığı, ədalətliliyi ilə vəzifənin yerinə yetirilməsinə məsuliyyətli yanaşması ilə, yoldaşları qarşısında borcluluq hissinin tərbiyəsi ilə əlaqədardır.

Uşaqlarda vətənə məhəbbət, beynəlmiləlçilik hisslərinin tərbiyəsi təkcə yaxın adamlara deyil, daha geniş həyat və münasibətlər dairəsində xeyirxahlıq, həssaslıq və qayğıkeşlik tərbiyəsi ilə də sıx əlaqədardır.

**Əxlaqi keyfiyyətlərin formalaşması.** Əxlaqi keyfiyyətlərin, xarakterin əlamətlərinin inkişafı əxlaq tərbiyəsinin nəticəsidir. Onların formalaşdırılması prosesində müəyyən tərəfləri ayırmaq olar: əxlaqi hisslər, əxlaqi adətlər, əxlaq haqqında təsəvvürlər və mühakimələr, davranışın əxlaq motivləri. Uşağın əxlaqi inkişafının bütün bu tərəfləri bir – biri ilə əlaqədardır, qarşılıqlı təsir nəticəsində formalaşır.

Uşağın həyatında əxlaqi hisslərin çox böyük əhəmiyyəti vardır. Onlar uşağın duyğularını, qavrayışını, təsəvvürlərini, təxəyyülünü müəyyən dərəcədə zənginləşdirir.

Psixoloqlar hissləri obyektiv inikasın özünəməxsus forması hesab edirlər. Bunda insanların gerçəkliyə və öz-özünə münasibəti ifadə olunur. Hisslər fizioloji əsaslara malikdir. Sadə hissetmə qabıqaltı ilə əlaqədardır. Lakin inkişaf etmiş hisslər böyük yarımkürələrin qabığı ilə tənzim olunur. Hisslər həyat tərzinin və tərbiyənin təsiri ilə inkişaf edir. Uşağın emosiyaları artıq erkən yaşlarda sosial xarakter daşıyır və yaşlılarla, yaşıdları ilə ünsiyyətdə əmələ gəlir. Birinci yaşın axırında və ikinci yaşa keçdikdə oyun ünsiyyəti əsasında yaşıdlarla ünsiyyətdə olmaq cəhdi, rəğbət hissi özünü göstərir.

Məktəbəqədər yaşda rəğbət hissi ilə yanaşı yoldaşlıq və dostluq hissləri də formalaşır. Uşaq yalnız bilavasitə müşahidə etdiyi adamın hisslərini başa düşmür, o, həm də onun həyəcanını təsəvvür edir, dərdinə şərik olur, özünü onun yerinə qoymağı bacarır. Beləliklə, məktəbəqədər yaşlı uşaq dərdə şərik olmağı, başqasına rəğbət göstərməyi bacarır. Bədii obrazın tərbiyəedici təsiri də bununla izah edilir.

Məktəbəqədər yaşda vətənə məhəbbət, digər millətlərdən olan adamlara rəğbət və məhəbbət kimi yüksək əxlaqi hisslərin rüşeymləri özünü göstərir. Bu yaşda formalaşan yüksək mənəvi hisslər arasında uşağın əxlaqi inkişafı üçün şəxsi ləyaqətinin,

utancaqlıq hissinin, insaf hissinin və borc hissinin xüsusi əhəmiyyəti vardır.

Ş ə x s i l ə y a q ə t h i s s i ikinci – üçüncü yaşda özünü göstərir. Əvvəlcə o, davranışın zahiri formaları ilə əlaqədardır (uşaq təzə, gözəl paltarı ilə fəxr edir). Lakin dörd yaşdan sonra o, artıq davamlı xarakter daşıyır. Yaşlıların hərəkəti onun artan imkanlarına cavab vermədikdə uşaq inciyir və etiraz edir.

Yaxşı pedaqoqlar uşaqda müstəqilliyi yaratmaq, sürətlə yeməyi öyrətmək üçün şəxsi ləyaqət hissi cücərtilərindən istifadə edirlər. Uşaq nahaq yerə cəzalandırıldıqda, gülüşü, təhqiri, ona səthi münasibət bəsləndiyini hiss etdikdə inciyir.

Məktəbəqədər böyük yaşda şəxsi ləyaqət hissi özünü onda göstərir ki, uşaq yaxşı işinə, tapşırığı yaxşı yerinə yetirdiyinə və yaxşı hərəkətinə görə fəxr edir, uşaq öz qüvvəsini və müsbət keyfiyyətlərini anlayır, dərk edir.

Əgər məktəbəqədər kiçik yaşda şəxsi ləyaqət hissi uşaqların yaşlılarla qarşılıqlı münasibətində özünü göstərirsə, böyük yaşda o, həm də uşaqlarla qarşılıqlı münasibətdə özünü büruzə verir. Beş – altı yaşlı uşaqlar təkcə yaşlıların deyil, yoldaşlarının da ədalətsizliyinə dözmürlər. Lakin uşaq təhqiri uzun müddət yadda saxlamır.

Uşaq ətrafdakıların fikrini qiymətləndirməyə başlayır, yoldaşlarının onun davranışına verdikləri qiymət onu narahat edir, onu oyuna qəbul etmədikdə, yaxud oyundan kənar etdikdə, cəzalandırdıqda inciyir. Uşaqlarda incimək müxtəlif olur: biri pərt olur və uzaqlaşır, digəri ağlayır, üçüncü vuruşmağa cəhd edir.

Tərbiyəçinin saymazlığı, diqqətsizliyi, ədalətsizliyi məktəbəqədər böyük yaşlı uşaqların inciməsinə səbəb olur.

Yoldaşlarının yanında uşağın şəxsi ləyaqətinə toxunduqda, xüsusilə gərgin həyəcan keçirir. Onun üçün qrup və kollektiv qarşısında fəxr etmək hissi daha münasibdir.

Bəzi uşaqlarda şəxsi ləyaqət hissi çox gərgin olur. Bu, ailədə yaşlılar arasında düzgün qarşılıqlı münasibətin olmamasının, tərbiyəçinin düzgün yanaşmamasının, uşağın əsəb sisteminin həddindən artıq həssas olmasının nəticəsidir.

Şəxsi ləyaqət hissini inkişaf etdirmək lazımdır. Uşaq ətrafdakıların qiymət verməməsinə biganə olmamalı, mənfi qiymət almaq ona pis təsir göstərməlidir.

U t a n m a q h i s s i - Uşaqda öz təsiri üzündən pis hərəkət etdiyinə görə utanmaqla, sıxıntı keçirməklə ifadə olunur. Davranış normaları haqqında biliyi formalaşdıqca uşaq utanmaq hissi keçirməyə başlayır.

Utanmaq hissinin ilk rüşeymi davamsız və zəif olur. Üç yaşlı uşaq cəzadan qorxur, özünün pis hərəkətlərindən utanır. Bu da utancaqlıqda, sıxılmaqda, cəsarətsizlikdə özünü göstərir. Lakin özündən narazılıq hissi hələ şüurlu deyildir. Uşaqda ilk utanmaq hissi yaramaz hərəkətlərinə görə "heç utanırsan?" – deyə məzəm-mət edən yaşlıların sözü ilə yaranır. Lakin yaşlıların tələbi hələ uşağın inamına çevrilməmişdir.

Utanmaq hissi tədricın uşaq şəxsiyyətinin əxlaqi keyfiyyətləri ilə daha sıx birləşir və sosial xarakter alır.

Məktəbəqədər böyük yaşda təcrübə genişləndikcə, şüur, şəxsi ləyaqət hissi inkişaf etdikcə uşaqların özünü göstərmə dairəsi genişlənir. Uşaq ətrafdakıların ona münasibətlərini – onun hərəkətlərinə irad tutmalarını, narazılıqlarını fərqləndirməyə başlayır. Əgər uşaq düzgün hesab etdiyinin əksinə hərəkət etmişdirsə, onda utanmaq hissi yaranır. Əgər onun şəxsi ləyaqət hissi alçaldılırsa, o, utanır. Əgər məktəbəqədər kiçik yaşlılar yalnız böyüklər qarşısında utanmaq hissi keçirirlərsə, məktəbəqədər böyük yaşlılar öz yaşıdları qarşısında da həmin hissi keçirirlər. Kollektivin rəyi onların həyatında getdikcə daha artıq əhəmiyyət kəsb edir ki, bu da uşağın əxlaq tərbiyəsinin mühüm vasitəsi olur. Məktəbəqədər böyük yaşlı uşaq yoldaşının pis hərəkətinə görə də utanır. Uşaq utanmaq hissini çox gərgin keçirir və bu ətrafdakılara möhkəm münasibətə çevrilir.

Uşaq utanmaq hissini, keçirdiyi vəziyyəti yada salır və gələcəkdə bu vəziyyətə düşməmək üçün həmin hərəkətlərdən uzaqlaşmağa çalışır, onda arzu edilən və yol verilməyən motivlər arasmda mübarizə başlanır.

Bu hissin meydana gəlməsi və inkişafı uşağın fərdi xüsusiyyətlərindən, rəğbət göstərməsindən və rəğbətsizliyindən, həssaslıq dərəcəsindən, yaşlıların uşağa olan nüfuzunun təsirindən çox asılıdır.

B o r c   h i s s i  mürəkkəb hisslərdən ibarətdir, onun təsiri ilə uşağın davranışı yaranır. Bu hiss, onun ilk əlamətləri üç – dörd yaşında olan uşaqlarda müşahidə olunur. Uşağın hərəkətləri yaşlılar tərəfindən təriflərdikdə razılıq hissi kimi özünü göstərir. Pis hərəkət yaşlılar tərəfindən tənqid olunduqda uşaq pərt olur, utanmaq hissi keçirir. Yaşlıların uşaqların hərəkətlərini qiymətləndirdikcə, o, emosional hal keçirir. Bunlar onun hərəkətlərinin motivi deyil, nə də onları müşayiət etmir.

Beş – altı yaşında olan uşaqlar isə emosional halı öz hərəkətləri, davranışları prosesində keçirirlər. Uşaq yaşlılara və həmyaşıdlarına etdiyi köməkdən, yaşlıların tapşırığını, xahişini yerinə yetirməkdən sevinc hissi duyur. Uşaq yaxşı hərəkət etmədikdə və davranış normalarını pozduqda özünü pis hiss edir və utanır. Yoldaşı pis hərəkət etdikdə o, hiddətlənir.

Bütün bu təzahürlər borc hissinin əmələ gəlməsi üçün səciyyəvidir. Bunun əmələ gəlməsi davamlı deyil, özünü az – az göstərir, uşağın şəxsiyyətinə dərin nüfuz etmir, onun ünsiyyətdə olduğu bir qrup adamla əlaqədar olaraq yaranır. Altı – yeddi yaşda borc hissi davranış, hərəkət motivi kimi özünü göstərir, uşaq həmin hissi dərindən keçirir, o daha davamlı olur, adamların daha geniş dairəsinə yayılır.

Borc hissinin bütün məktəbəqədər yaş dövründə özünü emosional vəziyyətlər formasında göstərməsinə və hələ heç də möhkəmlənməməsinə baxmayaraq o, uşaqların davranışına təsir göstərir, qayğıkeşlik, həssaslıq, rəğbət və dərdə şərik olmaq, əməksevərlik, məsuliyyət kimi müsbət əxlaqi keyfiyyətlərin formalaşmasına kömək edir. Borc hissi, eqoizm, kobudluq, yaşlılara qarşı hörmətsizlik və s. kimi mənfi halların aradan qaldırılmasına kömək edir.

Uşaqların gücləri çatan vəzifələri yerinə yetirmələri davranış normalarını icra etmələri borc hissinin formalaşmasına kömək

edir. Bu hissin formalaşması ilə əlaqədar olan özünü məhdudlaşdırmaq qabiliyyəti, ləngimə proseslərinin inkişafını tələb edir ki, buna da iradənin inkişaf etdirilməsi sayəsində nail olunur.

Uşaqdan təkcə "özünün istədiyini" deyil, həm də "lazım olanı" yerinə yetirməyi tələb etmək üçün şərait yaradılmalıdır.

Uşaqda nəyi etməyə yol verildiyi və nəyi etməyə yol verilmədiyi, nəyin yaxşı nəyin pis olması haqqında təsəvvürlərin formalaşması borc hissinin yaranıb möhkəmlənməsinə əsaslı surətdə təsir göstərir.

Borc hissinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi düşünülmüş tərbiyəvi təsir tələb edir. Əxlaqi hisslər uşaqlarda əxlaqi hərəkət etməyə maraq oyadır, əxlaqi davranmaq arzusu doğurur.

Uşağın əxlaqi hissləri onları əhatə edən yaxın adamların xeyirxahlığından, həssaslığından, dəqiqliyindən, vərdiş etdiyi fəaliyyətdən, onun mütəşəkkilliyindən, düzgün rəhbərlikdən, valideynlərin, tərbiyəçinin tərif və ya məzəmmət etməsindən, irad tutmasından, sonralar isə həmyaşıdların qiymət verməsindən, onların münasibətlərindən asılıdır.

**Əxlaqi vərdişlər və adətlər.** Məktəbəqədər yaşda əxlaqi vərdişlər və adətlər müvəffəqiyyətlə formalaşır. Onların tərbiyəsinə, yaşlıların tələb və göstərişlərinə, uşağın hələ şüurlu münasibət bəsləyə bilmədiyi yaşdan başlamaq lazımdır. Hələ V.Q.Belinski kiçik yaşlı uşaqların əxlaqi inkişafının bu xüsusiyyətlərini göstərərək demişdir ki, uşaq nə qədər kiçik olarsa, onun əxlaq tərbiyəsi bir o qədər vasitəsiz olmalıdır, yəni anlayışlarını vaxtından əvvəl və buna görə də qeyri – təbii inkişafına deyil, xüsusən adətə əsaslanaraq öyrətməkdən daha çox onu yaxşı hisslərə, meyllərə alışdırmaq lazımdır.

Məktəbəqədər kiçik yaşlı uşaqlarda məişət mədəniyyəti, nəzarətlilik, birlikdə oynamaq vərdişləri tərbiyə olunur. Məktəbəqədər böyük yaşlı uşaqlarda isə bu vərdiş və adətlər möhkəmləndirilir və daha da mürəkkəbləşdirilir: kollektiv oyun, kollektiv əmək və ümumi məşğələlərdə iştirak etmək, tapşırıq və vəzifələri

səliqəli yerinə yetirmək vərdişləri, qarşılıqlı yardım adətləri və s. tərbiyə edilir.

Vərdişlər və adətlər uşağın əxlaqi keyfiyyətinin formalaşmasında mühüm rol oynayır. Onlar uşağın davranışını istiqamətləndirir, ətraf mühitə, yaşlılara, yaşıdlarına, əməyə və öz vəzifələrinə münasibətini müəyyənləşdirir.

Vərdişlər və adətlər hisslərlə və şüurla bağlıdır. Davranışın adət forması təcrübə nəticəsində yaranır və bu müəyyən müvafiq mümarisələr və müəyyən fəaliyyət tələb edir.

Davranışın, vərdişlərin və adətlərin formalaşmasında uşaqların müəyyən fəaliyyət normalarının və üsullarının öyrənilməsi böyük rol oynayır. Davranış tərbiyəsi həmişə müəyyən üsul və normaların, hərəkətlərin tənzim qaydalarının öyrədilməsidir.

Lakin adətlərin formalaşdırılması sahəsində "öyrətmə" biliklərin mənimsənilməsindən daha çətin prosesdir. Bu uşağın davranışının mürəkkəbliyi ilə izah edilir.

Uşaq həyat şəraitinin müxtəlif vəziyyətlərinə uyğunlaşmağı bacarmalıdır. Bu da öz təcrübəsindən istifadə etdikdə böyük çeviklik və məsələnin həllində müstəqillik tələb edir. Təlim zamanı isə uşaq müəyyən şəraitdə hərəkət etməyə alışır.

Əxlaqi vərdiş və adətlərin formalaşma yolu aşağıdakı kimi göstərilir: əvvəlcə uşaq şüursuz olaraq yaşlıları təqlid edir, onun dedikləri kimi hərəkət edir. Bu mərhələdə ən başlıcası təqlid etmək üçün yaxşı nümunələrin olmasıdır. Lakin kiçik yaşlardan təqlidin kortəbii təsirinə bel bağlamaq olmaz. Davranış norma və qaydalarının yerinə yetirilməsi üçün uşaqda müsbət emosional münasibət yaradılması zəruridir. Yaşlı adam davranışın müəyyən tərəflərini ayırır, izah və göstərmə yolu ilə uşağa onların mənimsəmə üsulunu öyrədir. Təbii mümarisələrin təkrarına imkan verilməsini təmin edən şərait yaradılır. Yaşlı adam davranış norma və qaydaların uşaq tərəfindən yerinə yetirilməsinə nəzarət edir, onların necə mənimsənilməsini qiymətləndirir, hələ adət şəklini almamış müsbət davranışları tərifləyir, sonra isə vərdiş etdiyi davranışlar yaranır. Uşaq yaşlıların yanında, istərsə də onlar ol-

madan özünün daxili tələbi ilə müxtəlif şəraitlərdə müəyyən edilmiş qaydaları qəbul olunmuş normaları yerinə yetirir.

**Əxlaqi təsəvvürlər və mühakimələr.** Uşağın əxlaqi inkişafında nəyin yaxşı, nəyin pis olması, nəyi etmək olar, nəyi etmək olmaz barədə onlarda sadə əxlaqi təsəvvür və mühakimələrin olması böyük rol oynayır. Məhz belə təsəvvürlər və mühakimələr uşağa öz hərəkətini düzgün qiymətləndirməyi davranış forması seçməyi, habelə davranışların şüurlu olmasını təmin edir.

Uşağın əxlaqi təsəvvürləri və mühakiməsi, onun hissləri və həyəcanları ilə sıx bağlıdır. Nağıllardakı qəhrəmanlar, şəkillərdə təsvir olunan personajlar haqqındakı həyəcanlar məktəbəqədər kiçik yaşlı uşaqlara xas olan təəssüratlardır. Bu hisslər onlarda bilavasitə nağılı, hekayəni oxuduqdan, şəkilin məzmununu bildikdən sonra yaranır.

Nəyin yaxşı, nəyin pis olması haqqında təsəvvürlərin sayəsində uşaqda vəziyyəti qiymətləndirmək və necə hərəkət etmək lazım olduğunu müstəqil surətdə həll etmək qabiliyyəti yaranır.

Hər bir əxlaqi mühakimənin üç aspekti vardır: intellektual, emosional – iradi və sosial.

Necə hərəkət etmək haqqında qərara gəlmək üçün uşaqlardan vəziyyəti təhlil etmək, əxlaqi tələbləri, normanı və qiymətləndirməyi bilmək tələb olunur. - Qərar qəbul etmək sadəcə olaraq norma və qiymətləri bilməyi deyil, həm də həmin uşağın ancaq özünəməxsus olan, onun təcrübəsi və fərdi xüsusiyyətləri ilə müəyyən edilən şəxsi münasibətini tələb edir. Yalnız bu şəraitdə uşaq özünün hissləri və biliyi ilə müəyyən qərara gəlir və müvafiq hərəkətlər edir.

Burada təkcə uşağın necə hərəkət etməsi əhəmiyyətli deyil, necə qərar qəbul etməsi də vacibdir: müstəqil olaraq, yaşıdlarının iştirakı ilə, ya da yaşlıların təsiri altında.

Sosial fond hərəkətlərin xarakterinə güclü təsir göstərir. Uşağın hərəkətinin müəyyən edilməsində qəbul olunmuş qərarda şəxsi maraq ilə ictimai maraq arasındakı ziddiyyətlər aradan qaldırılır. Bunu nəzərə alaraq uşaqlarda ən erkən yaşlardan kollektivin mənafeyini nəzərə almaq və "necə istədiyi kimi" yox,

"necə lazım olduğu kimi" hərəkət etmək bacarığı tərbiyə etmək olar.

Uşağın əxlaqi təsəvvürlərə yiyələnməsi dərəcəsini və əxlaqi mühakiməsini onun bədii əsərlərinin qəhrəmanlarına, onu əhatə edən adamların əxlaqi keyfiyyətlərinə verdiyi qiymətlə və özünün şəxsi keyfiyyəti ilə müəyyənləşdirmək olar.

Üç – dörd yaşında olan uşaq çox zaman əxlaqi keyfiyyətlərin adekvat olmayan (tam uyğun olmayan) ümumi xarakteristikasından ("yaxşı" – "pis") istifadə edir. Dörd yaşdan sonra əxlaqi keyfiyyətlərin differensiasiyası başlanır. 5 – 6 yaşlı uşaqlarda da adekvat olmayan müəyyənləşdirmələrə rast gəlmək olur. Lakin bu yaşda olan uşaq müəyyənləşdirmələri daha intensiv şəkildə mənimsəyir. Uşağın öz təcrübəsində daha tez – tez təsadüf etdiyi keyfiyyətlər daha asanlıqla mənimsənilir.

Məktəbəqədər yaşlı uşağın əxlaqı təsəvvür və mühakimələrinin ümumi əlamətləri onun s a d ə və k o n k r e t olmasıdır. Onlar əsasən valideynlərin və tərbiyəçilərin istifadə etdikləri qiymətlərlə, uşaqların bədii əsərlərdə təsadüf etdikləri ilə (göyçək Fatma da ) müəyyən edilir .

Məktəbəqədər böyük yaşlı uşaqlar xeyirxahlıq, ədalətlilik, düzlük, doğruçuluq, dostluq və kollektivçilik, əməksevərlik kimi anlayışları başa düşür.

Əxlaqi təsəvvürlərin və mühakimələrin formalaşdırılması üçün ətrafdakı adamların həyatından, bədii əsərlərdən gətirilmiş nümunələrdən istifadə olunur.

Lakin yaşlıların əxlaqi fəaliyyətlərinə, onların "əxlaqi işlərinə" uşaqların cəlb edilməsi daha yaxşı təsir bağışlayır. Şəxsi təcrübədə yaşlıların həyatında, işində, onların qarşılıqlı münasibətlərində iştirak edəndə, uşaqlar böyüklər haqqında zəruri təsəvvür və mühakimələri mənimsəyirlər.

Davranış normaları və qaydaları, əxlaqi keyfıyyətlər və əxlaqi hərəkətlər haqqında aydın təsəvvürlər lazımi qədər olmadıqda əxlaqi meyllərin səviyyəsi aşağı düşür, uşağın əxlaqi hərəkətlərinin diapazonu məhdudlaşır.

Belə bir cəhət də təhlükəlidir ki, bəzən uşağın əxlaqi təsəvvürləri onların əxlaqi davranış qabiliyyətlərindən üstün olur. "Sözlə iş arasında", mühakimə ilə davranış arasında fərq əmələ gəlir. Bu təfavüt adət və təsəvvürlərin əmələ gəlməsi mexanizmindəki fərqlə izah edilir. Adətlərin əsasını hərəkət təşkil edir. Adətlərin əmələ gəlməsi uzun vaxt dəfələrlə mümarisə tələb edir. Təsəvvürlər xeyli tez yaranır, onlar yaddaşa istinad edir. Bununla aydın olur ki, uşaqların əksəriyyətində onların şəxsi davranışları, adamlara qarşı qayğılı münasibət haqqında bilikləri qabaqlayır.

Təfavütün ikinci səbəbi budur ki, əxlaq haqqındakı biliklər , yaşlıların tələbi ilə uşaqların real davranışı əlaqələndirilmir. Uşaqların əxlaqi davranışlarının mümarisə etdirilməsi, onların fəaliyyətində və qarşılıqlı münasibətlərində biliyin adətə çevrilməsi üçün şərait təmin edilmir. L.A.Lyüblinskayanın haqlı olaraq dediyi kimi, hisslər və biliklər nə qədər tam və parlaq olsa da onlar adətləri əvəz edə bilməzlər.

**Davranış motivləri.** Əsl əxlaqi davranış, əxlaqi motivlərin davamlılığı ilə əxlaqi davranışa olan tələblə xarakterizə edilir. Belə tələb motivləri dərhal formalaşmır. Körpələrdə zahirən əxlaqi xarakter daşıyan hərəkətlər çox halda eqoizmdən, məzəmmət və cəza qorxusundan, ya da mükafat, xeyir gözləməkdən yaranır.

Bir yaşında olan uşağın davranışı xarici təsirlərdən asılı olaraq situativ xarakter daşıyır. Bu yaşda uşağın davranışını idarə etmək üçün xarici təsirlər sistemini mükafat şəkildə təşkil etmək lazımdır.

İlk sözün meydana gəlməsilə uşaqda necə deyərlər, "daxili plan" , daxili oyuncaqlar effektiv şəkildə boyanmış obraz və təsəvvürlərdə təzahür edir. Onlar uşağın davranışında yeni keyfiyyətlər yaradır. Tərbiyəçi uşağın xaricdən müşahidə edilə bilməyən daha davamlı və fəal istəklərini dərk etməli və tərbiyə prosesində onları nəzərə almalıdır. Tərbiyəçi uşaq üçün yalnız xarici yox, həm də onda baş verən daxili oyanmalar üçün də şərait yaratmalıdır. Lakin uşaq iki yaşda olarkən də xarici şəraitlə möhkəm bağlıdır, xarici şəraitdən təsadüfi hallarda ayrılır, lakin

bütün körpəlik dövründə bunlar uşağın ümumi davranış üslubunu dəyişmir. İki yaşda obraz və təsəvvürlər hələ rüşeym halında olsa da oyadıcı qüvvəyə malikdirlər. Uşağın davranışını idarə edən motivləşdirilmiş meyllər öz təsirini göstərir. Bu yaşda da üstünlük təşkil edən bəzi motivlər vardır. Lakin birgə tabe edilmiş motivlər qeyri – iradi xarakter daşıyır. Həmin yaşda uşaq hələ öz arzularının təsiri altında olur.

Yalnız məktəbəqədər yaşda şüurlu məqsədə əsaslanan motivlərə tabelik özünü göstərməyə başlayır, motivlər bilavasitə uşaqda mövcud olan istəyin əksinə fəaliyyət oyadır.

A.N.Leontyev müəyyən etmişdir ki, məhz məktəbəqədər yaşda ilk dəfə olaraq motivlərin ierarxiyası, daha mühüm motivlər və onlara tabe edilən az əhəmiyyətli motivlər, uşaqda öz hərəkətlərini daha mühüm və uzaq, onun üçün cəlbedici olmayan məqsədlərə bilavasitə tabe etmək bacarığı baş verir.

Şüurlu surətdə qəbul edilmiş məqsəddən doğan oyadıcı qüvvə "əsl" təbii tələblərdən heç də az deyildir. Tələblə bilavasitə əlaqədar olan bu yeni tipli tələblər qəbul olunmuş məqsədə müvafiq olaraq uşaqların fəaliyyətini oyatmağa qadirdir.

Uşaqlar artıq 3 – 4 yaşlarında cəlbedici məqsədə çatmaq xatirinə maraqlı olmayan hətta heç bir cəhətdən diqqəti cəlb etməyən hərəkətləri yerinə yetirmək qabiliyyətinə malikdirlər. 3,5 – 5 yaşlı uşaqlar isə bilavasitə oyadıcıların diktə etdiyi hərəkətləri ləngidə bilirlər. Məktəbəqədər yaşlı uşağın motivləşdirmə dairəsində təkcə əxlaqi motivlərlə hərəkət etmək deyil, hətta onları bilavasitə maraqlandıran motivlərdən imtina etmək bacarığı da özünü göstərir. Onlar uşaqlar tərəfindən mənimsənilmiş davranış normaları və qaydaları ilə, onları izləmək cəhdi ilə müəyyən edilir. Uşağın əldə rəhbər tutduğu ilk motiv - qaydaları yerinə yetirmək "necə lazımdır" elə hərəkət etmək, bu ona görə deyildir ki, o, bütün qaydanı bilir, necə hərəkət etməyi də bilir, lakin o, özü belə hərəkət etmək istəyir. Bu həyəcanlanmalar zamanı borc hissi rüşeym halında uşağın davranışının bilavasitə oyadıcısı kimi özünü göstərir. Lakin bu heç də o demək deyildir ki, uşaq mənimsədiyi əxlaq normalarına müvafiq olaraq hər bir əxlaqi hərə-

kəti düşünülmüş şəkildə yerinə yetirir. Çox zaman uşaq pis və ya yaxşı hərəkətlər edir. Bu ətrafdakı adamlara ünsiyyətdən doğan, bilavasitə ictimai, kollektivçilik motivlərinə keçir.

Tərbiyə işində çalışmaq lazımdır ki, davranış motivləri bilavasitə şüurla əlaqədar olsun, təcrübə nəticəsində adətə çevrilsin. Uşaq yaxşı hərəkət edir, ona görə yox ki, o, öz hərəkətini fikirləşərək etmişdir, yox, uşaq belə hərəkət etməyə adət etmişdir və pis hərəkət edə bilmir.

Uşağın hərəkətlərinin əxlaqi motivləşməsi inkişaf edir. Xarici, təsadüfi, eqoist xarakterli motivlər tədricən ictimai, kollektivçilik motivlərinə keçir.

Məktəbəqədər böyük yaşlı uşaqlarda xarici mühitin dəyişməsindən qismən asılı olmayan bir sıra davamlı və daimi motivlər tərbiyə etmək olar.

**Əxlaq tərbiyəsin metodları**. Uşaqların əxlaq tərbiyəsində müxtəlif metodlar tətbiq olunur: nümunə, uşaqların əxlaq təcrübəsinin təşkili, söz vasitəsilə uşağa təsir göstərilməsi.

N ü m u n ə. Körpə yaşlarda uşağın fəaliyyəti (1 yaşdan 3 yaşadək) yaşlılarla qarşılıqlı fəaliyyət kimi xarakterizə edilə bilər. Yaşlılarla birgə fəaliyyət zamanı uşaq yeriməyi, müstəqil yeməyi, paltarlarını geyinməyi, danışmağı öyrənir. Yaşlıların uşağa təsiri, aparıcı rol oynayır. Uşağın bütün istəkləri yaşlılar tərəfindən təmin olunur. Buna görə də uşağın istəyi ilə yaşlıların tələbləri arasında böyük fərq yoxdur. 3 yaşın axırında uşaq yaşlılarsız görəcəyi bütün işlərdə daha müstəqil olur, uşağın arzusu ilə yaşlıların tələbi arasında ziddiyyət baş verir, uşaqda müstəqil hərəkətlər əmələ gəlir. O, sanki özünü yaşlı adamdan ayırır. Sanki birgə fəaliyyət dayanır, ləngiyir, yaşlılar təqlid olunmaq üçün bir nümunə kimi ayrılır. Uşaq məhz məktəbəqədər yaşda yaşlılar arasında ilk növbədə isə yaxın adamlar (valideynlər, tərbiyəçilər) içərisində yaşlıların nümunəsini müşahidə etdiyi davranış normalarını və qaydalarını fəal surətdə mənimsəyir. Sonra uşaq ətrafdakı adamlara, əməyə münasibət sahəsində mənimsədiklərini adamların və hadisələrin daha geniş dairəsinə çevirir.

Təqlidçiliyinə, xüsusilə həssaslıqlarına və təcrübələrinin az olmasına görə uşaqların əxlaq tərbiyəsinin mühüm metodlarından biri nümunə hesab olunur.

Uşağın təqlid etmə bacarığı tərbiyədə nümunədən geniş şəkildə istifadə etməyə imkan yaradır.

İ.P.Pavlov yazırdı ki, təqlid reflekslərin köməyi ilə uşaq vaxtı bizim hamımızda mürəkkəb fərdi və ictimai davranış yaranır və möhkəmlənir.

A.S.Makarenko valideynlərə müraciət edərək deyirdi ki: "Sizin şəxsi davranışınız ən həlledici şeydir".

Uşaq təqlid əsasında yaşlıların bir – birinə münasibətini, onların adətlərini, hərəkət tərzlərini mənimsəyir. Yaşlıların əməyə münasibəti, onların bir – birinə köməyi, düzlüyü, vətənə münasibəti, onların xeyirxah hərəkətləri ən böyük tərbiyəedici qüvvədir. Lakin yuxarıda göstərildiyi kimi nümunənin uşağa kortəbii surətdə təsir göstərəcəyinə bel bağlamaq olmaz. Uşaqların diqqətini davranış nümunələrinə cəlb etməklə başlıcası budur ki, nümunələrin mənimsənilməsi aktiv və yaşlıların birgə fəaliyyəti şəraitində aparılır.

Nümunə uşaqların aktiv fəaliyyətinə istiqamətləndirilərək yaxşı mənimsənilir. Valideynlərin və tərbiyəçilərin uşaqların oyununda iştirak etmələrinin, yaşlıların əməyinə uşaqların cəlb edilməsinin, ailə üçün, uşaq bağçası qrupu üçün gücləri çatan işlərdə iştirakının mənası da elə bundadır.

Ailənin uşağa təsiri valideynlərin uşaqlarla bir yerdə yaşamaq, sevinclərini, əyləncələrini, əməklərini və qayğılarını onlarla bölüşmək bacarığının nəticəsidir.

Məhz uşaqların yaşlılarla birgə işə cəlb edilməsi sayəsində onların ətrafdakı adamlara münasibətinin, müsbət əxlaqi keyfiyyətlərinin tərbiyə olunmasının, valideynlərini, tərbiyəçilərini və uşaq bağçasının digər işçilərini təqlid etmələrinin səviyyəsi yüksəkdir. Uşaqlar yaşlıların əməyi haqqında aydın və dəqiq təsəvvür əldə edirlər, onlarda yeni maraq, yaxın adamlara yeni münasibətlər yaranır. Birgə işdə onlarla mənəvi yaxınlıq əmələ gəlir.

Yaşlılarla qarşılıqlı münasibətlərin dəyişməsi nəticəsində uşaqlarda onlara yaxın olan adamların əməyi ilə məşğul olmaq cəhdi qüvvətlənir. Bu öz ifadəsini uşaqların "arzularında" ("anam kimi" müəllim olmaq, "atam kimi" sürücü olmaq, "Sevda kimi tərbiyəçi olmaq"), habelə onların oyunlarında tapır. Uşaqlar yaxın adamların roluna girir və onların əməyini, adamlara, uşaqlara münasibətlərini əks etdirirlər.

Yaşıdlarının davranışı da uşaqlar üçün nümunə ola bilər. Tərbiyə prosesində uşaqların diqqəti onların yaxşı hərəkətlərinə, müstəqilliyinə, əməksevərliyinə, mütəşəkkil davranışlarına, doğruçuluqlarına, cəsarətli olmalarına və digər müsbət əxlaqi keyfiyyətlərinə cəlb olunur. Lakin təcrübəli tərbiyəçilər bunu elə məharətlə, ehtiyatla edirlər ki, uşaqlar həyəcanlanmasınlar, təmkinliliyə və zəruri əxlaqi keyfiyyətlərə yiyələnməyən uşaqlar tez - tez neqativizmə keçsinlər. Başqalarına tez – tez nümunə göstərilən uşaqda lovğalıq inkişaf edə bilər və yoldaşlarına etinadsız münasibət yarana bilər.

Ekskursiya və gəzinti zamanı uşaqlar anlayışlarına müvafiq ətraf həyatdakı fakt və hadisələri müşahidə edirlər. Tərbiyəçi uşaqları adamların xarakterik cəhətləri ilə tanış edir, onların hərəkətlərini, qarşılıqlı münasibətlərini başa düşməyə kömək göstərir, özünün münasibəti, izahatı, nağıl etməsi vasitəsi ilə uşaqlarda müşahidə etdiklərinə düzgün münasibət yaradır. O, uşaqlara yaxşını pisdən ayırmağı, düzgün nəticələr çıxarmağı öyrədir, yaxşı olmaq cəhdini fəallaşdırır.

Uşağın əxlaq tərbiyəsində onların olduqları mühitdəki əxlaqi saflığın, təmizliyin böyük əhəmiyyəti vardır. Yaşlıların əməyini uşaqlar əvvəlcə qeyri – şüuru başa düşür, sonralar tərbiyənin təsiri altında onların şüurluluq səviyyəsi artır. Bununla bərabər uşaqlarda şəxsiyyətin sosial məqsədə yönəldilmiş və kollektivçilik istiqaməti formalaşır, tədricən ayrı – ayrı hərəkətlərini, sonra isə bütün davranışlarını özünə daha möhkəm tabe edir.

Uşaqlarla aparılan tərbiyə işində biganəliyə, onların tələblərinə, ehtiyac və maraqlarına, diqqətsiz münasibətə yol verilmir. Uşaqların psixologiyasını, onların fərdi xüsusiyyətlərini, ailədəki

həyat şəraitini yaxşı bilən tərbiyəçi hər bir uşağa düzgün yol tapmalıdır. Tərbiyəçinin səsinin xeyirxah tonu, onun sakit və asta səsi uşaqlarda öz qüvvələrinə inam yaradır. Bəzi hallarda rejim tələblərini sadə ümumyaşayış qaydalarının yerinə yetirilməsində tərbiyəçinin səsinin tonu möhkəm və qətidir. Tərbiyəçi uşaqlara oyunun seçilməsində, rolların bölüşdürülməsində onlara sərbəstlik verir.

Valideynlər və tərbiyəçilər uşaqlarda müşahidə etdiklərinə öz baxışlarını və münasibətlərini hökmən qəbul etdirmir və uşaqların onların sözlərinə riayət etmələrini də tələb etmirlər. Onlar yalnız öz münasibətlərini bildirirlər. Əgər bu münasibət səmimidirsə, uşaqlar valideynlərini və tərbiyəçilərini sevir və hörmət edirlərsə, onların sözləri uşaqlara təsir göstərəcəkdir.

Uşaqlarda pis təsirə, yaramaz nümunələrə qarşı immunitet tərbiyə etmək üçün onları uşaqlardan gizlətmək lazım deyildir. Əksinə hərəkətlərin pis cəhətlərini uşaqlara izah etməli, pisləməli, onlara qarşı mənfi münasibət yaradılmalıdır.

Uşaqlara valideynin və tərbiyəçinin əxlaqi təsiri çox böyükdür. Uşaqlara məhəbbət və hər bir uşağın taleyinə ədalətli, xeyirxah, qayğıkeş münasibət, onun qüsurlarını bilmək və bunları aradan qaldırmaq üçün tənbeh deyil, onun islahına inanmaq, ona bir insan kimi yanaşmaq və onun ləyaqətinə hörmət etmək, formalaşmaqda olan uşaq şəxsiyyətinə yaxşı təsir bağışlayır.

Əgər tərbiyəçi uşaqlara qorxu, təqsirkarlıq hissləri aşılayırsa, onlarla kobud danışır, şəxsi ləyaqətinə hörmət etmirsə, tərbiyə işini son dərəcə qadağanlar və əmrlər əsasında qurursa, uşaqların əxlaq tərbiyəsində heç bir müvəffəqiyyət qazana bilməyəcəkdir.

Yaşlıların pis nümunəsi onların düzgün olmayan, qarşılıqlı münasibətləri, kobudluğu, ağır və çox zaman ədalətsiz cəzaları uşaqlarda həyəcanlı hisslər doğurur, əsəb sisteminə mənfi təsir göstərir. Bununla özünəməxsus "istifadəsiz fond" yaranır ki, bu da mənfi hallar (şıltaq, neqativ, sərt, amansız və s. hal) doğurur. Lakin yaxşı nümunəni müşahidə etmək kifayət deyildir. Həyatı elə təşkil etmək lazımdır ki, uşaqlar yaşlılarla və həmyaşlıları ilə

birgə fəaliyyətin iştirakçısı olsunlar, müsbət əxlaqi münasibətlərə fəal surətdə yiyələnsinlər.

**Uşaqlarda əxlaqi təcrübənin toplanması.** Uşaqların həyat və fəaliyyəti prosesində onların yaşlılarla və yaşıdları ilə münasibətləri yaranır, əxlaqi təcrübə və əxlaqi davranış adətləri əmələ gəlir.

Uşaq həyatının düşünülmüş təşkili tələb olunur, onların oyunları, əməyi, məşğələləri qarşılıqlı münasibətləri elə təşkil olunmalıdır ki, buradakı şərait uşaqları düşünməyə, seçməyə, məqsədli surətdə əxlaqlı hərəkət etməyə, eqoist meyllərə düşməmələrinə məcbur etsin.

Uşaqların fəaliyyəti prosesində onlar mütəşəkkil mədəni davranışa, tapşırılmış vəzifələri və hər hansı bir işin məsuliyyətlə yerinə yetirilməsinə alışdırılır. Uşaqlara aydın və maraqlı olan məqsədə nail olmağa istiqamətlənmiş fəaliyyət prosesində iradə və səbatlılıq tərbiyə olunur. Uşaqlara öz hisslərini bildirmək ad günündə yoldaşlarına hədiyyə, balaca uşaqlara oyuncaq hazırlamaq, gündüz yuxusundan sonra yataq otağını yığışdırmaqda dayəyə, süfrə açmaqda, toz almaqda anaya kömək etmək öyrədilir və s.

Uşaqların bütün "işlərində" tərbiyəçinin fəal iştirakı, onun məsləhətləri çox zəruridir: yoldaşına hansı hədiyyənin verilməsində, işin necə təşkil olunmasında, onların hələ bacarmadıqları çətin işin yerinə yetirilməsində kömək etməlidir. Əxlaq tərbiyəsi üçün onun məzmunu kimi təşkili də əhəmiyyətlidir. Tərbiyəçi oyunları və məşğələləri elə təşkil etməlidir ki, bunlar uşaqları ünsiyyətə, bir – birləri ilə yoldaşlıq görüşlərinə təhrik etsin, onlardan qarşılıqlı münasibət, həssaslıq, diqqətlilik tələb olunsun.

Uşaq həyatının bütün sahələri, yuxunun, gəzintinin, yeməyin təşkili ciddi surətdə düşünülməlidir. Uşaq həyatında baş verən hadisələrdən əxlaqi münasibətlərin tərbiyə olunması, əxlaqi hərəkətlərin mümarisə etdirilməsi, əxlaqi davranış və adətlərin formalaşması üçün istifadə edilməlidir.

Uşaqlar əvvəlcə valideynlərin, tərbiyəçilərin təklifi üzrə, onların köməyi ilə, nəzarəti altında, xatırlamaları ilə, sonra isə

daha çox öz təşəbbüsləri, arzuları ilə yaxşı hərəkətlər edirlər. Təcrübə və müntəzəm mümarisələr nəticəsində uşaqda müəyyən hərəkətlər, davranış qaydaları möhkəmlənir, əxlaqi davranış adətləri yaranır.

Uşaqların həyatı onların qarşılıqlı münasibətləri mürəkkəbdir. Müxtəlif uşaqların və yaşlıların maraqları, meylləri, məqsədləri toqquşur. Anlaşılmazlıqlar, mübahisələr, küsüşmələr mürəkkəb vəziyyət yaradır. Əsas vəzifə vəziyyətdən çıxmaqda düzgün yol seçmək bacarığı tərbiyə etməkdən ibarətdir. Tərbiyəçi uşaqların davranışını müşahidə edir, özünün bilavasitə təsiri, məsləhəti, xatırlamaları ilə onlara kömək edir.

Tərbiyəçi uşaqların müxtəlif əməli fəaliyyətini, "işlərini" təşkil edir, bu işlərin yerinə yetirilməsi prosesində onlar əxlaq adətlərini mənimsəyir və əxlaq haqqında düzgün təsəvvür əldə edirlər. Bu işlər həm çox kiçik ola bilər (maraqlı oyunlar, qiraət, kitablar, meşəyə gəzintiyə getmək və s.) həm də elə işlər ola bilər ki, onlar uzun hazırlıq və məsləhət tələb etsin (bayram keçirmək, bostan və çiçəklər salınması, uzun vaxt tələb edən oyun, səhnələşdirilmiş oyunlar və s.). Tərbiyəçinin təşkil etdiyi fəaliyyət prosesində habelə ətrafdakılarla qarşılıqlı münasibət zamanı uşağın əldə etdiyi şəxsi əlaqə təcrübə əsasında uşaq bədii kitablarda, şəkillərdə, ümumi qayda və normalarda ümumiləşdirilmiş əxlaqi təcrübəyə yiyələnir.

Sözlə təsir göstərmə. Sözün təsirini nə artırmaq, nə də azaltmaq olar. Uşaqların davranışı, onlar hələ danışa bilmədikləri, lakin yaşlıların səsinin ahənginə görə fərqləndirə bildikləri dövrdə "olar", "lazımdır", "olmaz" sözlərinin tənzim edilməsi ilə başlanır.

İ.P.Pavlovun dediyi kimi ikinci siqnal sistemi "insan davranışının ali tənzimləyicisidir". Uşağın nəyin pis, nəyin yaxşı olmasına inanmasına yalnız şəxsi təcrübədə deyil, həm də tərbiyəçinin məzəmmət etməsi, onun izahı, təklifi, nağıl etməsi, hərəkətləri qiymətləndirməsi də xeyli dərəcədə kömək edir. Tərbiyəçinin sözü uşağı inandırır, bu və ya digər hərəkətin zəruriliyini başa düşməyə kömək edir.

Tərbiyəçinin adamların hərəkətlərini qiymətləndirməsi xüsusilə böyük təsir gücünə malikdir, çünki bu uşaqlarda qiymətvermə və özünü qiymətləndirmə qabiliyyətinin inkişaf etdirilməsi ilə əlaqədardır. Özünü dərketmənin inkişafı əsasında, fəaliyyət prosesində məktəbəqədər yaşlı uşaqlarda yaşıdlarını, yaşlıların və özlərinin davranışını və fəaliyyətini qiymətləndirmək qabiliyyəti inkişaf edir.

Uşağın verdiyi qiymət və özünü qiymətləndirməsi onun başqa adamlarla ünsiyyəti zamanı formalaşır.

Uşağın bütün psixoloji həyatı qiymətlərin təsiri altında inkişaf edir. Uşağın aktivliyinin ilk şüurlu təzahürü onu əhatə edən yaşlılar tərəfindən qiymətləndirilir (məzəmmət və ya təklif) və tezliklə o dərk etdikləri həqiqətin düzgün olub- olmamasını möhkəmləndirmək üçün özünün hərəkətlərində qiymət axtarmağa başlayır. Yaşlıların uşaqların hərəkətlərinə verdikləri qiymətlər əsasında onlarda qiymətləndimə və özünü qiymətləndirmə bacarığı yaranır.

Uşağın verdiyi ilk qiymətlər ümumi, qeyri –diferensial (pis, ağıllı, yaxşı) səciyyə daşıyır. Uşaqlar bu anlayışı qeyri – adekvat işlədirlər. Belə ki, ağıllı, yaxşı, sözəbaxan anlayışları eyni ilə əksinə deyirlər. 5 – 6 yaşlı uşaqlar bu anlayışları fərqləndirməyə çalışırlar. Onların digər uşaqlara münasibətləri daha şüurlu olur. Onlar daim müqayisə etdikləri yoldaşlarının şəxsiyyətinin müxtəlif tərəflərinə diqqət yetirirlər. Qiymətvermə emosional səciyyə daşıyır, buna görə də özünü müsbət qiymətləndirmək asan, mənfi qiymətləndirmək isə çətindir, özü haqqında nəyi isə bacarmır, nəyi isə pis edir – deməsi çətindir. Digər uşaqları müsbət və xüsusilə mənfi cəhətdən qiymət-ləndirməkdə çox səxavətlidir.

4 – 5 yaşlı uşaqların qiymət verməsi və özünü qiymətləndirməsi emosionaldır, obyektivdir, xeyli dərəcədə qətidir və az sübut edicidir.

5 – 6 yaşlı uşaqlar verdikləri qiymətləri əsaslandırmağa, faktlar gətirməyə cəhd göstərirlər, onlar özlərinə tənqidi yanaşır, verdikləri qiymətlər daha obyektiv, daha nüvafiq (adekvatdır), daha məzmunlu olur.

Qiymətləndirmə qabiliyyəti böyük tərbiyəvi işin nəticəsidir. Tərbiyəçi uşağın davranışını tənqidi surətdə qiymətləndirmək məqsədilə onun davranışının müxtəlif tərəflərinə, müxtəlif fəaliyyət zamanı diqqət yetirir. O, bunları qəsdən, bilə - bilə deyil, həmişə yerində, uşağın şəxsiyyətinə xüsusi diqqətlə yanaşması ilə özünü göstərir. Qiymət meyarı müəyyən edilmiş qaydaları uşağın yerinə yetirməsi və ya yetirilməməsi əsasında müəyyən edilir. Tərbiyəçi yoldaşlarının da hərəkətlərini qiymətləndirməyə uşaqları cəlb edir, uşaqların davranışını dünənki ilə müqayisə edərək, onun yüksək və ya aşağı səviyyədə olduğunu bildirir. Bu da uşaqlarda emosional əhval–ruhiyyə yaradır, yoldaşlarının davranışı ilə maraqlanır, onları müşahidə etməyə başlayır, davranışlarınm ayrı–ayrı tərəflərini seçib ayırır, qəbul edilmiş normalar nöqteyi – nəzərindən qiymətləndirir, beləliklə də onun özünün hərəkətlərini qiymətləndirmək üçün meyar olur.

Qiymətdən düzgün istifadə edilməsi uşağın davranışının normalarını mənimsəmələrinə səbəb olur və onların hərəkətlərinin mənfi cəhətlərinin qarşısını alır.

Qiymətləndirmənin və özünü qiymətləndirmənin inkişafı düzgün pedaqoji qiymətləndirməyə kömək edir.

Yaxşı tərbiyəçinin uşağın davranış və hərəkətlərini qiymətləndirməsi əsasən müsbət xarakter daşıyır. Əgər uşaqların həyatı düzgün təşkil olunmursa və bununla da düzgün olmayan hərəkətlərin qarşısı alınmışdırsa, yaxşı tərbiyəçi mənfi qiymətdən istifadə etməyi lazım bilmir. O, bir sıra mənfi hərəkətləri qiymətləndirmir, yalnız uşaqlara izah edir, necə hərəkət etmək, davranmaq lazım olduğunu onlara başa salır. Mənfi qiymətlərin əksəriyyəti xeyirxah məzəmmətdir, onlar humanist və optimist xarakter daşıyır.

Yaxşı hərəkətə cəhd göstərmələrinə görə tərifləmədən tez – tez istifadə edilir. Qiymətlərin konkret, əsaslandırılmış olması uşaqların təkcə şüuruna deyil, emosiyalarına da təsir göstərir.

Tərbiyəçinin verdiyi qiymət iki vəzifə daşıyır: istiqamətləndirici (uşaqları nəyi öyrətdiklərini və daha nəyi öyrətmək lazım olduğunu görməyə imkan verir) və maraqlandırıcı meyl oyadır.

Məktəbəqədər böyük yaşlı uşağın davranışına verilmiş əsaslı pedaqoji qiymət onlarda müstəqil olaraq qiymətləndirməni və özünü qiymətləndirməni formalaşdırır.

Qiymətdən düzgün istifadə edilməsi uşaqlarda öz davranışına və yoldaşlarının davranışına maraq və yüksək tələbkarlıq yaradır (özünənəzarət və nəzarət).

Düzgün pedaqoji qiymət uşaqlarda xeyirxahlıq bir – birlərinə və yaşlılara hörmət hissi, dostluq, yoldaşlıq, kollektivçilik, əməksevərlik və digər müsbət əxlaqi keyfiyyətləri formalaşdırır.

Məhz əxlaqi qiymətlər sayəsində uşaq insanın əxlaqi keyfiyyətləri haqqında biliklərə yiyələnir, ədəbi əsərdəki qəhrəmanların, onları əhatə edənlərin davranışındakı yaxşı cəhətləri pisdən ayırmağa başlayır.

Böyük uşaqlar özlərinin verdikləri qiymətləri və nə üçün birini yaxşı, digərini isə pis hesab etdiklərini izah edirlər. Lakin hələ uşaqlarda əxlaq haqqında ümumiləşdirilmiş təsəvvürlər yoxdur, hər bir hadisə uşaq tərəfindən konkret şəkildə qavranılır və ona məlum olan əxlaq normaları nöqteyi – nəzərindən qiymətləndirilir. Tərbiyəçinin təklifləri, məsləhətləri, tələbləri bütün hallarda uşaqların həyatında böyük əhəmiyyətə malikdir. Tərbiyəçinin təklifi, məsləhəti uşaqları yaxşı hərəkətlərə təhrik edir: "yoldaşlarınla məsləhətləş", "ondan nəzakətlə xahiş et".

Tərbiyəçinin təklifləri, onun tələbləri heç də həmişə aşağıdakı nümunə kimi birbaşa və qəti formada olmur: "bunları et". Tərbiyəçinin təəccübü də çox halda uşağa təsir göstərir: "Eldar, maşını yerinə qoy" əvəzinə "Mən nə görürəm? Eldar maşını yerinə qoymamışdır?"

Bəzən tərbiyəçi sevimli kitablardan sətirləri uşaqların yadına salır: "dəcəl sərçəni çoban necə aldadır?"

Tərbiyəçinin tələblərində qadağaların çox olması yaxşı hal deyildir. A.S.Maka-renko qadağan normaları ilə ifadə olunan intizamı əxlaq tərbiyəsinin ən pis növü hesab edirdi. Müəyyən miqdarda qadağanlar lazımdır. Lakin tərbiyəçinin sözü əsasən uşaqlarda fəaliyyətə, hərəkətə meyl oyatmalı, onlara nə etməyi,

anaya necə kömək göstərməyi, birlikdə necə işləməyi, oynamağı öyrətməlidir. Tərbiyəçi məsləhət verir, inandırır.

Məsələn, uşaqlar "evcik" oynayırlar. İki uşaq oyuna aparıcı olmaq üstündə mübahisə edirdi. Oyun qaydaya düşmürdü. Tərbiyəçi dedi: "Budur, siz mübahisə edirsiniz, iki balaca dəstəyə bölünüb oynamağa başlayırsınız, hər ikiniz sıxılırsınız. Lakin növbə ilə aparıcı ola bilərsinir, onda hər ikiniz üçün yaxşı olardı". Uşaqlar tərbiyəçinin məsləhətini qəbul edib oynamağa başladılar.

Söz uşaqların fəaliyyətinə, onların ətrafdakılarla qarşılıqlı münasibətlərinə təsir edir.

Böyük yaşlı uşaqlarla etik söhbətlər keçirmək olar. Uşaqların bəzi hərəkətlərinin, onların həyatına dair faktların, habelə oxunmuş kitabların məzmununun müzakirəsi belə söhbətlər üçün mövzu ola bilər.

Belə söhbətlər uşaqlara yaxşı hərəkətlər, birgə yaşayış normaları, davranış qaydaları haqqında düzgün təsəvvürlərin inkişaf etdirilməsinə kömək edir. Sonra bu əxlaqi təsəvvürlər fəaliyyətdə, uşaqların bir – biriləri və yaşlılarla ünsiyyəti prosesində möhkəmləndirilir. Davranış norma və qaydaları haqqında biliklər onların həyatda tətbiqi üzrə üzvi surətdə əlaqələndirilməlidir.

Etik söhbətlər tərbiyəvi iş planına daxil edilir. Bu söhbətlərə tərbiyəçi diqqətlə hazırlaşır, emosional çıxışlar, söhbətin məzmununa uyğun olaraq oxu üçün hekayə, nağıl seçir, onların əldə etdikləri təcrübədən istifadə etmək, təfəkkürün müstəqilliyini inkişaf etdirmək məqsədilə suallar hazırlayır.

Baş vermiş faktlar hadisələrlə (kimsə yoldaşının oyuncağını sındırmış, bunu boynuna almamışdır) əlaqədar söhbətlər keçirilir.

Mübahisələr uşaqların niyyətlərini, maraqlarını, təsəvvürlərini öyrənmək vasitəsidir. Uşaqlar yaşıdların hərəkətlərini qiymətləndirməkdə fəal iştirak edir, pis hərəkətlərini tənqid edir, yaxşı hərəkətlərini isə tərifləyir. Tərbiyəçi uşaqların fikrini ümumiləşdirərək özünün münasibətini və verdiyi qiyməti deyir, düzgün hərəkətləri tərifləmək, pis hərəkətləri məzəmmət və tənqid etməklə öz nüfuzu ilə uşaqlara təsir göstərir.

Bədii uşaq kitabları və incəsənət öz parlaq və canlı obrazları ilə uşaqların hisslərinə təsir edir, nəyin pis, nəyin yaxşı olduğunu göstərir, başqasının halına qalmaq, xeyirxah işlərə münasibət, pisliyə nifrət oyadır. Bədii əsərlər uşaqda emosional rəy əmələ gətirir. Kitabda olan nəğmədə, şəkildə baş verən bütün hadisələr ona dərhal müəyyən təsir göstərir, elə bil həmin hadisələrin bir növ iştirakçısına çevrilir, nəticədə onun hissləri, davranışı yaxşılaşır.Bədii obrazlar vasitəsilə uşağın əxlaqi hisslərinin və təsəvvürlərinin diapazonu genişlənir. Uşaq bəzi ümumiləşdirmələri mənimsəməyi bacarır. Bu ümumiləşdirmələr isə konkret halda əxlaqlı hərəkət etməkdə ona kömək edir.

Nəticədə demək lazımdır ki, əxlaq tərbiyəsinin mürəkkəb vəzifələri yalnız bir metodla deyil, bütün metodlar sistemi ilə həll edilə bilər.

Uşaqların gücləri çatan vəzifələri yerinə yetirmələri davranış normalarını icra etmələri borc hissinin formalaşmasına kömək edir. Bu hissin formalaşması ilə əlaqədar olan özünü məhdudlaşdırmaq qabiliyyəti, ləngimə proseslərinin inkişafını tələb edir ki, buna da iradənin inkişaf etdirilməsi sayəsində nail olunur.

Təkcə "özünün istədiyini" deyil, həm də "lazım olanı" yerinə yetirməyi tələb etmək üçün şərait yaradılmalıdır.

Uşaqda nəyi etməyə yol verildiyi və nəyi etməyə yol verilmədiyi, nəyin yaxşı, nəyin pis olması haqqında təsəvvürlərin formalaşması borc hissinin yaranıb möhkəmlənməsinə əsaslı surətdə təsir göstərir.Borc hissinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi düşünülmüş tərbiyəvi təsir tələb edir.

Əxlaqi hisslər uşaqlarda əxlaqi hərəkət etməyə maraq oyadır, əxlaqi davranmaq arzusu doğurur. Uşağın əxlaqi hissləri onları əhatə edən yaxın adamların xeyirxahlığından, həssaslığından, dəqiqliyindən, vərdiş etdiyi fəaliyyətdən, onun mütəşəkkilliyindən, düzgün rəhbərlikdən, valideynlərin, tərbiyəçinin tərif və ya məzəmmət etməsindən, irad tutmasından, sonralar isə həmyaşlıların qiymət verməsindən, onların münasibətlərindən asılıdır.

## KOLLEKTİV VƏ ŞƏXSİYYƏT.

**Məktəbəqədər yaş dövründə kollektivçilik tərbiyəsinin əsasları.** K o l l e k t i v ç i l i k  t ə r b i y ə s i – əxlaq tərbiyəsinin mühüm tərkib hissəsi idi. Kollektivçilik – kollektivin, cəmiyyətin, xalqın mənafeyini şəxsi mənafedən üstün tutmaq bacarığıdır. Kollektivçilik–yoldaşlıq, həmrəylik, məqsəd və hərəkət birliyidir. İnsan dünyaya fərd kimi gəlir, sosial mühitdə kollektivdə şəxsiyyət kimi formalaşır. Uşaq dünyaya göz açandan insanların əhatəsində olur. Uşağın ilk kollektivi onun ailə mühitidir. Çoxuşaqlı ailələrdə böyüyən uşaq sonrakı dövrdə düşdüyü kollektivə tez alışır.

Körpə yaşlı uşaqlarda ona göstərilən qayğıya cavab olaraq, yaxın adamlara maraq və rəğbət oyanır. O, ətrafdakıların əhval – ruhiyyələrinə və hisslərinə nüfuz etməyə başlayır, başqa uşaqlara rəğbət bəsləyir, birgə oyuna səy göstərir. 3 – 4 yaşlı uşaq ümumi oyunlarda, məşğələlərdə iştirak edir. Bu yaşda o, artıq, başa düşməyə başlayır ki, bir adam üçün çətin olan işi birlikdə görmək asandır.

5 – 6 yaşlı uşaq yoldaşsız darıxır. Başqa uşaqlar qarşısında olan məsuliyyət hissi yaranır: öz yoldaşlarına qarşı xoşagəlməz hərəkət etdiyini başa salanda, uşaq özünü narahat hiss edir. Tədricən tərbiyənin təsiri ilə başqa uşaqlarla oynamağın tək oynamaqdan daha şən keçdiyini, birlikdə daha tez və daha çox iş görmək mümkün olduğunu dərk etmək qabiliyyətləri inkişaf edir, onlarda güzəştə getmək, razılaşmaq, kollektivə lazım olan müəyyən iş görmək, özünü saxlaya bilmək adətləri möhkəm-lənir.

5 – 6 yaşına yaxın uşaq özünün bəzi hərəkətlərinin mənasını başa düşməyə qabil olur və öz yoldaşlarına qarşı münasibətini müəyyyənləşdirir: "Başqalarından zorla almaq olmaz", "Oyuncaqları bölüşdürmək lazımdır" və s.

Bu yaşda uşaqlar arasında daha sıx dostluq münasibətləri də müşahidə edilir ki, həmin münasibətlər uşaqların mehribanlığı, qarşılıqlı meylləri əsasında yaranır. Dostluq uşağın mənəvi simasına müsbət təsir göstərir: dosta qayğı göstərmək, onun yaxşı

hərəkətləri ilə fəxr etmək və çətinliklərdə ona kömək etmək arzusu əmələ gəlir, dostlar bir – birinə oyuncaqlar, şirniyyatlar verirlər.

Böyük məktəbəqədər yaşda tərbiyənin təsiri ilə kollektivçilik və dostluq hissinin sonrakı inkişafı sürətlənir. Uşaqlar həssaslıq göstərir, bir – birinə kömək edir, balacalara qayğı göstərir, zəif və xəstə yoldaşlarına diqqətlə yanaşır, aralarında baş verən narazılığı çox vaxt müstəqil həll edə bilirlər. Bu yaşda uşaqlar arasında dostluq əlaqəsi möhkəmlənir. Böyük məktəbəqədər yaşlı uşaqları ümumi hisslər, ümumi mənafe birləşdirir. Bəzən bir – birinə əks xarakterli uşaqların arasında da dostluğu müşahidə etmək olar.

Bu yaşda kollektivin uşağa təsiri artır. Oyunda, ümumi əmək prosesində bəzi özünütəşkiletmə vərdişlərini tərbiyə etmək mümkün olur.

Əgər kiçik məktəbəqədər yaşlı uşaq bəzi birgə fəaliyyətə qabildirsə, böyük məktəbəqədər yaşlı uşaq razılaşmağı, rolları və vəzifələri bölüşdüməyi tələb edən məqsədəyönlü kollektiv oyunlarda və əmək fəaliyyətində iştirak edir. Məktəbəqədər yaş dövründə uşaqlarda birgə fəaliyyətin müqabilində kollektiv fəaliyyətin üstünlüyünü anlamağı, kollektivin fəaliyyətinə mane olan hərəkətlərdən çəkinmək cəhdini tərbiyə etmək olar. Bu məqsədlə uşaqları kiçik kollektivlərdə birləşdirmək, onlarda birlikdə oynamaq və işləmək bacarığı kollektivin mənafeyini fikirləşmək, kollektivə zidd olan işdən çəkinmək bacarığı tərbiyə etmək lazımdır.

Lakin uşaq kollektivinin, uşaqların kollektivçilik hissinə yiyələnməsinin özünəməxsus xüsusiyyətləri vardır.

Kollektivin təşkil olunmasının əvvəlində kollektiv əlaqələrin davamsızlığı, təşkiletmə bacarığının çatışmamazlığı ilə xarakterizə olunur. Uşaqlar oyunda rolları, işdə vəzifələri müstəqil bölüşdürə bilmirlər. Bu bacarıqları tərbiyə etmək uzun müddət tələb edilir. Tərbiyəçi ümumi işdə, oyunda, eləcə də gündəlik həyatlarında uşaqların özünü göstərmələrini izləyir, xatırlamaqla, xəbərdarlıqla, məsləhətlə onların davranışına istiqamət verir.

Uşaqların birləşməsi əsasən oyunda baş verir. Tərbiyəçi tərəfindən istiqamət-ləndirilən maraqlı, məzmunlu oyun uşaqları ümumi məqsəddə birləşdirir ("ev tikmək", "heyvanxana düzəltmək", "küçəni yaşıllaşdırmaq") və kollektivçilik tərbiyəsi üçün ən yaxşı şərait yaradır. Uşaqları məqsəd birliyi, birgə hisslər yaxınlaşdırır.

Uşaq kollektivi ə m ə k p r o s e s i n d ə, uşaqlar tərəfindən onların gücü çatan tapşırığın və vəzifənin yerinə yetirilməsində tərbiyə edilir. K o l l e k t i v q a r ş ı s ı n d a b o r c v ə m ə s u l i y y ə t h i s s l ə r i n i n i l k r ü ş e y m l ə r i əməkdə yaranır.

Sadə formada əməyin ictimai motivlərini uşaq hələ məktəbəqədər yaşlarda tədricən qavramağa başlayır. Uşaqlar "anaya hədiyyə üçün" açıqca və ya "balacalar üçün" bayraq düzəldəndə, böyük maraqla işləyir və yaxşı nəticələr əldə edirlər. Əlbəttə, bu motivlər uşaqların əməyinə yaşlılar tərəfindən daxil edilir.

Uşaqların kollektivçilik hisslərini və birgə yaşayış adətlərinin inkişaf etdirilməsində aparıcı rol tərbiyəçiyə məxsusdur; o, öz nümunəsi və düşünülmüş metod və üsullar sistemi ilə uşaqları kollektivdə yaşamağa öyrədir, onların hisslərini zənginləşdirir və inkişaf etdirir. Tərbiyə sayəsində məktəbəqədər yaşın axırına yaxın uşaqlar məktəb kollektivində oyuna, əməyə və məşğələlərə hazırlıqlı olurlar.

**Məktəbəqədər yaşda kollektivçilik tərbiyəsinin metodikası.** Uşağın kollektivlə ilk əlaqələrinin təşkili onda kollektivə marağın, yoldaşlarına rəğbətin yaranması və kollektivçilik tərbiyəsi üçün böyük əhəmiyyətə malikdir.

Buna uşağın uşaq müəssisələrində olduğu birinci günlərin düzgün təşkili nəticəsində nail olmaq mümkündür. Uşaq bağçasına gəliş kollektivdəki həyat, adət etdiyi şəraitin dəyişilməsi hər bir uşaq üçün müəyyən çətinlik yaradır. Bəzi uşaqlar isə, xüsusilə erkən yaşda, ailə həyatı şəraitində yaranmış, adət etdikləri mühitlə əlaqələr, münasibətlər sisteminin pozulması nəticəsində, bunu hətta xəstəlik kimi keçirirlər. Tərbiyəçi, İ.P.Pavlovun keçmiş dinamik stereotipin pozulması çətinliklərinin melanxolik həyəcan-

larla müşayiət edilə bilməsi haqqındakı xəbərdarlığını nəzərə alaraq, yeni şəraitə öyrəşməkdə, yoldaşlarını tanımaqda, onları sevməkdə uşağa çox mülayim və nəzakətlə kömək edir.Uşaqda uşaq bağçasına maraq, onda bağçaya gəlmək arzusu yaratmaq da lazımdır. Bundan başqa, uşağın ailə şəraiti ilə mümkün qədər əvvəlcədən tanış olmaq, onun xüsusiyyətlərini, meyllərini, sevimli oyuncaqlarını və s. öyrənmək çox mühümdür.

Tərbiyəçi, bağçaya təzə gəlmiş uşağı 2 – 3 uşaqla birlikdə mehribancasına, hərarətlə qarşılayır, burada oynamağın necə yaxşı olduğunu ona danışır, onun üçün sevimli, yaxud təzə olan oyuncaqları göstərir. Bundan sonra uşağı qrupa dəvət edir, onu yeni şəraitlə, oyuncaqlarla tanış edərək, sərbəst buraxır, eyni zamanda nəzarətsiz qoymur.

Tərbiyəçi, uşaqları bir – birinin adları ilə və bəzi diqqəti cəlb edən xüsusiyyəti ilə tanış edir. Uşaqlar tədricən öz yaşıdlarına diqqət yetirməyə, onları adlarına görə, xatakter xüsusiyyətinə görə fərələndirməyə başlayırlar. Uşaqlarda yaşıdlarına maraq, sonradan isə onlara rəğbət tərbiyə edilir.

Uşaq müəssisələri uşaqların birgə həyatı, həssaslığı, qarşılıqlı münasibətləri, bir- birinə qayğısı, böyük uşaqların balacalara, sağlam uşaqların xəstə və zəif yoldaşlarına diqqət yetirmələrini tərbiyə etmək üçün böyük imkanlar yaradır.

Maraqlı oyunların, məşğələlərin və əyləncələrin təşkil edilməsi uşaqlarda xoş təəssüratın toplanmasına imkan yaradır, uşaq bağçasına maraq, yoldaşlarına rəğbət oyadır, uşaqları evi xatırlamaqdan yayındırır, yeni şəraitə daha tez uyğunlaşmağa kömək edir.

Oyunda uşaqların qarşılıqlı münasibətləri aydın təzahür edir və özünəməxsus şəkildə toplanır, onları fikir birliyi, birgə hisslər yaxınlaşdırır. Oyunda uşaq öz fəaliyyətini yoldaşlarının fəaliyyəti ilə uyğunlaşdırmaq, oyunda yaranan qaydalara tabe olmaq zərurəti ilə qarşılaşır. Tərbiyəçi uşaqlarda oyunun məqsədini həyata keçirmək üçün tələbkarlığı və birgə fəaliyyət göstərmək bacarığını inkişaf etdirir, onları yoldaşlarına qarşı diqqətlə və xoş niyyətlə yanaşmağa, onların hüquqları, istəkləri ilə hesablaşmağa

alışdırır, uşaqlarda tapşırılmış vəzifəni yerinə yetirmək üçün yoldaşları qarşısında məsuliyyət hissi tərbiyə edir. Oyunun gedişində tərbiyəçi, uşaqlara ictimai davranış normaları haqqında onların başa düşə biləcəyi biliklər verir və bunlara yiyələnməyə kömək edir.

Kollektivçilik tərbiyəsi üçün məşğələlərdə də çoxlu imkanlar vardır. Artıq, 2 – 3 yaşlı uşaqlarla qısa müddətli məşğələlər keçirilir. Tədricən məşğələlər üçün uşaqları 8 – 10 nəfərlik qruplarda birləşdirirlər. 3 yaşından məşğələlər bütün qrupu əhatə edir. Uşaqlar ümumi tapşırığı yerinə yetirməyə, bir – birinə diqqətlə qulaq asmağa alışdırılır.

5 – 6 yaşlı uşaqlara yoldaşlarının verdiyi cavabları tamamlamağı və düzəltməyi, yoldaşının edə bildiyini onun əvəzində etmək yox, məsləhətlə, göstərməklə kömək etməyi, bir – birinin işində müsbət cəhətləri görməyi öyrənirlər. Uşaqların nöqsanları görməyə meylli olduqlarını nəzərə alaraq, tərbiyəçi öz qiymətləri ilə onlarda nəzarət hissi, bir – birinə münasibətdə ədalətli olmağı tərbiyə edir.

Uşaqlarda kollektivçilik, dostluq və yoldaşlıq əlamətlərinin tərbiyə edilməsi üçün ümumi fəaliyyət çox mühümdür. Bu işdə uşaqların ümumi mənafe uğrunda, birgə hisslərdə birləşdirilməsinə nail olunur.

Ən sadə həyat tərzi – A.S.Makarenkonun haqlı olaraq hesab etdiyi kimi - uşaq kollektivini daha möhkəm, daha səmimi, daha gümrah edir.

Uşaqlar qarşısında kiçik, lakin cəlbedici ümumi məqsədlər: maraqlı ekskursiyalar, məşğələlər keçirilməsi, otağın yığışdırılması, bayramlara hazırlıq, yolka bəzəklərinin hazırlanması, kukla paltarlarının yuyulması və bu işin uşaqlar tərəfindən həyata keçirilməsi kimi vaxt (bir neçə gün) tələb edən daha mürəkkəb və daha uzaq məqsədlərin (nağılı səhnələşdirmək və onu başqa qruplara göstərmək) yerinə yetirilməsi əlverişlidir.

Uşaqlar tədricən belə fikrə alışırlar ki, onlar böyüklərə kömək etməli, kollektiv üçün xeyirli bir iş görməlidirlər, onların işi mühüm və vacibdir. Tərbiyəçi böyük qrupun uşaqlarını elə

hazırlayır ki, onlara müstəqil, daha mürəkkəb iş tapşırmaq mümkün olsun. Onlarda tədricən bunun üçün zəruri olan bacarıqlar, səliqəlilik, öz vəzifələrinə maraq, işin yaxşı yerinə yetirilməsindən doğan sevinc və razılıq hissi tərbiyə edilir. Belə tərbiyə zamanı uşaqlarda şəxsi marağı kollektivin marağına tabe etmək adəti əmələ gəlir.Uşaqların yaşadıqları və tərbiyə olunduqları mühit – adamların qarşılıqlı münasibətində olan məhəbbət, dostluq, qayğı və diqqət, həssaslıq mühiti, uşaqların kollektivçilik ruhunda tərbiyəsinin zəruri şərtini təşkil edir.

Uşaqlar, onlara öz məhəbbətlərini, qayğıda, xidmətdə, onların ehtiyac və marağına diqqətlə yanaşmaqda, uşağa və bütün uşaq kollektivinə hörmət göstərən tərbiyəçi və valideynlərdən nümunə götürürlər. Dərin düşünən, öz işini sevən pedaqoq bütün uşaqlara bərabər və eyni münasibət bəsləyir.

Pedaqoqlardan yoldaşlarına çətinliklə yaxınlaşan uşaqlara xüsusi diqqət göstərmək tələb olunur. Bu, müxtəlif səbəblərə görə baş verir. Xudbin, ərköyün və nərmə - nazik uşaq öz həmyaşıdlarının mənafeyi ilə hesablaşmağı bacarmır, o, böyüklərin xüsusi diqqətini istəyir, daim yoldaşlarından küsür, tez – tez şıltaqlıq edir, başqa uşaqların arzuları ilə hesablaşmayaraq, yalnız, öz istəyinin təmin olunmasına inadla çalışır. Tərbiyəçi belə uşağa başqa uşaqların hüquqlarını göstərir, başqa uşaqlarla oyuncaqları bölüşdürməyi öyrədir, yoldaşlarının xoşuna gələn bir iş gördüyü zaman onu tərifləyir. Bəzən, uşaqlar özləri də, xüsusilə böyük uşaqlar, uşağın oyunda baş rolu götürmək iddiasından inadla imtina etmək istəməməsini və başqa rolu qəbul etməmək meylini hiss edərək, onu bu ümumi maraqlı oyuna qəbul etməyə razı olmurlar. Tərbiyəçi uşaqların ona nə üçün belə yanaşdıqlarını uşağa başa salmaq üçün həmin faktlardan istifadə edir. Tərbiyəçinin daimi təsir göstərməsi, uşağa bu yaşda hələ sabit olmayan cəhətlərdən azad olmağa kömək edir. Lakin yadda saxlamaq lazımdır ki, yaranmış əlaqələrin pozulması, yeni əlaqələrin yaradılması uşağın özü üçün də çətindir və tərbiyəçidən böyük həssaslıq, qətiyyət tələb edir.

U t a n c a q  u ş a q l a r kollektivin ümumi həyatına çətinliklə daxil olurlar. Utancaqlığın səbəbləri müxtəlifdir: səhhətin zəifliyi, fiziki çatışmazlıq, pis nitq, böyüklərin qayğısının həddindən çox olması və ya uşaqlarla həddindən artıq sərt rəftar edilməsi. Utancaq uşaq dinməz olur, öz gücünə inanmır, buna görə də tapşırığı, məsələni yerinə yetirməkdən tez – tez imtina edir. Belə uşaqlarla fərdi tərbiyə işi (əlavə olaraq öyrətmək, onları şəkil çəkmək, nağıl etmək üzrə məşq etdirmək və s.) aparmaq lazımdır. Onların mahiyyətini qiymətləndirmək lazımdır. Beləliklə, onlar tədricən uşaqlarm ümumi həyatına daxil olurlar.

Kollektivçilik tərbiyəsində u ş a q  ə d ə b i y y a t ı böyük rol oynayır.

Oxunmuş əsərlərlə əlaqədar olaraq böyük uşaqlarla söhbətlər aparmaq olar. Tərbiyəçi dostluq, yoldaşlıq haqqında uşaqların təsəvvürlərini aydınlaşdırır, özlərinin müşahidə etdiyi və iştirakçısı olduğu, yoldaşlıq və dostluq hallarını yada salmağı və danışmağı onlara təklif edir, öz hərəkətlərini, yoldaşlarını və ətrafdakı adamların hərəkətlərini qiymətləndirməyi onlara öyrədir. Kiçik və orta qruplarda tərbiyəçi uşaqlara oxunan əsərlərdəki obrazlar, hadisələr və faktlar haqqında özünün müşahidələri ilə onların hiss və şüuruna təsir göstərir. O, böyük uşaqları müstəqil münasibət göstərməyi kobudluğa, xudbinliyə, nəinki mənfi münasibət bəsləməyə, həm də bu və ya başqa halda necə hərəkət etməyi fikirləşməyə təhrik edir. Balacalar üçün bu məqsədlə xalq məshəkələrindən, mahnılarından, atalar sözlərindən, zərbi – məsələlərdən istifadə etmək olar, belə ki, onların çoxunda dostluq ideyası bədii şəkildə, onların qavraya bildikləri tərzdə ifadə edilmişdir. Müşahidə, bədii oxu, oxunan və baxılan haqqında söhbətlər, uşaqların hərəkətlərinin qiymətləndirilməsi kollektiv hissinin, hissələrinin formalaşmasına və bu hisslərin uşaqların davranışında şüurlu surətdə təzahür etməsinə imkan yaradır.

Uşaqlarda kollektivçilik hissinin tərbiyəsinə musiqini dinləmək, xorla oxumaq və estetik tərbiyənin digər növləri faydalı təsir göstərir. Onlar uşaqların emosiyalarını, ümumi həyəcanlarını zənginləşdirir və dərinləşdirir, kollektivçilik hisslərini tərbiyə

edir. Gəzinti zamanı yaşlıların əməyini müşahidə edərkən tərbiyəçi, uşaqların diqqətini ətrafdakı həyatın elə faktlarına, elə tərəfinə cəlb etməlidir ki, uşaqlar böyüklərin birlikdə işləməsini, ətrafdakılara xeyir vermək üçün çalışdıqlarını başa düşsünlər.

Uşaqlar tədricən başa düşürlər ki, bağçanın işçi kollektivinin birgə işi uşaq bağçasında səliqə, onlar üçün yaxşı həyat şəraitini yaradır. Orta və böyük qruplarda uşaqları müntəzəm olaraq ətrafdakıların, kollektivin əməyi və qarşılıqlı münasibəti ilə tanış edirlər. Uşaqların diqqətini dostluq, həssaslıq və xeyirxahlıq, xəstələrə, uşaqlara, qocalara qayğı göstərmək faktlarına cəlb edirlər. Məktəblilərin həyatından müsbət nümunələr uşaqlar üçün xüsusilə anlaşıqlıdır.

Müşahidə prosesində uşaqların diqqəti tərbiyəvi əhəmiyyəti olan cəhətlərə cəlb edilir. Küçənin asfaltlaşdırılmasını müşahidə edən zaman uşaqların diqqətini fəhlələrin əlbir, müştərək əməyinə cəlb etmək olar. Uşaqlar əyani surətdə görürlər ki, iş hamının arasında bölüşdürülmüşdür. Hər kəs öz tapşırığını yerinə yetirir, hamı əlbir və tez işləyir, ağır iş maşınla görülür. Bu müşahidələr onların qarşılıqlı münasibətlərinə də böyük təsir göstərir. Onlar böyükləri təqlid etməyə, daha mütəşəkkil, əlbir oynamağa, razılığa gəlməyə və rolları bölüşdürməyə, "başçı" seçməyə, onun məsləhətlərinə qulaq asmağa başlayırlar.

Uşaqların kollektiv hisslərinin inkişaf etdirilməsində əsas rol tərbiyəçiyə məxsusdur; o, öz nümunəsi və ətraflı düşünülmüş metod və üsullar sistemi ilə uşaqlara birgə və səmimi oynamağı, ümumi tapşırıqları yerinə yetirməyi öyrədir, onların kollektivçilik hisslərini zənginləşdirmək və inkişaf etdirməklə, kollektivdə fəaliyyət göstərmə vərdişi tərbiyə edir.

# XI FƏSİL

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏMƏK TƏRBİYƏSİ

**Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin mahiyyəti.** Pedaqoq və psixoloqlar insanın həyatında, onun ləyaqət və xoşbəxtliyinin, bünövrəsinin qurulmasında əməyin mühüm rolu olduğunu dönə - dönə qeyd etmişlər. Qədim Roma filosofu Senekaya görə nəcib ağıllar əməklə cilalanır. Şərqin böyük ədəbi – fəlsəfi abidəsi olan "Avesta"da, müqəddəs "Qurani – Kərim"də əməyə xüsusi əhəmiyyət verilmişdir. Məhəmməd Peyğəmbər deyirdi ki, hər bir insan halal zəhməti ilə dolanmalı, əməklə məşğul olmalıdır. Xalqımızın milli bayramı olan Novruz bayramında da əməyə, əmək nəğmələrinə yer verilmişdir. Həmişə əmək sağlamlıq və gümrahlıq mənbəyi hesab edilir.

Azərbaycanın görkəmli maarifpərvəri Həsən bəy Zərdabi maddi nemətlərin əməyinin bəhrəsi olduğu fikrini inkişaf etdirərək yazırdı: " Fiziki əmək necə deyərlər, xəstəlikləri müalicə edir, şərə qalib gəlir, insanda intibah əmələ gətirir". ("Kaspi" qəzeti, 15 fevral 1990-cı il).

Əmək tərbiyəsinin başlıca vəzifəsi uşaqlarda əməyə düzgün münasibət formalaşdırmaqdan ibarətdir. Əmək tərbiyəsinin xüsusiyyətlərini oyunla, təlimlə müqayisə etdikdə, uşağın yaş xüsusiyyətlərini nəzərə aldıqda məsələ müvəffəqiyyətlə həll oluna bilər. Düzgün mahiyyətə, məzmuna malik təşkil olunan məqsədyönümlü həyata keçirilən əmək tərbiyəsi uşağın şəxsi keyfiyyətlərinin inkişafına müsbət təsir göstərir. Əmək tərbiyəsinin əhəmiyyəti ona görə böyükdür ki, əmək fəaliyyəti orqanizmin həm fizioloji inkişafında, həm də yüksək mənəvi keyfiyyətlərə yiyələnməsində rol oynayır.

Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramında deyilir: "Uşaqlarda işləmək arzusu bacarığı tərbiyə etmək. Əməyin məzmununu genişləndirmək hər bir uşağın əməkdə müntəzəm iştirakını təmin etmək. Verilən tapşırıqları (fərdi, kollektiv) növbətçilik vəzifəsini müstəqil yerinə yetirmək, kollektiv əməkdə,

otağın yaxud sahənin təmizlənməsində fəal iştirak etmək, əməyin nəticələrinə qayğı ilə yanaşmağı öyrətmək" ("Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramları", Bakı 1998, səh.122).

Dahi Nizami Gəncəvi əsərində əməyə və əməkçi insanlara yüksək qiymət vermişdir. O, "Sirlər xəzinəsi" poemasında yaratdığı "Kərpickəsən kişinin dastanı"nda qoca kərpickəsənin dili ilə gənc oğlana deyir:

"Onun üçün öyrətdim ki, əlimi bu sənətə,
Bir gün sənə əl açıb düşməyim xəcalətə".

Uşaq bağçası tərbiyəçiləri uşaqları əməyə, halal zəhmətə alışdırmalı, onları bu ruhda tərbiyə etməlidirlər. Bunun üçün isə klassiklərin əsərlərindən, şifahi xalq ədəbiyyatı nümunələrindən, müasir şair və yazıçıların yaradıcılığından nümunələr gətirməli, uşaqları əməyə məhəbbət ruhunda tərbiyə etməlidirlər.

Komenski məktəbəqədər yaş dövründən başlayaraq uşaqların əməklə məşğul olmasının üstünlüklərindən danışır, onunla əlaqədar müsbət adət və vərdişlər tərbiyə etməyə üstünlük verərək yazırdı:

"Xeyirxahlıq, boşboğazlıq sayəsində deyil, iş görmək nəticəsində inkişaf edir". (Y.A.Komenski, seçilmiş pedaqoji əsərləri, Azərnəşr. 1953, səh.57)

İnsan həyatında əmək elə bir rol oynayır ki, onsuz onun bütün ləyaqəti itmiş olur.

Rus pedaqoqu K.D.Uşinski qeyd edirdi ki, əmək insanın inkişafı üçün zəruri şərt olmaq etibarı ilə, həm də onun layiq olduğu ləyaqətin mühafizəsinin mühüm şərtidir.

K.D.Uşinski daha sonra yazırdı: "Şəxsi əməksiz insan irəliyə doğru hərəkət edə bilməz, o, geri getməlidir. Əmək insan xoşbəxtliyinin zəruri şərtidir".(K.D.Uşinski. Seçilmiş pedaqoji əsərləri, 1, cild, Bakı, "Maarif", 1983, səh.255).

Uşaqların əmək tərbiyəsinə məktəbəqədər yaşlı uşağın ilk dövrlərində başlanılır. Məktəbəqədər yaşlı uşaqların gələcəkdə ləyaqətli şəxsiyyət kimi yetişməsində (məktəbəqədər yaş döv-

rünün ilk dövrlərində) əmək prosesində məsuliyyətli olmaq özünə nəzarət, qarşılıqlı kömək kimi əxlaqi hisslərə yiyələnməsinə şərait yaradır.

**Uşaq bağçasında əmək tərbiyəsinin məqsəd və vəzifələri.** Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin qarşısında yaşlıların əməyi ilə tanışlıq, onların əməyinə hörmət hissinin tərbiyəsi, sadə əmək bacarığının tərbiyəsi, əməyə marağın formalaşdırılması, əməyin fərdi və ictimai xarakter daşıdığının öyrənilməsi və s. məqsədlər qoyulur.

Həyatın ilk ilindən başlayaraq uşaqda paltarının geyinib – soyunması və buna meyl etməsinin əhəmiyyəti böyükdür.

Hərəkətlərin məqsədəuyğun xarakteri, əyani hərəkətə səciyyəvilik verən bu xarakter təqlidetmə əsasında əmələ gəlir. Uşağın təqlid etməsi əvvəldən düşünülmüş xarakter daşıyır. L.Vqodski qeyd edirdi ki, hərəkətin başa düşülməsi təqlidetmə üçün zəmin yaradır, təqlidetmə isə ilk sadə istiqaməətləndirici fəaliyyətin mühüm şərtidir.

Paltarını, ayaqqabısını müstəqil surətdə geyinib soyunmaq, yemək, saçlarını daramaq, nəyi isə təmizləmək istəyən iki yaşlı uşağın hərəkətləri pirimitivdir, lakin olduqca çox əhəmiyyətlidir, əksər hallarda bu hərəkətin yerinə yetirilməsi ilə məqsədə nail olunur. Bu uşağın əmək fəaliyyətinin başlanğıcıdır.

Beləliklə, uşaqlar manipulyativ xarakterli prosessual hərəkətlərdən əşyalarla oyuna keçir ki, bu oyunun da, gedişində o bunları tədricən dərk edir ki, həmin əşyalarla bağlı olan hərəkətlə sadə, lakin artıq şüurda oyanan məqsədə gətirib çıxarır.

Müstəqil hərəkət etməyə ilk cəhdlərdə uşaq şəxsiyyətinin fəallığı, müstəqilliyi, məqsədəuyğunluğu, təşəbbüsü, fiziki qüvvə və əqli gərginlik tələb edir.

Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsinin vəzifələri aşağıdakı kimi qruplaşdırıla bilər:

*Birinci* qrupa yaşlıların əməyinə müsbət münasibət tərbiyəsi, qüvvəsi daxilində onlara kömək etmək səyi, əməyin nəticələrini öyrənmə meylinin tərbiyəsi daxildir. Bu zaman uşaqlarda həyatda əməyin labüdlüyü, yaşlıların ona münasibəti, onun icti-

mai xarakter daşıması, yaxşı işləməyi, ətrafdakılara qayğıkeş, diqqətli münasibət bəsləmə-yin nə demək olduğu haqqında bilik və təsəvvürlərin formalaşdırılması.

*İkinci* qrupa əmək adət və vərdişlərinin yaranmasına, formalaşmasına və onların daha da təkmilləşməsinə, əmək fəaliyyətinin genişlənməsinə, eləcə də səliqəli məharətlə, cəld işləmək bacarığına yiyələnməyə yönəldilən məsələlər daxildir. Uşaqlarda sadə əmək bacarıqları və vərdişlərinin uşaq şəxsiyyətinin formalaşmasında böyük rolu vardır. Uşaq yaşa dolduqca yiyələnmiş olduğu əməkdə prinsipiallıq, məqsədəyönümlük keyfiyyətləri daha da möhkəmlənir. Adət və vərdişlər isə mürəkkəbləşir, yəni işin keyfiyyətinə işgüzarlıq, məharət göstərmək, əmək ləvazimatından istifadə etmək, onları təmiz və səliqəli saxlamaq qabiliyyətləri də inkişaf edir.

*Üçüncü* qrupa uşaqlarda bəzi şəxsi keyfiyyətlərin - əməkdə səy göstərmək adətinin, məsuliyyət hissinin , qayğıkeşliyin, qənaətçiliyin, əməkdə iştirak etməyə hazırlığın tərbiyəsinə yönəldilmişdir.

"Məktəbəqədər müəssisələrin tərbiyə və təlim proqram"ında göstərilir ki, uşaq bağçasının orta qruplarından başlayaraq uşaqlarda əməkdə səy göstərmək adətinin formalaşması məsələsi qoyulur. Bununla əlaqədar orta qrup tərbiyəçisinin üzərinə mühüm vəzifələr düşür. O, 4 – 5 yaşlarında əməkdə səy göstərmək bacarığını formalaşdırır. Beş yaşlılar qrupunda uşaqlara bir qədər də yüksək tələblərin verilməsi ilə bu məsələ mürəkkəbləşir.

*Dördüncü* qrupa özünün və ümumi işin təşkili vərdişlərinin tərbiyəsi aiddir. Uşaqlar əmək fəaliyyəti üçün hər şeyi qabaqcadan hazırlayır, iş tamamlandıqdan sonra isə istifadə edilmiş alətlər təmizlənir və yerinə qoyulur. Beş yaşlılar qrupunda uşaqlar öz işinin planlaşdırılması məsələləri – işin ardıcıllığını planlaşdırmaq, iştirak edənlər arasında vəzifə bölgüsü aparmaq, işdən sonra təmizlik aparmada razılığa gəlmək bacarığı irəli sürülür.

*Beşinci* qrupda əmək prosesində uşaqlar arasında qarşılıqlı münasibətlərin formalaşması məsələləri – kollektivdə ahəngdar və mehribancasına işləmək, bir – birinə köməklik göstərmək, yaşlı-

ların keyfiyyətini qiymətləndirmək, ona hörmətlə yanaşmaq bacarığı tərbiyə olunur.

Əmək tərbiyəsi sayəsində uşaqlarda əməksevərlik formalaşır, müstəqillik, fəallıq, tapşırığın yerinə yetirilməsinə təşəbbüskarlıq tərbiyə olunur. Bütün bunların təşəkkülü isə yaşlıların onlar üçün şərait yaratması ilə bağlıdır. Uşaq bağçasında və ailədə uşaqların münasibətlərindən çox şey asılıdır.

Yüksək keyfiyyətlə aparılan tərbiyəvi işin nəticəsi olaraq uşaqlar bilik, işləmək bacarığı, həm də əməyin nəticəsinə nail olurlar.

Tərbiyəçinin uşağın qarşısına qoyduğu məqsəd və onu həyata keçirmək onun imkanı ilə bağlıdır. 3 yaşlarından başlayaraq uşaqlar öz qarşısına həyata keçirə bilməyəcəkləri məqsəd qoyurlar, nəyi isə etmək arzularını bildirirlər, bunu edə bilib -bilməyəcəklərini fikirləşirlər. Onlar gücləri çatmayan bu və ya digər tapşırıqdan imtina etmirlər. Belə hallar bəzən uşaqda peşmançılıq yaradır. Ona görə də uşaqların məqsədəuyğun fəaliyyətini formalaşdırarkən onlara gücü çatmayan əmək tapşırığı verilməməlidir. Uşaq öz təşəbbüsü ilə iş görmək istəyirsə ona mane olmaq lazım deyil.

Uşaqların əməyində uzaq məqsədlər qoyulmalıdır. Lakin bu məqsədlər uşağın əməyə düzgün münasibətinin formalaşmasında mane olmamalıdır.

Uşaqların əməkdə məqsədyönlülüyünün inkişafı bağça yaşının ilk mərhələlərindən onun birgə fəaliyyətinin formalaşması əhəmiyyətlidir. Uşaq əməyinə məqsədyönlü fəaliyyət kimi baxmaq, onlarda müstəqil olmaq məqsədqoyma və onu yerinə yetirmə qabiliyyətinin inkişaf etdirilməsi vacibdir.

Əməkdə məqsədyönlülük kiçik uşaqlarda özünəxidmətdə özünü büruzə verir. İlk vaxtlar məqsəd uşaq üçün daha konkret olur. 3 – 4 yaşlı uşaqlar tədricən gündəlik işlərində qarşılarına məqsəd qoymağı öyrənirlər. Uşaqların əmək fəaliyyətində, işində yüksək nəticələr əldə etmək cəhdini şərtləndirən motivlər böyük əhəmiyyətə malikdir. Əmək fəaliyyətinin inkişaf motivlərini araşdırmaq olar.

Əməkdə sadə motivlərin başlanması hələlik uşaqların yaşlıların əməyində iştiraka hazırlığın ilk elementidir, lakin bu halda tərbiyəçi və ya valideynin həvəsləndirilməsindən asılı olmayaraq motivləşdirilmə həlledici amilə çevrilir.

Böyük və məktəbəhazırlıq qruplarında əməyin ictimai motivləri müəyyənləşdirilir. Məktəbəqədər yaşlı uşaqlarda motivlə fəaliyyət məfhumları arasında asılılıq yaranır. Uşaqlar nəyi və nə üçün icra edəcəkləri arasındakı əlaqəni görürlər.

6 yaşlılarda müstəqil olaraq məqsəd qoya bilmək qabiliyyəti təşəkkül tapır.

**Əməyin planlaşdırılması.** Əmək fəaliyyətində uşağın şəxsi yaradıcı fəallığı gələcək fəaliyyəti haqqında fikirləri, lazımi materialların seçilməsi, alınması nəzərdə tutulan nəticəni əldə etdikdə əmələ gələn çətinliklərin aradan qaldırılması haqqında düşüncələr əhəmiyyət kəsb edir.

Gələcək əmək fəaliyyətinin qabaqcadan planlaşdırılmasını tərbiyəçi aparır.

Böyük və məktəbəhazırlıq qruplarında planlaşdırmada iştirak edə biləcəklər.

Tərbiyəçi uşaq əməyini planlaşdırarkən görüləcək işin ardıcıl icrasını nəzərə almalı – yəni əvvəl, yəni sonra nəyi edəcəklərini bilməlidir.

Fəaliyyəti planlaşdırmaq bacarığı tədricən məntiqi ardıcıllıqla yerinə yetirilməsi labüd olan sadə hərəkətlərdən başlayır. Məsələn, gəzintiyə getməzdən əvvəl tərbiyəçi uşaqlara qrup otağını səliqəyə salmağı tapşırır. Uşağın hərəkətlərinin planlaşdırılmasına sadə yanaşmalar əsasında başlamaq lazımdır.

Uşaqlar məqsədi başa düşdüklərindən işin yerinə yetirilməsi məqsədəyönlü əmək fəaliyyəti hesab edilir.

Məktəbəhazırlıq qrupunun uşaqları kitabları təmir edərkən əvvəlcə təmirə ehtiyacı olan kitabları ayırırlar. Sonra isə görüləcək işləri müəyyənləşdirirlər. İş prosesi elə qurulmalıdır ki, onun yerinə yetirilməsinin ardıcılığını əvvəlcədən nəzərdə tutmuş olsun.

Görüləcək işləri planlaşdırma vərdişinə yiyələnməyən uşaq fəaliyyətdə olarkən səhvə yol verməklə, həm müəyyən enerji, həm də vaxt itirmiş olur.

Məşğələlərdə planı tərbiyəçi tərtib edir, yalnız yaradıcı xarakterli plan və suallar hazırlanır.

Uşağa öz fəaliyyətini planlaşdırmağı öyrətmək üçün ona nümunə vermək, bu fəaliyyət haqqında onu əvvəlcədən fikirləşməyə alışdırmaq lazımdır. Uşaqlar nədən başlamaq, necə etmək haqqında fikirləşirlər.

Məqsədyönlü və aydın planla aparılan əmək fəaliyyəti uşaqlarda şən əhval – ruhiyyə və maraq yaradır. Onlar fəaliyyətlərində daha səliqəli olurlar.

Uşaq məqsədi dərk etdikdə əməkdə sərbəst və müstəqil olur. Elə də olur ki, uşaq iş prosesində əməyin məqsədini daha aydın dərk etdiyindən vəzifəni müvəffəqiyyətlə yerinə yetirir.

Əməkdə nəticə fəaliyyətin məcburi komponentidir. Uşaq bağçasında uşaqların əməyindən nəticənin alınması heç də əsas deyildir. Yəni uşaq bağçasında əmək fəaliyyəti uşaqlarda əməyə maraq tərbiyə edən pedaqoji amildir. Uşaqların oyun fəaliyyətindən fərqli olaraq əmək müəyyən qədər fiziki və əqli qüvvə tələb edir. Bunun nəticəsi səylərin, bacarıq və vərdişlərin mənimsəmə səviyyəsi ilə bağlıdır. Əməkdə nəticənin əldə edilməsi uşaqlarda prinsipiallıq, hazırcavablıq, yaradıcılıq, ardıcıl fəaliyyətdə olmaq bacarığını tələb edir.

Əməyin nəticəsini görmək uşaqda yüksək əhval-ruhiyyə yaradır. Xüsusilə də fərdi tapşırıqlar yerinə yetirildikdən sonra alınan nəticələr bir – birilə müqayisə olunur, təhlil edilir və obyektiv şəkildə qiymətləndirilir. Nəticənin düzgün qiymətləndirilməsi ona görə daha əhəmiyyətlidir ki, bu zaman onlar öz əməklərinin üstün və zəif cəhətlərini görürlər. Bu isə gələcək əmək fəaliyyətində öz müsbət təsirini göstərməyə bilməz. 3 yaşlıların əməyinin nəticəsinə tərbiyəçi tərəfindən verilən qiymət onların fəaliyyətdə olma marağını, arzusunu da artırır. Tərbiyəçi uşağı qrup yoldaşlarının əmək nəticəsinə diqqət yetirməyə səfərbər edir. Onda daha yaxşı işləmək, daha diqqətli olmaq səyi tərbiyə olunur.

Məktəbəqədər yaş dövrünün son mərhələlərində uşaq əmək fəaliyyətinə həm nəzəri, həm də praktik cəhətdən hazırlaşmaya maraq göstərir.

Əmək fəaliyyətinin motivi uşaqların nəticələrə nail olmaq cəhdinin inkişafında əhəmiyyətli rola malikdir.

Məsələn, kiçik yaşlılar üçün oyuncaqların (bir neçə) təmiri onlarda əmək fəaliyyətinə olan marağı azaldır, onu məqsədyönlü edir.

Arzu olan nəticəyə nail olmaq meyli onun fəaliyyət motivinə çevrilir.

Məktəbəqədər böyük yaşlı uşaqlar oyuncaqları təmir etməklə, yaxud düzəltməklə onlarda əməyə münasibət dəyişir, onun keyfiyyətinə, qiymətləndirilməsinə şəxsi münasibət dəyişir.

Uşaq kollektivinin müvəffəqiyyəti motivdən asılıdır. Əməkdə ictimai motivə tabe olan sərbəst davranışın formalaşması uşağın əməyə münasibətini dəyişdirir. Belə olduqda əmək uşağa sevinc gətirir, müsbət emosiyalar yaradır.

Yadda saxlamaq lazımdır ki, uşaqlardan əməkdə yüksək keyfiyyətli nəticə əldə etməkdə tələskənliyə yol vermək olmaz, onların qüvvə və formalaşmaqda olan vərdişlərinə əsaslanmaq lazımdır. Uşaqlara işi dəfələrlə gördürmək lazım deyildir.

Əmək fəaliyyətində uşaq nəticə əldə etmişsə, uşağın onu dərk etməsi vacibdir. Belə halda uşaq gələcək fəaliyyətində daha sürətlilik, iş prosesindən yayınmamaq, xatırlanılmadan işi başa çatdırmaq, nəticəni daha yüksək səviyyədə görmək kimi istəklərə malik olur.

Nəzərdə saxlanılmalıdır ki, kömək istənilən bütün nailiyyətlərin əsasında fəaliyyətin ədalətli qiymətləndirilməsidir. Əgər uşaq əmək fəaliyyətindən müvəffəqiyyət qazanmış olsa belə, ona ehtiyatla müraciət etmək, situasiyalardan istifadə etmək lazımdır.

**Məktəbəqədər yaşlı uşaqların əməyinin növləri.** Məktəbəqədər yaşlı uşaqların əməyinin növləri özünün pedaqoji və fiziopsixoloji imkanlarına görə müxtəlifdir.

Uşaq əməyinin əhəmiyyəti, məzmunu, təşkili formaları və onlara rəhbərlik bu və ya digər yaş mərhələsində dəyişir. Belə ki, kiçik yaş qruplarında eyni əmək növü (özünəxidmət) aşılanmağa – tərbiyə edilməyə başladığı ilk günlərdən tərbiyəvi əhəmiyyət daşıyır, onlarda əxlaqi iradi keyfiyyətlərin təşəkkülünə imkan və şərait yaradır. Məktəbəqədərin yuxarı yaş qruplarında isə həmin əmək fəaliyyəti uşaq tərəfindən avtomatlaşmış şəkildə, yəni şüurda gərginlik tələb etmədən icra edilir.

Məktəbəqədər yaşlı uşaqların özünəməxsusluğa malik olan əmək fəaliyyətinin növləri bunlardır: özünəxidmət əməyi, yaşlıların təsərrüfat – məişət əməyində uşaqların iştirakı, yaxud təsərrüfat – məişət əməyi, təbiətdə əmək və əl əməyi.

*Özünəxidmət əməyi.* Özünəxidmət əməyi məktəbəqədər yaşlı uşaqlarda şəxsi tələbatın ödənilməsinə yönəldilən fəaliyyətlərdir. Kiçik məktəbəqədər yaşlılarda əmək özünəxidmətdən başlayır. Əl-üzünü yumaq, geyinmək, soyunmaq, onun otağını, yatağını səliqəyə salmaq, müstəqil olaraq əməyi və bu vaxt səliqəni gözləməyi bacarmaq və s. bu kimi əmək bacarıqları yaratmaq və tədricən onu vərdişə çevirməyi, tərbiyə etməyi nəzərdə tutur. Uşaqların özünəxidmət prosesində əldə etdiyi bacarıq və vərdişlərin böyük tərbiyəvi əhəmiyyəti vardır.

Tərbiyəçinin uşaqlarda özünəxidmət əməyinin başlıca vəzifəsi onlara bu fəaliyyətin əhəmiyyətini dərk etdirməkdir. Özünəxidmət əməyində uşağın qarşısında aydın məqsəd qoyulmalıdır.

Əmək tərbiyəsi pedaqoji proses olduğundan düzgün təşkil olunduqda uşaqların lazımi bilik, bacarıq və vərdişlərə yiyələnməsi sürətli və asan olur.

Özünəxidmətin tərbiyəvi əhəmiyyəti kimi qeyd olunmalıdır ki, bu zaman uşaq onun həyati zəruriliyini, gündəlik şəxsi tələbatının ödənilməsinə yönəldilən fəaliyyət olduğunu dərk edir, qiymətləndirir. O, hər gün müəyyən əmək elementlərini şüurlu olaraq yerinə yetirir, hər bir insan gündəlik həyati tələbatını

ödəmək üçün əməkdə olmalıdır. Belə bir psixoloji hal da vardır ki, uşaq üzərinə düşən əmək vəzifəsini yerinə yetirərsə, özünü cəmiyyətin – ailənin hüquqi üzvü hesab edir. Bu yolla onlar həm də özünə qayğını hiss edir və onun qədrini bilir.

Özünəxidmət – orqanizmin gigiyenik təmizliyi geyim şeylərinin və yatağının səliqəliliyinə qayğı, bunun üçün lazım olan işi görmək və kənardan tələb olunmadan daxili tələbata görə hazırlıq, gigiyenik qaydalara riayət etmək deməkdir.

Uşağın qarşısında özünəxidmətlə əlaqədar konkret və zəruri məqsəd qoyuldu-ğundan onun yerinə yetirilməsinə də dəqiq nail olunur. Nəticə olaraq uşaq gələcək fəaliyyəti üçün də istiqamət alır.

Həyatının üçüncü ilində özünəxidmətlə əlaqədar hər bir proses maraqlı və cəlbedici olub, onları fəaliyyətə səsləyir. Uşaq ayaqqabılarını geyinir, bağlarını düzgün bağlayır, paltarlarının düymələrini bağlayır, bu zaman onun diqqəti həqiqi prosesə cəlb olunur.

Həyatının dördüncü ilində (orta qrup) əmək prosesində özlərini tamam başqa cür aparırlar. Əgər kiçik qrup uşaqları üzərlərinə düşən işləri sakit, yan-yörəsinə diqqət vermədən aparırdılarsa, bunlar bir – biri ilə söhbətlər aparır. Onlar fəaliyyətlərində nisbətən sərbəst olurlar.

Günel ayaqqabılarını geyinir, yanında oturan Günay şərfinin yerə düşdüyünü görür və onu məsələdən hali edir. O, inamla sərbəst hərəkət edir.

Həyatının beşinci ilində uşaqlar özünəxidmətdə nəinki sərbəst olurlar, həm də əməkdə cəld və çevik olurlar.

Həyatının altıncı ilində uşaqla tanış olaraq özünəxidmət vərdişlərinə yiyələn-miş olurlar.

**Uşaqlarda özünəxidmət vərdişlərinin formalaş dırılması metodları.** Özünəxidmət tərbiyəsinin nəticələri onun təşkilindən, aparılmasından və pedaqoji rəhbərliyin necəliyindən asılıdır. Məktəbəqədər müəssisələrdə tərbiyəçilər, ailədə isə valideynlər hər bir uşağı özünəxidmətə dəvət etməli, onların hər birinə eyni tələbkarlıqla yanaşmalıdırlar. Lakin həmin vəzifələr tədricən

mürəkkəbləşməlidir. Əməyin bu növü məktəbəqədər yaşlı uşaqlar üçün tərbiyə vasitəsidir. Uşağın əmək vərdişlərinə yiyələnməsi onlarda müsbət keyfiyyətlərin, o cümlədən qənaətçilik, səliqəlilik, müstəqillilik, əməksevərlik, fəallıq və s. keyfiyyətlərin tərbiyəsinin nəticəsidir.

Özünəxidmət vərdişlərinin formalaşmasının əsas metodu hər bir adi hərəkətin və onun ardıcıllığının yerinə yetirilməsini göstərməkdir. "Bir bax Günel, əl – üzümü necə yuyuram. Əvvəlcə qollarımı çirmələyirəm, sonra əllərimi isladıram. Bax belə" – deyərək tərbiyəçi öz hərəkətlərini izahatla müşayiət edir. Hərəkətin yerinə yetirmə üsulu ilə uşaqların tanışlığı hər bir hərəkətin və onun ardıcıllığının göstərilməsini və izahatını tələb edir.

Özünəxidmət vərdişlərinin necə aşılanmasının səmərəliliyi tərbiyəçinin digər tərbiyə vasitələrindən də eyni ardıcıllıqla istifadə etməsini tələb edir. Lakin nəzərə alınmalıdır ki, özünəxidmət vərdişləri də digər vərdişlər kimi birdən – birə deyil, tədricən təşəkkül tapır.

Özünəxidmət vərdişlərinin formalaşmasının müəyyən mərhələsinə çatdıqda tədricən ətraflı şifahi izahatlara keçiddən istifadə olunur. Belə izahatlar uşaqların mənimsəmiş olduqları və yiyələnməkdə olduqları vərdişlərin möhkəmləndirilməsinə xidmət edir. Uşaq hərəkətlərində özü üçün bir daha dəqiqlik yaradır, onda fikri fəallıq və təşəkkül tapır.

Uşaqlarda özünəxidmət üzrə vərdişlərin möhkəmləndirilməsində ümumi xatırlatma metodundan istifadə olunur. Tərbiyəçi bu metoddan uşaqların özünəxidmət fəaliyyətini, səmərəliliyini təmin etmək məqsədilə istifadə edir. Bu metoda keçmənin zəruriliyi bəzən uşaqlarda nəzərdə tutulan vərdişlərlə bağlı dəyişikliklərin olmasıdır. Özünəxidmətlə əlaqədar prosesə rəhbərliyin metodlarının seçilməsində uşaqların qarşısına qoyulmuş vəzifələri yerinə yetirmə vəziyyəti nəzərə alınır. Tapşırıq uşağa tanış deyilsə, yaxud az tanışdırsa, izahat və praktik nümayiş metodlarından istifadə olunur.

Tərbiyəçi uşaqların özünəxidmət işinin nəticəsi ilə daima maraqlanmalıdır. Həmin prosesdə onların düzgün tərbiyəsinə nail

olmaq üçün nəticələrin səviyyəsi aydınlaşmalıdır, qüsurlar olmuşsa aradan qaldırılmalıdır. Tərbiyəçi uşaqların özünəxidmətlə əlaqədar fəaliyyətinə onun əldə etdiyi nailiyyətləri və hələ nəyin pis olduğunu qeyd etməlidir.

Özünəxidmət mürəkkəb fəaliyyət deyil, lakin dəqiq təşkil etmə tələb edən işdir. Bu proses (əmək) şəxsi tələblərin ödənilməsi ilə bağlı vəzifələrin yerinə yetirilməsində uşaqların gündəlik və uzunmüddətli iştirakı tələb olunur.

Uşaq bağçasında və ailədə özünəxidmət üzrə fəaliyyətin müvəffəqiyyətli nəticə verməsinin başlıca şərti işin vaxtında görülməsi və keyfiyyətin nəzərə alınması başlıca şərtidir.

Uşaqların özünəxidmətinin təşkilində və aparılmasında valideyn və pedaqoji kollektivin fəaliyyətində vahidlik gözlənilməlidir.

Yaş qruplarından asılı olmayaraq özünəxidmətin təşkilində rejimin nəzərə alınması, maddi mühitin yaradılması vacibdir.

Gigiyenik tələblərin nəzərə alınması da özünəxidmət fəaliyyətinin təşkilinin başlıca şərtidir.

**Təsərrüfat – məişət əməyi.** Həyatın ikinci ilindən başlayaraq uşaqlar yaşlıların təsərrüfat – məişət əməyində iştirak edirlər. Bu əmək prosesində tipik həyat situasiyaları yaranır. Uşaqlarda hərəkətlərin ahəngdarlığı, düzgün işgüzar münasibətlər yaratmaq bacarığı, mütəşəkkillik, tək özü üçün deyil, həm də başqaları üçün işləmək arzusu tələb olunur. İşlərin yerinə yetirilməsi xüsusi emosional əhvali – ruhiyyə, əməksevərlik, xeyirxahlıq, prinsipiallıq, kollektivçilik kimi keyfiyyətlər tərbiyə edir. Bu əmək uşaqlarda əmək mədəniy-yətinin elementar vərdişlərinin, fərdi və kollektiv işin səmərəli təşkilidir. Onun qabaqcadan planlaşdırılması, tapşırığın yerinə yetirilməsi üçün materialın seçilməsi, işi vaxtlı-vaxtında icra etmək meylinin tərbiyəsi üçün imkanlar açır.

Təsərrüfat – məişət əmək növündə uşaqların iştirakı uşaq bağçasında və ailədə daima imkan vardır. Bu prosesdə uşaqların səmərəli olacaq fəaliyyət göstərməsi yaşlıların iştirakı və müdaxiləsi ilə baş verir.

Təsərrüfat və məişət əməyinin elementar vərdişlərini formalaşdırmağa nail olmaq üçün tərbiyəçinin aşağıdakı şərtləri bilməsi mühümdür.

1. Şəraitin yaradılması və əmək prosesinin müntəzəm keçirilməsi. Nəzərə alınmalıdır ki, eyni şəraitdə hətta müəyyən fasilədən sonra belə işin təkrarlanması vərdişlər tərbiyə etməyə imkan verir. Uşağın fəaliyyətini istiqamətləndirir.

2. Tərbiyəçinin əməyə münasibəti ilə, əməksevərliyi ilə, işgüzarlığı ilə, işə olan marağı ilə, əməkdə mütəşəkkillik göstərməsi ilə nümunə olması.

Tərbiyəçi uşaqlara təklif etdiyi işi özü yüksək səviyyədə icra etməlidir. Uşağın əməyinin nəticəsini, onu keyfiyyətlə icrasına sərf olunan vaxtı nəzərə almaqla ədalətli qiymətləndirilməlidir. Tərbiyəçi qrupda uşağın əmək fəaliyyətinə xeyirxah nəzarət və əmək məhsullarına ehtiyatlı münasi-bəti onlara hiss etdirməlidir.

3.Qrupdakı hər bir uşağın əmək fəaliyyətinə yüksək əhval – ruhiyyə ilə çalışmasına verilən tələblərdə vahidlik gözlənilməlidir. Yaşlıların uşaqlara vahid, həm də davamlı tələbləri zəruridir.

Uşaqların təsərrüfat – məişət əməyində iştirakının təşkili metodikasını uşaqların yaş və inkişaf xüsusiyyətlərinə müvafiq olaraq müəyyənləşdirmək məqsədə müvafiqdir.

Uşaq bağçasının hər bir yaş qruplarında uşaqların təsərrüfat - məişət əməyinə cəlb etmək üçün ancaq izahat və göstərmədən istifadə edilmir. Həm də yeri gəldikcə onlara köməklik də göstərilir. Müntəzəm aparılan tərbiyə işi sayəsində bu və ya digər əmək fəaliyyəti vərdiş halına keçir.

Təsərrüfat – məişət əməyində iştirak üçün zəruri olan hərəkətlərin formalaş-masında oyun məşğələlərindən, oyun təmrinlərindən istifadə edilir. Uşaqların əməkdəki müvəffəqiyyətini qeyd edərkən o, həvəsləndirilmiş olur. Həvəsləndirmə isə onda şən əhvaliruhiyyə yaradır.

Yaşlıların əməyi ilə tanışlıq uşaqların əmək tərbiyəsində əsas rol oynayır. Bu məqsədlə tərbiyəçi xüsusi müşahidələr təşkil

edir. Uşaqların diqqəti tərbiyəçi kömək-çisinin (xadimənin) gördüyü işə cəlb edir. Uşaqları gördükləri haqqında danışmağa cəlb edir.

Dörd yaşlılar qrupunda tərbiyəçi uşaqların diqqətini yaşlıların – aşbazın, xadimənin əməyinə cəlb etməklə onlarda gücləri çatacaq dərəcədə iştirak etmək səyi tərbiyə edir. Kiçik qruplara nisbətən tərbiyəçi burada uşaqlara məşğələlər üçün material hazırlamağı təklif edir.

Onlar aşbaza bəzi köməklər edirlər. Həmçinin süfrəni düzəltməkdə tərbiyəçi köməkçisinə köməkliklər (qaşıqları, salfetləri, çörəkqabını düzmək, yeməkdən sonra süfrənin yığışdırılmasında iştirak) edirlər. İşin metodikası əsasən əvvəlki qrupda olduğu kimi qalır. Lakin burada uşaqlara qismən çox müstəqillik verilir.

<u>Həyatın beşinci</u> ilində əvvəlki yaşlılardan fərqli olaraq uşaqlar qarşılarına "ən sadə" məqsəd qoymaq və onu kollektiv surətdə yerinə yetirmək nəticəni gördükdə sevinc hissi keçirmək imkanlarına malikdirlər. Kollektiv əməyin nəticəsini gördükdə hər bir uşaq birgə iş prosesinin özündən də həzz almalıdır, yoldaşlarına mane olmadan əlbir iş əməyi öyrənilməlidir.

Beş yaşlı uşaqlarda da qeydi – ixtiyari diqqət üstünlük təşkil etdiyindən ilk vaxtlarda yerinə yetirə bilmələri üçün eyni əmək tapşırığı verilməlidir. Həm də bu tapşırıqlar asan və az vaxt tələb edən olmalıdır. Uşaqlar ilk dəfə iş gördükləri materiallara böyük maraq göstərirlər. Onların böyüklüyü, kiçikliyi, rəngi, çəkisi (ağır və ya yüngül) ilə, bərk və boş olması ilə maraqlanırlar. Həyatının beşinci ilində orqanizmin ümumi inkişafı onun əmək fəaliyyətinin daha da mürəkkəbləşməsinə şərait yaradır. Onlar fəaliyyətlərini məqsədəuyğun şəkildə istiqamətləndirirlər. Onlarda davranışların mürəkkəb motivləri formalaşır. Ona görə də böyük qrup uşaqlarının əməyi daha da məzmunlu olur. Onlar əməkdə daha müstəqil və daha fəal fəaliyyət göstərirlər. Bu qrupda uşaqlarda özünəxidmət əmək fəaliyyəti kimi öz yerini saxlamaqla bərabər onların təsərrüfat – məişət, təbiət və əl əməyi istiqamətlərdə də əmək fəaliyyəti müəyyən xətt üzrə inkişaf edir.

Uşaqların əldə etdikləri sadə vərdişlər möhkəmləndirilir. Hər bir uşağın yiyələndiyi vərdişlər bütün qrup üçün də aydın olur. Ümumi işin sonu yəni tamamlanması müsbət hal kimi uşaqların diqqətinə çatdırılır. Başlanmış işi axıra çatdırmaq üçün şüur və iradi səy əlamətlərinin təşəkkülü kimi qiymətləndirilə bilər. Uşaq əmək tapşırığını yerinə yetirərkən onun əxlaqi və estetik tərəflərinə də diqqət yetirilir. Onda öz əməyinə estetik münasibət yaranır.

Beş yaşlılar otaq bitkilərinə su verməkdən, təbiət və oyuncaq guşəsini yığışdırmaqdan zövq alırlar.

*Həyatının altıncı ili (məktəbəhazırlıq qrupu)*

Məktəbəhazırlıq qruplarında uşaqların əməyi həm məzmunca, həm də keyfiyyətcə dəyişir. Belə ki, yerinə yetiriləcək əmək tapşırıqları məzmunca geniş və nisbətən (əvvəlki qruplara) mürəkkəb olur.

Altı yaşına qədəm qoyan uşaqların əmək tərbiyəsində təsərrüfat – məişət əməyi daha çox yer tutur.

Uşaqlar nahar vaxtı süfrənin hazırlanmasında, qab – qacağın və üçüncü yeməyin paylanmasında dayəyə kömək edir. Məşğələyə hazırlıqda və sonra (material və vəsaitlərin yığışdırılmasında) tərbiyəçiyə kömək edirlər.

Məktəbəhazırlıq qrupunun uşaqlarının təsərrüfat – məişət əməyi kollektivdə daha çox aparılır ki, bu da onu məzmunlu edir. Bu əməkdən əxlaqi keyfiyyətlər tərbiyəsində də istifadə olunur. Belə ki, onda yaşlıların əməyinə hörmət, onu qiymətlən-dirməklə, onun zəruriliyi haqqında təsəvvürlər formalaşır. Kollektiv fəaliyyət prosesində qarşılıqlı münasibətlər möhkəmlənir.

Məktəbəhazırlıq qrupunun uşaqlarının təsərrüfat – məişət əməyinə cəlb edilməsində tərbiyəçinin hər hansı bir işi bir neçə uşağa verdiyi tapşırıqlar mühüm rol oynayır.

Tərbiyəçi uşaqlarda özünütəşkil vərdişləri tərbiyə etməkdə əmək tapşırıqları vermədən, onların nəticəsini müzakirə edib, işi necə təşkil etmək, nələrdən istifadə (həm də necə) etmək, işi

nədən başlayıb, nədə qurtarmaq haqqında fikirləşmək bacarığı tərbiyə edir.

Məktəbəhazırlıq qrupunda təsərrüfat – məişət əməyi ilə bağlı işin metodikası müxtəlif istiqamətdə gedə bilər. İctimai əhəmiyyətli, kollektiv əmək fəaliyyəti və tapşırıqların, növbətçilik vəzifələrinin, ətrafdakılara faydalı olan fəaliyyət məqsədinin həyata keçirilməsi ilə bağlı işlərin yerinə yetirilməsi vasitəsilə həyata keçirilir.

Uşaq bağçasında uşaqların təsərrüfat – məişət əməyində iştirakı yeknəsək olduğundan uşaqlardan səbr, əmək səyi, gündəlik özünənəzarət tələb edir.

Bu kimi cəhətləri nəzərə alaraq tərbiyəçi uşaqlarda təsərrüfat – məişət əməyinə müsbət emosional münasibət tərbiyə etməlidir. Uşaq təsərrüfat – məişət əməyinə qoşularkən onun hamıya lazım olduğunu bilməlidir.

V.A.Suxomlinski qeyd edirdi ki, təsərrüfat – məişət əməyini kollektivin, ətrafdakıların estetik və mənəvi tələbatlarına tabe etməklə, onun zəruriliyinə inam, ona qarşı şüurlu münasibət formalaşdırmaq olar.

Məktəbəhazırlıq qrupunun uşaqları təsərrüfat – məişət əməyində olarkən faydalı – praktik vərdişlərə yiyələnirlər. A.S.Makarenko demişdir: "Bir çox şeyi bacaran, hər şeyin öhdəsindən gələn, hər bir şəraitdə özünü itirməyən adamların, necə şən və xoşbəxt yaşadığını bilirik. Əksinə, öz – özünə xidmət göstərə bilməyən gah dayəyə, gah da dost xidmətinə, gah da köməyə ehtiyacı olan adamlar təəssüf doğurur, heç kəs kömək etmədikdə isə onlar narahat şəraitdə səliqəsiz, çirkli, özlərini itirmiş kimi yaşayırlar". (A.S.Makarenko. Seçilmiş pedaqoji əsərləri IV cild, səh.397).

Tərbiyəçi uşaqların diqqətini başqaları üçün görülmüş işin dəyərinə, əhəmiyyətinə cəlb edir. İşin əvvəlində tapşırığın yerinə yetirilməsinin zəruriliyi uşaqlara başa salınır. Dəqiq qoyulmuş ictimai əhəmiyyətli məqsəd onları fəallaşdırır və əməyə olan münasibətlərini inkişaf etdirir. Məktəbəhazırlıq qruplarında (əvvəlki qruplarında olduğu kimi) əməyə maraq tərbiyəsi öndə durur.

Uşaqların təsərrüfat – məişət əməyinin tərbiyəsində də tərbiyəçinin ciddi rəhbərliyi və pedaqoji faktdan istifadə qabiliyyəti tələb olunur. Tərbiyəçi rast gələn hər bir səhvin qarşısını almalıdır. Uşaqları həvəsləndirmədən istifadə etməlidir. Bu uşağa sevinc gətirir, hazırlıq hissi yaradır. O, özünü bacarıqlı, müstəqil və əsl köməkçi kimi hiss edir.

**Uşağın təbiətdə əməyi.** Uşaq öz əməyinin yaxşı nəticələrdən zövq alır, onda canlı varlıqlara qarşı maraq yaranır. Tərbiyəçinin vəzifəsi uşaqların təbiəti fəal surətdə dərk etməsi və onun kiçik sahibləri olması üçün onların marağından bacarıqla istifadə etməkdən ibarətdir. Uşaqların təbiətdə əməyi təlim – tərbiyə müəssisələrinin nəzərə alınması ilə yerinə yetirilir.

Uşaqların təbiətdə əməyi onların fiziki inkişafı üçün mühüm şərait yaradır. Təbiətdə əmək uşağın hərəkətlərini kamilləşdirir, ayrı – ayrı orqanların funksiyasının inkişafına şərait yaradır, əsəb sisteminin fəaliyyətinə müsbət təsir edir. Təbiətdə əmək uşağın dünyagörüşünü genişləndirir, sensor tərbiyəsində, əqli inkişafında əsas rol oynayır. Onlarda araşdırıcılıq qabiliyyəti tərbiyə edir. Bitki və heyvanlara qulluq edərkən uşaqlar onların əlamət və xüsusiyyətlərini öyrənirlər, onlarda təbiətin əşya və hadisələrini araşdırmaq, bununla da onların oxşar və fərdi cəhətlərini müşahidə və müqayisə etmək, ümumiləşdirmələr aparıb, əqli nəticələr çıxarmaqda onlarda qabiliyyət formalaşmağa başlayır.

Uşaqlar torpaq, əmək materialları, əmək prosesləri, əmək alətləri haqqında fikirləşə bilirlər. Canlı təbiətdə əmək fəaliyyətindəki uşaq əyani surətdə canlı orqanizmlərin (bitki, heyvan, quş...) nəyə tələbatları olduğunu öyrənirlər. İnsanlar üçün isə təbiətin maddi nemətlər verən varlıq olduğunu öyrənirlər. Onlar dərk edirlər ki, su, bitkilər, eləcə də bütün həyatı varlıq üçün qida mənbəyidir. Təbiətdə olan hər bir orqanizm mühitdən asılıdır. Uşaqlar hər bir canlı orqanizmin mühitdən aldığı əsas qidadan məhrum edilərlərsə, onlar arasında artım və inkişaf baş verməz.

Təbiətdə əmək – kollektiv iş, uşaqları birləşdirir, onlarda əməksevərlik tapşırılmış işə görə məsuliyyət hissi tərbiyə edir, onlarda şən əhvali-ruhiyyə əmələ gətirir.

Uşaqların təbiətdə əməyi – müşahidəçilik tərbiyə edir. Onlarda şəxsi əmək bacarıqları yaranmağa və formalaşmağa başlayır.

Uşaq bağçasının kiçik qruplarında uşaqlar yaşlıların təbiətdəki əməyini müşahidə edir, tərbiyəçinin köməyi ilə ev quşlarına dən atırlar. Kiçik məktəbəqədər yaşlı uşaqlar canlı guşədə saxlanılan ev heyvanlarını, quşları, dovşanı maraqla müşahidə etməklə, onların haqqında nə isə öyrənməyə səy göstərirlər.

*Orta qrup* (dörd yaşlılar) uşaqların əmək tərbiyəsi ilə əlaqədar vəzifələr bir qədər mürəkkəbləşmiş olur. Bunlar ancaq yaşlıların əməyini müşahidə etmirlər, özləri də bu işdə çox sadə şəkildə iştirak edirlər. Tərbiyəçinin köməyi ilə otaq bitkilərinə su verilir, yarpaqların tozunu (yaş dəsmalla) silirlər.

Həyatının beşinci ilində uşaqlar tədricən bitkilərin böyüməsində hava, su və günəşin olmasının vacibliyini dərk edirlər.

*Böyük qrup* (beş yaşlılar) uşaqların təbiətlə və əməklə əlaqədar tərbiyəçinin qarşısında duran vəzifələr məzmunca mürəkkəbləşmiş olur. Uşaqlar yenə də yaşlıların əməyini müşahidə edirlər, lakin fəaliyyətlərində nisbətən müstəqil və təşəbbüskar olurlar. Tərbiyəçinin nəzarəti altında bağçayanı torpaq sahəsində, canlı təbiət guşəsində həm fərdi şəkildə, həm də kollektivdə sadə əmək tapşırıqlarını yerinə yetirirlər. Qışda yollardan qarı təmizləyir, qışlayan quşları yemləyir, təbiət guşəsinin sakinlərinə qulluq edirlər. Ancaq tərbiyəçinin təşəbbüsü ilə deyil, öz arzuları ilə əmək fəaliyyəti göstərirlər. Ən başlıcası da budur ki, onlar işin keyfiyyətini və ona sərf olunan vaxtın az olmasına da diqqət verirlər.

Məktəbəhazırlıq qrupuna daxil olan uşaqların inkişaf xüsusiyyətlərindən biri də onların təbiətdə əməyin məzmununun mürəkkəb və çoxcəhətli olmasıdır. Altı yaşlıların təbiətdə əməyinin öz xüsusiyyətləri vardır. Bu əmək növü gücləri çatan məhsuldar əməkdir.

Məktəbəhazırlıq qruplarında məktəb təlimində səliqəli hazırlaşma əmək fəaliyyətinin düzgün təşkili ilə bağlıdır. A.S.Makarenko demişdir ki, yalnız işin yaxşı təşkili zamanı uşaq əmək-

dən ləzzət ala bilər. Bu qrupda xüsusi olaraq əmək məşğələləri keçirilir.

Məşğələ formasında aparılan fəaliyyət proseslərində və xüsusi təşkil olunmuş gündəlik həyatda da uşaqlarla əmək tərbiyəsi aparılır. Tərbiyəçi işin gedişində uşaqlara biliklər də verir. Məsələn, bitkilərə qulluq etməyi uşaqlara öyrədərkən, onlarda əməksevərlik tərbiyə edərkən tərbiyəçi tədricən bitkilərin qurumaması üçün qulluğun əhəmiyyətini izah edir. Bu proses özündəcə birgə kollektiv əməkdən, onun əhəmiyyətindən daima alınan şifahi məlumatları praktik işlə əlaqələndirmək lazımdır.

Uşaqların əmək tərbiyəsinin səmərəli nəticələnməsi üçün onlara fərdi və qrup formasında tapşırıqlar verilməsindən və təşkilindən istifadə edilməsidir. Bu tapşırıqlar vəzifənin konkret olaraq yerinə yetirilməsinin və həm də onların mahiyyətini şüurlu surətdə dərk edilməsidir.

Uşaq bağçasının sahəsində və təbiət guşəsində aşağıdakı əmək prosesləri nəzərdə tutulur:

a) müstəqil olaraq quş və heyvanları yedizdirmək, yerlərinin təmizlənməsi;

b) xırda heyvanları yedizdirmək üçün yemin hazırlanması (kök, göyərti və s.) ;

c) akvariumda suyun dəyişdirilməsində iştirak etmək;

d) otaq bitkilərinin suvarılması və yarpaqlarının tozunun silinməsi;

e) torpağın yenidən bellənməsi, cərgə və ləklərin düzəldilməsi;

f) bostan və bağda məhsul yığımında yaşlılara kömək etmək.

**Əl əməyi.** Uşaq bağçasının böyük qruplarında oyuncaq düzəltmək və sınmış oyuncaqların düzəldilməsi əmək tərbiyəsinin məzmununa daxildir. Əl əməyi uşaqlar qarşısında geniş yaradıcılıq imkanları qoyur. Uşaqlar əl əməyi ilə məşğul olarkən ətrafdakı əşyalar haqqında təsəvvürləri daha da dəqiqləşdirir, müstəqil olaraq yaradıcı əməkdə iştirak edirlər.

Uşaqlar əl əməyi ilə məşğul olarkən həm də faydalı əməli vərdişə yiyələnir, öz imkanlarını qiymətləndirmək bacarığı, işi mümkün qədər daha yaxşı yerinə yetirmək meyli formalaşır. Uşaqlar bəzi alətlərlə tanış olur, əmək materialına və alətlərinə ehtiyatla yanaşmağı öyrənirlər.

Əl əməyində parça, kağız və s. materiallardan istifadə olunur. Bu materiallar ilə uşaqlar böyük biliksevərlik və fəallıq göstərirlər. Lakin bəzi hallarda uşaqların işləmək arzusu, onların imkanları ilə düz gəlmir. Buna görə tərbiyəçi əsasən diqqəti üç cəhətə: təbii olaraq daha keyfiyyətli nəticə almaq imkanı yaradan müxtəlif materiallar və alətlərlə işləmək vərdişini və bacarığın formalaşmasını; bu vərdişlərin müstəqil tədqiqinin tezliyinə və sistematik olmasına; bu işlərin ictimai zərurilik növlərinin formalaşmasına və istifadəsinə yönəldir. Məsələn, tərbiyəçi sadə təsəvvürlər üçün qutunun nümunəsini göstərir. Bu uşaqlarda əmək fəaliyyətində olmaq istəyi yaradır.

Böyük qrup uşaqları əmək məşğələlərində kiçiklər üçün müəyyən balaca qutular düzəldirlər. Yolkanı bəzəmək üçün (əldə qayırma) oyuncaqlar düzəldirlər.

Məktəbəhazırlıq qrupunun uşaqları əmək fəaliyyəti prosesində aşağıdakı istiqamətlərdə və materiallarla işlər aparırlar.

*Ağaçla iş:* çəkic, kəlbətin, yastı ağac, fırça və rənglərdən istifadə vərdişlərini öyrədirlər. Bu məşğələlərdə nəyinsə hazırlanması tərbiyəçinin rəhbərliyi altında aparılır.

*Karton və kağızla iş:* uşaqlar qatlamağı, yapışdırmağı, biçim üzrə kəsməyi bilməlidirlər.

Tərbiyəçinin rəhbərliyi altında olan şitil əmək üçün kiçik stəkanlar, parça və kağızdan kiçik qutular düzəldir, təmirə ehtiyacı olan oyuncaqları və kitabları təmir edirlər.

*Parça ilə iş:* uşaqlar iynə saplamağı, düyün vurmağı, qayçıdan istifadə etməyi, biçim üzrə parça kəsməyi bilməlidirlər. Onlar düymə, asqı tikməyi, toxum saxlamaq üçün kiçik kisələr tikməyi bacarmalıdırlar.

*Təbii materiallarla iş:* uşaqlar liflər, otlar, qozalar və s. materiallardan müxtəlif fiqurlar (gəmiciklər, heyvan fiqurları və s.) düzəltməyi bacarmalıdırlar.

Oyuncaqların və bəzi əşyaların hazırlanması üzrə uşaqların əməyi, uşaqların bilavasitə marağı və tələbi ilə əlaqədar olub xüsusi əhəmiyyəti vardır. Uşağın özü üçün lazım olan nə isə düzəltməsi ətrafdakı yaxın adamlarına hədiyyə hazırlaması onun üçün çox maraqlıdır. Oyuncaqların hazırlanması və təmiri üzrə aparılan məşğələlər tərbiyəçi uşaqlarda yaradıcı fəallığı, səmimi yoldaşlıq və kollektivçilik hissi tərbiyə edir.

Konstruktiv fəaliyyətdə şəxsi fikrin həyata keçirilməsinə müvafiq olaraq planlaşdırmanın ilk əlamətləri yaranır və zəruri əmək qabiliyyətləri: öz qarşısına məqsəd qoymaq, onu həyata keçirmək üçün vasitə tapmaq, çətinliyi aradan qaldırmaq bacarığı inkişaf edir. Əməyin bu növü tez başa düşməyin, texniki zehnin, yaradıcılığın inkişafı üçün geniş meydan açır, lakin üsul və vasitələr sistematik öyrənməyi tələb edir ki, bu öyrənmə prosesində uşaqlar materialların keyfiyyəti ilə tanış olur, onlarla rəftar etməyi öyrənirlər.

Konstuktiv əməyin düzgün təşkil edilməsi üçün oyun saatlarında uşaqların ixtiyarına müxtəlif materiallar vermək lazımdır. Oyunun gedişində uşaqlar nəyi isə yapışdırmaq, mıxlamaq, şəkil çəkmək, yapma ilə məşğul olurlar.

Uşaqların yapışqanla, rənglə, plastilinlə və s. bu kimi materiallarla işləyə bilməsi üçün xüsusi şərait yaradılmalıdır. Məktəbəhazırlıq qruplarında uşaqların taxta ilə işləməsi üçün şərait yaratmaq və onlara ən sadə alətlərlə rəftar etməyin elementar vərdişlərini öyrətmək lazımdır.

Böyük və məktəbəhazırlıq qruplarında uşaqlar (xüsusilə qızlar) tikiş və naxışla məşğul olurlar. Onlar iynəni saplamağı, parçanın qatlanmış sahəsini tikməyi, ən sadə tikişlər və naxışlamağı bacarırlar.

Uşaqlar hər bir işi səliqəli və təmiz yerinə yetirməlidir. Qrup tərbiyəçisi bununla əlaqədar onların qarşısına xüsusi tələblər qoyur.

Uşaqlar əməyin hər bir növündə bilik, bacarıq və vərdişlər əldə edirlər. Onları həmçinin yoldaşlarla birgə və yoldaş üçün işləmək və s. məktəbəqədər yaşın sonunda davranışın əmək istiqamətini yaradır ki, bu da məktəbdə gələcək əməyə və yaşlıların əmək fəaliyyətində iştirakına hazırlayır.

**Qrupda əmək şəraitinin yaradılması.** Məktəbəqədər yaşlı uşaqların gündəlik həyatı bu və ya digər fəaliyyət prosesinə (məşğələyə) başlamaq üçün iş yerini hazırlamaq, düzgün yuxusuna hazırlıq, yuxudan sonra yatağı, paltarları səliqəyə salmaq kimi əmək fəaliyyətləri ilə əhatə olunur. Gündəlik fəaliyyət uşaqdan diqqət təşəbbüskarlıq, qüvvət tərbiyəçidən isə işlərin necə, hansı vaxt daxilində, yoldaşları ilə hansı münasibətdə və s. yerinə yetirildiyindən müntəzəm olaraq fikir verməsini tələb edir. Qrupda vaxtında nizam – intizam yaradılmışsa, hər hansı bir qaydanın pozulduğu asanlıqla görünür və onun aradan qaldırılması çətin olmur.

Qrup tərbiyəçisi uşaqların geyimində, həm də oyuncaqlarda, ləvazimatlarda, həm də istifadə olunan təsərrüfat (oyuncaq) əşyalarının saxlandığı yerdə qüsurları vaxtında görmək və aradan qaldırmaq mümkündür. Əgər tərbiyəçi yanmış qutuları təxirə salmadan düzəltməyə nail olursa, uşaqları da bu işə cəlb edirsə, tərbiyə işində müsbət göstəricilər əldə edə biləcəkdir. Tərbiyəçi nə iş görürsə, ancaq onların bilavasitə iştirakı ilə etməlidir. Yəni, hər şey uşaqlar üçün və onlarla birlikdə görülməlidir prinsipinə əməl etməlidir.

**Əməyin təşkili formaları.** Məktəbəqədər yaşlı uşaqların əməyinin təşkili formaları–tapşırıq, növbətçilik və kollektiv olmaqla üç istiqamətə bölünə bilər.

Tapşırıqlar məktəbəqədər yaşlı uşaqların əmək fəaliyyətinin ən sadə formasıdır.

Uşaqlar planlı və müntəzəm əmək fəaliyyətinə alışmadıqları bir dövrdə istifadə edilir. Uşaq bağçasında tərbiyəçi və ya dayə, ailədə valideynlər uşaqlara müraciətlə müvafiq məzmunda

bir iş görməyi tapşırır. Məsələn, hər hansı bir əşyanı gətirmək, otaq bitkilərini sulamaq və s.

*Tapşırıq* - özünəxidmət eləcə də kollektiv əməklə bağlı hər hansı bir işi uşağa həvalə etməkdir.

*Tapşırığın xüsusiyyətləri:* tapşırığı və onun yerinə yetirilməsi üçün düzgün istiqaməti yaşlılar verir. Uşağın tapşırığı icra etməsində dəqiqliyə, işə münasibətə, axıra çatdırmaq bacarığının formalaşmasına tərbiyəçi daima nəzarət edir.

Qabaqcıl iş təcrübəsindən məlumdur ki, fərdi tapşırıqlar fərdi, kiçik qruplar (iki – üç uşaq) kollektiv formasında verilir. Tapşırıqların icrasında hər bir uşağın hərəkətinə nəzarət, ehtiyacı olana köməklik göstərmək, məsləhət vermək, əyani olaraq göstərmək tərbiyəçinin üzərinə düşür.

Qrupundan və uşaqların inkişaf xüsusiyyətindən asılı olaraq verilən tapşırıqlar sadə və ya mürəkkəb, qısa və ya uzunmüddətli ola bilər. Tapşırıqların rəngarəngliyi tərbiyəçinin tərbiyəvi işini asanlaşdırır. Pedaqoji ədəbiyyatlardan və qabaqcıl iş təcrübəsinin ümumiləşdirilməsindən məlumdur ki, kiçik yaşlıların oyun və əmək fəaliyyəti bəzən (hətta çox vaxt) qarışır. Uşaqlara tapşırıqların verilməsi və onun icrasına ciddi nəzarət bu iki fəaliyyət növünü biri – birindən ayırmağa kömək edir. Tapşırıqlar verərkən oyunla əsaslanmaq lazım deyildir. Onun yerinə yetirilməsində tələbkarlığın uşaqların da əmək və oyun arasında fərq qoymasına və məsuliyyət hissinin artırılmasına səbəb olur.

Həyatın üç və dördüncü illərində uşaqların əmək tərbiyəsində və eləcə də mənəvi keyfiyyətərə yiyələnməsində əmək tapşırıqları verilməsinin və onun icrasına nail olmasının böyük əhəmiyyəti vardır. Odur ki, uşağı tapşırığı yerinə yetirməyə kifayət qədər məqsədəyönlü cəlb etmək lazımdır.

*Növbətçilik* – Uşaq əməyinin təşkilinin daha mürəkkəb formasıdır. Uşaqlar növbətçilikdə ümumiləşmiş şəkildə tapşırıq alırlar, onu ardıcıllıqla və tamamilə yerinə yetirməyi öyrənirlər. Növbətçi bilməlidir ki, işi yerinə yetirmə məcburidur. O, bundan imtina edə, onun üçün daha maraqlı işə ( məsələn, oyuna) qoşula bilməz.

Növbətçilik uşağın mənəvi simasının formalaşmasında böyük rol oynayır. Növbətçilik sadə konkret işləri görərkən uşaqlar başqaları naminə işləmək həvəsinin yoldaşlarına, təbiət güşəsindəki bitki və heyvanlara qulluq etməyi, qayğı göstərməyi, eləcə də yaşlılara kömək etməyi arzu etməyə vərdiş edirlər.

"Məktəbəqədər tərbiyə və təlim proqramı"na əsasən növbətçilik uşaq bağçasının orta ( 4 yaşlı) qrupundan başlanılır.

Kollektiv əmək məktəbəhazırlıq qruplarında müntəzəm olaraq təşkil edilir. Kollektiv əməkdə qrupun bütün uşaqları eyni vaxtda iştirak edirlər.

Bütün uşaqları yalnız o vaxt birləşdirmək olar ki, onlar kiçik kollektivdə iş təcrübəsi qazanmış olsunlar. Bu prosesdə onları bir neçə manqaya ayırmaq olar. Hər

manqaya hər hansı bir tapşırıq verilir.

Ümumi işin məzmununu müəyyənləşdirərkən, tərbiyəçi buna elə əmək növlərini daxil edir ki, uşaqlar onlara yaxşı bələd olmuş olsunlar.

Əməkdə uşaqları birləşdirmək üçün müxtəlif üsullardan istifadə edilir. Həmin yanaşmalar qrupdakı uşaqların əməyə münasibətində və marağının səviyyəsindən asılıdır. İşin həcmini və onun yerinə yetirilməsində uşaqların fiziki imkanları nəzərə alınmalıdır. Kollektiv əməkdə də uşaqlara müxtəlif tapşırıqlar verilir.

Tərbiyəçi uşaqların birgə əməklərinə rəhbərlik edərkən ancaq iş üsullarını göstərmir, həm də onlarda bir – birinə münasibət göstərmək, yoldaşlarına kömək etmək öyrədir.

*Əmək və oyun.* Məktəbəqədər yaşlı uşaqların əsas fəaliyyət növləri kimi əmək və oyun onların hərtərəfli inkişafında əsas rol oynayır.

Məktəbəqədər yaşlı uşaqlarda oyunların məzmunu çox vaxt onların yaşlılarda müşahidə etdikləri bu və ya digər əmək prosesinin təsvirinə yönəldilir.

Uşağın əşyalarla fəal hərəkətləri məktəbəqədər yaş dövründən başlayır və oyun xarakteri daşıyır. Praktik cəhətdən bir çox zəruri hərəkətlər, həm də əşyalarla oyun prosesində formalaşır. Lakin bu oyunla əməyi eyniləşdirməyə əsas vermir. Doğrudur,

yaxşı oyun əmək fəaliyyətinə səy yaradır. Lakin heç də oyun əmək deyildir. Ona görə ki, əmək və oyun öz xarakteri, məzmunu, yaranma səbəbinə görə bir – birindən fərqlənir.

Əmək prosesi realdır, qarşıya məqsəd qoyulur, ona nail olmaq üçün hərəkətlərin ardıcıllığı düşünülür və əldə edilir. Əmək prosesi realdır, güman edilən situasiya yoxdur, çünki uşaq fəaliyyəti dəyişdirə biləcəyi və yaxud onların köməyilə materialları dəyişdirə biləcəyi real əşyalarla iş görür.

Uşaqlar xüsusi yaradılan oyun şəraitində yaşlıların fəaliyyətini təsvir edirlər. Bu şərait üçün əmək prosesində uşaqların istifadə etdikləri əşyaları əvəz edən müxtəlif oyuncaqlardan, əşyalardan istifadə edilməsi xarakterikdir.

Tərbiyəçi ilə uşaq arasındakı qarşılıqlı münasibətlər əmək və oyun prosesində müxtəlif şəkildə formalaşır. Oyun uşaq dünyagörüşünün səviyyəsinə uyğun olaraq məzmunca zənginləşə bilir. Oyunların növündən və məzmunundan asılı olaraq tərbiyəçi ona müdaxilə etmir və iştirakçıya çevrilmir. Uşağın arzu və istəyi ilə razılaşa da bilir.

Uşaqların təsəvvürləri əsasında yaratdıqları oyunlar onların arzusu oyuna olan marağı ilə şərtləşir.

Oyunla müqayisədə əmək prosesində yaşlılar və uşaqlar səylərini ümumi nəticənin alınmasına yönəldir.

Kiçik yaş qruplarında uşaqlarla aparılan əmək tərbiyəsinə xüsusi olaraq əhəmiyyət verilir. Onların əmək tərbiyəsinin məzmunu əsasən özünəxidmətdən ibarətdir. Özünəxidmət vərdişlərindən istifadə edərkən bəzi hallarda oyun situasiyasından istifadə edilir. Lakin ona əsas vasitə kimi baxmaq olmaz. Belə olarsa, istənilən nəticəni əldə etmək olmaz. Ona görə uşaqların gündəlik özünəxidməti ilə əlaqədar olaraq ilk əmək vərdişinin formalaşması prosesi və hərəkətlərin göstərilməsinə, müstəqil surətdə geyinmək, əl – üz yumaq təşəbbüsünə, həvəsləndirilməsinə, onların hətta kiçik nailiyyətlərinin qeyd edilməsinə, qarşılıqlı kömək təzahürünə əsaslanmaq lazımdır.

Kiçik qrupda uşaqların oyunu və əməyi arasındakı əlaqənin onların oyunu üçün lazım olan işləri yerinə yetirmələri prose-

sində, məsələn, oyuncaq guşəsinin səliqəyə salınması prosesi təşkil edilir.

Orta qrup (dörd yaşlılar) uşaqlarında müstəqil əmək fəaliyyəti hələ o qədər də təşəkkül tapmamış olur, ona görə də o, öz gedişində oyun fəaliyyətinə gətirib çıxarır. Uşaqlar əmək üçün material və alətlərin xassələrini bilmədikləri halda onlardan oyuncaq kimi istifadə edirlər.

Uşaqlar alətlərlə işləmək vərdişlərinə yiyələndikcə və materiallardan praktik surətdə istifadə etməyi öyrəndikcə, prossesial oyun hərəkətləri getdikcə az müşahidə olunur, oyun və əməyin qarşılıqlı münasibəti dəyişir. Uşaqlar alət və materialların xassələrini və əldə etmək istədikləri nəticə arasındakı müəyyən asılılığı təyin etməyə başlayır, əllərindəki alətlə işləyərkən ondan lazımi yerdə istifadə edirlər.

Uşaq alətdən oyuncaq kimi istifadə edir, yəni onunla əmək fəaliyyətində nə etməli olduğunu fikirləşməli, deməli, tərbiyəçi onunla əmək bacarığı tərbiyə etməyə yollar axtarmalıdır.

Məsələn, belə bir metodik priyomdan istifadə edir: "Qayçı ilə əriştə kəsmək" mövzusunu keçir. Uşaqlara xətləri olan kağız və karandaş verir. Uşaqlar qayçıdan istifadə edərək xətlərin üzəri ilə zolaqlar kəsir. Bir neçə dəfə təkrar nəticəsində qayçını tutmaq, açıb bağlamaq, kəsmək bacarığı tərbiyə olunur.

Əməyə maraq tərbiyə etməkdə oyundan səmərəli şəkildə istifadə etmək olar.

Oyun materialları ancaq kiçik və orta qrupunun uşaqlarının əmək fəliyyətində deyil, böyük və məktəbəhazırlıq qrupunun uşaqlarının da əmək fəaliyyətində özünü göstərir.

Oyun və əməklə arasındakı əlaqə prosesinə nüfuz edən oyunun üstünlüyündə özünü göstərir. Orta qrupda oyundan əmək prosesinə keçid uşaqları oyundan ayırarsa, çox vaxt öz arzusu ilə bir daha oyuna qayıtmırlarsa, böyük yaşda onun ideyası uşaqlar üçün öz aktuallığını itirmir. Məsələn, əməkdə olmaq etibarilə uşaq oyuncaq düzəldir, lakin bilirlər ki, sonrakı oyunda bundan istifadə edəcəklər.

Uşaq bağçasının müxtəlif yaş qruplarında məşğələlərdən əmək prosesinin təşkili və səmərəli nəticələrin alınması məqsədi ilə istifadə edilir. Belə ki, süfrə salmaq, nahara hazırlıq, təbiətdə əmək prosesləri, oyuncaqların əmək alətlərinin hazırlanması ilə əlaqədar fəaliyyətlər məşğələlərdə uşaqlara öyrədilir. Lakin məşğələdə frontal əmək prosesinin təşkili bir qədər məhdudlaşdırılır. Ona görə ki, məşğələdə ciddi reqlament vardır.

Uşaqların məşğələlərdəki təlimi və əməyi arasında müəyyən fərqlər vardır. Məşğələlərdə uşaqların təlimi tam olaraq tərbiyəçi tərəfindən istiqamətləndirilir.

## XII FƏSİL

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ESTETİK TƏRBİYƏSİ

**Estetik tərbiyənin mahiyyəti.** Məktəbəqədər tərbiyə müəssisələrində məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin əsas istiqamətlərindən biri də estetik tərbiyədir.

Estetik tərbiyə uşaqlarda estetik zövqün və mühakimənin, bədii qabliyyətlərin təşəkkül tapıb möhkəmlənməsinə səbəb olan, incəsənət əsərlərinin təbiət və cəmiyyətdəki gözəlliklərin düzgün başa düşməkdə onlara kömək göstərən və bədii yaradıcılıq qüvvələrini inkişaf etdirən təsirlərin yığımıdır.

Pedaqoji ədəbiyyatda bəzən estetik tərbiyə ilə bədii tərbiyəni eyniləşdirirlər. Bədii tərbiyə dedikdə, başlıca olaraq bədii ədəbiyyat, musiqi, rəsm, tətbiqi incəsənət vasitəsilə verilən tərbiyə nəzərdə tutulur. Bədii tərbiyə incəsənət əsərlərini başa düşmək və həmin əsərlərin təsiri ilə ruhən yaşamaq qabiliyyətini yetişdirmək deməkdir. Estetik tərbiyədə isə incəsənət əsərlərində, həyatda məişətdə, təbiətdə və münasibətlərdə olan gözəllikləri qavramaq, başa düşmək, sevmək, qiymətləndirmək və bədii yaradıcılıq qabiliyyəti tərbiyə edilməsini nəzərdə tutur.

Estetik tərbiyə daha geniş anlayış olub, bədii tərbiyəni də əhatə edir.

Məktəbəqədər müəssisələrdə estetik tərbiyənin nəzəriyyəsi və praktikası estetikanın elmi təməli üzərində qurulmuşdur. Estetik tərbiyənin məzmunu, vəzifələrini, prinsiplərini, metodlarını və sistemini öyrənərkən ilk növbədə elmi əsaslara malik olan estetikaya istinad edilir.

Məktəbəqədər tərbiyə müəssisələrində uşaqların estetik tərbiyəsi planlı və mütəşəkkil şəkildə həyata keçirilir. Şəxsiyyətin estetik tərbiyəsi məhz məktəbəqədər yaş dövründə başlayır. Uşaq bağçasında estetik tərbiyə öz mahiyyəti etibarı ilə uşaqların sosial inkişafına təkan verir. Eyni zamanda şəxsiyyətin zənginləşməsində, ahəngdar inkişafında mühüm rol oynayan amildir.

Azərbaycan mütəfəkkirləri N.Gəncəvi, Q.Təbrizi, Ş.İ.Xətai, M.P.Vaqif, Q.B.Zakir, A.Səhhət, S.Vurğun, və başqalarının əsərlərində estetikaya, estetik təsir vasitələrindən olan təbiət gözəlliklərinə, təsviri incəsənətə xüsusi diqqət verilmişdir.

Hələ ibtidai icma quruluşundan başlayaraq bu günlərə qədər estetika – estetik gözəllik insan şəxsiyyətinin formalaşmasında mühüm amil hesab edilirdi.

Cəmiyyətin inkişaf tarixinin ayrı –ayrı mərhələlərində məktəbəqədər yaşlı uşaqlarda estetik qabiliyyətlər, təbiət və incəsənət nümunələri ilə tərbiyə edilir. Estetik tərbiyə məktəbəqədər tərbiyə müəssisələrində pedaqoji kollektivin qarşısına mühüm vəzifə kimi qoyulmuşdur.

Məktəbəqədər yaş dövründə uşaqların estetik tərbiyəsində mühüm rol oynayan estetik tərbiyə vasitələrindən uşaqlarda estetik zövq və bədii qabiliyyət tərbiyəsində istifadə olunur.

**Estetik tərbiyəni məzmunu və vasitələri.** "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı"nda hər bir yaş qrupu üzrə estetik tərbiyənin vəzifələri və məzmunu verilmişdir.

Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsi qarşısında duran vəzifələri təxmini olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Uşaqları əhatə edən təbiətin gözəlliklərini.
2. İctimai həyat və məişət gözəlliklərni.
3. İnsanların əməyində və davranışındakı gözəlliklərini.
4. İncəsənət əsərlərindəki (ədəbiyyat, musiqi, təsviri sənət əsərləri) gözəlliklərin öyrənilməsi.
5. Uşaqlarda bədii qabiliyyətlərin inkişaf etdirilməsi.

a) Nəğmə, musiqi, rəq fəaliyyəti;

b) Bədii əsər və təsviri fəaliyyət nümunələrindən istifadə etmək

Məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafında estetik tərbiyə müstəsna əhəmiyyət kəsb edir. Onun spesifik xüsusiyyəti uşaqların estetik hisslərinin tərbiyə edilməsindən və bədii fəaliy-

yətin müxtəlif sahələrində onların yaradıcı qabiliyyətinin inkişafından ibarətdir.

İncəsənət cəmiyyətə, onun mənəvi ehtiyaclarına və ideyalarına xidmət edir. İncəsənətin düzgün başa düşülməsində pedaqogika elmi təlim və tərbiyə işində ondan istifadə edilməsinin geniş perspektivlərini açır.

İncəsənət vasitələri tərbiyənin digər istiqamətlərinin yerinə yetirilməsində əsas rol oynayır. İncəsənət gerçəkliyi obrazlı idrak vasitəsi kimi uşağın qarşısında real aləmi açır, hadisələri onların çoxtərəfli əlaqələrində və münasibətlərində göstərir.

İncəsənət əsərləri ilə tanışlıq uşaqlarda qavrayışı, təfəkkürü, təxəyyülü, yaddaşı və s. inkişaf etdirir.

Hekayələri dinləmə prosesində uşaq əşyaları, hadisələri sözlə başa düşməyi və qiymətləndirməyi müqayisə və təhlil etməyi, mürəkkəb olmayan məntiqi nəticələr çıxarmağı və qərara gəlməyi öyrənirlər.

İncəsənətin əsərləri uşağın yaradıcı təxəyyülünü, fantaziyasını, təşəbbüskarlığını inkişaf etdirir. Bədii obrazların aydınlığı, parlaqlığı sayəsində incəsənətin bütün növləri analizatorların funksional fəaliyyətinin, hər şeydən əvvəl görmə - eşitmə və lamisənin əhəmiyyətli dərəcədə inkişafına təkan verir.

Ölkəmizdə elmi – texniki tərəqqinin yüksək vüsət aldığı hazırkı dövrdə həyatın bütün sahələrində qarşıya çıxan vəzifələr insan amilinin artan rolu ilə əlaqələndirilir. Bu vəzifələr nə qədər mürəkkəb və çətin olarsa, müasir adamlar o qədər şüurlu, fəal, yaradıcı fəaliyyət göstərirlər. Cəmiyyətdə hər hansı əmək yüksək düşüncə və məsuliyyət tələb edir. Ona görə də indi hər bir maarif işçisi, hər bir tərbiyəçi dövlətimizin qərarlarının həyata keçirilməsində rolunu aydın görməli, öz yerini dəqiq müəyyənləşdirməlidir. Uşaqların tərbiyə və təlimini daha da yaxşılaşdırmaq üçün şərait yaradılmalıdır.

Şəxsiyyətin ahəngdar inkişafının əsası məhz erkən uşaqlıq illərində qoyulur.

Bu baxımdan bütün məktəbəqədər müəssisələrdə tərbiyə işlərini elə təşkil etmək lazımdır ki, o, dövlətin bugünkü tələbatına cavab vermiş olsun.

Tərbiyə işlərinin düzgün təşkil olunduğu müəssisələrdə uşaqlar ictimai mühitə dair geniş təsəvvürə malik olmaqla, onlarda müstəqil düşünmək, mühakimə yürütmək, gördüklərini təhlil etmək, müqayisə aparmaq kimi estetik baxışlar yaranır.

Məktəbəqədər müəssisələrdə estetik zövqə və bədii qabiliyyətə yiyələnmiş uşaqlar məktəbdə də gözəlliyi duymaq, mühakimə yürütmək bacarığına yiyələnirlər. Bunu nəzərə alaraq tərbiyəçilər uşaqların düzgün estetik tərbiyəsi üçün pedaqogika və psixologiyanın son ehtiyatlarından istifadə edirlər. Məqsəd fiziki cəhətdən sağlam, əqli, əxlaqi, estetik tərbiyəsi yüksək olan əməksevər uşaqlar yetişdirməkdir.

Uşaqların geniş təhsilini, yüksək estetik inkişafını təmin etmək məqsədilə didaktik oyunlar, gəzintilər, əmək və incəsənət adamları ilə görüşlər keçirir. Bunun nəticəsində onlarda ətraf aləmdəki gözəlliklərə dair məlumatları genişləndirmək, gözəlliklərin hiss etdirilməsi və onun yaradılmasında fəal iştirak etməsi mümkündür.

Məktəbəqədər yaşlı uşaqların təliminin məzmununda ictimai mühitlə tanışlıqdan, estetik tərbiyənin vasitəsi kimi istifadə olunur. Bu prosesdə onlarda estetik zövq və bədii qabiliyyətlər də inkişaf edir. Elmin sürətli inkişafı dövründə estetik tərbiyənin vəzifələrininin yerinə yetirilməsi, mürəkkəb və məsuliyyətlidir. Məktəbin qarşısında müasir cəmiyyətin tələblərinə cavab verə bilən gənclər yetişdirmək, məktəbəqədər dövrdən uşaqlara yalnız bilik vermək deyil, onları həmin biliklərin estetik cəhətlərini də müstəqil olaraq görmək bacarığına yiyələndirmək, hər bir uşaqda fəal bədii yaradıcılıq qabiliyyətini formalaşdırmaq tələb olunur.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində təbiət gözəlliklərindən istifadə mühüm əhəmiyyət kəsb edir.

Uşaqların estetik tərbiyəsinin ümumi tərbiyə prosesi üçün etibarlı özüllər qoymaq məqsədilə hər şeydən əvvəl bu işin səmə-

rəli təşkili formalarını, yollarını, vasitələrini müəyyənləşdirmək zəruriyyəti vardır.

Estetik tərbiyənin keyfiyyətli nəticələr verməsində incəsənət nümunələrndən istifadə mühüm rol oynayır. Bu iş bütün yaş qruplarında olan məşğələlərdə və məşğələdən kənar vaxtlarda aparılır.

Böyüməkdə olan nəslin estetik tərbiyəsinin bütün təhsil və tərbiyə işini təkmilləşdirməkdə "Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim proqramı"nda məsələnin qoyuluşunu öyrənməyin əhəmiyyəti böyükdür.

"Gözəllik baş tacıdır". Bu "taca" malik olmaq üçün həyatın bütün sahələrində olan gözəllikləri qavrayıb dərk etməyi, düzgün qiymətləndirməyi, ondan zövq almağı, şəxsi və ictimai həyatı gözəllik qanunları ilə qurmağı bacarmaq hər cəhətdən gözəl olmalıdır. Məktəbəqədər yaşlı uşaqları bu ruhda böyütmək uşaq bağçasında ilk növbədə estetik tərbiyənin öhdəsinə düşür. Estetik tərbiyə - insanda, o cümlədən uşaqda estetik hisslərin, zövqün, estetik şüur və mühakimənin təşəkkül tapıb möhkəmlənməsinə səbəb olan incəsənət əsərlərini, təbiət və cəmiyyətdəki gözəllikləri düzgün başa düşməkdə kömək göstərən və onda bədii yaradıcılıq qüvvələrini, qabiliyyətlərini, obrazlı təfəkkürü, emosional aləmi inkişaf etdirən təsirlərin məcmusudur.

Bədii tərbiyə dedikdə, başlıca olaraq incəsənət əsərləri (ədəbiyyat, musiqi, təsviri incəsənət və s.) vasitəsilə verilən tərbiyə nəzərdə tutulur. Bədii tərbiyə - incəsənət əsərlərini başa düşmək və həmin əsərlərin təsiri ilə ruhən yaşamaq qabiliyyətini formalaşdırmaq nəzərdə tutulur. Estetik tərbiyə isə həm incəsənət əsərləri, həm də həyatda, fikir və davranışda olan gözəllikləri qavramaq, başa düşmək, sevmək və qiymətləndirmək qabiliyyətinin, habelə bədii yaradıcılıq qabiliyyətlərinin tərbiyə edilməsini nəzərdə tutulur. Estetik tərbiyə daha geniş olub, bədii tərbiyəni də əhatə edir.

Uşaq bağçasında həyata keçirilən estetik tərbiyənin mahiyyətini dərk etmək və məzmunu haqqında təsəvvürə malik olmaq üçün konkret vasitələr əldə etmək lazımdır.

Estetik tərbiyə uşaqlarda bədii qabiliyyətini təşəkkül və inkişaf etdirməli, onları incəsənətin müxtəlif cəhətlərinə dair müvafiq bilik, bacarıq və vərdişlərlə silahlandırılmalıdır. Estetik tərbiyə insanın incəsənət sahəsində yaradıcılıq göstərə bilməsinə, kollektiv surətdə və ya təklikdə söz söyləmək, nağıl nəql etmək, musiqi əsərlərini ifa etmək, rəqs etmək bacarığına yiyələnməsinə kömək etməlidir. Bunu nəzərə alaraq estetik tərbiyə ilə məşğul olan tərbiyəçi istər təlim prosesində, istərsə də məşğələlərdən kənar digər fəaliyyət növlərində uşaqların bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsinə müvafiq şərait yaratmalı, onları incəsənətin müəyyən növləri ilə məşğul olmağa sövq etməli, estetik yaradıcılığın müxtəlif sahələri üzrə lazımi bilik, bacarıq və vərdişlərlə silahlandırmalıdır.

Bu vəzifələr ayrı – ayrılıqda deyil, bir – biri ilə qarşılıqlı əlaqədə həyata keçirilir. Həmin vəzifələr nə qədər müvəffəqiyyətlə həyata keçirilirsə, bir o qədər də saf və gözəl olur, məişətdə, rəftar və davranışda zövqsüzlüyə, bayağı təsəvvürlərə qarşı mübarizə aparar, ətraf aləmə gözəllik ünsürləri daxil etməyə çalışar.

Lakin estetik hisslərin daha bir imkanı insanlara münasibətdə təzahürü, gözəlliyin həyatda tətbiqi imkanı da mövcuddur.

Məktəbəqədər tərbiyə müəssisələrində, o cümlədən uşaq bağçasında estetik tərbiyənin mühüm vəzifəsi uşaqlarda həyatdakı gözəlliyi yalnız başa düşmək və sevmək deyil, onu yaratmaq, mühafizə etmək cəhdini tərbiyə etməkdir.

Bu cəhdin təzahür formaları (uşaqlar üçün başa düşülən sahələrdə) bunlardır: uşaqların öz əşyalarına və bağçanın avadanlığına ehtiyatlı münasibəti, təmiz paltarı çirkləndirməmək cəhdi, oynadıqdan sonra oyuncaqların yığışdırılması, evdə oyuncaq guşəsində və uşaq bağçasının qrup otağında qayda və səliqənin gözlənilməsi, oyuncaqlarla və kitablarla ehtiyatlı rəftar, otağın bayramqabağı bəzədilməsi, uşaq bağçası sahəsinin bəzədilməsi, güllərə səylə qulluq edilməsi, hər bir işi vicdanlı və yaxşı yerinə yetirmə bacarığının, böyüklərin və yoldaşlarının hazırladığı hər bir səliqəni qiymətləndirmək və qorumaq bacarığı.

Estetik və əxlaq tərbiyəsi nöqteyi – nəzərindən uşaqlarda yaxşı əməllərlə öz aralarında düzgün münasibətlərə cəhd etməyin tərbiyə olunmasının da əhəmiyyəti az deyildir. Uşaq bağçasında bədii oxuya və nağıletməyə, uşaqların öz sözləri ilə nağıl danışmalarına, onların şer söyləmələrinə, özlərinin hekayə, şer, tapmaca tərtib etmələrinə böyük fikir verilir, bədii qabiliyyətlərin tərbiyəsi baxımından uşaqlara şəkil çəkmək, yapmaq, quraşdırmaq öyrənilir, onlarla müxtəlif musiqi məşğələləri keçirilir.

Məktəbəqədər tərbiyə müəssisələrində, o cümlədən uşaq bağçasında uşaqlarda bədii qabiliyyət tərbiyə edən məşğələlər spesifik xüsusiyyətlərə malikdir. Rəsm məşğələlərində uşaqlara nəinki əşyaları düzgün təsəvvür etməyi öyrədirlər, eyni zamanda onlarda rəngləri zövqlə seçmək bacarığını inkişaf etdirirlər. Musiqi məşğələlərində həm düzgün, həm də zərif, gözəl hərəkət etməyi öyrədirlər.

Məktəbəqədər yaşlı uşaqların bədii qabiliyyətlərinin tərbiyəsi əsasən nitq inkişafı, rəsm, gil işi, quraşdırma, musiqi, bədən tərbiyəsi və s. kimi məşğələlərdə həyata keçirilir. Əsasən bu kimi məşğələlərdə tərbiyəçi məktəbəqədər yaşlı uşaqlara bu və ya digər sahədə nəinki bilik verir, eyni zamanda onların bədii qabiliyyətlərini inkişaf etdirir.

Məşğələlərdə uşaqların bədii qabiliyyətlərinin müvəffəqiyyətli inkişafı üçün onların bu məşğələlərə olan marağı xüsusilə böyük əhəmiyyətə malikdir. Uşaqların emosionallığı olmadıqda müvəffəqiyyət qazanmaq çətindir. İncəsənətin bütün növləri uşaqlar tərəfindən onları estetik hisslər keçirməyə sövq etdirməlidir.

Musiqi, rəsm, nitq inkişafı məşğələlərini keçirkən tərbiyəçi bütün şərtlərə əməl edərək, bu məşğələlərin incəsənətlə əlaqədar cəhətlərini, onların məqsəd və vəzifələrini nəzərə almalıdır.

Uşaqların bədii qabiliyyətlərinin tərbiyəsi ilə əlaqədar tərbiyəçinin vəzifəsi onların yaradıcılığının inkişafı ilə sıx əlaqədardır, təlim və uşağın yaradıcı fəaliyyəti onun inkişafı ilə vəhdətdə həyata keçirilməlidir. Pedaqoq uşaq yaradıcılığının ilk təzahürlərinin formalaşmasını tərbiyə nöqteyi-nəzərindən görməyi və

qiymətləndirməyi bacarmalıdır ki, onun inkişaf yollarını düzgün müəyyən edə bilsin.

Yaradıcı fəaliyyətin əsasını yaradıcı təxəyyül təşkil edir ki, bu da uşaqlarda olduqca erkən, xüsusi ilə onların estetik qavrayışlarına rəhbərlik zamanı aşkar edilir.

Uşaqlarda müntəzəm iş nəticəsində mahnının, ritmik hərəkətlərin, rəqslərin ifasının tədricən təkmilləşdiyi nəzərə çarpır.

Artıq 4 – 5 yaşlı uşaqların təxəyyülünün məhsulu olan rəsmlərdə, oyunlarda primitivlik özünü göstərir.

Məşğələlərdə uşaqların yaradıcı fəaliyyətinə rəhbərlikdə təfəkkür fəaliyyətini yaradıcı iş ilə vəhdətdə həyata keçirmək lazımdır. Bu və ya digər bacarıqlar nə qədər möhkəmdirsə, onlar uşaqların məqsəd və niyyətlərində bir o qədər geniş təzahür edir.

Əgər tərbiyəçi yaradıcılıq növünün birinə (məsələn, rəsm) diqqətlə və təkidlə rəhbərlik edirsə, başqa növünə isə (məsələn, yapma, yaxud quraşdırma) diqqəti azaldırsa, bu bədii fəaliyyətin bütün növlərində uşaqların yaradıcı qabiliyyətinin inkişafını ləngidir.

Estetik tərbiyə metodikasında təqlid etmə pedaqoqun və valideynin düzgün başa düşməsini tələb edən mühüm məsələdir. Kiçik yaşlı uşaq üçün təqlid xüsusilə çox vacibdir. Lakin məzmunun, formanın (hekayədə, şəkildə, yapmada və s.) müntəzəm olaraq mexaniki əks etdirilməsi, müşahidə olunduqda, tərbiyəçi uşağın öz təşəbbüsünün inkişafına kömək etməlidir.

Uşaqlarda estetik hisslərin təzahüründə təqlidin xüsusiyyətini həzz hissini, estetik hiss elementləri ilə müqayisə etmək olar. Dekorativ nümunədə rənglərin müvəffəqiyyətlə seçilməsi, yaxud gözəl rəqs hərəkətinin təqlid edilməsi uşaqda estetik hiss yaradır.

Uşaq işlərinə qiymət verərkən uşaqla əlaqə saxlamaq, onun öz qüvvəsinə inamı mühafizə etmək lazımdır. İşin nöqsanlarını göstərərkən tərbiyəçi, uşağın imkanlarını da qeyd edir. Belə qiymətləndirmə uşağı səfərbər edir və ruhlandırır, onda daha yaxşı işləmək həvəsi yaradır.

Estetik qabiliyyətin inkişafı uşaqlara həyatın müxtəlif sahələrinə dair öz fikir və hisslərini ifadə etməsinə imkan verir, eləcə

də onun formalaşmasına təsir göstərir. Uşaq təyyarəni pilotla çəkərkən, onun konturunu çəkir, ulduzu səliqə ilə qırmızı rənglə rəngləyir, şəkil qurtardıqda, ona kənardan tamaşa edir və həzz alır. Bu halda uşaq təsvir prosesini sözlərlə müşayiət edir: "O, cəsurdur. Heç nədən qorxmur, buluddan yüksəyə uçur".

Bir çox pedaqoqlar uşaqlara öz fikirlərini və hisslərini daha aydın və ətraflı ifadə etmək bacarığının inkişafını göstərməyə çalışırlar. Mimika, əl – qol hərəkəti, intonasiya uşaqların bir – birlərini daha yaxşı başa düşməsinə imkan yaradır. Düzgün ifadə forması fikirləri dəqiqləşdirir, hissləri dərinləşdirir.

Mahnı, rəqs, musiqi, oyun, dramlaşdırılmış oyun, şer söylənilməsi, rəsm uşaq fəaliyyətinin bütün bu növləri fikirlərin və hisslərin ifadə qabiliyyətini təkmilləşdirir, bu ifadəyə müxtəlif forma verir. İncəsənət sahəsində uşaqların fəaliyyəti çox vaxt natamam olsa da, bədii qabiliyyətin və estetik hisslərin inkişafının əsas ifadəsidir.

Müxtəlif yaş qrupları üzrə nitq inkişafı məşğələlərində tərbiyəçinin nəqli, oxusu uşaqlara nəinki müsbət təsir edir, eyni zamanda öyrəndikləri bədii nümunələr onlara estetik cəhətdən çox qüvvətli təsir göstərir.

Bütün vasitələrdə olduğu kimi, bədii qabiliyyətlərin tərbiyəsi də ilk növbədə ailədə həyata keçirilir. Uşaq ailə içərisində təmizliyə əməl edir, səliqəli və yaraşıqlı geyinməyi öyrənir, məişət əşyalarındakı gözəlliyi birinci növbədə ailədə görür: laylanı, musiqini, mahnını, şeri və nağılı ilk dəfə ailədə eşidir, şəkil çəkməyə, rəqs etməyə ailədən başlayır.

Uşaq bağçaya getdiyi dövrdə də vaxtının çoxunu ailədə keçirdiyi üçün onun zövq və hisslərinin zənginliyi xeyli dərəcədə məhz ailənin təsirindən, valideynin bədii qabiliyyətin tərbiyəsi üzrə apardığı işlərdən və ailədə yaratdığı şəraitdən asılı olur.

Uşaqlara lazımi təsir göstərmək üçün ailə üzvləri, xüsusilə valideynlər həyatdakı gözəllikləri, eləcə də quruculuq işlərində, xalqın həyatında, insanların ictimai fəaliyyətində, rəftar və davranışında olan gözəllikləri onlara müşahidə etdirir, bu gözəlliklər,

qabiliyyətlər barədə söhbət edir, uşaqlarda bədii fəaliyyətə həvəs oyadırlar.

Ailələrdə ədəbiyyat və incəsənət ilə uşaqların tanışlığı sahəsində də müvafiq işlər görülür. Maraqlı şer, nağıl və hekayələrin oxunması təmin olunur, uşaqların sərgilərə, kino, teatr tamaşalarına vaxtaşırı gedişinə nail olunur. Ailədə isə uşaqlar bədii yaradıcılıq işinə cəlb edilirlər: uşaq bu və ya digər musiqi alətində çalmağı öyrənir, mahnı oxuyur, rəqs edir.

Məktəbəqədər yaşlı uşaqların bədii qabiliyyətlərinin tərbiyəsi sahəsində uşaq bağçası mühüm rol oynayır. Uşaq bağçasının müxtəlif yaş qruplarında bədii qabiliyyətlərin tərbiyəsi məqsədi ilə bir sıra üsul və vasitələrdən istifadə olunur.

Uşaq bağçasında bədii qabiliyyətlərin tərbiyəsi həm təlim prosesində, həm də məşğələdən kənar müxtəlif fəaliyyət proseslərində həyata keçirilir.

Uşaq bağçasında keçirilən məşğələlər bədii qabiliyyətin tərbiyəsi baxımından müəyyən əhəmiyyət kəsb edir. Təlim nitq inkişafı və ətraf aləmlə tanışlıq, rəsm, gil işi, quraşdırma, musiqi, kəsib – quraşdırma, riyazi təsəvvürlərin formalaşdırılması və s. məşğələlərdə və kənar vaxtlarda həyata keçirilir.

Uşaq bağçasında uşaqların bədii qabiliyyətlərinin tərbiyəsi tərbiyəçilər tərəfindən, ardıcıl, planlı və mütəşəkkil aparılır.

Uşaq bağçasında keçirilən məşğələlərdə bədii nümunələrdən istifadə olunur. Həmin nümunələr uşaq incəsənətinin tələblərinə uyğun səmərəli, uşaq zövqünü oxşayan, qavrayış və ifa üçün əlverişli olmalıdır. Yapma, rəsm və s. ayrı – ayrı məşğələlərdə nümunələrin göstərilməsinə xüsusi tələblər verilir.

Təsviri fəaliyyət məşğələlərində istifadə olunan nümunələr və metodlar müxtəlifdir: mahnı oxuyarkən, şer söylənərkən məşğələnin gedişi prosesində tərbiyəçinin şəxsi nümunəsi zəruridir. Tərbiyəçi özü ifa etməli, uşaqlar onun ardınca, bəzən isə onunla birlikdə mahnı və rəqs hərəkətlərini təkrar etməlidirlər.

Rəsm, yapma və başqa təsviri fəaliyyət məşğələləri prosesində yalnız nümunədən istifadə edilir. Tərbiyəçinin ayrı – ayrı iş üsullarından istifadə etməsi böyük əhəmiyyətə malikdir. Hazır

nümunə çox vaxt dekorativ rəsmdə tətbiq olunur. Burada əsas vəzifə uşaqlara naxışın vurulması, rəngin seçilməsi bacarığı, yəni uşaqların həyatında az rast gəldiyi halları öyrətməkdir. Bəzi dekorativ rəsmdə eyni üsuldan istifadə edilərkən köçürmə üçün nümunə verilir. Bəzən uşaqlara nümunələr verərkən, kompazisiya qurarkən, iki – üç naxış nümunəsi verilir ki, bunun elementlərini uşaqlar özləri düşünüb tapırlar.

Göstərmə müxtəlif cür ola bilər: naturanın, nümunələrin, icra prosesinin, uşaq işlərinin göstərilməsi və s. Uşaqlara mahnı, rəqs, musiqinin müşayiəti ilə ritmik hərəkətlərin öyrədilməsi zamanı rəsmin, yapmanın, quraşdırmanın texniki üsullarının (bunları öyrənmədən uşaqlar ən sadə tapşırıqları yerinə yetirə bilməzlər) öyrədilməsi zamanı göstərmə xüsusi əhəmiyyətə malikdir. Lakin göstərmə, uşağın " bunu daha yaxşı düzəltməyin mümkün olması" haqqında müstəqil fərziyyəsini müdafiə etməli, onun estetik qabiliyyətini inkişaf etdirməlidir. Məktəbəqədər yaşlı uşaqlarla işdə göstərmənin tətbiqi tamamilə anlaşılan üsulların seçilməsini tələb edir.

Nitq inkişafı məşğələlərində uşaqlara öyrədilən bədii ədəbiyyat nümunələri, onların bədii qabiliyyətlərinin inkişafına qüvvətli təsir göstərir. Kiçik qrupdan başlayaraq öyrədilən kiçik, sadə, obrazlı nağıllar, şer və hekayələr onların təxəyyülünü, estetik və əxlaqi hisslərini inkişaf etdirir, uşaqlarda bədii qabiliyyətlərin tərbiyəsini sürətləndirir. Orta və böyük yaş qruplarında iş daha da dərinləşdirilir. Uşaq bağçasının böyük qruplarında bədii qabiliyyətlərinin inkişafı baxımından bədii ədəbiyyat nümunələrindən istifadə etmək imkanı artır. Bu dövrdə nitq inkişafı məşğələlərində uşaqları bədii ədəbiyyata, bədii hadisələrə bağlamaq imkanı əldə edilir. Onlar görkəmli yazıçıların əsərlərindən faydalandıqca ətraf aləmdəki fikir və davranışdakı gözəllikləri bədii surətlər vasitəsilə necə əks edildiyini aydın başa düşür, estetik mühakimə yürütməyə alışır, dinlədikləri əsərin qəhrəmanlarına öz münasibətlərini müəyyənləşdirir və bədii əsəri ifadəli, intonasiya ilə söyləmək bacarığına yiyələnirlər.

Onların bədii qabiliyyətləri inkişaf edib formalaşır. Uşaqların bu sahədə səhvə yol verməməsi üçün tərbiyəçi əsərdəki qəhrəmanın xarakter xüsusiyyətlərini, qüvvətli və zəif cəhətlərini, mətnin ideya məzmununu, bədii formasını, süjet və kompozisiyasını düzgün təyin etməkdə onlara kömək etməlidir.

Nitq inkişafı məşğələlərində aparılan iş məşğələdən kənar vaxtlarda müxtəlif təkrarlarla möhkəmləndirilməlidir. Uşaqlara təklif olunan bu və ya digər əsərin təkrarı nəinki onların nitqinin inkişafına, eyni zamanda estetik zövqlərinin, bədii qabiliyyətlərinin inkişafına xidmət edir.

Məktəbəqədər yaşlı uşaqların bədii qabiliyyətlərinin inkişafına musiqi məşğələlərinin də təsiri böyükdür. K.D.Uşinskinin dediyi kimi, kiçik bir mahnının ifasından sonra uşaqlar yağışdan sonra güllər kimi açılırlar.

Uşaq bağçasında musiqi məşğələlərinin təsiri üç istiqamətdə; musiqi dinləmək, mahnı oxumaq və rəqs etmək. Musiqi dinləmək bacarığı uşaqlara musiqi əsərləri haqqında məlumat verilməsini, səslərin notlarla ifadəsini öyrənməyi nəzərdə tutur. Mahnının öyrədilməsi müəyyən ardıcıllıqla, musiqi alətinin (fortopiano) müşayiəti ilə musiqi məşğələlərində nəğmələrin oxunmasını öyrətməyi nəzərdə tutur. Bu zaman uşaqlar bir qayda olaraq xorla oxuyurlar. Mahnının xorla oxumasının, ifadə etməyin böyük bədii və pedaqoji əhəmiyyəti vardır. K.D.Uşinski yazırdı: "Xorla oxumaq ən qüdrətli pedaqoji vasitədir. O, uşaqların yorğunluğunu götürür, qüvvələrini bərpa edir, qrupu çox yaxşı təşkil edə bilir" (K.D.Uşinski, Seçilmiş pedaqoji əsərlər, Bakı 1953).

Uşaqlara mahnı öyrədilərkən mətnin müəllifi haqqında qısa söhbət aparmaq və məşğələni mümkün qədər əyaniləşdirmək, yəni sözlərin məzmununa dair çəkilmiş rəsmlərdən istifadə etmək lazımdır. Bu uşaqların bədii qabiliyyətlərinin inkişafına müsbət təsir göstərir. Musiqi zalında uşaqların çalması üçün müxtəlif musiqi alətləri: qarmon, royal, piano və s. olur. Belə şəraitdə uşaqlar çalmağa böyük həvəs göstərərək, bir – birlərini dinləmək imkanı qazanır ki, bu da öz növbəsində onların bədii qabiliyyətlərinin inkişafına təkan verir. Uşaqların musiqi məşğələlərində

qazandıqları bilik, bacarıq və vərdişlər bağçanın xor kollektivində möhkəmləndirilməli və genişləndirilməlidir.

Uşaqların estetik tərbiyəsində rəsm məşğələləri də böyük əhəmiyyətə malikdir. Bu məşğələlər təsviri incəsənət vasitələri ilə estetik tərbiyənin əsas vəzifələrini planlı surətdə yerinə yetirməyə xidmət edir.

Rəsm ilə bütün uşaqlar maraqlanırlar. Rəsm məşğələləri uşaqların görmə qabiliyyətini, təxəyyülünü, zövq və bədii yaradıcılıq bacarığını inkişaf etdirir. Bu məşğələlər uşağa cism və hadisələrin, forma və məzmunun gözəlliyini seçməkdə və onu qiymətləndirməkdə, gözəllik yaratmaqda yardım edir.

Uşaq bağçasında rəsm məşğələləri əsasən 4 sahəni əhatə edir: naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ rəsm və niyyət üzrə rəsm.

Naturadan rəsm etmək həm uşaqlara təsviri savad öyrətmək, onlarda müşahidəçilik qabiliyyətini, karandaş və boya ilə işləmək bacarığını inkişaf etdirməklə yanaşı bədii yaradıcılıq qabiliyyətlərinin inkişafında müsbət təsir göstərir.

Mövzu üzrə rəsm mühitdən və ya bədii əsərlərdən alınmış mövzular üzrə şəkil çəkməyə deyilir. Rəsmin bu növü uşaqların estetik təxəyyülünü inkişaf etdirir, öz hisslərini rəsm vasitəsilə ifadə etməyə alışdırılır və rəsm sahəsində yaradıcılıq qabiliyyətlərinin inkişafına kömək edir.

Mövzu üzrə rəsm uşaq bağçasının orta qruplarından başlayaraq bütün yaş qruplarında keçirilir.

Dekorativ rəsm naxış, bəzək rəsmləri deməkdir. Dekorativ rəsm vasitəsilə uşaqlara rəsmin texnikasına, rənglərin ahəngdar birləşməsinə, forma və rəngin uyğunlaşdırılmasına və s. bu kimi cəhətlərə dair bir sıra faydalı vərdişlər aşılanır ki, bunun sayəsində onlarda bədii qabiliyyətlər inkişaf edir, formalaşır.

Rəsmin bu növü üzrə əldə edilən qabiliyyət, bacarıq və vərdişlər uşaqların ümumi inkişafına, o cümlədən estetik tərbiyəsinə ciddi təsir göstərir: onların bədii qavrayışını dərinləşdirir və gözəllik haqqındakı təsəvvürlərini təkmilləşdirir.

Rəsm məşğələlərində uşaqlar həm də rəssamların çəkdikləri əsərlərdəki ideya və süjet xəttini duymağı öyrənirlər. Rəssamların çəkdikləri şəkillərdən tərtib olunmuş albomlar və eləcə də sərgilər, uşaqları təsviri incəsənət aləminə daxil edir, gözəlliyi duymaq və qiymətləndirmək bacarığı ilə əlaqədar həssaslığı artırır.

Nitq inkişafı və musiqi məşğələlərində olduğu kimi, rəsm məşğələlərində də uşaqların əldə etdikləri müvəffəqiyyətlə kifayətlənmək olmaz. Məşğələlərdən kənar vaxtlarda da iş davam etdirilir.

Əmək prosesində tərbiyəçi uşaqların hazırladıqları əşyaların xaricən gözəl və səliqəliliyinə nail olmaqla onlarda bədii yaradıcılığı, estetik zövqü inkişaf etdirir.

Bədən tərbiyəsi məşğələlərində hərəkətlərin bədii cəhətdən lazımi şəkildə icrası, göstərişlərin düzgün yerinə yetirilməsi, məşğələnin müəyyən hissəsinin musiqinin müşayiəti ilə aparılması və s. uşaqlarda yüksək əhval-ruhiyyə oyadır, onların şən, gümrah və gözəl qamətli yetişməsinə kömək edir.

Ümumiyyətlə uşaq bağçasında tərbiyəçinin rəhbərliyi altında keçirilən hər bir məşğələ uşaqda bədii hisslər doğurur. Tərbiyəçinin nitqinin ifadəliliyi, hərəkətlərinin təbiiliyi, istifadə olunan əyani vəsaitlər, onların gözəlliyi, qrup otağında şəraitin olması, səliqəliliyi, dəqiq təşkil edilmiş təlim prosesinin özü uşağın bədii zövqünün, bədii qabiliyyətlərinin tərbiyəsinə müsbət təsir göstərir.

Məşğələlərdə fəaliyyətin müxtəlifliyi ilə əlaqədar olaraq ona yanaşmalar da (uşağın məqsəd və niyyətinə görə) müxtəlif olur. Təlimin vəzifələri, mövzular və bütün proses pedaqoji proqrama əsaslanır və tərbiyəçi tərəfindən həyata keçirilir. Bu prosesdə uşaqları yaradıcılığa həvəsləndirmək diqqət mərkəzində durmalıdır.

Tapşırığın və təcrübənin xarakterindən asılı olaraq uşağın yaradıcı təşəbbüsü-nün elementləri böyük və ya kiçik ola bilər.

Niyyət üzrə rəsm, yapma, quraşdırma işlərində məzmunun uşaq tərəfindən seçilməsi və əldə edilən bacarığın yaradıcı tətbiqi

mühümdür. Tərbiyəçi uşağın yaradıcı fikirlərinin həyata keçirilməsinə şərait yaradır.

Uşaq yaradıcılığını inkişaf etdirərkən təlimdən alınanları yeni, orijinal, kombinasiyalarda, estetik birləşmələri sərbəst tətbiq etməyə həvəsləndirmək mümkündür. Rəsmdə musiqi ilə hərəkətlərin uzlaşdırılması, yeni formalarla zənginləşdirilməsi və onları yaradıcı kombinasiyada işləmək məqsədi ilə nümunədən qismən istifadə etmək olar.

Təlim prosesində bədii qabiliyyətlərin tərbiyəsi məqsədyönlü və mütəşəkkil şəkildə aparılsa da, bunu məşğələlərin keçirilməsi ilə məhdudlaşdırmaq olmaz. Uşaqların bədii qabiliyyətlərinin inkişafı sahəsində işlər məşğələdən kənar vaxtlarda da davam etdirilir. Məşğələdən kənar işlər uşaqların təlim prosesində bədii qabiliyyətlərin tərbiyəsi üzrə qazandıqları bilik dairəsini genişləndirməyə, estetik bacarıq və vərdişləri möhkəmləndirməyə kömək edir.

Təlim prosesində nisbətən məşğələdən kənar işlər uşaqların fərdi tələb və ehtiyaclarını, maraq və meyllərin daha artıq dərəcədə ödəməyə, onların yaradıcılıq fəaliyyətinə geniş imkanlar açır.

Bədii qabiliyyətlərin tərbiyəsi sahəsində aparılan məşğələdən kənar işlərin forması və məzmunu müxtəlifdir.

Bədii yaradıcılıq və ya incəsənət üzrə tərbiyəçi rəsm, yapma, tikiş, bədii əsərlərin söylənilməsi və nağılı, mahnı oxunması, rəqs, toxuma və s. üzrə iş təşkil edir.

Rəqs uşaqların arasında ən geniş yayılmış təsviri fəaliyyət növlərindəndir. Uşaqlar nəinki musiqi məşğələlərində, eyni zamanda səhərciklərdə, bayram təntənələrində, şənliklərdə həvəslə rəqs edirlər. Rəqs uşağı əyləndirir, onun həyatına fərəh və sevinc gətirir. Rəqs zamanı uşağın estetik hissləri onu öz qabiliyyətini səfərbərliyə almağa, hərəkətləri üzərində düşünməyə, gördükləri rəqs hərəkətlərini xatırlamağa təhrik edir. Kollektiv rəqs uşaqları bir – birinə yaxınlaşdırır, onların əxlaqi və fiziki tərbiyəsinə də müsbət təsir edir. Buna görədir ki, rəqs prosesində müntəzəm

iştirak edən uşaqlar həyatda gülərüzlü, nikbin, gümrah və fəal olurlar.

Öyrədilən rəqslər öz mürəkkəbliyi və hərəkətlərinin texnikası etibarilə uşaqların yaş səviyyəsinə uyğun olmalıdır. Kiçik məktəbəqədər yaşlı uşaqlara sadə xalq rəqslərini öyrətmək məqsədə müvafiqdir. Rəqsi tez və düzgün öyrətməkdən ötrü onun ayrı – ayrı ünsürlərini, hazırlıq taktlarını, tərz – hərəkətləri bilmək, onları icra etmək lazımdır. Bunu tərbiyəçi, musiqi müəllimi ilə birlikdə həyata keçirir.

Rəqsin müvəffəqiyyətlə keçməsi və daha təsirli olması üçün geyimin də əhəmiyyəti vardır. Gözəl, əlvan geyim uşaqların bədii zövqünü inkişaf etdirir, rəqsə olan marağını artırır.

Bədii əsərlərin səhnələşdirilməsi uşaqları daha çox maraqlandırır. Uşaqların əsərin səhnələşdirilməsində iştirak etmələri, öz gücləri ilə tamaşa göstərmələri bədii qabiliyyətlərin inkişafı baxımından çox qiymətlidir. Tamaşada "aktyor" kimi çıxış edən uşaq yeni forma qəbul etməli, "surət yaratmalı" olur. Yeni formaya düşmək, "surət yaratmaq" isə uşaqlarda gözəl arzular və bədii hisslər doğurur, yaradıcı təxəyyülü və qabiliyyəti inkişaf etdirir, uşağı həyat hadisələrindən düzgün baş çıxarmağa alışdırır. Lakin çalışmaq lazımdır ki, uşağı " rola girməyi" gündəlik həyat və rəftarına ciddi fəsad gətirməsin, o, özünü təbii aparsın.

Səhnələşdirməyə hazırlanan əsər ideya və bədii cəhətdən yüksək olmalı, həm də uşaqların yaş xüsusiyyətlərinə uyğun seçilməlidir.

Səhnələşdirmənin müvəffəqiyyəti xeyli dərəcədə onun təklifindən asılıdır. Səhnələşdirmədə bağçanın şəraiti və uşaqların marağı əsas götürülməlidir.

Uşaq bağçasında təşkil edilən sərgilər, uşaqlara müxtəlif yaradıcılıq nümunələri kimi təsir göstərir.

Təbiət, cəmiyyət və incəsənət əsərlərindəki gözəllikləri uşaqlara müşahidə və dərk etdirmək, onlarda estetik zövqü, mühakiməni formalaşdırmaq nöqteyi – nəzərindən kukla teatrı və cizgi filmlərinin çox böyük əhəmiyyəti vardır.

İncəsənətin başqa növlərindən olan kukla teatrı və cizgi filmini yaxşı qavramaqdan ötrü uşaqlarla qabaqcadan müvafiq hazırlıq işləri aparılmalıdır. Belə hazırlıq prosesində əvvəlcə (birinci mərhələ) uşaqlara baxacaqları film və ya tamaşanın ideyası və süjeti haqqında qısa məlumat verilir. Uşaqlar əsərə tamaşa edərkən tərbiyəçinin tapşırığına görə əsas surətlərin aktyorlar tərəfindən necə ifa edildiyini, hadisələri müşayiət edən musiqini aktyorların geyimini izləyirlər.

Bundan sonra uşaqların tamaşaya və filmə kollektiv baxışı təşkil edilir (ikinci mərhələ).

Sonrakı günlərdə həmin tamaşa və ya film tərbiyəçinin bilavasitə iştirakı ilə uşaqlarla müzakirə edilir (üçüncü mərhələ). Uşaqlar əsər, rollar və onları ifa edənlər, dekorasiya, musiqi, bir sözlə tamaşada (yaxud cizgi filmində) duyub qavradıqları hər bir şey haqqında öz təəssüratlarını bildirirlər. Düzgün olmayan fikir və ya mülahizələr tərbiyəçi tərəfindən təhlil edilir.

Baxılmış tamaşadan və ya filmdən uşaqların aldığı təəssüratı möhkəmlən-dirmək üçün həmin əsərlər ətrafında söhbət, sual və cavab aparmaq olar.

Məktəbəqədər yaşlı uşaqları ayda bir neçə dəfə (qrupdan asılı olaraq) ekskursiyaya apararaq onların bədii yaradıcılıq qabiliyyətinin inkişafına təkan verir.Təbiətə olan ekskursiyalar uşaqlarda doğma vətənimizin zəngin təbii sərvət-lərini görüb, onun gözəlliklərindən həzz almağa xidmət edir. Təbiətin əsrarəngiz gözəllikləri uşaqlara bədii zövq verməkdə çox vaxt incəsənət əsərlərindən də təsirli olur. Çünki ən mahir rəssam belə təbiətin gözəlliyini olduğu kimi əks etdirə bilmir. N.Q.Çernışevskinin yazdığı kimi “cismlərin rəsmi elə çəkilə bilməz ki, o, təbiətdəkindən yaxşı olsun, nəinki əllə çəkilə bilməz, hətta təsəvvürə belə gətirilə bilməz. Xəyal həqiqi güldən daha yaxşı heç bir şey təsəvvür edə bilməz, ifa isə xəyalda tutulan idealdan həmişə aşağıdır. Bəzi cisimlərin rəngi rəsm sənətində çox yaxşı çıxır. Lakin bir çox cisimlər vardır ki, rəsm sənəti onların koloritini verə bilmir” (bax: N.Q.Çernışevski. İncəsənətin varlığına münasibəti. Bakı, Azərnəşr 1956).

Buna görə də təbiətin gözəllikləri haqqında uşaqlarda zövq aşılamaq üçün təkcə təbiəti əks etdirən gözəllikləri göstərməklə və ya təbiət haqqında danışmaqla kifayətlənmək olmaz, həmin gözəlliklərin özlərini təbii halda uşaqlara göstərmək lazımdır. Təbiətin estetik təsir gücü haqqında K.D.Uşinski belə yazırdı: "Belə şəlalələr, belə təbiət, şəhərin gözəl ətrafı, belə ətirli çəmənliklər və dalğalı səhralar, bəs güllü – çiçəkli bahar və qızıla bənzər təbiət bizim tərbiyəçilərimiz olmayıblarmı? Mən həyat təəssüratının dərin etiqadı nəticəsində bilirəm ki, gənc ruhun tərəqqisində gözəl mənzərənin təsiri o qədər böyükdür ki, müəllimin təsiri ona rəqib ola bilməz" (K.D.Uşinski: Seç.ped.əsər.Bakı 1953).

Hər bir pedaqoq – tərbiyəçi bağçanın imkanlarından, uşaqların maraq və meyillərindən, onların ümumi inkişaf səviyyəsindən və s. asılı olaraq, yuxarıda göstərilən vasitə və üsullardan münasib olanını seçməli, onları həyata keçirmək üçün düşünülmüş plan tərtib etməli və bu planın həyata keçirilməsi, müvəffəqiyyətli icrasından ötrü tələb olunan bütün şəraiti vaxtında təmin etməyə çalışmalıdır.

## Bədii qabiliyyətlərin tərbiyəsində ailə ilə bağçanın birgə işi..

Məktəbəqədər yaşlı uşaqların hərtərəfli tərbiyəsində, o cümlədən bədii qabiliy-yətlərin tərbiyəsi sayəsində ailə və uşaq bağçası mühüm rol oynayır.

Ailənin və uşaq bağçasının qarşısında duran məqsəd və vəzifələr eynidir: hərtərəfli inkişaf etmiş, estetik zövqə, bədii qabiliyyətə malik insan tərbiyələndirmək.

Uşaq bağçasında gələcək vətəndaşların şəxsiyyət kimi formalaşması mühüm əhəmiyyət kəsb edir. Uşaq bağçalarında uşaqların tərbiyəsi ilə xüsusi şəraitdə vahid dövlət proqramı üzrə ixtisaslı pedaqoqlar məşğul olurlar. Ailə də uşağın bədii qabiliyyətlərinin ahəngdar inkişafına təsir göstərməyi bacarmalı, ona lazımi qayğı göstərməlidir. Ona görə də "Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim proqramı" təkcə uşaqlarla deyil, eyni zamanda valideynlərlə də geniş iş aparmağı nəzərdə tutur.

Uşaq bağçasının işçiləri uşaqları düzgün tərbiyələndirməklə ailəyə kömək etməyə, ən yaxşı ailə tərbiyəsi təcrübəsini təbliğ etməklə, ailə tərbiyəsi ilə ictimai tərbiyə arasındakı əlaqələrini genişləndirməlidir.

Valideynlərin hərtərəfli müntəzəm pedaqoji maarifləndirmədə əsas məqsəd odur ki, onlar həm uşaqların təcrübəsi və həm də nəzəri biliklərin əsası ilə tanış olurlar.

Valideynlər ilə işin məzmunu bir çox məsələləri əhatə etməli, uşağın hərtərəfli, estetik və bədii qabiliyyətlərinin inkişafı məsələlərini əks etdirməlidir. Ədəbiyyat, musiqi, təsviri sənət, xalq yaradıcılığı onların ailə həyatına həmişəlik daxil olmalıdır.

Məktəbəqədər müəssisələrin, valideynlərlə iş formaları müxtəlifdir: canlı söz, tərbiyə işlərinin göstərilməsi, sərgilərin təşkili, pedaqoji kitabxana, valideynlərin uşaq bağçasının həyatında fəal inkişaf etməyə cəlb olunması və s. Bu işlər valideynlərlə iki istiqamətdə; fərqli və kollektiv formada aparılır.

Məktəbəqədər yaşlı uşaqların bədii qabiliyyətlərinin tərbiyəsi sahəsində valideynlərlə fərdi iş formaları - söhbətlər, məsləhətlər, ailəyə getmək, valideynlərə tapşırıq vermək və başqa tədbirlərdən ibarətdir.

Kollektiv formada valideynlər üçün ümumi məsləhətlər, qrup və ümumi valideyn iclası, sərgilər, məruzələr, məlumat, tematik stendlər və s. təşkil edilir.

Tərbiyəçi valideynlərlə şəxsən görüşdükdə, onlarla qarşılıqlı hörmət əsasında münasibətlər yaratmaq, ailəyə təsiredici kömək göstərmək, valideynlərə konkret məsləhətlər vermək imkanı əldə edir.

Ailəyə kömək valideynlərlə fərdi işin vacib sahəsi sayılır. Bu tərbiyəçiyə uşağın ev şəraiti ilə, evdə olan ümumi mühitlə tanış olmağa imkan yaradır. Nəticədə tərbiyəçi valideynlərə daha əsaslı məsləhətlər verir, evdə və uşaq bağçasında uşağa təsir edən vahid səmərəli yollar tapa bilər.

Öz tərbiyə etdiyi uşaqların ailələrinə gedərkən onların ailə şəraiti ilə tanış olur. Bundan başqa belə görüşlər tərbiyəçiyə nəinki ata və ana ilə, hətta uşağın tərbiyəsində iştirak edən digər

ailə üzvləri ilə də (bacılar, qardaşlar, nənələr, babalar və s. ilə) söhbət etmək imkanı verir.

Uşaq bağçası ailə ilə birlikdə uşağa özünün tərbiyəvi təsirini gücləndirir, uşağın hərtərəfli, o cümlədən bədii tərbiyəsini həyata keçirir. Uşaq bağçası bədii qabiliyyətlərin tərbiyəsi üzrə düzgün tərbiyə üsullarından istifadədə ailəyə kömək edir, müxtəlif tərbiyə üsullarından istifadə edərək ailə ilə birlikdə böyüməkdə olan nəslin hərtərəfli tərbiyəsini həyata keçirir.

Uşaqların bədii qabliyyətinin tərbiyəsində uşaq bağçası ilə ailə arasında uyğunluğun olmaması, bir – birinə zidd təsirlər uşaqlarda bədii tərbiyənin inkişafına, təşəkkülünə mane olur. Uşaq bağçası və ailənin uyğunlaşdırılmamış tərbiyə üsulları uşaqların psixikasına zərərli təsir edir, estetik inkişafına mənfi təsir göstərir, özünə inamsızlıq yaradır.

Hər bir uşağın qabiliyyətinə bələd olduqda, onu yaxşı tanıdıqda, pedaqoji işi düzgün qurmaq, uşaqlara düzgün yanaşmaq mümkündür. Buna təkcə məktəbəqədər yaşlı uşaqları müşahidə etmək və öyrənməklə yox, həmçinin uşağın ilk tərbiyə aldığı ailədə tərbiyənin öyrənilməsi ilə də nail olunur.

İctimai tərbiyədə olduğu kimi ailə tərbiyəsdində də tərbiyənin ideya istiqaməti birinci yerdə olmalıdır. Bu valideynlərin uşaqların hərtərəfli tərbiyəsi vəzifələrini yerinə yetirməsi və dövlət qarşısında öz məsuliyyətini başa düşməsi ilə qırılmaz surətdə bağlıdır.

Valideynlərin və ailənin bütün üzvlərinin ictimai həyat hadisələrinə canlı marağı, onlarla əməkdə fəal iştirak etməsi əmək vəziyyətinə məsuliyyətli münasibəti işində bədii qabiliyyətlərini ifadə etmək bacarığını nümayiş etdirə bilməsi, incəsənətin ən zəruri məsələlərini müzakirə etməsi, öz hərəkətlərində davranışında gözəllik yaratması və s. bütün bunlar ailədə uşaqların bədii tərbiyəsinə kömək edir.

Ailə üzvləri arasındakı mehriban, səmimi əlaqələər düzgün ailə tərbiyəsinin şərtlərindən biridir. Bu əlaqələr ümumi razılıq, maraq və hisslər, qarşılıqlı məhəbbət və hörmət mədəni və rahat

həyat şəraitinin qurulması bütün ailə üzvlərinin iştirakı əsasında yaranır.

Ailədə valideyn və ailənin digər üzvləri müxtəlif bədii yaradıcılığın uşağın hərtərəfli inkişafında əhəmiyyətini nəzərə alaraq dan, musiqi, rəsmlə, yapma, quraşdırma işləri ilə məşğul olmaq sayəsində uşaqların fiziki və əqli inkişafına, kollektivçilik hissinin formalaşmasına, vərdişlər qazanmasına, iradə və xarakter tərbiyəsinə kömək edir.

Uşaq bağçasında tərbiyəçi uşağın obrazı düzgün qavramasında müxtəlif vasitələrdən istifadə. Əsərin başa düşülməsində və ifa olunmasında, səhv olduqda pedaqoq göstərişlər, izahatlar verir. Pedaqoq uşaqların yaratdıqları obrazın bütün detallarının dəqiq təqlid edilməsini həmişə tələb etmir, uşağın öz təşəbbüsünə, hekayədə və ya şerdə düzgün intonasiyanı və s. bəyənir.

Bütün bunlarla bağlı tərbiyəçi valideynlə söhbət aparır, ev şəraitində uşağın yaradıcılıq qabiliyyətlərinin inkişafına dair öz tövsiyyələrini bildirir, məsləhətlər verir. Bu isə özlüyündə məktəbəqədər yaşlı uşağın yaradıcılıq qabiliyyətinin inkişafını sürətləndirir.

Uşaqlar mahnı, rəqs öyrənərkən daha diqqətlə ifa etmək, nümunəni gözləmək lazımdır. İstər ailədə, istərsə də uşaq bağçasında bu sahədə uşaqlara müəyyən bacarığa malik tərbiyəçi və ailə üzvü (ana, ata, bacı, nənə, baba və s.) düzgün istiqamət verməlidir. Melodiya, ahəng pozulduqda, pedaqoq (ailə üzvü, onları düzəlt-məlidir).

Uşaq bağçasının böyük qrupunda pedaqoq uşaqların öz ifadəsini daha düşünülmüş, tənqidi münasibət bəsləməsinə nail olur. Onları xeyirxah qiymət verməyə cəhd edir. Yoldaşa kömək etməyi, şeri, nağılı necə yaxşı söyləməyi, daha yaxşı oxumağı, göstərməyi təklif edir.

Böyük qrup uşaqları ilə ailə şəraitində iş apararkən tərbiyəçinin iş üsulu gözlə-nilməlidir.

Əgər ailədəki uşaqlardan biri böyük, digəri kiçikdirsə, onda valideyn də tərbiyəçinin təcrübəsini əsas götürərək kiçik uşağa kömək məqsədilə böyük uşağa bu və ya digər əsəri təkrar

söyləməyi, məhz ifadəli söyləməyi təklif etməli, sonrada kiçik uşağa müraciət etməlidir.

Xarici mühitin, xüsusilə pedaqoqun və uşaq bağçası kollektivinin estetik zövqü uşaqlarda gözəllik hissinin tərbiyə edilməsinə, estetik qavrayış inkişafına yönəldilməlidir.

Ailədə də hər bir ailə üzvü məktəbəqədər yaşlı uşaqların estetik, bədii qabiliyyətlərinin tərbiyəsi qayğısına qalmalı, onların hərtərəfli inkişafına nail olmalıdır. .

Yadda saxlamaq lazımdır ki, uşağı estetik cəhətdən tərbiyə etməklə, onlarda əxlaq tərbiyəsi üçün möhkəm əsas yaradılır.

## XIII FƏSİL

## UŞAQ BAĞÇALARINDA BAYRAMLAR VƏ ƏYLƏNCƏLƏR

**Bayramların və əyləncələrin əhəmiyyəti, onun təşkili və keçirilməsi.** Uşaq bağçasında bayram və əyləncələr keçirilməsi məktəbəqədər yaşlı uşaqların həyatında əlamətdar gündür. Bayram və əyləncələrdə uşaqların incəsənətin müxtəlif sahələri ilə tanış olurlar. Bayram və əyləncələr xüsusi məqsədlə planlı və mütəşəkkil təşkil olunur. Bu işdə müəssisənin pedaqoji kollektivi xüsusi iş aparırlar. Bu məqsədlə uşaqlar qabaqcadan hazırlanılır. Haqqındakı bilik və tövsiyyələri bir daha möhkəmləndirir.

Bayramın düzgün və maraqlı tərtibatı, keçirilməsi uşaqlarda emosiyalar yaradır, onların yaddaşında uzun müddət yaşayır.

Bayramların keçirilməsi uşaqların dünyagörüşünü genişləndirir. Onların siyasi-ictimai hadisələrlə əlaqədar bilik və məlumatları genişlənir və zənginləşir.

Bayramları həm ailədə, həm də uşaq bağçalarında elə təşkil etmək lazımdır ki, uşaqlar uzun müddət unutmasınlar. Bu yolla uşaqlar incəsənətin müxtəlif növləri ilə tanış olur, öz fikirlərini və hisslərini dərindən dərk edirlər.

Bayram və əyləncələrin hazırlanması və təşkili uşaqların əxlaq tərbiyəsində mühüm yer tutur. Onlar bir kollektivdə birləşir, birlikdə həyəcan keçirirlər.

Bayram şənliyi Dövlət himni ilə başlayır. Uşaqlar himnin sözlərini əvvəlcədən öyrənmiş olduqlarından onu böyük həvəslə xorla ifa edirlər. Folklor nümunələri, mahnılar, rəqslər vətən haqqında oxunan xorlar uşaqlarda kollektivçilik tərbiyə edir, eyni zamanda onlarda vətənpərvərlik hissi aşılayır.

Bayrama hazırlıqda binanın bəzədilməsi, uşaqların bayramsayağı geyindirilməsi, rəhgarəng repertuar, uşaqları bədii qabiliyyətlərini inkişaf etdirir.

Rəqs, xor, mahnı uşaqlarda şən əhval-ruhiyyə yaratmaqla, həm də onların fiziki sağlamlığına təkan verir.

Bayrama hazırlıq sistematik aparılmalıdır, lakin bu hazırlıq uşaq bağçasının ümumi ahəngini pozmamalıdır. Bayrama hazırlıq işində uşaqların iştirakı təmin edilərkən onların fərdi bacarıq və qabiliyyətləri nəzərə alınır. Hər bir bayram və əyləncənin məzmununda müəyyən bir ideya durur ki, uşaqlara həmin ideyalar çatdırılmalıdır. Bu ideyalar öyrədilən şerin, mahnının, rəqsin məzmununda öz əksini tapır.

Bayram və əyləncələr kiçik uşaqlar üçün 20 – 30 dəqiqə, böyük qrup uşaqları üçün 45 – 55 dəqiqə olmalıdır.

Repertuara incəsənətin müxtəlif növlərində nümunələr daxil edilməlidir, ən maraqlısı isə sona saxlanılmalıdır.

**Bayramın növləri və məzmunu.** Bayramları məzmunlarına görə aşağıdakı kimi qruplaşdırmaq olar.

1. İctimai – siyası bayramlar: "Qurtuluş günü", "Müstəqillik günü", "Respublika günü", "Qələbə bayramı", "8 mart beynəlxalq qadınlar günü", "Milli ordu günü";

2. Məişət bayramları: yeni il, novruz bayramı, uşaqların məktəbə yola salınması belə bayramlardandır. Uşaqların ad günlərinin qeyd olması.

3. Mövsümü bayramlar: payızın gəlişi, uşaqların tətilə çıxması.

İctimai – siyasi bayramlar böyük təntənə ilə keçirilir. Uşaq bağçalarının bütün kollektivi bayrama hazırlaşır, bina bəzədilir, tədbirdə bütün uşaqlar bir – birindən maraqlı çıxışlar edirlər. Müxtəlif rəqslər, tamaşalar göstərilir, mahnılar dinlənilir.

**Məişət və mövsümü bayramlar.** Məişət və mövsümü bayramlar öz məzmunu etibarilə siyasi bayramlardan fərqlənir, onun mövzusu məişətlə, uşaqların həyatı ilə bağlıdır. Bu bayramlar içərisində ən sevimli bayram yeni il və novruz bayramıdır. Yeni il şənliyində yolkaların bəzədil-məsi, şaxta babanın və qar qızın gəlməsini uşaqlar böyük həyəcanla söyləyirlər. Bu bayram həm ailədə, həm də uşaq bağçalarında keçirilir. Uşaqlar şaxta babadan hədiyyə gözləyir, əlvan bəzədilmiş yolkanın ətrafında rəqs edir, mahnı oxuyurlar.

İkinci böyük bayram novruz bayramıdır. Yazın gəlişi, təbiətin oyanması, gecə - gündüzün bərabərliyi bu bayramda öz əksini tapır, evlər təmizlənir, səməni qoyulur, yumurta boyanır, şirniyyat bişirilir, kosa – keçəl bayramın atributlarıdır. Bu bayram uşaqların əxlaq tərbiyəsində mühüm rol oynayır. Uşaqlara təzə paltar alınır, küslülər barışır, adamlar bir – birinin evinə qonaq gedir. Bunlar hamısı uşağın əxlaqına müsbət təsir edir, onlarda humanizm, mərhəmətlilik, qayğıkeşlilik tərbiyə olunur.

Mövsümü bayramlar yazın gəlməsi, uşaqların məktəbə yola salınması, uşaqların ad günləri ilə əlaqədar keçirilən bayramlardır. Bu bayram hər qrupun daxilində keçirilir.

**Əyləncələr və onların növləri.** Məktəbəqədər tərbiyə müəssisələrində müxtəlif növ səhərciklər keçirilir. Bu əyləncələri hər qrup ayda 2 – 3 dəfə keçirir. Bunun da 3 növü var:

1. Əyləncələr böyüklərin gücü ilə uşaqlar üçün təşkil olunur.
2. Səhərcik uşaqların özləri tərəfindən hazırlanır.
3. Uşaqlarla böyüklərin birgə təşkil etdikləri bayramlar.

Əyləncələrin təşkili də bir neçə tipə ayrılır: tamaşalar, konsertlət, uşaq öz- fəaliyyəti, əyləncəli idman yarışları bura daxildir.

Əyləncələrin maraqlı, şən keçməsi təriyəçinin səyindən və qabiliyyətindən asılıdır. Səhnələşdirilmiş oyunlar, kukla teatrları, mahnılar, rəqslər, əyləncəni maraqlı edir. Belə əyləncələrdə ən zəif və utancaq uşaqlar da fəal iştirak edirlər. Əyləncələr onların cəsarətini artırır, nitqinin səlistləşməsinə kömək edir.

Mövsümü əyləncələr hər hansı bir mövzu ilə bağlı olur. Payız fəslinin gəlməsi ilə bağlı keçirilən əyləncədə otaq divarları rəngli yarpaqlarla bəzədilir, tərbiyəçilər və uşaqlar sarı rəngli paltarlar geyinir, payıza aid mahnılar, şerlər səslənir. Quşların uçub getməsini təsvir edən şerlər və s. uşaqlara payız haqqında geniş məlumat verir.

İdman əyləncələri yarış xarakteri daşıyır. Burda hər komanda qələbə uğrunda çalışır. Sonda qaliblər mükafatlandırılır. Belə əyləncələr uşaq qəlbini sevinclə doldurur.

## XIV FƏSİL

## EKOLOJİ TƏRBİYƏ

**Ekoloji tərbiyənin mahiyyəti və əhəmiyyəti.** Ekologiya yunan sözü olub, iki hissədən ibarətdir. Eykos – ev, yurd, vətən və loqos – elm mənasını verir və yurd, ev, vətən anlayışları ilə qarşılıqlı əlaqədə olan məsələləri – təbiətlə orqanizm arasındakı əlaqələri öyrənir. Deməli, canlı təbiət və onun ayrı – ayrı ünsürləri xarici aləmin qarşılıqlı münasibətlərini öyrənən elm ekologiya adlanır. Elmi termin kimi ekologiya sözünü ilk dəfə 1866-cı ildə alman bioloqu Ernest Hekkel işlətmiş, sonralar təbiətşünaslıq sahəsində çalışan bir çox alimlər ekologiyanı elm kimi inkişaf etdirmişlər. Lakin bu o demək deyildir ki, əvvəllər təbiətin qorunmasına diqqət yetirilməmişdir. Ekoloji tarazlığın qorunub saxlanmasına bütün dünya xalqlarında rast gəldiyi kimi Azərbaycan folklorunda da geniş yer verilmişdir. Bunun səbəbi odur ki, insan təbii mühitsiz yaşaya bilməz. "Qurani – Kərim"də göstərilir ki, allah bütün görünən nemətləri insan üçün yaratmışdır. Lakin insan allahın verdiyi bu nemətləri dağıdıb məhv etməməlidir, öz rifahı naminə onu qoruyub saxlamalıdır. Azərbaycan şifahi xalq yaradıcılığında təbiəti və onun sərvətlərini qorumaq üçün yasaqlara, qadağalara rast gəlirik.

"Balalı quşun yuvasını dağıtmazlar", "Bar verən ağacı kəsməzlər", "Axar suya tüpürməzlər" və s. O cümlədən atalarımızın alqışları var: "Axar suyun qurumasın", "Kölgən qalın olsun", "Yanan çırağın sönməsin" və s. O cümlədən bayatılarımız vardır ki, bunların da bir neçəsini misal gətirmək olar.

Maral durduğu yerdə
Boynunu burduğu yerdə
Ovçunun qolu sınsın
Maralı vurduğu yerdə.

Belə misallardan aydın olur ki, hələ ata – babalarımız öz öyüdlərində, nəsihətlərində insanları təbiəti qorumağa çağırırdı.

Əgər bu gün biz təbiətlə vəhşicəsinə rəftar etsək, təbiət onun qisasını bizdən alacaq. Təmiz, saf bulaqlar quruyacaq, ağaclar məhv olacaq, onda da təbiətdə oksigen qıtlığı yaranacaq ki, bu da həyatın məhvi deməkdir. Təbiət bizi həm yedizdirir, həm də sağlamlığımızı qoruyur. Atalar deyib: "Əkiblər yemişik, əkirik yeyirlər". Bu nə deməkdir? Demək həyat intensiv surətdə inkişaf edir, insan isə bu inkişafın daşıyıcısıdır. Ekologiya dövlət tərəfindən də qorunmağa başlamış, hələ əsrimizin 20-ci illərində təbiəti qorumaq haqqında bir neçə dekret verilmişdir.

Ekoloji tərbiyəyə dair müstəqillik dövründə daha ciddi qərarlar verildi, meşələrin salınması, təbiətin qorunması quşların, heyvanların qorunmasına xüsusi diqqət yetirilir. Odur ki, Azərbaycan Respublikası Konstitusiyasının II fəslinin 78-ci maddəsində deyilir ki, ətraf mühitin mühafizəsi hər bir şəxsin borcudur. Buradan da aydın olur ki, təbiəti qorumaq Azərbaycan Respublikasının hər bir vətəndaşının müqəddəs borcu və vəzifəsidir.

Azərbaycan Respublikasının Konstitutsiyasında nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək üçün ölkə vətəndaşlarının ekoloji mədəniyyətinin inkişaf etdirilməsi pedaqoq alimlər, müəllim və tərbiyəçilər qarşısında mühüm vəzifə olaraq qoyulmuşdur. Mədəniyyətin formalaşdırılması fasiləsiz olaraq ailədən, uşaq bağçalarından başlayaraq, orta məktəbdə və nəhayət ali məktəblərdə aparılmalıdır.

Uşaq bağçası uşaqların dünyagörüşlərinin genişlənməsi üçün bir mərhələdir. Təhsil sisteminin ilk pilləsi olan məktəbəqədər tərbiyə uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların şəxsiyyətinin formalaşmasında və məktəbə hazırlan-masında xüsusi əhəmiyyətə malikdir. Kollektiv həyata və eyni zamanda cəmiyyətə uyğunlaşmaq baxımından bağça iki – üç yaşlı uşaqlar üçün ilk sınaq meydanı olur.

Məlum olduğu kimi müasir dünyanın ən böyük problemlərindən biri ekoloji problemdir. Ekologiyanın pisləşməsi, ətraf mühitin çirklənməsi bütün ölkələrdə olduğu kimi Respublikamızda da ciddi narahatlıq doğurur.

Elə buna görə də Prezident İlham Əliyev 2006-cı il sentyabrın 26-da Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006- 2010-cu illər üçün kompleks tədbirlər planı haqqında sərəncam imzalamışdır. Habelə Prezident sərəncamı ilə 2010-cu il "Ekologiya ili" elan edilmişdir.

Atmosferi qorumaq, təbiətin simmetriyasının pozulmasının qarşısını almaq insanların müqəddəs borcudur. Çünki təbiəti qorumaqla insan özünü qoruyur. İnsan orqanizmi təbiətlə ahəngdarlıq təşkil edir. Xalq şairi B.Vahabzadə belə təsvir etmişdir:

Həm yerin, həm göyün sirrini aşkar,
Oxudum hər gülün ləçəklərindən
Böcəklər, çiçəklər, güllər, arılar
Kim deyir ayrıdır biri-birindən?
Eşqdir yaradan təbiəti də
Çiçəklər torpağın min bir rəngidir.
Böcəklə çiçəyin məhəbbəti də
Ana təbiətin öz ahəngidir!

Ekoloji tərbiyə məqsədyönlü, mütəşəkkil proses olub təbiətin qorunmasına dair bilik, bacarıq və vərdişlər sisteminə verilməlidir. Doğma yurda, torpağa dərin məhəbbətdir. Bu məhəbbət uşaqlara erkən yaşdan aşılanmalıdır. Bununla əlaqədar tərbiyəçinin qarşısında bir sıra vəzifələr durur. Əgər tərbiyəçi təbiəti özü sevirsə, onu uşaqlara da sevdirəcək. Təbiətin qoynuna uşaqları gəzintiyə çıxararkən onların diqqətini körpə otlara, çiçəklərə yönəldir, onun gözəlliyini uşaqlara çatdırır.

Hər fəslin öz gözəlliyi var. Tərbiyəçi ayrı –ayrı fəsillərin özünəməxsus gözəlliyini onlara göstərməlidir, başa salmalıdır. Uşaqlar çox vaxt çəyirtkənin, milçəyin, qarışqanın qıçını qırıb onun hərəkətinə, çapalamasına uzun müddət baxır, xoşlarına gəlir, bunu təkrar edir. Bunu müşahidə edən yaşlılar dərhal uşaqlarla söhbət aparmalıdır, onların da canlı olduğunu, yaşamaq haqqı olduğunu başa salmalıdır.

Yalnız, tərbiyəçi uşaqları gəzməyə aparır. Tərbiyəçi uşaqlardan birinin təzə açılmış gülü qırdığını, əlində əzdiyini, sonra da atdığını görür. Belə olduqda tərbiyəçi söhbət aparır ki, əgər hər uşaq bu gülün birini qırsa burda heç nə qalmaz. Amma o güllər yerində olanda hamının zövqünü oxşayır, onlardan xoşu gəlir. Ona görə də gülləri, çiçəkləri, meyvə budaqlarını qırmaq olmaz.

Alimlər son zamanlar apardıqları tədqiqatdan bu nəticəyə gəlmişlər ki, uşaqlıq illərində canlılara, o cümlədən bitkilərə qarşı amansız olan uşaqlar böyüyəndə də qəddar olurlar.

Ekoloji tərbiyənin zəruri komponentlərindən biri vətən sevgisidir. Təbiəti sevmək, onu qorumaq, vətəni sevmək vətəni qorumaqdır. Vətən torpağının hər bir qarışı göylərə baş çəkən uca dağları, dərin dərələri, sıldırım qayaları, bərəkətli torpaqları, güllü-çiçəkli yarpaqları, bulaqları, bol sulu çayları, gölləri, Xəzər dənizi bizim üçün əzizdir. Azərbaycan təbiəti də "canlı insandır", Kür, Araz onun qollarıdır, neft buruqları damarlarından axan qanıdır. Bakı onun ürəyidir. Xəzər onun yatağıdır, dağları onun baş qoyduğu yastıqdır. Bəs bunu qorumamaq olarmı?

Ekoloji tərbiyənin başqa bir komponenti olan insanın təbiətin bir hissəsi olduğunu dərk etməsidir. Qədim Yunan filosofu Sofokl deyirdi ki, dünyadakı möcüzələrin ən böyük möcüzəsi insandır. Təbiət insana ən qiymətli sərvət olan ağıl vermişdir. İnsan öz ağlının gücü ilə təbiətin qanunlarını dərk edir, ən güclü vəhşi heyvanları özünə ram edir. İnsan özünün zəkası ilə təbiəti sadəcə seyr etmir, onu təqlid etməklə, öyrənməklə kifayətlənmir, təbiətin qanunlarını və qanunauyğunluqlarını dərk edir. Təbiətin özünü, onun florasını və faunasını dəyişdirir. Təbiətin qorunması, onun bitki və heyvanlar aləminin qorunub saxlanması bu gün də öz əhəmiyyətini itirməmişdir. İndi elə heyvanlar, elə quşlar, elə bitkilər var ki, artıq onların nəsli kəsilmək üzrədir. Bunun səbəbi nədir? İnsanların onlara qarşı qəddarlığı, heyvan da, bitki də də öz doğma yerini sevir, çox zaman onun yerini dəyişdirəndə o, məhv olur.

Ekoloji tərbiyə uşaqlarda ekoloji baxışların və mühakimənin yaradılmasma kömək göstərməlidir. Məktəbəqədər yaşlı

uşaqlar ekoloji tərbiyənin mahiyyətini bəsit formada olsa da dərk etməli, Vətənin təbiətini sevməli, təbii sərvətlərini qorumalı, onun yaxşılaşması və artırılmasında güclərinə müvafiq fəaliyyət göstərməlidirlər. Yalnız müşahidə etmək deyil, onun haqqında mühakimə yürütməyi, ətraf mühiti nə üçün qorumağın vacibliyini sadə şəkildə də olsa izah etməyi bacarmalıdırlar.

Ekoloji tərbiyə bağça yaşlı uşaqları ekologiyanın müxtəlif sahələri üzrə müvafiq bilik, bacarıq və vərdişlərlə silahlandırılmalıdır. Ətraf mühiti dərindən dərk etmək üçün onun haqqında insanda eyni təsəvvürlə yanaşı bilik də olmalıdır. Belə bilik uşaqlara bəsit formada olsa da aşılanmalıdır.

**Ekoloji tərbiyənin prinsipləri.** Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsini lazımi səviyyədə qurmaq üçün bir sıra tələblərə - prinsiplərə əməl edilməlidir:

**1.** Ekoloji tərbiyəyə uşaq şəxsiyyətini hərtərəfli inkişafının tərkib hissəsi kimi baxılmalıdır. Ekoloji tərbiyyəyə, estetik əmək və vətənpərvərlik tərbiyəsi ilə bağlıdır, onda uşaqları təbiətdə olan gözəlliyi qorumaq və qavramaq, doğma torpağın təbii sərvətini mühafizə etmək, onların qayğısına qalmaq bacarıq və vərdişlərinə yiyələnirlər.

**2.** Ekoloji tərbiyədə təbii sərvətlərin mahiyyətini anlamaq üçün məktəbəqədər yaşlı uşaqların yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalıdır. Kiçik yaşlı uşaqlara təbii ehtiyatların tükənməsi, erroziya, havanın, suyun, torpağın, bəzi

Bitki və heyvan növlərinin qeyri – insani münasibəti nəticəsində məhv edilməsini anlamaq üçün istər məşğələ, istərsə də məşğələdənkənar tərbiyəvi tədbirlər vasitəsi ilə sadə şəkildə onlara çatdırılmalıdır.

**3.** Ekoloji tərbiyə işində sistematik və ardıcıllıq gözlənilməlidir. Bu müntəzəm, planlı və məqsədyönlü həyata keçirilməlidir.

**4.** Ekoloji tərbiyə hərtərəfli aparılmalıdır. Uşaqlarda təbiətə sadə formada olsa da, münasibət formalaşmalıdır. Bu uşağın əxlaqına və xüsusən vətənpərvərlik hissinə təsir göstərməlidir.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində fəsillər üzrə torpaqda, suda və havada baş verən dəyişiklikləri bilmək də mühüm əhəmiyyət kəsb edir. Hər fəsildə təbiətdə baş verən dəyişikliklər onların biliyini, təbiət haqqında anlayışlarını zənginləşdirir, təbii sərvətlərə yanaşmada yeni imkanlar əldə etməsinə kömək edir.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində təlim xarakterli gəzintilər mühüm rol oynayır. Proqramın tələblərinə müvafiq olaraq təbiətin qoynuna təşkil edilmiş gəzinti zamanı uşaqların təbiət və onun qorunması haqqında bilikləri zənginləşir, onlar bir çox hadisələri gözləri ilə görürlər. Gəzintinin üstün cəhəti burasındadır ki, uşaqlar çayın, meşənin, gölün təmiz saxlanması, çirkab suların çaya, gölə axıdılmasının zərərini anlayır, eləcə də, təbiətdəki gözəlliyi əyani olaraq görür, bu sahədə düzgün mühakimə yürüdürlər.

Məktəbəqədər yaşın bütün mərhələlərində ətraf aləmlə tanışlıq prosesində əqli tərbiyənin vəzifələrinin yerinə yetirilməsi uşaqları digər keyfiyyətlərə də yiyələndirir. Uşaqların əqli tərbiyəsi prosesində onlarda əmək vərdişi yaranır, əxlaq və estetik hisslər təşəkkül tapır və inkişaf edir. Uşaqlarda inkişaf edən bu kimi keyfiyyətlər eyni zamanda onların əqli inkişafına əsaslı surətdə təsir edir.

Uşaqlar təbiətdə əmək prosesində qazandıqları bilik və təsəvvürləri həyatda tətbiq etməyə də geniş imkan tapırlar. Bu zaman onlarda analiz, sintez, ümumiləşdirmə, müqayisə və qismən də mücərrədləşmə kimi təfəkkür prosesi formalaşır.

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsində bir sıra üsullar vardır. Həmin üsullardan düzgün və yaradıcılıqla istifadə etmək lazımdır. Uşaqlara məlumatların verilməsi məqsədilə keçirilən məşğələlərin böyük əhəmiyyəti vardır. Təlim proqramının məzmununun dəyişdirilməsində və məşğələlərdə çalışmaq lazımdır ki, uşağa verilən hər bir yeni məlumat onun əvvəllər qazandığı biliklərlə əlaqəli olsun. Mümkün qədər onu tamamlamağa xidmət göstərsin.

Bağça yaşlı uşaqlar əhatə olunduqları təbiətlə, onun fakt və hadisələri ilə maraqlanıb onları dərk etməyə səy göstərirlər. Onların bu maraqlarına istiqamət vermək, onu daha da inkişaf etdirmək lazımdır.

Məşğələlərin təşkilində və keçirilməsində uşaqların qavrama qabiliyyətinin xüsusiyyətləri nəzərə alınmalıdır. Məşğələlər elə qurulmalıdır ki, uşaqların təbiətlə tanışlıq prosesində dünyagörüşləri, nitq və təfəkkürləri inkişaf etsin və onlarda ekologiyanı öyrənməyə meyl tərbiyə olunsun. Məşğələnin əsas məqsədi uşaqlara proqram materialını mənimsətməkdən başqa həm də sözlə yeni biliklər verməkdən və möhkəmlətməkdən ibarətdir. Bunun üçün müxtəlif metodlardan: təbiət obyektlərinin və yaşlıların əməyinin müşahidə edilməsi, didaktik oyunlar şəkillərdən müxtəlif materiallardan istifadə, bədii əsərlərin və hekayələrin oxunması, söhbətlərin aparılması və s. Məşğələ digər fəaliyyət formaları ilə sıx əlaqədardır. Hansı ki, onların biri digərini tamamlayır. Məşğələ zamanı uşaqlar öyrəndikləri bilik və bacarıqları gündəlik həyatda, əmək və oyunlarda tətbiq edirlər.

Uşaqlara təbiət haqqında bilik və təsəvvürlər verilməsi, yaxud da bunların dəqiqləşdirilməsi tərbiyəçinin iş planlaşdırılmasından başlayır.

Təbiətdə gəzinti üçün elə yerlər seçmək lazımdır ki, eniş – yoxuş , uşaqların fəaliyyətinə mane olacaq yerlər olmasın, Məktəbəqədər yaşlı uşaqların fiziki və estetik tərbiyəsi ilə əalqədar imkanlar nəzərə alınmalı, gəzintiyə getmək üçün daha mənzərəli daha cəlbedici yer seçilməlidir. Şəhər şəraitində bağlar, parklar və s. yerlər seçilir ki, bitkilərin, quşların həyatında baş verən mövsümü dəyişiklikləri müşahidə etmək üçün müəyyən imkanlar vardır. Kənd yerlərində isə meşəyə, çəmənliyə, çaya, quş və heyvan saxlanılan yerlərə aparmaq daha məqsədəuyğundur. Eyni bir təbiət obyektinə ilin müxtəlif vaxtlarında gəzintiyə getmək olar. Bu gəzintilər uşaqlara təbiətdə baş verən dəyişikliklərlə əlaqədar hadisələri müşahidə etməyi imkan verir.

Gəzintilər uşaqlara imkan verir ki, onlar öz maraq və meyllərini istiqamətləndirsinlər. Gəzinti uşaqların əqli keyfiyyətlərinə, xarakterinə, maraq və meylinə də müsbət təsir göstərir.

Uşaq bağçasında tərbiyə və təlim proqramında hər bir yaş qruplarında uşaqların təbiətdə əməyinin məzmunu müəyyənləşdirilir. Bu vəzifələri yerinə yetirmək üçün forma və üsullar seçərkən uşaqların yaşı sadədən mürəkkəbə əsas götürülür.

Məktəbəqədər yaşlı uşaqlarda heyvanlara və bitkilərə qulluq etməyə maraq oyadır. Onlara yerinə yetirilməsi üçün bacarıqlar tərbiyə edir. Çalışmaq lazımdır ki, bitkilər və heyvanlara qulluq və s. kimi sadə əmək fəaliyyətləri uşaqları sevindirsin. Təbiət guşəsindəki bitki və heyvanlar la uşaqlar il ərzində tanış olurlar. Burada onlarda canlı təbiəti sevməyə və onlara qayğı göstərməyi öyrədir.

Uşaqlara tədricən bitkiləri sulamaq, çiçəklərin iri toxumları toplamaq, bitkilərin iri yarpaqlarını silmək öyrədilir. Uşaqlar həmçinin böyüklərin bostanda məhsul toplamalarını müşahidə edir, özləri də sadə əmək tapşırıqlarını yerinə yetirirlər.

*Orta qrup* – beş yaşlılar qrupuna da uşaqlarda təbiətin fakt hadisələrinə maraq və əməyə şüurlu münasibət tərbiyə etməklə onlarda ekoloji tərbiyəyə maraq oyadır.

Həyatın birinci ilində suvarma texnkasının öyrədilməsi davam edilir. Uşaqlar bilməlidirlər ki, quru torpaq bərkdir, səpələnir, yaş torpaq isə tünd rəngdə olur. Torpağın yumşaldılması ilə tanışlıq zamanı uşaqların diqqəti ona cəlb edilir ki, bərk torpaq suyu bitkinin köklərinə buraxır, buna görə də həmin bitkilər zəif inkişaf edirlər. Torpağı ehtiyatla belləmək lazımdır. Əvvəlcə bir – birindən aralı yerləşən böyük bitkilərin dibi bellənir. Bundan başqa uşaqlar bitkinin qurumuş hissələrinin kəsilmə-sində də iştirak edirlər.

İlin ikinci yarısından başlayaraq uşaqların təbiət guşəsində növbətçiliyi təşkil edilir.

Yazda uşaqların diqqətini bostan və çiçəkliyin salınmasına cəlb etmək lazımdır.

*Böyük qrup* - böyük qrupda uşaqların təbiətdə əmək fəaliyyətlərinin dairəsi bir o qədər genişlənir, onlara daha mürəkkəb tapşırıqlar verilir. Uşaqlar artıq bitki vəheyvanlara qulluq etmək bacarığına yiyələnir və öz vəzifələrini şüurlu surətdə dərk edirlər. İşin belə təşkili uşaqlarda ekoloji tərbiyəyə maraq hissini artırır.

Uşaqların təbiətin qoynunda istirahəti, müşahidəsi və ya əməyi, bəzi ziyanverici həşəratlara qarşı mübarizəsi, ac quşların yedizdirilməsi, onların xidmətində durması, ekoloji tərbiyə baxımından çox əhəmiyyətlidir. Bu uşaqlarda ekoloji şüurun formalaşmasına şərait yaradır, onların dünyagörüşünü genişləndirir və təbiətə sonsuz maraq oyadır. Bu zaman uşaqlarda yaşıllıqdan zövq almaq hissi tədricən formalaşır. Onlarda təbiəti canlı aləmi qorumaq sahəsində ilkin vərdişlər yaranır. Ekoloji tərbiyənin vəzifəsi uşaqlarda yalnız təbiət hadisələrini müşahidə etmək, təbiətlə insan arasında tarazlığın mahiyyətini sadə şəkildə aparmaqla bitmir. Uşaqların ömrü bağça yaşı dövründən təbiətdə, yaşadığı binanın həyatində, bağçanın əkin sahəsində gözəllik yaratmaqla, əməklə məşğul olmaqla daha da mənalandırır. Bəzi körpələr evi və uşaq bağçalarının həyatyanı torpaq sahələrində müxtəlif tərəvəz və bəzək bitkiləri, çiçəklər, güllər əkilir. Bunların əkilib becərilməsində uşaqların fəal surətdə iştirakı ekoloji baxımdan təqdirəlayiqdir.

Yaxşı olar ki, uşaq bağçasının sahəsində və ya otaqlarda quşlar və heyvanlar bəslənsin. Bu ona görə lazımdır ki, uşaqlar həmin canlılar üzərində vaxtaşırı müşahidələr aparır, onlara qulluq edirlər.

Təlim – tərbiyə prosesləri ilə bir – biri ilə üzvi surətdə bağlıdır. Deməli, təlim prosesi elə təşkil olunmalıdır ki, bu şəraitdə ekoloji tərbiyə də səmərəli həyata keçirilsin. Təbiətlə rəftarın əsasını qayğıkeşlik, həssaslıq, xeyirxahlıq kimi yüksək əxlaqi hisslər təşkil edilir. Buna görə də təlim prosesində bu keyfiyyətlərin tərbiyəsinə mühüm diqqət yetirilməlidir. Məşğələlər zamanı ayrı – ayrı mövzular öyrədilərkən başlıca vəzifə uşaqların təbiəti mühafizə tərbiyəsi olmalıdır. Bunun üçün birinci növbədə ekoloji tərbiyə üçün xüsusi əhəmiyyəti olan mövzular seçilməlidir.

Ekoloji tərbiyə məşğələnin və öyrədilən mövzunun tərkib hissəsi olmalıdır. Proqram materialı dərindən şərh olunmalı, hər bir fikir uşaqların yaş və anlaq səviyyəsinə uyğun maraqlı faktlarla onlara çatdırılmalıdır.

Uşaqların ekoloji tərbiyəsi ilə əlaqədar olaraq məktəbəqədər tərbiyə müəssisələrində, tərbiyə və təlim proqramında təbiət hadisələrindən istifadəyə geniş yer verilir. Təlim prosesində uşaqlara məhəbbət, onu mühafizə edib qorumaq kimi ekoloji məzmunlu qayğıkeş münasibət tərbiyə edilməsi üçün təbiətə aid elementar biliklərə yiyələnirlər. Onu da unutmaq lazım deyil ki, uşaqlarda təbiətə məhəbbət tərbiyəsi eyni zamanda, Vətənə məhəbbət tərbiyəsinin ayrılmaz hissəsidir. Ona görə də uşaqlarda Vətənə məhəbbət tərbiyəsi ilə təbiətə məhəbbət tərbiyəsi bir – biri ilə paralel aparılmalıdır.

Gecə- gündüz havanın dəyişməsini, küləyin əsməsini, yağışın, qarın yağmasını, günəşli və dumanlı havanın dəyişməsini uşaqlara öyrətmək ekoloji tərbiyə ilə sıx bağlıdır. Təbiət mövzusunda yazılan şer və hekayələrdən istifadə də güclü təsir qüvvəsinə malikdir. Məsələn, N.Gəncəvinin "İlin fəalları", D.Dəmirlinin "Ayının dərdi", Ə. Hacızadənin "Lovğa dovşan", M.Ə.Sabirin "Ağacların bəhsi" kimi əsərləri uşaqların ətraf aləmlə tanışlığından və təbiətə münasibətində müsbət təsir göstərir.

Ümumiyyətlə bağçalarda tərbiyə alan uşaqlar təbiət haqqında bir sıra biliklərə yiyələnir. Təbiətlə qarşılıqlı münasibətdə uşaqlar bütünlüklə öz psixikalarını inkişaf etdirir. Bu da onlarda həyata inam , etiqad və real münasibətin formalaşmasına səbəb olur. Təkrarlar sayəsində duyğular, qavrayışlar, təsəvvürlər dəqiqləşdirilir, zənginləşdirilir, eyni zamanda assosiasiyalar formasında uşaqların biliklərinə çevrilir və hfizəsinin fizioloji əsasını təşkil edir.

Uşaq bağçasında doğma təbiətə məhəbbəti necə aşılamalı...? Ən əvvəl uşaqların təbiətlə ünsiyyəti təşkil olunur. Bu ünsiyyət ekskursiya, gəzinti, məşğələ, təbiətdə əmək və s. proseslərdə həyata keçirilir. Uşaqları ətraf aləmlə tanış etmək, onların müşahidələrinə istiqamətləndirmə təbiətə məhəbbətin formalaşmasına

güclü təkan verən amillərdəndir. Tərbiyəçilər bunu nəzərə alaraq gəzintilərdə uşaqları təbiətlə yaxından tanış etməyə çalışmalıdırlar. Mavi səma, sıx meşə, yağış damcılarının büllur saflığı, tünd bənövşəyi buludlar fonunda yaranan qövsi – qüzey, yaşıl xalı döşənmiş çöl bütün bunlar uşağın qəlbində dərin iz buraxır.

Uşaqların təbiətin qoynunda istirahəti, müşahidəsi və əməyi onların hər şeyi bilməsinə şərait yaradır, dünyagörüşü genişlənir, təbiətə sonsuz maraq oyadır. Onlarda bilik və bacarıqlar artır, əməyə olan meyl güclənir. Onlar ev heyvanlarını maraqla müşahidə edir, dovşanlara , balıqlara qulluq edirlər. Uşaqlar payız fəslində geniş təbiətin müxtəlif hadisələri ilə qarşılaşırlar. Ağacların saralmış yarpaqları, bu yarpaqların ayaq altında xışıldaması və s. Bu zaman tərbiyəçi qurumuş yarpaqların xəzəl adlandırdığını uşaqlara başa salır. Uşaqların ilk yaş dövrlərindən təbiətlə ünsiyyətdə olmaları onlarda xeyirxahlıq, həssaslıq, qayğıkeşlik və digər xoş hisslər tərbiyə etmək üçün ən yaxşı yoldur.

Təbiət özünün rəngarəngliyi və gözəlliyi ilə uşağın qəlbində müsbət duyğular oyadır. Uşaq hər bir addımda ondan zövq alır, müsbət mənada təəccüblənir. Bağça yaşlı uşaqlar bitkilər haqqında biliklər alarkən öyrənirlər ki, bostanlarda tərəvəzlər, bağlarda meyvələr yetişdirilir. Meşə bitkilərindən taxta – şalban əldə olunur, meşələrdə, həm də göbələk, giləmeyvə və s. bitkilər bitir. Təbiət bizə vacib olan hər şeyi verir, ona görə də onu qorumaq lazımdır. Təbiəti qorumaq ölkəmizin hər bir vətəndaşının borcudur.

Müşahidələr göstərir ki, bəzi hallarda uşaqlar çiçəkləri, kiçik ağacları sındırır, onları qorumurlar. Bu ilk növbədə ailədə valideynlərdən, uşaq bağçasında tərbiyəçilərdən ciddi iş aparmağı tələb edir.

Tərbiyəçi və valideyn çalışmalıdır ki, uşaqlarda doğma təbiətə qayğıkeşlik və həssaslıq tərbiyə etsin. Bu vəzifəni yalnız gəzintilərdə deyil, məşğələlərdə həyata keçirmək lazımdır. Uşaqlarda təbiətə, müqəddəs torpağımıza dərin məhəbbət hissi tərbiyə edərkən eyni zamanda Vətənə məhəbbət hissi tərbiyə olunur.

Tərbiyə işi elə aparılmalıdır ki, uşaqlar doğma təbiətin gözəlliyini görsün və ona valeh olsun.

Gərək uşaqlar doğma təbiətin gözəlliyini sadəcə olaraq görməklə kifayətlənməsinlər, onları öz mənəvi həyatlarının dolğunluğu kimi hiss etsinlər. Doğma təbiət uşaqlara sevinc gətirir, bu sevinc isə onu qoruyan insanlar qarşısında borc hissi ilə birləşir.

Ətraf aləmlə tanışlıq, təbiət hadisələri ilə bağlı söhbətlətin aparılması, uşaqların lüğətinin fondunu zənginləşdirir, fikir və hadisələrini daha dolğun və dürüst istifadə etməklə onlara kömək edir. Ona görə də uşaqlar gördükləri təbiət obyektləri və hadisələri ilə əlaqədar suallar verməsinə, onları düşündürəcək fakt və hadisələri qarşılaşdırılmalarına şərait yaratmaq lazımdır.

Təbiətə gəzintilərin təşkilində, bu prosesdə qarşıda duran vəzifələri müıəyyənləşdirməkdə ilin fəail xüsusiyyətləri nəzərə alındığı kimi məşğələlərdə proqram məzmunu müəyyənləşdirilərkən mövsüm hadisələrinin əsas cəhətləri nəzərə alınmalıdır. Aydındır ki, gəzintilərdə uşaqların dünyagörüşlərini genişləndirməyə daha böyük imkanlar vardır. Lakin bu imkanlardan düzgün istifadə etmək, bu zaman alınan nəticələrdən məşğələlərdə də istifadə etmək, demək olar ki, bir növ həmin işi davam etdirməkdə əsas vəzifələrdəndir.

Uşaqlar bir neçə bağ bitkisini bəzək bitkisini, tərəvəzləri, uşaqların görünüşünə görə fərqləndirir və tanıyırlar. Gəzintilərdə həmin bitkilərin yarpaqları ilə müxtəlif mövzularda maraqlı oyunlar keçirirlər. Burada əsas məsələ uşaqların həmin bitkilər haqqındakı biliklərini dəqiqləşdirməkdən və möhkəmləndirməkdən ibarətdir.

Yay fəslində uşaqlar qum, gil və bəzi başqa təbiət materialları ilə müxtəlif oyunlar oynayırlar. Buna görə də bağçanın həyətində, müvafiq yerdə qum yeşıyı və ya meydançada xüsusi yer olmalıdır.

Yuxarıda göstərilən fəaliyyətlər prosesində uşaqlar doğma təbiətin bəzi elementləri ilə tanış olurlar. Onlarda fəal lüğət zənginləşir. Uşaqlar tədricən təbiət əşyaları və hadisələrini müşahidə etməyə, onların xarakter əlamətlərini ayırmağa və düzgün adlan-

dırmağa alışdırırlar. Doğma təbiəti öyrənməyə maraq və ona məhəbbət bəsləmək, onun gözəlliyini görmək bacarığı tərbiyə olunur. Uşaqlar kiçik qrupda yaşlıların təbiətdəki əməyini ancaq müşahidə edirlərsə, bu qrupda onlar özləri artıq bu prosesdə iştirak edirlər. Bu işdə tərbiyəçiyə yaxından kömək edirlər. Onlar tədricən heyvanlara və bitkilərə qulluq etməyə, onlara ehtiyatla yanaşmağa alışdırırlar.

Bütün yaş qruplarında uşaqların ətraf aləmlə tanışlığında gündəlik gəzintilərdən istifadə olunur. Həmçinin bu gəzintilər özünün qarşıya qoyduğu məqsədlə əlaqədar olaraq bilik aşılamağı xarakteri daşıyır. Gündəlik gəzintilərin aşağıdakı vəzifələri vardır.

Uşaqların ətraf mühit haqqındakı bilik və təsəvvürlərini genişləndirmək və dəqiqləşdirmək.

Uşaqların sərbəst fəaliyyətini və tam istirahətini təşkil etmək.

Gəzinti zamanı tərbiyəçi uşaqların diqqətini əhatə olunduqları təbiət obyektlərinə yönəldir. Onlar canlı və cansız təbiət obyektlərini müşahidə edirlər. Bitki və heyvanların həyatında baş verən dəyişikliklərlə əlaqədar biliklərini möhkəmlən-dirirlər. Gəzinti proqramı yerli şəraitə uyğun, həm də rejim əsasında təşkil edilir. Nəzərdə tutulan işlər birbaşa gəzinti zamanı həyata keçirilir. Gəzintidə tərbiyəçi təbiət materiallarından, oyuncaqlardan istifadə edərək müxtəlif oyunlar da təşkil edir. Bu prosesdə uşaqların hissi tərbiyəsi artır, onlar təbiət əşyalarının keyfiyyətini bir daha öyrənirlər. Məsələn, tökülmüş yarpaqları yığır, qışda yolları qardan təmizləyir, yazda torpağın becərilməsində və əksinə hazırlanmasında iştirak edirlər.

Bu zaman onlarda bir sıra əxlaqi keyfiyyətlər, o cümlədən əməksevərlik, ictimai – faydalı əməyə yiyələnmə qabiliyyəti inkişaf edir. İctimai – faydalı əməkdə iştirak edərkən, həm də yaşlıların əməyini qiymətləndirilmə bacarığına yiyələnirlər. Əməksevərlik mahiyyəti sözdən əmələ, ideyalardan praktikaya keçməkdə istifadə olunur və zəhmətdən fərəhlənmək, zövq almaq, ondan qorxmaq, çətinlikləri aradan qaldırmaq, yaradıcı fəaliyyət

göstərmək, istehsal etdiyi məhsulun qüsursuz olması üçün məsuliyyət daşımaq və s. kimi keyfiyyətləri özündə cəmləşdirir.

Meşə, bağ, bostan, bəzək bitkilərini təkrar – təkrar və ardıcıl olaraq müşahidə etmək, şitillər əkmək, toxumlar səpib cücərməsini izləmək, bağların becərilməsini, ağacların çiçəklənməsini, kiçik meyvəciklərin yetişməsi dövrünə qədər müşahidələr aparmaq uşaqlarda həyatı həqiqətləri dərk etmək üçün əsas verir.

Məktəbəqədər pedaqogika və uşaq psixologiyası uşaqların inkişaf edə-edə tərbiyə olunması və tərbiyə oluna – oluna inkişaf etməsi prinsipləri əsas götürərək tərbiyə və təlim materiallarının uşaqların yaş və fərdi psixofizioloji xüsusiyyətlərinə uyğunluğunun əhəmiyyətini qəbul edir.

Təbiətlə tanışlıq uşaqların dünyagörüşünü genişləndirir, nitq və təfəkkürünü inkişaf etdirir.

Unutmaq olmaz ki, pedaqoji qanunauyğunluqları bilmədən inkişaf prosesinin xüsusiyyətlərini açmaq olmaz. Digər tərəfdən pedaqogika nəzəriyyəsinin müəyyən hissəsi psixologiya və fiziologiyanın məlumatları əsasında qurulur.Ona görə də uşaq pedaqogikası və psixologiyası müəyyən cəhətdən birləşir və vəhdətdə daha səmərəli təsir gücünə malik olur və məktəbəqədər yaş dövründə uşaqlar oyun və əmək prosesində, müxtəlif məşğələlərdə yaşadıqları və əhatı olunduqları ictimai mühit və ətraf aləmlə tanışlıq haqqında biliklərə yiyələnirlər.

# XV FƏSİL

## UŞAQ BAĞÇASINDA OYUNLAR

**Oyunun mahiyyəti və əhəmiyyəti.** Oyun, məktəbəqədər yaşlı uşaqların əsas fəaliyyətidir. Oyunda varlığın obrazlı təsirli əksi baş verir. Uşaqlar oynayarkən həyatın müxtəlif hadisələrini təsvir edir, böyükləri təqlid edirlər. Oyunda uşaqlar qarşılarına şərti məqsəd qoyurlar ki, bunlara nail olmaq uşaqları cəlb edir və sevinc gətirir.

Məktəbəqədər yaşlı uşaqların həyatında oyun müstəsna əhəmiyyətə malikdir. Uşaqlar üçün oyun ciddi tərbiyə vasitəsidir. Onlar oyun prosesində həyati dərk etməyi öyrənirlər. Uşaq oynayarkən materialın rəngini, formasını, xassələrini, məkan münasibətlərini və kəmiyyətini öyrənir, bitkilər, heyvanlar haqqında müəyyən təsəvvür əldə edirlər.

Başqa sözlə, uşaqlarda dünyagörüş genişlənir, təfəkkürü, nitqi və hafizəsi zənginləşir. Bu zaman onlar yeni – yeni biliklər qazanmaqla bərabər həm də öncə mənimsəmiş olduqları məlumatlara əsaslanaraq düşünür, müəyyən təhlillər, başqa sözlə analiz, sintezlər aparır və ümumi nəticəyə gəlirlər.

Oyunda uşaq yaradıcılığı meydana gəlir. Onlar gördükləri fakt və hadisələrə münasibət göstərməyə də səy göstərirlər.

Oyunlar uşaqların maraq dairəsinə daha uyğun olduğundan hər bir yaş qrupunda təşkil edilməsi tərbiyə işinin mühüm istiqaməti hesab edilir.

A.S.Makarenko uşaqların inkişafında oyunun çox böyük rol oynadığını qeyd edərək, onu yaşlıların həyatında əməyin oynadığı rola bərabər hesab edirdi. Böyük pedaqoq bu məqsədlə yazırdı: "Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq hansı əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun bir o qədər vacib və əhəmiyyətlidir. /A.S.Makarenko Seçilmiş pedaqoji əsərləri, 1-ci cild, Bakı 1983/.

Xüsusən məktəbəqədər dövrdə oyun uşağın diqqətini daha çox cəlb edir, onun əsas mahiyyətini başqa sözlə həyatının mənasını təşkil edən əsaslardandır.

göstərmək, istehsal etdiyi məhsulun qüsursuz olması üçün məsuliyyət daşımaq və s. kimi keyfiyyətləri özündə cəmləşdirir.

Meşə, bağ, bostan, bəzək bitkilərini təkrar – təkrar və ardıcıl olaraq müşahidə etmək, şitillər əkmək, toxumlar səpib cücərməsini izləmək, bağların becərilməsini, ağacların çiçəklənməsini, kiçik meyvəciklərin yetişməsi dövrünə qədər müşahidələr aparmaq uşaqlarda həyatı həqiqətləri dərk etmək üçün əsas verir.

Məktəbəqədər pedaqogika və uşaq psixologiyası uşaqların inkişaf edə-edə tərbiyə olunması və tərbiyə oluna – oluna inkişaf etməsi prinsipləri əsas götürərək tərbiyə və təlim materiallarının uşaqların yaş və fərdi psixofizioloji xüsusiyyətlərinə uyğunluğunun əhəmiyyətini qəbul edir.

Təbiətlə tanışlıq uşaqların dünyagörüşünü genişləndirir, nitq və təfəkkürünü inkişaf etdirir.

Unutmaq olmaz ki, pedaqoji qanunauyğunluqları bilmədən inkişaf prosesinin xüsusiyyətlərini açmaq olmaz. Digər tərəfdən pedaqogika nəzəriyyəsinin müəyyən hissəsi psixologiya və fiziologiyanın məlumatları əsasında qurulur.Ona görə də uşaq pedaqogikası və psixologiyası müəyyən cəhətdən birləşir və vəhdətdə daha səmərəli təsir gücünə malik olur və məktəbəqədər yaş dövründə uşaqlar oyun və əmək prosesində, müxtəlif məşğələlərdə yaşadıqları və əhatı olunduqları ictimai mühit və ətraf aləmlə tanışlıq haqqında biliklərə yiyələnirlər.

# XV FƏSİL

## UŞAQ BAĞÇASINDA OYUNLAR

**Oyunun mahiyyəti və əhəmiyyəti.** Oyun, məktəbəqədər yaşlı uşaqların əsas fəaliyyətidir. Oyunda varlığın obrazlı təsirli əksi baş verir. Uşaqlar oynayarkən həyatın müxtəlif hadisələrini təsvir edir, böyükləri təqlid edirlər. Oyunda uşaqlar qarşılarına şərti məqsəd qoyurlar ki, bunlara nail olmaq uşaqları cəlb edir və sevinc gətirir.

Məktəbəqədər yaşlı uşaqların həyatında oyun müstəsna əhəmiyyətə malikdir. Uşaqlar üçün oyun ciddi tərbiyə vasitəsidir. Onlar oyun prosesində həyati dərk etməyi öyrənirlər. Uşaq oynayarkən materialın rəngini, formasını, xassələrini, məkan münasibətlərini və kəmiyyətini öyrənir, bitkilər, heyvanlar haqqında müəyyən təsəvvür əldə edirlər.

Başqa sözlə, uşaqlarda dünyagörüş genişlənir, təfəkkürü, nitqi və hafizəsi zənginləşir. Bu zaman onlar yeni – yeni biliklər qazanmaqla bərabər həm də öncə mənimsəmiş olduqları məlumatlara əsaslanaraq düşünür, müəyyən təhlillər, başqa sözlə analiz, sintezlər aparır və ümumi nəticəyə gəlirlər.

Oyunda uşaq yaradıcılığı meydana gəlir. Onlar gördükləri fakt və hadisələrə münasibət göstərməyə də səy göstərirlər.

Oyunlar uşaqların maraq dairəsinə daha uyğun olduğundan hər bir yaş qrupunda təşkil edilməsi tərbiyə işinin mühüm istiqaməti hesab edilir.

A.S.Makarenko uşaqların inkişafında oyunun çox böyük rol oynadığını qeyd edərək, onu yaşlıların həyatında əməyin oynadığı rola bərabər hesab edirdi. Böyük pedaqoq bu məqsədlə yazırdı: "Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq hansı əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun bir o qədər vacib və əhəmiyyətlidir. /A.S.Makarenko Seçilmiş pedaqoji əsərləri, 1-ci cild, Bakı 1983/.

Xüsusən məktəbəqədər dövrdə oyun uşağın diqqətini daha çox cəlb edir, onun əsas mahiyyətini başqa sözlə həyatının mənasını təşkil edən əsaslardandır.

Oyun prosesində uşaqlar həyatın müxtəlif hadisələrini təsvir edir, yaşlıları təqlid etməyə çalışırlar.

Oyun zamanı uşaqlarda yaşlıların hərəkət və davranışlarında müsbət və mənfi keyfiyyətləri özündə yaratmağa maraq göstərir, onlara bənzər hərəkət edir, danışır və sanki düşünürlər. Oyun prosesində onların təsəvvürləri, hafizəsi daha çox fəal olur, hadisələri və əxlaqi – iradi keyfiyyətləri sürətlə inkişaf edir.

Uşaqlar oyun prosesində öz təəssüratlarını daha asanlıqla və emosional şəkildə ifadə etməyə çalışırlar. Bu və ya digər oyunda uşaqlar yaşlıların fəaliyyətini izləməyə, onu öyrənməyə həm də ətraf aləmlə tanış olurlar. Oyun prosesində əşyalara baxmaq, onları müşahidə etmək, onlara toxunmaq, ələ götürmək, hərəkətə gətirmək kimi arzular, istəklər yaranır. Oyun uşaqların yaşadıqları və dəyişməli olduqları aləmi dərketmə yoludur.

Bu mənada demək olar ki, oyun uşaq həyatını qidalandırır, onu rəngarəng və maraqlı edir.

Bir çox pedaqoji və psixoloji ədəbiyyatlarda pedaqoq – psixoloqlar, bu sahədə tədqiqat aparan alimlər uşaq oyununun mahiyyətini, müxtəlif yaş qruplarında onların həyatında oyunun tutduğu mövqeyi, oyunun təşkili və ona rəhbərlik məsələlərini geniş işıqlandırmışlar.

Azərbaycanın böyük pedaqoqu, professor M.Muradxanov oyunu iki mənada qəbul etmiş və göstərmişdir ki, birincisi, uşağın oyuncaqla və oyuncaqsız oyunla məşğul olması; ikincisi, uşağın bütün həyatının, məişətinin, işinin, təlimdən kənar bütün yaşayışının oyun şəklində təşkil edilməsidir.

Məktəbəqədər dövrdə uşaq həyatının çox hissəsini oyunla oynamaqla keçirir, bununla belə bəzi xırda (əmək tapşırıqları) vəzifələri yerinə yetirir (balığın, yəni akvariumun suyunu dəyişir, oyuncaqlarını səliqəyə salır, balıqlara yem verir və s.). Bu işləri o, çox vaxt oynaya – oynaya görür. Başqa sözlə uşaq oyunla əmək arasında fərq qoymaqda çətinlik çəkir. Əmək tapşırığını yerinə yetirərkən özünü oyunda olduğu kimi hesab edir.

Məktəb yaşına çatan uşağın həyatında iş böyük yer tutur. O, hər gün dərsə hazırlaşır, ictimai – faydalı əməyə qoşulur, işə mə-

suliyyətlə yanaşır. Lakin məktəbəqədər yaş dövründə o, oyunu sevir, oynamaq istəyir.

Oyun uşağın əqli – psixoloji inkişafında özünəməxsus əhəmiyyət kəsb edir. Uşaqlarda fikri fəallıq artır. Uşaqda oyun zamanı fəaliyyət, iradi səylər, diqqət formalaşır. Həyata nikbin baxış, emosionallıq inkişaf edir. Əhatə olunduğu mühitin zənginliyini hiss edir.

Məktəbəqədər yaşlı uşaqların oyunlarını tədqiq edən tədqiqatçılardan L.S.Viqotski, A.N.Leontyev, F.İ.Fradkina, A.P.Usova, A.İ.Sorokina, Azərbaycanda Ə.Həşimov, İ.Musayev, Ə.Qədimbəyova, S.Axundova, S.Salamova və b. tərəfindən maraqlı elmi – pedaqoji fikirlər irəli sürülmüşdür.

Bu tədqiqatlarda məktəbəqədər yaşlı uşaqların oyunun mahiyyəti, məzmunu və özünəməxsusluğu, tərbiyədə onun rolu və uşaq bağçasının fəaliyyətində yeri müəyyən edilmişdir. Pedaqoji elm oyunu fəal yaradıcı, məqsədyönlü fəaliyyət hesab edir.

Məktəbəqədər uşaqlıq dövrü qısa, amma çox zəruridir. Ona görə ki, bu zaman şəxsiyyətin formalaşması üçün çox mühüm dövrdür. Həyatın birinci altı ili ərzində uşaq ətraf aləm haqqında ilkin biliklərə yiyələnir, onda insanlara, əməyə, təbiətə ayrı – ayrı münasibətlər formalaşmağa başlayır, düzgün davranış üçün adət və vərdişlər toplanır, xarakter tərbiyə olunur.

Uşaqlarda hərəki fəallıqla yanaşı, fiziki fəaliyyət də inkişaf edir. Oyun prosesində uşaq hissi və fiziki səy göstərir, zehni və fiziki əmək estetik cəhətdən inkişaf edir. Onun diqqəti, yaddaşı, fikri, intizamlılığı, çəldliyi formalaşır. Bunlardan başqa oyun öz obrazlılığı ilə məktəbəqədər yaş dövründə uşağın təcrübəni mənimsəməsinə şərait yaradan bir fəaliyyətdir.

Oyunda uşaq şəxsiyyəti bütün cəhətlər üzrə formalaşır, onun psixikasında böyük dəyişikliklər gedir. Bütün bunlar oyunun mühüm tərbiyəvi imkanlara malik olduğunu göstərir. Psixoloqlar bunu məktəbəqədər yaşlı uşaqların inkişafının aparıcı fəaliyyəti hesab edirlər.

Oyun – sərbəst fəaliyyətdir. Onları ümumi məqsəd birləşdirir. Uşaq oyunda ümumi maraq və həyəcanlar keçirir. Uşaqların

hərəkətində yaradılan oyunları özləri keçirir, təşkil edirlər. Belə oyunlar zamanı heç bir fəaliyyətdə ciddi qayda, idarəedici davranış olmur, lakin bütün oyunlara tərbiyəçi nəzarət edir. Uşaq oyunları əsasən başqa tərbiyə vasitələri kimi uşaq həyatının və pedaqoji prosesin təşkilinə uyğun qurulmalı və aparılmalıdır. Müəyyən edilməlidir ki, pedaqoq – tərbiyəçi uşaqlarla necə oynamalıdır, onun iştirakı və rəhbərliyi nə ilə və necə özünü büruzə verməlidir?

Uşağın oyuna olan tələbinin səbəbi İ.M.Seçenov və İ.P.Pavlovun təlimi nöqteyi – nəzərindən daha da aydın olur. İ.M.Seçenov insanın sinir – psixi fəaliyyətini anadangəlmə bəzən qiymətli "xassəsi" - ətrafdakını anlamağa şüursuz səyin göstərməsi haqqında da bəhs edir. İ.P.Pavlov bu xüsusiyyəti təxmini müşahidə refleksi adlandırır. İ.M.Seçenov və İ.P.Pavlov sinir fəaliyyətinin ətraf aləmlə tanışlıq üçün mühüm olan digər keyfiyyətlərini – təqlidə olan səyi də göstərirlər.

İ.M.Seçenov qeyd etmişdir ki, ətrafdakını anlamaq səyi uşaqda adətən onların yaşıdlara müraciət etdiyi suallarında, eləcə də oyunlarında ifadə olunur. Uşağın oyuna olan marağı, təqlidetmə meylini daha da gücləndirir, bu da Seçenovun fikrincə uşağın əqli və əxlaqi inkişafı üçün çox mühümdür. Eyni hərəkətlərin, sözlərin dəfələrlə təkrar edilməsi beyində möhkəm əlaqələr yaradılmasına fikirlərin, hisslərin, davranışların formalaşmasına kömək edir.

Uşaqların ətraf aləmi dərk etməsindən oyunun rolu ona görə mühümdür ki, o, mövzunu məhz həyatdan götürür. Yəni uşağı oyun yaratma bacarığı onun dünyagörüşünün səviyyəsi ilə əlaqədardır. Ona görə də əqli cəhətdən daha çox inkişaf etmiş uşaqlar həyati hadisələrlə bağlı çoxlu sayda oyunlar yaradır və orada özləri aparıcı olurlar. Ancaq xarakterik bir haldır ki, hər bir uşaq öz valideynlərinin, yaxud yaxın adamlarının peşə xüsusiyyətləri ilə əlaqədar və fantaziyalarına uyğun məzmunda oyunlar qurmağa üstünlük verir və buna əsasən nail olurlar.

Anası orta məktəbdə və ya uşaq bağçasında müəllimə olan qız gələcəkdə müəllimə olacağını söyləyir və "Müəllim şagird" oyunu oynayırlar.

Uşaqların dünyagörüşünün genişləndirilməsi də oyunların müxtəlif istiqamətlərdə təşkili və aparılması tərbiyəçidən yaradıcı pedaqoji bacarıq tələb edir.

Bunun üçün öncə uşaqların əqli inkişafı və tərbiyəsinin xüsusiyyətləri nəzərə alınır. Bu məqsədlə tədqiqat materiallarından məlum olur ki, məktəbəqədər yaş dövrünün bütün mərhələlərində oyunlardan istifadə etmək səmərəli nəticə verəcəkdir.

Uşaq öz oyununda öyrəndiyi nağıldakı sevimli qəhrəmanını təsvir edərkən əvvəlcə onun diqqəti daha çox cəlb edən xarici cəhətlərini, sonra danışıq və davranış, idraki cəhətləri, əxlaqi keyfiyyətlərini təqlid edir. O, özünü sevimli obrazla birləşdirir, onun hissləri ilə yaşayır, xeyirxah hisslərin, səylərin onun şüurunda tez – tez təkrar edilməsi uşağın özündə həmin keyfiyyətlərin yaranmasına və inkişaf etməsinə səbəb olur. Ona görə də oyunun məzmunu, ifa olunan rol şəxsiyyətin formalaşmasına, əqlinin inkişafına fikirləşə, nəticələr çıxarma yeri gəldikdə onlardan istifadə etmə qabiliyyətini inkişaf etdirilməsi böyük təsir göstərir.

Beləliklə, hər bir uşağa ətrafdakılarla tanış olmaq, yaşlıları təqlid etmək səyi məxsusdur. Bu səy isə öz əksini ən çox oyunlarda tapır. Uşaqların sürətli inkişaf tempi, hər şeyi öyrənmə meyli orqanizmə məxsus olan hərəkət tələbi, fəallıq, çəldlik, şənlik, onların oyuna olan tələbatını artırır və təhrik edir.

Məktəbəqədər yaşlı uşaqların əqli inkişaf xüsusiyyətlərinin öyrənilməsi –"nə üçün uşaq oynayır?" sualına cavab tapmağa kömək edir.

Cavab isə bundan ibarətdir ki, dünyaya yenicə gələn hər bir uşaq yaşamalı olduğu varlığı (az bir vaxtdan sonra) həm də öyrənməlidir. Bunun üçün əqli cəhətdən inkişaf etməlidir.

Uşaq oyunlarının məzmununa daha əhatəli baxdıqda görürük ki, onun səmərəli təşkil və tərbiyə təsir şəraiti ilə müəyyən edilir.

Oyunun əsas psixoloji xüsusiyyəti ondan ibarətdir ki, o, uşaq şəxsiyyətinin bütün cəhətlərinə toxunur: onda fikirlər fəal işləyir, o, emosiyalarla zəngindir, fəal fəaliyyət, iradi səy tələb edir. Əsil yaxşı oyunda həmişə uşaqların əqli və fiziki qüvvəsini səfərbər edən cəlbedici məqsəd olur; bu məqsədlə müstəqil surətdə nail olmaq, qarşıya çıxan çətinliklərin aradan qaldırılması uşaqı düşündürür. Onda sevinc yaradır, onun fiziki və əqli fəallığını artırır. Burada tərbiyəçi uşağın fantaziyasının real həyatla əlaqəsini açmağa və onlara anlatmağa nail olur.

Oyun təsəvvürü canlı işi ilə bağlıdır. Uşaqlar rola asan daxil olur, adətən çoxlu uydurur, xəyala qapılırlar.

Pedaqogika oyun yaradıcılığına tərbiyənin bütün istiqamətlər üzrə nəticəsi kimi baxırlar. Təsəvvürün zənginliyi bilikdən, təcrübədən, aparılan tərbiyə işindən asılıdır. Yaradıcı fantaziya oyunda birdən – birə yaranmır, o, həyatın, nağılların, hekayələrin, mənzərələrin və s. digər fakt və hadisələrdən alınan təəssüratların təsiri ilə tədricən yaranır və inkişaf edir.

Oyunun maraqlı keyfiyyətli təşkilin nəticəsi olaraq uşaq oyuna elə aludə olur ki, bəzən o, sanki oyunu həqiqətlə qarışdırır, özünün təyyarəçi, kuklasının canlı qız olduğuna səmimi qəlbdən inanır. Bununla belə çoxlu müşahidələr göstərir ki, uşaqlar adətən oyunu həqiqi həyatdan fərqləndirirlər. Əbəs deyildir ki, bütün uşaqlar "düzü", "elə bil", "qəsdən" sözlərini işlədirlər. Lakin oyunda uşaqların həyəcanları həmişə səmimi, hissləri gerçək, saf olur. Uşaqlar təsvir olunana heç vaxt laqeyd qalmırlar.

Məktəbəqədər pedaqogika bir elm olaraq bunu fəal, yaradıcı, məqsədə yönəldilən fəaliyyət hesab edir. Oyunun mahiyyəti, onun təhlili və ümumiləşdir-mələrin aparılması bir daha sübut edir ki, uşağın hərtərəfli inkişafı oyunla bağlıdır.

Ətrafdakılar haqqında təsəvvürlər oyunlarda əks olunur, bunun sayəsində təsvir olunanlar haqqında məlumatlar və anlayışlar daha da inkişaf etdirilir, dəqiqləşdirilir, əqli qabiliyyətlər təkmilləşdirilir. Oyunun məqsədinə nail olmaq mərkəzləşdirilmiş diqqətin, yaddaşın gərgin işini, təxəyyül, zirəklik, hazırcavablıq tələb edir. Oyunda uşaqlar işlətdikləri əşyaların xassələri ilə tanış

olurlar. Məsələn; kuklalar ölçülərinə, hazırlandıqları materiala görə fərqlənirlər. Tikinti mateialı müxtəlif formaya malikdir, oyuncaqlar müxtəlif rənglərlə boyanmışdır.

Uşaqların nitq və təfəkkürlərinin inkişafında oyunun rolu böyükdür. İnsanın hər bir fəaliyyəti kimi oyun da sözlə müşayiət olunur. Hətta ən kiçik uşaqlar belə öz hərəkətlərini sözlərlə ifadə edir, obrazlar yaradır. Kollektiv şəkildə keçirilən oyunda nitq xüsusilə böyük əhəmiyyət kəsb edir, burada söz uşaqlar üçün ünsiyyət, hərəkətlərin razılaşdırılması, uşaqlar arasında razılıq vasitəsidir. Hər bir oyunda uşaq öz fikrini əlaqəli, yoldaşları üçün aydın ifadə etməli, ifadəli tərzdə danışmalıdır. Ona görə də oyun nitqin inkişafına lüğət fondunun zənginləşməsinə kömək edir.

Oyunda uşaqlar məsələlər ətrafında fikirləşir və məntiqin müxtəlif cəhətlərini mənimsəyirlər, bu prosesdə doğma dilin zənginliyi ilə tanış olurlar.

Oyun və əyləncələr uşağa məcburi yük deyil, əksinə onların arzu və istəklərindən irəli gələn fəaliyyətdir. Ona görə də onların bu prosesdə dil açması nəyin isə adını yaşlılardan, o cümlədən tərbiyəçidən xəbər alması, nəyi isə öyrənməsi, fikrini başqalarına çatdırmaq məqsədilə müvafiq söz tapması, onu cümlələrlə ifadə etməsi üçün əlverişlidir.

Oyunda uşaqlara xas olan sıxıntı, utancaqlıq aradan qalxır, onlarda axtarıcılıq, çeviklik artır, əqli fəaliyyəti inkişaf edir, lüğət fondu zənginləşir. Bununla belə, uşaqlar heç də həmişə yoldaşım oyunda iştirak etməyə dəvət edə, oyunun mənasını ona izah edə, oyuncağı, materialı, rolları bölüşdürə, münaqişəni həll edə bilmir. Ona görə də tərbiyəçi uşaqlara oyunda yoldaşı düzgün seçməyi, yaşıdları ilə canlı ünsiyyətə girməyi, kollektivdə davranmağı, yarış xarakterli oyunlarda ancaq özü üçün deyil, həm də ümumi qrup üçün düşünməyi öyrədir. Canlı ünsiyyət qurarkən nəzakətli müraciət qaydalarına uyğun davranmaq öyrədilir.

Oyun maraqlı təşkil olunarsa, qarşıya qoyulmuş vəzifələr anlaşıqlı olarsa, uşaq ondan daha çox faydalanacaqdır. Onun məzmununu öyrənməklə əqli cəhətdən də inkişaf edəcəkdir. Nitq ünsiyyətinə girməyi öyrənmiş uşaqlarda istər – istəməz eşitdikləri

haqqında fikirləşəcək və özü – özlüyündə əqli fəaliyyətdə olacaqdır.

Bütün bunlar oyunun uşaqların məntiqi təfəkkürünün və lüğət ehtiyatının zənginləşdirilməsi üçün çox etibarlı, əlverişli vasitə olduğunu göstərir. Çünki məktəbəqədər yaşlı uşaqların lüğət ehtiyatının zənginləşdirilməsi onların ətraf aləmlə tanışlığı ilə eyni vaxtda gedir. Ətraf aləmlə tanışlıq günün bütün vaxtlarında baş verir. Onlar rastlaşdıqları hər hansı bir əşya və hadisənin, yerinə yetirdiyi hər hansı fəaliyyətin adını, mahiyyətini, xassəsini nəyə lazım olduğunu, nədən hazırlandığını öyrənməyə çalışırlar. Onlara bu işdə yaxın köməkçi və istiqamətverici olmalıdır

Nəzərə alınmalıdır ki, öyrənmək məqsədi ilə verilən suallara cavab vermək onların əqli tərbiyəsinin əsasını təşkil edir.

Oyun və əyləncə uşaqların təsəvvürlərini inkişaf etdirir. Onlar hər bir sözü eşidərkən onun nəyə aid olduğunu müəyyənləşdirirlər, daha doğrusu müəyyənləşdirməyə çalışırlar. Bu zaman onlar həmin sözün arxasında hansı əşya və ya hadisənin durduğunu bilmək istəyir, öyrənməyə səy göstərirlər. Uşaq sözün mənasını (göstəricisini) bilmədən ondan istifadə edə bilər, lakin, bunun heç bir pedaqoji və psixolioji əhəmiyyəti yoxdur. Bu halda uşağın həmin sözləri yaddaşda da saxlaması və ondan istifadə etməsi çətin olur.

Deməli, məktəbəqədər müəssisənin kiçik qrupundan başlayaraq sözlərin mənasını başa düşərək yadda saxlama bacarığının inkişafı o cümlədən oyun prosesində fəal lüğətin zənginləşməsi üzrə işin düzgün təşkili nəticə etibarilə təfəkkürün normal inkişafına xidmət edir. Bir – birilə sıx vəhdətdə olan nitq və təfəkkürün normal inkişafı təmin edilmədən isə uşaqların ümumi inkişafını, məktəb yetkinliyini təmin etmək, onları məktəbə əqli cəhətdən hazırlamaq mümkün deyil. Məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin istiqamətləri müxtəlifdir. Onlardan yalnız əqli tərbiyənin deyil, fiziki inkişafında da oyunlar mühüm rol oynayır.

Oyun uşaqları fiziki tərbiyəsinin səmərəli getməsi üçün zəruridir. Uşağın fəal iştirak etdiyi oyunlar onun fiziki qüvvələrini səfərbər edir. Onların əqli qabiliyyətlərini səfərbər etmələrinə

şərait yaradır. Buna görə də uşaq orqanizminin həyat fəaliyyəti yüksəlir, onlarda gümrah, şən əhval – ruhiyyə yaranır. Mütəhərrik oyunlar uşaqda hərəkətlərin inkişafı, orqanizmin möhkəmləndirilməsinin əsas vasitəsidir. Bu vəzifələrin yerinə yetirilməsi üçün tərbiyəçi onları bacarıqla seçməli və onlardan bacarıqla istifadə etməlidir. Onların üzərində düzgün rəhbərliklə yanaşı şəraitin də yaradılmasına nail olunmalıdır.

Oyun əxlaq tərbiyəsinin vəzifələrinin yerinə yetirilməsində mühüm vasitədir. Müxtəlif yaş qruplarında oyunlar zamanı uşaqlarda vətənpərvərlik, kollektivçilik, yoldaşlıq, dostluq, doğruçuluq, düzlük, ədalətlilik və s. kimi müsbət əxlaqi keyfiyyətlər tərbiyə olunur.

Oyunda uşaqlarda kollektivçilik hissi və kollektiv həyatın ilk vərdişləri tərbiyə edilir. Tərbiyəçi, uşaqlara oyunda yoldaşları ilə hesablaşmağı, onların qayğısına qalmağı, kollektivi qiymətləndirməyi və sevməyi, mübahisəli məsələləri ədalətlə, birgə həll etməyi öyrədir. Oyunun təşkilində başlıca cəhətlərdən biri də rolların uşaqlar arasında düzgün bölüşdürülməsidir. Baş rollarda hər bir uşağın iştirak etməsinin təmin olunması yaxşı nəticə verir. Hər bir uşağı kollektvin fəal üzvü kimi tərbiyə etmək lazımdır: oyunda bunun üçün böyük imkanlar vardır. Lakin bu şərtlə ki, oyunda diqqətli, bacarıqlı rəhbərlik olsun. Əgər belə rəhbərlik yoxdursa, uşaqlar arasında düzgün olmayan münasibətlər də ola bilər: diribaş, cəsarətli uşaqlar təşəbbüsü öz əllərinə alır, başqalarının, bəlkəə də onlardan az inkişaf etməyən, lakin cəsarətsiz, utancaq uşaqların fəaliyyətini boğarlar. Ən yaxşı tərbiyəçilərin təcrübəsi göstərir ki, hər bir uşağa baş və ikinci dərəcəli rolları ifa etməyi, təşkilatçı və icraçı olmağı öyrətmək olar. Düzgün rəhbərlik nəticəsində uşaqlarda razılığa gəlməklə iş görmək bacarığı, tapşırılmış rolu ifası üçün məsuliyyət hissi tərbiyə edilir.

Oyun estetik tərbiyənin mühüm vasitəsidir. Oyunda uşağın fantaziyası, yaradıcı qabiliyyəti tərbiyə edilir. Uşaqlar oyunda varlığı yaradıcı surətdə xəyallarında canlandırır, göstərilən əşyaya öz münasibətlərini, fikirlərini və hisslərini ifadə edirlər. Tərbiyəçinin vəzifəsi uşağın fantaziyasını həyatın düzgün təsvirinə

yönəltməklə, ixtiraçılığı, məqsəd qoymaq qabiliyyətini inkişaf etdirməkdən ibarətdir. Oyuncaqların düşünülmüş şəkildə seçilməsi bədii zövqün tərbiyə edilməsinə kömək edir. Mütəhərrik oyunlarda hərəkətin gözəlliyi və ritmi inkişaf edir.

Oyun əmək tərbiyəsi vəzifələrinin yerinə yetirilməsinə kömək edir. Böyüklərin əməyinin əks etdirilməsi uşaqlarda işləmək arzusu oyadır, əməyə maraq və hörməti artırır. Bir çox oyunlar əməklə bağlıdır: uşaqlar oyuna lazım olan vəsaitləri düzəldir, kukla paltarlarını yuyurlar. Oyunda əmək üçün keyfiyyətlər: qoyulan məqsədə nail olmaq, çətin məsələləri həll etmək vərdişi, yoldaşlarla razılıqlı iş görmək bacarığı tərbiyə edilir.

Proqram tələbinə görə tərbiyəçi uşaq oyununun seçilməsinə və onun təşkilinə xüsusi əhəmiyyət verməlidir. Tərbiyəçi oyunun qaydasının, gedişinin və nəticəsinin düzgün olmasına, bu qaydaların pozulmamasınıa başqa səmtə yönəltməməsinə nəzarət edir.

A.S.Makarenko deyirdi ki, "Uşaq oyunda necədirsə, gələcək həyatda da elə olacaqdır". "Yaxşı oyun" necə olmalıdır? Oyunun məzmunu tərbiyəedici və öyrədici olub, uşaq şüurunda düzgün əks olunmalıdır. Məqsədyönlü, fəal, yaradıcı və yaxşı təşkil olunmalıdır. Oyun qaydalarına riayət olunmalı, oyunda bütün uşaqların intizamı təmin olunmalıdır.

Oyuna rəhbərlik edən tərbiyəçi uşaqları doğrucul, sədaqətli, cəsarətli olmağa alışdırır, onların təfəkkürünü, hisslərini, iradəsini, davranışını inkişaf etdirərək əqli, əxlaqi, estetik və fiziki inkişafına nail olur.

Oyunda bu keyfiyyətlərin təzahürünün müxtəlif halları olur. Bu zaman uşağın fərdi xüsusiyyəti özünü göstərir.

Oyun prosesində uşaqların ətraf aləmlə əlaqədar bilik və təsəvvürü zənginləşir.

Bəzən onların oyunlarında əmək ünsürlərində özünü biruzə verir. Tərbiyəçi uşaq oyunlarını həmişə müsbət tərəfə istiqamətləndirir ki, uşaqlarda vətənpərvərlik, hərbi vətənpərvərlik, dostluq, kollektivçilik kimi hissləri tərbiyə etsin, uşaqlarda qəddarlıq, zalımlıq kimi mənfi xüsusiyyətlərin yaranmasına yol verilməsin.

Bunun üçün tərbiyəçi yaxşı nədir, pis nədir sözlərinin mənasını uşaqlara dərk etdirməlidir. Oyunun qaydasma əməl etmək, hərəkət zamanı bir-birinə mane olmamaq və s. tərbiyə olunur.

Tərbiyəçi oyunda "İdman və hərəkətli oyunlar" məşğələlərindən daha çox istifadə edir. Hərəkətli oyunlar əzələləri möhkəmləndirir, maddələr mübadiləsini tənzim edir. Hərəkətli oyunlar onların qamətinin düzgünlüyünü, hərəkətin çevikliyini artırır. Tərbiyəçinin rəhbərliyi olmadan keçirilən oyunlar bəzi hallarda uşaqların əxlaqına müsbət təsir edir.

Estetik tərbiyədə oyundan bir vasitə kimi istifadə edilir. Oyuncaqların, evciyin bəzədilməsi, rollara uyğun maska, geyim, hərəkət, səs və s. gözəl olmalıdır.

Beləliklə, oyun uşaqların hərtərəfli inkişaf vasitəsinə çevrilir.

K.D.Uşinski oyunun ictimai – tarixi xarakter daşıdığını demişdir. Oyun əməklə, incəsənətlə bağlıdır.

Müasir psixoloqlar oyunu məişətdə insanın sevincinin açarı adlandırmışlar. Oyun uşaqlara sevinc, zövq gətirir, şəxsiyyət özünü oyunda dərk edir. Xarakter etibarı ilə oyun adi davranış normasıdır. Onun daxilində fəaliyyətin müxtəlif növləri yaranır. Oyunun psixoloji əsası haqqında L.S.Viqotski, L.A.Venger, D.B.Elkonun demişlər ki, oyuna şəxsiyyətin dərk olunması kimi baxmaq lazımdır. Yaşına görə yox, böyüklər oyunda özlərini sınayırlar, uduzanlar həyəcanlanır, uşaqlarda isə belə deyil. Uşaqlar isə oyuna məsuliyyətlə yanaşırlar. Elə buna görə də oyun ictimai xarakter daşıyır. Uşaqla böyüklər arasında ünsiyyət yaradan oyun reallığın və imkanın qapısıdır. Bəzən açıq olur, bəzən bağlanır. Oyun uşağın hərtərəfli inkişafına kömək edir. Oyunun əhatə dairəsi çox genişdir.

Oyunun məzmununu uşaq həyatdan götürür. Oyunun məzmununda insanların fəaliyyəti, bir – birlərinə qarşılıqlı münasibəti, müxtəlif həyat hadisələri əks olunur. Uşaq oyunun məzmununu təxəyyülündə canlandırır, sonra fəaliyyətə başlayır. Uşaq üçün qazan qapağı qalxandır, stul onun üçün atdır, maşındır. Şüşə

qırıntıları, sınıq qablar onlar üçün servizdir, qum, torpaq onlar üçün xörəkdir, balaca çöplər xəstəyə vurmaq üçün iynədir.

Uşaqlar oyunlarda özlərinə həyat təcrübəsi toplayırlar. Bütün bəşəriyyət həyatı öyrənməyə oyundan başlayıb. Oyun elə bir fəaliyyət növüdür ki, o, uşaqlıqdan başlayaraq ölənə kimi insanlara yoldaşlıq edir. Uşaq oyunlarında həyatı öyrənir, böyüdükcə oyunun məzmunu dəyişir. Böyüklərin oyunlarında qələbə və mübarizə olur. Böyüklərin oyunu mahiyyət etibarilə müxtəlif olur. Bu gün idman yarışları, stolüstü oyunlar, rəqslər buna nümüunədir. İndiyənə kimi oyunun əhəmiyyəti elmi baxımdan tam öyrənilməyib. Uşaqlar da oynayır, böyüklər də oynayırlar,lakin onların arasında böyük fərq var. Uşaq oyunu böyüklərin oyunu olmadığı kimi böyüklərin də oyunu uşaq oyunu deyil. Uşaq evlərinin damında quş yuvası görəndə oyunu dayandırıb, ona baxır. Qız uşaqları "uşaq bağçası", "həkim", "ana", "qonaqlıq" və s. oğlan uşaqları "sürücü", "qaraj", "bağban", "əsgər", "polis", "futbol" oyunlarını çox sevirlər. Bu oyunlarının məzmununu özləri düzəldirlər. Oyun zamanı onun qaydalarını uşaqlar gözləyir. Oyunun gedişində uşaqların hərəkəti çox ciddi olur. Belə oyunlar utancaq, passiv uşaqları hərəkətə gətirir. Onlar oyunda fəal iştirak edirlər. Tərbiyəçinin rəhbərliyi oyunun daha məzmunlu və mütəşəkkil olmasına təsir edir.

Oyun uşaq həyatının mühüm hadisəsidir. Əgər tərbiyəçi oyunu yaxşı təşkil etsə, oyun uşağın həyatınında rolu böyük ola bilər. Uşaq həyatının düzgün təşkili üçün oyun da düzgün təşkil olunmalıdır. Uşaq oyunda öz həyatını yaşayır. Oyunda uşaq böyüklərin xüsusiyyətlərini, qarşılıqlı münasibətlərini əks etdirirlər. Onların əhatə dairəsi valideynlər, sonra uşaq bağçasının işçiləri, ətrafdakı yaşlılar və yaşıdlardır. Gördükləri, ilə əlaqədar olaraq onların hərəkətində mehribanlıq, kobudluq, eqoizm özünü göstərir. Tərbiyəçi həmişə çalışır ki, onları düzgün istiqamətə yönəltsin.

Oyunun düzgün seçilməsi uşaqları kollektivə öyrədir. Kiçik qrupun uşaqları özləri sərbəst oynaya bilmir. Onları tərbiyəçi oyuna cəlb edir, onlarla oynayır.

Məktəbəqədər tərbiyə müəssisələri üçün tərbiyə və təlim proqramında nəzərdə tutulan oyunlar gün rejimində öz əksini tapır və ona ciddi əməl olunur. Oyunu başqa fəaliyyət prosesi ilə əvəz etmək olmaz.

Adətən səhər yeməyi ilə səhər məşğələsi arasında 8 – 10 dəqiqəlik fasilədə uşaqlar oyuncaqla və yaxud oyuncaqsız oynaya bilərlər, lakin bu oyunlar çox hərəkətli olmamalıdır. Məşğələyə yorğun başlamaq uşağın əqli yorğunluğuna səbəb olur.

Pedaqoji prosesdə oyun fəaliyyəti əmək təliminə hazırlıqla sıx bağlıdır.

Polyak pedaqoqu Yanus Korçak əməklə oyunun qarşılığından danışarkən deyir ki, Çox zaman uşaq həyatdakı hadisələrin mahiyyətini qavramaq üçün özünü sınaqdan keçirir. Uşaq oyun zamanı it kimi hürür, topal kimi axsayır, sərxoş kimi səndələyir, kar kimi qulaqlarını bağlayır. Bütün bunlara baxanda adama elə gəlir ki, uşaq onları yamsılayır, əslində bu yamsılamada özünü sınaqdan keçirir ki, kor adam yeriyəndə, yalnız ətrafındakı adamları görməyəndə neçə olur? O, bir anlıq gözləri yumanda ətraf ona zülmət kimi görünür. O, korluğun dəhşətini başa düşür. Burada təfəkkür düşüncəyə, əqli inkişafa təkan verilir.

Uşaqların bir sıra oyunları əməklə bağlıdır. Dörd uşaq birlikdə koma düzəldir, mismar, çəkic işlədir. Bu əməkdir, gələcəkdə görüləcək işin təməlidir.İşlə oyun nə ilə fərqlənir sualına A.S.Makarenko demişdir: iş insanın ictimai istehsalı, maddi, mədəni nemətlərin yaranmasında iştirak deməkdir. Oyun belə məqsədləri izləmir.

Uşaq oyunlarından danışarkən deyilir ki, oyun uşağı iş üçün zəruri olan fiziki və psixoloji səy göstərməyə alışdırır. (Seçilmiş pedaqoji əsərlər. Bakı. 1950. səh.379)

Oyunun qarşısında ictimai məqsəd qoyulmur. Uşaqlar daha mürəkkəb oyunları sevirlər, çox vaxt "məktəb" oyunu oynayır. Bu onu göstərir ki, uşaq artıq məktəb haqqında fikirləşir.

Oyun öz məzmunu, mahiyyəti xarakter əlamətləri ilə biri – birindən fərqlənir. Süjetli rollu oyunları uşaqlarınb özləri tərəfindən yaranır, lakin tərbiyəçi ona rəhbərlik edir.

**Oyunun növləri.** Daşıdığı mahiyyətinə görə məktəbəqədər yaş dövründə uşaq oyunları iki qrupa ayrılır:

I yaradıcı oyunlar

II qaydalı oyunlar

Yaradıcı oyunlar isə süjetli və tikinti oyunları olmaqla iki qrupa ayrılır. Yaradıcı oyunlar uşaqların özləri tərəfindən yaradılır.Oyunun mövzusu onları əhatə edən xarici aləmdən götürülür.

**Süyetli, rollu oyunlar.**Məktəbəqədər yaşlı uşaqların həyatında süjetli, rollu oyunların çox böyük əhəmiyyəti var. Oyunun mövzusu və məzmunu uşaqlar tərəfindən düzəldilir. Bu onların fikirləşməsinə səbəb olur. Uşaq "maşinist" yaxud "aşbaz" olur. Onlar lazım olan avadanlıqlarla , alətlərlə davranmaq qaydalarını öyrənir.

K.D.Uşinskinin təbrincə desək, uşaq oyunlarının əsasında canlı həyat hadisələri qaynayır. Uşaqlardan biri mehtər olub atlara baxır, biri bankirdir pul sayır, ağa nökəri döyür, qızlar qonaq qəbul edir və s.

Süjetli- rollu oyunların məzmununda igidlik, qəhrəmanlıq motivləri dayanır. Uşaq istər televiziyada, istərsə də eşitdiyi nağıllarda xoşuna gələn hadisəni, qəhrəmanı öz oynuna gətirir.

Süyetli – rollu oyunlara rəhbərlik etmək böyük ustalıq, pedaqoji takt tələb edir. Tərbiyəçi uşaq oyunlarına nəzarət edir ki, uşaqlar onun məzmununda mənfi hallara yol verməsinlər. Tərbiyəçi oyunun məzmununa uyğun olan əlavələr edir ki, oyun daha da maraqlı olsun. Bəzən uşaqlar sərxoş, yaxud kobud davranışlı insan obrazları yaratmağa meyl edirlər, dərhal tərbiyəçi oyuna müdaxilə edir, onu müsbət əxlaqi keyfiyyərlər aşılayan istiqamətə yönəldir.

Tərbiyəçi oyunun istiqamətini zəhmət adamlarının işinə yönəldir, onun məzmununu konkretləşdirərək, rolları müəyyənləşdirir, uşaqların biliyini, təxəyyülünü genişləndirmək üçün onlara müəyyən istiqamət verir.

Oyunun sonunda tərbiyəçi uşaqlara öz vəzifələrini yaxşı yerinə yetirdiyini deyir.

Səhnələşdirilmiş oyunun mövzusu mövcud oyunlardan, nağıllardan, bədii əsərlərdən götürülür. Uşaqlar çox zaman "Tıq-tıq xanım", "Şəngülüm, şüngülüm və məngülüm" nağılını səhnələşdirirlər . Bunun üçün hər personajın geyim dəsti, keçinin evi, qurd, dəmirçi koması, onun çəkici və zindanı olmalıdır ki, oyun maraqlı olsun. Belə səhnələşdirilmiş oyunlar bayramlarda, şənliklərdə kiçik qrup uşaqlarının qarşısında keçirmək, onlarda emosionallıq, öz rolunu oynamağa məsuliyyət hissi artırır. Səhnələşdirilmiş oyunlar əsərin ideyasının yaxşı mənimsənilməsi üçün ən yaxşı vasitədir. Tərbiyəçi mövzunun seçilməsinə, mətnin öyrənilməsində lazım olan geyimlərin hazırlanmasında uşaqlara yardımçı olur.Səhnələşdirilmiş oyunlarda uşaqların nitqi inkişaf edir, onlarda müstəqillik və cəsarətlilik yaranır. Uşaqlar çalışır ki, oynadığı personajın hərəkətini, mimikasını, səsini həmin personaja oxşatsın. Tamaşaçıların diqqətini özünə cəlb edə bilsin.

Tikinti oyunlarında uşaqlar həndəsi fiqurlardan istifadə edərək müxtəlif obyektlər, əşyalar quraşdırırlar. Tikinti oyunları F.Freblin uşaq bağçasına gətirdiyi oyun növ lərindən biridir. Bu oyunlarda kərpici, kub və başqa həndəsi fiqurlardan istifadə edilir. Uşaqlar ev, stol, stul, divan, hasar düzəldirlər.

Tikinti quraşdırma oyunları uşaqların hərtərəfli inkişafına kömək edir. Tikinti zamanı uşaq nə etmək, necə qurmaq haqda fikirləşir. Bu onun təfəkkürünü inkişaf etdirir, əqli qabiliyyətini formalaşdırır. Tikinti quraşdırma oyunlarında bir neçə uşaq bir yerdə işləyir. Bu uşaqlarda kollektivçilik, dostluq, yoldaşlıq kimi əxlaqi keyfiyyətləri formalaşdırır.

Tikinti quraşdırma oyunlarında tərbiyəçinin rəhbərliyi zəruridir. Bunun üçün tərbiyəçinin qarşısında bir sıra vəzifələr durur.

a) tərbiyəçi tikinti materiallarından istifadə edərək uşaqların təsəvvürlərini genişləndirməli, diqqətlərini tikinti əməyinə yönəltməli, hansı vəsaitlərdən istifadə etmələrini bildirməli;

b) həndəsi fiqurlardan və xırda tikinti materiallarından müxtəlif obyektlərin quraşdırılması qabiliyyətini inkişaf etdirmək,

beləliklə müstəqil şəkildə yaradıcılıq göstərmə qabiliyyətini formalaşdırmaq;

c) uşaqlarda əməksevərlik, düzgün qarşılıqlı münasibət və kollektivçilik hissi tərbiyə etmək uşaq bağçasının kiçik qrupunda quraşdırma oyuncaqlarla aparılır. Böyük qruplarda keçirilən oyunlarda kublardan, kərpiclərdən, piramida və həlqələrdən istifadə olunur. Tikinti materialı ilə aparılan oyunlar maraqlı olduğundan uşaqlarda təşəbbüskarlığı da inkişaf etdirir. Tərbiyəçi materialın seçilməsinə, tikintinin düzgün aparılmasına, uşaqlar arasında vəzifənin bölünməsinə nəzarət edir.

Tərbiyəçi tikinti materiallarının saxlanılmasına xüsusi diqqət yetirməlidir. Uşaqlar oynayandan sonra həmin materiallar səliqə ilə yığılıb, qrup otağının bir küncünə qoyulmalıdır. Materialın yığılmasına kiçik qrupda tərbiyəçilər kömək edir, böyük qruplarda isə uşaqlar özləri sərbəst olaraq işin öhdəsindən gəlirlər. Xırda materiallar sıra ilə qutulara yığılır. Burada materialların səliqəli yığılması ilə yanaşı gigiyenik tələblər də gözlənilir.

Tikinti materialları ilə oyunlarda təbii materiallardan da (qum, daş, su, balıqqulağı, xırda daşlar, çubuqlar və s.) istifadə edilə bilər. Bu oyunlarda xəkəndaz, kürək, bel, vedrə və s. kimi əşyalardan da istifadə olunur. Böyük qrup uşaqları qar və qumla daha maraqla oynayır və məzmun daşıyan fiqurlar düzəldirlər. Onlar kiçik təpələr düzəldir, quyu qazır, tunel düzəldir. Bu cür oyunlar bağçanın həyətində, parkda, çimərlikdə, çay kənarında təşkil edilib keçirilə bilər.

Didaktik oyunlar məktəbəqədər yaşlı uşaqların təlimində mühüm rol oynayır və öyrədici xarakter daşıyır. Bu oyunların vəzifələri əqli tərbiyənin və təlimin mühüm vəzifəsidir. Didaktik oyunlar uşaqlarda şüurlu dərk etməni inkişaf etdirir. Didaktik oyunlar təlim xarakteri daşıyır. Uşaq bağçasında aparılan didaktik oyunlar maraqlı olur. Burada uşaqların duyğu üzvləri, şüuru inkişaf edir.

Didaktik oyunların məzmununda fikir, ideya, qayda və nəticə vardır. Didaktik oyunlar uşaqlarda müstəqilliyi, fikri fəallığı artırır, nitqi inkişaf etdirir. "Qəribə torba" oyununda uşaq tor-

baya qoyulmuş əşyaya əlini toxundurmaqla həmin fiqurun nə olduğunu tapır, torbadan çıxarmamış adını, sonra isə rəngi, forması haqqında danışır.

Didaktik oyunun aşağıdakı növləri vardır:

a) oyuncaqlarla oyun
b) stolüstü çap oyunları
c) şifahi oyunlar

Oyuncaqlarla oyunda uşaqlar oyuncaqları əlamətlərinə görə fərqləndiririlər. Bu oyunlarda oyuncaqlar oyunun əsas predmetidir. Tərbiyəçi oyunun qaydasını və məzmununu uşaqlara əvvəlcədən mənimsədir. Ayrı-ayrı yaş qruplarında müxtəlif məzmunlu oyuncaqlardan istifadə olunur.

Stolüstü çap oyunlarında müxtəlif kartlar, dominolar, şahmat, mozaykalar və s. vəsait kimi istifadə olunur.

Bu oyunlar stol üzərində oynalılır, hər stolun ətrafında dörd uşaq oturur. Bu oyunlar uşaqların dünyagörüşünü artırır, düşünmə qabiliyyətini inkişaf etdirir,yoldaşları arasında ünsiyyət yaradır, qaydalara ciddi əməl etmək bacarığı tərbiyə olunur.

Kiçik qrupda verilən oyunlar sadə məzmunda olur. Məsələn, şəkilli kartlardan uşaqlar oxşar əlamətləri tutuşdurur və seçirlər.

Didaltik oyuna rəhbərlik. Didaktik oyunun maraqlı olması tərbiyəçidən asılıdır. Oyunu seçərkən proqram məzmunu, mövzunun dəqiqliyi, yeri bütövlükdə tərbiyə prosesi qarşılıqlı fəaliyyətlə uzlaşmalıdır. O, əqli fəallığı inkişaf etdirməklə yanaşı, uşaqlarda müstəqilliyi, təşəbbüskarlığı artırır, oyun qaydalıarını yerinə yetirməyi öyrənir, mehribanlıq, yoldaşına kömək etmək kimi əxlaqi keyfiyyətləri formalaşdırır. Uşaqlar oyun prosesində oyuncaqların, əşyaların hansı materiallardan hazırlandığını öyrənir, ona toxunmaqla hissələrə ayrılan ouyuncaqları yenidən quraşdırmaqla, ardıcıl düzməklə onları ayırıb sonra birləşdirməklə məşğul olarkən onlar bir sıra bilik və bacarıqlara yiyələnirlər.

Beləliklə uşaqlar oyunun məzmununu tam qavramış olurlar. Onlar həlqələrin ölçülərinə görə ardıcıl düzməyi bacarırlar. Oyunun gedişini tərbiyəçi əyani olaraq başa salır. Artıq böyük qrupda oyun mürəkkəbləşdirilir. Burda tərbiyəçi müdaxilə etmir.

Şifahi oyunlar didaktik oyunların bir növüdür, əsasən böyük və məktəbəhazırlıq qruplarında aparılır.Ona görəki bu oyunlar uşaqlarda daha çox əqli fəallıq, təcrübə,təxəyyül və təfəkkürün inkişafına əsaslanır. Bu oyunlar tapmaca xarakteri daşıyır.

## OYUNCAQLAR

Oyuncaqlar uşaq oyunlarının atributudur.Oyuncaqlar uşaq oyunlarını daha məzmunlu və əhəmiyyətlim edir.

Oyuncaqlar uşaqların ətraf aləmi dərk etməsində, müstəqil fəaliyyət göstərməsində, nitqin, təfəkkürün inkişafında, dünyagörüşünü formalaşmasında mühüm yer tutur.Oyuncaq uşaqların fiziki, əqli, əxlaqi, estetik və əmək tərbiyəsində əsas rol oynayır. Böyüklərin həyatında məişət əşyaları nə qədər qiymətlidirsə, uşaqların da həyatında oyuncaqlar bir o qədər qiymətlidir. Oyuncaqlar uşaqlarda əşyalarla davranmağı, onlardan harada və necə istifadə etməyi öyrənirlər.

Oyuncaqlar ayrı-ayrı ictimai formasiyalarda müxtəlif olmuşdur. Hər tarixi dövrün ictimai-siyasi tələbinə uyğun olaraq dəyişmişdir. Həmin sinfin uşaqları üçün qiymətli materiallardan, yoxsul uşaqlar üçün adi materiallardan oyuncaqlar hazırl-anmışdı. Arxeoloji qazıntılar zamanı tapılan oyuncaqlar həmin dövrün ictimai həyat tərzini əks etydirir. Cəmiyyətin inkişafı ilə əlaqədar olaraqb belə fərqlər aradan götürülmüş oyuncaq fabrikində onun kütləvi istehsalına başlanmışdı.

Oyuncağın yaranma tarixi qədimdir. Hər tarixi dövrün özünəməxsus oyuncağı olmuşdur. İlk oyuncaqlar təbii materiallar olmuşdur. Sonradan sənətkarlar öz uşaqları üçün xırda oyuncaqlar düzəltmişlər, lakin o, oyuncaqlar əmək alətlərinin kiçildilmiş forması idi.Yəni kiçik bel, oraq düzəltmişdir. Bu balaca alətlərlə uşaq müəyyən əmək tapşırıqlarını yerinə yetirir, həm də oynayırdılar. Ovçu alətləri ox, kaman, qılınc, qalxan və s. daha sonra quş, adam, heyvan fiqurları düzəldilmişdir. Sonralar valideynlər uşaqlarına özləri oyuncaqlar düzəltmişlər. Oyuncaqlar uşaqlarda əşyalara qayğılı münasibət yaradır. Eyni zamanda oyuncaq valideyn uşaq münasibətini yaxşılaşdırır. Ana oyuncağı uşağın ar-

zusunu yerinə yetirmək üçün hazırlayır. Ananın düzəltdiyi oyuncaq kukladır.

Sonralar istedadlı dülgərlər, dəmirçilər oyuncaq alətlərinin kiçildilmiş formasını düzəltmişlər. Bu valideynlərin diqqətini cəlb edir. Onlar da övladları üçün bu cür oyuncaq alətlər əldə etməyə səy göstərirdilər. Oyuncaq istehsalı dövlət səviyyəsində inkişaf etməyə başlayır. Odur ki, dövlət tərəfindən oyuncaq fabrikləri yarandı, bu fabrik estetik gözəlliyə malik, uşağın zövqünü oxşayan, müsbət əxlaqi keyfiyyətlər tərbiyə edəcək rəngarəng oyuncaqlar istehsal edirdi.

**Oyuncağa verilən tələblər.** Oyuncağın məzmunu tərbiyəvi xarakter daşımalıdır.

Oyuncaq insan həyatını özündə əks etdirməlidir. Oyuncaqlar milli koloriti, milli hissləri özündə əks etdirməlidir. Hal – hazırda elmin, texnikanın inkişafı ilə əlaqədar olaraq oyuncaqların da istehsal sahəsi genişlənib. Texniki oyuncaqlar uşağın özünün düzəltdiyi oyuncaqdır. Onlarda daha çox maraq doğurur. Oyuncaqda uşaq yaradıcılığı özünü göstərir. Valideynlər uşağın oyuncaqdan istifadə etməsinə, özləri tərəfindən hazırlanmasına şərait yaratmalıdır.

Oyuncaqda yumor da olmalıdır, hərəkət də olmalıdır. Oyuncaqlar gigiyenik tələblərə cavab verməlidir.

Oyuncağın növləri.

Obrazlı oyuncaqlar mahiyyət etibarilə müxtəlif olur, ona görə də onlar müəyyən növlərə ayrılırlar. Canlıları əks etdirən oyuncaqlar obrazlı oyuncaqlar adlanır. Belə oyuncaqlara sujetli oyuncaqlar da deyirlər. Onun məzmunu oyunun sujetini təşkil edir. Oyunun əsas personajı canlılar olur. Obrazlı oyuncaqlar içərisində kukla əsas yer tutur. F.Frebel analar haqqında deyirdi ki, xalqın taleyi dövləti idarə edənlərdən daha çox anaların, qadınların əlindədir. Qadın cəmiyyətdə aparıcı, yaradıcı qüvvə olduğu kimi, kukla da oyunda aparıcıdır. Kukla uşaqlar üçün sevinc mənbəyidir. Onlar kukla ilə söhbət edir. Kuklalar ana, həkim, xəstə rollarını ifa edir, kuklalar eyni zamanda hər xalqın milli xüsusiyyətlərini əks etdirir. Kuklaları bir yerə toplasaq, onun

görkəmindən hansı xalqa mənsub olduğu bilinər. Oyuncaqlar içərisində quzu, dəvə, keçi, ayı kimi oyuncaqların da öz yeri var. Bu oyuncaqlardan müxtəlif oyunlarda istifadə edilir.

Texniki oyuncaqlar məzmuna görə müxtəlif olur.Maşın, qaldırıcı kran, təyyarə, telefon, radio, kompyütor, fotoaparat və s.daxildir.

Konstruktiv. sökülüb – yığılan oyuncaqlar, tikinti oyuncaqları uşaqlar üçün daha maraqlıdır. Belə oyuncaqlar uşaqlarda erkən yaşdan texnikaya maraq tərbiyə etməklə yanaşı həm də onlarda təfəkkürün yaradıcılıq qabiliyyətini inkişaf etdirir.

Texniki oyuncaqlar elektriklə, barmaqla, kənardan pultla idarə edilir: təyyarə, gəmi, maşın, avtobus. Uşaqlar bu oyuncaqlarla oynayarkən həmin nəqliyyat vasitələrindən harada istifadə edildiyini, onun insanlara harda lazım olduğunu öyrənir. Çox zaman özləri də belə bir oyuncaqlar düzəldir. İki taxtanı birləşdirərək təyyarə düzəldir. Kağızdan gəmi düzəldib suya buraxır. Texniki oyuncaqlar içərisində ən geniş yayılmış konstruktotiv oyuncaqlardır.

<u>Əyləncəli oyuncaqlar</u>.

Bu oyuncaqlar gülüş yaradan oyuncqlardır. Belə oyuncaqlara müxtəlif canlıların(insan,heyvan,quş və s.) fiqurları daxildir. Onlar xalq yaradıcılığı ilə çox bağlıdır. Kiçik uşaqlar üçün bunlar çıxartdığı səs, göstərdikləri hərəkətlərə görə daha maraqlıdır. Böyük qrup uşaqlar isə həmin oyuncaqların mexanizması ilə daha çox maraqlanırlar.

Burada qarışıq oyuncaqlar götürülür. Bu tamaşa xarakteri daşıyır. Uşaqlar onlarla həvəslə oynayır, onların qeyri – adi hərəkəti uşaqlarda gülüş doğurur.

<u>Maskarad oyuncaqları</u>.

Bu oyuncaqlardan bayramlarda, yeni il şənliklərində istifadə edirlər. Müxtəlif heyvan fiqurlarını əks etdirən maskalar, paltarlar olur. Belə maskalar indi daha çoxdur. Dovşan, tülkü, ayı, canavarı təmsil edən kostyumlardan uşaq bağçasında istifadə olunur.

<u>Motorlu, spotrlu oyuncaqlar</u>.

Bu oyuncaqlar çox hərəkət tələb edir. O uşaqların hərəkət fəaliyyətini artırır. Bu oyuncaqları aşağıdakı kimi qruplaşdırmaq olar.

**I qrup** oyuncaqlar sensor motorlu oyuncaqdır. O əl, barmaq hərəkətlərini inkişaf etdirir. Cəldliyi, gözəyarı ölçməyi, məqsədə çatmağı, hədəfi düzgün nişan almağı öyrədir. ( muncuqlar, fırfıralar).

**II qrup** oyuncaqlar çiyin, qol əzələlərini inkişaf etdirir. Hərəkəti tənzim edir, əzələləri möhkəmləndirir.

**III qrup** oyuncaqlara ayaq, qarın əzələlərinin hərəkətlərini möhkəmləndirən futbol, basketbol, çəmbər üçün lazım olan idman avadanlıqları daxildir.

**IV qrup** oyuncaqlar kollektiv oyunlar üçün nəzərdə tutulur.Bunlardan kütləvi yarışlarda istifadə olunur( basketbol, voleybol topları)

Musiqili oyuncaqlar.

Musiqili oyuncaqlar uşaqların estetik tərbiyəsində çox əhəmiyyətlidir. Bura daxildir: musiqi alətlərinin səslərini əks etdirən oyuncaqlar( şaxşaxlar, zınqırovlar, tütəklər).

Teatr oyuncaqları.

Bu oyuncaqlar rəngarəng məzmuna malikdir.onların əsas mahiyyəti nitqin, təfəkkürün inkişafı və estetik zövqün təşəkkülünə xidmət etməkdən ibarətdir. Həmin oyuncaqlardan kukla teatrlarında istifadə olunur.

Didaktik oyuncaqlar

Uşaqların sensor tərbiyəsində didaktik oyuncaqların xüsusi yeri vardır. Bu ouyuncaqlara rəngarəng şarlar, qalalar, piramidalar, həndəsi fiqurlar və s. daxildir.

Bu oyuncaqlar uşaqlarda fikri fəallıq yaradır,yaradıcılıq qabiliyyətini inkişaf etdirir.

Yuxarıda deyilənlərdən əlavə uşaqların özləri tərəfindən hazırlanan oyuncaqlar da vardır.Uşaqlar özləri düzəltdikləri oyuncaqlarla daha maraqla oynayırlar. Onlıar əsasən təbiət materiallarından, şəkil və parçalardan hazırlanılır.

Oyuncaqların saxlanılması və ona verilən tələblər.

Oyuncaqlar xüsusi güşələrdə, gigiyenik şəraitdə saxlanılır. Oyuncaqlar elə şəraitdə saxlanılmalıdır ki, uşaqlar onlardan istədikləri vaxtlarda istifadə edə bilsinlər.

Oyuncaqlar gigiyenik tələblərə uyğun materiallardan hazırlanmalıdır.

Oyuncaqlar rəngi yayılmayan və asanlıqla yuyula bilən materiallardan hazırlanmalıdır.

Oyuncaqlar asanlıqla sınan, bəzi parça materiallarından və şüşədən olmamalıdır.

# XVI F Ə S İ L

## UŞAQ BAĞÇASI VƏ AİLƏ.

**Uşaqların tərbiyəsində ailənin rolu.** Ailə cəmiyyətin özəyidir. Ailə kiçik dövlətdir. Böyük alim Nəsrəddin Tusi ailəni insan orqanizminə bənzətmişdir.

O, qeyd etmişdir ki, ailədə dünyaya gələn uşaq dövlətin sərvətidir. Bir yaşa kimi uşağın sağlamlığı ailənin əlindədir. Ailə uşağın fiziki və psixi inkişafına təsir göstərən ilk kollektivdir. Gənc nəsli hərtərəfli inkişaf etdirib cəmiyyətə vermək ailənin vətən qarşısında, dövlət qarşısında borcudur.

Ailə ilə yanaşı dövlət də uşağın qayğısına qalır, onların inkişafı üçün hər cür şərait yaradır. Ölkə prezidenti tərəfindən 1998 –ci il mayın 19-da " Azərbaycan uşaq hüquqları haqqında qanun" un imzalanması bunu bir daha sübut edir. Bu qanunda uşaq hüquqlarının qorunması, onların bir şəxsiyyət kimi yetişməsi, ictimai tərbiyə müəssisələri, ailə və ictimaiyyət qarşısında müəyyən öhdəliklər qoyulmuşdur. Məktəbəqədər pedaqogika ailəyə unikal bir varlıq kimi baxır. Bu unikallıq onun sosioloji mədəni əhatəliliyi ilə bağlıdır. (Ailə məişəti, onun sosial xarakteri, tipologiyası, adət-ənənələri və s.) Bəşəriyyətin topladığı sosial mədəniyyəti ailələr nəsildən – nəslə, biri – birinə ötürürlər. Bunun bir sıra formaları mövcuddur.

a) Uşaqlara ailənin təsirinin müxtəlifliyi.

b)Müasir durumda ailənin vəziyyətinin, sosial mədəniyyətinin cəmiyyətin mədəni səviyyəsindən asılılığı.

Pedaqoji ədəbiyyatda ailə tipləri belə müəyyən edilir:

Sosial mədəni ( ailənin sosial mədəni səviyyəsi)

Sosial iqtisadi ( ailənin iqtisadi durumu)

Texniki gigiyenik ( ailənin yaşayış yeri kənd, şəhər və s.)

Demokratik ( ailənin tərkibi, uşaqların sayı, qohumlar, dayələr, ailə üzvləri)

Ailə uşağa özünün gələcəyi kimi baxmalıdır. Azərbaycan ailələrində uşaqlara özlərinin davamçısı kimi, yurdunun sahibi kimi baxırlar.

Azərbaycan ailələrində "Dədə Qorqud" dastanlarından nağıllara kimi övlad çox əziz bir varlıq olmuş, lakin belə bir atalar sözü özü də var ki, " uşağım əzizdir tərbiyəsi ondan da əzizdir". Bu onu göstərir ki, uşağın bir şəxsiyyət kimi yetişməsin-də tərbiyə ciddi olmalıdır.

Ailə məsələsinə " Qurani – Kərimdə də çox ciddi yanaşılır. " Qurani – Kərim" də qadına, uşağa münasibət, qadın və uşaq hüquqlarının qorunması, qarşılıqlı hörmət" məsələləri bir ciddi proqram kimi cəmiyyətin qarşısında qoyulmuşdur.

Dünyada ən böyük qələbələr, nailiyyətlər üçün təmiz ailələrə borcluyuq. Bir çox fəlakətlər, faciələr, cəmiyyətdə baş verən neqativ hallar sağlam təməl üzərində qurulmayan ailələrdə baş verir, ailədə elə uçurum yaranır ki, onu düzəltmək mümkün olmur, bundan ən çox əziyyət çəkənlər isə uşaqlar olur.

Sağlam ailənin bir sıra amilləri var:

a) Təmiz məhəbbət

b) Sosial – iqtisadi

c) Mənəvi – intellektual

d) Əxlaqi – etik

e) Bioloji – psixoloji

Bu amillər sonradan hərəkət və davranışda, mühit və insanlarla ünsiyyətdə, həyat və həyat hadisələrinə münasibətdə getdikcə çoxalır və mürəkkəbləşir. İqtisadi amillərlə yanaşı tibbi – bioloji və sosioloji amillər də öz təsirini göstərir. Əvvəllər məhəbbət üzərində qurulan ailələr bu amillərin birinin pozulması zəminində baş verirdi.

Məktəbəqədər pedaqogikada ailə uşağı əhatə edən həyat sahəsidir. Bir yaşa kimi ailə uşağın inkişafına güclü təsir edir.

Məktəbəqədər pedaqogika ailənin ən gözəl adətlərini əsas götürür. Bura məişət aləmi, onun ictimai etik xarakteri, tipi, adətlər, ənənələr daxildir.

Hər ailənin uşağa baxışı eyni deyil, ona görə də pedaqoji ədəbiyyatda ailənin bir neçə tipi verilir.

Tam mürəkkəb ailələr ( nənə, baba, ata, uşaq )

Yarımçıq ailə (ata, ana, nənə, yaxud da baba)

Tam sadə ailə ( valideynlər, uşaq)

Uşaq dünyaya gələndən sonra ailə üzvləri buna psixoloji cəhətdən hazır olmalıdır. Müasir ailələrə pedaqoji və psixoloji bilik lazımdır.

Tam mürəkkəb ailələrdə ailə ilə uşaqların qarşılıqlı hörmət ruhunda tərbiyə olunması durur. Bu ailələrdə demokratik qaydalara üstünlük verilir. Burada ərlə arvadın bir – birinə hörmətlə yanaşması, uşaqların bir – birinə qayğısı əsas yer tutur.

A.S.Makarenko ərlə arvadın bir – birinə qarşılıqlı münasibətini, bir – birinə hörmətlə yanaşmasını ailənin tərbiyəsində mühüm şərt adlandırmışdır.

Artıq 4 – 5 yaşlı uşaqların yanında ata – ana bir sıra məsələləri müzakirə edə bilər. Belə ailələrdə uşaqlar çox tez ailə həyatında fəal iştirak edirlər. Uşaq ailənin əməyində iştirak edir, ona verilən tapşırıqları həvəslə yerinə yetirir. Valideynin uşağa dediyi "lazımdı", "olmaz", "olar" sözlərinin mənasını başa düşür. Bu ailələrdə deyilənə əməl etmək, intizam, əxlaq, ailənin işinə eyni zamanda ictimai hadisələrə münasibət yaxşı başa düşülür. Uşaqlara belə ailələrdə cəza verilmir, lakin onlarda da nöqsanlar olur. Ailədə uşaq şəxsiyyətinə hörmət edilir, lakin valideynlər bəzən tələb və narazılığın ölçüsünü bilmirlər. Gün rejiminin yerinə yetirilməsində, uşağa tələb veriləndə, razılıq, sistemlilik gözlənilməlidir, uşağa münasibətdə sakitlik gözlənil-məlidir.

Təbiəti etibarı ilə öz hisslərinə əsaslanan qayğıkeş, mülayim rəftar, bağışlamağı bacarmaq, geniş qəlblilik uşaqlarda xoş hisslər və sevinc yaradır. Onlar ailənin, evin prioritet sistemini başa düşürlər.

Ailənin müxtəlif yaşlı üzvləri və onların hər birinin öz arzusu, istəyi olur. Yaxşı ailələrdə uşağın davranışı ailə ənənələri əsasında öz axarına düşür. "Uşaq ailənin güzgüsüdür". Ailədə yaxşı, pis nə varsa, o, uşağın davranışında, fəaliyyətində özünü göstərir. Hər bir ailənin özünəməxsus əxlaq norması, davranış tərzi var. Hər bir ailə elə başa düşür ki, ən yaxşı tərbiyəçi onun özüdür.

Elə valideyn var ki, bağçaya gedən uşağına tapşırır ki, səni kim vursa sən də onu vur, şikayət etmə. "Uşağına həyat fəlsəfəsi öyrədir".

Bütün ailələrin uşaqların tərbiyəsinə münasibəti eyni deyil. Bir ailə uşağını özü tərbiyə etmək istəyir, başqa birisi bunu başqasına həvalə edir, üçüncü qrup valideynlər ona əhəmiyyət vermir. Bütün bunları nəzərə alan məktəbəqədər tərbiyə müəssisələri uşağın tərbiyəsində ailəyə köməkçi olmalıdır.

Ailənin qarşısında iki mühüm vəzifə durur. Onun birinci vəzifəsi cəmiyyətin davamçısı olan uşaq dünyaya gətirməkdir, yəni nəsli artırmaq. İkincisi, ən mühüm vəzifə cəmiyyət üçün sağlam düşüncəli, hərtərəfli inkişaf etmiş vətəndaş tərbiyə etməkdir. Valideynlər birlikdə uşağın tərbiyəsi ilə məşğul olmalıdır. Tərbiyə işi birtərəfli olmamalıdır. Onlar uşaqları sağlam, milli adət - ənənələr, ümumi bəşər, ideyalar əsasında tərbiyə etməlidirlər.

Üçüncü vəzifə uşağın qabiliyyətlərinin inkişaf etdirilməsi, onun maddi və mənəvi tələbatının ödənilməsidir.

Uşaqların tərbiyəsində valideyn nüfuzunun əhəmiyyəti böyükdür. Valideyn nüfuzu haqda A.S.Makarenko demişdir ki, ailə nüfuzu göydən düşmür. Bu nüfuz ərlə arvadın biri – birinə qarşılıqlı münasibətindən yaranır. Valideyn nüfuzu valideynin vətəndaşlıq borcu, onun həyatı, davranışı, məsuliyyət hissləri ailə qarşısında öhdəliyi yerinə yetirməsi ilə bağlıdır.

**Məktəbəqədər müəssisələrin ailə ilə apardığı işlər.**Məktəbəqədər müəssisə əməkdaşlarının ailə ilə işi əsas fəaliyyət hədəfidir. Məktəbəqədər müəssisə uşaqların tərbiyəsini düzgün təşkil etmək üçün ailələrlə ünsiyyət yaradır, birgə fəaliyyət göstərirlər. Bunun üçün müəssisənin qarşısında bir neçə vəzifə durur.

a) valideynlərin pedaqoji maariflənməsi;

b) hər bir uşağın ailə həyatını öyrənib, ailə təcrübəsini təbliğ etmək.

Uşaq bağçası ilə ailə arasında əməkdaşlıq o uşağın tərbiyəsinə müsbət təsir edər. Bəzən elə olur ki, tərbiyəçi ilə valideyn bir – birinə çox yaxın olur. Lakin uşağın tərbiyəsini hər biri öz

istədiyi istiqamətdə aparır. Bundan heç bir müsbət nəticə almaq olmaz.

Buna görə də ailə ilə uşaq bağçası uşaqların tərbiyəsi ilə əlaqədar vəzifələri yerinə yetirə bilmir. Odur ki, bağça ilə ailə birgə əməkdaşlıq etməlidir.

Uşaq bağçada ictimai mühitə düşür, onu yaşıdları, tərbiyəçilər, müəssisənin digər əməkdaşları əhatə edir. Onda davranış mədəniyyəti, adət və vərdişlər yaranır.

Ailə uşağın göz açdığı ilk cəmiyyətdir. Bu balaca cəmiyyət uşaq üçün ilk tərbiyə məktəbidir. Bu mühitdə yaxşı, pis nə varsa uşaq onu götürür.

Cəmiyyət qarşısında uşaqların tərbiyəsində valideynlərin məsuliyyəti böyükdür. Uşağın hüquqları konvensiyasında göstərilir ki, hər bir uşağın ailədə böyümək və tərbiyə almaq hüququ var və heç kim onu zorla ailədən ala bilməz. Yalnız məhkəmə (əgər valideynlər öz valideynlik hüququnu yerinə yetirə bilmirsə) belə bir qərar çıxara bilər. Onda dövlət uşağı öz himayəsinə götürə bilər.

Uşaqların əksəriyyəti ata – analı və nənə - babalı böyüyürlər. Qanunvericilikdə nəzərdə tutulmuş hallardan başqa valideynlərinin istəyinə zidd olaraq uşağı onlardan heç kim ala bilməz. Bu onu göstərir ki, gələcəyin vətəndaşı hələ körpəlik dövründən ailə və dövlət qayğısı ilə əhatə olunur. Görkəmli pedaqoq A.S.Makarenko deyir ki, uşaqların tərbiyəsi bizim həyatımızın bir sahəsidir. Düzgün tərbiyə bizim xoşbəxt qocalığımızdır, pis tərbiyə bizim gələcək kədərimiz, göz yaşımızdır. Düzgün olmayan tərbiyə insanlar qarşısında, dövlət qarşısında məsuliyyəti itirməkdir.

Gənc ailələr üçün "Gənc ailələr məktəbi", "Gənc ailələr klubu", kitabxana təşkil etmək, disputlar və s. keçirmək valideynlərin uşaqlarla tərbiyəvi iş aparmasına yaxından kömək edir.

Ailə - uşaq bağçası ilə qarşılıqlı əlaqəsi olan ilk sosial institutdur. Məktəbəqədər tərbiyə müəssisəsi və ailənin tərbiyə funksiyaları müxtəlif olsa da, onların birgə fəaliyyəti zəruridir.

Məktəbəqədər tərbiyənin konsepsiyasında deyilir ki, məktəbəqədər tərbiyə müəssisəsi ailənin xronoloji davamçısıdır. Müa-

sir tərbiyə işi ailənin öyrənmə metodunu, ailəyə bələd olmağın yollarını tapmalıdır. Nəticədə uşaq – valideyn məhəbbəti, digər tərəfdən tərbiyəçinin diqqəti sayəsində cəmiyyətin fəal üzvünə çevrilir. Çünki onun pedaqoji təhsili var. Tərbiyədə razılaşma, uzlaşma, vahidlik var. Çox ailələr tərbiyəçi ilə razılaşır və birgə əməkdaşlığa səy göstərirlər.

Uşaqların tərbiyəsində pedaqoji maarifləndirmə məqsədi ilə valideynlər arasında pedaqoji – psixoloji təbliğat aparmaq lazımdır, valideynlərin buna ehtiyacı var. Çox valideynlər uşaq bağçasına uşaqların saxlanma müəssisəi kimi baxır. Bir çox valideynlər isə elə başa düşürlər ki, hər şeyi bağça etməlidir.

Uşaq bağçaları ilə ailə arasında əlaqə formal xarakter daşıyır. Bunun qarşısını almaq üçün pedaqoji təbliğatı gücləndirməli, yaxşı ailənin təcrübəsi təbliğ edilməlidir. Ailələrlə əlaqə formaları fərdi və kollektiv ola bilər. Fərdi formada tərbiyəçi uşağın vəziyyəti, davranışı haqqında valideynə tək – tək məsləhət verə bilir.

Kollektiv əlaqə formasının sahəsi genişdir. Bunlar aşağıdakı kimi aparıla bilər.

Ailə ilə əlaqə ənənəvi və qeyri - ənənəvi ola bilər:

Ənənəvi formaya daxildir.

Valideyn iclası, konfranslar, açıq dərs günü və s.

Pedaqoji məsləhət: - bu ənənəvi formalardan çoxdan istifadə olunur. Əvvəlcədən valideynin pedaqoji savadının səviyyəsi nəzərə alınmalıdır, məsləhətin səmərəli olması üçün yaxşı nümunələr götürmək lazımdır.

Yeni istehsal – mülkiyyət münasibətləri şəraitində Azərbaycanın intellektual potensialının qorunub saxlanılması, formalaşdırılması və ölkə iqtisadiyyatının bütün sahələrini çevik təfəkkürə malik, beynəlxalq tələblərə uyğun kadr potensialı ilə təmin etmək Təhsil qanununda proqram xarakterli bir məqsəd kimi qarşıya qoyulur.

Uşağın məktəbə hazırlanması tərbiyəçi və valideynlər qarşısında duran mühüm vəzifədir.

**Uşaqların məktəb təliminə hazırlanmasında valideyn cavabdehliyi.** İbtidai siniflərdə şagirdlərin təlimdə geri qalmalarının səbəblərindən biri onların məktəbə hazırlanmaları sahəsində buraxılan nöqsanlarla əlaqədardır. Respublikada ailələrin mədəni səviyyəsinin yüksəldiyi, ali təhsilli valideynlərin əhəmiyyətli dərəcədə artdığı indiki dövrdə şübhəsiz uşaqların inkişafı sürətlənir. Buna görə də uşağın məktəbə hazırlanması sahəsində sistemli, ardıcıl və mütəşəkkil iş aparılır.

Ətraf aləmin təsiri, ailə şəraiti, ictimaiyyət uşağı müəyyən dərəcədə məktəb təliminə hazırlayır, lakin bu hazırlığa düşünülmüş istiqamət vermək, onu mütəşəkkil prosesə çevirmək son dərəcədə faydalıdır.

Ailə - cəmiyyətin ilk özəyidir, ictimai sosial qrupdur – uşağın ilk həyat məktəbidir. Valideynlər – onun ilk müəllimi və tərbiyəçiləridir, onların uşaq şəxsiyyətinin formalaşmasında əvəzolunmaz təsiri vardır. Valideynlərin uşaqlara təsiri əsasında – onların uşaqlara əvəzolunmaz məhəbbətləri, tələbkarlığı, qayğıları durur. Bu məhəbbət və qayğıya uşaqların valideynlərə dərin bağlılığına məhəbbət hissi ilə cavab verir, onların hörmətini təsdiqləyir, onlara oxşamaq, onlar kimi olmaq istəyir. Kiçik yaşlı uşaqların ətraf aləm haqqında ilkin təsəvvürlərinin formalaşmasında ailənin əhəmiyyəti xüsusi yer tutur.

Ailənin uşaqların tərbiyəsinə təsiri müəyyən tələblərin gözlənilməsi şəraitində effektli olur.

Valideyn ləyaqəti və onun şəxsi nümunəsi uşaqların tərbiyəsində mühüm yer tutur. Ləyaqət dedikdə - uşaqların valideynə dərin hörməti, onların tələblərinə sözsüz və könüllü əməl etməsi, onlara hər cəhətdən oxşamaq cəhdi, onların məsləhətlərinə qulaq asmaq və s. nəzərdə tutulur. Valideynlərin övladlarına pedaqoji təsirinin qüvvəsi ləyaqətə əsaslanır. Lakin ləyaqət təbiətdən verilmir, süni yaranmır, qorxu və hədələr ilə qarşılanmır. O, uşaqların valideynlərə məhəbbəti və bağlılığından doğur.

Valideynlərin şəxsi nümunəsinin tərbiyəvi təsiri məktəbəqədər yaşlı uşaqların fərdi xüsusiyyətləri ilə bağlıdır. Uşaqlar təkcə yaxşını deyil, həm də pisi təqlid edirlər. Ona görə də vali-

deynlərin öz davranışlarına ciddi nəzarət etmələri vacibdir. Çünki onların davranışı təqlid üçün nümunə rolunu oynayır.

A.S.Makarenko yazırdı ki, "Sizin şəxsi davranışınız əsas həlledici amildir. Elə fiklirləşməyin ki, siz uşaqları onlarla söhbət edərkən, nəyi isə öyrənərkən və yaxud nəyə isə təhrik edərkən tərbiyələndirirsiniz. Siz onları həyatın hər bir anında tərbiyələndirirsiniz, hətta siz evdə olmayanda belə. Əgər valideyn əməli və sözləri eynidirsə, uşaqlara verdikləri tələb vahiddirsə, daim və ardıcıldırsa, onda onların nümunə və rəğbətinin tərbiyəedici təsiri daha da qüvvətlənir.

Valideynlərin altı yaşlılara olan rəğbəti, həmçinin valideynlərin uşaqlara, onların həyat və maraqlarına, sevinc və qüssələrinə münasibətində özünü göstərir. Altı yaşlılar daha çox onlara diqqətlə yanaşan, uşaqların arzu və maraqlarını nəzərə alan, valideynlə əsl dostluq münasibəti hökm sürür." Valideynlərinə daha çox hörmət edirlər.

Valideynlərin rəğbəti onların pedaqoji xətti ilə qorunur. Pedaqoji xətt – uşaqlarla ünsiyyətin ölçü hissəsinin yaxşı inkişaf etməsidir. Bu hər şeydən əvvəl uşağın qəlbinə və hisslərinə daha yaxşı yol tapmaq bacarığı, onların şəxsiyyətinə təsir edəcək effektli tərbiyəvi ölçülərin seçilməsinə, yaş və fərdi xüsusiyyətləri nəzərə alınmaqla konkret şərait və şərtlərlə ifadə olunur. Uşaqlara məhəbbət və tələbkarlığın vəhdətinin olması, onların hərəkətlərinin həqiqi motivlərini bilmək anlayışlarının şəxsiyyətin ləyaqətinə hörmətlə tələbkarlığın birləşməsində ifadə olunur.

Pedaqoji xətt – tərbiyəçilər kimi valideynlərdən də uşaqların fərdi xüsusiyyətlərini və yanaşma tərzini bilməyi tələb edir. Bu bir növ uşaqla işləmək sənətkarlığını tamamlayır. A.S.Makarenko qeyd edirdi ki, pedaqoji xətt çox vaxt pedaqoji risqlə bağlıdır. Pedaqoji xətt özündə uşaqlara tələbkar münasibət, onlarda möhkəm iradə tərbiyəsi, davranış, hərəkətlərinə görə cavabdehlik və s. əks etdirir. Əgər tələbkarlığm ümumi tonunu ətrafdakılar rəğbətləndirirsə və bu yaşlıya bəllidirsə, onda risqə getmək gərəksizdir. Pedaqoji xətt - uşaqların hərəkətlərinin qiymətlən-dirilməsində də təzahür edir. Bu zaman valideynlər ictimai

hadisələrə etinasız yanaşmır, fərdiyyətlərinə görə yox, ailə və ya ictimai kollektivin maraqlarından doğaraq çıxış edirlər. Valideyn xətti – uşaqların xətti ilə sıx bağlıdır.

Ailə məişət mədəniyyəti – anlayışına ailə üzvlərinin düzgün qarşılıqlı münasibəti, bir – birinə qarşılıqlı hörmət, ailə həyatının düşünülmüş təşkili daxildir; ev şəraiti, ümumi iş, asudə vaxtın təşkili və s. Uşaq müstəqil düşünməyi, hadisə və faktları düzgün qiymətləndirməyi öyrənir, valideynlər isə onlara öz həyat təcrübələrini verir, onların fikirlərini istiqamətləndirir, düzgün mühakimə yürütmələrinə kömək edirlər.

Uşaqların tərbiyəsinə xarici mühit də təsir edir. Hər bir ailədə uşaqların düzgün inkişafı üçün ümummədəni və estetik tələblərə şərait yaradılmalıdır. Onlar üçün şəxsi çarpayı, dəsmal, qab – qacaq, oyun və məşğələ guşəsi ayrılmalıdır. Uşaqlar ev şəraitində təmizliyə və qaydalara riayət etməli, kitab və oyuncaqlara qayğı ilə yanaşmalıdırlar.

Uşaqların yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması uşağın valideynlərinə uşaqlarla düzgün ünsiyyətini müəyyənləşdirməyə imkan verir. Uşaqların tərbiyəsində onların cavabdehliyi artır, ailə üzvləri tərəfindən uşaqlara tələblərdə ardıcıllıq və vahidlik gözlənilir.

Valideynlərdə pedaqoji biliyin olması – uşaq dözümlülüyünün, müşahidəçiliyin, məntiqi təfəkkürün sadə formalarının inkişafına kömək edir, uşaq oyununa və əməyinə rəhbərlikdə özünü göstərir, onların hərəkətlərinin səbəbini araşdırmağa şərait yaradır.

Erkən yaşlı uşaqların fiziki və psixi inkişafı haqqında valideynlərin biliyi, nəinki onların sağlamlığını qorumağa, eyni zamanda onların hərəkətlərini, mədəni – gigiyenik vərdişlərə, nitq ünsiyyətinə yiyələnmələrinə məqsədəyönlü şəkildə kömək edir.

Uşaqların müstəqilliyi, çətinliklərin öhdəsindən gəlmək bacarığını və bununla da tədricən iradənin möhkəmlənməsinə təsir etmək lazımdır. Valideynlər tərəfindən həddindən artıq himayəçilik uşaqların fəallığının qarşısını alır, konfliktlər yaradır, yaşıdlar arasında öz mövqeyini müəyyənləşdirməyə mane olur.

Uşaqların yaş xüsusiyyətləri onların inkişaf qanunauyğunluğuna əsaslanır. Lakin tərbiyədə bu prinsipin ikinci tərəfi - fərdi xüsusiyyətləri nəzərə alınması da vardır.

Valideynlər anlamalıdırlar ki, eyni yaşlı uşaqlar bir – birlərindən temperamentləri, xarakterləri və maraqları ilə fərqlənirlər. Uşaqların tərbiyəsində fərdi yanaşma – onlara ümumi tələblər qoyarkən, hər birinə qarşı daha rasional olan tərbiyəvi vasitələr toplamaqda və istifadə etməkdə ifadə olunur. Uşaqların hərtərəfli öyrənilməsi məqsədilə aparılan müşahidələr və söhbətlər valideynlərə onların xarakterində dəyişikliyi izləməyə imkan yaradır, onlara tərbiyəvi - təsiredici vasitələr araşdırmaqda davam edir.Bu zaman həkim və pedaqoqlarla məsləhətləşmək əhəmiyyətli və zəruridir. Onlar uşaqların tərbiyəsində müsbət şəxsi keyfiyyətlərlə sonrakı inkişafına vasitə və yollar tapmaqda valideynlərə kömək edirlər.

Uşaqların ailədə tərbiyəsi və məktəbə hazırlığı həmişə müvəffəqiyyətlə keçmir, bəzən səhvlərə də yol verilə bilər ki, bu da öz əksini cəmiyyətin və ailənin həyatında özünü göstərir.

<u>Birinci tip</u> - ailələrdə rəğbətləndirmədən çox istifadə edilir. Bu isə uşaqda eqoizm yaradır. Uşaqların fəaliyyətinə həddən artıq nəzarət, yerli – yersiz göstərişlər uşağın öz qüvvə və imkanlarına inamı itirir. Uşaqların davranışında daxili motivin yaranması formalaşır, onlar böyüklərin sözsüz tabe olmaq tələbi altında sönür.

<u>İkinci tip</u> – ailə tərbiyəsində uşaqların həddən artıq ərköyün böyüdülməsidir, onlara qarşı hər hansı bir tələbin olmamasıdır. Valideynlər uşağı hər cür əməkdən qorumağa çalışırlar. Belə şəraitdə uşaqda müstəqil işləək həvəsi, tapşırılmış işə məsuliyyət və s. kimi keyfiyyətlər inkişaf etmir. Uşaq özünə münasib iş tapa bilmir və ya axıra çatdırmır.

<u>Üçüncü tip</u> – ailədə ata və ana tərəfindən tərbiyəvi təsirin, vahidliyinin pozulmasıdır. Məktəbəqədər yaşlı uşaq belə ailədə böyüklərin bir – birinə əks olan tələblərinə görə hərəkət edir, bu da onların xarakterində, davranışında riyakarlıq, yalançılıq və s. kimi cəhətləri formalaşdırır.

Ailə tərbiyəsində səhvlərin durğunluğu və təzahürü səbəbləri nədir?

Valideyn öz uşağını tərbiyələndirərkən ona şəxsi iş kimi deyil, cəmiyyət qarşısında vətəndaşlıq borcu kimi baxmalı və yerinə yetirməlidir. Uşaqları tərbiyə edərkən valideynlər gələcək əməkçiləri, vətəndaşları, ata – anaları tərbiyələndirirlər; onların müvəffəqiyyətilə bütün cəmiyyət maraqlanır.

Uşaqların ailədə tərbiyəsi valideynlərin vəzifələrini həyata keçirmə vasitələrini bilərkən müvəffəqiyyətli olur. Ailə ilə uşaq bağçası tərbiyəçilərinin tərbiyəvi təsirlərdən vahidliyi gözlənilməsi mühüm əhəmiyyətə malikdir.

A.S.Makarenko göstərirdi ki, valideynlər aydın təsəvvür etməlidirlər ki, kimi böyüdürlər, onlarda hansı keyfiyyətləri tərbiyə etməlidirlər. Uşağı düzgün tərbiyə etmək üçün onu yaxşı tanımalı, başa düşməlidir, bunun üçün isə pedaqoji biliyə yiyələnmək zəruridir. Pedaqoji bilik davranışının düzgün təhlilinə, onun tərbiyəsi üçün səmərəli yolların seçilməsində valideynlərə böyük kömək edir.

Uşaqların tərbiyəsində ailənin təşkili mühüm rol oynayır. Ailə həyatı elə təşkil olunmalıdır ki, burada maddi tələbatlar ödənilməli və inkişaf etməli, həm də mənəvi tələbatlar ödənilməli və inkişaf etməlidir.

Valideyn uşaq qarşısında nüfuza malik olmalıdır, bu tərbiyə işinin əsasını təşkil edir. Valideynlərin uşaqlarla düzgün münasibətinin əsasında uşaqlara olan zəruri və təbii məhəbbət hissi durur. Məhəbbəti tələbkarlıq və uşaq şəxsiyyətinə hörmətlə bağlamaq lazımdır. Məktəbəqədər yaş dövründə uşağa sonsuz məhəbbət onun bütün “istəyirəm”, “al”, “ver” və s. bu tələblərini və arzularını hədsiz ödəmək - bunlar uşağın tərbiyəsinə mane olur, onu ərköyün, eqoist edir, iradəsini zəifl ədir. Belə məhəbbət uşağı məktəbə hazırlanmasına maneəçilik törədir. Belə məhəbbət uşağa qarşı “kor məhəbbət” adlanır.

Uşaq bağçası və ailə vasitəsi ilə uşağa özünün tərbiyəvi təsirini gücləndirmək və möhkəmləndirmək üçün birlikdə, vahidlik prinsipinə əsaslanmaqla iş aparılmalıdır.

**Uşaqların ailədə məktəb təliminə hazırlanmasının mahiyyəti.** Ölkəmizdə elmi – texniki tərəqqinin, mədəni inkişafın indiki mərhələsində uşaqların məktəb təliminə hazırlıqlı olması ciddi məsələdir.

Təcrübə göstərir ki, məktəbə, təlim prosesinə tam hazır gələn uşaqlar yeni şəraitə tezliklə alışır, proqram materiallarını çətinlik çəkmədən qavrayır, məktəbin ictimai həyatında fəal iştirak edir, şən, gümrah və iradəli olurlar. Buna görə də müasir şəraitdə altı yaşlı uşaqların məktəbə hazırlanması pedaqoji ictimaiyyətin diqqətini cəlb edən ən mühüm problemlərdən biridir.

Uşağın məktəbə hazırlanması anlayışı bəzən müxtəlif cür başa düşülür. Məktəbəqədər yaşlı uşaqların məktəb təliminə hazırlanması son dərəcə vacib olan bir sıra keyfiyyətlərdə təzahür edir. Uşağın məktəbə hazırlanmasına lazımınca diqqət yetirməyən ailələrdə uşaq bağçada tədricən məktəbə hazırlanır.

Uşağın yoldaşları ilə oyunları, yaşlılarla söhbəti, ev işlərində anasına köməyi, kiçik qardaş və bacısına qayğısı olan məktəbliyə xas olan bəzi xarakter əlamətləri, faydalı vərdişləri tərbiyə edir. Təbiətlə, insanların əməyi ilə bədii ədəbiyyat və incəsənətlə tanışlıq uşağa müəyyən biliklər verməklə yanaşı, onun ümumi inkişafını təmin edir. Deməli, ətraf aləmin təsiri, ailə şəraiti, ictimai həyat uşağı müəyyən dərəcədə məktəbə hazırlayır. Lakin bu hazırlığa düşünülmüş istiqamət vermək, onu mütəşəkkil prosesə çevirmək son dərəcə faydalıdır.

Uşağın ailədə məktəbə hazırlanması hələ də istənilən səviyyədə getmir. Ailənin maddi səviyyəsindən valideynin ixtisasından, uşağın tərbiyəsinə münasibətindən, onun üçün yaradılmış şəraitdən asılı olaraq uşaqlar məktəbə müxtəlif səviyyədə hazırlanırlar.

Uşağın məktəbə hazırlanmasında mühüm şərtlərindən bri də onun ümumi əqli inkişafının təmin edilməsidir. Uşaqda hər şeyi bilmək həvəsi oyatmaq, ona ətraf aləmin müxtəlif sahələri haqqında biliklər vermək son dərəcə vacibdir. Psixoloji tədqiqatlara görə altı yaşlı normal uşaq gündə minə qədər sual verir. Valideynlərin əksəriyyəti, həmçinin tərbiyəçilər bu sualların çox cüzi

hisslərinə cavab verir. Adətən, valideyn və tərbiyəçilər uşağın suallarını cavabsız qoyurlar, ona əhəmiyyət vermirlər. Belə valideynlər yaddan çıxarırlar ki, onların bu cür hərəkətləri uşaqların ümumi inkişafında çatışmamazlıqlarla nəticələnə bilər.

Uşağın heç bir sualı cavabsız qalmamalı, valideyn, tərbiyəçi "böyüyəndə öyrənərsən" kimi cavabla kifayətlənməməli, hər hansı suala uşağın başa düşəcəyi şəkildə cavab verməlidir.

Uşağın məktəbə hazırlanması mürəkkəb prosesdir. Uşaq bağçasından məktəbə keçmək uşağın şəxsiyyətinə köklü şəkildə təsir göstərir. Onun qarşısında yeni – yeni vəzifələr qoyur, ətrafdakılar arasında mövqeyini dəyişdirir

"Məktəbəhazırlıq" anlayışına şəxsiyyət mövqeyindən baxılmalıdır. Uşağın hazırlığı /oxumağa həvəs/ : iradi, intellektual və həm də görmə hərəkəti kordinasiyasının /əlaqələndirmə/ inkişafı daha səmərəli gedir.

"Məktəbəhazırlıq" anlayışı dedikdə ilk növbədə motivasiya baxımından uşağın hazırlığı düşünülür.

Uşaqların əksəriyyətində məktəbə getmək həvəsi böyükdür. Valideynlər fikirləşirlər ki, uşağın motivasiya baxımından məktəbə hazırlığı var. Lakin bu həmişə belə olmur.

Altı yaşında uşaq üçün məktəb hər şeydən əvvəl böyük olmaq simvoludur. Uşağın inkişafı normal sağlam mühitdə gedirsə, onun valideynləri ilə münasibəti yaxşıdırsa və o, gələcəkdə onlara oxşamaq istəyirsə, o tez böyüməyi daha çox arzulayır. Məktəb isə onu bu məqsədə yaxınlaşdırır. "Mən artıq böyümüşəm, məktəbə gedirəm". Lakin başqa cür də olur. Bəzən böyüklərin günahı üzündən uşaq fikirləşir ki, kiçik olmaq həm asan, həm də yaxşıdır. Balacaları danlamırlar, onlara hər şey etmək olar, böyüklərə isə heç nə etməyə icazə vermirlər və hər şey üçün danlayırlar. Belə olarsa, uşaq heç də böyümək istəməz və məktəb də özünün yeni tələbləri ilə onun üçün arzu olunmazdır.

Məktəbəqədər yaşlı uşağın məktəbə getmək istəyi, dostlarının da məktəbə getməsi, həm də ona məktəbli ləvazimatı alınması ilə də əlaqədar olur. Bundan əlavə uşaq üçün olan hər bir

təzə şey maraqlı və qeyri – adidir. Uşaq üçün belə münasibət təbii və zəruridir.

Lakin məktəbə getmək istəyini oxumaq istəyindən fərqləndirmək vacibdir. Bu istəklər arasında fərq böyükdür. Oxumaq istəyi çətinliklə formalaşır. Əlbəttə, burada da valideynlərin sözü və münasibətləri böyük rol oynayır. Məktəbəqədər dövrdə bu istəyin inkişafında əsas rol oyuna aiddir. Uşaqların məktəb təliminə hazırlanmasında məktəbə getmək arzusunun sabitləşməsində oyunlar da mühüm rol oynayır.

Uşaq oyun prosesində insani münasibətlərin vacibliyini dərk edir, özünü müxtəlif rollarda və situasiyalarda yoxlayır. Məhz oyun zamanı uşaqlar bilik və bacarıqlarının çatışmamazlığı ilə üzləşirlər. Bilmədiklərini məktəbdə öyrənəcəyi əqidəsinə yiyələnir. Valideynlər söhbətlərində məktəbli olmağın üstünlüklərini uşaqlara dönə - dönə çatdırır.

Uşağı məktəb təliminə müvəffəqiyyətlə öyrəşdirmək üçün onun xarakterində elə keyfiyyətlər formalaşdırmaq lazımdır ki, onlar uşağın müəllimlə ünsiyyətdə olmasına maraq və istək tərbiyə etsin. Belə keyfiyyətlərə həmçinin yaşıdları ilə ünsiyyət yaratmaq, lazım olanda böyüklərin tələbinə tabe olmaq bacarığının formalaşması daxildir.

"Məktəbəhazırlıq" anlayışının ikinci komponenti "iradi hazırlıq"dır ki, uşağın məktəbdə müvəffəqiyyətlə təhsil alması üçün vacibdir.

Əsas məsələ uşağın valideynin sözünə baxmaq bacarığı yox, valideyn sözünü eşitmək, yəni dərk etmək bacarığıdır. Bəzi valideynlər hesab edirlər ki, uşaq ilk növbədə sözə baxan və intizamlı olmalıdır. Əlbəttə, bunlar çox faydalı keyfiyyətlərdir. Lakin buna nail olmağın yolları müxtəlifdir. Uşaqla sərt rəftar, qışqırmaqla məqsədə nail olmaq onda qorxu hissi əmələ gətirir.

Valideyn tərəfindən uşağa göstərilən təsir və həddən artıq tələbkarlıq ilk baxışdan effektli tərbiyə vasitəsi təsiri göstərsə də, əslində çox zərərlidir. Valideynlər bununla uşaqların fəallığının qarşısını alır, onu özgə iradəsinin avtomatik icrasına çevirirlər.

Halbuki uşaq məktəbdə müvəffəq təhsili almaq üçün müstəqil olmalıdır.

Məktəbəqədər yaş dövrünün sonuna yaxın uşaq artıq öz qarşısına sadə də olsa məqsəd qoya bilir. Onun həyata keçməsi üçün müəyyən qüvvə sərf edir, öz hərəkətlərinə qiymət verməyi bacarır.

Uşağın məktəbə normal hazırlanması üçün ailədə lazımi şəraitin yaradılması zəruridir. Uşaqlar üçün xüsusi yer ayrılmalı, otağın normal işıqlandırılmasına, temperaturun yuxarı və ya aşağı olmasına fikir verilməlidir. Mebelin ölçüsü uşağın boyuna uyğun olmalıdır.

Çalışmaq lazımdır ki, uşaq məşğul olduğu hər bir işdən həzz alsın. Uşağa bəzən xoşu gəlməyən, hövsələlik tələb edən işi görməyi də öyrətmək lazımdır.

Ananın ailədə təbii təsir qüvvəsi bütün bəşər mütəfəkkirləri tərəfindən etiraf olunmuşdur. Məşhur İsveç pedaqoqu Pestalotsi yazırdı ki, ana adi insan deyil, dünyaya insan yaradıb gətirən, ilahi varlıqdır. Uşağın fiziki, əqli və əxlaqi tərbiyəsinin ilk bünövrə memarıdır.

Məhəmməd Peyğəmbərin qənaətinə görə ata ailədə allah kimi müqəddəsdir: Ata öz xasiyyəti, qonşular, cammat arasındakı şərəfli mövqeyi ilə mötəbər nüminə siması olmalıdır.

Uşağın şəxsiyyətinin formalaşması, ona ailədə obyektiv tələblərin böyüklər tərəfindən tərbiyənin məqsədəyönümlü təsir sahəsi kimi baş verir. Böyüklərin və ilk növbədə ata – ananın fəaliyyəti bir çox cəhətdən məqsədəuyğun şəraitin yaranmasından asılıdır, hansı ki, uşağın şəxsiyyətinin formalaşmasında və inkişafında həlledici rol oynayır. Tərbiyə böyüklərin fəaliyyətinin məqsədyönlü şərtlərdən: ailə münasibətlərindən, valideynlərin əxlaqi və mənəvi mədəniyyətindən, onların ictimai ünsiyyətinin təcrübəsindən, ailə ənənələrindən asılıdır. Onların arasında valideynlərin pedaqoji mədəniyyəti əsas yer tutur.

Valideynin pedaqoji mədəniyyətinin səviyyəsinin göstəricisini onun dərketmə dərəcəsi və tərbiyənin bütövlükdə realizasiyası təşkil edir.

Bu planda valideynlərin əsas məqsədini aşağıdakı kimi qruplaşdırmaq olar:

a) uşağın müvafiq təhsil almasına nail olmaq;

b) müəyyən edilmiş əxlaqi keyfiyyətləri uşaqlarda formalaşdırmaq;

c) uşağı gələcək əmək və peşə fəaliyyətinə hazırlamaq;

d) gələcəkdə ailədə üzərinə düşən işləri yerinə yetirilməyə hazırlaşdırmaq.

Ailə tərbiyəsinin bu əsas mövqeyi təkcə uşağın böyük həyata hazırlığının tələbkarlığından irəli gəlir, eləcə də ailənin mənəvi zənginliyinə şərait yaradır.

Valideynlərin tərbiyəedici vəzifələri içərisində əsas yeri uşağın təhsili bünövrəsinin düzgün və möhkəm təməlini yaratmaqdır. Bu isə məktəbəqədər dövrdən başlanır.

Valideyn məktəbəqədər dövrdən elə tərbiyə edilməlidir ki, təhsildə ümidi boşa çıxmasın. Belə olarsa, onun özünü təsdiqetmə mümkünlüyündən məhrum olur. Uşağın tərbiyəsi ilə məşğul olmamaq valideynlərin çox vaxt uşağa əxlaqi və mənəvi mədəniyyəti effektli çatdıra bilməmələri ilə nəticələnir. Pedaqoji mədəniyyətin aşağı olması, valideynlərə tərbiyəvi potensialdan istifadə etməyə imkan vermir.

Kiçik yaşlarından başlanan düzgün tərbiyə, möhkəm təməl uşağın gələcək inkişafı üçün kompasa çevrilir. Uşaqlara erkən yaşlarından vətənə məhəbbət, yaşlılara hörmət, yoldaşlıq və kollektivçilik, davranış mədəniyyəti, gözəllik hisslərinin aşılanması, onlarda mütəşəkkillik və intizamlılığın inkişaf etdirilməsi vacibdir. Göstərilən amilləri müntəzəm nəzərə alan ailələrdə tərbiyə həmişə uğurlu olur.

# XVII FƏSİL

## UŞAQ BAĞÇASI VƏ MƏKTƏB

**Uşaq bağçası ilə məktəb işi arasında ardıcıllıq əhəmiyyəti.** Uşaq bağçası ilə məktəbin işindəki ardıcıllığın həyata keçirilməsi bir tərəfdən uşaq bağçasında uşaqların məktəb təliminə sistematik hazırlanması, digər tərəfdən məktəbin öz konkret vəzifələrini həll etməsi üçün məzunlarının nailiyyətlərindən. onların bilik, bacarıq, vərdişlərindən faydalı adət və əhəmiyyətli emosiyalarından istifadə etmək deməkdir. Məktəb təliminə hazırlığın istiqamətləri aşağıdakılardan ibarətdir.

*Zehni hazırlıq* uşaq ətraf mühit haqqında başa düşdüyü sistemləşdirilmiş bir sıra təsəvvür və biliklərə; aydın, əlaqəli və qrammatik cəhətdən düzgün nitqə yiyələnir; o, müqayisə, analiz və sintez etməyi, ümumiləşdirməyi, başa düşə bildiyi həyat faktları və hadisələr dairəsində ən sadə məntiqi mülahizələr yürütməyi bacarır; uşaq hər şeylə maraqlanır, hər şeyi öyrənməyə səy göstərir; öz hərəkətini müəyyən dərəcədə planlaşdırmağa və nəticənin necə olacağını bilməyə çalışır, onun şüuru məktəbdə rastlaşacağı şeylərə və hadisələri dərk etməyə yönəlir.

K.D.Uşinski nitqin keyfiyyətinə diqqət vermiş və göstərmişdir ki, əgər uşağın nitqi qırıq – qırıq və əlaqəsizdirsə, tələffüzü pisdirsə, onun məktəbə gəlməsi hələ məsləhət deyildir. Onun fikrinə görə uşaq məktəbə daxil olana yaxın, fikrini tam cümlələrlə ifadə etməyi bacarmalıdır.

Psixoloqlar (R.L.Zenqard – Punko, A.R.Luriya, A.A.Lyublinskaya, N.Q.Morozova və başqaları) öz tədqiqatlarında biliklərin uşaq tərəfindən mənimsənilməsində nitqin böyük əhəmiyyətini və onun psixi proseslərin inkişafına təsirini müəyyən etmişlər.

Məktəbəqədər yaşlı uşaqların uşaq bağçasında aldıqları biliklər məktəbdə tədris fənləri mənimsənilməsində böyük rol oynayır. Uşaq bağçalarından gəlmiş uşaqların zehni fəallığı məktəbdə müvəffəqiyyətli təlim üçün zəruri ilkin şərtdir.

Uşaq məktəbdə təhsilə başladığı ilk gündən müəllimi və öz yoldaşlarını dinləməyə, müəllimin sözünə uyğun hərəkət etməyə, müəllimin bütün şagirdlərə müraciətini özünə aid etməyi, öz diqqətini bir əşya üzərində cəmləşdirməyə alışır, məcburi tələblərə əməl etməyi öyrənir, yadda saxlamağı, təkrar etməyi, başqa şagirdin cavabını davam etməyi, sinif və ev tapşırıqlarını müstəqil yerinə yetirməyi; nəinki ancaq əyləncəli, həm də zəruri olanlar üzərində işləməyi bacarır.

Uşağın məktəbə ümumi hazırlığının göstəricilərindən biri onun *emosional – etik* hazırlığıdır. Müəllim uşağın şüuruna təsir göstərərkən onun hisslərinə də təsir edir.

Yüksək hisslər – uşaqlarda uşaq bağçasında xeyli inkişaf edən əxlaqi, zehni və estetik hisslər uşaqların məktəbdə emosional həyatının daha da zənginləşməsinə əsas verir. Məktəbəqədər yaş dövründə uşaqlar müəyyən dərəcədə öz hisslərini idarə etməyi, nəinki onları göstərməyi, hətta saxlamağı da bacarırlar. Uşaqlarda məktəbə keçidlə əlaqədar olaraq, tərbiyənin təsiri nəticəsində yeni hisslər, məktəbə, təlimə, müəllimə müsbət münasibət, dərs oxumaq həvəsi formalaşmış olur.

***Fiziki hazırlığ*** - məktəbdə uşağın bütün həyat tərzinin yenidən qurulması, rejimin dəyişməsi ciddi tədris əməyi, dərs müddətinin uzunluğu, ev tapşırıqlarının yerinə yetirilməsi ondan xeyli fiziki gərginliyi, birinci növbədə baş beyin qabığının gərginliyini tələb edir. Ona görə də fiziki hazırlıq uşağın məktəb təliminə başlamaq ərəfəsində mühüm şərtdir. Fiziki hazırlıq səhhətin yaxşı vəziyyətdə olması, görmə, eşitmə orqanının düzgün fəaliyyət göstərməsi, əlverişli olmayan şəraitə qarşı dözümlülük və müqavimət, mədəni – gigiyenik vərdişlərin müəyyən sabitliyi deməkdir.

***Uşaqların məktəbə hazırlanması, kiçik qrupdan başlayaraq, uşaq bağçasında keçirilən bütün təlim – tərbiyə işinin nəticəsidir.*** Uşaq bağçasının məktəbəhazırlıq qrupuna məktəbə keçid pilləsi kimi baxıla bilər: məktəb bu qrupun uşaqları üçün ən yaxın gələcəkdir. Böyük məktəbəqədər yaşlı uşaqlar elə bir inkişaf səviyyəsinə çatırlar ki, bu onların I sinifdə - tədris - tərbiyə

prosesinə hazır olduqlarını göstərir. Uşağın bütün məktəb həyatı ciddi vaxt çərçivəsi daxilində keçir. Vaxtı qiymətləndirmək və qorumaq vərdişi uşaqlarda çox zəif inkişaf edir. Bu vərdişin formalaşdırılması əsasən məktəbin vəzifəsidir, lakin onun təməli uşaq bağçasında qoyulmalıdır. Uşaqlar tərəfindən görülmüş işin nəinki keyfiyyətinə, həm də bu iş üçün sərf olunan vaxta (hələlik "daha az" və ya "daha çox" terminlərində), lazımi sürətlə diqqət yetirən tərbiyəçilər uşaqlara və onların gələcək müəllimlərinə diqqətlə və qayğı ilə yanaşma bacarığı tərbiyə olunur.

Məktəbəqədər yaşın sonuna yaxın uşaqlar sanki böyüyür, uşaq bağçası çərçivəsindən kənara çıxır, psixoloqların dediyi kimi həyatda öz imkanlarına uyğun olaraq yer tutmağa çalışırlar. Uşağın gələcək inkişafı, artıq məktəbdən və məktəb müəllimindən, xüsusilə uşaqların əvvəlki pillədə qazandıqları keyfiyyətlərin məktəbdə necə inkişaf etdiriləcəyindən asılıdır.

Uşaq bağçası ilə məktəb arasındakı ardıcıllığın böyük nəzəri və əməli əhəmiyyəti vardır. Ardıcıllığın həyata keçməsi məktəbin I sinif müəllimindən altı yaşlı uşaqların yaş xüsusiyyətləri və öz şagirdlərinin fərdi xüsusiyyətlərini; uşaq bağçasının xüsusiyyətlərini bilməyi, uşaqların əvvəlki pillədə əldə etdikləri konkret nailiyyəətlərlə tanış olmağı; uşaq bağçası və məktəb müəllimləri arasında əlaqə olmasını tələb edir. Uşaq bağçası və məktəbdə tərbiyəçinin məqsəd və vəzifələri birdir; onlar hər bir tərbiyə və təhsil mərhələlərində uşaqların yaş imkanlarına uyğun olaraq konkretləşdirilir.

Vahid məqsəd və vəzifələr tərbiyəvi təsir sistemində vəhdət təşkil edir. Daha çox uzlaşma yanaşı pillələrdə, belə ki, uşaq bağçasının məktəbəhazırlıq qrupu ilə məktəbin I sinfi arasında mümkündür.

Uşaqların əvvəlki pillədə düzgün hazırlığı və məktəbin bu hazırlığı nəzərə alması nəinki I sinifdə, habelə sonrakı siniflərdə də təlim – tərbiyə işinin yüksəldilməsinin rəhnidir. Yeni biliklər, bacarıqlar və vərdişlərə, keçmişdə qazanmışlara nə qədər çox istinad edilirsə, bir o qədər asanlıqla mənimsənilir. Məktəbdə təlimin müvəffəqiyyəti müəllimin yeni ilə keçmiş əlaqələndir-

məsindən artıq uşağın şüurunda yaradılmış əlaqə sistemlərinin fəallaşdırmasından asılıdır.

Müəllim tərbiyə - təhsil işinin yeni məzmunu ilə əlaqədar olaraq uşaqların keçmiş təcrübələrinə müraciət edirsə, öyrənilən fənlərə maraq xeyli artır. Əgər müəllim uşaqların malik olduqları bilik, fikir və hissləri nəzərə almırsa, uşaqlar əvvəlki inkişaf mərhələsində mənimsədiklərinin çoxunu itirirlər; bəzən əmələ gəlmiş çox mühüm əsəb əlaqələri məktəbdə möhkəmlənmədiyindən sönür. Məktəbəqədər yaş – uşaqlarda müxtəlif mədəni – davranış, (mədəni – gigiyenik, nəzakət vərdişləri, əşyalara səliqəli münasibət və s.) və əmək vərdişlərinin tərbiyəsi üçün əlverişli dövrdür. Uşaq bağçasında, ailədə əldə edilən bilik, bacarıq və vərdişlər, möhkəmləndirilərsə və uşaqlara verilən tələblər mürəkkəbləşdirilərsə uşağın gələcək həyatında da təsirli olacaq. Bu isə artıq məktəbin vəzifəsidir.

Uşağın uşaq bağçasından məktəbə keçməsi – onun həyatında mühüm və məsul bir andır. Rejim əsaslı surətdə dəyişir; təlim mühüm fəaliyyətin əsas növü olur; məktəbəqədər dövrdə nisbətən uşağn zehninə və nitqinə, onun müstəqilliyinə və əmək istiqamətinə daha yüksək tələb verir; xeyli iradi səy göstərməyi tələb edən vəzifələr meydana çıxır yaşlılarla qarşılıqlı münasibətlər dəyişir. Bu münasibətlər xeyli dərəcədə uşağın öz yeni vəzifəsini necə yerinə yetirməsi ilə müəyyənləşdirməyə başlayır. Uşaqların vəziyyəti dəyişir, uşaq bağçasında ən böyükdürlər, ümumi məktəb kollektivində isə onlar ən kiçikdirlər. Xarici şəraitdə də təzad böyükdür: uşaq bağçasının qrup otağı və məktəbin sinf otağı fərqlidir.

Məktəbəqədər yaşlı uşaqların bir hissəsi ailədə tərbiyə olunur. Lakin məktəbəqədər ictimai tərbiyə ailədə olan tərbiyəyə daha böyük təsir göstərir. Ailəni yalnız uşaqların sağlamlığı məsələləri deyil, həm də əmək vərdişləri və mədəni davranışı, oyun, məktəbəhazırlığa yiyələndirilməsi məsələləri maraqlandırır. Ailə uşaqlarla iş apararkən uşaq kitablarından, oyuncaqlardan, vəsaitlərdən, uşaq radio, televizor verilişlərindən daha çox istifadə edir.

Pedaqoji təbliğatla əlaqədar uşaq bağçasının nailiyyətləri ailəyə daxil olur və ailədə uşağın tərbiyəsi səviyyəsini yüksəldir.

Uşaq bağçası, ailə və məktəbin birgə səyi məktəbəqədər və məktəb tərbiyəsi arasındakı ardıcıllığın həyata keçirilməsi imkanını yaradır.

Məktəbin I sinfində keçirilən bütün fənlər üzrə bilik və vərdişlərin ilk rüşeymləri uşaqlara uşaq bağçasında verilir. Bu, ana dili, hesab, əmək, gimnastika, rəsm və nəğmə tədrisində ardıcıllığın həyata keçirilməsi üçün ən mühüm şərtlərdən biridir. Məktəb proqramındakı biliklər, elmi məntiqə müəyyən uyğunluqla ayrı – ayrı fənlər şəklində verilmişdir (ana dili və hesab üzrə proqramlar). Proqramın məzmunu vaxta görə düzgün bölünmüşdür.

Uşaq bağçası işinin məzmunu istər tərbiyə və istərsə də təhsil işinin geniş şərh edildiyi proqramda ifadə olunmuşdur. Doqquz illik məktəbin yeni proqramları məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi haqqında qanunauyğun olaraq işlənib hazırlanmışdır. Bu proqramda ayrı – ayrı tədris fənləri və əmək təlimi üzrə proqram məzmunu qısa və dəqiq ifadə olunmuşdur. Şagirdlərin tərbiyəsi də təlimlə ayrılmaz surətdə əlaqədar olaraq nəzərdə tutulmuşdur.

Uşaq bağçası əsasən öz işini uşaqların əhatə olunduqları mühitin, əşya və hadisələri haqqındakı bilavasitə təsəvvürlər üzərində qurulur. Xüsusi təşkil olunmuş müşahidələrdən əlavə, uşaqların görüş dairəsinin genişləndirilməsində gəzintilərin böyük əhəmiyyəti vardır. Nitq inkişafı ilə üzvü vəhdətdə uşaqlarda böyük hissi təcrübə toplanır. Bunun uşaqların zehni inkişafı və məktəbdə tədris fənlərinin mənimsənilməsi üçün mühüm əhəmiyyəti vardır.

Uşaq bağçası proqramında uşaqları əhatə olunduqları mühitlə - təbiət, əmək və ictimai həyat hadisələri ilə tanış etmək nəzərdə tutulur.

Məktəbin tədris proqramları dərslərdə şagirdlərin mühitlə tanışlığını təmin edir. Bundan başqa dərsdənkənar istiqamətdə

görüləcək işin məzmunu məktəbin tərbiyə işinin nümunəvi proqramında şərh edilmişdir.

Məktəbin qabaqcıl təcrübəsinin əks olunduğu yeni proqramlar uşaq bağçası ilə məktəb arasında ardıcıllıq yaradılması üçün böyük imkanlar verir.

Üsullarda fərqlər təlim – tərbiyənin məzmunu və uşaqların yaş xüsusiyyətləri ilə müəyyən edilir.

Uşaq bağçası və məktəbəqədər mühitlə əlaqə ekskursiyalar zamanı müşahidə və ekskursiyalardan sonra məşğələlərdə, izahlı qiraət və ya əşya dərslərində aparılan söhbətlər yolu ilə keçirilir. Müəyyən konkret məqsədlə keçirilən ekskursiya və gəzintilər şagirdlərin ideya istiqaməti tərbiyəsi üçün, onların dərketmə qabiliyyətinin dərinləşməsi üçün müstəsna əhəmiyyətə malikdir.

Uşağın ətrafdakı varlığı dərk etməsində, onun mümkün olan bilikləri mənimsəməsində mütəhərrik fəaliyyət böyük rol oynayır. Uşaq bağçasında buna ( oyunlar, rəsm, yapma, qurma) böyük əhəmiyyət verilir.

Uşaqların mütəhərrik fəaliyyəti məktəbdə, xüsusən onlar yazılı nitqi mənimsədikləri zaman yeni məzmun kəsb edir.

Məktəbdə tədris işinin əsas forması dərsdir. İntizam, müəyyən davranış qaydalarına uşaqlar tərəfindən riayət edilməsi – dərslərdə təlimin müvəffəqiyyəti üçün zəruri şərtdir. Uşaqların məktəbə hazırlığı onların təlim müvəffəqiyyətinə səbəb olur ki, bu da əməyin nəticəsidir.

Uşaq bağçaları məzmunları özünü məktəbdə intizamlı aparır. Həmin uşaqlar məktəbin şagirdlər qarşısında qoyduğu tələblərə kifayət qədər hazır olurlar. Bu uşaqlar təmkinli, sabit diqqəti fikirlərini bir yerə toplaya bilirlər və intensiv hərəkət edirlər.

Bu hadisələrin səbəbi nədir?

Uşaq bağçasında təlim məşğələlərinin böyük nöqsanlarından biri odur ki, bəzən başlıca olaraq fəal uşaqlar arasında iş aparır, halbuki, onlarla yanaşı "dinməzlər" də vardır.

Məktəbə yenicə gələn uşaqlar uzun müddət onların qayğısına qalan müəllimlərin yanaşma tərzinə uyğunlaşmaqda çətinlik çəkirlər.

**Uşaqların məktəb təliminə hazırlanmasının üsul və vasitələri.** Məktəb təliminə hazırlıqda uşaqların ətraf aləmlə tanış edilməsinin böyük əhəmiyyəti vardır.

Ətraf aləmlə tanışlıq uşağın dünyagörüşünü genişləndirir, lüğət fondunu zənginləşdirir, əhatə olunduğu insanlarla ünsiyyət bağlamaq qabiliyyətini inkişaf etdirir. Məktəb təliminə hazırlıq hər bir uşağın müəyyən qədər informasiya toplamasını tələb edir. Uşağın məktəbə hazır olub – olmamasını müəyyənləşdirməkdə tərbiyəçi və valideynlərin işi arasında əlaqə vacibdir. Adətən, bəzi valideynlər və tərbiyəçilər belə hesab edirlər ki, uşaq nəğmə oxumağı və rəqs etməyi bacarırsa demək, o, məktəb təliminə hazırdır. Şübhəsiz, bu fikirlər qismən həqiqətə uyğundur, lakin məktəbə hazırlıq anlayışını yalnız bununla məhdudlaşdırmaq yolverilməzdir. Uşağın məktəbə hazırlanmasının, hazırlığın parametrləri üzərində düşünmək lazımdır. Şer söyləmək, gil işi, aplikasiya üzrə fəaliyyət göstərmək yalnız inkişafın bir sahəsi ilə, məktəbə əqli hazırlıqla əlaqədardır. Fiziki hazırlıq psixoloji hazırlıq üçün etibarlı zəmindir. Bununla belə fiziki cəhətdən möhkəmlik göstəricisi də həmişə uşağın məktəbə hazır olduğunu təsdiq etmir.

Uşağın məktəbəqədər yaşlarından məktəbə hazırlanmasını onda fiziki, əqli, əxlaqi – iradi keyfiyyətlərin, yalnız 1-ci sinifdə deyil, həm də sonrakı pillələrdə onun müvəffəqiyyətlə oxumasını təmin edəcək psixoloji mexanizmləri kompleksi kimi başa düşmək lazımdır. Uşaq fiziki cəhətdən ahəngdar inkişaf etmişsə, səsləri düzgün tələffüz edə, onları fərqləndirə bilirsə, dinləməyi bacarırsa, lüğət ehtiyatı zəgindirsə, fikrini aydın, obrazlı, rabitəli ifadə edə bilirsə, ətraf aləm haqqında, təbiət və cəmiyyətdə baş verən hadisələr haqqında sadə məlumatı varsa, onlara bələdləşir, onlardan öz fəaliyyətində istifadə etməyə cəhd göstəririsə, 20-yə qədər saymağı, sadə riyazi əməliyyat aparmağı, zamana, məkana bələdləşməyi, sadə rəsmlər çəkməyi, nəğmə oxumağı bacarırsa, öz fəaliyyətini planlaşdıra və ona nəzarət edə bilirsə, özünəxidmət, özünənəzarət, özünüqiymətləndirmə, özünü tərbiyə vərdişinə yiyələnmişsə, fəaliyyətində müstəqillik, məsuliyyətlilik, əməksevərlik, mütəşəkkillik özünü göstəririsə, başqalarından kömək

almadan müəyyən tapşırığı təmkinlə, səliqəli, dəqiq, sərrast yerinə yetirirsə, məntiqi əməliyyat aparmağı bacarırsa, hərəkətlərində normal ünsiyyət, kollektivçilik, humanizm, vətənə məhəbbət tərbiyəsi, qavrayışı, hafizəsi, təfəkkürü formalaşmışsa, oxumağa, hər şeyi öyrənməyə həvəs oyanmışsa, deməli, o, məktəbə hazırdır.

Məktəbəqədər dövrdə ailədə və uşaq bağçalarında optimal hərəki fəaliyyət və beyin fəallığı üçün əlverişli şərait təmin edilməlidir. Bu, uşağın məktəbə hazırlanmasında mühüm rol oynayır. Uşaqların məktəbəqədərki dövrdə psixi sağlamlığını qorumaq və möhkəmləndirmək mühüm psixo – pedaqoji problemdir.

Məktəbəqədər yaş dövrü qısa amma çox vacib dövrdür. Şəxsiyyətin formalaşması üçün çox mühüm şərtdir. Bu illər ərzində uşaq ətraf aləm haqqında ilk biliklərə yiyələnir, onda insanlara, əməyə, təbiətə münasibətlər formalaşmağa başlayır, düzgün davranış üçün adət və vərdişlər toplanır, xarakter tərbiyə olunur.

Oyun məktəb təliminə hazırlığın vasitəsidir. Oyun prosesində hissi və fiziki qüvvələr: uşağın diqqəti, yaddaşı, fikri, intizamlılığı, çəldliyi inkişaf edir. Oyun öz obrazlılığı ilə məktəbəqədər yaş dövründə ümumi təcrübəni mənimsəməyə yönəldilmiş fəaliyyətdir.

Oyunda uşaq şəxsiyyətinin bütün sahələri formalaşır. Onun psixikasında böyük dəyişikliklər gedir. Bunlar oyunun mühüm tərbiyəvi imkanlarını izah edir. Psixoloqlar onu məktəbəqədər yaşlı uşaqların aparıcı fəaliyyəti hesab edirlər.

Oyun – sərbəst fəaliyyətdir. Uşaqlar özləri yaradıcı oyun təşkil edirlər. Onları ümumi məqsəd birləşdirir, ümumi maraq və həyəcanlar keçirirlər. Bu zaman heç bir fəaliyyətdə belə ciddi qayda yoxdur, belə idarəedici davranış yoxdur. Uşaq oyunları uşaq həyatının və pedaqoji prosesin tələbinə uyğun təşkil edilməlidir.

Uşağın oyuna olan tələbatının səbəbi İ.M.Seçenov və İ.P.Pavlovun təlimi nöqteyi-nəzərindən aydın olur. İ.M.Seçenova görə insanın sinir-psixi fəaliyyətinin anadangəlmə və ən qiymətli xassəsi, ətrafdakını anlamaqda şüurlu səy göstərməsidir. İ.P.Pavlov bu xüsusiyyəti təxmini müşahidə refleksi adlandırır. İ.M.

Seçenov və İ.P.Pavlov sinir fəaliyyətinin ətraf aləmlə tanışlıq üçün mühüm olan digər keyfiyyətlərini, təqlidə olan səyi də göstərirlər.

Seçenov deyir ki, ətrafdakını anlamaq səyi uşaqda adətən onların yaşıdlara müraciət etdiyi suallarda, eləcə də onun oyunlarında istifadə olunur. Uşağın oyuna olan marağını, onun oyunu təqlid meylini təhrik edir ki, bu da Seçenovun fikrincə onun əqli və əxlaqi inkişafı üçün mühümdür. Eyni hərəkətlərin, sözlərin dəfələrlə təkrar edilməsi möhkəm əlaqələr yaradılmasına, fikirlərin, hisslərin, davranışların formalaşmasına kömək edir.

Uşaq bədii əsər nümunələrini dinləyərkən, yaxud əhatə olunduğu həyatdan seçdiyi sevimli qəhrəmanlarını təsvir edərkən əvvəlcə onun xarici cəhətlərini, sonra isə əxlaqi keyfiyyətlərini təqlid edir. O, özünü sevimli obrazla birləşdirir, onun hissləri ilə yaşayır, xeyirxah hisslərin, səylərin onun şüurunda tez-tez təkrar edilməsi isə ona gətirib çıxarır ki, bu hisslər uşağın özündə inkişaf etsin. Ona görə də oyunun məzmunu, ifa olunan rol şəxsiyyətin formalaşmasına böyük təsir göstərir.

Beləliklə, hər bir uşağa ətrafdakılarla tanış olmaq, yaşlıları təqlid etmək səyi məxsusdur. Bu səy öz əksini oyunda tapır. Uşaq orqanizminə məxsus olan hərəkət tələbi fəallıq, cəldlik, çeviklik tələb edir.

Məktəbəqədər yaşlı uşaqların inkişaf xüsusiyyətlərinin öyrənilməsi onların oyuna tələbatlarının təbii olduğunu göstərir. Uşaq oyunlarının məzmununa əsasən onların həyat və tərbiyə şəraiti ilə müəyyən edilir.

Oyunun əsas psixoloji xüsusiyyəti ondan ibarətdir ki, o, uşaq şəxsiyyətinin bütün cəhətlərinə təsir edir: Oyunda fikirlər fəal işləyir, emosiyalarla zəngindir, bu kimi fəaliyyətlərdə iradi səy tələb olunur. Əsl yaxşı oyunda həmişə uşaqların əqli və fiziki qüvvəsini səfərbər edən cəlbedici məqsəd olur: bu məqsədə müstəqil surətdə nail olma, qarşıya çıxan çətinlikləri aradan qaldırılması uşaq üçün oyunun başlıca əhəmiyyətini təşkil edir.

Uşaq bağçasının müxtəlif yaş qruplarında uşaqlar məşğələdə aparılan təmir işini tamamlamaq üçün məşğələdən kənar vaxtlarda da cəmiyyət və təbiətlə tanışlıq işi həyata keçirilir.

Oyun və əmək prosesləri, səhər və axşam fəaliyyətləri, gəzinti və digər kütləvi tədbirlər zamanı uşaqların ictimai həyatla, əşyalar və hadisələrlə tanış olmalarına üstünlük verilir. Məşğələlərdən kənar vaxtlarda uşaqlarla aparılan təlim-tərbiyə işində tərbiyəçi müşahidə üsullarından, şəxsi təcrübəsinə əsaslanaraq söhbətlərdən, müxtəlif əyani və texniki vasitələrdən, müşahidə və müsahibələrdən istifadə edir.

Oyun məktəbəqədər yaşlı uşaqların əsas fəaliyyət növü olmaqla, həm də əqli tərbiyə vasitəsidir. Düzgün təşkil edilmiş oyun böyüməkdə uşaqların psixi inkişafının formalaşması üçün şərait yaratmaqla bərabər, həm də onlarda əxlaqi sifətlər, yüksək mənəvi keyfiyyətlər tərbiyə edir. Məktəbəhazırlıq qrupunda uşaqlar digər fəaliyyət növlərindən oyuna daha çox üstünlük verirlər. Prof.Y.Talıbov yazırdı ki, oyunsuz uşaq həyatı yoxdur. Onun fikrincə oyun həyat mənbəyidir. Uşaqlar oyun prosesində ətraf aləmlə tanış olur. Oyun ictimai hadisələri ilə tanışlıq üçün güclü mənbədir. Oyun cəmiyyətin həyatı ilə bağlıdır.

Məktəbəhazırlıq qrupunda hərəkətli, süjetli – rollu, yaradıcı və didaktik oyunlara üstünlük verilir. Göstərilən oyunlardan istifadə uşaqların imkanlarına uyğun olan pedaqoji vəzifələri yerinə yetirməyə lazımi şərait yaradır. Didaktik oyunlar düşünmək, araşdırmaq, tapmaq bir sözlə fikri fəallıq keyfiyyəti aşılayır, ağlın itiliyini, çevikliyini şərtləndirir.

Hər bir didaktik oyun bir tərəfdən uşaqlara yeni təsəvvür, yeni bilik və vərdişlər, digər tərəfdən onların məşğələlərdə aldıqları bilik, bacarıq və şəxsi təcrübənin möhkəmlənməsinə, təsəvvürlərin genişlənməsinə kömək edir.

Müxtəlif yaş qruplarında imkan daxilində oyunlarda uşaqların müstəqilliyinə təsir göstərmədən müşahidələr aparılması təmin edilməlidir. Tərbiyəçilər çalışırlar ki, uşaqlar həmin anda özlərini maraqlandıran əşyalar üzərində sərbəst müşahidə aparmaq

imkanı tapsınlar . Onlar uşaqları məcbur etmədən ətraf aləm haqqında təsəvvürlərini genişləndirirlər. Uşaqlar gördükləri əşyalar və hadisələr arasında sadə əlaqələri və münasibətləri müəyyənləşdirməyi öyrənirlər. Tərbiyəçilər ilk növbədə uşaqların yaxın ətrafındakı əşyalarla tanış olmalarına onlar haqqında təsəvvürlərin möhkəmlənməsinə diqqət yetirirlər. "Sehirli kisə", "Əşya və forma", "Kuklanı geyindir", "Kəsmə şəkillər" kimi didaktik oyunlar ətrafdakı əşyalar, onların forması, rəngi, nədən hazırlanması və s. ilə tanış olmağa imkan verir. Belə oyunlar prosesində uşaqlar əşyaları əlamətlərinə görə qruplaşdırmağı , təsnif etməyi və nəticəyə gəlməyi öyrənirlər ki, bu da çox mühüm məntiqi əlamət olub, uşaqların lüğət ehtiyatının zənginləşməsinə qida verir.

"Mağaza", "Xəstəxana", "Kitabxana", "Uşaq bağçası" kimi oyunları keçirərkən uşaqların öz ad və soyadlarını, ev ünvanlarını, həmin obyektlərin ünvanlarını yadda saxlamaları üzrə iş gedir. Belə oyunlarda uşaqlara tapşırıqlar verilir. "Həkimdən yod al gətir", "Boşqabı aşpaza ver", "Dayəni telefona çağır", "Kitabı metodistə ver" və s. Bu zaman uşaqlar bağça həyatı, işçilərin əməyi ilə yaxından tanış olurlar.

Didaktik oyunlarda uşaqlara ətraf aləm haqqında məlumatı müəyyən sistemlə çatdırılır. Uşaqların məişətlə tanışlığı aşağıdakı ardıcıllıqla verilir:

Uşaqlar əvvəlcə əməyin müəyyən növü ilə tanış edilir (dəyirmançı, əkinçi, inşaatçı, toxucu və s.). Bu tanışlıq uşaqların qarşısında istənilən əmək növünün əməyinin əhəmiyyətini açır (məsələn, buğdadan çörəyədək, baramadan paltaradək) . Bir çox didaktik oyunlar uşaqların qarşısında qazanılmış biliklərdən fikri əməliyyatlarda müntəzəm istifadə etmək vəzifəsi qoyurlar.

# MÜNDƏRİCAT


**I FƏSİL. Məktəbəqədər pedaqogikanın ümumi məsələləri........................................ 4 – 14**
**I I FƏSİL. Məktəbəqədər yaşlı uşaqların inkişafı və tərbiyəsi.... ........................................ 15 - 25**
**III FƏSİL. Məktəbəqədər ictimai tərbiyənin inkişafı........................................ 26 – 32**
**IV FƏSİL. Məktəbəqədər müəssisələrdə təlim -tərbiyə proqramına tarixi nəzər ........................................ 33 – 47**
**V FƏSİL. Körpəlik dövründə uşaqların inkişafı və tərbiyəsi........................................48 – 145**
**VI FƏSİL. Məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin istiqamətləri.. ........................................146 – 149**
**VII FƏSİL. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi........................................150 – 192**
**VIII FƏSİL. Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsi........................................ 193 – 221**
**IX FƏSİL. Uşaq bağçasında təlim.............................. 222 – 282**
**X FƏSİL. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi............... ........................................283– 316**
**XI FƏSİL. Məktəbəqədər yaşlı uşaqların əmək tərbiyəsi........................................ .317 – 343**
**XII FƏSİL. Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsi........................................344 – 365**
**XIII FƏSİL.Uşaq bağçasında bayram və əyləncələr...366 – 368**
**XIV FƏSİL. Ekoloji tərbiyə........................................369 – 382**
**XV FƏSİL. Uşaq bağçasında oyunlar..........................383 – 404**
**XVI FƏSİL. Uşaq bağçası və ailə.............................. 405 – 420**
**XVII FƏSİL. Uşaq bağçası və məktəb. ........................421 - 431**

RAYA MURSAQULOVA,
NAZİMƏ RÜSTƏMOVA

# MƏKTƏBƏQƏDƏR PEDAQOGİKA

*(Dərslik)*

**Nəşriyyatın direktoru:** **Hüseyn Hacıyev**
**Texniki redaktor:** **Gülbəniz Məmmədova**
**Dizayn:** **Müşfiq Hacıyev**
**Cildçi:** **Azad Həmzəyev**
**Montajçı:** **Elmira İsmayılova**

---

*Çapa imzalanmış 06.06.2012-ci il*
*Kağız formatı 60x84 1/16, çap vərəq 27*
*Sifariş 126, sayı 200, qiyməti sərbəst*
*ADPU-nun mətbəəsi*
*Bakı, Ü.Hacıbəyov küçəsi, 34*
*Tel: 493-74-10*